AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI
M. FÜZULİ adına ƏLYAZMALAR İNSTİTUTU

FİLOLOGİYA MƏSƏLƏLƏRİ

№ 3

Toplu Azərbaycan Respublikası Prezidenti yanında Ali Attestasiya Komissiyası tərəfindən rəsmi qeydiyyata alınmışdır (Filologiya elmləri bölməsi, №13).
Azərbaycan Respublikası Ədliyyə Nazirliyi Mətbu nəşrlərin reyestrinə daxil edilmişdir. Reyestr №3222.

«Elm və təhsil»
Bakı – 2025

REDAKSİYA HEYƏTİ: akademik İsa Həbibbəyli, akademik Teymur Kərimli, akademik Nizami Cəfərov, akademik Rafael Hüseynov, akademik Möhsün Nağısoylu, AMEA-nın müxbir üzvü, filologiya elmləri doktoru, prof. Əbülfəz Quliyev, filologiya elmləri doktoru, prof. Nadir Məmmədli, filologiya elmləri doktoru, prof. Rüfət Rüstəmov, filologiya elmləri doktoru, prof. Fəxrəddin Veysəlli, filologiya elmləri doktoru, prof. Qəzənfər Kazımov, filologiya elmləri doktoru, prof. Əsgər Rəsulov, filologiya elmləri doktoru, prof. Məsud Mahmudov, prof.Dr.Uzok Jurokulov (Özbəkistan), filologiya elmləri doktoru, prof. Cəlil Nağıyev, filologiya elmləri doktoru, prof. İsmayıl Məmmədli, filologiya elmləri doktoru, prof. Həbib Zərbəliyev, filologiya elmləri doktoru, prof. İlham Tahirov, filologiya elmləri doktoru, prof. Tofiq Hacıyev, filologiya elmləri doktoru, prof. Mübariz Yusifov, filologiya elmləri doktoru, prof. Qəzənfər Paşayev, filologiya elmləri doktoru, prof. Kamilə Vəliyeva, filologiya elmləri doktoru Paşa Kərimov.

Redaktor: akademik Teymur Kərimli
Buraxılışa məsul: filologiya elmləri doktoru, professor Nadir Məmmədli

Filologiya məsələləri. Bakı, 2025, №3

ISSN 2224-9257

© ”Elm və təhsil” nəşriyyatı, 2025

www. filologiyameseleleri.com

Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu, *ISSN 2224-9257*
Filologiya məsələləri № 3, 2025
Səh. ————————

DİLÇİLİK

HƏQİQƏT MEHDİYEVA
Azərbaycan Tibb Universiteti,
Bakı şəhəri, Mərdanov qardaşları 58
hmehtiyeva @internet.ru

ALMAN DILI QRAMMATIKASININ TƏDRISINDƏ MÜXTƏLIF METODLARDAN ISTIFADƏ.

XÜLASƏ

Dillərin intensiv şəkildə tez öyrənilməsi və tədrisinin müxtəlif üsul və yolları vardır. Bu sahədə dəyişikliklərin və yenilənmələrin olması labüddür. Alman metodiki ədəbiyyatı ilə tanışlıq və onun təhlili göstərir ki, son illərdə kommunikativ metod üstünlük təşkil edir

Təcrübə göstərir ki, dilin öyrənilməsində çalışma və tapşırıqların rolu əvəzsizdir.

Çalışmanın öz vəzifəsi, tapşırığın da öz vəzifəsi var. Amma bunlar arasında ciddi sədd də qoyulur. Çalışmada alınan cavab mütləqdir, tapşırıqda isə alınan düzgün nəticə sərbəstdir.

Müəllimin iştirakı çalışmalar üçün vacibdir. Tapşırıqlarda real problemlər qoyulur. Tələbə suallara kommunikativ baxımdan cavab verir. Çalışmalardan o qədər istifadə olunur ki, daha mürəkkəb tapşırıqlara keçmək mümkün olsun.

AÇAR SÖZLƏR: çalışma, tapşırıq, problem, dilin öyrədilməsi, dilin öyrənilməsi

Abstract

THERE ARE VARIOUS INTENSIVE LANGUAGE LEARNING AND TEACHING TECHNIQUES. RENEWAL AND CHANGES IN THIS SPHERE MAY FREQUENTLY OCCUR.

Investigation and analysis of the German methodical literature reveal the prevalence of the Communicative Teaching method recently. It is practically proved that tasks and assignments play a signification role in leaming the language. Both the task and the assignment have their own functions. And there s also a strict boundary between them. The assignment may have the absolute answer, while the correct result of the task may be free. The instructor is to participate in performing the assignment. The tasks require to solve the real situations. The leamier performs the task communicatively. Repeated solution of the assignments allows to perform the more difficult tasks.

Key words: Assignment, language, leaming, language teaching, communicative method

КРАТКИЙ ОБЗОР

Существуют различные методы и способы интенсивного и быстрого изучения и преподавания языков. Изменения и обновления в этой области неизбежны. Знакомство с немецкой методической литературой и ее анализ показывают, что в последние годы преобладает коммуникативный метод.

Опыт показывает, что роль занятий и заданий в изучении языка неоценима.

У занятий своя задача, а у заданий своя. Но, между ними существует серьезный барьер. Ответ, полученный в результате занятий, является обязательным, а правильный результат, полученный в задании — произвольным. .

Участие учителей является важным на занятиях. В задачах поставлены реальные проблемы. Студент отвечает на вопросы с коммуникативной точки зрения. Упражнения используются настолько, что можно переходить к более сложным задачам.

Ключевые слова:
Занятия, задачи, проблема, обучение языку, изучение языка

Ölkəmizdə xarici firma və təşkilatların fəaliyyəti, respublikamızın beynəlxalq təşkilatlarda təmsil olunması kimi faktorlar alman dilinə də xüsusi maraq və tələbat yaratmışdır. Dillərin öyrənilməsi və onlardan praktikada istifadəsi xarici dil müəllimlərinin üzərinə daha ciddi vəzifələr qoyur.

Buna görə də xarici dillərin tədrisində müxtəlif metodlardan istifadə olunur. Alman dilinin tədrisi metodikasına dair müasir alman metodiki ədəbiyyatı ilə tanışlıq və onun təhlili göstərir ki, son illərdə kommunikativ metod üstünlük təşkil edir. Bu metodla qısa bir müddətdə dilin praktik tətbiqi üçün, yəni həmin dildə danışmaq üçün yaxşı zəmin yaranır. Lakin orta və ali məktəblərimizdə istifadə olunan dərsliklərdə bu metodla iş demək olar ki, getmir. Çox vaxt qrammatik tərcümə metodlarından istifadə olunur ki, bu da adamların dilinin "gec açılması" daməkdir. Dilin tez öyrənilməsi və öyrədilməsi üçün müxtəlif vasitələr var ki, bunlar da tez-tez dəyişilə, köhnələ və təzələnə bilər. Təcrübə göstərir ki, dilin öyrənilməsində çalışma və tapşırıqların rolu əvəzsizdir. Çalışma və tapşırşqları düzgün müəyyən etmək, yeniləşdirmək, onlardan düzgün istifadə etmək əsas faktorlardan biridir. Çalışma və tapşırıqlar bütün metodlarda istifadə olunur ki, onların da öz tipologiyası – təsnifatı var. Alman metodik ədəbiyyatında çalışma və tapşırşqlar fərqləndirilir. Çalışmada məhdud dil materialı məşq edilir. Onlar hazırlaşdırıcı funksiya daşıyır. Tapşırıqlar isə müdaxilə etməyə və yaratmağa xidmət edir. Tapşırıqlarda real problemlər qoyulur. Tələbə suallara kommunikativ baxımdan cavab verir. Çalışmanın öz vəzifəsi, tapşırığın da öz vəzifəsi var. Amma bunlar arasında ciddi sədd də qoyulur. Günter

Düzelmanın fikrincə, tapşırıq çalışmanın xüsusi növüdür, o, çox açıq çalışma formasıdır. Piponun fikrincə isə çalışmada alınan cavab mütləqdir. Məzmunca, ifadəsi və qaydası (mən nə demək istəyirəm? Mən bunu necə deyirəm? Mən bu zaman hansı qaydaya riayət etməliyəm?) bunlar bir-biriilə sıx əlaqəlidir.

Tapşırıqda isə alınan düzgün nəticə sərbəstdir. Yəni bunlar bir neçə variantda ola bilər. Hər kəs aldığı biliklərə istinad edərək müxtəlif nəticə çıxara çıxara bilər.

Bu fərqi bilərək çalışma və tapşırıqlardan daha səmərəli istifadə etmək olar. Başlanğıc mərhələdə əsasən çalışmalardan və sadə tapşırıqlardan istifadə olunur. Müəllimin iştirakı çalışmalar üçün vacibdir. Çalışmalardan o qədər istifadə olunur ki, daha mürəkkəb tapşırıqlara keçmək mümkün olsun.

Çalışma və tapşırıqların çox sahələr üzrə tipalogiyası var. Onların hamısı haqqında kiçik bir məqalədə məlumat vermək qeyri mümkündür. Orta və ali məktəblərdə alman dilinin qrammatikasına daha ciddi fikir verdildiyindən, qısa da olsa bu sahadə istifadə oluna bilən çalışma və tapşırıqlardan bəzi nümunələr vermək istərdik.

Hamıda belə bir fikir oyanır ki, alman dilinin qrammatikası çətindir və bunu öyrənmək asan deyildir. Bu, həqiqətən belədir. Amma hər bir çətin problemin həlli yolu olduğu kimi, alman dili qrammatikasını da asan yollarla öyrənmək və öyrətmək olar. Alman dili qrammatikasını hətta cəngəlliklə müqayisə edənlər də var. Amma bu cəngəlliyin sıxlığını seyrəkləndirmək də olur. Alman dilinin qrammatikasını asan öyrənmək üçün aşağıdakı komponentləri nəzərə almaq lazımdır: öyrədilən materialın kommunikativ gerçəkliyə əsaslanaraq seçilməsi, onun lazami qaydada paylanması, qaydaların aydın vurğulanması (müstəsnalardan fərqli olaraq) və bu günkü alman dilinin həqiqi qrammatikası.

Son illər Almaniyaya gedib müxtəlif kurslarda iştirak edən, ali məktəblərdə oxuyub gələn tələbələr şikayət edirlər ki, burada onlara bu gün Almaniyada danışılan canlı alman dilində çox işlənilməyən qrammatik konstruksiyalar öyrədilir. Əlbəttə, hamının Almaniyaya gedib orada dilini təkminləşdirmək imkanı yoxdur. Amma dərs prossesində texniki vasitələrdən düzgün istifadə etməklə buna nail olmaq mümkündür.

Mümkün ola bilən çalışma və tapşırıqları 5 qrupa bölmək olardı: (bu bölgünü alman dilində verməyi məsləhət bildik)

- Analytische Aufgaben (zum Schen, Herausfinden, kerstchen qrammatischer Regelmäßigkeiten)
- “Einspielungen” (Geläubigkeitsübungen)
- Inventionen (halboffene Übungen und Aufgaben)
- Knobelstücke (rätselähnliche grammatische Feinaufgaben)
- Freie Gestaltungsaufgaben.

Adları çəkilən çalıçma və tapşırıq növlərini qısa səciyyələndirməklə bir-iki misal növü göstəririk:

1. Analitik tapşırıqlar: Qrammatik qayda mümkün qədər tələbəyə hazır şəkildə verilməməlidir. Tələbələr özləri qaydanı "kəşf" etməlidir. Qaydanın tələbə tərəfindən "kəşf" edilməsi onu doğmalaşdırır, dərsi canlandırır, beyində həkk olunaraq ondan istifadəni asanlaşdırır. Bu tapşırıqlara aiddir:

1.Strukturelle Elemente erkennen und markieren.

2. Regeln entdecken und notieren.

3. Formen analytisch verstehen und benutzen.

3-cü punkta aid misal:

Hier ist eine Liste mit Partizip II Formen. Schreibe dazu das Verb im ÖInfinitiv und erganze den Beispielsatz.

Angeschaut, anschauen. Heute habe ich einen Film angeschaut.

B. Joghurt, sagt der Arzt.
Ja, ja, ich soll Jogurt essen, aber ich tus nicht.
Sport treiben, sagt der Arzt.
Viel schlafen, sagt der Arzt.
Nicht rauchen, sagt der Arzt.
Keinen Alkohol, sagt der Arzt.
Eine Brille tragen, sagt der Arzt.
Salat essen, sagt der Arzt.

Belə çalışmalar "etməklə öyrənmə" dərsləri üçündür. Avropada belə dərslər geniş yayılmışdır. Almanca "Lernen durch Tun" adlanır. Çox zaman ingiliscə yazılr.

Bu zaman müxtəlif imkanlardan istifadə olunur: Zəncirvari çalışma. Biri bir cümlə deyir və o biri cümləni kimin deyəcəyini müəyyən edir.

Sonrakı da bu cür davam etdirir.

Kiçik qruplarda yazılı iş, sonra da plenumda müzakirə.

2. Einsetzübung.

Tamamlama çalışmaları. Belə çalışmalar danışığı sürətləndirməyə kömək edir. Burada nə qədər rəngarəng mövzular seçilərsə, məzmunca çalışmalar bir o qədər həvəslə edilir.

A. Was passt zusammen? Ergänzen Sie das Adjektiv mit seiner Enolung.
schwer, schrecklich, rot, blond, kurz, blau, dunkel, autorität

1. Die ...Liebe
2. Das ... Ende
3. Der... Himmel
4. Die ... Chefin
5. Die ... Rosen

6.Die Wolken

7.Die Kollegen
8.Die ... Freunde
9. Die ... Taschen

3.Inventionen.

Bu tipli çalışma və tapşırıqlar cümlələrin və qısa mətnlərin sərbəst düzəldilməsi üçündür. Məqsəd alman dilinin cümlə quruluşunu aparıcı cümlə elementlərindən istifadə edərək öyrətməkdir. Burada müxtəlif variasiyadan istifadə olunur. Ancaq nümunə cümlədən istifadə mütləqdir. Belə yarı açıq çalışma və tapşırıqlaradətən dərs proqramında öz əksini tapmır.

Belə tapşırıq - çalışmaları müxtəlif qrammatik mövzular üçün tərtib etmək olar:

1) Satyorganisation: Dativ und Akkusativ

a.Mutter	Reisetasche, Kochbuch
45 Jahre	Wörterbuch, Kamera, Fußball
raucht	Skibrille, Briefpapier
hört gern Musik	
reist gern	

a)Die Mutter
Ihr kann man eine Schallrlatte schenken, denn sie hört gern Musik.
Ihr kann man eine Feuerzeug ... , denn

b.Vater
50 Jahre
spielt Fußball
kocht gern
Hoppy – Fotograf
b) der Vater
Ihm kann man ...

c. Tochter
18 Jahre
schreibt gern Briefe -----
lernt Spanisch -----
fahrt gern Ski
c) Die Tochter
Ihr kann man ...

Cümlələr Dativ və Akkusativ halını düzəltmək üçün nəzərdə tutulub. Modal və digər feillər dekorativ xarakter daşıyır. Denn bağlayıcılı cümlə sərbəst əlavə olunub.

Satzvariation: Freies Spiel mit einem oder mehreren Satzelementen.

Sätze nachbauen. Bu çalışmalarda nümunə cümlələr verilir. Dil öyrənənlər bu səpkili cümlələr düzəltməli, amma cavablar olur. Qrammatik cəhətdən səhvsiz olan hər cavab düzgün sayılır, məzmunca qeyri-real, fantastik olsa belə.

IV. KNOBELSTÜCKE. Bu bölgüyə aid olan çalışma və tapşırıqlar Inventiondan fərqli olaraq ani düşünmək yox, daha dəqiq işləməyi tələb edir. Bu çalışma və tapşırıqları da qrup şəkilində aparmaq olar. Sonra alınan nəticələri Plenumda müzakirə etmək lazımdır.

1)Dəyişkən şəkillər: İlk baxışda eyni görünən 2 şəkil verilir. Diqqətlə baxılanda bu şəkillərdə müxtəlif saylarda fərqlər ola bilər. Vergleichen Sie die beiden Zeichnungen. Es gibt 20

Unterschiede. Bitte schreiben Sie diese auf.

V. FREİE GESTALTUNGSAUFGABEN.

Bu tipli tapşırıqlar üçün yarımçıq şəkildə (fragmatik) qrammatik struktur elementlər verilir. Yaxşı olardı ki, tapşırıq yerinə yetirilərkən yazılan və ya deyilən cavablarda bu elementlərdən istifadə olunsun. Amma bu və digər tərzdə qrammatik cəhətdən düzgün ifadə olunmuş hər hansı bir cümlə ya fikir də düzgün hesab olunur.

Notieren Sie mehrere Antworten:

Augenblicke, die man nicht vergißt.

a. Was waren für Sie besondere Erlebnisse in Ihrem Leben?

-- Für mich war es ein besonders Erlebnis, als meine jüngste Schwester geboren wurde.

b. Wann waren Sie mal so richtig glücklich?

Bu tapşırığı yerinə yetirməzdən əvvəl fikirləşməyə 3-4 dəqiqə vaxt verildikdə daha yaxşı nəticə əldə etmək olur. Dərsdə nə qədər işgüzar mühüt olarsa, alınan cavablar da daha rəngarəng və müxtəlif olar.

Növbəti çalışma isə qulaq asıb başa düşməyə aiddir.

Almanca Hörverstehensübung adlanır. Bu tipli çalışmalar aydın danışmaq üçün məşq edilir.

Die Leute, die Sie hören, sind alle extrem höflich. Sie wollen etwas, aber das sagen sie nicht klar, sondern sehr vorsichtig. Nehmen Sie ein Blatt Paapier und sagen Sie dieselben Wünschen klar und einfach.

Cassette: Verzeichnung, können Sie mir bitte sagen, wo der Bahnhof ist?

Lösung: Wo der Bahnhof ist?

- Ach, hätten Sie vielleicht einen Augenblick Zeit, das Fenster zu schießen? Es scheint mir direkt ins Gesicht.

- Oh, entschuldigen Sie die Störung! Wissen Sie, ich bin fremd hier. Ob Sie mir vielleicht sagen könnten, ob dieser Zug nach Bonn fährt?

- Ach Verzeihung, können Sie mir sagen, ob es hier in dieser Stadt eine Apotheke gibt?

- Nur eine ganz kleine Frage. Würden Sie mir sagen, wie spät ist es?

2. Grammatik-Umsetzung: Bauelemente und Text selbst entwickeln.

Aufgabe. Ich bin zu Gast bei Familie X und schaffe im selben Zimmer mit Christine.

Sie ist Schlafwandlerin. Ich soll auf sie anpassen, aber sie nicht wecken! Christine steht in der Tat.

gearbeitet Gestern --- ich 3 Stunde im Garten ---
besucht Am Sonntag --- wir den Zoo ---
diskutieren --- ihr schon einmal in der Schule über Politik ---

Qeyd. Bu tapşırıqların heç birindən ev tapşırığı kimi istifadə etmək olmaz. Onları dərsdə tələbələri kiçik qruplara bölüb işləmək üçün yararlıdır. Nəticə əvvəl kiçik qruplarda, sonra isə bütün auditoriyada kollektiv şəkildə (buna almanca Plenum deyilir) müzakirə olunur.

IV EINSPIELUNGEN. Elə olur ki, bu və ya digər dərslərdə tapşırıq ya az verilirb, ya da heç verilməyib. Onda hər bir müəllim digər dərsliyə müraciət edib ona lazım olan materialı götürə bilər. Hər sahədə rast gəlindiyi kimi, çox vaxt asan dialektik çalışma tapşırıqları yüksək kommunikativliyə nail olmaq olar.

1)Einsichtung sprechen (ağıllı, ehtiyatla danışma)

Şifahi nitq çalışmaları:

A. Du, in dem Cafe sitzt mein Chef.
- Dann setzen wir uns nicht in das Cafe.
Du, der Bus ist aber voll!
-Dann fahren wir nicht mit dem Bus.
Ein eiskaltes Zimmer.
Auf der Bank sitzt ein Liebespaar.
An dem Tisch sitzt mein Professor.

Mətni davam etdirərək danışmaq. Belə səpkili tapşırıqları qiymətləndirərkən fantaziya ilə yanaşı nitgin nə dərəcədə düzgün olduğu da nəzərə alınmalıdır. Burada artıq uydurma yox, keçirilmiş grammatikadan nə dərəcədə düzgün istifadə olunması qiymətləndirilir.

2. Grammatik – Umsetzung im Rollenspiel.

Ihre Rolle, bitte.

a. Zwei Politiker treffen sich im Gefängnis. Was war davor?

b. Der Hausbesitzer kündigt seinen Mieder. Was war davor?
c. Der Kassenwart hat die Kasse beraubt und wird entlassen.

Yazılanları ümumiləşdirərək belə nəticəyə gəlirik ki, alman dilinin öyrənilməsində çalışma və tapşırıqları düzgün etməklə daha tez praktik vərdişlərə yiyələnmək olar. Dərslikdə həm çalışma, həm də tapşırıqlar öz əksini tapmalı və onlar bir-biri ilə sıx əlaqədə olmalıdır. Onu da qeyd edək ki, yalnız dərsliklərdə olan çalışma və tapşırıqlarda dilin praktik öyrənilməsinə

kömək edə bilməz. Bunun üçün həm də müxtəlif ədəbiyyatdan istifadə olunmalı, yeni çalışma və tapşırıqlar tərtib edilməlidir. Belə olduqda bu sahədə daha daha çox uğur qazanmaq olar.

Ədəbiyyat

1. Grundstufen – Grammatik Deutschland. München 2010
2. Der Weg. Die Zeitschrift für Deutschlernende. Deutschland 2008
3.Qrammatik der Deutschen Sprache. Moskva 1983
4.Самоучитель немецкого языка. Moskva 1987
5. Gesundheit. Kleine Enzyklopädie. Leipzig 1968
6. Deutsch für Medizin. Maria Györffy deutsch von Betty und Renate Bagassy. 2007

Rəyçi: prof. Məmmədova Z.Ş.
tərəfindən çapa tövsiyyə olunmuşdur.

Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu, *ISSN 2224-9257*
Filologiya məsələləri № 3, 2025
Səh. ————————

GÜNEL EYVAZLI İMRAN
filologiya üzrə fəlsəfə doktoru, dosent
Azərbaycan Dillər Universiteti
e.n.g.i@rambler.ru
https://orcid.org/0009-0009-2568-094X

KOMMUNİKATİV FRAZEOLOJİ VAHİDLƏR VƏ ONLARIN STRUKTUR-SEMANTİK NÖVLƏRİ

XÜLASƏ

Frazeologiya dilçiliyin bir sahəsi olaraq frazeoloji vahidlərin indiki vəziyyəti və tarixi inkişafının tədqiqi ilə məşğul olur. Frazeoloji vahidlərin struktur və semantik xüsusiyyətləri, onların formalaşması prosesi, nitqdə və kommunikasiya prosesində necə təzahür etməsi və tərkib hissələrinin xarakterik xüsusiyyətləri hər zaman dilçi alimlərin diqqətini çəkən vacib məqamlardan olmuşdur. Bunula belə, bu sahədə xeyli araşdırmaların və təhlillərin aparılmasına baxmayaq, hələ də frazeoloji birləşmələrin təsnif olunmasına vahid yanaşma prinsipi qəbul edilməmişdir. Digər tərəfdən, frazeoloji vahidlərin kommunikasiya prosesindəki rolu haqqında dilçilər arasında belə bir fikir mövcuddur ki, sabit söz birləşmələrinin praqmatik və kommunikativ imkanları sərbəst söz birləşmələrinə nisbətən daha çoxdur. Bunun əsas səbəblərindən biri ondan ibarətdir ki, frazeoloji vahidlər bir çox faktorlardan qaynaqlanaraq yüksək ekspressivliyə və üslubi rəngarəngliyə malikdir. Kommunikasiya prosesində frazeoloji vahidlər yalnız məlumatın ötürülməsinə xidmət etmir, onlar həm də özünəməxsus praqmatik dəyər qazanaraq danışanın məqsədini və ifadə edilən fikirə olan münasibətini ifadə edir.

Açar sözlər: *kommunikativ frazeoloji vahidlər, struktur-semantik, frazeologiya, komponent, frazeoloji birləşmələr.*

Giriş. Frazeologiyanın bir elm sahəsi kimi meydana gəlməsi keçən əsrin əvvəllərinə aiddir və müvafiq olaraq frazeoloji konsepsiyanın yaradılması da məşhur dilçi Ş.Ballinin adı ilə əlaqələndirilir. Öz əsərlərində Ş.Balli frazeologiya üçün xüsusi əhəmiyyət kəsb edən suallar ortaya qoymuş və onları həll etməyə cəhd etmişdir. O, frazeoloji vahidlərin müəyyənləşdirilməsi, onların quruluşunun əsas xüsusiyyətləri, müasir frazeoloji sistemin dil və mədəniyyətin qarşılıqlı təsiri altında formalaşması kimi məsələləri araşdırmağa cəhd etmişdir. Dilçilik ədəbiyyatında "frazeoloji vahid" termini bu və ya digər dilə xas olan sabit birləşmələri və ya onların birgə işlədilməsini ifadə etmək üçün istifadə olunur. Sinonimik terminlər olaraq "frazeoloji birləşmə", “sabit söz birləşməsi” və "idiom" terminləri də istifadə olunur. "Phraseologique" termini ilk dəfə fransız dilçilərinin əsərlərində, xüsusilə 1967-ci ildə P. Roberin lüğətində bir dil termini olaraq ortaya çıxmışdır.

Frazeoloji vahidlərin semantik təsnifatı üçün əsas meyarlardan biri frazeoloji vahidlərin komponentlərinin semantik aspektdən qarşılıqlı asılılıq dərəcəsidir:

1. komponentlərin ikitərəfli semantik asılılığı ilə xarakterizə olunan birləşmələr.

2. komponentlərin birtərəfli semantik asılılığı ilə xarakterizə olunan unilateral frazeoloji birləşmələr.

N.A.Xomyakova frazeoloji vahidlərin semantik quruluşunun aşağıdakı komponentlərini müəyyənləşdirir:

- hadisələr və vəziyyətlər haqqında məlumat ötürən denotativ komponent;

-frazeoloji birləşmənin bütün və ya əsas qrammatik xüsusiyyətlərini əks etdirən qrammatik komponent;

- ifadə olunanın dəyərini əks etdirən qiymətləndirmə komponenti;

- frazeoloji vahidin mənasının məcazi əsası ilə necə əlaqəli olması barədə məlumat verən motivasiya komponenti;

- işarələnənlə işarələyən arasındakı əlaqə haqqında məlumat daşıyan emotiv komponent;

-frazeoloji vahidlərin istifadəsi sahəsində və ünsiyyət prosesində sabit söz birləşmələrinin sosial xarakterli amillərlə tənzimlənməsinə dəlalət edən üslubi komponent.

Bütün frazeoloji vahidlər predikativ quruluşa malikdir və onları iki alt sinfə bölmək olar:

1. müəyyən bir hadisəni və ya vəziyyəti xarakterizə etmək üçün istifadə olunan kommunikativ sözsüz frazeoloji vahidlər;

2. kommunikativ deyimlər və dildə didaktik-preskriptiv funksiyanı yerinə yetirən frazeologizmlər.

Birinci alt sinfin frazeoloji vahidləri sərbəst predikativ birləşmələrin sintaktik ixtisaslaşması nəticəsində yaranmış və nisbi sabitliyi ilə fərqlənən müəyyən sintaktik quruluşa malik olan birləşmələrdir. Onlar da öz növbəsində iki növə bölünürlər:

a. sintaktik və semantik naviqasiya ilə xarakterizə olunan və sərbəst kontekstin sözləri və ya ifadələrindən istifadə edərək nitqdə "bağlanan" açıq quruluşlu frazeoloji vahidlər. Bu tip frazeologizmlər əlaqələrinin frazadaxili kontekstində formalaşır və bir çox hallarda feillər onların məcburi valentliyinə daxil olur.

b. qapalı quruluşlu frazeoloji vahidlər. Sintaktik və semantik tamlığı ödəyə bilmək, yəni tam cümlələri təmsil etmək üçün bu sabit söz birləşmələri frazeoloji və ya frazafövqü kontekstdə müxtəlif cümlələrə qoşulmaqla formalaşırlar.

Frazeoloji birləşmələr sözlər və sərbəst söz birləşmələri ilə müəyyən oxşarlıqları olan müəyyən differensial xüsusiyyətlərə malik dil vahidləridir:

1) onlar prosesdə görünməyən hazır dil vahidləridir, ünsiyyət zamanı istifadə olunmaya və ya danışanın yaddaşından tamamilə silinə bilir;

2) bu dil vahidləri özünəməxsus məna sabitliyi, quruluş tərkibi və strukturu ilə xarakterizə olunan dil vahidləridir (4, s. 258-259).

Ünsiyyət prosesində frazeoloji vahidlərin tərkib hissələri məsələsi yerli və xarici olmaqla, bir çox müasir tədqiqatçının diqqətini çəkmişdir. Əksər dilçilər

frazeoloji vahidlərin praqmatik potensialının orijinal nominasiya vahidlərindən daha yüksək olduğuna inanırlar. Bu, frazeoloji vahidlər, bir qayda olaraq, müxtəlif amillərlə, o cümlədən frazeoloji vahidlərin böyük əksəriyyətinə xas olan görüntülərlə, onların motivasiyası, üslubi "rənglənməsi", komponent tərkibinin xüsusiyyətləri, etimologiyası və s. xüsusiyyətlərlə bir-birindən fərqlənir. Ünsiyyət prosesində frazeologizmlər yalnız məlumat ötürmür, həm də xüsusi bir informasiya, praqmatik dəyər, danışanların niyyətləri, göstərilən fenomenə emosional və qiymətləndirici münasibət, şəxsiyyətlərarası münasibətlər, sosial vəziyyət haqqında ümumi məlumat əldə etməyə kömək edir.

Frazeoloji vahidlərin əhəmiyyəti onların şifahi və yazılı ünsiyyətdə tez-tez istifadəsi və təbii ki, bu və ya digər dilin daşıyıcıları üçün sistemin bu elementlərinin anlaşılması və istifadəsi ilə təmsil olunan xüsusi mürəkkəblikdən qaynaqlanır. Dil hadisələrinin funksiyasından danışarkən qeyd etmək lazımdır ki, reallıqların hər hansı bir şəraitində bütün frazeoloji vahidlər cəmiyyətin ünsiyyət vasitəsi kimi çıxış edir ki, bu da kommunikativliyin frazeoloji vahidlərin vacib bir funksiyası olduğunu və bu xüsusiyyətin vahidlərin bütün qalan funksiyalarını müəyyənləşdirdiyini göstərir. Sabit söz birləşmələrinin dəyişməz funksiyalarına bütün frazeoloji vahidlərə xas olan məlumatverici, idraki və nominativ funksiyaları aid etmək olar. Frazeoloji vahidlərin informasiya funksiyası onların əsas məqsədinin bu və ya digər məlumatları çatdırmaq üçün bir vasitə olmasını ifadə edir (6, s. 43-44).

Müasir frazeoloji sistem dil və mədəniyyətin qarşılıqlı təsirini araşdıran linqvokulturologiyada tədqiqat obyektlərindən biridir. Eyni zamanda, bu elm sahəsinin tədqiqat predmeti mədəniyyətdə simvolik və ya məcazi məna qazanmış və insan şüurunun fəaliyyətinin nəticələrini ümumiləşdirən miflərdə, əfsanələrdə, rituallarda, ayinlərdə, folklor və dini diskurslarda təsbit edilmiş arxetip və prototipik dil vahidləridir.

Frazeoloji vahidlər gizli bir məna daşıyan sabit məcazi ifadələrdir. Dil daşıyıcıları frazeoloji vahidlərin gizli mənasını bilir və başa düşürlər, lakin dil daşıyıcısı olmayanlar üçün bu sabit söz birləşmələri tez-tez "dil tapmacası"na çevrilir. Buna görə frazeoloji ifadələr xarici dil öyrənənlər üçün semantik baxımdan ən mürəkkəb dil vahidləri qrupudur. Frazeologizmlər həddən artıq çox istifadə olunması bədii mətnləri, eləcə də qəzet, jurnalları oxumaqda, danışıq nitqini anlamaqda çətinlik törədir. Bəzən frazeoloji vahidlər tərkibi quruluşuna və formasına görə sərbəst söz birləşmələrinə bənzəyir. Bu vəziyyətdə yalnız situativ kontekst, sözlər arasındakı sintaktik əlaqələr, frazeoloji vahidlərin tərkib hissələri arasındakı sintaktik əlaqələr, frazeoloji birləşmələrin işlənmə tezliyi, sözlərin ilkin leksik və ya məcazi mənada işlənməsi qarşılaşdığımız ifadələri anlamağa kömək edir. Eyni zamanda, frazeoloji vahidləri başa düşmək üçün hərfi tərcümə yoluna müraciət etmək olmaz, çünki hərfi tərcümə bütövlükdə frazeoloji vahidin gizli mənasını ifadə edə bilmir. Frazeoloji vahidlər xalqın tarixi və mədəniyyəti, adət və ənənələri ilə sıx

bağlıdır, xarici dilin öyrənilməsində vacib bir komponent hesab olunan linqvistik və regional məlumatların daşıyıcılarıdır (7, s. 59-60).

Digər tərəfdən, onu qeyd etmək yerinə düşər ki, frazeoloji birləşmələrin yaradılmasında çoxmənalı sözlərin böyük rolu var. O halda çoxmənalı fraeoloji vahidlər yaranır ki, onları əmələ gətirən çoxmənalı sözlərin əsas mənaları ilə birlikdə, onların məcazi mənaları da məna çalarlıqları ifadə etsin (1, səh. 49).

Müşahidələr belə deməyə əsas verir ki, kommunikativ frazeologiya sahəsində komponentlərin kəsilməsi və atılması hal-hazırda daha çox müşahidə olunan bir hadisədir. Kommunikativ frazeoloji vahidlərin tərkib hissələrinin kəsilməsi tendensiyası bir və ya bir neçə komponent qrupuna şamil edilməklə həyata keçirilir. Bu yolla qısaldılaraq əldə edilmiş törəmələr üçün aşağıdakı terminləri təklif etmək olar:

1) ön hissədən qısaldılmış frazeoloji birləşmələr,

2) son hissədən qısaldılmış frazeoloji birləşmələr,

3) ikitərəfli qısaldılmış frazeoloji birləşmələr (3, s. 41-42).

Ön hissədən qısaldılmış frazeoloji birləşmələr daha çox istifadə olunan frazeoloji vahidlər hesab olunur. Məsələn:

stand on one's own bottom - Every tub must stand on its own bottom.

return to one's vomit - The dog returns to his vomit.

call the tune - He who pays the piper calls the tune, etc.

Bu növ frazeoloji vahidlərin struktur-qrammatik növləri aşağıdakı kimi təsnif oluna bilər:

a). Iki komponentli attrubitiv-nominativ frazeoloji vahidlər. Bu ifadələrin tərkib hissəsində sifət və isimdən istifadə olunur (5, s. 59-60):

second nature - Habit is a second nature.

desperate remedies - Desperate diseases must have desperate remedies.

a silver lining - Every cloud has a silver lining.

spilt milk - It is no use crying over spilt milk;

b). Üç komponentli sözönülü-nominativ frazeoloji vahidlər. Bu söz birləşmələrinin tərkib hissələri isim və sözönlərindən təşkil olunur.

nine points of the law - Possession is nine points of the law.

wise after the event - It is easy to be wise after the event.

a rose without a thorn - There is no rose without a thorn;

c). Çoxkomponentli feili-obyektiv frazeoloji vahidlər. Bu frazeoloji birləşmələrin tərkibi feil, isim və sözönlərindən ibarət olur.

make a silk purse out of a sow's ear - You cannot make a silk purse out of a sow's ear.

stick to one's last - The cobbler should stick to his last.

put back the clock - One cannot put back the clock (3, s. 16-17).

Son hissədən qısaldılmış frazeoloji birləşmələrdə sonuncu element dəyişə və ya işlənməyə bilir. Kommunikativ xarakterli frazeoloji birləşmələrdə son hissədən qısaldılmış söz birləşmələrinin aşağıdakı növləri vardır:

a) substantiv birləşmələr (*a barking dog, a good beginning*)
b) feili birləşmələr (*spare the rod, give a dog a bad name*)
c) adverbial birləşmələr (*when in Rome, out of sight*)

İkitərəfli qısaldılmış frazeoloji birləşmələrdə həm ifadələrin əvvəlindəki, həm də sonundakı elementlər qısaldılmış olur. Məsələn:

To lock the stable door - It is too late to lock the stable door when the horse is stolen.

Bred in the bone - What is bred in the bone will come out in the flesh; once too often (2, s. 16-17).

Bir dilin frazeoloji vahidləri bir çox hallarda digər dilin vahidləri ilə üst-üstə düşmür. Frazeoloji vahidləri anlamaq üçün onları hərfi tərcümə etmək yolverilməzdir, belə olduqda frazeoloji vahidin ifadə etdiyi gizlin məna açılmamış qalır və kommunikasiya prosesi tamamlanmamış hesab olunur. Frazeoloji vahidlər xalqın tarixi və mədəniyyəti ilə sıx bağlı olmaqla yanaşı, adət və ənənələrin əsas ifadə vasitəsi kimi qiymətləndirilir. Onlar linqvokulturoloji məlumatın ötürücüsü olaraq, dil daşıyıcılarının kommmunikasiya prosesində daha çox müraciət etdiyi əsas ekspressiv söz birləşmələri kimi qəbul olunur.

İSTİFADƏ EDİLMİŞ ƏDƏBİYYAT SİYAHISI:

1. Dadaşova Ü. Çoxmənali frazeolojİ vahidlər və onlarin struktur-semantik xüsusiyyətləri. Dil və ədəbİyyat, - 2021. s.49-51.
2. Fedulenkova T. A new approach to the clipping of communicative phraseological units. Recherches anglaises et nord-américaines, European Society for the Study of English.. Nom. 36, - 2003. - pp. 11-22.
3. Fedulenkova T. Diachronic Approach to the Study of Phraseological Units. Northern Development and Sustainable Livelihoods: Towards a Critical Circumpolar Agenda. –University of Aberdeen. - 1999. - pp. 41-42.
4. Hasanova J. F. Classification of phraseological units in linguistics. Theory and Practice of Science: Key Aspects. ASPU, CFL,- 2022. pp. 256-262.
5. Koonin A.V. English Phraseology. Theoretical Course Science. -1970. - 285 p.
6. Корман Е.А. Основные коммуникативные функции фразеологических единиц с анималистическим компонентом. Известия вузов. Северо-Кавказский регион. Общественные Науки. Спецвыпуск. 2007. с. 43-45.
7. Скарлупіна Ю.А. О собенности коммуникативных фразеологических единиц во французском языке / Ю .А Скарлупіна // А ктуальні дослідження і розробки : м атерали VII М іжнародноі науково-практичноі конференціі. – Софія, 2011.– с. 56 - 60.

Azərbaycan Milli Elmlər Akademiyasi M. Füzuli adına Əlyazmalar Institutu, *ISSN 2224-9257*
Filologiya məsələləri № 3, 2025
Səh. ————————

G.I.Eyvazli

COMMUNICATIVE PHRASEOLOGICAL UNITS AND THEIR STRUCTURAL-SEMANTIC TYPES

Summary

Phraseology as a branch of linguistics deals with the study of the current state and historical development of phraseological units. The structural and semantic features of phraseological units, the process of their formation, their manifestation in speech and in the communication process, and the characteristic features of their components have always been among the important points that attracted the attention of linguists. Notwithstanding the fact that a lot of analysis and researches have been carried out in this area, a unified principal approach to classifying of phraseological combinations has not yet been adopted. On the other hand, there is an opinion among linguists about the role of phraseological units in the communication process that the pragmatic and communicative capabilities of phraseological combinations are much greater than that of free word combinations. One of the main reasons for this is that phraseological units, due to many factors, have high expressiveness and stylistic diversity. In the process of communication, phraseological units serve not only to transmit information, they also express the purpose of the speaker and his attitude to the concept being expressed, acquiring a specific pragmatic value.

Keywords: *communicative phraseological units, structural-semantic, phraseological, component, phraseological units.*

Г.И.Эйвазлы

КОММУНИКАТИВНЫЕ ФРАЗЕОЛОГИЧЕСКИЕ ЕДИНИЦЫ И ИХ СТРУКТУРНО-СЕМАНТИЧЕСКИЕ ТИПЫ

Резюме

Фразеология как раздел лингвистики занимается изучением современного состояния и исторического развития фразеологических единиц. Структурные и семантические особенности фразеологизмов, процесс их образования, их проявление в речи и в процессе общения, а также характерные особенности их компонентов всегда были в числе важных моментов, привлекавших внимание лингвистов. Несмотря на то, что в этой области было проведено множество анализов и исследований, единого принципиального подхода к классификации фразеологических сочетаний до сих пор не принято. С другой стороны, среди лингвистов существует мнение о роли фразеологизмов в процессе коммуникации, что прагматические и коммуникативные возможности фразеологических сочетаний значительно больше, чем у других словосочетаний. Одной из главных причин является то, что фразеологизмы

обладают высокой выразительностью и стилистическим разнообразием. В процессе общения фразеологизмы служат не только для передачи информации, они также выражают цель говорящего и его отношение к высказываемому понятию, приобретая специфическое прагматическое значение.

***Ключевые слова**: коммуникативные фразеологизмы, структурно-семантические, фразеологические, компонентные, фразеологические сочетания.*

Rəyçi: dos., A.Hacıyeva

Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu, *ISSN 2224-9257*
Filologiya məsələləri № 3, 2025
Səh. ————————

SƏİDƏ VERDİYEVA
Azərbaycan dövlət Neft və Sənaye Universiteti
Ünvan :Azadlıq,20
saidaverdiyeva8@gmail.ru

SOME REQUIREMENTS FOR A CONTEMPORARY FOREIGN LANGUAGE TEACHER

SUMMARY

This article is aimed to consider the current role of a foreign language teacher.

It is evident that the role of the language teacher today is not as simple as in the past. English language teaching has changed radically over the last generation. The contemporary educational setting has considerably widened the spectrum of roles the teachers have. Every day methodologists and researchers are discovering new factors and ways that play an important role in language learning. At present, only knowledge of the linguistic structure of the language is not enough for being a good language teacher. Teachers should have a wide background knowledge of the social environment that influences their learners, know and use different pedagogical techniques, be able to acquire computer skills and use technologies in education for giving presentations, sharing documents and uploading PDF files and other teaching materials, etc.

The other criteria for being a good foreign teacher is the ability to gain awareness of teaching : 1) by observing other teachers' teaching, 2) self-observation, 3)action research, and 4) by keeping teacher journals.

The more interest teachers have in gaining awareness of how they teach and the more informed they become about what it is that they do in their classrooms and the impact this has on their students, the more freedom they will have to direct their teaching toward successful student learning.

Key words: knowledge, foreign language, teacher, ability, role, techniques

Writing about key criteria of teaching a foreign language, the first thing we need to consider is the role of a foreign language teacher. It s a well-known fact that teacher's role in the classroom is great and it is impossible to give the whole list of responsibilities the teachers have to possess. But one of prime responsibilities is to facilitate students' output i.e.to facilitate the execution of different tasks which will encourage students to acquire a foreign language. Before attempting to encourage important learning values in learners, the teachers should first consider their own motivation and perceptions of learning. For this purpose, teachers have to justify the

value of the content and the objectives of the lesson and only then students will have a stronger reason to attend the classes.

Let's study some main qualities of a motivational teacher. We can divide these qualities into three categories:1) professional knowledge 2) professional skills and 3) attitude

Let us study each category. First is professional knowledge.

Knowledge should be in the first place otherwise the students will be misinformed. What do we imply by professional knowledge?

- knowing the subject very well and keeping it up to date
- knowing about theories of learning and teaching
- understanding the problems the students can face with
- the ability to react to students' questions and answer them with the expected level of professionalism

In one sentence, it is a combination of subject matter expertise with pedagogical knowledge and an understanding of students and their learning processes.

What do motivational teacher's skills include?

- being creative
- providing sufficient assistance and challenge to students
- the ability to vary the pace of lessons
- the ability to use a variety of materials and methods to make their lessons interesting
- the ability to work with mixed level of students
- the ability to help students to work independently
- the ability to help students to correct their mistakes without dismotivating them

The good language teacher needs to have a positive attitude to what happens in the class and be patient to his students. Positive attitude implies:

- interest in students as individuals i.e. understanding students' individual needs
- being enthusiastic and encouraging
- having a sense of humor
- being friendly and helpful
- helping to create a good friendly atmosphere in the class
- providing feedback for learners which can help teachers better understand and meet their learners' needs.

There are many more criteria that a motivational teacher has to possess in order to hold the attention of a class and make learning enjoyable and effective.

The other significant requirements to the teacher is organizing a lesson and managing a classroom.

One of the main important parts of organizing a lesson is setting up activities in a proper way. Firstly, the teacher has to get all the learners' attention. The instructions given to the students should be brief and clear. Bearing in minds the learners' level the teacher should think about complexity of language, number of words used, speed of delivery, and how many instructions were given at any one time. The best way to do it while teaching online is to present them in Power Point or write on the whiteboard providing a demonstration of the activity. Nevertheless, it is possible that some students cannot understand or misunderstand the task. By asking questions referring to the task, the teacher can check the comprehension of the assignment.

No less important role does play clarification of the purpose of the task i.e. if the purpose of the assignment is obvious to the learners. It will help to motivate the students. Secondly, once the teacher has checked the comprehension of the instructions, the next step will be monitoring the students' activity in progress to make sure that they all are on task.

All the activities planned to be provided in the class have to be focused on the class; firstly, the teacher should take into consideration the level of learners in the class: which students are stronger, middle, weaker; secondly, what they are capable of; thirdly, which students tend to initiate classroom talk more often and which students tend to hide, or being shy; and finally, what types of activities the learners respond well to.

In brief, the purpose, the tasks, and the questions the teacher sets for the learners should be motivating because the aim of teaching foreign language is to develop language skills rather than merely to test understanding. Teachers need to identify activities which will lead to communicative, authentic use of language.

According to the purpose of the lesson a teacher can use different types of techniques, such as

1) Test teach test (Test to see what the learners know and create a need for the target language; teach-present the language; test-practice using the target language).

2) Presentation Practice Production (presentation i.e. a new language is taught; practice-learners practice the new language in a controlled way through exercises; production-learners practice the language in a less controlled and freer way using communicative activity).

3) Guided discovery when learners are working out the language structures themselves with some guidance from the teacher.

4) Task based learning when learners complete a task rather than looking at a specific area of language; for example, filling in the gaps. By completing a task, learners are practicing a range of language and are learning new language when they need it.

5) Total physical response when learners act out or respond to the target words without speaking.

All these teaching methods make the lessons diverse and interesting. The teacher himself has to choose the appropriate technique to achieve the purpose of the lesson since they have some advantages and disadvantages. For example, total physical response, unfortunately,

cannot be widely used in remote lessons.

Besides the above mentioned criteria, there are many more roles for the teacher. They include observation of other teachers' teaching. Fanselow (1988) points out, teachers can see their own teaching in the teaching of others, and when teachers observe others to gain self-knowledge, they have the chance to construct and reconstruct their own knowledge.

A second approach to awareness of teaching is self-observation. Like observation of other teachers, it is possible for teachers to video-or audiotape their own teaching, and review the tape while using a tally sheet or taking descriptive notes of the classroom interaction to study.

A third approach to awareness of teaching is action research, which is defined as self-reflective inquiry initiated by teachers for the purpose of improving their classroom practices. As Allwright and Bailey point out (1991:44), such a process "allows teachers who wish to investigate events in their own classrooms to take constructive steps towards solving immediate problems, systematically reflecting on the outcome".

A fourth approach is keeping teacher journals or diary studies which provide another way for teachers to gain awareness of their teaching. Bailey (1990:215) defines a teaching journal as "a first –person account of a language-learning ot teaching experience …and then analysed for recurring patterns or salient events".

As it is seen from this study, the roles of modern teachers of foreign languages is diverse.We teachers, should remember that it is the primary responsibility of the teachers to equip the students with necessary knowledge and supply all their academic needs in order to mould their future.

LITERATURE

1. Cheryl L.Champeau Lopez. The Role of the Teacher in Today's Language Classroom. Selected articles from the English Teaching Forum 1989-1993 US Information Agency 1994 p.9

2.Luke Prodromou. The Good Language Teacher. Selected articles from the English Teaching Forum 1989-1993 US Information Agency 1994 p.18

3.Jerry G.Gephard The Good Language Teacher. Selected articles from the English Teaching Forum 1989-1993 US Information Agency 1994 p.34

4.Allwright D and K.M. Bailey. Focus on the language classroom. New York: Cambridge University Press ,1991p.44

5. Bailey,K.M. Diary studies in teacher education programs. New York: Cambridge University Press 1990.p.215

6.Fanselow J.F.”let’s see”. Contrasting conversations about teaching.1988 p.113

С.ВЕРДИЕВА

НЕКОТОРЫЕ ТРЕБОВАНИЯ К СОВРЕМЕННОМУ УЧИТЕЛЮ ИНОСТРАННОГО ЯЗЫКА

РЕЗЮМЕ

Цель данной статьи - рассмотреть современную роль преподавателя иностранного языка.

Очевидно, что роль преподавателя иностранного языка сегодня не так проста, как в прошлом. За последнее поколение преподавание английского языка радикально изменилось. Современная образовательная среда значительно расширила спектр ролей преподавателя. Каждый день методисты и исследователи открывают новые факторы и способы, которые играют важную роль в изучении языка. В настоящее время только знания лингвистической структуры языка недостаточно для того чтобы быть хорошим преподавателем языка. Учителя должны обладать обширными знаниями о социальной среде, влияющей на учащихся, знать и использовать различные педагогические приемы, владеть навыками работы с компьютером и уметь использовать технологии в образовании для проведения презентаций, обмена документами, загрузки PDF-файлов и других учебных материалов и т.д.

Другим критерием для того, чтобы стать хорошим учителем иностранного языка, является способность приобретать знания о преподавании: 1) наблюдая за преподаванием других учителей, 2) самонаблюдая, 3) проводя исследования и 4) ведя дневники.

Чем больше учителя заинтересованы в том, чтобы понять, как они преподают, и чем больше они информированы о том, что именно они делают в своих классах и какое влияние это оказывает на учеников, тем больше свободы у них будет, чтобы направить свое преподавание на успешное обучение учеников.

Ключевые слова: знание, иностранный язык, учитель, способность, роль, методы

SAIDA VERDIYEVA

MÜASIR XARICI DIL MÜƏLLIMINƏ BƏZI TƏLƏBLƏR

XÜLASƏ

Bu məqalənin məqsədi xarici dil müəlliminin müasir rolunu nəzərdən keçirməkdir.

Aydındır ki, bu gün xarici dil müəlliminin rolu keçmişdəki kimi sadə deyil. İngilis dilinin tədrisi son nəsildə köklü şəkildə dəyişdi. Müasir təhsil mühiti müəllim rollarının dairəsini xeyli genişləndirmişdir. Metodoloqlar və tədqiqatçılar hər gün dil öyrənilməsində mühüm rol oynayan yeni amillər və metodlar kəşf edirlər. Hal-

hazırda yaxşı dil müəllimi olmaq üçün yalnız dilin linqvistik quruluşunu bilmək kifayət deyil.Müəllimlər tələbələrə təsir edən sosial mühit haqqında geniş biliyə malik olmalı, müxtəlif tədris üsullarını bilməli və istifadə etməli, kompüter bacarıqlarına malik olmalı və təqdimatlar etmək, sənədləri paylaşmaq, PDF və digər tədris materiallarını yükləmək və s. üçün təhsildə texnologiyadan istifadə etməyi bacarmalıdır.

Yaxşı xarici dil müəllimi olmağın digər meyarı 1) digər müəllimlərin dərs dediyini müşahidə etməklə, 2) özünü müşahidə etməklə, 3) tədqiqat aparmaqla və 4) gündəlik tutmaqla tədris haqqında biliklərə yiyələnmək bacarığıdır.

Müəllimlər onların necə öyrətdiklərini anlamaqda nə qədər çox maraqlı olsalar və öz siniflərində nə etdikləri və bunun tələbələrə təsiri haqqında nə qədər çox məlumatlı olsalar, onlar öz tədrislərini müvəffəqiyyətli olmağa yönəltməkdə bir o qədər sərbəst olacaqlar şagirdləri öyrətmək.

Açar sözlər: bilik, xarici dil, müəllim, bacarıq, rol, metodlar

Rəyçi: dosent G.B.Əhmədova

Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu, *ISSN 2224-9257*
Filologiya məsələləri № 3, 2025
Səh. ————————

ZEMFİRA MƏMMƏDOVA ƏLƏKBƏR QIZI
ŞƏHLA MƏMMƏDOVA YUSİF QIZI
Azəraycan Tibb Universiteti
zemfiramamedova1948@gmail.com

İNGİLİS VƏ AZƏRBAYCAN DİLLƏRİNDƏ SÖZ SIRASI

Xülasə

Cümlədə sözlərin – cümlə üzvlərinin sıralanması dil daşıyıcılarının həyatı dərketmə, düşüncə tərzindən asılıdır. Çünki subyekt, verb və ya obyektin nitq prosesində sıralanması bu amildən kənarda mümkün deyildir. Bunlara müvafiq olaraq mübtəda və ya xəbərin cümlənin önünə və ya sonuna yerləşməsi hərəkət və ya subyekt anlamının milli-etnik qiymətləndirilməsi ilə bağlıdır. Cümlədə sözlərin sıralanması mübtəda və ya xəbər mərkəzləri əsasında reallaşır və xətti xarakter daşıyır.

Azərbaycan dilində sadə cümlələrin təsnifatı baş və ikinci dərəcəli üzvlərin iştirakına görə aparılır; cüttərkibli və təktərtibli cümlələr bu kriteriya əsasında müəyyənləşir. Cümlənin digər üzvləri isə bu iki cümlə üzvünün ətrafında yığılaraq onları tərz, zaman və s. kimi münasibətlər cəhətdən aydınlaşdırır. Ona görə də iki mərkəzin cümlədə müxtəlif mövqelərə çəkilməsi cümlədə sözlərin funksional yerləşməsinə təsirsiz qalmır. Lakin onların baza quruluşunun müvafiq yeri vardır, o, funksional yerləşməyə nisbətən sabitdir. Təktərtibli və cüttərkibli cümlələrdə sözlərin müvafiq sıralanma qaydası vardır. Buna görə də qeyd olunan cümlə tiplərində sözlərin sıralanması nəzərdən keçirilir.

Açar sızlər: söz sırası,İngilis dili,sadə cümlə,Azərbaycan dili,inkişaf,termin.

Sadə cümlələrdə söz sırası. Müxtəsər, təsdiqdə olan nəqli cümlə invariant cümlədir; digər sadə cümlə növləri, eləcə də genişləndirilmiş cümlələr üçün bazadır. Buna müvafiq olaraq cümlədə sözlərin sıralanması da cümlədə sözlərin sıralanma qanunauyğunluqlarına uyğun olaraq baş verir. Məs., He left a calmness (G.Seymour. At close quarters. Diamond Books, 1987. Bu cümlə S – V strukturuna malikdir. Azərbaycan dilində nümunəyə baxaq: O ağlamırdı. Bu cümlə də S – V strukturundadır. Azərbaycan - türk cümlələrində S – V strukturunun təkamülü S – V – S strukturu – üzrə baş vermiş sonuncu subyektin şəxs şəkilçiləri ilə ifadəsi qərarlaşmışdır.

Əslində müasir dövrümüzdə S – V tipli sıralanma S – V – S, yəni qeyri-müstəqil subyektlə tamamlanır. Lakin müasir dövrümüzdə qeyd olunan bu məntiqi xüsusiyyət “S V” strukturu üzrə cümlə üzvlərinin müstəqil funksiyası ilə reallaşır. Sonradan subyekt-mübtəda və verb-xəbər mühitinə daxil olan üzvlər cümlənin genişlənməsi ilə müşayiət olunur. Bu xüsusda sifətlərin, feili sifətləri və feili sifət

tərkiblərinin mübtədadan əvvəl gəlməsi cümlədə sıralanma baxımından təyin-təyinolunan münasibətlərinin şərtləndirir, cümlənin ağırlıq-semantik mərkəzi mübtədaya düşür; ona görə də tamamlıq və zərfliklər xəbər sferasına düşməklə xəbərin predikat mərkəzi kimi aparıcı rolunu müəyyənləşdirir.

T.Abbasquliyev. Azərbaycan və ingilis dillərində diplomatiya sözləri. «Elm» nəşriyyatı. Bakı, 1981. T.Abbasquliyev bu haqda yazır: ”Həm ingilis, həm də Azərbaycan dilində təyin, təyin olunandan əvvəl gəlir. Bu qanunauyğunluq təyin roluna girən söz, söz birləşməsi və tərkibləri ön mövqeyə çıxarır. Məsələn:

1) “This old man talks nonsense”. (E.Hemingway. For whom the Bell Tolls,p.54);

2) “ A warm wind came with daylight and he could hear the snow melting in the trees and the heavy sound fits fallin”. (E.Hemingway. For whom the Bell Tolls, p.236);

3) “After waiting for 25 minutes Heinrich Gunter agreed with a persistent taxi driver that he would pay the fare asked, in hard currency”. (G.Saymour. At close Quarters. Diamond Books, 1987” (1.s.315)

O.Musayev. İngilis dilinin qrammatikası. Bakı. 1979. Oruc Musayev söz sırası haqqında yazır:”Söz sırası da vurğu kimi morfoloji quruluşu sintaktik quruluşlu bir-birinə bağlayır və vahid ahəngə salır. Məsələn:Azərbaycan dilində Yazı-çı-liq və yaz-dır-ıl(maq) ayrı-ayrı nitq hissələrinə məxsus quruluşdur.Lakin sıralanma prinsipinə görə bunlar eynidir. Çı-lıq; dır-ıl şəkilçilərinin eyni mövqedə yerləşməsi təsadüfi xarakter daşımır. Çı- şəkilçisinin isimlər üçün yaratdığı mənanı-dır feillər üçün yaradır.-Lıq şəkilçisi mücərrədliyin, -ıl şəkilçisi isə məchulluğun əlamətidir.Məchulluqla mücərrədlik isə bir-birinə yaxındır.

Deməli,nitq hissəsindən asılı olmayaraq abstraktlıq və ya mücərrədlik bildirən şəkilçilər kökdən uzaq düşür.”(2.s.40)

Buna görə də B.A.Serebrennikov yazır ki, iltisaqi dillərdə şəkilçilərin sıralanmasında müəyyən bir qanun vardir. Abstraktlıq bildirən şəkilçilər isə kökə yaxın yerləşir.İstər cümlələr, istərsə də şəkilçilərin sıralanma prosesini üç mərhələyə bölmək olar:

I mərhələ: Sıralanmanın 1-ci mərhələsində hadisə, əşya, hərəkətlə, əlaqədar olaraq məntiqi-semantik ardıcıllıq əsasında dilin lüğətindən sözlər, qrammatik formalar seçilir. Əgər «ev» haqqında danışılacaqsa-«ev,-divar,-qapı,-pəncərə»və sair sözlər seçilir. Bu mərhələ seçmə və ya seleksiya adlanır.

II mərhələ: Seçilmiş sözlərin və qrammatik formaların bir-birinə olan münasibəti müəyyənləşir,onların birləşmə qabiliyyəti aşkar olunur, valentliyi təyin edilir.

Beləliklə, dildə « evin qapısı» , «evin pəncərəsi» ,« evin divarı» və sair birləşmələri yaranır. Dildəki şəkilçilər müəyyən vəzifə daşıyır. Şəkilçilərin mənası onların semantik valentlik münasibətinin meydana çıxmasına şərait yaradır. Cümlə səviyyəsində semantik valentlik zamana,məkana və aspektə görə müəyyənləşir. Bir

qayda olaraq keçmiş, indiki və gələcəkdən,böyük məkan kiçikdən, təsdiq forma inkar formadan əvvəi gəlir.

III mərhələ: Əgər birinci və ikinci mərhələ bütün dillər üçün eynidirsə, 3-cü mərhələ dilin quruluşu ilə bağlıdır.Buna görə də eyni məqsəd üçün seçilmiş eyni valenti «stol»,«ayaq» (Azərbaycan dilində), -«leg», -«table»(ingilis dilində) sözləri müxtəlif şəkildə sıralanır.

Məsələn: -Stolun ayağı (Azərbaycan dilində).- The leg of the table(İngilis dilində).

İ.Rəhimov. İngilis dilinin praktik qrammatikası. Bakı, 1966. «Elm» n İ.Rəhimov. "İngilis dilinin praktik qrammatikası"kitabında qeyd edir:"Dil vahidlərinin semantik əsaslar üzrə sıralanması leksik-qrammatik sahələrin meydana çıxmasına səbəb olur. Sintaktik vahidlərin sıralanmasından danışarkən dil və nitqin münasibətini də nəzərə almaq lazımdır. Çünki dil və nitq ayrı-ayrı sıra xüsusiyyətlərinə malikdir.Dil və nitq müxtəlif, bir-birindən fərqli sıralanmanın meydana çıxmasına şərait yaradır.Dil və nitqlə əlaqədar olaraq söz sırasında əmələ gələn fərqləri aşağıdakı şəkildə qruplaşdırmaq olar:

1). Nitq ictimai hadisə olmaqla bərabər fərdiliyə də meyl edir.Buna görə də,dilin daxili qanunları əsasında yaranan söz sırasını məqsəddən asılı olaraq dəyişdirmək mümkündür. Dilçilikdə tez-tez rast gəldiyimiz adi, normal,düzgün sıralanma istilahları-dilə:qeyri-adi normal olmayan, inversiya edilmiş sıra isə -nitqə məxsusdur.Məsələn:- Kərim kitabı qardaşına verdi - cümləsi eyni dildə danışan bir neçə şəxsin(ümuminin) dilin daxili qanunları əsasında qurduğu cümlədir. Lakin bu cümləni bu və ya digər səbəbdən asılı olaraq müəyyən fərdlər- kitabı Kərim qardaşına verdi:- Kərim qardaşına kitab verdi: -Qardaşına Kərim kitabı verdi- kimi qura bilərlər.

2). Nitq hərəkidir, dinamikdir, amma dil isə statikdir, sabitliyə meyl edir. Dilin sabitliyi həmişə nitq tərəfindən pozula bilər. Beləliklə, nitq axınında sabit nə varsa dilə, dəyişkənliklər isə nitqə məxsus xüsusiyətdir.

3) Nitq bütün ictimai və tarixi hadisələrə məruz qalır. O realizasiya şəraiti ilə bağlıdır. Dilin daxili qanunauyğunluqlarına isə bunlar təsir edə bilmir. Yəni nitqdə dəyişikliklər baş versə belə, onlar daxili qanunauyğunluqlara təsir etmir."(3.s.56-67)

Dil vahidlərinin sıralanmasına xidmət edən göstəricilər ya isim, ya da feillə əlaqadardır. Əlbəttə, isim və ya feilin bütün kateqoriyaları deyil,ancaq ismin halları və feilin zamanları sıralanmaya xidmət edir.

L.Yelmslev yazır ki,sıra özü-özlüyündə hal kateqoriyasını ifadə edə bilər. Ondan bir az sonra bolqar dilçisi Teodorov Balamu halsız dil yoxdur fikrinə əsaslanaraq hətta,hal olmayan dildə belə halları axtarmışlar.Hər bir dildə sözlərin sadə cümlə əmələ gətirmə prosesində sıralanması müxtəlif xüsusiyyətlərə malikdir.

Belə ki, dilçi alim S.D.Kasnelson sadə cümlələrin qurulmasında halların sırasını mühüm amillərdən hesab edir, subyektlə obyektin bir-birindən yerinə görə seçildiyini göstərir.

Ganshina M.A., Vasilevskaya N.M., "English Gram - mar", Higher School Publishing House , 1964. 4.Ganshina M.A., Vasilevskaya N.M., "English Grammar", Higher School Publishing House"kitablarında yazırlar:" Əgər dildə feil ismi subyekt və obyektdən sonra gələrsə, belə bir sıralanma aparıcıdır və dildə hal sistemi vardır.İsmin hallarının cümlədə sözlərin sıralanması ilə əlaqadar olmasını Azərbaycan dilçilərinin əsərlərindən də görmək olar. Azərbaycan dilində sadə cümlədə sözlərin sırasından danışan S.Cəfərov tamamlığın yerindən bəhs edərkən biri-kimdən (nədən digəri isə-kimə (nəyə)) sualına cavab verən tamamlıqdan əvvəl kimdən, sonra isə kimə tamamlığının gəldiyini göstərir."(4.s.114)

Yaxud, biri kimlə, digəri isə kimə sualına cavab verən tamamlıqlardan əvvəl kimlə sonra isə kimə sualına cavab verən tamamlıq gəlir. Digər bir dilçi R.Xəlilov zərfliyin yerindən danışarkən yazır: Əşyanın çıxış və ya başlanğıc nöqtəsini bildirən və çıxışlıq halda duran yer zərfliyi əvvəl, hərəkətin istiqamət və yaxud qurtaracaq nöqtəsini bildirən və yönlük halda duran yer zərfliyi isə sonra gəlir.

ƏDƏBİYYAT:

1. T.Abbasquliyev. Azərbaycan və ingilis dillərində diplomatiya sözləri. «Elm» nəşriyyatı. Bakı, 1981.səh:315.
2. O.Musayev. İngilis dilinin qrammatikası. Bakı. 1979. səh.40
3. İ.Rəhimov. İngilis dilinin praktik qrammatikası. Bakı, 1966. «Elm» n.səh:56-67.
4.Ganshina M.A., Vasilevskaya N.M., "English Gram - mar", Higher School Publishing House , 1964.p.114.

Земфира Маммадова,
Шахла Маммадова

ПОРЯДОК СЛОВ В АНГЛИЙСКОМ И АЗЕРБАЙДЖАНСКОМ ЯЗЫКАХ

Резюме

Порядок слов — членов предложения — в предложении зависит от понимания жизни и образа мышления носителей языка. Потому что без этого фактора невозможно упорядочение подлежащего, глагола или дополнения в речевом процессе. Соответственно, размещение сказуемого или предиката в начале или конце предложения связано с национально-этнической оценкой значения действия или подлежащего. Порядок слов в предложении основан на тематических или новостных центрах и носит линейный характер. Классификация простых предложений в азербайджанском языке осуществляется по наличию главных и второстепенных членов; На основе этого критерия определяются сложноподчиненные и сложносочиненные предложения.

Остальные члены предложения группируются вокруг этих двух членов предложения, определяя их с точки зрения образа действия, времени и т. д. Он проясняет отношения между. Таким образом, перемещение двух центров в разные позиции в предложении не влияет на функциональное расположение слов в предложении. Однако их базовая структура имеет соответствующее местоположение, которое фиксировано относительно функционального местоположения (В односоставных и сложносочиненных предложениях существует соответствующий порядок слов. Поэтому мы рассмотрели порядок слов в указанных типах предложений.

Ключевые слова: порядок слов, английский язык, простое предложение, азербайджанский язык, развитие, терми

Zemfira Mammadova,Shakhla Mammadova

WORD ORDER IN ENGLISH AND AZERBAIJANI LANGUAGES

Summary

The order of words — members of a sentence — in a sentence depends on the understanding of life and the way of thinking of native speakers. Because without this factor, it is impossible to order the subject, verb or object in the speech process.

Accordingly, the placement of the predicate or predicate at the beginning or end of a sentence is associated with the national-ethnic assessment of the meaning of the action or subject. The order ofTwords in a sentence is based on thematic or news centers and is linear. Classification of simple sentences in the Azerbaijani language is carried out by the presence of main and secondary members; Based on this criterion, complex and compound sentences are determined. The remaining members of the sentence are grouped around these two members of the sentence, defining them in terms of the mode of action, time, etc. It clarifies the relationship between. Thus, moving two centers to different positions in the sentence does not affect the functional arrangement of words in the sentence.

However, their basic structure has a corresponding location, which is fixed relative to the functional location (1). In single-member and compound sentences, there is a corresponding word order. Therefore, let us consider the word order in the specified types of sentences.

Keywords: order of words, English language, simple sentence, Azerbaijani language, development, term.

Rəyçi: filologiya elmləri doktoru,dosent Yusif Süleymanov.

CƏFƏRLİ ƏSMƏR. M.
Sumqayıt Dövlət Universiteti, Sumqayıt şəhəri 43-cü məhəllə, Bakı küç. 1
e-mail: jafarliasmar90@gmail.com

"QƏLƏBƏ" KONSEPTİNƏ PSİXOLİNQVİSTİK YANAŞMA

Xülasə: Məqalədə Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyevin 20.12.2020-ci il Zəfər paradındakı nitqi əsasında "qələbə" konsepti psixolinqvistik aspektdən tədqiq olunur. Nitq prosesində dil vahidlərinin seçimi və üslubi xüsusiyyətləri dinləyicidə emosional təsir yaradır və bu təsir vasitəsilə dərketmə formalaşdırılır. Təhlil nitqin emosional-psixoloji funksiyalarını üzə çıxarır.

Açar sözlər: qələbə, konsept, psixolinqvistika, verbal vasitələr, söz, ifadə, emosiya

A PSYCHOLINGUISTIC APPROACH TO THE CONCEPT OF "VICTORY"

Jafarli Asmer . M.

Abstract.
The article examines the concept of "victory" from a psycholinguistic perspective based on the speech of the President of the Republic of Azerbaijan, Ilham Aliyev, delivered at the Victory Parade on December 20, 2020. The speech process involves the selection of linguistic units and stylistic features, creating an emotional impact on the listener, which in turn shapes perception. The analysis reveals the emotional and psychological functions of the speech.
Keywords: victory, concept, psycholinguistics, verbal means, word, expression, emotion.

ПСИХОЛИНГВИСТИЧЕСКИЙ ПОДХОД К КОНЦЕПТУ "ПОБЕДА"

Джафарли А. М.

Резюме
В статье на основе речи Президента Азербайджанской Республики Ильхама Алиева, произнесенной на Параде Победы 20.12.2020 года, рассматривается концепт «победа» с психолингвистической точки зрения. В процессе речи выбор языковых единиц и стилистических особенностей оказывает эмоциональное воздействие на слушателя, способствуя формированию восприятия. Анализ выявляет эмоционально-психологические функции речи.
Ключевые слова: победа, концепт, психолингвистика, вербальные средства, слово, выражение, эмоция.

Giriş: Dilçilik və psixologiya fərqli elm sahələri olsa da, bir- birilə qarşılıqlı əlaqədə inkişafdadır. Nitq aktı psixolinqvistikanın əsas predmeti olmaqla, nitqi yalnız ünsiyyət vasitəsi kimi deyil, eyni zamanda insanlar arasında psixoloji təsir gücünə malik bir vasitə kimi öyrənir. Əvvəlcə onu qeyd edək ki, dilçilikdə dil psixologiyası və psixolinqvistika anlayışları mövcuddur. Bu anlayışlar eyni məsələyə fərqli yanaşmaları (dil psixologiyası daha çox linqvistik, psixolinqvistika isə daha çox psixoloji aspektdən yanaşır) əks etdirir. Psixolinqvistika psixologiya və dilçiliyin vəhdətindən yaranmış elm sahəsidir. "*Nitqin yaranması və mənimsənilməsi prosesi psixolinqvistika elminin həllinə cəhd etdiyi ən qlobal məsələdir. Daha doğrusu, psixolinqvistika bir elm sahəsi kimi məhz bu problemin araşdırılması məqsədi ilə yaradılmışdır."* [4, s 28] . Danışarkən hansı hissləri ifadə etdiyimiz, yaşadığımız duyğular, affekt halları (ruhi həyəcan, qorxu və s), eyni zamanda, anlama və ya anlaya bilməmə, qızarma, utanma dildən istifadə zamanı duyğuların təsirində baş verən psixoloji proseslər psixolinqvistikada öyrənilir. İnsan danışarkən həm öz, həm də qarşı tərəfin psixi vəziyyətinə, dərk etməsinə uyğun olaraq nitqini müəyyənləşdirir. Belə bir sual yaranır: Nitqin auditoriyaya olan psixoloji təsirində dilin rolu nədən ibarətdir?

Ferdinand de Sössürün dil və nitq anlayışlarını fərqləndirməsi müasir dilçiliyin fundamental əsasını təşkil edir. L. V. Şerbanın üçlük modeli (dil materialı-mətnlər, dil sistemi-lüğətlər, qramma-tika, dil fəaliyyəti-danışıq və anlama nitqi) dilin və nitqin fərdi və sosial aspektlərini daha geniş izah etməyə imkan verir. "*Zinder və Andreyev isə bu modeli daha da genişləndirərək, dörd kateqoriyadan ibarət bir sistem təklif edirlər: dil, nitq, nitq aktı, nitq materialı.*" [8, s 15] Fikrimizcə, bu model dilin konkret tətbiqetmə formalarını daha aydın izah edir. Lakin onların nitq aktını sadəcə bir proses kimi görməsi, fikrimizcə, bir qədər məhdudlaşdırıcıdır. Nitq aktı sadəcə proses deyil, həm də fəaliyyət kimi qiymətləndirilməlidir. Burada "nitq qabiliyyəti" anlayışının nəzərə alınmaması, fikrimizcə, modelin zəif nöqtələrindən biridir. Bununla belə, bu nəzəriyyələrin bəziləri, xüsusən də nitq aktını yalnız proses kimi görən yanaşmalar, müəyyən məhdudiyyətlərə malikdir. A.A. Leontyevin nitq fəaliyyətini motivləşdirilmiş və məqsədyönlü bir fenomen kimi dəyərləndirməsi, nitqin yalnız kommunikativ vasitə deyil, həm də daxili mənəvi ifadə vasitəsi olduğunu vurğulayan orijinal yanaşmadır.

Təfəkkürdə formalaşan hər bir anlayış sözlərlə adlandırılır. Adlandırma anlamaq üçün vacib prossesdir. Söz təfəkkürdə formalaşan fikirləri, var olan hər şeyi adlandıran unikal bir kod kimi çıxış edir. Hər bir söz isə məhz təfəkkürdə yaranır. Mayıl Əsgərov dil struktur vahidlərini nitqin mənbəyi adlandırır. Onun fikrincə, *" söz dərketmə və təfəkkürün vasitəsi yox, son məhsuludur."* [4, s.165] Vıqotski də sözün həm nitq, həm də təfəkkür olduğu fikrini irəli sürür. O, belə hesab edir ki, beyində canlanan fikir sözdə tamamlanır. Zənnimizcə, həqiqətən, insanın təfəkküründə canlanan fikrini, beynin ətraf aləmdən dərk etdiyini ifadə edən dil vahidi olan sözlərdir. İnformasiya mübadiləsi nitq prosesində reallaşır. Nitq prosesi

danışanın fikri səsləndirməsi və dinləyənin fikri qəbul edərək yenidən emal etməsi prosesidir. Düşünürük ki, dərketmə, fikir emalı məhz verbal vasitələrlə ifadə olunduqda proses tamamlanır. Nitqdə dil vahidlərinin seçimi, nitqin üslubi xüsusiyyətləri dinləyicidə müxtəlif emosiyalar oyatmaqla yanaşı, dərin emosional təsir nəticəsində dərketməni də formalaşdıra bilir. Qorbatyukun sözləri ilə desək, "Bir çox sözlər özündə "pis" və ya "yaxşı" anlamında emosional qiymətləndirmə xüsusiyyətini ehtiva edir. Bununla da onlar müəyyən assosiativ görüntülü, eşidilən və hiss oluna biləcək obrazlar yaradır" [5, s 90] Nitqin emosional təsir gücünü artıran dil vahidlərinin seçimi, bu seçimin psixolinqvistik təsirləri hazırkı dövrdə ölkəmizdə, həmçinin, beynəlxalq səviyyədə milli ideologiyanın gücləndirilməsi və ictimai şüurda özünüdərk proseslərinin təhlili üçün *aktualdır*. Eyni zamanda, konseptlərin dil vasitəsilə formalaşması və emosional təsir mexanizmlərinin araşdırılması dünya psixolinqvistikasında yeni yanaşmalara yol açır. Bu yanaşmalar yalnız elmi deyil, həm də ictimai-siyasi səviyyədə əhəmiyyətlidir. Fikrimizi əsaslandırmaq üçün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 10 dekabr 2020-ci il Zəfər paradında səsləndirdiyi nitqinə baxdıq. Nitq ölkənin tarixi qələbəsini və milli birliyini ifadə edən mühüm mətn kimi bu tədqiqatın əsasında dayanır. Tədqiqatda "qələbə" konseptinin Azərbaycan dilində milli qürur və emosional birliyi əks etdirən məfhum kimi funksiyasını araşdıraraq, Ali Baş Komandan İlham Əliyevin nitqinin leksik-semantik xüsusiyyətlərini psixolinqvistik aspektdən təhlil etməklə mövzunun nəzəri və tətbiqi əhəmiyyətini genişləndirməyi hədəfləyirik. "Qələbə" anlayışının konkret situativ çıxışlar əsasında dərinləşdirilməsi və liderlərin nitqlərindəki psixolinqvistik aspektlərin təhlili geniş tədqiq olunmamış bir sahədir. Bu məqalə həmin boşluğu qismən doldurараq bu mövzunun gələcək tədqiqatlarına töhfə verə bilər. Məqalədə nitqdən seçilmiş sözlərin və ifadələrin *statistik və semantik analizi* əsasında psixolinqvistik təsir göstəriciləri araşdırılmışdır.

1.Nitqin psixolinqvistik analizi: nəzəriyyələr və yanaşmalar

Psixolinqvistika sahəsində V. Humboldt, Leontyev və Xomski kimi alimlərin tədqiqatları bu sahədəki nəzəriyyələrin yaradılmasında fundamental rol oynayır. Müasir Azərbaycan dilçiliyində isə M.B. Əsgərov və Z.Q. Musəvi kimi tədqiqatçılar nitqi psixoloji və koqnitiv aspektdə araşdırmışlar. V.Humboldtun fikrincə, "nitq bir tərəfdən, ümumiyyətlə, səsdir, digər tərəfdən isə hissi təəssüratların, daxilə yönəlmiş ruhi fəaliyyətlərin məcmusudur." [4, s 32] Vundtun fikrincə, nitqin mənimsənilməsi prosesi onun xarici strukturunun (xarici struktur dedikdə cümlənin sintaktik strukturunu nəzərdə tuturdu) qəbul olunması ilə başlanır. Bu proses fikirlərin sözlərlə ifadə olunaraq sistemli şəkildə strukturlaşdırılmasına imkan yaradır. "V.Vundta görə, nitqi yaratma və onu mənimsəmə funksiyaları tək bir məqsədə xidmət edir ki, bu da aktiv kommunikantın nitq obyekti ilə bağlı ümumi təsəvvürlərini passiv kommunikantın
həmin obyektlə bağlı ümumi təsəvvürlərinə çevirməkdir. Nitqin yaradılmasına qədərki və ondan sonrakı fəaliyyətləri V.Vundt təfəkkür (və ya düşünmə) hesab

edir.”[4, s 37] Xomskinin transformativ psixolinqvistika nəzəriyyəsində həm formal dil strukturları öyrənilir, həm də kommunikantın nəzərdə tutduğu məna yükünün dillə ifadəsi öyrənilir. Onun əsas diqqət mərkəzi, dilin sintaktik strukturlarının necə qurulduğunu və bu strukturların fikirlərin ifadə olunmasında hansı rol oynadığını öyrənməkdir. Xomski, xüsusilə, dilin qəbulunu və dinləyicinin nitqi anlama mexanizmlərini araşdıraraq, universal qrammatika konsepsiyasını təqdim edir. Bu yanaşma dil strukturlarının öyrənilməsində fundamental bir mərhələ olsa da, yalnız dinləyici tərəfindən qavrayışa fokuslanması onun birtərəfliliyinə gətirib çıxarır. Nitqin yaranma prosesi (məsələn, düşüncənin dilə çevrilməsi) Xomski nəzəriyyəsində daha az əhatə olunur. Dil işarəsini ünsiyyətin silahı, dərketmənin texnikası adlandıran Leontyev Xomskinin bu fikirlərini tənqid edir. Leontyevin Xomskinin birtərəfliliyini tənqid etməsi onun praktiki dil fəaliyyətinə daha çox diqqət yetirməsinə əsaslanır. Çünki, Xomski nitqin qəbulu və dinləyici tərəfindən mənimsənilməsi məsələsini tədqiq edir, amma nitqin yaranması diqqətdən kənarda qalır. Leontyev sözlərin semantik yükünün nitq fəaliyyətinin psixolinqvistik təhlili üçün əhəmiyyətini göstərmişdir. Xomskinin struktur yönümlü nəzəriyyəsi dilin universal prinsiplərinin anlaşılmasında əsaslı bir mərhələ olmuşdur, lakin Leontyevin semantika və nitqin yaranmasına dair tədqiqatları bu sahədə daha geniş imkanlar təqdim edir.

Ş. Balli və J. Maruzonun araşdırmaları göstərir ki, nitq vasitəsilə insanlar qarşı tərəfə təsir etmək və onların düşüncə tərzini dəyişmək qabiliyyətinə malikdirlər.

Azərbaycan dilçiliyində Mayıl Əsgərov bu barədə yazır: ”dil, bir tərəfdən öz struktur vahidləri olan forma və nitq söyləmləri ilə birlikdə təfəkkür proseslərinin son məhsulu kimi meydana çıxır, ikinci bir tərəfdənsə, bir güzgü kimi məhz dərk olunmuş gerçəklik elementlərini əks etdirir. Yəni dil həm yaranması, həm də funksiyası baxımından tam linqvopsixoloji mahiyyət daşıyır.” [4, s 12] K.Həbibova isə “Nitq aktının psixolinqvistik xüsusiyyətləri” məqaləsində qeyd edir ki, “koqnitiv aktların əsasında birbaşa olaraq nitqi təsir dayanır” [5, s 92] Müəllifin fikrincə, nitqi təsir insanların biliyinə, dünyagörüşünün formalaşmasına təsir göstərə bilər. K.Həbibova nitq aktının əsas xüsusiyyətləri kimi emosionallıq, kommunikativ uyğunlaşma, iştirakçıların intellektual uyğunluğu, ünsiyyət şəraitinə və ictimai mühitə münasibət olaraq göstərmişdir.

Müasir psixolinqvistika sahəsində təcrübə və metodların genişləndirilməsi, sözlərin emosional yükləri psixolinqvistik analizlərdə diqqət mərkəzindədir. Relyasion nitq aktlarının (danışanın danışdığı vəziyyətdə digər iştirakçı ilə əlaqə qurmasına yönəlmiş nitq aktı, bax: Borozdina I.S. Teoreticheskiye aspekty kompleksnogo modelirovaniya relyatsionnykh rechevykh aktov / Teoriya yazyka i mezhkul'turnaya kommunikatsiya. Kursk, 2012. №1, c. 1-6)
araşdırılması, mediadiskursun təsir mexanizmlərinin öyrənilməsi və dilin koqnitiv modellər vasitəsilə təsviri bu sahənin perspektivlərindən biridir.

2.Nitqin leksik, semantik, sintaktik vahidlərinin emosional yükü.

Şəxsiyyətlərarası və ictimai ünsiyyətdə istifadə olunan isimlər konseptual sahələri formalaşdırır. Tarixi hadisələr və milli simvollarla əlaqəli emosional duyğuların gücləndirilməsi üçün vasitə rolunu oynayır. İsmayıl Kazımov "Müasir Azərbaycan dili leksikasının koqnitiv və linqvokulturoloji əsasları" məqaləsində yazır: "*isim bir nitq hissəsi kimi verbal konseptuallaşma sırasında xüsusi yeri tutaraq, xüsusi konseptolma statusuna malikdir. O, polifunksional semantik potensiala sahib nitq hissəsidir, konkret situasiyalarla ifadəsini tapır*." [5, s 19] Prezidentin nitqində daha çox işlənən isimlər bunlardır: *Şəhidlər, xatirəsi, gün, meydan, parad, dəvət, qardaş, nümayəndə, birləşmə, müharibə, tarix, nailiyyət, işğal, ədalət, zəfər, müharibə, ərazi, siyasət, soyqırımı, şəhər, kənd, qəsəbə, torpaq, ordu, əsgər, döyüş, bayraq, düşmən, xalq, quruculuq.*

Prezidentin nitqində müsbət emosional çalarlara malik isimlər dinləyicidə qürur, milli birlik və ümid hissləri oyadır: *nailiyyət, zəfər, ədalət.* Təkrarlar vasitəsilə vacib konseptlər vurğulanır və auditoriya üzərində təsir gücü artırılır. Nitqdə 6 dəfə *zəfər*, 5 dəfə *qələbə* sözləri təkrarlanır ki, bu da qazanılmış qələbənin əhəmiyyətini vurğulamaqla emosional üslubi çalar yaradır. Mənfi çalarlı sözlər isə keçmiş təcrübələrdən doğan ağrını və ya təhlükəni diqqət mərkəzinə çəkir, qələbə, mübarizə, şərəf və milli birlik mövzularını vurğulayır: *düşmən, işğal, soyqırım* - bu isimlər isə düşmənçiliyi vurğulamaqla, mənfi hadisələri, zərərləri ifadə edir.

Sifətlər təfəkkürdəki fikirlərin dinləyiciyə emosional şəkildə ötürülməsində mühüm rol oynayır, həmçinin, subyektin müəyyən obyekt və ya hadisəyə münasibətini ifadə etməyə imkan verir. Onlar nitqi zənginləşdirir, dinləyicinin emosional iştirakını təmin edir. Rəsmi nitqlərdə istifadə edilən sifətlər, xüsusilə liderlərin çıxışlarında, ictimai emosiyaların istiqamətləndirilməsinə və konkret hadisələrə xalqın münasibətinin formalaşdırılmasına xidmət edir. Cənab Prezidentin Zəfər paradında nitqində istifadə etdiyi *əziz, tarixi, şanlı, şərəfli, müzəffər* kimi sifətlər müsbət qiymətləndirilən, qürur və şərəf ifadə edən cümlələrdə yer alır. *Mənfur* kimi sifətlər nitqdə kəskin qəzəb və nifrət ifadə etməklə, mənfi emosional çalar yaradır. Bu cür sifətlər, xüsusilə düşmənin törətdiyi dağıntılara istinad edərkən, mənfi hadisələrin təsvirində təsirli vasitədir: *"Mənfur düşmən işğal edilmiş bütün torpaqları yerlə-yeksan edib. Bu məlumat artıq hər kəsdə var, videogörüntülər var. Azad edilmiş ərazilərə mənim səfərlərim bunu göstərir. Bütün binalar, bütün tarixi abidələr, məscidlər, qəbirlər, məzarlıqlar mənfur düşmən tərəfindən dağıdılıb. Biz onların hamısını bərpa edəcəyik. Artıq bərpa işləri başlanmışdır."* [1]

Feillər hərəkətlərin və proseslərin əsas daşıyıcısıdır, bu da konseptlərin dinamikasını yaratmağa imkan verir. Nitqdə feillərin istifadəsi, emosional tonun qurulması və auditoriyaya təsir mexanizmləri kimi xüsusiyyətləri tədqiq etdikdə müəyyənləşdirdik ki, feillərin seçimi, onların emosional çaları və semantik yükü vasitəsilə nitqin təsir gücü daha da artır. Qələbə, mübarizə, iradə, əzm kimi anlayışların vurğulanmasında dinamik və təsirli feillər əsas vasitə rolunu oynayır.

Belə ki, nitqdə *məhv etdik, başını əzdik, qovduq* kimi feillər işlədilir, hansı ki bu feillər dinləyiciləri düşmənə qarşı bir olub, birgə mübarizə nəticəsində qazanılmış uğuru ifadə edir. Qələbənin çətinliklərə baxmayaraq əzmkarlıqla əldə edildiyini, düşmənə qarşı güclü iradəni və amansız mübarizəni göstərir. Auditoriyanın düşmənə qarşı qəzəb hissini gücləndirir və bu hissləri birləşdirici gücə çevirir: *"Azərbaycan əsgəri, Azərbaycan zabiti bir amalla vuruşurdu ki, bu işğala son qoyulsun*" [1]


Nitqdə işlədilən *vuruşurdu, qaldırdı, döyüşdü* kimi feillər konkret hərəkətləri təsvir edir, qətiyyət və cəsarət nümayiş etdirir. Həmçinin, *gücləndirirdik, toplayırdıq, səfərbər edirdik* kimi feillər insanların qələbə ruhunu və milli birliyini dərk etmələrinə, keçmişin acı xatirələrindən dərs çıxararaq gələcəyə ümidlə baxmalarına kömək edir. Fikrimizin daha aydın ifadəsini aşağıdakı nümunələrdə müşahidə edə bilərik:

Qazanmaq feili qələbəni təsvir edir və müvəffəqiyyəti vurğulamaq üçün nitq boyunca 6 dəfə istifadə olunur. *Azad etmək* feili nitq boyunca 17 dəfə təkrarlanır. *Vuruşmaq feili* mübarizəni təsvir edir və ordunun şücaətini vurğulayır.

Nitqdə feillərin istifadəsi, onların zaman formaları emosional təsirin gücləndirilməsi və auditoriya ilə effektiv ünsiyyətin qurulmasında mühüm əhəmiyyət kəsb edir. Keçmiş zaman formasında işlədilən feillər tarixi uğurları vurğulayaraq kollektiv yaddaşı gücləndirir. Məsələn: *qazanmışdıq, yaratdıq, göstərdik, yaradırdıq*. İndiki zaman formasında olan feillər davam edən prosesləri dinamik şəkildə təsvir edir. Məsələn: *irəli gedirik, bərpa edirik, müdafiə edirik*. İndiki zamanda işlədilən feillər isə davam edən prosesləri, ardıcıl səyləri və gələcəyə olan bağlılığı vurğulayaraq nitqin dinamikliyini və aktuallığını artırır. *"Bu gün biz birlikdə Zəfər paradında iştirak edərkən, bir daha bizim birliyimizi həm xalqlarımıza, eyni zamanda, bütün dünyaya göstəririk."* [1]– Burada *göstəririk* feili birlik mesajını möhkəmləndirir və birgə gücün ifadəsini verir, auditoriyaya güvən ötürür. Feillərin gələcək zamanda işlədilməsi isə motivasiya hisslərini yaradır. Bu elementlər nitqin emosional yükünü artırır, dinləyicilərin qələbə ruhunu gücləndirir və milli birliyi ifadə edən təsirli bir üslub formalaşdırır: *bərpa edəcəyik, qovacağıq, başa vurmalıyıq və s*.

Prezident İlham Əliyev nitqində 59 dəfə *biz(bizim)* əvəzliyindən istifadə edir. Əvəzliklərin nitq prosesində istifadəsi haqqında Mayıl Əsgərov yazır: "nitq prosesində əvəzlikdən istifadə, ümumiləşdirmə, mücərrədləşdirmə və lakonikliyin ən yüksək həddidir" [4, s165] Təkrar vacib mesajların möhkəmləndirilməsi və diqqətin əsas konseptlər üzərində cəmləşdirilməsi üçün effektiv vasitədir.

"Voyant tools" proqramı əsasında əldə etdiyimiz, mətndə işləkliyi ilə seçilən ifadələr aşağıdakı qrafikdə aydın göstərilmişdir. 2-ci şəkildə böyük ölçüdə verilən sözlər təkrar sayı çox olan leksik vahidlərdir.



şəkil 1



şəkil 2

Mətndə yüksək işlənmə tezliyi ilə fərqlənən *biz(bizim)* əvəzliyinin psixolinqvistik təsirlərini aşağıdakı kimi qruplaşdırmaq olar:

1. Birlik mesajı**:** *Biz* əvəzliyinin dəfələrlə təkrarı prezidentin xalqla bir olub, ona arxalandığını, xalqın Prezidentinə olan yüksək inamını əks etdirir. Təkrardan istifadə edilərək kollektiv məsuliyyət, həmrəylik və birlik hissi auditoriyada daha dərindən formalaşdırılır: "*Biz bu qələbəni həm peşəkarlıq, qəhrəmanlıq hesabına, eyni zamanda, milli ruh hesabına qazanmışıq."* [1]

2. Motivasiya, inam hissi: **"***Biz düşmən tərəfindən dağıdılmış şəhər və kəndlərimizi birlikdə bərpa edəcəyik."* [1]

3. Mübarizə, əzm: "*biz müharibəni həm döyüş meydanında, həm siyasi müstəvidə qazanmışıq*." [1]

4. Sevinc: "*Bu gün biz qəhrəman xalq kimi bu bayramı qeyd edirik."* [1]

5.Qəzəb, nifrət: "*Amma biz sübut etdik ki, münaqişənin hərbi həlli var*." [1]

6.Tarixə bağlılıq: "*bütün dünya gördü ki, Qarabağ bizim əzəli tarixi torpağımızdır".* [1]

Nitqdə istifadə edilən sintaktik vahidlər də psixoloji, emosional və ideoloji təsir gücünə malikdir. Prezident İlham Əliyevin çıxışlarında işlənən frazemlər, məcazlar və təkrarlar milli ruhun və emosional bağlılığın təzahürü kimi çıxış edir. Aşağıdakı sintaktik vahidlərə nəzər yetirək:

Yurd yerləri ifadəsi - bu birləşmə ev, torpaq və millət anlayışlarını birləşdirir. Auditoriyanın yaddaşında itirilmiş yurd yerləri ilə bağlı hisslər oyadır və onların bərpasının vacibliyini vurğulayır*: "İşğaldan azad edilmiş yurd yerlərimizi yenidən qururuq."* [1]– Cümlə qayıdış və yenidənqurma prosesinin simvolu kimi işlədilir, dinləyicilərə gələcəyə ümid aşılamaqla yanaşı, cəmdə işlədilən feil birliyi simvolizə edir.

Qələbə bayrağını ucaltmaq ifadəsi qələbənin simvolu olan bayrağın qaldırılmasını təsvir etməklə azadlıq, müstəqillik və milli qürur hisslərini oyadır. İfadə vasitəsilə Prezident auditoriyaya qələbə ruhunu ötürür və xalqın birliyini möhkəmləndirir: *"Biz qələbə bayrağını Şuşada ucaltdıq."* [1] - Burada Şuşa şəhərinin azad olunması ilə bağlı qələbə bayrağının qaldırılması təsvir edilir ki, bu da şəhərin

tarixi əhəmiyyətini ifadə edir. Nitqdə işlədilən *yaşasın, bərpa edəcəyik, qaldıracağıq* kimi feillər birliyin gücünü hiss etdirir. Prezident İlham Əliyev bu ifadələri işlətməklə özünə, ordusuna, xalqına yüksək inamını ifadə edir.

İşğalçı qüvvələr- Bu birləşmə işğal altında olan torpaqların qeyri-qanuni olaraq işğal edildiyini vurğulamaq məqsədini ifadə edir: "*Mən son 17 il ərzində dəfələrlə demişdim ki, Ermənistan öz xoşu ilə bizim torpaqlarımızdan işğalçı qüvvələrini çıxarmasa, biz bu məsələni hərbi yollarla həll edəcəyik.* "[1]

"Qarabağ Azərbaycandır! - "Qarabağ Azərbaycandır! Qarabağ bizimdir! Qarabağ Azərbaycandır!" [1]Bu cümlə Qarabağın Azərbaycan ərazisi olduğunu vurğulamaq üçün nitqin sonunda 3 dəfə təkrar olunur. Qarabağın Azərbaycanın ayrılmaz hissəsi olduğunu möhkəmləndirir. Millətçilik ruhunu yüksəldir, xalqın Qarabağ məsələsindəki əzm və birlik hissini gücləndirir.

Şərəfli missiya - "Azərbaycan əsgər və zabitləri böyük qəhrəmanlıq, şücaət göstərərək şərəfli missiyanı yerinə yetirdi." [1] Bu məcaz Azərbaycan ordusunun mübarizəsinin yüksək dəyərlərə malik olduğunu ifadə edir və hərbi fəaliyyətin tərifini artırır.

Şəhidlərimizin əziz xatirəsi-Bu ifadə şəhidlərə hörmət və dərin emosional bağlılıq hissini ifadə edir. "Əziz" sözü şəhidlərin xalqın qəlbində xüsusi yer tutduğunu vurğulayır.

Tarixi zəfər- Tarixi və zəfər sözləri, müharibənin xalqın yaddaşında qalacağını, xalqın tarixində önəmli bir hadisə olduğunu göstərir. Bu, müsbət emosional yükü artırır. L.S. Vıqotskinin də dediyi kimi, "daxili nitqdə söz sözün mənasından çox-çox kənara çıxan məzmun daşıyıcısına çevrilir."[2, s 430]

Bütün dünyaya göstəririk - Bu ifadə qələbənin beynəlxalq səviyyədə tanınmasını və gücünü,qüvvətini,həmçinin siyasi təsirini göstərmək məqsədini daşıyır.

44 gün birləşməsi Prezidentin nitqində 6 dəfə təkar olunur. Qısa müddət ərzində əldə olunan əzəmətli uğurun simvolik ifadəsi kimi səslənir.

Quruculuq dövrü- Gələcəyə inam, motivasiya hisslərini ifadə edir:" *İndi isə bizim üçün yeni dövr başlayır - quruculuq dövrü."* [1] Bununla da, Prezident müharibə, dağıntılar çətinliklərdən sonra quruculuq işlərinin başladığını vurğulayır.

Nitqdə maraqlı məcazlara rast gəlmək mümkündür. *Dəmir yumruq* ifadəsi nitqdə birliyi simvolizə etməklə yanaşı, gücü və qətiyyəti göstərmək üçün işlədilir. Prezident İlham Əliyev nitqində bu ifadəni 4dəfə təkrarlanmaqla Azərbaycanın hərbi qüdrətini və xalqın iradəsini qəti hökmlə nümayiş etdirir. Bu məcaz düşməndə qorxu, xalqda hörmət və güvən hissi oyadır. İfadə həmçinin, xalqla olan birliyin və koordinasiyalı mübarizənin əhəmiyyətini vurğulayır: *"Dəmir yumruq yerindədir və bu, hər kəsə bir mesajdır."* [1] Natiq situasiyadan asılı olaraq sözün ya həqiqi ya da məcazi mənasından istifadə edir. Axutinanın da dediyi kimi, "sözün (simvolun) mənası daxili nitqdə mətn situasiyasının mental modelində ikiüzlü Yanus kimi

görünür, hansı ki, bir üzü dilçilik sistemlərinə, digəri isə situativ assosiasiyalara əsaslanır.”[2, s 431]

Naməd atəş - Düşmənin mülki əhaliyə qarşı törətdiyi hərbi cinayətləri ifadə etmək və dinc əhaliyə qarşı olan təxribatlarını göstərmək üçün bu ifadə işlədilir. ”*Bu naməd atəş nəticəsində 100-ə yaxın mülki vətəndaş, onların arasında uşaqlar, qadınlar həlak olublar. Dörd yüzdən çox mülki vətəndaş yaralanıb, beş mindən çox ev dağıdılıb, ya da ki, o evlərə ziyan vurulub.”* [1]

Nitqdə maraqlı üslubi çalar yaradan verbal vasitələrdən biri də frazemlərdir. Nitq boyu düşmənə olan nifrətini ifadə etmək üçün Prezident 3 dəfə *belini qırmaq* ifadəsini, 2 dəfə *başını əzmək* ifadəsini işlədir. Bu, nitqin daha maraqlı, səmimi, hər kəs tərəfindən başa düşülən və yaddaqalan olmasına şərait yaradır.

Nitqdəki sözlərin kontekstual mənaları, auditoriyada yaratdığı psixoloji təsir və bu sözlərin işlənmə tezliyinin statistik göstəricilərinə əsaslanaraq verbal vasitələri emosional məzmununa görə aşağıdakı kimi təsnif etmişik.

Emosional məzmun	*İsimlər*	*Sifətlər*	*Feillər*	*Əvəzliklər*	*Söz birləşmələri*	*Frazemlər*
birlik	*qardaş, xalq, dostluq, qardaşlıq*		*gücləndirirdik, toplayırdıq, səfərbər edirdik*	*biz*	*milli birlik, dəmir yumruq,milli ruh*	
qürur, mübarizə, əzm	*bayraq, ordu, zəfər, əsgər, siyasət, şəhidlər, əzmkarlıq*	*əziz, şanlı, şərəfli, müzəffər*	*məhv etdik, başını əzdik, qovduq*		*qələbə bayrağını ucaltmaq, döyüş meydanı*	*(qəhramanlığı) dilə gətirmək*
motivasiya, inam, gələcəyə ümid	*parad, quruculuq, bərpa*	*məqsədyönlü, yenilməz*	*bərpa edəcəyik, qovacağıq, başa vurmalıyıq*		*quruculuq dövrü*	-
qəzəb, nifrət	*işğal, soyqırımı, müharibə, döyüş, düşmən*	*mənfur, zərərli, təhlükəli, sərt, birmənalı, təcavüzkar*	*məhv etdik, əzdik*		*işğalçı qüvvələr, naməd atəş,hərbi təxribat*	*belini qırmaq, başını əzmək, baş qaldırmaq*
sevinc	*ədalət,zəfər,nailiyyət*	*parlaq, uğurlu*	*qazanmaq, azad etmək*		*Zəfər paradı, Lələtəpə yüksəkliyində qaldırılmış bayraq*	-
tarixi emosional yaddaş	*şəhər, kənd, qəsəbə, torpaq, tarix, ərazi*	*tarixi, əzəli, doğma*	*qazanmışdıq, yaratdıq, göstərdik*		*yurd yerləri, şanlı tarix, tarixi missiya*	-

Prezident xalqının mübarizə əzmini, Ordusunun qətiyyətini, qəhrəmanlığını göstərmək üçün yeri gəldikcə atalar sözlərindən də istifadə edir: “*Deyirdilər ki, öldü var, döndü yoxdur, sona qədər gedəcəyik. Ermənistan artıq təslim oldu, ağ bayraq qaldırdı, diz çökdü, öz layiqli cəzasını aldı və imdad dilədi Azərbaycan 44 gün ərzində parlaq qələbə qazanaraq Ermənistanı məğlub etdi, işğala son qoydu.* “ [1]

Nitq boyunca nəqli cümlələrə daha çox yer verən Prezident 2 ritorik sualdan, 8 nida cümləsindən istifadə edir. Bununla da, artıq doğma olan torpaqların işğalçı qüvvələr tərəfindən zəbt edilməsinə olan dözümsüzlüyünü, eləcə də danışıq yolu ilə həll tapa bilməməsini açıq-aydın şəkildə ifadə edir.

Nitqin ümumi strukturu təhlil edildikdə, ümumilikdə 146 cümlənin istifadə olunduğu müəyyən edilmişdir. Bu cümlələrdən 68-i mürəkkəb sintaktik quruluşa, 78-i isə sadə sintaktik quruluşa malikdir. Beləliklə, mətnin strukturunda sadə və mürəkkəb cümlələrin nisbəti analiz edilərək onun sintaktik müxtəlifliyi müəyyən edilmişdir. Sadə cümlələr: daha çox fikir qarışıqlığı yaratmamaq və fikri konkret, aydın ifadə etmək üçün istifadə olunur: "*Azərbaycan əraziləri 30 ilə yaxın işğal altında idi. Bu gün tarixi bir gündür. Bu gün Azadlıq meydanında Zəfər paradı keçirilir*." [1] Çıxışda subyekt-obyekt-fel cümlə quruluşu istifadə olunub, bu, çıxışın daha təbii, yaddaqalan, axıcı olmasına kömək edir.. Məsələn*: "Azərbaycan 44 gün ərzində parlaq qələbə qazanaraq Ermənistanı məğlub etdi."* [1]

Mürəkkəb cümlələr məqsədin ardıcıl şəkildə təqdim edilməsini təmin edir, bu da nitqin təsirini artırır*: "Biz uzun illər bütün beynəlxalq tədbirlərdə bu məsələ ilə bağlı həqiqətləri çatdırırdıq, böyük iş aparılmışdır və bu işin səmərəsi oldu.""Azərbaycan əsgəri, Azərbaycan zabiti bir amalla vuruşurdu ki, bu işğala son qoyulsun, bu haqsızlığa son qoyulsun, ədalət zəfər çalsın..."* [1]

Prezident cümlədə təkrarlardan istifadə edərək maraqlı, qətiyyətli üslubi çalar yaradır: "*Cəmi 44 gün ərzində Ermənistan ordusu məhv edildi, hərbi texnikası məhv edildi, canlı qüvvəsi məhv edildi və Azərbaycan öz gücünü, öz qüdrətini göstərdi*." [1] *Məhv edildi* sözünün bir cümlə daxilində 3 dəfə təkrarı Azərbaycan Prezidentinin siyasi qətiyyətini və Azərbaycan Ordusunun gücünü əks etdirir. Və ya: "*Azərbaycan əsgəri, Azərbaycan zabiti bir amalla vuruşurdu ki, bu işğala son qoyulsun, bu haqsızlığa son qoyulsun, ədalət zəfər çalsın, tarixi ədalət zəfər çalsın və buna nail olduq.* "[1]

Nəticə: Beləliklə, tədqiqat nəticəsində əldə etdiyimiz nəticələr aşağıdakılardır:

1.İsimlər konsept yaratma xüsusiyyətinə malikdir və nitqdə onların təkrarı (zəfər, qələbə, düşmən və s.) diqqəti əsas konseptual məzmuna yönləndirir.

2.Sifətlər auditoriyada müsbət (şanlı, şərəfli, əziz) və ya mənfi (mənfur və s.) emosional təsir yaradır.

3. Feillərin seçimi və onların emosional çaları nitqin təsir gücünü artırır. I şəxsin cəmində işlədilən feillər milli birliyi ifadə etməklə auditoriyanın düşmənə qarşı qəzəbini gücləndirir.

4."Biz" əvəzliyinin dəfələrlə təkrarı ilə birlik, sevinc, qürur, tarixə bağlılıq, mübarizə, əzm ifadə olunur.

5. Frazeoloji ifadələr və məcazlar nitqin daha axıcı, yaddaqalan olmasına şərait yaradır.

6.Təkrarlar nitqdə fikrin qətiliyini və gücü, qüdrəti ifadə edir.

Ədəbiyyat

1. Əliyev İ. Vətən müharibəsində Qələbəyə həsr olunmuş Zəfər paradında nitqi (10 dekabr 2020). https://president.az/az/articles/view/48793
2. Axutina T.V. Porojdenie i vospriyatie rechi i teksta. Rossiyskaya psikholingvistika: itogi i perspektivy (1966–2021) Moskva, 2021,625 s.
3. Borozdina I.S. Teoreticheskiye aspekty kompleksnogo modelirovaniya relyatsionnykh rechevykh aktov / Teoriya yazyka i mezhkul'turnaya kommunikatsiya.Kursk, 2012. No 1, c. 1–6
4. Əsgərov M**.** Linqvo-psixoloji vəhdət nəzəriyyəsi**.** Elm və Təhsil. Bakı, 2015.
5. Həbibova Könül. Nitq aktının psixolinqvistik xüsusiyyətləri. Dilçilik araşdırmaları. Sentyabr-dekabr 2019, № 2. s 88-93
6. Kazımov İ. Müasir Azərbaycan dili leksikasının koqnitiv və linqvokulturoloji əsasları Azərbaycan dili və ədəbiyyatın tədrisi. 2021, № 3 (269), 10–29
7. Qazıyeva N. Lider nitqinin praqmafonetik xüsusiyyətləri. (Heydər Əliyevin nitqi əsasında) Azərbaycan ədəbiyyatşünaslığı, №2, 2023 s 1-9
8. Leontyev A.A. Osnovı psixolinqvistiki**.** Moskva: Smısl, 1997, 287 s.
9. Leontyev A.A. Dil, nitq, nitq fəaliyyətləri**.** Moskva: "Prosveşeniye", 1969.
10. Lakoff G., Johnson M. Metaphors we live by. Chicago: University of Chicago Press, 1981.
11. Dijk T.A. van. Society and Discourse. How Social contexts control text and talk. Cambridge: Cambridge University Press, 2009, 283 p.

Rəyçi elmlər doktoru,professor Ramazan Məmmədov

Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu, *ISSN 2224-9257*
Filologiya məsələləri № 3, 2025
Səh. ——————

HƏQİQƏT MEHDİYEVA
Azərbaycan Tibb Universiteti,
Bakı şəhəri, Mərdanov qardaşları 58
hmehtiyeva @internet.ru

TƏBABƏTDƏ İŞLƏDİLƏN ALMAN DİLİ MƏNŞƏLİ TİBB TERMİNLƏRİNİN AZƏRBAYCAN DİLİ TERMİNALOQİYASINDA YERİ.

Xülasə

Tibb sahəsində yaranan terminlərin araşdırılması təbabət tarixinin, o cümlədən tibb terminalogiyası tarixinin öyrənilməsi baxımından faydalıdır.

Tibb elmi inkişaf edərək XX əsrdə özünü doğrultmuşdur və özünün ən yüksək pilləsinə çatmışdır. Tibb inkişaf etdikcə yüzlərcə yeni - yeni söz və terminlər yaranmış və onların əksəriyyəti hazırda beynəlmiləl xarakter daşıyır.

Təbabətdə işlənən ən mühüm terminlərin əksəriyyəti yunan və latın mənşəli olsa da, başqa avropa dillərindən də bu sahəyə söz və terminlər keçmişdir. Belə ki, tibb terminalogiyasında müəyyən anlayışları ifadə edən alman mənşəli terminlərə də rast gəlmək olur.

Tibbdə ən çox işlənən terminlərdən biri "rentgen" sözüdür. Bu termin "rentgen" terminidir ki, məşhur alman fiziki, Nobel mükafatı lauriatı Wilhem Konrad Röntgenin adınadır. O, rentgen şüalarını kəşf etdikdən sonra onun şərəfinə adlandırılmışdır. Digər dillərdə olduğu kimi, müasir Azərbaycan dilində də bu termin öz əksini tapmışdır. Azərbaycan dilində "rentgen" termini ilə bağlı bir çox söz və söz birləşmələrini işlədilir. Məs. rentgenoloq, rentgenoterapiya, rentgenodiognostik və s.

Beləliklə, alman mənşəli tibbi terminlərin Azərbaycan dilində araşdırılması, fikrimcə, maraq doğura bilər.

Açar sözlər: Tibbi terminlər, xalg təbabət tarixi, rentgen, tibb terminalogiyası

HAQİQAT MEHDİYEVA

ABSTRACT

STUDY OF MEDICAL TERMS IS SIGNIFICANT FOR RESEARCHES BOTH IN HISTORY OF MEDICINE AND HISTORY OF THE MEDICAL TERMINOLOGY

Development of the medical science has reached the top level in the XX century. Hundreds of new medical phrases and terms have been introduced into medical language with the development of Medicine. A great deal of this vocabulary is applied internationally nowadays.

Though the great majority of the essential medical terms are of Greek and Latin origin, a part of these terms as been borrowed from other European languages, too. So that some terms for certain definition used in medical terminology are found out to be of German origin.

One of the most frequently used terms in Medicine is “roentgen”. This term stands for the name of famous German physicist Wilhelmina Conrad Rontgen, the Nobel prize winner. He discovered the unknown rays which then were called in his honour “Roentgen rays”.

As in all other languages, this term is widely used in modern Aserbaijan language. There a lot of word-combinations with this term in Aserbijan language, e.g. “rentgenolog, rentgenoterapiya, rentgenodiagnostik” and so an.

Thus, we consider that the study of the medical terms with German origin in Aserbaidjan language will be of great interest.

Key words: Medical terms, history of medicine, roentgen, medical terminology

КРАТКИЙ ОБЗОР

ИССЛЕДОВАНИЕ ТЕРМИНОВ, ВОЗНИКШИХ В ОБЛАСТИ МЕДИЦИНЫ, ПОЛЕЗНО С ТОЧКИ ЗРЕНИЯ ИЗУЧЕНИЯ ИСТОРИИ МЕДИЦИНЫ, В ТОМ ЧИСЛЕ ИСТОРИИ МЕДИЦИНСКОЙ ТЕРМИНОЛОГИИ.

Медицинская наука в XX веке развилась, оправдала себя и достигла наивысшего уровня. По мере развития медицины появились сотни новых слов и терминов, большинство из которых в настоящее время носят международный характер.

Хотя большинство важнейших терминов, используемых в медицине, имеют греческое и латинское происхождение, в эту область вошли также слова и термины из других европейских языков. Таким образом, в медицинской терминологии существуют и термины немецкого происхождения, выражающие определенные понятия.

Одним из наиболее употребляемых терминов в медицине является слово «рентген». Термин «рентген» назван в честь известного немецкого физика, лауреата Нобелевской премии Вильгельма Конрада Рентгена. Он был назван в его честь после открытия рентгеновских лучей. Как и в других языках, этот термин нашел отражение в современном азербайджанском языке. В азербайджанском языке используется множество слов и словосочетаний, связанных с термином «рентген». Например, врач-рентгенолог, рентгенотерапия, рентгенодиагностика и т.д.

Таким образом, на мой взгляд, исследование медицинских терминов немецкого происхождения в азербайджанском языке может представлять интерес.

Ключевые слова:

Медицинские термины, история медицины, рентген, медицинская терминология

Tibb elmi qədim bir tarixə malikdir. Bu elm sahəsi qədim olduğu qədər də həmişə diqqəti cəlb etmişdir. Həm insanlarda, həm də heyvanlarda rast gəlinən müxtəlif xəstəliklərin müalicəsi və yaxud profilaktikası üçün bu sahə həmişə düşüncə obyektinə çevrilmişdir. Vaxtilə cəmiyyətdə xalq təbabəti də geniş yayılmış, bu sahədə müəyyən işlər görülmüş və araşdırmalar aparılmışdşr.

İndiki tibb elmi üçün əsas mənbə hesab edilən xalq təbabəti geniş yayılmış və bu sahədə aparılan elmi araşdırmaları yüksək qiymətləndirmək vacibdir.

Tibb sahəsində yaranan terminlərin araşdırılması təbabət tarixinin, o cümlədən tibb terminalogiyası tarixinin öyrənilməsi baxımından faydalıdır.

Müasir tibb sınaqdan çıxmış xalq təbanətinin məhsulu və davamıdır. Beləliklə xalq təbabəti əsrlər boyu özünü doğrultmuşdur.

Tibb elmi inkişaf edərək XX əsrdə özünün ən yüksək pilləsinə çatmışdır. Tibb inkişaf etdikcə dilə saysız hesabsız yeni - yeni söz və terminlər keçmiş və onların əksəriyyəti hazırda beynəlmiləl xarakteri daşıyır.

Təbabətdə işlənən ən mühüm terminlərin əksəriyyəti yunan və latın mənşəlidir. Lakin avropa dillərindən də bu sahəyə çoxlu söz və terminlər keçmişdir. Belə ki, tibb terminalogiyasında müəyyən anlayışları ifadə edən alman dili mənşəli terminlərə də rast gəlmək olur. Belə terminlərdən : lanset, linza, finoz, flüsbar, bormaschin, rentgen və s. adlarını çəkə bilərik.

Lanset (Lanzette) termininin əsli yunan sözü olsa da, alman dili vasitəsilə yayılmış və tibbdə geniş işlədilir. Bu cihaz təbabətdə neştər, cərrah bıçağı anlayışını verir və ondan qan almaq, kəsmək və peyvənd üçün istifadə edilir.

Linza (Linze) sözünün hərfi mənası " mərci", "mərcimək" deməkdir. Anatomiya termini kimi göz biluru mənasında işlədilir.

"Linza" fizika termini kimi, həm də mərci şəkilli optik şüşə anlayışını bildirir. Buna ədəsə də deyilir.

" Finnor" (Finor) yunan mənşəli "sistiserkoz" sözünün sinonimidir. Tibdə lentşəkilli qurdların törətdeikləri xəstəlikdir.

"Flüs" (Flüß) tibb termini kimi diş xəstəliyini bildirir. Xəstə dişin ətinin iltihabıdır.Bu termin texnika terminalogiyasında domna sobalarında filizlə yanacaq arasında tökülən maddədir.

" Bor" (Bor) termini tibdə, stomotologiya sahəsində diş müalicəsində işlədilən qurğudur.

Dilimizdə latın dili mənşəli "bor" termini də işlədilir ki, bu, kimya termini kimi bir neçə mineralın tərkibinə daxil olan tünd boz rəngli kimyəvi elementdir.

Alman dili mənşəli "bor" sözündən " bor maşın" (Bormaschiene) termini də işlədilir ki, buda stomologiyada işlədilir.

"Bormaschiene" xüsusi bir termin kimi dişlərin içini oymaq, təmizləmək üçün diş həkimlərinin işlətdiyi burğu maşınıdır.

Tibdə çox işlənən terminlərdən biri "rentgten" sözüdür. Bu termin rentgen və qamma şüalarının eskosiya dozasının sistemindən kənar vahidi kimi anlaşılır, şüaların havada ionlaşdırıcı təsiri ilə müəyyən olunur.

"Rentgen" termini məşhur alman fiziki, Nobel mükafatı laureatı Wilhelm Konrad Röntgenin adınadır. O, rentgen şüalarını 1895 ci ildə kəşf etdikdən sonra onun şərəfinə "Röntgen" adlandırılmışdır. O zamandan indiyə qədər onun kəşf etdiyi aparatdan istifadə olunur. Buundan sonra rentgen sözü internotional termin kimi bütün dillərə keçmiş və həmin dillərdə formalaşmışdır. Belə ki, digər dillərdə olduğu kimi, müasir Azərbaycan dilində də bu termin öz əksini tapmış, ümumişlək sözə çevrilmişdir.

"Röntgen" sözü ilə bağlı dilimizdə sintaktik üsulla bir çox termin və termin-söz birləşməsi yaranmışdır.

"Azərbaycan dilinin orfoqrafik lüğəti"ndə (Bakı 2004) rentgen termini ilə bağlı aşağıdakı söz və söz birləşmələrini göstərə bilərik:

Rentgen – quruluş
Rentgenləşmə
Rentgenodioqnostik
Rentgeno – dioskopiya
Rengenofizioloq
Rentgenofotogrofiya
Rentgenologiyi
Rentgenoloq
Rentgenoterapiya və s.

Burada həmin terminlərin bəzilərinə ehtiyac duyduğumuz üçün bir neçəsinin izahını verməyi məqsədəuyğun hesab etdim.

Rentgenoqram (Röntgenogramma)

-rentgen şüaları ilə tədqiq olunan obyekt maddəsinin qarışmasının təsirindən yaranan "kölgə" şəklinin işığa həssas material üzərində qeyd olunmuş təsirli, plyonkada alınan rentgen şüaları üsulu.

Rentgenodioqnostika (Röntgenodiognostisch)

-rentgendioqnostikaya aiddir.

Rentgenodiagnostika (Röntgenodiogiognostik)

-rentgenoloji müayinə nəticəsində insan və heyvan orqanizmindəki zədələnmiş nahiyyəni və potoloji prossesləri müəyyən etmək.

Rentgenokimoqrafiya (Röntgenokimographie)

-daxili orqanların hərəkətini öyrənmək üçün tətbiq edilən rentgenoqrafik üsul.

Rentgenologiya (Röntgenologie)

-tibb və baytarlıq fənni: tibbin, rentgen şüalarının diaqnostika və müalicə məqsədilə tətbiqindən bəhs edən şöbə.

Rentgenoskopiya (Röntgenoskopie)

-rentgenoloji müayinə.

Rentgenoloq (Röntgenolog)

-rentgenologiya ilə müalicə mütəxəsisi olan həkim.

Rentgenoloji (Röntgenologisch)

-rentgenologiya ilə əlaqədar olan.

Rentgenoterapiya (Röngenoterapie)

-rentgen müalicəsi.

Bunlardan başqa dilimizdə termin - söz şəklində formalaşan alman dili mənşəli birləşmələrə isə aşağıdakıları göstərə bilərik. (Nümunələr ASE-dən götürlmüşdür)

Rentgenapparat (Röntgenapparat)

-rentgen şüaları almaq və onlardan istifadə etmək üçün avadanlıq toplusu. Tətbiq sahəsinə görə rentgenodioqnostika və rentgenoterapiya üçün istifadə edilir.

Rentgen ekranı (Röntgenschirm)

-rentgen aparatının ekranı.

Rentgen çəkiliş (Röntgenaufnahme)

-rentgen şüaları ilə işıqlandırmaqla müxtəlif obyeklərin daxili qurluşunu əks etdirən təsviri fotograf və ya vidiomaqnit üsulla kölgə halında qeydə alınması.

Beləliklə, alman mənşəli tibbi terminlərin Azərbaycan dilində araşdırılması, fikirimizcə, maraq doğura bilər. Odur ki, alman mənşəli tibbi terminlərin Azərbaycan dili terminalogiyasında yerini müəyyənləşdirmək vacib məsələlərdən sayıla bilər.

Ədəbiyyat

1. Der Weg. Die Zeitschrift für Deutschlernende. Deutschland 2008
2. Gesundheit. Kleine Enzyklopädie. Leipzig 1968
3. ASE VIII cild
4. Deutsch für Medizin. Maria Györffy deutsch von Betty und Renate Bagassy. 2007

Rəyçi: prof. Məmmədova Z.Ş.
tərəfindən çapa tövsiyyə olunmuşdur.

An interesting phenomenon is that of pseudo-anglicisms—words that resemble English but are used exclusively in German with meanings different from their original source. For example, the German word Handy refers to a mobile phone, although this meaning does not exist in English.

Organizations such as Verein Deutsche Sprache (Association for the German Language) actively advocate for preserving the purity of the German language and propose replacing Englishisms with German equivalents. They publish an "Anglicism Index," offering alternatives to borrowed words.

Globalization has led to close interaction between countries, resulting in English becoming the language of international communication. In fields such as economics, politics, science, education, and culture, English serves as a universal tool for communication. Constant contact with English causes the German language to adopt vocabulary that reflects new realities. As the global language of communication, English is increasingly influencing both the professional and everyday vocabulary of German.

Key word: German language, anglicism, linguistics, communication language.

Qönçə Əbdülrəhimova

Anqlikizmlərin müasir alman dilinə nüfuz etməsində qloballaşmanın və internetin rolu

Xülasə

Anqlikizmlərin alman dilinə nüfuz etmə prosesi mürəkkəb və çoxşaxəlidir. O, müasir cəmiyyətdə təkcə linqvistik deyil, həm də sosial, mədəni və texnoloji dəyişiklikləri əks etdirir. Qloballaşma və internet ingilisdilli elementlər üçün əsas vasitəyə çevrilib, yeni linqvistik reallığı formalaşdırıb, xüsusən gənclərin nitqində, biznes və texnologiyada nəzərə çarpır. Bir tərəfdən, anglikizmlər dili zənginləşdirmək, onun ifadə vasitələrini genişləndirmək, yeni hadisələri tez bir zamanda təyin etməyə imkan vermək və qlobal ünsiyyətin bir hissəsi olmaq funksiyasını yerinə yetirir. Digər tərəfdən, onlar dilin linqvistik kimliyinin qorunub saxlanması və bütün danışanlar üçün əlçatan olması ilə bağlı narahatlıq doğurur. Beləliklə, dilçilərin və bütövlükdə cəmiyyətin vəzifəsi anglikizmləri qadağan etmək deyil, yenilik və ənənə arasında linqvistik tarazlığı qoruyub saxlamaqla onların istifadəsi haqqında şüurlu

olmaqdır. Almaniyada ingilisizmlərin alman dilinə təsiri ilə bağlı fəal müzakirələr gedir. Bəzi dilçilər linqvistik identikliyin mümkün aşınması ilə bağlı narahatlıqlarını ifadə edir, digərləri isə borc almağı linqvistik təkamülün təbii prosesi hesab edirlər.

Maraqlı bir fenomen psevdo-anglisizmlərdir - ingilis dilinə bənzəyən, lakin orijinaldan fərqli məna ilə yalnız alman dilində istifadə olunan sözlər. Məsələn, alman dilində "Handy" sözü mobil telefon deməkdir, baxmayaraq ki, ingilis dilində belə bir məna yoxdur. Verein Deutsche Sprache kimi təşkilatlar alman dilinin saflığının qorunmasını fəal şəkildə müdafiə edir və ingilisizmləri alman ekvivalentləri ilə əvəz etməyi təklif edirlər. Alınmış sözlərə alternativlər təklif edərək "Anglisizm İndeksini" dərc edirlər. Qlobal ünsiyyət dili olan ingilis dili alman dilinin peşəkar və gündəlik lüğətinə getdikcə təsir göstərməyə başlayıb. Alman dili ingilis dili ilə daim təmasda olmaqla, yeni reallıqlara uyğun gələn lüğəti mənimsəyir.

Qloballaşma ölkələr arasında sıx qarşılıqlı əlaqəyə səbəb oldu və nəticədə ingilis dili beynəlxalq ünsiyyət dilinə çevrildi. İqtisadiyyat, siyasət, elm, təhsil və mədəniyyət kimi sahələrdə universal ünsiyyət vasitəsi kimi xidmət edən ingilis dilidir.

Açar sözlər: qloballaşma, Alman dili, anglikizm, linqvistik, ünsiyyət dili.

Rəyçi: Sabor Aidə Burzu q
Filologiya üzrə fəlsəfə doktoru, dosnt

Azərbaycan Milli Elmlər Akademiyasi M. Füzuli adına Əlyazmalar İnstitutu, *ISSN 2224-9257*
Filologiya məsələləri № 3, 2025
Səh. ————————

MƏTANƏT BƏKİR QIZI ƏMRAHOVA
Filologiya üzrə fəlsəfə doktoru, dosent
Azərbaycan Dövlət İqtisad Universiteti (UNEC)
amrahova.metanet.76@gmail.com.

ИССЛЕДОВАНИЕ ЗАПАДНЫХ ДИАЛЕКТОВ АЗЕРБАЙДЖАНСКОГО ЯЗЫКА

Açar sözlər: *dialekt, təsnifat, leksik xüsusiyyətlər, fonetik sistem, Gəncə şivəsi*
Ключевые слова: *диалект, классификация, лексические особенности, фонетическая система, Гянджинский говор*
Keywords: *dialect, classification, lexical features, phonetic system, Ganja dialect*

В богатой диалектологической картине азербайджанского языка западная группа диалектов занимает особое место. Изучение этих диалектов имеет важное значение с точки зрения понимания исторического развития языка и его особенностей в различных регионах. Карабахский диалект, а также диалекты Гянджи и Казаха входят в западную диалектную группу азербайджанского языка.

Одним из ученых-лингвистов, занимавшихся исследованием Гянджинского говора, был Ахмед Джафароглу. А.Джафароглу, как и такие эмигранты, как М.Э.Расулзаде, А.Гусейнзаде, А.Агаоглу, М.Б.Маммедзаде, А.Юрдсевер, А.Топчубашев, Х.Байкара, Дж.Гаджибейли, был вынужден покинуть родину в период репрессий. Родившийся в 1899 году в Гяндже, А.Джафароглу является автором около 30 книг и 400 статей. Благодаря своим бесценным заслугам в области истории литературы и языка он признан выдающимся тюркологом и востоковедом, а его ценные труды принесли ему мировую известность. А.Джафароглу оказал незаменимые услуги в изучении тюркских диалектов. Собранные им образцы фольклора по тюркским диалектам представляют собой большую ценность и с точки зрения диалектологических фактов. Фольклорные материалы, собранные учёным по тюркским диалектам, охватывают девять томов.

В 1929 году под руководством профессора Ф.Гизе исследователь защитил диссертационную работу на тему «Лингвистический анализ 75 азербайджанских баяты на Гянджинском диалекте» и получил научную степень. Эта работа была опубликована в 1930 году в Берлине на немецком языке. Учёный, свободно владевший европейскими языками, всегда стремился сохранить местные говоры в собранных фольклорных текстах и изучить все специфические особенности языка, проявляющиеся в них (3).

Одним из весомых трудов, посвящённых исследованию гянджинских говоров, можно назвать диссертацию И.Гасанова под названием «Лексика Гянджинского диалекта (термины, связанные с животноводством и земледелием)» (4, с.190). Как следует из названия, этот труд посвящён не всей лексике Uянджинских говоров, а лишь её части - терминам, связанным с животноводством и земледелием. Это свидетельствует о том, что Гянджинские говоры чрезвычайно богаты и интересны с лексической точки зрения. В этом контексте «изучение терминов, содержащихся в лексике отдельных диалектов и говоров, имеет большое значение не только для диалектологии и терминоведения, но и для истории языка, исторической лексикологии, а также для составления различных словарей и диалектологических атласов. Диалектная лексика — это богатейшее сокровище. Всестороннее изучение этого сокровища важно как с теоретической, так и с практической точки зрения» (5, с. 18).

Труд И.Гасанова «Лексика Гянджинского диалекта» основан на материалах, собранных в области животноводства и земледелия из различных деревень Гянджинского, Ханларского и Горанбойского (бывшего Касым-Исмаиловского) районов. Для точного объяснения собранных терминов, определения оттенков значений, используемых в отдельных сельских говорах, а также их фонетических отличий, автор обратился к ряду трудов и статей по диалектологии, древним письменным памятникам, словарям, а также материалам современных тюркских языков. В диссертации термины, зафиксированные в Гянджинских говорах, классифицированы по тематическим областям; простые, производные и сложные термины всесторонне проанализированы, их лексико-семантические особенности подробно раскрыты. Работа состоит из введения, трёх глав и списка использованной литературы.

Первая глава диссертации посвящена терминам, связанным с животноводством. В данной главе эти термины подразделены на три группы: к первой отнесены термины, касающиеся овцеводства, ко второй — крупного рогатого скота и буйволоводства, к третьей — коневодства. Термины, относящиеся к овцеводству, в свою очередь, классифицированы по возрасту, полу, признакам, окрасу и другим характеристикам животных. Установлено, являются ли данные породы местными или заимствованными, а также проведено их сопоставление с другими говорами и родственными тюркскими языками.

Как и в случае с овцеводством, термины, относящиеся к разведению крупного рогатого скота и буйволов, классифицируются по возрасту животных (например, *bılıx*, *düyəçə*, *yazbuğa*, *avara* и др.), по их окрасу и внешним признакам (например, *ağbaş inəx, təpəl inəx, qaraşalvar inəx*), а также по признакам, связанным с рождаемостью (*gəzyazma*, *ərəmix*, *ətənə*, *mayalanma*),

болезнями (*qarapapax*, *davax*, *yelinsoy*, *cənnəmə*), местами содержания и отдыха животных (*sərdən*, *buğalıx*, *xalxal*, *məəl* и др.), доением (*oxşama*, *eydirmə* и др.) и видами молочных продуктов, получаемых от них (*ağız//ağuz*, *dələmə*, *körəməz*, *kətəməz*). Значения всех этих терминов были разъяснены, приведён их семантический анализ. В этой части также рассматриваются и анализируются слова, обозначающие людей, занимающихся разведением и уходом за скотом — такие как *binəçi, quzuçu, naxırçı, dölçü, sərkar, kalladar, sığırçı, çodar*.

Термины, относящиеся к зерноводству, классифицированы по следующим темам: «названия земельных участков по их признакам и урожайности», «термины, связанные с вспашкой земли», «названия вод, подаваемых на зерновые культуры», «болезни зерновых культур», «названия арыков и их частей», «термины, связанные с жатвой и гумном», «названия орудий, используемых в сельском хозяйстве» и другие. Все эти термины проанализированы и пояснены (4, с.105)

Третья глава диссертации называется «Структура терминов, используемых в Гянджинском диалекте, относящихся к животноводству и сельскому хозяйству». В этой главе автор делит исследуемые термины на три группы: простые, производные и сложные термины.

Производные термины, образующиеся как от существительных, так и от глаголов, были тщательно проанализированы в данном исследовании. В частности, автор рассматривает образование терминов от существительных с использованием различных аффиксов, таких как: -lıx, -lix, -lux, -lüx / l-dıx, -dix, -dux, -düx / -nıx, -nix, -nux, -nüx / -rıx, -rix -rux, -rüx (например: *ağızdıx*, *əllix'*, *işdix*, *döllüx'* и др.); -çı, -çi, -çu, -çü (например: *sığırçı*, *ulançı*, *təlix'çi*, *dölçü* и др.); -lı, -li, -lu, -lü / -dı, -di, -du, -dü (например: *ətəx'li*, *mürcümlü*, *üzdü* и др. -ça, -çə (например: *dayça*, *kəlçə*, *düyəçə*); частично также -dax, -dəx' (например: *boğazdax*, *güzdəx*); -ənə (например: *ətənə*) и другие.

Эти аффиксы играют важную роль в образовании специфической терминологии, отражающей различные области животноводства и сельского хозяйства, и обсуждение их использования позволяет глубже понять структуру и особенности диалектной лексики.

Работа И.Гасенова «Лексика Гянджинского диалекта», посвященная западному диалекту Азербайджанского языка, после произведения М.Чобанова «Лексика азербайджанских диалектов Болнисского района Грузинской ССР» имеет большое значение как с точки зрения лингвистического исследования, так и с точки зрения систематизации и развития терминологии сельского хозяйства в Азербайджанском языке.

Одним из исследовательских трудов, посвящённых диалектам азербайджанского языка, является работа Е.И.Аллахвердиева «Афшарский говор Карабахского диалекта». Это произведение основано на материалах, собранных автором в 1990-1992 годах в деревнях Афшар, Каравелили,

Закаряли, Хиндарх, Хаджибеделли, Хусулу и Ходжавенд в Агджабединском районе.

В первой главе диссертации рассмотрены фонетические явления, наблюдаемые в Афшарском говоре. Особое внимание уделено использованию носовых гласных *а*, *ı*, *u*, которые встречаются в этом говоре, в отличие от других Карабахских диалектов. Также описаны дифтонги и их восходящие и нисходящие виды, замены гласных (например, *a* > *ə*, *ə* > *a*, *i* > *ı*, *ü* > *u*, *ö* > *ə*, *ə* > *ö*, *ə* > *e* и другие), а также замены согласных (например, *d* > *t*, *b* > *p*, *b* > *f*, *h* > *y*, *b* > *v*, *c* > *j*, *v* > *y*). Среди фонетических явлений также выделены ассимиляция, элизия и другие процессы изменения звуков.

Интересная особенность в склонении существительных с притяжательным суффиксом наблюдается также во втором лице единственного числа. В некоторых из исследуемых диалектов существительные, принимающие притяжательный суффикс во втором лице, при склонении в родительном, дательном и винительном падежах имеют изменение звука *n* на *v*: например, *başuvun*, *başuva*, *başuvu*, *əluvun*, *əluva*, *əluvu* и другие (1, 17). Одной из наиболее интересных особенностей, наблюдаемых в Афшарском говоре, является использование суффиксов *-uv* и *-u* вместо *-in* в родительном падеже существительных с притяжательным суффиксом в первом и третьем лице как в единственном, так и во множественном числе. Такие формы, как *bajımuv*//*bajımu*, *bajımuzuv*//*bajımızu*, *bajısmuv* и другие, до сих пор не встречались в других диалектах и говорах Азербайджанского языка.

Необходимо отметить, что эта интересная особенность, наблюдаемая в Афшарском говоре, была отражена в трудах М.Ширалиева, еще в 1962 году в его работе «Основы Азербайджанской диалектологии» (2, 158), в то время как И.Гулиев, несмотря на то что собирал материал по Афшарскому говору, не упомянул об этом явлении в своей работе “Говоры Агджабеди Азербайджанского языка». В разделе морфологии в контексте категории определенности для выражения второго лица во множественном числе в некоторых диалектах используется суффикс *-sız*, *-suz*, а также *-sınız*. В некоторых случаях встречаются вариативные формы *-suvuz*//*-suz*. Также в работе приводится информация о употреблении притяжательных суффиксов в формах личных местоимений второго и третьего лица в единственном и множественном числе, где в родительном падеже вместо *-in* используется суффикс *-uv*.

Синтаксическая часть диссертации посвящена синтаксическим связям, словосочетаниям, определению их различий с литературным языком, порядку слов в предложении, структуре предложений, простым и сложным предложениям и так далее в афшарском диалекте. Было установлено, что в исследуемых диалектах наблюдаются отличительные особенности в использовании времен, форм, вспомогательных частей речи и структуры

предложений. В частности, характерной особенностью времен и форм глаголов является использование прошедшего времени во втором лице единственного числа без личного суффикса (например: «sən aldu», «gəldu»), а во множественном числе используются формы, такие как -vuz (-uz), -suvuz//-suz, -sınız, -sıx, -suz. В говоре деревни Каравелли, помимо форм -aj, -əj для определенного будущего времени, также используются формы -as, -əs и -eys. В неопределенном будущем времени отрицание обозначается суффиксами -man, -mən в первом лице единственного и множественного числа. Еще одной отличительной особенностью Афшарского говора является использование условной формы во втором лице единственного числа с суффиксами -au, əü, а во множественном числе с -savuz//-sauz (например: "sən alsau", "gəlsəü", "siz alsavuz", "gəlsəvüz").

В конце раздела морфологии были проанализированы наречия, союзы, соединители, частицы и модальные слова, приведены различные примеры. В синтаксической части были изучены синтаксические связи в афшарском говоре, словосочетания, различия с литературным языком, порядок слов в предложении и структура простых и сложных предложений.

В третьей главе рассматриваются лексические особенности Афшарского говора. Слова, не употребляемые в литературном языке, но характерные для данного говора, были разделены на три группы и проанализированы отдельно. Первая группа включает терминологические слова, к которым относятся термины, относящиеся к различным сферам хозяйства, быту, еде, одежде, а также термины, касающиеся продуктов садоводства и овощеводства. В группу слов, не имеющих терминологического характера, включены слова, не употребляемые в литературном языке или имеющие иное значение, а также омонимы и синонимы. Их характерные особенности также были проанализированы.

В конце третьей главы уделено особое внимание словообразованию. Здесь подробно рассмотрены способы образования производных слов в Афшарском говоре, в основном с помощью морфологических, а также частично синтаксических и лексических методов. Это исследование имеет значительное значение для изучения ряда неясных аспектов истории языка и народа, а также для создания исторической диалектологии, исторической грамматики, разработки языковых атласов, диалектологических, этимологических и местных словарей. Кроме того, оно предоставляет ценные материалы для решения некоторых спорных проблем в области азербайджанского языкознания.

ЛИТЕРАТУРА

1. Allahverdiyev, E. Qarabağ dialektinin əfşar şivəsi (nam.diss.) Bakı: 1995 // Аллахвердиев, Э. Афшарский говор Карабахского диалекта (канд. дис.) Баку: 1995
2. Şirəliyev, M. Azərbaycan dialektologiyasının əsasları. Bakı: 1962 //Ширалиев М. Основы азербайджанской диалектологии. Баку: 1962
3. Hüseynov, G. Əhməd Cəfəroğlu folklorun toplayıcısı, naşiri və tədqiqatçısı kimi // Tədqiqlər, III, Bakı: 2001 // Гусейнов, Г. Ахмед Джафароглу как собиратель, издатель и исследователь фольклора // Исследования, III, Баку: 2001
4. Həsənov, İ. Gəncə dialektinin leksikası (heyvandarlıq və əkinçilik terminləri) (nam.diss.) Bakı: 1974 // Гасанов, И. Лексика Гянджинского диалекта (термины скотоводства и сельского хозяйства) (канд. дис.) Баку: 1974
5. İslamov M. Azərbaycan dilinin Nuxa dialekti. Bakı: 1968 // Исламов, М. Диалект Нухи Азербайджанского языка. Баку: 1968
6. https://az.wikipedia.org/
7. https://www.anl.az/

AZƏRBAYCAN DİLİNİN QƏRB DİALEKTLƏRİNİN TƏDQİQİ

xülasə

Məqalədə Azərbaycan dilinin Qərb dialektinə aid olan Gəncə şivəsi, əfşar şivəsinin araşdırma tarixi haqqında geniş məlumat verilmişdir. Gəncə şivəsinin tədqiqi ilə məşğul olan dilçi alim Əhməd Cəfəroğlunun türk dialektlərinin öyrənilməsi sahəsində əvəzolunmaz xidmətləri olmasından bəhs olunur. İ.Həsənovun "Gəncə dialektinin leksikası" " (Heyvandarlıq və əkinçilik terminləri) adlı dissertasiyası Gəncə, Xanlar və Goranboy (keçmiş Qasım İsmayılov) rayonlarının ayrı-ayrı kəndlərindən heyvandarlıq və əkinçilik sahələri üzrə toplanmış materiallar əsasında yazılmışdır. Tədqiqatçı dissertasiyada Gəncə şivələrində müşahidə edilən terminləri sahələr üzrə qruplaşdırılmış, sadə, düzəltmə və mürəkkəb terminləri, onların leksik-semantik xüsusiyyətlərini də aydınlaşdırılmışdır.

Eyni zamanda məqalədə E. Allahverdiyevin Azərbaycan dilinin Qarabağ şivələri qrupuna aid yazılmış tədqiqat işlərinə də istinad olunmuşdur. Müəlllifin yazdığı "Qarabağ dialektinin əfşar şivəsi" 1990–1992-ci illərdə E. Allahverdiyev Ağcabədi rayonunun Afşar, Qaravəlli, Zəkərəli, Xındarx, Hacıbədəlli, Xusulu və Xocavənd kəndlərində ekspedisiyalar apararaq Afşar şivəsinə dair zəngin və dəyərli dil materialları toplamışdır. Əsərdə əfşar şivəsinin özünəməxsus səciyyəvi cəhətlərinin, onun ədəbi dilimizə, eləcə də digər şivələrimizə uyğun gələn və fərqlənən xüsusiyyətlərinin aşkara çıxarılmasına, leksik tərkibində nəzərə çarpan işlək leksik vahidlərin və termin səciyyəsi daşıyan sözlərin sahələr üzrə qruplaşdırılıb.

ИССЛЕДОВАНИЕ ЗАПАДНЫХ ДИАЛЕКТОВ АЗЕРБАЙДЖАНСКОГО ЯЗЫКА

резюме

В статье дается обширная информация об истории исследования гянджинского диалекта и афшарского диалекта, которые относятся к западному диалекту азербайджанского языка. Отмечается, что лингвист Ахмед Джафароглу, занимающийся изучением гянджинского диалекта, внес неоценимый вклад в изучение турецких диалектов. Диссертация И. Гасанова «Лексикон гянджинского диалекта» (животноводческие и сельскохозяйственные термины) написана на основе материалов, собранных в отдельных селах Гянджинского, Ханларского и Геранбойского (бывшего Гасым Исмаиловского) районов по животноводству и земледелию. В диссертационном исследовании термины, наблюдаемые в гянджинских диалектах, были сгруппированы по сферам, простым, корректирующим и сложным терминам, а также уточнены их лексико-семантические характеристики.

В то же время в статье упоминаются и исследования Э. Аллахвердиева по карабахской диалектной группе азербайджанского языка. Автором написана работа «Афшарский диалект карабахского наречия». В 1990-1992 годах Э. Аллахвердиев провел экспедиции в села Афшар, Гаравелли, Закарели, Хиндарх, Гаджибаделли, Хусулу и Ходжавенд Агджабединского района, собрав богатые и ценные лингвистические материалы по афшарскому диалекту. Целью работы является выявление уникальных особенностей афшарского диалекта, его особенностей, соответствующих и отличающихся от нашего литературного языка, а также других диалектов, а также группировка по ареалам функциональных лексических единиц и слов с терминологическими характеристиками, заметных в его лексическом составе.

MATANAT AMRAHOVA

STUDY OF WESTERN DIALECTS OF THE AZERBAIJANI LANGUAGE

summary

The article provides extensive information about the history of research on the Ganja dialect, which belongs to the Western dialect of the Azerbaijani language, and the Afshar dialect. It discusses the invaluable services of the linguist Ahmed Jafaroglu, who is engaged in the study of the Ganja dialect, in the field of studying Turkic dialects. I. Hasanov's dissertation entitled “The Lexicon of the Ganja Dialect” (Livestock and Agricultural Terms) was written on the basis of materials collected from separate villages of Ganja, Khanlar and Goranboy (formerly Gasim Ismayilov) regions on livestock and agriculture. In the research dissertation, the terms observed

in the Ganja dialects were grouped by areas, simple, corrective and complex terms, and their lexical and semantic features were clarified.

At the same time, the article also referred to E. Allahverdiyev's research works on the Karabakh dialect group of the Azerbaijani language. The author's "Afshar Dialect of the Karabakh Dialect" In 1990–1992, E. Allahverdiyev conducted expeditions to the villages of Afshar, Garavelli, Zakareli, Khindarkh, Hajibadelli, Khusulu and Khojavand of the Agjabadi region, collecting rich and valuable language materials on the Afshar dialect. The work describes the unique features of the Afshar dialect, its characteristics that correspond to and differ from our literary language, as well as other dialects, and the functional lexical units and words that have term characteristics that are noticeable in its lexical composition are grouped by areas.

Rəyçi: T.Əbdülhəsənli
Filologiya üzrə elmlər doktoru, professor

Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu, *ISSN 2224-9257*
Filologiya məsələləri № 3, 2025
Səh. ————————

PUTAYEVA ELNARƏ ELDAR
filologiya üzrə fəlsəfə doktoru, dosent
Azərbaycan Dillər Universiteti
e-mail:putayeva.elnara@adu.edu.az
https://orcid.org/0000-0002-1719-1670

TƏNQİDİ TƏFƏKKÜRÜN ÖYRƏNMƏ PROSESİNƏ İNTEQRASİYASINA DAİR

Xülasə

Tənqidi yanaşma öyrənmə prosesinin xüsusi əhəmiyyət kəsb edən tərkib hissələrindən biri hesab olunur. Öyrənmə prosesinin vacib bir mərhələsi olaraq dəyərləndirilən tənqidi yanaşma tədris prosesində təhsilalanların müxtəlif bacarıqlar əldə etməsinə vəsilə ola bilir. Əldə olunan müxtəlif məlumatların bir çoxunun tənqidi təfəkkürün süzgəcindən keçirilməsi və təhlil olunması təlim prosesinin ehtiyac duyulan hissəsi hesab olunur. Tədris prosesində tənqidi təfəkkürü yüksək inkişaf etmiş tələbələrin yeni məlumatı daha yaxşı qavraması və mənimsəməsi müşahidə olunur.

Bəzi tədqiqatçılar tənqidi düşünmə və tənqidi oxu bacarıqları arasındakı əlaqəni araşdırmağa çalışmışlar. Tənqidi düşüncə ilə tənqidi oxu arasında birbaşa əlaqənin mövcud olması faktı belə deməyə əsas verir ki, tənqidi oxu prosesinin reallaşması tənqidi yanaşaraq düşünmədən mümkün hesab edilmir. Tənqidi oxu tənqidi düşünmə bacarıqlarının formalaşdırılmasında və artırılmasında bir vasitə kimi faydalı ola bilər. Müəyyən edilmişdir ki, tənqidi oxu vasitəsi kimi müxtəlif materialların dərs prosesində tətbiqi tənqidi düşüncəni və kreativ yanaşmanı artıra bilər.

Açar sözlər: *tənqidi təfəkkür, tənqidi yanaşma, öyrənmə prosesi, inteqrasiya, aspekt, strategiya.*

Giriş. Tənqidi təfəkkürün əhəmiyyəti özünü yaradıcılıq qabiliyyətinin ifadə üsulu ilə təqdim olunması və düşünmə tərzinin aşkara çıxarılmasında büruzə verir. Əlavə olaraq, tənqidi təfəkkür dil və təqdimetmə bacarığını inkişaf etdirməklə yanaşı, sistemli və aydın şəkildə düşünmə qabiliyyətini də formalaşdırır. Tənqidi düşüncə üçün yalnız bilik kifayət etmir, düzgün nəticə əldə edə bilmək üçün təhlil etmək və məlumatları və hadisələri analiz etmək bacarığı da xüsusi önəm kəsb edir. Bu bacarıq düzgün anlamaq və analiz etnək üçün lazımi istiqaməti müəyyən etməyə kömək edir (12).

Keçən əsrin əvvəllərindən etibarən, düşünmə bacarığının formalaşdırılması təhsilin əsas məqsədlərindən biri olaraq təyin edilmişdir (5). Diqqətin məlumat və məzmunun təhsilalana ötürülməsindən daha çox onların düşünmə qabiliyyətinin formalaşdırılmasına yönəldilməsi əsas tendensiyaya çevrilmişdir. Bütün dünyadakı

təhsil sistemi təhsilalanın tənqidi düşünmə bacarığının və problem həlletmə qabiliyyətinin formalaşmasına yönəlməyi daha vacib hesab edir.

Tənqidi yanaşma ilə fikir ayrılığını eyniləşdirmək məqsədəuyğun hesab edilmir. Belə ki, fikir ayrılığı ilə tənqidi düşünmə, tənqidi təfəkkür arasında kifayət qədər fərqlər mövcuddur. Fikir ayrılığı qarşı tərəfin fikirlərinin toqquşduğu məqamlarda ortaya çıxır. İstənilən bir fikrə qarşı əks fikrin səsləndiyi məqamlarda fikir ayrılığı yaranır, lakin bu tənqidi yanaşma hesab oluna bilməz. (1). Tənqidi yanaşma zamanı kimisə utandırmaq, təhqir etmək, alçaltmaq yolverilməzdir, bu zaman yalnız səslənən fikrin mübət və mənfi tərəfləri təhlil olunub araşdırılmalıdır.

Tənqidi təfəkkürü öyrənmə prosesinə inteqrasiya etmək üçün praktik strategiyaları aşağıdakı kimi qruplaşdıra bilərik:

1. *Ucadan düşünmək*

Təhsilverənlər ucadan düşünməklə tənqidi oxu strategiyalarını nümayiş etdirə bilərlər. Mətni oxuyaraq müəllifin arqumentlərini necə təhlil etdiklərini, hansı məqamları vurğuladıqlarını, təhlilləri necə qiymətləndirdiklərini göstərərək düşüncə proseslərini sözlə ifadə edə bilərlər. Bu strategiya təhsilalanlara tənqidi düşüncənin real situasiyada tətbiqini görməyə kömək edir və bu strategiyaları tətbiq etməyə təşviq edir.

2. *Müəllif mətnlərini oxumaq*

Digər bir vacib strategiya təhsilalanları oxumağa təşviq və motivasiya etməkdir. Onlar oxuduqları materiala münasibətlərini qeyd edə, vacib məqamları vurğulaya və müəllifin arqumentlərini anlaya bilərlər. Eləcə də, bu prosesdə təhlil, qiymətləndirmə və əks etdirmə bacarıqlarını asanlıqla tətbiq edə bilərlər.

3. *Qrup müzakirələri və debatlar*

Qrup şəklində müzakirələrinin və ya oxunan mətn üzrə debatların təşkili təhsilalanlarda tənqidi oxu bacarıqlarının inkişaf etdirilməsinə kömək edə bilər. Belə ki, təhsilalanlar digər qrup üzvlərinin şərhlərini dinlədikcə onların mətn haqqında anlayışları dərinləşir və analitik təhlil qabiliyyətləri artır. Bu müzakirələr həm də onları müxtəlif perspektivləri nəzərdən keçirməyə və fərqli aspektlərdən qarşılıqlı əlaqə qurmağa sövq edir.

4. *Mətn təhlili*

Təhsilverənlər təhsilalanlara struktur və dildən istifadə kimi elementlərə diqqət yetirərək mətnin ətraflı şərhini aparmağa kömək edə bilərlər. Mətni müxtəlif hissələrə ayırmaqla, öyrənənlər təkcə deyilənləri deyil, həm də necə deyildiyini və bunun nə üçün vacib olduğunu nəzərə alaraq tənqidi oxumağı öyrənirlər.

Tənqidi təfəkkür - məlumatları müxtəlif nöqteyi-nəzərdən təhlil etmək, dəyərləndirmək və əsaslandırılmış nəticələr əldə etmək bacarığı kimi müəyyən edilə bilər. Qərarlılıq, səbəb və nəticələrin düzgün qiymətləndirilməsi, müzakirə aparılaraq qaranlıq məqamların aydınlaşdırılması, məsələnin məğzinin təhlil edilməsi, problemlərin məqsədəuyğun şəkildə həll edilməsi, nəzarət mexanizminin düzgün təşkil edilməsi tənqidi yanaşmanın uğurla həyata keçirilməsinə yol açır (1). Tənqidi

düşüncə xırdalıqlara yersiz şəkildə üstünlük verilməsinə qarşı çıxır. Tənqidi yanaşma xırda və əhəmiyyətsiz xüsusiyyətlərə deyil, mahiyyətə önəm verilməsini vacib hesab edir. Tənqidi təfəkkür təhlil tələb edən bir proses olduğundan, detallara diqqət yetirilməsi də vacib hesab oluna bilər. Lakin tənqidi təhlil aparan şəxsin diqqət yetirməli olduğu məqam vacib detalların önə çıxarılması, vacib olmayanlara isə əhəmiyyət verilməməsidir.

Tənqidi təfəkkür öyrənmə prosesinin mühum elementlərindəndir. Öyrənmə prosesinin vacib bir mərhələsi olaraq düşünmənin bir növü olaraq dəyərləndirilən tənqidi yanaşma keçən əsrin uğuru hesab oluna bilər. Tədris prosesində təhsilalanlar müxtəlif dərəcəli əhəmiyyətə malik olan məlumatlar əldə edir ki, bu məlumatların bir çoxunun tənqidi analiz olunmasına ehtiyac duyulur. Tənqidi təfəkkürü yüksək inkişaf etmiş tələbələrin yeni məlumatı daha yaxşı qavraması və mənimsəməsi müşahidə olunur.

Bəzi tədqiqatçılar tənqidi düşünmə və tənqidi oxu bacarıqları arasındakı əlaqəni araşdırmağa çalışmışlar. Şihab tənqidi düşüncə ilə tənqidi oxu arasında birbaşa əlaqənin mövcud olduğunu iddia edərək göstərirdi ki, tənqidi oxu prosesinin reallaşması düşünmədən qeyri-mümkündür (14, s.210-211). Tənqidi oxu tənqidi düşünmə bacarıqlarının formalaşdırılmasında və artırılmasında bir vasitə kimi faydalı ola bilər. Müəyyən edilmişdir ki, qəzet və digər müxtəlif kütləvi informasiya vasitələrinin tənqidi oxu vasitəsi kimi dərs prosesində tətbiqi tənqidi düşüncəni artıra bilər.

Tənqidi düşünmənin aspektləri

Aparılmış təhlillər bizə belə deməyə əsas verir ki, tənqidi düşünmə bacarığının beş əsas xüsusiyyəti vardır:

1. *Əvvəlki məlumatları yadda saxlama*: əvvəlki məlumatları yadda saxlamaqla vəziyyəti daha yaxşı başa düşərək öyrənmə prosesini müəyyənləşdirmək mümkündür.

2. *Səmərəli mülahizə*: deduktiv və ya induktiv metoddan istifadə etməklə səmərəli düşünməyə, digərlərinin fərqli baxışlarına və fikir ayrılıqlarına pozitiv yanaşmağa imkan verir.

3. *Kompleks düşüncədən istifadə*: məlumatların tərkib hissələrinin bir-biri ilə qarşılıqlı əlaqəsini araşdırmaq, dərk etmək, kompleks sistemlər haqqında müxtəlif mühakimələr yürütmək bacarığını formalaşdırır.

4. *Mühakimə və qərar vermə*: müvafiq və lazımi sübutları axtarmaq, qiymətləndirmək, ümumiləşdirmək və təhlilə yönəlmiş nəticə çıxarmaq üçün düşünmə bacarıqlarından istifadə edərək səmərəli təhlillər aparılır.

5. *Problem həll etmə*: mühakimə və qərarvermə prosesini həyata keçirərkən effektiv təhlil etmək bacarığı formalaşdırılır.

Tənqidi düşüncə yaradıcı yanaşma və ya kreativlik tələb edən bir proses deyil. Tənqidi düşüncənin ciddi və dərin təhlil tələb etdiyini nəzərə alaraq, prosesin uğurla reallaşması səmərəli təhlilin həyata keçirilməsini şərtləndirir. Təhlilin tənqidi

və yaradıcı tərəflərini fərqləndirsək də, onları bir-birindən ayrı təsəvvür etmək mümkün deyil. Effektiv tənqidi düşünməni bacaran tədqiqatçı müvafiq olaraq yaradıcı yanaşma qabiliyyətinə də malik olur (1). Tənqidi düşüncə yalnız başqalarının fikirlərinə və mövqelərinə deyil, həm də özümüzün yanaşmamıza tətbiq edilə bilər.

Düşünmə elementlərinə bacarıqlar, ölçülər və intellektual standartlar daxil edilir ki, onları da bir-birindən kənarda təsəvvür etmək mümkün deyil. İnformasiyanı topladığımız, konseptuallaşdırdığımız, tətbiq etdiyimiz, təhlil etdiyimiz, analiz və ya sintez etdiyimiz, eləcə də, qiymətləndirdiyimiz zaman, əsas məqsəd həll edilməli olan problemin təfəkkürün empirik ölçüsünə əsaslanaraq lazımi həll yolunun tapılmasından ibarədir (10, s. 126-129).

K.Yang tənqidi düşüncəyə dair "Critical thinking: What is it?" başlığı il dərc olunmuş vəsaitində tənqidi düşüncəyə bir çox təriflər vermişdir. Aradan keçən onilliklərdə tənqidi düşüncəyə müxtəlif izahlar təqdim olunsa da, onların əksəriyyətində eyni əsas prinsiplər nəzərə alınmışdır. Tənqidi düşüncə arzu olunan nəticənin əldə olunma ehtimalını artıran idrak bacarıqlarının və ya üsullarının istifadəsinə yönəlmiş olur. Tənqidi düşüncə məqsədyönlü və əsaslandırılmış olmalı, problemin həllinə fokuslanmalı, nəticə çıxarmaqda, ehtimalların hesablanmasında və qərarların qəbulunda aktiv iştirak edən düşüncə növü hesab olunmalıdır.

Biz tənqidi düşünəndə düşüncə proseslərimizin nəticələrini – qərarın nə qədər məqsədəuyğun və ya problemin nə qədər düzgün həll edildiyini qiymətləndirə bilirik (8). Bu izah müxtəlif nöqteyi-nəzərdən təhlil olunduğu üçün tənqidi təfəkkürə arqumentativ təhlil, qərar qəbul etmə bacarığı, idrak prosesi kimi də baxa bilərik (9). Akademik təcrübədən və ya tənqidi təfəkkürün təsviri üçün istifadə olunan söz bazasından asılı olmayaraq, bütün bu yanaşmalar ümumi fərziyyələr toplusu hesab olunur və dolayısıyla tənqidi düşünmə bacarığı öyrədilən və öyrənilə bilən qabiliyyət hesab olunur.

Tədris və öyrənmənin yeni istiqamətlərinin tənqidi təfəkkürə yönəlmiş olmasından asılı olaraq, bu prosesin həm də tələbəyönümlü olması faktı da nəzərə alınmalıdır. Tənqidi düşüncə düzgün kontekstdə düzgün bacarığın uğurlu istifadəsindən daha çox şey əldə etməyimizə yol açа bilər. Bu, həm də istənilən bir bacarığı tətbiq etmək tələb olunduqda lazım olan zehni əməyi göstərmək istəyini dərk etməyə kömək edir. Siars və Parsons bu meylləri tənqidi mütəfəkkirin etikası adlandırırlar. Əks halda, geniş tənqidi düşünmə bacarığına malik olsalar da, ondan istifadə etməyə meylli olmayan fərdlər formalaşa bilər. Heç kim düşünmə proseslərində iştirak etmədən hər hansı bir sahədə təcrübə qazana və ya bacarıqlarını inkişaf etdirə bilməz (15, s. 1062-1064). Beləliklə, biz təhsilalanları tənqidi düşünməyə və uğur qazanaraq lazımi məqsədə çatmağa yönləndirmək istəyiriksə, onları düzgün analiz etməyə, təhlil və araşdırma apararaq problemlərin qoyuluşuna və həllinə daha yaradıcı yanaşmağa sövq etməyi bacarmalıyıq.

Nəticə: Tənqidi oxu bacarıqlarının inkişaf etdirilməsi koqnitiv psixologiyanın ümumi prinsiplərinə əsaslanaraq həyata keçirilə bilər. Bir çox dəyişikliklər ətraf aləmdə baş verən dəyişikliklərdən qaynaqlanarır, məsələn: texnologiyanın inkişafı və bu sahədəki yeni tələblər, keçmişdə qazanılmış təcrübəyə əsaslanaraq qazanılmış yeni bacarıqlar və s. Bu sahədəki yeni tələblərin artdığını və getdikcə mürəkkəbləşdiyini nəzərə alaraq, deyə bilərik ki, tənqidi oxu əldə oluna biləcək təlim nəticələrinin əsasını təşkil etməklə yanaşı, bu sahədə əldə edilmiş bacarıqların daha çox önəm kəsb etməsi də günümüzün reallığını əks etdirir.

Tənqidi təfəkürün öyrənmə prosesinə inteqrasiyası xüsusi önəm kəsb etdiyindən, təlim prosesində praktiki olaraq tətbiq vasitəsilə mənimsənilməsi xüsusi olaraq əhəmiyyət daşıyır. Bu zaman tətbiq oluna biləcək təlim metodları təqdimat (prezentasiya), yaradıcı (kreativ) yanaşma və tətbiqetmə hesab oluna bilər.

İSTİFADƏ EDİLMİŞ ƏDƏBİYYAT SİYAHISI:

1. Barry, V. E. Invitation to Critical Thinking. CBS College, 1994.
2. Carr K.S. How can we teach critical thinking? // ERIC Dijest. (ERIC NO.: ED 326304). – 1990. – p. 7-15.
3. Cottrell, S. Critical thinking skills: Developing effective analysis and argument. Palgrave Macmillan. 2005.
4. Deller, S., & Rinvolucri, M. Using the Mother Tongue: Making the Most of the Learner's Language. Delta Publishing. 2002.
5. Dewey, J. Experience and Education. Colliner Books, 1939.
6. Halpern, D. F. "Teaching Critical Thinking for Transfer Across Domains: Disposition, Skills, Structure Training, and Metacognitive Monitoring." American Psychologist, 1998, 53, 449–455.
7. Halpern, D. F. Teaching for critical thinking: Helping college students develop the skills and dispositions of a critical thinker. New Directions for Teaching and Learning, 80 (2), - 2014, pp. 69-74. https://doi.org/10.1002/tl.8005
8. Halpern, D. F. Thought and Knowledge: An Introduction to Critical Thinking. (3rd ed.) Mahwah, N.J.: Erlbaum, 1998.
9. Kahane H., Cavender N.M. Logic and Contemporary Rhetoric: The Use of Reason in Everyday Life, Wadsworth Publishing, - 1997. 369 p.
10. Paul, R. The Four Domains of Critical Thinking. In J. Willsen, & A. J. A. Binker (Eds.), Critical Thinking: How to Prepare Students for a Rapidly Changing World, 1995, pp.123-132.
11. Pirozzi, R. P. Critical reading, critical thinking: A contemporary issues approach. Longman Inc. 2003.
12. Rayan, J. E. Wait, What? And Life's Other Essential Question. Harper Collins, 2017.

13. Seker, H., & Komur, S. The relationship between critical thinking skills and in-class questioning behaviors of English language teaching students. European Journal of Teacher Education, 31(4), - 2008, pp.389-402. https://doi.org/10.1080/02619760802420784
14. Shihab I.A. Reading as Critical Thinking. Asian Social Science. Vol. 7, No. 8, - 2011. pp. 209-218.
15. Wagner. R. K. Intelligence, training, and employment. American Psychologist, 52, - 1997. pp. 1059-1069.
16. Zivkovica, S. A model of critical thinking as an important attribute for success in the 21st century. International Conference on Teaching and Learning English as an Additional Language, 232(1), - 2016, pp.102-108. https://doi.org/10.1016/j.sbspro.2016.10.034.

E.E.Putayeva

ON INTEGRATION OF CRITICAL THINKING INTO THE LEARNING PROCESS

Summary

Critical approach is considered one of the components of the learning process, which is of particular importance. Critical approach, which is valued as an important stage of the learning process, can be an opportunity for learners to acquire various skills in the learning process. It is considered a learning process in which various information obtained is needed to be filtered and analyzed thinking critically. In the learning process, students with highly developed critical thinking abilities are observed to better perceive and assimilate new information.

Some researchers have tried to investigate the relationship between critical thinking and critical reading skills. The fact that there is a direct relationship between critical thinking and critical reading suggests that the realization of the critical reading process is not considered possible without critical approach and thinking. Critical reading can be useful as a tool in shaping and enhancing critical thinking skills. It has been established that the application of various materials as a means of critical reading in the learning process can increase critical thinking and creative approach.

Key words: *critical thinking, critical approach, learning process, integration, aspect, strategy.*

Azərbaycan Milli Elmlər Akademiyasi M. Füzuli adına Əlyazmalar Institutu, *ISSN 2224-9257*
Filologiya məsələləri № 3, 2025
Səh. ————————

Э. Э. Путаева

ОБ ИНТЕГРАЦИИ КРИТИЧЕСКОГО МЫШЛЕНИЯ В ПРОЦЕСС ОБУЧЕНИЯ

Резюме

Критический подход считается одним из компонентов процесса обучения, который имеет особое значение. Критический подход, который ценится как важный этап процесса обучения, может дать учащимся возможность приобрести различные навыки в процессе обучения. Это считается процессом обучения, в ходе которого необходимо отфильтровать и критически проанализировать большую часть полученной информации. В процессе обучения наблюдается, что учащиеся с высокоразвитыми способностями к критическому мышлению лучше воспринимают и усваивают новую информацию.

Некоторые исследователи пытались исследовать взаимосвязь между критическим мышлением и навыками критического чтения. Тот факт, что существует прямая взаимосвязь между критическим мышлением и критическим чтением, предполагает, что реализация процесса критического чтения невозможна без критического подхода и мышления. Критическое чтение может быть полезным в качестве инструмента для формирования и совершенствования навыков критического мышления. Было установлено, что применение различных материалов в качестве средства критического чтения в процессе обучения может способствовать развитию критического мышления и творческого подхода.

Ключевые слова*: критическое мышление, критический подход, процесс обучения, интеграция, аспект, стратегия.*

Rəyçi: prof., fil.e.d., M.Qazıyeva

Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu, *ISSN 2224-9257*
Filologiya məsələləri № 3, 2025
Səh. ——————

ŞAHNAZXANIM ŞÜKÜRZADƏ
Cəbrayıl rayonu 1 nömrəli tam orta məktəb
Qaradağ rayonu, Lökbatan qəsəbəsi, Qobu Park Yaşayış Kompleksi 3.
sahnazxanim.sukurzade@mail.ru

MƏKTƏBDƏ QEYRI-VERBAL KOMMUNIKASIYA: MƏSAFƏ, JESTLƏR VƏ MIMIKA, GEYIM VƏ GÖRÜNÜŞ

Məktəbdə təlim və tərbiyənin düzgün qurulması, tədrisin keyfiyyətinin və səmərəliliyinin artırılması üçün verbal kommunikasiyanın önəmliliyi qədər qeyri-verbal kommunikasiyanın düzgün qurulması da əsas şərtdir. Sinif otağında kommunikasiya düzgün qurularsa, müəllimin verdiyi bilgiləri şagirdlərin daha yaxşı mənimsəməsi və aparılan məlumat mübadiləsinin faydalılığı artar. Bunun üçün ilk öncə müəllim şagirdlərin diqqətini özünə cəmləməyi bacarmalıdır. Burada müəllimin savadlılıq və təcrübəlilik amilindən öncə onun bədən dili önəmli rola malikdir. Müəllim və şagird arasında qurulan optik ünsiyyət – ifadəli hərəkətlər, müəllim və şagird arasında məsafə, jestlər və mimika, yeriş, baxış, duruş, geyim, görünüş və s. vacibdir. "Süni unsiyyət canlı nitqlə sıx bağlıdır, bəzən onun əsasını təşkil edir. İntonasiya, jest, hərəkət, mimika, səs, baxış, etiket ünsiyyətin ən vacib amilləridir. Bunların köməyi ilə sözdən də artıq məlumat vermək olar" [7, 49].

Məsafə – proksemika

Proksemika müsbət ünsiyyət mühiti yaratmaq istəyən hər bir müəllimin diqqət etməli olduğu ən həssas məsələdir. İngiliscə "yaxınlıq" mənasını verən "proximity" sözündən götürülmüşdür və insanların qapalı məkanlarda davranışlarını, özləri üçün nə qədər yerə ehtiyac duyduqlarını və ünsiyyətdə olduqları insanlarla öz aralarında nə qədər məsafə saxladıqlarını araşdırır. "Məsafə onun əhəmiyyətini dərk edənlər tərəfindən idarə oluna bilən bir ünsiyyət elementidir. Bu səbəbdən həm üz-üzə ikitərəfli münasibətlərdə, həm də geniş məkanda bir qrupla qurulan əlaqələrdə məsafədən şüurlu şəkildə istifadə etmək böyük fayda verir. "İnsanın özü ilə digər insanlar arasında qoyduğu məsafə onun qarşısındakılara olan hissləri ilə bağlıdır." [1, 113].

Müəllimlə sinif arasında saxlanmalı olan məsafə son dərəcə vacibdir, çünki bu öyrənməyə, şagird uğurlarına və sinifdəki sosial münasibətlərə təsir edir. Özyürekə görə, şagirdlərə yumşaq bir şəkildə toxunmaq və kürəyini sığallamaqla yaxınlıq göstərmək şagirdlərin diqqət davranışını xeyli artırır [4, 58].

Ümumiyyətlə, sinif daxilində ünsiyyət və qarşılıqlı əlaqənin böyük bir hissəsi sosial sahədə baş verir. Bu məsafə nə çox yaxın, nə də çox uzaq olduğundan şagirdlər özlərini rahat hiss edir, dərs canlı keçir.

25-30 nəfərlik sinifdə müəllim ən azı 2 m aralıda dayanıb bütün sinfi görə biləcəyi mövqedən dərs deməlidir. Şagirdlərin və ya dinləyicilərin sayı artdıqca bu məsafə arta bilər. Heidemann [6, 97] ictimai çıxış üçün məsafəni 3-4 m, şəxsi məsafəni 60-150 sm, özəl məsafəni isə 50-60 sm müəyyən etmişdir. Özəl məsafənin

pozulmasına yol verilmir və şagirdin məsafəni saxlamaq üçün geri çəkilməsinə səbəb olur. Yeniyetmə şagirdlər bu məsələyə xüsusi həssaslıqla yanaşırlar. Bu yaxınlaşma zamanı şagirdə arxadan onu narahat edəcək şəkildə yaxınlaşmaq olmaz. Ayaqda duran müəllim şagirdə ürküdücülük yaradır, çünki o, oturan şagirddən iki dəfə böyükdür. Bu vəziyyətdə bəzi utancaq şagirdlər daha da geri çəkiləcəklər. Belə şagirdlərə yaxınlaşarkən şəxsi məsafəni saxlamaq, yan tərəfdən yaxınlaşmaq, mümkün qədər əyilməklə və ya dizi bükməklə eyni göz səviyyəsində olmağa diqqət yetirmək lazımdır.

Bəzən sinifin tərtibatı və stulların yerləşdirilməsi səbəbindən arxadan yaxınlaşmaq daha asan ola bilər. Bununla belə, şagirdin geri çəkilmək, arxaya əyilmək və ya başını geri çəkmək kimi reaksiyalarına həssas olmaq və yaxınlaşmağa davam etməklə şagirdə küncə sıxışdırılmış hissini verməmək vacibdir. Bir maneə kimi yuxarıdan aşağıya doğru uzanan və şagirdə dəftər və ya kitabda yer göstərmək üçün şagirdin hərəkət sahəsini məhdudlaşdıran qol şagirdlə müəllim arasında maneə yaradacağı üçün mənfi təsir göstərəcək. Dəftərdə bir yer göstərmək lazımdırsa, maneə yaratmayan digər qoldan istifadə edilməlidir.

Şəxsi məsafə qarşıdakı ilə danışmaq və ünsiyyət üçün ən uyğun məsafədir. Müəllim yalnız şagirdlər arasında ünsiyyəti təmin etmək istəyirsə, bir az geri çəkilərək əli ilə şagirdlərə bir-birinin ardınca danışması üçün işarə verə bilər. Şagirdin sualına cavab olaraq müəllim onun qeydlərinə baxmaq üçün şagirdə yaxınlaşa bilər. Bu davranışın səbəbi var və belə davranış şagird tərəfindən arzu edilir. Müəllim sinifdə səs-küy yaradan şagirdə şüurlu şəkildə baxıb ona yaxınlaşsa, onu daha rahat idarə edə bilər. Ancaq bunu edərkən şagirdin qaçmaq və ya hərəkət etmək və ədalətli davranmaq üçün çox yeri olmadığını xatırlamaq lazımdır. Heidemannın fikrincə, sinifdə anonim olan utancaq şagirdə yaxınlaşaraq onunla şəxsi münasibət qura və onu sinifdəki anonimlikdən çıxara bilərsiniz. Bu elə bir münasibətdir ki, şagirddən uzaqlaşıb sinif qarşısında durub danışanda belə pozmaq olmaz. Eyni üsuldan şagirdlərin dərsdə daha fəal olması üçün də istifadə etmək olar. Hər bir şagird xüsusi diqqətdən zövq alır və bu onların performansını yaxşılaşdırmağa kömək edir. Bəzi şagirdlər diqqəti cəlb etmək üçün hətta sinifdə narahat davrana bilərlər. Bu üsuldan qrup daxilində hörmətsizliyə yol verə biləcək şagirdlərin qarşısını almaq üçün də istifadə oluna bilər. Onu qrupun qayğısından uzaqlaşdırdıqdan sonra, o, söz və hərəkətləri ilə diqqətli olmağa çalışacaq. Ona görə də müəllimlər çox danışan şagirdləri yerindən oynadırlar.

Jestlər və mimikalar

Mimika, ünsiyyət məqsədləri üçün üz əzələlərinin istifadəsidir. Jest nitqlə sıx bağlıdır; Buraya başın, əllərin, qolların, ayaqların və bədənin istifadəsi daxildir. Unutmamalıyıq ki, jest və mimikaları şərh edərkən bədənin duruşunu nəzərə almalıyıq və bir əlaqə siqnalının meydana gəlməsi üçün qəbuledici bu hərəkətləri qəbul etməlidir. Jestlər və üz ifadələri düşüncələrimizi və hisslərimizi dəstəkləyən və onları başqalarına göstərən şəxsi siqnallardır. Nitq zamanı jest və mimika

qadağandırsa; Nitqin təbiiliyi itir, hətta danışa bilmirik. Təlim proqramının bir hissəsi olaraq, Heidemann jestlər və üz ifadələri ilə bağlı diqqətli olmaq üçün müəyyən davranışların siyahısını yaratdı. Bunlardan bəziləri aşağıdakılardır [6, 108-109]:

- ağzın kənarlarını saxta təbəssüm kimi qaldırmaq (təkəbbür, özünü üstün hiss etmək);
- ağzını açmaq (təəccüblənmək, danışmağı dayandırmaq istəmək);
- dodaqlarını büzmək (hirslənəndə özünü tutmaq);
- alt dodağı qaldırmaq (düşünmək, fikirli olmaq);
- qolları sinə səviyyəsində bükmək (gözləmək, etiraz etmək, sığınacaq axtarmaq, özünü idarə etməyə çalışmaq);
- sinə səviyyəsində qatlanmış əllər (etibarsızlıq, cansıxıcılıq).

Müəllim lövhədə yazı yazarkən arxasını sinfə çevirməli olduğundan, siniflə əlaqəni kəsməmək üçün yazdığı eyni mətni söyləmək şərti ilə danışmağa davam edə bilər (lövhəyə qarşı edilən izahatların bütün sinifdən eşidilməsi akustik cəhətdən mümkün deyil). Beləliklə, lövhədəki yazı tam görünməyəndə müəllimin nitqi vasitəsilə şagirdin yazıları dəftərinə köçürməsi asanlaşacaq. Heidemann qeyd edir ki, bir çox müəllimlər lövhədə yazarkən göz təmasını itirməkdən və sinifin danışmasından narahat olurlar. O bunun normal hal olduğunu və müəyyən dərəcədə bunun qarşısını almaq üçün ilin əvvəlində sinfə bildirilməlidir ki, lövhədə yazılan hər şeyi dəftərlərinə qeyd etsinlər. Şagirdlər lövhədə yazılanları vacib hesab etdikləri üçün yazmağa meyillidirlər. Müəllimin lövhədən yaxşı istifadə edə bilməsi son dərəcə vacibdir. Müəllim lövhədə yazı yazarkən siniflə ünsiyyətə ehtiyac duyduqda bunu adətən sol əli ilə yazarkən, sağ çiyninin üstündə siniflə təmasa davam edir. Müəllimin çiyni və qolu siniflə ünsiyyətə maneə yaradanda lövhədə yazı yazmağa qısa fasilə verib sonra yenidən sinifə qayıdıb danışmaq daha məqsədəuyğun olardı.

Lövhədə yazılanları izah etmək üçün sinifin arxasına keçməkdən qaçmaq lazımdır, çünki müəllimlə lövhə arasında qalan şagird fikrini hara cəmləyəcəyini bilməyəcək. Xüsusilə kiçik yaşlı şagirdlər müəllimin səsini və hərəkətlərini izləyəcəkləri üçün dərs vermək üçün sinfin arxasına getməməlidirlər. Sakit sinifdə ev tapşırığı və slayd şouları zamanı arxada dayanmaq düzgün deyil.

Müəllimin əlindəki karandaş və ya təbaşirlə oynaması, sinifdə dolaşması, əli ilə mənasız hərəkətlər etməsi şagirdlərin diqqətini bu hərəkətə cəmləyərək, dərsin məzmununa cəmlənə bilməyəcəyindən çəkinməli olduğu davranışlardır. Bundan əlavə, şəhadət barmağı ilə edilən jestlərdən, təhdidedici və rəddedici davranışlardan mümkün qədər qaçınılmalıdır, çünki bu, siniflə müsbət əlaqənin qurulmasına mane olacaq. Müəllimin əlləri ideyaların izahında, motivasiyanın artırılmasında və diqqəti yayındıran amillərin aradan qaldırılmasında dəyənək rolunu oynayır.

Ən təsirli üz ifadəsi tələbələrin üzünə baxmaqdır. Tez-tez ağzını əllə örtmək, tez-tez burnuna toxunmaq, dodaqları möhkəm bağlamaq, qaşlarını çatmaq, yanaqları cızmaq, qaşları qaldırmaq insanın qərarsız olduğunu və ya duyğularını idarə edə bilmədiyini göstərə biləcəyi üçün qaçınılması lazım olan hərəkətlər sırasındadır.

Ancaq bu, ümumiyyətlə üz ifadələrindən istifadə etmədiyimiz kimi şərh edilməməlidir. Məna və emosiya baxımından nitqi dəstəkləyən üz ifadələrinin istifadəsidir. Şişirdilmiş üz ifadələri həmişə mənfi təsir yaradır.

Sinifdə göstərilən səmimi dostluq və təbii təbəssüm şagirdlər tərəfindən müsbət qarşılanır. Amma müəllim heç vaxt xoşuna gəlməyincə gülməməlidir; çünki şagirdlər bunu xoş qarşılamayacaq və hətta təqlid edə bilərlər.

Özünəinam

Ən vacib məsələlərdən biri də müəllimin bütün şəxsi və işlə bağlı problemlərini mümkün qədər sinifdən kənarda qoyaraq sinifə daxil olmasıdır. İlkin olaraq ilk dərsdə sinif qarşısında inamlı bir mövqe tutmaq mümkün olmayacaq. Yuxarıda qeyd etdiyimiz kimi, təəssüf ki, avtonom siqnallarımızı idarə edə bilmirik və adrenalinin artması nəticəsində şagirdlərdə göz bəbəklərinin genişlənməsi, tərləmə, ağızda quruluq, dizlərdə zəifləmə, tənəffüsümüzün dəyişməsi, səsin solğunluğu və titrəməsi dərhal müşahidə olunur. Müdafiə xarakterli davranışlara müəllimin barmaqlarını stolun üstünə vurması, saçları ilə oynaması, göz təmasından qaçması, qərarsızlığı göstərən hərəkətlər etməsi, qollarını və ayaqlarını büdrəməsi daxildir. Əgər patoloji vəziyyət yoxdursa, Haydeman bu çətinlikləri aradan qaldırmaq üçün aşağıdakıları tövsiyə edir [6, 114]:

1) Özünüzə deyin: "Mən dərsimi yaxşı hazırlamışam və təqdimatımı məşq etmişəm, bunu bacarıram"

2) Unutmayın ki, sizin şagirdləriniz də insandır və hər bir insan kimi onlar da bəzi kiçik səhvləri bağışlaya bilərlər. Dizlərinizin titrədiyini, mədənizin həyəcandan ağrıdığını heç kimin görməsi mümkün deyil.

3) Cümlədə yarımçıq qalanda, yəqin ki, siz və bir neçə başqa tələbə bunu fərq edəcək. Normal danışıqda belə hallar baş verdiyi üçün bu, təbii sayılacaq.

4) Şagirdlərə izah edəcəyiniz mövzudan əmin olmalısınız.

5) Texniki aspektlərdə bir şey səhv olarsa, ikinci bir proyektor və ya videopleyer tapa biləcəyinizi əvvəlcədən araşdırın.

6) Vacib təqdimatdan ən azı 20 dəqiqə əvvələ qədər qeydlərinizi düzəltməkdən çəkinin.

7) Qeyd vərəqləri, slaydlar və s. dərs öyrətməkdə çətinlik çəkdiyiniz zaman bu alətlər xüsusilə faydalı ola bilər.

8) İzahınızı necə davam etdirəcəyiniz barədə çaşqınlıq yarandıqda, son dediyiniz cümləni təkrarlaya bilərsiniz. Bu sizə düşünmək üçün vaxt verir. Siz həmçinin şagirdlərə suallar verməklə özünüz bir az dincələ bilərsiniz.

9) Sizi tam olaraq nəyin həyəcanlandırdığını anlamağa çalışın.

10) Özünüzü əmin hiss etmək üçün dərsə bir az daha yüksək səslə başlaya bilərsiniz. Geniş diapazonlu qol hərəkətləri edin, çünki əks halda siz bel səviyyəsindən aşağı əl hərəkətləri edəcək və yalnız qolunuzu dirsəkdən aşağı hərəkət etdirəcəksiniz.

11) Əhəmiyyətli bir təqdimatdan əvvəl axşam və ya səhər istirahət etmək üçün nəfəs məşqləri edə bilərsiniz. Sinifdə oksigen tükənirsə, sizdən daha uzaqda olan pəncərəni aça bilərsiniz. Yaxınlıqda pəncərənin açıq olması şagirdlərin müəllimi yaxşı eşitməsinə mane olacaq.

12) Dərsə ac qarına getməyin, amma çox yeməkdən çəkinin.

13) Dərsə girdiyiniz zaman hiss etdiyiniz həyəcanı yaxşı bir teatr sənətçisinin hər dəfə səhnəyə çıxdığı zaman hiss etdiyi həyəcanla müqayisə edin və bunun müsbət olduğunu düşünün. Müəyyən bir həyacan normaldır. Dinamik və yaxşı mühazirə üçün zəruridir. Sadəcə həyəcanınızı tənzimləməyi öyrənməlisiniz.

Geyim və görünüş

İnsanları ilk dəfə görəndə ilk növbədə onları xarici görünüşünə görə qiymətləndiririk. Şagirdlər də eyni şəkildə davranırlar. Odur ki, biz diqqətli və peşəmizə uyğun geyinməliyik. Lakin geyim və saç düzümü şəxsi seçim olduğundan, gənc həmkarımızın geyimi ilə bağlı məsləhətlər verərkən son dərəcə həssas olmalıyıq. Bu sahədə sosial sanksiyalar mədəniyyətlə bağlı elementlərlə iç-içədir. Məsələn, indi Almaniyada müəllimin qalstuk taxmaması artıq problem deyil. İndiki şəraitə görə qadın müəllimlər ətəkdən başqa əvvəllər qadağan olunmuş şalvar da geyə bilərlər. Azərbaycanda isə dövlət təhsil müəssisələrində qadın müəllimələrin şalvar geyimi ilə sinfə daxil olması müsbət qəbul edilmir. Heydeman yazır ki, bəzi müəllimlər şagirdlərinə daha yaxın olmaq üçün gənclərin üslubunda geyinirlər (məsələn, idman ayaqqabısı), lakin bu, şagirdlərin reaksiyasına səbəb olur [6, 117].

Sosiolinqvistik araşdırmalar göstərib ki, böyüklərin onlarla gənclik jarqonunda danışması gənclərin xoşuna gəlmir. Öz aralarında danışmaq üçün istifadə etdikləri bu dili böyüklərlə bölüşməyi sevmirlər. Ağzı və paltarı iyi gələn birini heç kim sevmədiyi kimi, tələbələrin də ondan xoşlanmasını gözləmək olmaz.

Ümumiyyətlə, təmiz geyinməyə diqqət yetirilməlidir. Onu da bilmək lazımdır ki, yalnız geyinməklə müəllim olmaq, hörmət qazanmaq olmaz. Bilik gücdür və şagirdlərin hörmətini qazanmağın ən yaxşı yoludur. Siz məsləhət verdiyiniz təcrübəçi müəllimə deyə bilərsiniz ki, onlar qeyri-adi və ya açıq-saçıq geyimlərdən qaçaraq öz şagirdlərinə, xüsusən də yeniyetmə yaşlarında olan şagirdlərə nümunə olacaq şəkildə geyinməlidirlər.

Müəllim nə dərəcədə punktualdırsa, şagirdlərindən də punktual olmasını gözləyə bilər. Müəllim dərsə vaxtında gələndə onu gözləyən şagirdlərə hörmətlə yanaşır, həm də şagirdləri tərəfindən də ona hörmət edilir. Hər hansı səbəbdən dərsə gec daxil olan müəllim üzr istəməli və səbəbini izah etməli və bu davranışı ilə şagirdlərinə yaxşı nümunə olmalıdır. Dərsə gecikmək, tez getmək, dərsi həddindən artıq uzatmaq olmaz. Növbəti dərsə qədər şagirdlərin istirahət hüququna ciddi yanaşmaq lazımdır.

Müəllimin dili

Dərsin başa düşülməsi üçün müəllimin aydın, astadan, lakin arxadakı şagirdlərin eşidə biləcəyi şəkildə danışması və vacib hissələri vurğulaması faydalıdır.

Sürətli nitqi izləmək və başa düşmək çox çətin olduğu üçün şagirdlərin diqqəti dərsdən yayına bilər və diqqəti başqa şeylərə yönəldə bilər. Müəllim tədris zamanı istifadə etdiyi sözləri şagirdlərin başa düşəcəyi tərzdə seçməlidir. Uzun cümlələri başa düşmək çətindir və onlara əməl etmək yüksək konsentrasiya tələb edir. Bilirik ki, şagirdlərin diqqəti daha əvvəl dediyimiz kimi 20 dəqiqə ilə məhdudlaşır.

Ədəbiyyat

1. Baltaş, Z. ve Baltaş A. (2005). Bedenin Dili. İstanbul: Remzi Kitabevi.
2. Bates, J.E. (1976). "Effects of children's nonverbal behavior upon adults.", Child Development 47/1976, 1079-1088.
3. Chaikin, A.L. ve Derlaga, V. (1978) "Nonverbal mediators of expectancy effects in black and white children", Journal of Applied Social Psychology 8/1978,117-125
4. Çalışkan, N. ve Yeşil, R. (2005): Eğitim sürecinde öğretmenin beden dili. Gazi Üniversitesi Kırşehir Eğitim Fakültesi Dergisi, Cilt 6, Sayı 1, 199-207
5. Çalışkan, N. ve Karadağ, E. (2006): Bir Baton olarak öğretmenin elleri. Eğitim Araştırmaları Dergisi, Sayı 25, Ankara, 54-61
6. Heidemann, R. (1986). Körpersprache vor der Klasse. Wiesbaden: Quelle und Meyer Verlag.
7. Nadir Məmmədli. Azərbaycan dilində İşgüzar və akademik kommunikasiya. "Elm və Təhsil". Bakı – 2024
8. https://communicationacademy.az/kommunikasiya-nedir

Şükürzadə Şahnazxanım Cümşüd qızı

Məktəbdə qeyri-verbal kommunikasiya: məsafə, jestlər və mimika, geyim və görünüş

XÜLASƏ

Tədrisin keyfiyyətini və səmərəliliyini artırmaq üçün verbal kommunikasiyanın önəmliliyi qədər qeyri-verbal kommunikasiya da düzgün qurulmalıdır. Sinif otağında müəllimin bədən dili əsas şərtdir. Müəllimlə şagird arasında qurulan optik ünsiyyət - ifadəli hərəkətlər, məsafə, jest və mimika, yeriş, baxış, duruş, geyim, xarici görünüş və s. mühüm amillərdir.

Açar sözlər: məktəbdə qeyri-verbal kommunikasiya, optik ünsiyyət, müəllimin məsafəsi, jestlər və mimika, müəllimin geyimi, müəllimin görünüşü

ШУКЮРЗАДЕ ШАХНАЗХАНУМ ДЖУМШУД КЫЗЫ
НЕВЕРБАЛЬНОЕ ОБЩЕНИЕ В ШКОЛЕ: ДИСТАНЦИЯ, ЖЕСТЫ И МИМИКА, ОДЕЖДА И ВНЕШНИЙ ВИД

РЕЗЮМЕ

Для повышения качества и эффективности обучения необходимо правильно структурировать вербальное и невербальное общение. Язык тела учителя имеет решающее значение в классе. Визуальная коммуникация между учителем и учеником – выразительные движения, дистанция, жесты и мимика, походка, взгляд, поза, одежда, внешний вид и т. д. являются важными факторами.

Ключевые слова: невербальное общение в школе, оптическая связь, дистанция учителя, жесты и мимика, одежда учителя, внешний вид учителя

SHUKURZADE SHAKHNAZKHANIM GUMSHUD KIZI

NONVERBAL COMMUNICATION AT SCHOOL: DISTANCE, GESTURES AND FACIAL EXPRESSIONS, CLOTHING AND APPEARANCE

SUMMARY

To improve the quality and efficiency of teaching, verbal and non-verbal communication must be properly established. The teacher's body language in the classroom is a basic condition. The optical communication established between the teacher and the student - expressive movements, distance, gestures and facial expressions, gait, gaze, posture, clothing, appearance, etc. are important factors.

Key words: nonverbal communication at school, optical communication, teacher's distance, gestures and facial expressions, teacher's clothing, teacher's appearance

Rəyçi: professor Nadir Məmmədli

Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu, *ISSN 2224-9257*
Filologiya məsələləri № 3, 2025
Səh. ————————

SƏMRA NAMİQ QIZI HƏSƏNZADƏ
E-mail: smrhesenzade1999@gmail.com
Bakı Dövlət Universiteti
Ünvan: Bakı, Z.Xəlilov küç. 23.

METAFOR ANLAYIŞI: KONSEPTUAL YANAŞMADAN SİSTEMLİ FUNKSIONAL TƏHLİLƏ

Dil haqqında elmin tarixində metafordan danışanda ilk ağıla poeziya gəlir. Nərminan Həsənzadə *"Bu dünya nərdivandı,*
Qalxanda mehribandı,
Enəndə nə yamandı...." [5]
deyəndə klassik metaforik yanaşmadan istifadə edirdi. Sintaktik quruluşu son dərəcədə sadə olan şeir dərin fəlsəfi mənalar daşıyır. Belə ki, şeirdə dünya (*oxu: insan ömrü*) "nərdivan" obrazı şəklində təqdim olunur və onun vasitəsilə insan həyatındakı dəyişkənliyi sadə, lakin təsirli bir metafor ilə ifadə edir. Bütün bunlara baxmayaraq, metafor təkcə poeziya üçün bir alət deyil, sadəcə olaraq, şairlər, yazıçılar ondan başqalarından daha yaxşı istifadə edirlər.

Termin olaraq *metafor* qədim yunan sözü "meapherein"dən yaranmışdır. "meta" *kənara*, "pherein" *daşımaq, köçürmək* sözlərinin birləşməsindən yaranan bu termin hərfi anlamda *köçürmək* mənasını ifadə edir. "İzahlı dilçilik terminləri lüğəti"ndə metafora "sözün, ifadənin, əşya və hadisələrin hər hansı bir cəhətdən oxşarlığına, bənzəyişinə əsasən məcazi mənada işlədilməsi" [1, s.155] kimi tərif verilir. Və əlavə edilir ki, "metafora məcazın ən geniş yayılmış növlərindən biridir. Çünki bənzətmədə insan təxəyyülünün hüdudu yoxdur. Volter göstərirdi ki, hər şeyi hər şeyə bənzətmək mümkündür. Məsələn, ayı pendir qırıqlarına oxşatmaq olar"[1, s.155].

Klassik anlamda (yaxud Aristotelçi mövqedən) metafora yanaşdıqda onun olduqca geniş mənalara malik olduğu görünür. O, bir ifadənin digərinin yerinə işlədilməsi, o cümlədən, diminutivlər və evfemizmlər kimi halları, həmçinin əvvəllər mövcud olmayan mövzu sahələrindən danışma yollarını əhatə edirdi ki, bunlara da heç bir sözün həqiqi mənada ekvivalenti yox idi. Bunu hər şeydən əvvəl Aristotelin metafor haqqında yazılarında, xüsusilə, "Poetika" əsərində müşahidə edirik. O, metafor anlayışına tərif verərkən göstərir ki, "metafora qeyri-adi bir ismi ya cinsdən növə, ya növdən cinsə, ya da növdən növə keçirmək və ya bənzətmə yolu ilə məcazlaşdırmaqdır" [2, s.55].

Göründüyü kimi, dahi filosofun yanaşmasında dilin metaforik istifadəsi üçün ən ümumi ardıcıl əsas kimi oxşarlıq seçilib. Yəni onun üçün ən ümumi səbəb bir növ şeyin adından başqa bir şey təyin etmək üçün istifadə edərək, onlar arasındakı oxşarlıqları qeyd etməkdir.

Dünyada baş verən proseslərin əsl mahiyyətinin dərki yolunda həqiqi oxşarlıqları tapmaq bacarığının zəruri olduğunu başa düşən "müxtəlif elmlərin atası" buna çatmağın ən mühüm yolunu "metaforada usta olmaq" şəklində görürdü: "Lakin bu qabiliyyəti başqasından əxz etmək olmaz; bu, istedad nişanəsidir, zira, yaxşı metaforalar qoşmaq - oxşarlığı görə bilmək deməkdir"[2, s.58].

Aristotelin metafor anlayışına yanaşması, əslində, onun təbiəti və funksiyası haqqında hesab edildiyindən daha mürəkkəb bir baxışı ifadə edirdi. Belə ki, o, göstərməyə çalışırdı ki, metafor sırf semantik və ya praqmatik bir məsələ deyil, o hər ikisinin qovşağında özünü göstərən hibrid bir problemdir. Beləliklə, Aristotelin yanaşmasında metafora dilin sadə bir bəzəyi kimi deyil, həm idrakın, həm də ifadənin fundamental bir hissəsi kimi yanaşılır.

Müasir dilçilikdə antroposentrik meyillər ön plana çıxması ilə dil (əslində, nitq fəaliyyəti) artıq insanın mərkəzdə olduğu sosial, psixoloji və mədəni kontekstlərdə təhlil olunaraq, insan təfəkkürü və cəmiyyətdəki funksiyaları aspektlərindən öyrənilir. Həmin meyillərin tələbi ilə XX əsrin 70-ci illərdə formalaşan Koqnitiv dilçiliyin əsas anlayışlarından biri kimi metafora (daha doğrusu, konseptual metafora) maraq artdı.

Metaforu koqnitiv dilçiliyin əsas anlayışı kimi nəzərdən keçirən C.Lakoff və M.Conson "Yaşadığımız metaforlar"ın ön sözündə göstərirlər ki, "bizi metafora olan müştərək maraq bir araya gətirdi. Mark əksər ənənəvi fəlsəfi baxışların dünyamızı və özümüzü anlamaqda metafora çox az rol verdiyini kəşf etmişdi. Corc metaforun gündəlik dil və düşüncədə geniş yayıldığını göstərən istər dilçilik, istərsə də fəlsəfədə hər hansısa bir müasir Anqlo-Amerikan anlam nəzəriyyəsi ilə üst-üstə düşməyən linqvistik dəlili aşkar etdi. Metafora ənənəvi olaraq hər iki sahədə də periferik maraq mövzusu olaraq baxılırdı. Biz isə bunun yerinə metaforun mərkəzi bir maraq məsələsi, bəlkə də advekat bir anlama açıqlamasının açarı olduğu intuisiyasını paylaşırdıq"[4, s.ix].

Onlar göstərirlər ki, "metafor, adətən, yalnız dilin xarakteristikası, düşüncə və ya hərəkət məsələsi olaraq deyil, sözlər məsələsi kimi görülür. Bu səbəbdən çox insan metaforsuz da mükəmməl bir həyat yaşamağın mümkün olduğunu düşünür. Əksinə, biz metaforun gündəlik həyatda yalnız dildə deyil, həm də düşüncə və hərəkətdə geniş yayıldığını kəşf etdik. Gündəlik anlayış sistemimiz – düşündüyümüz və hərəkət etdiyimiz terminlər, əslində təbiətinə görə metaforikdir"[4, s.3].

Bir anlayışın metaforik olmasını izah etmək üçün "mübahisə müharibədir" metoforuna əsaslanaraq gündəlik istifadə olunan bir neçə ifadə göstərirlər:

"İddialarınız *müdafiə oluna bilməz*.
Mənim arqumentimdəki hər *zəif fikri hədəf aldı*.
Tənqidləri birbaşa *hədəfi tapdı*.
Arqumentini *darmadağın etdim*.
Onunla heç vaxt mübahisədə *qalib gələ bilmədim*.

Bunu qəbul etmirsən? O zaman, *atəş*!

Bu strategiyanı istifadə etsən, o, səni *bitirəcək*.

Bütün arqumentlərimi *məhv etdi*.

Daha sonra əlavə edirlər ki, "müzakirələrin yalnızca müharibə terminləri ilə izah edilmədiyini anlamaq vacibdir. Əslində, mübahisələri qazana və ya uduza bilərik. Müzakirə etdiyimiz şəxsi bir düşmən olaraq görərik. Onun mövqelərinə hücum edər və öz mövqelərimizi müdafiə edərik. Qalib gələrik və ya məğlub olarıq. Strategiyalar, planlar qurub istifadə edirik. Əgər müdafiə olunmaz bir mövqe tapsaq, onu tərk edərək yeni bir hücum xətti qururuq. Müzakirə zamanı etdiyimiz bir çox şeyi qismən müharibə anlayışı struktura salır. Fiziki qarşıdurmanın olmadığı bir yerdə belə, şifahi bir münaqişə vardır və bir mübahisənin strukturu - hücum, müdafiə, əks-hücum və s. bunu əks etdirir. Məhz bu mənada "mübahisə müharibədir" metaforu bu mədəniyyətdə bizimlə yaşayan metaforlardan biridir; mübahisədə sərgilədiyimiz hərəkətləri struktura salır"[4, s.4].

Nəticə etibarilə, belə bir fikri müdafiə edirlər ki, "mübahisələrin müharibə terminləri ilə görünmədiyi bir mədəniyyət təsəvvür etməyə çalışın, orada heç kim qalib gəlmir və ya məğlub olmaz, orada hücum etmək, müdafiə etmək, irəliləmək və ya geri çəkmək heç bir məna daşımır"[4, s.5].

Ümumiyyətlə, uzun müddət dilçilik tarixində hərfi mənada yanaşılaraq semantik nəzəriyyələrdə özünə yer tapmayan metafor praqmatikanın arxa planında qalmışdı. Linqvistikada yeni meyillərin güclənməsi ilə diqqət "üst" qatdakı (dildəki) metafordan "alt" qatda (təfəkkürdə) olan metafora keçdi. Və bu keçid metaforların yalnız dilin strukturunu deyil, eyni zamanda düşüncə tərzini və dünyaya baxışımızı necə formalaşdırdığını göstərirdi.

Koqnitiv dilçiliklə paralel olaraq təşəkkül tapan Sistemli funksional linqvistika (SFL) tədqiqatlarını metaforun funksiyası üzərində durmağa başladılar. Metaforu sosial baxımdan şərh edən Sistemli funksional dilçilik məktəbinin nümayəndələri (M.Hallidey, K.Matthiessen, C.Martin və b.) onu 1) leksik metafor və 2) qrammatik metafor olmaqla tədqiq edirlər.

M.Hallidey "Sistemli funksional linqvistikaya giriş" əsərində göstərir ki, "metafor, adətən, sözlərin istifadəsindəki variasiya kimi təsvir olunur: bir sözün köçürülmüş mənada istifadə edildiyi deyilir. Lakin burada biz məsələyə digər tərəfdən yanaşırıq və "bu söz necə istifadə olunur?" sualını deyil, "bu məna necə ifadə olunur?" sualını veririk. Bir məna müəyyən mənada tipik və ya qeyri-markalanmış hesab edilən söz seçimindən fərqli bir seçimlə reallaşa bilər. Bu baxımdan metafor mənaların ifadəsindəki variasiyadır"[3, s.320].

Göründüyü kimi, burada dilçinin diqqət yetirməli olduğu əsas məqam "eyni məna başqa hansı üsullarla ifadə oluna bilər" sualıdır. Nəticə etibarilə, bir məna müəyyən kontekstdə "tipik" hesab edilən bir ifadə tərzi ilə yox, fərqli bir strukturla da verilə bilər ki, bu baxımdan metafor yalnız sözlərin mənalarının dəyişməsi deyil, həm də bir mənanın müxtəlif dil vasitələri ilə ifadə olunmasının variasiyasıdır.

Metaforun yalnız leksik deyil, həm də qrammatik bir fenomen olduğunu iddia edən dilçi göstərir ki, "lakin məsələyə bu cür yanaşdıqda anlayırıq ki, leksik seçim leksikoqrammatik seçimin yaxud "ifadə"nin *(wording)* yalnız bir aspektidir və metaforik variasiya sadəcə leksik deyil, leksikoqrammatik xarakter daşıyır. Bir çox metaforlar leksik ifadələrdə tapıla bilər…lakin hətta bu hallarda belə onları müşayiət edən qrammatik variasiya mövcuddur"[3, s.320].

Metaforun sadəcə sözün mənasını dəyişməklə deyil, eyni zamanda cümlə strukturunda birbaşa dəyişiklik edərək ifadə olunduğu fikrini irəli sürən M.Hallidey ingilis dilindən nümunələr gətirir: "*He oozes geniality* ifadəsini sadəcə *oozes* sözünü başqa bir leksik vahidlə əvəzləməklə həqiqi formada ifadə etmək mümkün deyil. Eyni şəkildə *protests flooded in* ifadəsi üçün də sadəcə leksik dəyişikliklə həqiqi ifadə yaratmaq olmaz; bunun üçün *protests came in in large quantities, protests were received in large quantities* və ya hətta *very many people protested* deməliyik"[3, s.320].

Və belə bir nəticəyə gəlir ki, "ritorik keçidlərdə güclü bir qrammatik element vardır ki, bunu başa düşdükdən sonra biz qrammatik metaforun da mövcud olduğunu görürük, burada variasiya əsasən qrammatik formalarda olur, baxmayaraq ki, çox vaxt müəyyən leksik variasiya da daxil olur" [3, s.320].

Göründüyü kimi, bəzən metaforik dəyişikliklər üçün sözlərin dəyişdirilməsi kifayət etmir, eyni zamanda cümlənin qrammatik strukturunda da müəyyən dəyişikliklər baş verir ki, bu da dilçilikdə qrammatik metafor adlanır.

İstifadə olunmuş ədəbiyyat siyahısı

1. Adilov M, Verdiyeva Z, Ağayeva F. İzahlı dilçilik terminləri. Bakı: "Maarif", 1989, 364 s.
2. Aristotel. Poetika. Bakı: "Şərq-Qərb", 2006, 120 s.
3. Halliday M.A.K. An Introduction to Functional Grammar, London: Edward Arnold, 1985, 387 p.
4. Lakoff G., Johnson M. Metaphors We Lived By. Chicago: University of Chicago Press, 2008, 308 p.
5. https://www.anl.az/down/meqale/edebiyyat/2020/avqust/714229.htm

Səmra Namiq qızı Həsənzadə

Metafor anlayışı: konseptual yanaşmadan sistemli-funksional təhlilə

Xülasə

Metafor yalnız poeziya və ədəbiyyatla məhdudlaşmır, həmçinin gündəlik dil və düşüncədə də geniş istifadə olunur. Aristotel metaforu bir ifadənin başqa bir ifadə ilə əvəzlənməsi kimi izah edir ki, burada oxşarlıq əsas yer tutur. Koqnitiv dilçilikdə isə, metafor yalnız dilin deyil, həm də təfəkkürün bir hissəsi kimi qəbul edilir. C.Lakoff və M.Conson metaforun gündəlik dil və təfəkkür qatında yayılmasını vurğulayır və onun həyatın müxtəlif sahələrində strukturlaşdırıcı rolunu qeyd edirlər.

Sistemli-funksional linqvistikada isə metafor həm leksik, həm də qrammatik bir fenomen kimi tədqiq olunur. M.Halliday, metaforun sözlərin mənasını dəyişməklə yanaşı, cümlə strukturunda da dəyişikliklərə səbəb olduğunu göstərir ki, bu da qrammatik metaforların mövcudluğunu ortaya qoyur.

Açar sözlər: koqnitiv dilçilik, sistemli funksional dilçilik, konseptual metafor, qrammatik metafor

Samra Namig Hasanzadeh

The Concept of Metaphor: From a Conceptual Approach to Systemic-Functional Analysis

Abstract

Metaphor is not limited to poetry and literature; it is also widely used in everyday language and thought. Aristotle defines metaphor as the substitution of one expression with another based on similarity. In cognitive linguistics, metaphor is considered not only a part of language but also a part of thought. C. Lakoff and M. Johnson emphasize the prevalence of metaphor in everyday language and cognition, highlighting its structuring role in various aspects of life. In systemic-functional linguistics, metaphor is studied as both a lexical and grammatical phenomenon. M.Halliday demonstrates that metaphor not only alters word meanings but also affects sentence structure, leading to the existence of grammatical metaphors.

Keywords: cognitive linguistics, systemic-functional linguistics, conceptual metaphor, grammatical metaphor

Самра Намиг Гасанзаде

Понятие метафоры: от концептуального подхода к системно-функциональному анализу

Резюме

Метафора не ограничивается только поэзией и литературой; она также широко используется в повседневной речи и мышлении. Аристотель определяет метафору как замену одного выражения другим на основе сходства. В когнитивной лингвистике метафора рассматривается не только как часть языка, но и как часть мышления. Дж. Лакофф и М. Джонсон подчеркивают распространенность метафоры в повседневной речи и сознании, отмечая ее структурирующую роль в различных сферах жизни. В системно-функциональной лингвистике метафора изучается как лексическое и грамматическое явление. М. Хэллидей показывает, что метафора изменяет не только значение слов, но и структуру предложения, что подтверждает существование грамматических метафор.

Ключевые слова: когнитивная лингвистика, системно-функциональная лингвистика, концептуальная метафора, грамматическая метафора

Rəyçi: f.e.d., akad. Nizami Qulu oğlu Cəfərov

Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu, *ISSN 2224-9257*
Filologiya məsələləri № 3, 2025
Səh. ——————

EMÇİYEVA VƏFA ƏLİŞAD QIZI
Azərbaycan Universiteti ,
Baku Azerbaycan
Vafa.emchiyeva@au.edu.az

FRAZEOLOGİ BİRLƏŞMƏLƏRİN AZƏRBAYCAN VƏ İNGİLİS DİLLƏRİNDƏ VARİATİVLİYİ

Xülasə

Frazeoloji birləşmələr dilin zənginliyini və ifadəliliyini artıran mühüm vahidlərdir. Onların müxtəlif dillərdə dəyişkənliyi (variativliyi) dilin tarixi və mədəni inkişafı ilə sıx bağlıdır. Azərbaycan və İngilis dillərində frazeoloji birləşmələrin semantik və struktur fərqləri onların müxtəlif dil ailələrinə mənsub olması ilə izah edilir. Frazeoloji ifadələrin tərcüməsi zamanı ekvivalent tapmaq çətin olsa da, bu, dillər arası əlaqələrin öyrənilməsinə və mədəni fərqlərin anlaşılmasına mühüm töhfə verir. Bu sahədə aparılan araşdırmalar təkcə dilçiliyə deyil, həm də mədəniyyətlər arası ünsiyyətə mühüm töhfə verə bilər. Frazeoloji birləşmələr dilin zənginliyini və ifadəliliyini artıran mühüm vahidlərdir. Onların müxtəlif dillərdə dəyişkənliyi (variativliyi) dilin tarixi və mədəni inkişafı ilə sıx bağlıdır. Azərbaycan və İngilis dillərində frazeoloji birləşmələrin semantik və struktur fərqləri onların müxtəlif dil ailələrinə mənsub olması ilə izah edilir. Frazeoloji ifadələrin tərcüməsi zamanı ekvivalent tapmaq çətin olsa da, bu, dillərarası əlaqələrin öyrənilməsinə və mədəni fərqlərin anlaşılmasına mühüm töhfə verir. Bu sahədə aparılan araşdırmalar təkcə dilçiliyə deyil, həm də mədəniyyətlərarası ünsiyyətə mühüm töhfə verə bilər.

Açar sözlər : Frazeoloji birləşmələr, dil variativliyi, müqayisəli dilçilik, tərcümə problemləri.

Vafa Alishad gizi Emchiyeva

Phraseological Units Variability in Azerbaijani and English Languages

Abstract

Phraseological units are an essential part of any language, reflecting the cultural and historical characteristics of a nation. Their structure and meaning often vary across languages, making their study a fascinating subject for linguists. This article examines the variability of phraseological units in Azerbaijani and English, analyzing their structural and semantic differences. It also explores translation challenges and the cultural factors influencing these expressions. The study highlights that while some phraseological units have direct equivalents, others require adaptation due to linguistic and cultural differences. Understanding these variations contributes to comparative linguistics and facilitates intercultural communication. **Keywords:** phraseological units, language variability, comparative linguistics, translation challenges.

Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu, *ISSN 2224-9257*
Filologiya məsələləri № 3, 2025
Səh. ————————

Вафа Алишады гызы

Вариативность фразеологических единиц в азербайджанском и английском языках

Резюме

Фразеологические единицы являются важной частью любого языка, отражая культурные и исторические особенности нации. Их структура и значение часто варьируются в разных языках, что делает их изучение интересной темой для лингвистов. В данной статье рассматривается вариативность фразеологических единиц в азербайджанском и английском языках, анализируются их структурные и семантические различия. Также обсуждаются проблемы перевода и культурные факторы, влияющие на использование данных выражений. Исследование показывает, что некоторые фразеологизмы имеют полные эквиваленты, в то время как другие требуют адаптации из-за языковых и культурных различий. Понимание этих вариаций способствует развитию сравнительного языкознания и межкультурной коммуникации. **Ключевые слова:** фразеологические единицы, языковая вариативность, сопоставительная лингвистика, проблемы перевода.

Giriş

Frazeoloji birləşmələr, dilin ifadə zənginliyini və obrazlılığını artıran mühüm dil vahidləridir. Hər dilin frazeoloji sistemi, o dilin tarixi, mədəniyyəti və sosial strukturu ilə sıx bağlıdır. Bu məqalədə, Azərbaycan və İngilis dillərindəki frazeoloji birləşmələrin semantik və struktur xüsusiyyətləri müqayisə ediləcək, həmçinin bu birləşmələrin tərcüməsində qarşılaşılan çətinliklər və mədəni fərqlərin roluna diqqət yetiriləcəkdir. Frazeoloji birləşmələrin tərcüməsi, dillərarası əlaqələrin öyrənilməsinə və mədəniyyətlərarası ünsiyyətin daha yaxşı başa düşülməsinə mühüm töhfə verir.

1.Frazeoloji birləşmələrin təsnifatı

Frazeoloji birləşmələrin təsnifatı müxtəlif meyarlara əsasən aparılır. Azərbaycan dilçiliyində ən geniş yayılmış təsnifat aşağıdakılardır:

Semantik xüsusiyyətlərinə görə:

Frazeoloji birləşmələr (Phraseological Collocations): Bu ifadələrdə sözlər arasında müəyyən bağlılıq olsa da, tərkib hissələri məna müstəqilliyini saxlayır. Məsələn, *"qarar tutmaq"* (yığışmaq). Frazeoloji birləşmələr (Phraseological Unities): Bu ifadələrdə sözlər bir-birinə sıx bağlıdır, mənası bütövlükdə başa düşülür. Məsələn, *"başından böyük işə girişmək".*Frazeoloji ifadələr (Phraseological Idioms): İfadənin mənası tamamilə obrazlıdır və ayrılıqda sözlərin mənası ilə əlaqəsi yoxdur. Məsələn, *"su içində balıq kimi olmaq"* (özünü rahat hiss etmək)

Struktura görə:

Sabit birləşmələr: Tərkibi dəyişməz və sabit qalır, sinonimlər və ya başqa sözlərlə əvəz edilə bilməz. Qismən sabit birləşmələr: Tərkibdəki bəzi sözlər dəyişdirilə bilər. Məsələn, "*başını itirmək*", "*başını itirən*".

Funksional xüsusiyyətlərinə görə:

Nominativ frazeologizmlər: Əşyaları, hadisələri və ya hərəkətləri ifadə edir.

Modallıq frazeologizmləri: Müstəqil fikir ifadə edir, münasibət bildirir. Məsələn, "*Allah köməyin olsun".*

Emosional frazeologizmlər: Emosiyaları ifadə edir. Məsələn, "*ürəyim yanır".*

2. Frazeoloji Birləşmələrin Əhəmiyyəti

Frazeoloji birləşmələr dilin milli xüsusiyyətlərini qoruyub saxlayır, xalqın tarixi və mədəniyyətini əks etdirir. Onlar dilin obrazlılığını və ifadə zənginliyini təmin edir. Tərcümə zamanı bu ifadələrin düzgün mənasının çatdırılması mədəniyyətlərarası ünsiyyətin uğurlu olmasında mühüm rol oynayır.

Frazeoloji birləşmələr sabit ifadələrdir və onların mənası tərkibindəki sözlərin ayrılıqda daşıdığı məna ilə tam uyğun gəlmir. Onlar semantik bütövlüyə malikdir və dilin canlı ünsiyyət prosesində aktiv istifadə olunan ifadə tiplərindən biridir.

Akademik V.V. Vinogradovun təsnifatına əsasən, frazeoloji birləşmələr üç əsas qrupa bölünür:

Frazeoloji birləşmələr (məsələn, "*ayağını yerə basmaq*" – qərarlı olmaq)

Frazeoloji bütövlüklər (məsələn, "*göydəndüşmə*" – gözlənilməz hadisə)

Frazeoloji ifadələr (məsələn, "*özünü itirmək*" – həyəcanlanmaq)

Akademik V.V. Vinogradov, frazeologiyanın təhlilində böyük bir yerə sahib olan alimlərdən biridir. Onun frazeoloji birləşmələrə dair təsnifatı, frazeologiyanın strukturu və funksiyaları haqqında dərin bir anlayış təqdim edir. Vinogradov, frazeoloji birləşmələri müxtəlif parametrlərə əsaslanaraq təsnif edir və bunları dilin inkişafında və kommunikasiya prosesində əhəmiyyətli bir rol oynayan xüsusi ifadələr kimi tədqiq edir. O, frazeoloji birləşmələri əsasən onların mənaları, strukturu, istifadə sahəsi və dilin digər aspektləri ilə əlaqədar olaraq qruplaşdırır.

3. Sabit İfadələr (Frazəoloji Birləşmələr)

Sabit ifadələr və ya frazeoloji birləşmələr, dilin strukturlarında müəyyənləşmiş və müntəzəm istifadə olunan ifadələrdir. Bu birləşmələr dilin ümumi frazeoloji sistemini təşkil edir və dil istifadəçiləri tərəfindən birbaşa anlamı ilə qəbul edilir. Vinogradov bu cür birləşmələrin həm dilin sabitliyini təmin edən, həm də mədəniyyətin və həyat təcrübəsinin dilə yansıyan ifadələr olduğunu vurğulayır.

Misallar: "*Göz var nizam var*" – insanın görmə qabiliyyəti ilə əlaqədar olaraq, düzgün və qaydalı həyat tərzinin vacibliyini bildirir.

"*Görünüşdən daha çox şey deməkdir*" – xarici görünüşün əsl mənasını tam şəkildə əks etdirmədiyini ifadə edən bir misaldır.

Metaforik Frazalar

Vinogradov frazeologiyanı analiz edərkən, metaforik frazaların dilin zənginliyini və ifadə qabiliyyətini artırdığını bildirir. Metaforik frazalar, əsasən bir

mənanın başqa bir mənaya çevrilməsi ilə yaranır. Bu, dilin təbiətində mövcud olan kreativliyi və məcazi ifadə qabiliyyətini əks etdirir. Metaforik frazalar, bir anlayışın başqa bir anlayışla müqayisə edilməsindən doğur. Bu cür ifadələr dilin poetik və bədii xüsusiyyətlərini gücləndirir.

Misallar: "*Qızıl ürək*" – sadəlik və saf niyyətləri ifadə edən məcazi bir ifadədir.

"*Dağları aşmaq*" – böyük və çətin əngəlləri aşmaq anlamını ifadə edir.

İstiqamət və Hərəkət İfadələri

Bu tip frazeoloji birləşmələr, konkret hərəkət və istiqamətə yönəlmiş ifadələrdir. Vinogradov bu frazaların dilin hərəkətliliyini və ifadə müxtəlifliyini təmin etdiyini qeyd edir. Bu frazalar dilin praktiki istifadəsinə də aid edilir və hərəkət etməyi, yönəlməyi, istiqamətləri və hərəkət növlərini əks etdirir.

Misallar: "*Yola çıxmaq*" – bir işə başlamaq, yol alaraq irəliləmək anlamında istifadə olunur.

"*Gözü aydın olmaq*" – gözəl bir xəbəri, uğuru gözləmək və ya əldə etmək anlamında işlədilir.

Qeyri-Konkret Frazeologiya

Vinogradov frazeologiyasının digər bir növü qeyri-konkret frazeologiyadır. Bu frazeologiyaların mənası konkret və açıq deyil, amma dil istifadəçiləri bu ifadələrin məntiqini və məzmununu başa düşürlər. Bu, dilin daha geniş məna və anlam çərçivəsində işlədilməsinə imkan verir.

Misallar: "*Könül vermək*" – bir şeyə daxili olaraq bağlanmaq, sevgi və maraq göstərmək.

"*Gözün üstə qələm*" – diqqət və qayğı tələb edən vəziyyət.

Yeni və Ənənəvi Frazeologiya

Vinogradov, frazeologiyanı həm də yeni və ənənəvi frazeoloji birləşmələrə ayırır. Yeni frazeologiya müasir dövrün dilində yaranan və istifadə edilən ifadələrə aiddir, ənənəvi frazeologiya isə uzun bir tarixə malik olan və artıq dilin müəyyən bir hissəsinə çevrilmiş ifadələrdir. Yeni frazeoloji birləşmələr tez-tez dövrün dəyişən şərtlərinə, sosial və mədəni dəyişikliklərə uyğunlaşır. Ənənəvi frazeologiya isə mədəniyyətin və dilin tarixi köklərini təmsil edir

4. Frazeoloji variativlik və onun səbəbləri

Frazeoloji birləşmələrin variativliyi müxtəlif amillərlə bağlıdır:

• Dil tarixi və inkişafı: Müxtəlif xalqların tarixi və coğrafi şəraiti onların dilində istifadə olunan ifadələrə təsir edir.

• Kulturoloji amillər: Hər xalqın özünəməxsus mədəniyyəti və dünyagörüşü frazeoloji ifadələrin formalaşmasına təsir edir.

• Dilin struktur xüsusiyyətləri: Azərbaycan və İngilis dilləri fərqli dil ailələrinə mənsub olduğuna görə onların sintaktik və semantik xüsusiyyətləri fərqlidir.

Azərbaycan dilində "su kimi duru" ifadəsi təmiz, şəffaf bir şeyi ifadə edirsə, İngilis dilində buna uyğun olaraq "as clear as crystal" ifadəsi işlənir. Bu cür frazeoloji uyğunluqlar dilin mədəni və tarixi xüsusiyyətlərindən irəli gəlir.

5. Azərbaycan və İngilis dillərində frazeoloji birləşmələrin müqayisəsi

1. Semantik uyğunluq və fərqlər

Bəzi frazeoloji ifadələr Azərbaycan və dillərində tam ekvivalent olmasa da, semantik olaraq eyni məna daşıya bilər. Məsələn:

Azərbaycan **dili**	İngilis **dili**
Dağ dağa rast gəlməz , insan insana rast gələr	*It is a small world*
Göz çıxarmaq	*To make a blunder*
Əlinə su tökmək	*To be no match for someone*
İti qovan kimi qovmaq	*To kick someone out*

Bəzi frazeoloji birləşmələr isə tam eyni məna vermir, çünki dillərdə olan mədəni xüsusiyyətlər ifadələrin istifadəsinə təsir edir.

Tərcümə problemləri və ekvivalentlik məsələlərin də Ffazeoloji birləşmələrin tərcüməsi çox vaxt çətin olur, çünki bir dilin ifadəsini sözbə-söz başqa dilə çevirmək mümkün olmur. Məsələn, "*qulağı sırğalı olsun*" ifadəsini İngilis dilinə "*Let this be a lesson*" kimi tərcümə etmək olar, lakin burada sözlərin birbaşa mənası qorunmur. Frazeoloji tərcümə üsulları bunlardır:

Tam ekvivalent tərcümə: Bəzi ifadələr tam uyğun gəlir. ("*Burn the midnight oil" – "Gecə yarısına qədər işləmək")*

Müxtəlif formalı ekvivalentlər: Eyni məna fərqli şəkildə ifadə olunur. ("*Out of the blue" – "Göydəndüşmə")*

Tərcümə zamanı adaptasiya: Mədəni xüsusiyyətlər nəzərə alınaraq uyğun məna verilir. *("To let the cat out of the bag" – "Sirr açmaq")*

Bu tərcümə problemləri frazeoloji ifadələrin tədqiqini daha maraqlı və çətin edir.

Nəticə

Bu məqalə, frazeoloji birləşmələrin Azərbaycan və İngilis dillərindəki semantik və struktur xüsusiyyətlərini müqayisə edərək, dillərarası əlaqələr və mədəni fərqlərin dilin inkişafında və istifadəsindəki rolunu ortaya qoyur. Frazeoloji birləşmələrin variativliyi, dilin tarixi, strukturu və mədəni xüsusiyyətlərindən irəli gəlir və bu, frazeologiyanın tərcüməsində çətinliklər yaradır. Ekvivalent tapmaq bəzən mümkün olmasa da, tərcümə zamanı mədəni adaptasiya və kontekstual fərqlər nəzərə alınmalıdır. Araşdırmalar, frazeoloji birləşmələrin tərcüməsinin, dillərarası ünsiyyətin və mədəniyyətlərarası anlayışın inkişafında mühüm rol oynadığını göstərir. Bu sahədəki araşdırmaların həm dilçilik, həm də mədəniyyətlərarası əlaqələr üçün dəyərli töhfələr verəcəyi gözlənilir.

ƏDƏBİYYAT

Azərbaycan dilində ədəbiyyat:

1. Məmmədova, L. (2015). Frazeologiya və onun tərcüməsi. Bakı: Elm və Təhsil Nəşriyyatı.

2.Əliyev, A. (2018). Dilçilikdə frazeologiya. Bakı: Azərbaycan Universiteti Nəşriyyatı.

3.Hüseynova, N. (2012). Azərbaycan dilində frazeoloji birləşmələrin semantik xüsusiyyətləri. Bakı: Nurlan Nəşriyyatı.

4.Quliyev, F. (2017). Frazeologiya və tərcümə problemləri. Bakı: Elm Nəşriyyatı.

İngilis dilində ədəbiyyat:

1. Moon, R. (1998). Fixed Expressions and Idioms in English. Oxford: Oxford University Press.

2. Baker, M. (1992). In Other Words: A Coursebook on Translation. London: Routledge.

3. Cowie, A. P. (1998). The Oxford Dictionary of English Idioms. Oxford: Oxford University Press.

4. Crystal, D. (2003). English as a Global Language. Cambridge: Cambridge University Press.

Rus dilində ədəbiyyat:

1.Виноградов, В. В. (1990). Русский язык: фразеология. Москва:

2.Наука. Vinogradov, V.V. (1977). Русский язык: Фразеология. Москва: Наука.

3. Шмидт, Р. (2014). Фразеологизмы и их перевод. Москва: Рипол Классик.

4 Мельчук, И. А. (1996). Основы фразеологии русского языка. Москва: Наука.

5. Иванова, В. Н. (2012). Теория перевода и фразеология. Москва: Флинта

Rəyçi: professor Şaban Hüseynov

Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu, *ISSN 2224-9257*
Filologiya məsələləri № 3, 2025
Səh. ————————

ZƏMİNƏ MUSTAFAYEVA
ATU

MÜRƏKKƏB CÜMLƏ PREDİKATİVLİK ASPEKTDƏN

Açar sözlər: intonasiya,əlaqə,leksik element,mürəkkəb cümlə, predikativ vahidlər.
Keyword: intonations,copulas, predicative words, complex sentences, lexical element.
Ключевые слово:сложные предложения,предикативные единицы, связки лексический элемент, интонации

Mürəkkəb cümlə iki və ya daha çox qrammatik əsasdan (predikativ vahidlərdən) ibarət və semantik, struktur və intonator vahidi təşkil edən cümlədir.

Mürəkkəb cümlənin polipredikativliyi sadə cümlənin quruluşuna malik olan iki və ya daha çox predikativ vahidin birləşdiyi halda aşkar edilir. Yalnız mürəkkəb cümlənin hissələri şərti olaraq sadə cümlələr adlandırmaq olar.(1.9) Sadə cümlələrə oxşar sintaktik quruluşa malik olmaqla onlar:

a) mənalı dolğunluğa malik deyillər, çünki onlar yalnız birləşmədə mürəkkəb düşüncəni, obyektlərlə ətraf mühit hadisələri arasında çoxşaxəli əlaqələri ifadə edirlər; b) intonasiya tamlığı, çünki yalnız bütün mürəkkəb cümlə sonun intonasiyası ilə xarakterizə olunur; c) müstəqil ünsiyyət vahidləri olmadığı üçün kommunikativ məna. İki predikativ vahiddən ibarət mürəkkəb cümlə binar və ya ikikomponentli adlanır:

Mürəkkəb cümlənin komponentləri (hissələr, predikativ vahidlər) struktur və qrammatik xüsusiyyətlərinə (quruluşu, predikativliyinə) görə sadə cümlələrdir. Funksional baxımdan isə mürəkkəb cümlənin hissələri müstəqil sadə cümləyə xas olan kommunikativ və semantik tamlığa malik olmadığına görə cümlə deyil. Yalnız mürəkkəb cümlə bütövlükdə kommunikativ-semantik tamlığa malikdir ki, bu da özünəməxsus vahid intonasiya və söz düzümü ilə sadə cümlə kimi kommunikativ vahidi təmsil edir.

Mürəkkəb tipli mürəkkəb cümlələrdə müxtəlif struktur sxemlərinə uyğun qurulan predikativ vahidlərin birləşmələri birləşdirilir. Buna görə də, mürəkkəb tipli cümlələr bir neçə artikulyasiya səviyyəsinə malikdir.

Mürəkkəb cümlə sadə cümlələrin mexaniki birləşməsi deyil, konkret, özünəməxsus nümunəyə görə qurulur. Qurularkən sadə cümlənin müəyyən struktur variantlarından istifadə olunur ki, onlar mürəkkəb cümlənin xüsusiyyətlərinə görə dəyişdirilir. Beləliklə, mürəkkəb cümlələrin hissələri ayrıca kommunikativ vahid kimi fəaliyyət göstərmir, semantik və intonativ tamlığa malik deyildir. Yalnız bütün mürəkkəb cümlə bütövlükdə informasiyanın formalaşması və ötürülməsi vasitəsi olan müstəqil struktur-kommunikativ vahid hesab edilə bilər.

Buradan təbii bir sual meydana çıxır, bəs predikativlik nədir və mürəkkəb cümlələrdə funksiya və əhəmiyyəti nədən ibarətdir?

Predikativliyin türk dillərində, o cümlədən Azərbaycan dilində tarixən formalaşma tarixi haqqında da müxtəlif fikirlər mövcud olmuşdur.(2.9) Predikativlik dilimizin tarixi dövrlərində də var olmuşdur. Alimlərin fikrincə, hələ dilin inkişafının ilk dövrlərində predikaivlik mövcud olmuşdur. Bu o deməkdir ki, erkən dönəmlərdə sadə və mürəkkəb cümlə bir- birindən fərqlənməmişdir. İlkin dövrlərdə cümlədəki predikativlik elementinin yeri də indiki kimi cümlənin sonunda olmamışdır. Sonralar predikativlik elementi cümlənin sonuna doğru irəliləmiş, monopredikativlik yaranmışdır. Monopredikativli cümlənin birləşməsi nəticəsində isə mürəkkəb cümlələr yaranmışdır.(3.9) Beləliklə, dildə müxtəlif quruluşlu sadə və mürəkkəb cümlələr yaranmışdır. "Mixi yazıların və qədim türk yazılı abidələrinin verdiyi faktlar göstərir ki, bu cür quruluş ümumtürk dövründən mövcuddur və çox qədim tarixə söykənir. Uzun illər boyu qeyri-türk mənşəli dillərin təsiri altında qalan qaqauz dilində hal kateqoriyası daha çox fərqli xüsusiyyətlər qazanmışdır. Məsələn, bu dildə yiyəlik və təsirlik hallarında hara sualı işlənmir. Bu hallar müəyyənlik və qeyri-müəyyənlik kimi formalara ayrılmamışdır.(4.9) Qaqauz dilində hal əvəzlənmələri indi də fəal şəkildə işlənməkdədir.

Deməli, predikativlik həm məntiqi, həm qrammatik hadisədir.Predikativlik cümlədə mübtəda və xəbərin uzlaşmasından yaranır. Predikativ uzlaşma cüttərkibli cümlələrdə xəbərlə mübtəda, təktərkibli cümlələrdə isə baş üzvlə ifadə olunur.

F. Veysəllinin fikrincə, "Cümlədə predikativlik mahiyyət etibarilə, "özünə qayıdışla", təkrarla bağlıdır. Yəni cümlədə "subyekt ideyasının təmsilçisi olan mübtəda son mövqedə feili xəbərdəki və ya ismi xəbərdəki şəxs sonluğunun varlığı ilə təkrara uğrayır, beləliklə də sistemi(cümlə sistemini) qapayır..." (5.9). Cümlə sistemində meydana çıxan bu qapanmanın nəticəsi kimi cümlə yaranır. Cümlənin meydana çıxması üçün şəxs sonluqlarının olması əsas şərtlərdən biridir.

Elmi dilçilikdə belə bir fikir hökm sürür ki, dilin tarixi inkişaf mərhələlərində cümlədəki hər sözün özünəməxsus predikativliyi olmuşdur. Sonradan başqa üzvlərdəki predikativlik zəifləmiş, nəhayət predikativlik cümlənin xəbərində möhkəmlənmişdir. Beləliklə, tək predikativli cümlə formaları yaranmışdır.

Tədqiqatçıların fikrincə, predikativliyi üç variantda izah etmək olar: "..a) predikativlik –subyekt ilə predikat arasında əlaqə (münasibət) dir(məntiqi aspekt); b) tema ilə rema arasında əlaqədir (kommunikativ aspekt); v) mübtəda ilə xəbər arasında əlaqədir(qrammatik aspekt)" (6.9).

Assosiativ mürəkkəb cümlələr əlaqəli ünsiyyət vasitələrinin olmaması və nəticədə həm ünsiyyət növünün özünün (tərkibi / tabeliyində), həm də semantik əlaqələrin fərqlənməməsi ilə xarakterizə olunur.

İsimi atributiv cümlələr də monopozitivdir, burada tabeli cümlə baş cümlənin substantiv komponenti ilə birlikdə isim cümləsinin potensial istinad dairəsini daraldır.

Mürəkkəb cümlənin predikativ vahidlərini birləşdirən əsas vasitələr bağlayıcılar, birləşdirən sözlər və intonasiyadır. Hər bir cümlədə (sadə və mürəkkəb)

intonasiya mühüm rol oynayır. İstənilən mürəkkəb hərəkət tonal tamlığı ilə seçilir, sonun intonasiyasına malikdir. Ayrı-ayrı mürəkkəb konstruksiyalarda intonasiya mürəkkəb cümlənin predikativ vahidləri arasında semantik və sintaktik əlaqələri ifadə edən yeganə vasitədir. Bağlayıcılar mürəkkəb cümlənin yalnız predikativ hissələrini birləşdirir və bu hissələrin heç birinə aid deyil. Müqavilə birlikləri (hipotaktik) mürəkkəb cümlələrin hissələrini birləşdirir, müvəqqəti, şərti, səbəb, və digər əlaqələri ifadə edir.(7.9) Əsas nitq hissələri əlaqələndirici sözlər kimi çıxış edir: nisbi əvəzliklər (wer, was, wessen) və əvəzliklər (wessen, wann,wo). Əlaqələndirici sözlər bədəndə korrelyativ nümayiş etdirici sözlərə malik ola bilər. Nümayiş və təyin əvəzlikləri (so dass, jeder, alle), eləcə də əvəzlik zərfləri (dann, dort, da) qohum sözlər kimi fəaliyyət göstərir. Mürəkkəb cümlənin hissələrinin düzülüşün dəyişməsi feilin məzmununu və hissələr arasındakı əlaqəni dəyişmir. Hissələrin sərbəst düzülüşü eyni vaxtda əlaqənin qurulduğu mürəkkəb cümlələrə malikdir. Mürəkkəb cümlənin hissələri arasında zaman ardıcıllığı, səbəb əlaqəsi və birmənalı əlaqə varsa, o zaman predikativ hissələrin yerləşmə sırası sabitdir. Predikativliyin əsas əlaməti kimi istər rus dilçiliyində, istərsə də türkologiyada feilin şəkil şəkilçiləri, şəxs sonluqları və intonasiya göstərilir. Deməli, predikativliyin təzahürü üçün bunlardan birinin olması labüddür. Predikasiyanın feilin predikativ formaları ilə reallaşır. Feilin predikativ və ya şəxs formaları şəxsi, kəmiyyəti, şəkli və zamanı bildirir. Predikasiyanın ifadəsində xəbər şəkli feilin digər şəkillərindən daha az işlənir. Xəbər şəklinin reallaşması üçün hər üç zaman dünya dillərində aktiv şəkildə işlənir. Predikativlik kateqoriyası yalnız xəbər şəkli ilə məhdudlaşmır. (8.12)Feilin digər şəkilləri də predikativliyin reallaşmasında az və yaxud çox dərəcədə iştirak edir.

Dilçilərin fikrincə, predikativ və atributiv sintaqmların mənşəyi eynidir. Predikativ sintaqmlar atributiv sintaqmlardan əmələ gəlmişdir. Çünki tarixən cümlənin yaranması üçün təyin-təyinlənən qrupunun olması vacib amil sayılırdı.

Deməli, türk dillərində cümləni ilk formalaşdıran atributivlik olmuş, sonra predikativlik yaranmışdır.

Dilçilikdə predikativliklə bərabər predikativ əlaqə termini də işlədilir. Predikativ əlaqə ilə predikatikvlik anlayışları arasında müəyyən oxşarlıq, ümumilik cəhətlər olsa da bunlar müxtəlif anlayışlar və kateqoriyalardır.

Lakin bütün cümlə növlərində mübtəda ilə xəbərin əlaqəsi olmaya bilər.

Ədəbiyyat

1. Zusammengesetzter Satz als Einheit der Syntax. Prinzipien zur Klassifizierung komplexer Sätze (goaravetisyan.ru)
2. Abdullayev K.M. Azərbaycan dili sintaksisinin nəzəri problemləri/Ali məktəblər üçün dərs vəsaiti. Bakı: Maarif, 1999, 281 s.
3. Əzizov E. Oğuz qrupu türk dillərinin ümumi və fərqli xüsusiyyətləri haqqında. Dil və ədəbiyyat. Beynəlxalq elmi-nəzəri jurnal, 2012, N-2, səh.5-7
4. Rəcəbli Ə. Qədim türk yazısı abidələrinin dili. II Bakı: Nurlan 2006.

5. Veysəlli F. Y. , Kazımov Q. Ş. Kazımov İ.K. B., Məmmədov A. Y. Azərbaycan dilinin funksional qrammatikası. III c. Bakı: 2015.
6. Цветков В.Я. Семантические информационные единицы как развитие идей. Л. Флориди//ЕигореапКезеагсйег, 2012, Vol. (25), № 7, с. 1036-1040
7. Покровская Л.А. Грамматика гагаузского языка. Фонетика и Морфология. Москва, издательство «Наука», 1964, 297 ст
8. Баскаков Н.А. Введение в изучение тюркских языков. Москва, 1969, 230 с
9. Сухотин В. П. Проблема словосочетания в современном русском языке, «Вопросы ситаксиса современного русского языка»

Xülasə

Məqalədə Predikativlik cümləni formalaşdıran sintaktik kateqoriya kimi və xüsusi bir dil kateqoriyası olan predikativlikdən və onun ifadə vasitələrindən bəhs olunur. Fikrin formalaşmasında önəmli yeri olan predikatikvlik əsasən feil şəkilləri və şəxs sonluqları ilə reallaşır. Cümlədəki predikativ münasibət cüttərkibli cümlədə xəbərlə mübtəda arasında, təkrətkibli cümlələrdə isə baş üzvlə ifadə edilir. Cümlənin ikinci əlaməti sayılan predikativlik leksik vahidlərin birləşərək varlıq haqqında məlumat verməsi ilə təzahür edir. Dilçilikdə söz birləşmələrində predikativliyin olub - olmaması haqqında müxtəlif fikri və nəzəriyyələr mövcuddur. Bəzi dilçilər söz birləşmələrində predikativliyin olmasını qəbul edir, bəziləri isə bunun əleyhinə gedirlər. Ümumiyyətlə, predikativlik cümlədən başlayır. Sözlərdən və söz birləşmələrinin predikativliyindən danışmaq mümkün deyil. Dilçilikdə bu fikir də həmişə mübahisə obyekti olmuşdur ki, söz birləşmələrində predikativlik varmı?

Bu haqda V. P. Suxotin yazır: " Söz birləşmələri hər şeydən əvvəl iki qrupa ayrılır: 1.Fakt haqqında məlumat verən, cümlənin struktur əsası kimi, mübtəda və xəbəri birləşdirən söz birləşmələri. Daha çox işlənmə funksiyasını nəzərə alaraq biz bu birləşmələri şərti olaraq predikativ söz birləşmələri adlandırırıq; 2. Müxtəlif həyat hadisələrinin mürəkkəb (tərkibi) adlarını bildirən söz birləşmələri.Bu, mübtəda və xəbər konstrukskiyasına malk olmayan və ona görə cümlə əmələ gətirməyən qeyripredikativ söz birləşmələri adlanan birləşmələrdir" (9.9).

SUMMARY

MUSTAFAYEVA ZAMINA

COMPLEX SENTENCE FROM THE POINT OF VIEW OF PREDICATIVITY

The components of a complex sentence (parts, predicative units) are simple sentences according to their structural and grammatical features (structure, predicativeness). However, functionally, parts of a complex sentence are not sentences, since they lack the communicative and semantic completeness inherent in

an independent simple sentence. Only a complex sentence as a whole has communicative and semantic completeness, which, like a simple sentence with its characteristic uniform intonations and word order, is a communicative unit. So, functionally, only a complex sentence is a sentence, while its components are simply "parts" of a sentence. Predicativity, which is the most important component in the formation of thinking, is mainly realized through the category of mood and personal endings. The predicative relation in a two-part sentence is expressed between the subject and the predicate, and in a one-part sentence it is expressed by the main member. Predicativity, which is the second feature of the sentence, appears as information about the entity by combining lexical units.

РЕЗЮМЕ

МУСТАФАЕВА ЗАМИНА

СЛОЖНОЕ ПРЕДЛОЖЕНИЕ С ТОЧКИ ЗРЕНИЯ ПРЕДИКАТИВНОСТИ

Составными частями сложного предложения (части, предикативные единицы) являются простые предложения по своим структурно-грамматическим признакам (строение, предикативность). Однако функционально части сложноподчиненного предложения не являются предложениями, так как им недостает коммуникативной и смысловой завершенности, присущей самостоятельному простому предложению. Коммуникативно-смысловой завершенностью обладает только сложное предложение в целом, которое, как и простое предложение с характерными для него единообразными интонациями и порядком слов, представляет собой коммуникативную единицу. Итак, функционально только сложное предложение является предложением, тогда как его компоненты являются просто «частями» предложения. Предикативность, являющаяся важнейшим компонентом при формировании мышления главным образом реализуется за счёт категории наклонения и личных окончаний. Предикативное отношение в двусоставном предложении выражается между подлежащим и сказуемым, а односоставном предложении выражается главным членом. Предикативность, являющаяся вторым признаком предложения появляется информацией о существе путем объединения лексических единиц.

Rəyçi: f.i.n. Aygün Abdullayeva

Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu, *ISSN 2224-9257*
Filologiya məsələləri № 3, 2025
Səh. ——————

XANIZADƏ PƏRVANƏ OLXAN Q.
e-mail: ms_franse@yahoo.com
Orcid: https://orcid.org/0009-0007-1826-6703
Azərbaycan Dillər Universiteti
Rəşid Behbutov küç.134.

FRANSIZ DİLİNDƏ NOMİNATIF-FEL KONSTRUKSIYALI FRAZEOLOJİ BİRLƏŞMƏLƏRİN TƏRCÜMƏSİ MƏSLƏLƏRİ

Giriş

Frazeoloji birləşmələr hər hansı bir dilin ayrılmaz hissəsidir və onların tərcüməsi zamanı xüsusi çətinliklər ortaya çıxır. Xüüsusilə, nominativ-fel konstruksiyalı frazeoloji birləşmələr sabit sintaktik və semantik xüsusiyyətlərə malik olduğu üçün onların sözbəsöz tərcüməsi mümkün deyil. Bu məqalədə fransız dilindəki nominativ-fel konstruksiyalı frazeoloji birləşmələrin əsas xüsusiyyətləri, onların tərcümə çətinlikləri və mümkün tərcümə metodları araşdırılacaqdır.

Frazeoloji vahidlər müəyyən ölkənin və milliyyətin mədəniyyətini, milli mentalitetini əks etdirir. Frazeoloji dil vahidləri xalqın min illər boyu mənəvi dünyasını, tarixini, mədəniyyətini, həyat tərzini özündə əks etdirən nadir söz incilərıdir. Frazeoloji ifadələr daha çox ümumxalq dilində, xüsusən də canlı xalq danışıq dilini mühafizə edən folklorda, həmçinin xalqın dini görüşlərində də özünü göstərir. Ona görə də frazeoloji vahidlərin tərcüməsi müasir tərcüməşünaslığın ən mühüm məsələlərindən biridir. Bundan başqa, frazeoloji vahidlər istənilən dilin tərkib hissəsidir və bu birləşmələrin adekvat şərhini və tərcüməsini bilmək bütöv ifadənin və bədii əsərlərin düzgün və adekvat tərcüməsinin sübutudur. Bu kontekstdə ümumiləşdirilməlidir ki, tərcüməçilər frazeoloji vahidləri tərcümə edərkən hədəf dilin norma və istifadəsinə, morfoloji quruluşuna riayət etməlidirlər. Frazeoloji ifadələrin qorunub saxlanması, gələcək nəsillərə ötürülməsi, nadir söz yatırımlarının lüğətlərdə, xüsusilə də frazeoloji, izahlı, habelə ikidilli tərcümə lüğətlərində verilməsi hər bir dilçinin, eləcə də hər bir tərcüməçinin vətəndaşlıq borcudur.

Hər bir dilin sistemi həm qqrammatik modellərin strukturu, həm də leksik material baxımından müəyyən qanunauyğunluqlar üzərində qurulmuşdur. Frazeoloji vahdlərin dilin sistemi ilə əlaqələndirilməsi üçün bu kateqoriyaların qarşılıqlı aspektlərini dəqiqləşdirmək zərurəti yaranır. Məlumdur ki, hər bir sabit söz birləşməsi dil sistemində öz paradiqmatik cəhətlərindən kənarda frazeoloji korpusun nominativ vahidləri kimi qiymətləndirilir. Hər bir frazeoloji vahid fərdi yaranır və bu şəkildə də dilin frazeoloji tərkibinə daxil olur. Lakin fərdi vahidlərdən yaranan frazeoloji tərkiblər müəyyən ümumi cəhətlər qazanır və bu cəhətlər də həmin dilin sistemində onların yarımsistem kimi qəbul edilməsini şərtləndirir. Dilin bir hissəsi olmaqla, frazeoloji vahidlər onun əsas cəhətlərini və xüsusiyyətlərini özündə cəm etmiş olur [6, s.14].

Sabit söz birləşmələri dilin frazeologiya bölməsinin tədqiqat obyektidir. Tərcüməçi söz birləşmələrinin növlərini dərindən bilməlidir və bunu da unutmamalıdır ki, sərbəst söz birləşmələrinin tərəfləri onun özü tərəfindən qurulur və o, istədiyi kimi tərəfləri dəyişə bilər. Sabit söz birləşmələri isə uzun bir tarixi yol keçib, sabitləşib. Onun tərəfləri arasına hər hansı bir söz daxil etmək olmur. Milli ruh, adət-ənənə belə birləşmələrdə daha qabarıq özünü göstərir. Bu barədə araşdırma aparan onu da bilməlidir ki, frazeoloji söz birləşmələri sərbəst söz birləşmələrindən bəzi xüsusiyyətlərinə görə ciddi şəkildə fərqlənir. Məsələn, sabit söz birləşmələri dildə hazır birləşmə kimi işlədilir, buradakı sözlər müstəqil mənaya malik olmur, hamısı birlikdə bir sual tələb edir. Sabit söz birləşmələri özü də sərbəst söz birləşmələrindən əmələ gəlir. Sabit söz birləşmələri bitkinliyə malik olmur. Sərbəst birləşmələr isə bitkinliyə malik olur, tərəfləri müstəqil olur, ayrılıqda sual tələb edir və s.

Onu da qeyd etmək lazımdır ki, sözlərin işlənmə tezliyi hər dildə fərqlidir. Bu, həmin dilin sisteminin özünəməxsusluğu ilə əlaqədardır. Belə ki, fransız dilində frazeoloji birləşmələrin 30%-i *faire-etmək* feli vasitəsi ilə düzəlir. Bu dildə işlənən frazeoloji vahidlərin 75%-də *faire-etmək, avoir-malik olmaq, mettre-qoymaq, prendre-götürmək, donner-vermək* felləri iştirak edir. Analitik dillərdə belə fellərin iştirakı azalır, onların işlənmə tezliyi isə çoxalır. İstənilən dilin frazeoloji vahidlərinə nəzər salsaq, aydın olur ki, frazeologizmlərin əksəriyyəti sərbəst söz birləşmələrindən qrammatik strukturuna görə fərqlənmir. Aydın olur ki, strukturuna görə eyni olan frazeoloji vahidlər on, yüz, hətta min vahidlərdən ibarət sıra (fel+isim, fel+sözönü+isim, sözönü+isim və s.) yaradır. Belə sıraların mövcudluğu heç də təsadüfi fakt deyil. Belə ki bu, dilin strukturundan asılıdır. Dilin qrammatik sistemi nə qədər mürəkkəbdirsə, onda o qədər sərbəst, həm də sabit sözbirləşmələri sistemi mövcuddur. Konkret bir dilin frazeoloji sistemi öz qrammatik və semantik xüsusiyyətlərinə görə həmin dilin bütöv sistemindən kənarda qalmır.

Neçə minillik tarixi olan tərcümə dünya dillərinin zənginləşməsində, inkişafında, mədəniyyətlərin yaranmasında böyük rol oynayır. Frazeoloji vahidlərin olduğu kimi başqa dillərə tərcümə məsələsi həmişə dilçi tədqiqatçıların axtarış obyekti olmuşdur. Bir çox dilçi alimlər belə qənaətə gəlir ki, frazeologi birləşmələrin digər dilə hərfi tərcüməsi qeyri mümkündür. Bu əlaməti frazeologiyanın dilin mili xüsusiyyətlərini özündə əks etdirməsi ilə izah edirlər.

Frazeoloji birləşmələr dillər arasında tərcümə olunan əsərlər vasitəsi ilə bir dildən digər dilin lüğət tərkibinə daxil olur. Ərəb, fransız, ingilis, rus, türk və başqa dillərdən Azərbaycan dilinə, eləcə də Azərbaycan dilindən sadaladığımız dillərə bir çox yazıçıların əsərləri tərcümə olunmuşdur. Bu əsərlərdəki frazeoloji birləşmələr dildə mübadilə rolunu oynayaraq tərcümə olunduğu dillərin lüğət tərkibinə daxil olmuşdur. Azərbaycan dilində frazeoloji birləşmələr bəzən başqa dildə, qohum olmayan dildə eyni leksik tərkibə malik olub eyni mənada işlənir. Məsələn, "barmağını dişləmək" fransız dilində "s'en mordre les doigts" kimi tərcümə olunur.

Bu ifadədə həm feil, həm də isim komponenti kalka üsulu ilə hərfi tərcümə olundu, eyni mənanı verdi və eyni leksik tərkibə malik oldu [8, s.121].

Nominativ-fel konstruksiyalı frazeoloji birləşmələr isim və feldən ibarət olub, bir çox hallarda bütöv bir ifadə kimi istifadə edilir və onların mənası ayrı-ayrı sözlərin məcmusundan fərqlənir. Məsələn, fransız dilində "prendre une décision" (qərar vermək) ifadəsi sözbəsöz "bir qərar almaq" kimi çevrilsə təbii ssələnməyə bilər.

Dilçi tədqiqatçılar frazeoloji birləşmələrin başqa dilə tərcüməsi prosesində qarşıya çıxan çətinlikləri aradan qaldırmaq üçün müxtəlif fikirlər irəli sürmüş və bir neçə tərcümə metodu, üsulları təqdim etmişlər [1, s.85]. Bu tip ifadələrin tərcüməsi prosesində müxtəlif üsullardan istifadə etmək mümkündür: ekvivalent üsulu, təsviri (deskriptiv) üsul, analoq üsulu, antonim tərcümə, kombinə üsulu, kalka və ya hərfi tərcümə üsulu. Ekvivalent üsulu zamanı tərcümə olunan dildə frazeoloji birləşmənin qarşılığı tam üst-üstə düşməlidir. Təsviri (deskriptiv) üsulunda isə tərcümə olunan dildə frazeoloji birləşmənin ekvivalenti olmadığı halda ifadəni aydın izah etmək üçün təsviri üsuldan istifadə etmək olar. Analoq üsulunda tərcümə prosesində hədəf dilə tərcümə olunan ifadələr məna və məzmun baxımından uyğun olur sadəcə obrazlılıq dəyişir. Antonim tərcümə üsulu zamanı frazeoloji ifadələrin tərcüməsi inkar formada verilə bilər və ya əksinə, təsdiqdə də ola bilər. Orijinal dildə inkarda verilməsinə baxmayaraq bəzən ifadənin tərcümə olunan dildə təsdiqdə verilməsi uyğun olur. Kombinə üsulunda isə bir dildən digər dilə tərcümə zamanı frazeoloji ifadələr öz mənasını qismən saxlayır. Kalka üsuluna gəldikdə isə o, hərfi tərcümə üsuludur, tərcümə olunan dildə frazeoloji birləşmələr öz mənalarını qoruyub saxlayırlar. Kalka üsulu iki yolla həyata keçirilə bilər, orijinaldakı fikrin qorunması və ya ifadəyə uyğun ekvivalentin tapılması yolu ilə.

Frazeoloji birləşmələrin tərcüməsi zamanı müxtəlif metodlardan istifadə olunur.

1.1.Sözbəsöz tərcümə

Bəzi hallarda frazeoloji ifadənin komponentləri digər dildə də eyni mənanı verdiyi üçün sözbəsöz tərcümə mümkündür. Frazeoloji birləşmələr dilin ən mürəkkəb və ifadəli elementlərindən biridir. Onlar mədəniyyətin və dilin spesifik xüsusiyyətlərini özündə əks etdirir. Xüsusilə, isim-fel strukturlu frazeoloji birləşmələr fransız dilində geniş yayılmışdır və onların digər dillərə, o cümlədən azərbaycan dilinə tərcüməsi müəyyən problemlər yaradır. Bu məqalə həmin frazeoloji birləşmələrin tərcümə strategiyalarını araşdıraraq, onların dəqiq və adekvat ötürülməsi üçün uyğun metodları təqdim edir.

Frazeoloji birləşmələrin mənaları bütövlükdə təhlil edilməlidir. Xüsusilə, isim-fel strukturlu frazeoloji birləşmələrdə isim əsas elementdir və fel onun funksional hissəsini təşkil edir. Məsələn, "faire attention" (diqqət yetirmək) və "prendre une décision" (qərar vermək) kimi ifadələr fransız dilində geniş istifadə olunur. Frazeoloji birləşmələr semantik və sintaktik xüsusiyyətlərinə görə müxtəlif kateqoriyalara bölünür:

1. ***Sabit frazeoloji vahidlər***

Belə frazeoloji vahidlərin mənası dəyişməz olar qalır. Məsələn: "donner un coup de main"-kömək etmək.

2. *Yarı-sabit frazeoloji vahidlər*

Müəyyən qədər dəyişkənlik göstərə bilər. Məsəslən: "prendre son courage à deux mains"-cəsarətini toplamaq.

3. *Məsəl və atalar sözləri*

Bunalar mədəniyyətə əsaslanan ifadələrdir. Məsəslən: "Qui vivra verra"-yaşayarıq görərik.

Frazeoloji birləşmələrin tərcüməsində əsas problemlər bunlardır:

Mənanın saxlanılması. Belə ki, hərfi tərcümə frazeoloji mənanı tam ifadə edə bilmir.

Kültür fərqləri. Müxtəlif dillərdə müəyyən frazeoloji vahidlərə ekvivalent tapmaq çətin ola bilər.

Struktur fərqləri. Azərbaycan dilində eyni məna daşıyan ifadə fərqli qrammatik quruluşda ola bilər. Bu problemləri həll etmək üçün müxtəlif tərcümə metodları tətbiq olunur. Bəzi frazeoloji birləşmələr üçün birbaşa ekvivalent tapmaq mümkündür. Məsələn: avoir faim-ac olmaq. Bəzi hallarda hərfi tərcümə məntiqli olmadığından ifadənin mənası kontekstə uyğun dəyişdirilir:"Faire la tête" (sözün hərfi mənası: "baş etmək") → "qonşunu incitmək" və ya "narahat olmaq" kimi interpretasiya edilə bilər.

Frazeoloji ifadənin məna yükünü tam çatdırmaq üçün açıqlamalı tərcümə üsulu istifadə olunur. Məsələn: "*donner sa langue au chat"* (ifadənin hərfi mənası: "dilini pişiyə vermək). Əslində, ifaədnin mənası təslim olmaq, söz tapa bilməmək deməkdir.

Frazeoloji birləşmələrin düzgün tərcüməsi üçün kontekstdən asılı olaraq fərqli metodlardan istifadə etmək lazımdır. Ümumi qayda olaraq, ekvivalent varsa, istifadə olunmalıdır. Əks halda, digər üsullara müraciət edilməlidir. Bu strategiyalar tərcümə prosesini asanlaşdırmaqla yanaşı, frazeoloji ifadələrin tam mənası ilə çatdırılmasına imkan verir.

Frazeoloji birləşmələrin tərcüməsi zamanı ortaya çıxan çətinlikləri real nümunələrlə araşdırmaq məqsədi ilə tərcümə olunmuş mətnlər üzərində analiz aparılmışdır. Bu təhlildə, müxtəlif metodların hansı hallarda daha uğurlu nəticə verdiyi araşdırılmışdır. Məsələn: "*se casser la tête"* ifadəsi müxtəlif kontekstlərdə "*baş sındırmaq*", "*çətinlik çəkmək*" və ya "*beynini işlətmək*" kimi tərcümə oluna bilər. İsim-fel strukturlu frazeoloji birləşmələrin tərcüməsi xüsusi yanaşma tələb edir. Onların adekvat tərcüməsi üçün ekvivalent tapmaq, sərbəst və ya açıqlamalı tərcümədən istifadə etmək, bəzi hallarda isə yeni frazeoloji vahid seçmək lazımdır. Dilçilik və tərcümə sahəsində aparılan tədqiqatlar bu istiqamətdə daha dəqiq və effektiv tərcümə strategiyalarının formalaşmasına kömək edə bilər.

Frazeoloji vahidlərin tərcüməsi hər zaman tərcüməçi üçün ciddi çətinliklər yaradır. Birincisi, frazeologizmlər çoxmənalıdır. İkincisi, bir çox frazeologizmlər

milli xarakterə malik olurlar. Üçüncüsü, bu frazeoloji vahidlərin istifadə olunduğu konteksti nəzərə almaq vacibdir.

V.G. Qak frazeoloji obrazlı ifadənin tərcüməsinin üç halını ayırır: birinci halda – iki dildə ifadələr tam uyğun gəlir – struktur və leksik cəhətdən oxşardır. Bu halda tərcümə zamanı heç bir çətinlik yaranmır. İkinci halda – qismən uyğunlaşma – hər iki ifadə oxşar bir obrazı ehtiva edir, lakin leksik-sintaktik cəhətdən fərqlənir. Burada tərcümə dilində mövcud olan normalar nəzərə alınır. Üçüncü halda isə tam uyğunluq yoxdur və tərcüməçi izah edici tərcüməyə müraciət etməli olur [2; s.24].

Siyasi frazeologiya hər bir insanın həyatında mühüm rol oynayır. Biz radioda siyasətçilərin təbliğat nitqlərini dinləyirik, televiziyada dövlət xadimlərinin müzakirələrini izləyirik, yazılı mətbuatda gündəlik xəbərlərdən məlumatlı olmaq üçün məqalələr oxuyuruq və əlbəttə ki, XXI əsrin əsas informasiya mənbəyi olan İnternetdə siyasi fəalların çıxışlarını, yayım və məqalələrini tapa bilirik. Böyük müxtəlifliyə baxmayaraq, potensial izləyici, dinləyici və ya oxucu daha sürətli və təsirli şəkildə diqqətini cəlb edə bilən mənbələrə üstünlük verir.

Müasir Fransa siyasi diskursu frazeologizmlərin geniş istifadəsi ilə fərqlənir, məhz bunlar vasitəsilə fikrin canlı şəkildə ifadə olunması, müəllifin mövqeyinin bildirilməsi, hadisələrə müsbət və ya mənfi münasibətin formalaşdırılması, danışanın emosional vəziyyətinin aşkar edilməsi və dinləyicilərin çıxışın mövzusuna diqqətinin cəlb edilməsi mümkün olur. Həmçinin, frazeoloji vahidlər mühüm əlaqə qurma funksiyasını yerinə yetirir, yəni siyasətçilərə «xalqla daha yaxın olmaq» imkanı yaradır. Frazeoloji vahidlərin başlıqlarda çox istifadə olunduğunu qeyd etmək lazımdır. Çox vaxt məhz başlıqlarda ən parlaq və gözlənilməz ifadələrdən istifadə edilir ki, bu da potensial oxucunun diqqətini cəlb edir.

Məşhur "*Le Monde*" qəzetinin arxivlərini nəzərdən keçirərkən, 26.08.2014 tarixli məqalə tapdıq. Məqalənin başlığında «Aurélie Filippetti ne veut plus "avaler des couleuvres"» ifadəsi yer alır. *«Avale des couleuvres»* ifadəsi ictimai şəkildə alçaldılma, təhqir və cavab vermək imkanı olmadan, hətta ağlamağa belə güc tapmamaq mənasında istifadə edilir. Əslində, bu ifadəni azərbaycanca «təhqiri susaraq qəbul etmək» kimi tərcümə etmək olar. Həmçinin, Azərbaycan dilində *«gözyaşlarını boğmaq»* ifadəsi də buna uyğun gəlir. Azərbaycan dilindəki ədəbiyyat sözlüyü bu ifadəni belə təyin edir: «gözyaşlarını boğmaq–səssizcə ağlamağa çalışmaq». Məqalənin özündə isə, Orəli Filippettinin mədəniyyət naziri vəzifəsindən istefası və Frans Pressə açıqladığı məktubunda "yenidən nazir postuna namizəd olmayacağını" bildirməsi müzakirə olunur. «Avale des couleuvres» frazeoloji vahidi, baş verən hadisənin faciəvi tərəfini gücləndirir, Orəli Filippettinin keçirdiyi emosional vəziyyəti açır. Bu başlığın tərcüməsində çətinlik yaranır, çünki «Orəli Filippetti: təhqiri susaraq qəbul edir» tərcüməsi frazeologizmin mənasını tam ötürsə də, məqalənin mövzusuna ziddir. «Orəli Filippetti: daha artıq susmaq mümkün deyil…» tərcüməsi məqalənin əsas ideyasını çatdırır, amma frazeoloji vahidin mənasını tam olaraq əks etdirmir. Bizim fikrimizcə, bu halda məqalənin əsas

ideyasına diqqət yetirərək, frazeoloji ifadənin dəqiq tərcüməsindən imtina etmək daha məqsədəuyğundur. Beləliklə, başlıq daha neytral şəkildə belə ifadə edilə bilər: «Orəli Filippetti tutduğu vəzifədən getdiyini elan etdi» [11].

Fransız dilində «brouiller les pistes» frazeoloji vahidinə tez-tez siyasi məqalələrdə rast gəlinir. Bu ifadənin təxminən azərbaycanca qarşılığı *«duman buraxmaq»*, yəni çox danışmaq və aydın olmayan şəkildə fikrini ifadə etmək deməkdir. Biz bu ifadəni aşağıdakı başlıqlarda görürük: *«La défense de Patrick Salameh brouille les pistes» (Patrik Salamenin şübhəli müdafiəsi) və «Olivier Norek: quand la Crim' brouille les pistes» (Olivye Norek: Krım nə zaman duman buraxır)* [7; s.121]. Burada mənfi bir dəyərləndirmə vardır. Ancaq *«Zlatan Ibrahimovic brouille les pistes concernant son avenir» (Zlatan İbrahimoviç gələcəyi haqqında duman buraxır və ya Zlattan İbrahimoviç gizlətmək istəyir*) başlığında bu ifadə heç bir müsbət və ya mənfi çalar daşımır, yalnız idmançının gizlilik və ya qeyri-müəyyənlik nümayiş etdirməsinə işarə edir. Əhəmiyyətli bir məqam ondan ibarətdir ki, bu frazeologizm hər üç halda müxtəlif cür tərcümə edilir və kontekstə uyğunlaşdırılır. Başqa bir məqalədə, *«La nouvelle politique de la BCE (Banque Centrale Européenne), un coup d'épée dans l'eau?»* (Yeni ECB (Avropa Mərkəzi Bankı) siyasəti, suya zərbədir?) başlığı ilə, Avropa Mərkəzi Bankının yeni siyasətinin etibarlılığına dair şübhələr müzakirə edilir. *«Un coup d'épée dans l'eau»-suya zərbə vurmaq* frazeologiyası faydasız, nəticəsiz və effektiv olmayan fəaliyyətləri bildirir. Azərbaycan dilində bu ifadəyə uyğun gələn *«yavaş-yavaş işləyən daş»* və ya *«suya zərbə vurmaq»* ifadələri mövcuddur. Buna görə də, bu başlığı daha yaxşı tərcümə etmək üçün belə bir variant istifadə edə bilərik: **«***Suya zərbə vurmaq: yeni Avropa Mərkəzi Bankının siyasəti»***.**

« Le Point » jurnalının 26.05.2016. tarixli elektron məqaləsində maraqlı bir başlıq var**:** «Qui veut la peau de Valérie Pécresse?» (Kim Valeri Pekerin əvəzini istəyir?) – burada «vouloir la peau» ifadəsi, birinə zərər vermək, həyatına təhdid etmək mənasında istifadə olunur və bu, kontekstdə «kim Valeri Pekerə tuzaq qurur?» mənasını verən tərcümə ilə uyğunlaşır. Bu kimi frazeologizmlərin tərcüməsi çox zaman milli və mədəni fərqləri, eləcə də konteksti nəzərə alaraq, uyğunlaşdırma tələb edir. Ümumilikdə, frazeologizmlərin tərcüməsi zamanı yalnız onların mənası deyil, həm də onların siyasi və mədəni konturları nəzərə alınmalıdır.

Frazeologizmlərin tərcüməsi zamanı yarana biləcək problemlərin qarşısını almaq üçün aşağıda qruplaşdırılmış qaydalara riayət olunması xüsusi əhəmiyyət kəsb edir:

1). Fransız dilində frazeologizmlərin Azərbaycan dilinə dəqiq tərcüməsini vermək üçün tərcümə zamanı frazeologizmlər semantik, stilistik və qrammatik nöqteyi-nəzərdən təhlil olunmalıdırlar.

2). Frazeologizmlərin tərcüməsi zamanı mətn daxili orijinal fikrin təhrif olunmaması üçün onlar verilmiş mətndən düzgün seçilməlidirlər.

3). Frazeologizmlər sərbəst söz birləşmələri ilə qarışdırılmamalıdır.

4). Frazeologizmlərin düzgün tərcüməsi üçün tərcüməçinin fransız xalqının adət-ənənələrini təşkil edən xüsusiyyətləri dərindən bilməsi gərəklidir.
5). Tərcümə zamanı lüğətdən düzgün istifadə olunması olduqca vacibdir.
6). Tərcümə olunan frazeologizm tərcümə olunduğu dilin tələblərinə cavab verməlidir.

Bundan əlavə frazeologizmlərin dəqiq və səlis tərcüməsinin əldə olunması üçün tərcümənin ekvivalent, analoq, təsviri, antonim, kalka, parallel, müştərək tərcümə kimi müxtəlif növlərindən istifadə etmək mümkündür. Beləliklə, tərcümə zamanı hər hansı bir problemin yaranmaması üçün tərcüməçi frazeologizmlərin fransız dilindən Azərbaycan dilinə tərcüməsi zamanı hər iki dilə məxsus müxtəlif ifadə vasitələrindən düzgün istifadə edərək, həm orijinaldakı frazeologizmin özünəməxsus xüsusiyyətlərini saxlamalı, həm də tərcümə edilən mətnin kontekstindən uzaqlaşmamalıdır.

Frazeyologizmlərin tərcüməsi baxımından, frazeoloji birləşmələr adətən iki qrupa bölünür: tərcümə dilində ekvivalentləri olan FƏ-lər və ekvivalent olmayan FƏ-lər. Leksik, qrammatik, semantik və stilistik oxşarlıq və fərqlərin qarşılıqlı əlaqəsi əsasında dilçi alimlər bir neçə növ ekvivalentləri ayırır: tam ekvivalentlər (A. V. Kununin onları "monoekvivalentlər" adlandırır), seçici ekvivalentlər ("variant uyğunluqları" V. G. Gak və Y. I. Retsker-in terminologiyasına görə), qismən ekvivalentlər, kontekstual ekvivalentlər və kalkasiyalar. Hər bir ekvivalent növünü daha ətraflı nəzərdən keçirək.

1. Tam ekvivalentlər. Bu cür uyğunluqların istifadəsi tərcümə olunan vahidin bütün mənalarının qorunmasına imkan verir. Bu halda tərcümə dilində orijinal dilin FƏ-si ilə bütün parametrləri üzrə eyni olan obrazlı bir frazeoloji birləşmə mövcuddur: mənası, leksik tərkibi, obrazlılığı, stilistik yönümlülüyü və qrammatik quruluşu ilə. Məsələn: *tirer les marrons du feu – taşmak kaştanları alovdan*-çox çətin işləri yerinə yetirmək, nəticələrdən başqaları faydalanır. *Prendre le taureau par les cornes– öküzün buynuzundan tutmaq-başlanğıcda qərarlı hərəkət etmək*. Bu cür uyğunluqların istifadəsi digər dilin frazeologizmini ən dolğun şəkildə təkrarlamağa imkan verir.

2. Ekvivalent olmayan frazeoloji birləşmələr. Əgər frazeoloji vahid tərcümə olunduğu dildə özünə uyğun frazeoloji birləşməni və ya ekvivalentini (yuxarıda sadalananların heç birini) tapa bilməzsə və ya o, düz tərcümə oluna bilməzsə, onda izah edici tərcümə istifadə edilməlidir. Bu, terminoloji xarakter daşıyan FƏ-lər və tərkibində xüsusi adlar olan və ya hansısa bir reallığı ifadə edən ifadələr üçün doğrudur. Təəssüf ki, izah edici ekvivalent həmişə obrazlılığı itirir. Çox vaxt izah edici tərcümə etimoloji qeydlərlə müşayiət olunur. Məsələn: **terminoloji FƏ-lər**: *régime de faveur–iqtisadiyyat prinsipi;* **millətçi frazeologizmlər:** *aller comme un Basque–çox sürətlə getmək, qaçmaq (*XVII əsrdə Basqlar çox yaxşı sürücülük bacarıqları ilə tanınırdılar, çünki dağlarda gəzə bilirdilər); *faire son petit Saint-Jean – özünü axmaq kimi göstərmək* (Saint-Jean və onun törəmələri Jean de Nivelle, Gros-

Jean, Jean des vignes, Jean Lorgne, Jean Farine, xalq dilində axmaq, quru adam simvollarıdır); *s'en moquer comme de l'an quarante – hər hansı bir şeyi ciddiyə almamaq, əhəmiyyət verməmək*.

Frazeoloji birləşmənin bir dildən digərinə tərcümə edilməsi zamanı aşağıdakı qaydalara əməl etmək tövsiyə olunur:

1. Tərcümənin optimal variantı tam frazeoloji ekvivalentin axtarılmasıdır, lakin iki dildə frazeoloji ekvivalentlərin mövcudluğu çox məhduddur.
2. Tərcümə zamanı ikinci yer qismən frazeoloji ekvivalentlərə verilməlidir, əgər stilistik və emosional tonlar uyğundursa.
3. Əgər ekvivalentlər mövcud deyilsə, düz tərcümə və ya kalkasiya istifadə edilə bilər, əgər daxili forma tərcüməçi dilinin daşıyıcısı tərəfindən qəbul edilirsə.
4. Əgər yuxarıda qeyd olunan üsullar uyğun deyilsə, izah edici tərcümə və ya frazeologizmlərin tək sözlü ekvivalentlərindən istifadə olunur.
5. Frazeoloji ikidilli lüğətlərdən istifadə edərkən, lüğətin hər zaman bütün mümkün ekvivalentləri və ifadənin mənalarını göstərmədiyini nəzərə almaq lazımdır. Belə hallarda, FƏ-nin mənası kontekstdən çıxarılmalıdır.

Beləliklə, Azərbaycan və fransız dillərində frazeoloji birləşmələrin tərcüməsində bu üsullardan istifadə edərək qarşıya çıxan çətinlikləri aradan qaldırmaq olar. Frazeolohi birləşmələrin hər iki dilə tərcüməsi zamanı kontekstdən uzaqlaşmamalı, orijinala uyğun tərcümə üsullarından istifadə etmək lazımdır.

Pərvanə Xanızadə

Fransız dilində nominatif-fel konstruksiyalı frazeoloji birləşmələrin tərcüməsi məsələləri

Xülasə

Fraseoloji ifadələr azərbaycan və fransız dillərində geniş istifadə olunur. Fraseoloji birləşmələr, xalqın milli düşüncəsini, adətlərini, həyat tərzini, mədəniyyətini, tarixini qədim dövrlərdən bu günə qədər qoruyub saxlayıb. Bu ifadələr, müxtəlif tarix mərhələlərini keçərək, mifoloji, fəlsəfi, dini, əxlaqi, estetik, ekspressiv və digər xüsusiyyətləri özündə cəmləşdirir. Dünyanın digər dillərində olduğu kimi, azərbaycan və fransız dillərində də heyvan adları ilə əlaqəli, rəngləri ifadə edən, bədən üzvləri (soma) ilə bağlı və digər qruplara aid olan fraseologizmlər mövcuddur. Fraseologizm dilçilikdə bir çox alim-linqvistlərin tədqiqat obyekti olmuş, bu barədə müxtəlif fikirlər irəli sürülmüş və fraseologiya üzrə əsərlər yazılmışdır. Fraseoloji vahidlərin tərcüməsi zamanı yaranan çətinliklərin aradan qaldırılması yolları müxtəlif aspektlərdə tədqiq edilmiş və tərcümə metodları təqdim olunmuşdur.

Açar sözlər: *frazeoloji birləşmələr, Azərbaycan dil, Fransız dili, sabit söz birləşmələri, tərcümə üsulları*

Parvana Khanizada

Problems of translating phraseological combinations with nominative-verb construction in French

Summary

Phraseologisms are widely used in Azerbaijani and French. Phraseological units have preserved the national thinking, traditions, way of life, culture and history of the people since ancient times. These expressions, filtered from different stages of history, reflect mythological, philosophical, religious, moralizing, ethical, aesthetic, expressive and other features. As in the world languages, the Azerbaijani and French languages have phraseological units with animal names, colors, body parts (somatic) and belonging to another group. Phraseology has been the subject of research by many linguists, various opinions have been expressed, and works on phraseology have been written. The ways of overcoming the difficulties on translation of phraseological units were studied by linguists from different aspects and methods of translation were presented.

Key words: phraseological units: *phraseological units, Azerbaijani language, French language, fixed word combinations, translation methods*

Парвана Ханизаде

Именительно-глагольная фразеология во французском языке сложные проблемы перевода

Резюме

Фразеологизмы широко используются в азербайджанском и французском языках. Фразеологические сочетания сохранили в себе национальную мысль, традиции, образ жизни, культуру, историю народа с древнейших времен до наших дней. Эти выражения, перешедшие разные этапы истории, включают в себя мифологические, философские, религиозные, назидательные, этические, эстетические, экспрессивные и другие особенности. Как и в других языках мира, в азербайджанском и французском языках существуют фразеологизмы, связанные с названиями животных, обозначающие цвет, выражающие органы тела (соматические) и относящиеся к другой группе. Фразеологизм стал объектом исследования многих ученых-лингвистов в языкознании, были высказаны различные мнения, написаны труды по фразеологии. Пути преодоления трудностей, возникающих при переводе фразеологических единиц языка, исследованы лингвистами в различных аспектах и представлены методы перевода.

Ключевые слова: *фразеологические сочетания, азербайджанский язык, французский язык, устойчивые словосочетания, методы перевода.*

Ədəbiyyat

1. Hacıyeva Ə. Müxtəlifsistemli dillərdə somatik frazeoloji birləşmələr, Nurlan, 2007.-s.347
2. Гак. В.Г. Теория и практика перевода: Французский язык: [Учебное пособие] - Изд. 9-у - М.: Книжный дом «ЛИБРОКОМ», 2009. – 191с.
3. Кунин, А. В. О переводе английских фразеологизмов [Электронный ресурс]. – Электрон. дан. – Режим доступа: http://samlib.ru/w/wagapow_a_s/transl-book-kunin.shtml
4. Le Monde.fr. Aurélie Filippetti ne veut plus « avaler d'autres couleuvres». // Le Monde.-26.08.2014
5. Солодухо, Э. М. Теория фразеологического сближения (на материале языков славянской, германской и романской групп) / Э. М. Солодухо. – Казань: Изд-во Казан. ун-та, 1989.
6. Vinay, J.-P., & Darbelnet, J. (1958). *Stylistique comparée du français et de l'anglais.* Paris: Didier.
7. Mounin, G. (1963). *Les problèmes théoriques de la traduction.* Paris: Gallimard.
8. Baker, M. (2011). *In Other Words: A Coursebook on Translation.* Routledge.
9. Bevilacqua, L. (2018). *Les expressions figées et leur traduction.* Paris: Harmattan.
10. http://www.lefigaro.fr/vox/monde/2016/05/08/31002-20160508ARTFIG00196-poutine-chef-d-orchestre.php
11. http://ru.rfi.fr/evropa/20160509-lukashenko-mezhdu-rossiei-i-zapadom-kak-usidet-na-dvukh-stulyakh

Rəyçi: professor N.Seyidova

Azərbaycan Milli Elmlər Akademiyasi M. Füzuli adına Əlyazmalar Institutu, *ISSN 2224-9257*
Filologiya məsələləri № 3, 2025
Səh. ————————

UOT 372.8:811.111
ORCID: 0009-0006-9138-1807

САФАРОВА ХУРАМАН РАХМАН ГЫЗЫ
Азербайджанский Университет Языков
Доктор философии по филологии
xuramanmammadova87@gmail.com

О НЕКОТОРЫХ АСПЕКТАХ РАЗВИТИЯ НАВЫКОВ САМОСТОЯТЕЛЬНОГО МЫШЛЕНИЯ В ПРОЦЕССЕ ОБУЧЕНИЯ АНГЛИЙСКОМУ ЯЗЫКУ СТУДЕНТОВ-МЕЖДУНАРОДНИКОВ В АЗЕРБАЙДЖАНЕ

Резюме

Представленная статья написана на актуальную тему. В методике преподавания английского языка в университетах республики и в когнитивной лингвистике в том числе имеется множество различных аспектов, подлежащих изучению с различных точек зрения. Так что их конкретизация в научной мысли, как говорится, дорогого ст**о**ит. В статье намечается именно такой – усложнённой путь, избрав в качестве главного предмета объекта работы привитие студентам-международникам навыков самостоятельного мышления на базе изучения ими современного литературного английского языка. А наиболее радикальный к тому путь, по справедливому решению (на основе собственной педагогической практики и трудов по методике) – единый и комплексный подход ко всем разделам английского языкознания: от фонетики – до синтаксиса, включая лексику, грамматику, морфологию, орфоэпию и стилистику. Весь остальной материал фактически привязан к этому аспекту. Подробная аргументация такого подхода с уверенностью можно записать в актив данной статьи.

Привлекает в этой статье и такой момент. Предлагается на рассмотрение то или иное теоретическое положение, которое опирается как на собственный опыт преподавания английского языка, так и труды ведущих учёных. Понятно, что большинство из них – это методисты, но при этом иногда указываются имена лингвистов и психологов. Опора на их исследования, к тому же снабжённая соответствующими авторскими выводами и обобщениями, бесспорно, обогащает статью.

Ключевые слова: английский язык, мышление, компетенция, студенты-международники, методика преподавания, интернационализация.

Səfərova Xuraman Rəhman qızı

Azərbaycanda beynəlxalq münasibətlər fakültəsi tələbələrinə ingilis dilinin tədrisi prosesində müstəqil düşünmə bacarıqlarının inkişaf etdirilməsinin bəzi aspektlərinə dair

Xülasə

Təqdim olunan məqalə aktual mövzuda yazılmışdır. Respublikanın ali məktəblərində ingilis dilinin tədrisi metodologiyasında və xüsusən də koqnitiv dilçilikdə müxtəlif nöqteyi-nəzərdən öyrənilməli olan çoxlu müxtəlif aspektlər mövcuddur. Deməli, onların elmi düşüncədə konkretləşdirilməsi çox dəyərlidir. Məqalədə məhz bu - mürəkkəb bir yol, müasir ədəbi ingilis dilini öyrənmək əsasında beynəlxalq tələbələrə müstəqil düşünmə bacarıqlarının aşılanmasını işin əsas mövzusu kimi seçərək qeyd olunur. Buna nail olmağın ən vacib yolu isə ingilis dilçiliyinin bütün bölmələrinə: fonetikadan sintaksisə, o cümlədən lüğət, qrammatika, morfologiya, orfoepiya və üslubiyyata vahid və hərtərəfli yanaşmadır. Bütün qalan material əslində bu aspektə bağlıdır. Bu yanaşmanın təfərrüatlı arqumentasiyası məqalənin vəsait mənbəyinə əminliklə əlavə edilə bilər.

Həm ingilis dilinin tədrisi ilə bağlı öz təcrübəmizə, həm də aparıcı alimlərin əsərlərinə əsaslanan bu və ya digər nəzəri mövqe nəzərdən keçirilməsi üçün təklif olunur. Aydın məsələdir ki, onların əksəriyyəti metodistdir, lakin bəzən dilçilərin, psixoloqların adlarına müraciət edilir. Onların tədqiqatlarına əsaslanan, həmçinin müəllifin müvafiq qənaət və ümumiləşdirmələri ilə təmin olunması, şübhəsiz ki, məqaləni zənginləşdirir.

Açar sözlər: ingilis dili, təfəkkür, səriştə, beynəlxalq münasibətlər fakültələrinin tələbələri, tədris metodikası, beynəlmiləlləşmə.

Safarova Khuraman Rahman

On some aspects of developing independent thinking skills in the process of teaching English to students of international relations in Azerbaijan

Summary

The presented article is written on a relevant topic. There are many different aspects in the methodology of teaching English at universities in the republic and in cognitive linguistics, among others, to be studied from different points of view. So their concretization in scientific thought, as they say, is worth a lot. The article outlines just such a complicated path, choosing as the main subject of the work the instilling of independent thinking skills to international students based on their study of modern literary English. And the most radical way to do this, according to a fair decision (based on our own pedagogical practice and works on methodology), is a unified and integrated approach to all sections of English linguistics: from phonetics to syntax, including vocabulary, grammar, morphology, orthoepy and stylistics. All the rest of the material is actually tied to this aspect. A detailed argumentation of this approach can be confidently recorded in the asset of this article.

There is also such a moment in this article. This or that theoretical position is proposed for consideration, which is based on both our own experience in teaching English and the work of leading scientists. It is clear that most of them are methodologists, but sometimes the names of linguists and psychologists are indicated. Relying on their research, moreover, provided with relevant author's conclusions and generalizations, undoubtedly enriches the article.

Keywords: English, thinking, competence, students of the faculties of international relations, teaching methods, internationalization.

Year by year, English is becoming international not only in terms of communication in almost all European countries and partly in the West, but also in terms of its teaching, including in Azerbaijan, where, along with Russian, it is becoming increasingly popular. This should not be surprising. By the middle of the second decade of the 21st century, it became quite obvious that this language was being internationalized. That is, it goes beyond the narrow borders of its nation, gradually and steadily acquiring an international connotation and political status. Objectively, it is quite clear that this orientation will be especially useful for students of different ages at international faculties, including in our republic. Moreover, if we talk and write about the development of students' thinking skills in the information space of the global world, then the standards of the English language include all stages and stages of modern linguistics: from phonetics to syntax, including all intermediate sections.

Such generalization does not mean the dispersion of knowledge. Modern linguist and methodologist N. Davitishvili, for example, believes that in order to develop independence and thinking skills, it is necessary to complete a full course at least "during the first two years of studying a foreign language in universities" [4, p.127]. In our case, it is necessary to study all sections of the English language as part of the curriculum for students of international relations.

After such assurances from a well-known European scientist of Georgian origin, the question arises: what should a student of the international Faculty of Humanities of our republic be like these days? With a consistent and purposeful transition from studying the material of one topic (section) to another, in the present case, a teacher has a very real opportunity to count on success. Moreover, the step-by-step passage of all sections of the language, without exception, symptomatically increases the level of communicative and intercultural competence. Consequently, students of international relations, simultaneously with the natural and natural function of replenishing the vocabulary, will simultaneously become more familiar with the mental characteristics of the British, and gain a deeper understanding of their culture and ethnogenesis. This means that with such an integrated approach, we, figuratively speaking, 'turn' the students' thinking in the direction we need. This will automatically change the 'pole' of learning and help teachers set students up for a positive tone.

For example, to switch the attention of English language learners from routine work on a dictionary to reading scientific or educational and journalistic literature, moreover, in the original and with the dosed involvement of related disciplines. The information may be different, but the English-language source in this case remains unchanged. It is clear that the history of other countries and information on linguistic and cultural studies can serve as such useful material for international students.

Some experiments are interesting for Azerbaijani students. For example, the world-famous American psychologist A. Maslow developed a unique method of teaching English in schools and universities around the world. It was called: "Eat the elephant piece by piece". What is hidden under such an extravagant name? By "elephant", of course, is meant not an animal, but "a laborious task that is extremely difficult to complete in one sitting" [1, p.8].

In this case, A. Maslow directed English language teachers for nonresident students to break down such tasks or problematic situations directly related to learning a second language into separate parts (chapters, or in his terminology, subsections). We managed to find out that psychologists and linguists followed in the footsteps in this regard. They successfully applied this method within the walls of Baku Slavic University. Then it was adopted by the leading teachers of the Azerbaijan University of Languages. Together, this technique was also tested on the teaching methods of German and French, thus covering the entire Romano-Germanic group. We recommend using it among students of international relations as well.

This is relevant, from our point of view, from at least two positions. Firstly, by way of approving the main thesis of the article, it significantly helps to develop students' thinking skills. Secondly, it is very important for international students in the sense that modern literary English is a dynamic system. It is used in comparison with a number of other languages of the world, due to its international status (which is being consolidated more and more from year to year) a lot of third-party inclusions appear. So the language adapts to different environments and naturally represents a self-improving system.

We will no longer overload the text of the article with information that this consolidation and dissemination is actively noted on the online network using digital technology. This is only one (side) side of the issue related to general computerization in schools and universities in Azerbaijan, but we are more interested in something else: according to scientists from Central Asia, Z. Abdlzakhry and I. Joshi, "the international significance of the English language lies in noticeable linguistic and cultural changes, especially in modern media or socio-political space" [3, p.1].

Such a direct statement obliges a lot. It essentially subordinates the norms of language to the socio-informational environment. Consequently, the study of this language by students of international faculties is inextricably linked with communication. And this, in turn, is a social need that directs students' thinking

towards the professional development of vocabulary with a linguistic and cultural bias.

In connection with the above, it seems to us that the development of thinking skills for students of the profile we are interested in orients this contingent to enter the political arena in the near future. Otherwise, the English material that they have studied will remain, as they say, on paper, in their workbooks, but will not be implemented in practice, especially if it comes to any international activities of Azerbaijani students. In this kind of activity, English is quite closely intertwined with politics, therefore, in addition to using common words in his speech, knowledge of the relevant terminology increases significantly.

In particular, European methodologists and linguists M.Evais and E.Hamed inform us about this. They rightly argue that the English language, taught by modern educators from an international perspective, is important and necessary for the following two fundamental reasons. A). As a reflection of political discourse in order for students to communicate with members of international delegations, associations, at the level of any other meetings with distinguished guests. And so on. B). As a consequence of point "A", the second language will be the most important means for international students to learn the values of the English nation. They, in turn, according to these scientists, "formalize knowledge in the field of political ideology, demonstrating a sense of patriotism and the appropriate level of their own political culture" [5, p.37]. Of course, the number of points can be increased many times, but using the example of these two, you can draw the right conclusions.

Let's continue the ideas of M. Evais and E. Hamed in relation to the contingent of Azerbaijani students. What they have titled in paragraphs "A" and "B" is primarily aimed at developing thinking skills, because the very fact of students communicating at a high international level presupposes the search and establishment of a new system of values and beliefs. Namely, students study literary English more deeply, not so much for everyday conversation in a relaxed household environment, as for political purposes. The vocabulary of Azerbaijani students should naturally include a vocabulary in which both political terms and some ideological cliches serving the culture of another nation prevail. That is, they have a pronounced not only socio-political, but also cultural orientation.

E. Zeynalov, a prominent Azerbaijani researcher, makes valuable conclusions on this issue. Speaking from the positions of a methodologist, cultural critic and political scientist at the same time, he writes about the development of such thinking skills that "allow domestic (= Azerbaijani) students to pay attention to the subtleties of political and cultural American discourse in the course of learning English, in particular, to find means of manipulating the international situation" [7]. By the way, such "maneuvering" is sometimes conditioned by circumstances. It is important for us to emphasize that such manipulation is impossible. Zeynalov suggests considering it not only in a purely political way, but also as a methodical technique. In his opinion, this

is a “valuable weapon” of an international diplomat, for whom English is a rhetoric used locally as a symbol of election campaigns. We add: this is the ability to structure your speech in a foreign language in such a way as to ignite the English audience with your eloquence. To do this, you need to possess not only the gift of a political strategist, but also to reach a fundamentally new level of thinking, thereby using the mechanism of various speech and linguistic means. In our opinion, such tactics should also be taken into account by Azerbaijani teachers working in the international community. Yes, perhaps, and not only in this area.

It is significant that such ideas are organically developed by some progressive-minded scientists from different countries, both in Russia and Europe, as well as in Azerbaijan. The goal in line with our chosen article is almost always the same: the prerogative of developing independent thinking skills in the second (English) language for international students in the republic is to integrate into the consciousness of a diplomatic mission of various ranks in the near future. The recipients' thinking, which is primarily based on the consistent passage of all sections of English linguistics, will help the Republican youth to properly build relationships with other countries. Taking into account the indisputable fact that students of faculties (or universities) included in our review study according to the curriculum, English language teachers, as a rule, do not deviate from its points. Therefore, they are concerned not only with purely linguistic, but also with the most important methodological, pedagogical and, as one could see, psychological tasks. In this case, we are talking about both the transfer of necessary knowledge in the text of the subject itself and the development of students' thinking from an ideological perspective. The latter means the introduction of a unified and integral system of social beliefs into lectures (seminars, laboratories) at universities, which, according to methodologist and television commentator on international issues Van Duke, “forms the textual discourse of modern literary English for young people, simultaneously controlling their thinking, behavior, attitudes” [6].

Obviously, there are some requirements for these behavioral attitudes and the development of students’ thinking. First of all, we would like to emphasize that they contain a proactive assessment of events for international purposes. And now let’s explain and clarify this concept. Firstly, in terms of social, international and political issues. That is, the independence of student thinking, with the resulting correctly drawn conclusions, lies in not rushing things. In other words, one should not fully disclose one's position in English, for example, during international negotiations. In our opinion, the development of independent thinking, in particular, consists in sticking to the most generalized formulas as much as possible, without openly demonstrating one’s opinion and clarifying it to the end. There should always be some loophole for the addressee, who in the course of international negotiations may have his own subjective opinion, different from the student, who is a future professional in

his field. Thinking adapts to a style in which there is some kind of analogue of a veiled thought. It actually allows you to make a "preemptive" utterance.

It was only at the very end of the 20th century that English teachers working with a contingent of international students around the world clearly realized that in developing the skills we have outlined in the title of this article, international students should develop the skills to not only select and differentiate correctly constructed lexemes and phrases while reading and analyzing English texts. Finally, phrases, sentences with the appropriate ideological orientation, but it is also relevant to translate them. Moreover, in the case of students of republican universities, this process becomes even more complicated. The reason is simple and banal: most of the texts recommended by English teachers for studying since the Soviet era are written more often in Russian. So teachers set a well-founded goal for themselves: to develop the skills of independent thinking of their students, using knowledge of three-fold translation: from English to Russian, on the one hand, and into Azerbaijani, on the other, along the chain.

We would like to conclude our article with some recommendations. First of all, we emphasize the following fact: no matter what English texts are offered for consideration, discussion and use by international students, it is not so much the development itself as the further improvement of their independent thinking skills that will be inadequate if Internet networks and portals are not connected to university classes. And it's not even that the enormous speed of information dissemination on the modern Internet provides a strong incentive to learn English. The moments of responses are just part of the additional training, however, which is also necessary. More importantly, the teachers themselves are aware of the primacy of English among not only the languages of the Romano-Germanic group, but also around the world. In this regard, the global Internet helps all students to learn English perfectly in the presence of those factors that have already been covered in this article: psychology, history, philosophy, social, political science, cultural and related aspects.

But since the article states the first scientific discipline, we want to complete it by analogy with the title. The Internet with English materials is mastered by international students to varying degrees; a lot depends on their personal intellectual abilities (IQ), diligence, diligence. Students themselves are rarely aware of this, however, teachers should certainly take into account the psychological levels of their self-esteem. The higher it is, the better it is, as a rule, in terms of psychological resilience. Apparently, this is only a nuance, but it also has a certain significance when talking and writing about the development of independent thinking skills of international students when they study literary English.

References:

1. Маслоу А. Управление стрессом: лучшие стратегии // Перепечатка в АЗЕРТАДЖ. Ежедневные новости, № 2, 10 января, 2025 года, 24 с.
2. Попова Е.А. Политический дискурс в обучении иностранным языкам студентов-международников и политологов // Вестник Московского государственного лингвистического университета. Образование и педагогические науки. 2020. №1 (834). С. 77-87.
3. Abdlzahra A.Z., Joshi J. (2022) English Language Adaptation in Cross-Cultural Political Discourse. Journal of Asian Multicultural Research for Social Sciences Study 3(4): pp.1-6.
4. Davitishvili N. (2017) Cross-Cultural Awareness and Teaching English as a Second Language in the Context of Globalization. Sino-US English Teaching, September, Vol. 14, No. 9, pp.549-558.
5. Ewais M.S., Hamed E.M. (2023) Maha Salah ElDien Mohamed Hamed The 'Us' -vs-'Them' Dichotomy in Biden's Inaugural and First State of the Union Addresses: A Comparative Analysis in the Light of the Ideological Square Theory. *CDELT Occasional Papers in the Development of English Education* 80(1): pp.245- 265.
6. Van Dijk T.A. (2006). Ideology and discourse analysis. *Journal of political ideologies*, 11(2), pp. 115-140.
7. Zeynalov E. (2021). Values in American Political Discourse and Manipulation (on the Basis of Speeches by American Presidents). *Scientific Practice: Modern and Classical Research Methods.* Vol. 2.

Rəyçi: fil.f.d., dos. Hüseynova Ramilə

Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu, *ISSN 2224-9257*
Filologiya məsələləri № 3, 2025
Səh. ————————

GÜLNARƏ RAUF QIZI ƏFƏNDİYEVA
Azərbaycan Dillər Universiteti

İSPAN DİLİNİN LATIN AMERİKA VARİANTININ FƏRQLİ XÜSUSİYYƏTLƏRİ

Xülasə

Məqalədə İspaniyada və Latın Amerikası ölkələrində danışılan ispan dili haqqında məlumat verilir. Kasteyano – İspaniyada danışılan ispan dilinin Amerika qitəsindəki ölkələrdə danışılan ispan dilindən fərqli linqvistik xüsusiyyətləri göstərilir. Amerika dillərində danışıqda Cənubi İspaniyanın xüsusiyyətləri, xüsusilə Andalusiyanın qərbində (Sevilya, Kadiz) və Kanarya adalarına oxşar bir çox ümumi xüsusiyyətlər mövcuddur. Hər bir bölgədə dilin müxtəlif regional xüsusiyyətləri və ifadə tərzləri var. Amerikanın İspan dilində, birbaşa ingiliscədən alınan sözlər daha çox yayılmışdır və hər bir bölgənin yerli mədəniyyətlərinin yerli dillərindən böyük təsir vardır. Yerli xalqların danışığı sözsüz ki, orada danışılan ispan dilinə təsir göstərmişdir. Daha çox leksik fərqliliklər olsa da, qrammatik müxtəlifliklər də mövcuddur. Argentinadakı ispan dilində "sən" şəxsində feillər fərqli formada dəyişir.

Açar sözlər: ispan dili, Latın Amerikası, linqvistik dəyişikliklər, kasteyano, leksika.

Keywords: Spanish language, Latin America, linguistic changes, Castilian, lexicon.

Ключевые слова: испанский язык, Латинская Америка, лингвистические изменения, кастильский, лексика

Hind-Avropa dil ailəsinin roman qrupuna aid olan ispan dili dünyada ən çox danışılan ikinci dildir (çin dilindən sonra). Dünya əhalisinin 559 milyon insanı bu dildə danışa bilir. Kastiliya dili kimi də tanınan bu dil İspaniyada, Uruqvayda, Venesuelada, Kolumbiyada, Puerto-Rikoda, Nikaraquada, Hondurasda, Çilidə, Peruda, Ekvadorda, Qvatemalada, Boliviyada, Dominikan Respublikasında, Salvadorda, Paraqvayda, Panamada, Ekvatorial Qvineyada, Argentinada, Meksikada, Kubada, Kosta-Rikada, Qərbi Səhrada və qeyri-rəsmi olaraq Amerika Birləşmiş Ştatlarında, Filippində, Andorrada, Belizdə və Cəbəli-Tariqdə danışılır.

Zaman keçdikcə daha çox insan ispan dilini öyrənmək istəyir. Bütün ölkələrdən turistlər üçün İspaniya çox ekzotikdir. Onun isti iqlimi, mədəni zənginliyi, ləzzətli mətbəxi vəinsanların dostluğu hər il milyonlarla insanın bu dili öyrənmək istəyinə səbəb olur.Bundan əlavə, ispandilli ölkələr getdikcə daha vacib iqtisadi bazara çevrilir. Bir çox transmilli şirkətlər ispandilli ölkələrə yayılmaq istəyirlər. İspan dilini bilmək şirkətlər, məşğulluq və biznes imkanları üçün artıq çox vacibdir.

Yuxarıda qeyd etdiyimiz 21 ölkənin hamısı ispan dilində danışır. Bununla belə, ispan dilində danışan ölkələr arasında fərqli lüğət var. Belə bir sual ortaya çıxır ki, hansı ispan dili daha vacibdir, İspaniyadakı kasteyano yoxsa Latın Amerikasındakı ispan dili?

Hər birinin özünəməxsus lüğəti olsa da, hamısı normativ və bərabər hesab olunur. Hər ikisinin İspan lüğəti el Latın İspan dilidir. Söz ehtiyatından başlayaq. Latın Amerikasında ispan sözlərini mənaları və sinonimləri ilə görəcəyik. Əslində, hər ölkədə belə hallar çox var. Bütün bu sözlər haqqında danışa bilmərik, çünki onlar demək olar ki, sonsuzdur.Bizim edəcəyimiz şey ən populyar olanlardan bəzilərinə diqqət yetirmək və onları bölmələrə ayırmaqdır. aşağıdakı leksik sahələr: Fellər, yeməklər, əşyalar, paltarlar, evin yerləri və hissələri, məşğuliyyətlər və sifətlər.

İspan və ya Kasteyano terminin istifadəsi çox vaxt kontekstdən asılıdır, baxmayaraq ki, linqvistik ifadələrdən daha çox siyasi mənalar da var. Bir tərəfdən, "Kasteyano" terminin ispan dilinə istinad etmək üçün istifadəsini tənqid edənlər var, çünki onlar İspaniyanın müəyyən bir bölgəsinə (Kastilya) aid olduğuna inanırlar və Latın Amerikasında danışılanlar kimi bir çox digər ispan növlərini bir kənara qoyurlar. Bu mənbələr Kastiliya dilini daha çox ispan dilinin ləhcəsi hesab edirlər. Digər tərəfdən də, İspaniya daxilində "Kastilian" sözü İspaniyada digər ispan dillərinin də olduğunu vurğulamaq üçün istifadə olunur, məsələn: Qalisiya, Bask, Katalan və Valensiya.

Qısaca demək olar ki, ispan dili Kasteyano dili ilə sinonimdir və hər ikisi İspaniyada və bir çox Latın Amerikası ölkələrində üstünlük təşkil edən dil haqqında danışmaq üçün bir-birini əvəz edə bilər.Bununla belə, beynəlxalq kontekstdə ispan terminindən istifadə etmək daha məqsədəuyğundur, nəinki Kasteyanodan. Kastiliya termini Katalan, Qalisiya, Valensiya və Bask kimi ortaq rəsmi dilləri tamamlayan İspaniya dövlətinin ümumi dili kontekstində daha uyğundur.

İspan dili Roma İmperiyasının Hispaniya əyalətində danışılan latın dilinin versiyasından gəlir. Roma İmperiyasının süqutundan sonra (eramızın 4-cü əsri) Roma İspaniyasında danışılan latın dili dəyişdirildi və imperiyanın digər əyalətlərində danışılan latın dilinin digər variantlarından ayrıldı. Bu çevrilmələr roman dillərinin yaranmasına səbəb oldu. Lakin Pireney yarımadasında danışılan latın dilinin tamamilə ispan dilinə çevrildiyi anı müəyyən etmək çətindir, qeyd etmək olar ki, bu gün ispan dilində yazılmış hesab edilən ilk mətnlər Valpuesta Cartulariosudur (9-12-ci əsrlərdə yazılmışdır).

Mənşəyinə görə ispan sözlərin çoxu Latın dilindən gəlir. Bununla belə, ispan və ya kastiliya dilinin lüğətində ərəbizmlər, qallisizmlər, ellinizmlər və anglikizmlər də daxil olmaqla bir çox xarici sözlər var. Bundan əlavə, RAE (Real İspan Akademiyasi) tərəfindən qəbul edilən yeni sözlər hər il ispan dilinə əlavə edilir.

Avropada İspaniya dövlətinin, bütün Latın Amerikası ölkələrinin (Brazilya istisna olmaqla) dövlət dili olan ispan dili bir sıra coğrafi, iqtisadi, siyasi, etnik, tarixi proseslərin təsiri nəticəsində müxtəlif variantlar qazanmışdır. Bir çox tədqiqatçıların

əsas diqqət mərkəzi olan ispan dilinin Argentina variantı öz fonetik, qrammatik və leksik xüsusiyyətləri ilə seçilir. Cənubi Amerika qitəsinin böyük əraziyə sahib ölkələrindən biri olan Argentina Respublikası 23 əyalətdən ibarətdir və bu, o deməkdir ki, həmin adı çəkilən dil variantı hətta bu ölkənin özündə bir neçə şaxələrə bölünür. Məsələn, paytaxt şəhər Buenos Ayresdə hər hansı söz Santa Fe şəhərində fərqli şəkildə tələffüz olunur,deməli, regional xarakter daşıyır.

Hazırkı dövrdə istənilən dildə danışanlar öz dillərinin müxtəlif variantlarını araşdırmağa çox maraq göstərirlər ona görə də bu istiqamətdə tədqiqat işləri çoxdur. İnternet bizə bu sahədə çox kömək edir, belə ki, həyatımızı çox dəyişməyilə ilə bərabər internet həm də araşdırma resursuna çevrilmişdir. Məsələn, bir neçə onilliklər əvvəl bu sahədə leksikoqrafiyanı araşdırmaq çox çətin idi. İndi isə müxtəlif qaynaqlar daha əlçatandır. Eyni zamanda, bugün biz daha doğru məlumatlara sahibik, çünki tədqiqatçılar öz təcrübələrini sosial mediada bizimlə bölüşürlər.

Çox araşdırılan bir tədqiqat sahəsi dialektlərdir, həm də Latın Amerikasının böyük hissələrini əhatə edən dialektlər. Bu, çox maraqlı bir sahədir. Məsələn Alba tərəfindən araşdırma (1996) qeyd edir ki, Latın Amerikasının bəzi paytaxtlarında istifadə olunan sözlər Madriddə istifadə olunanlarla çox yaxınlığı vardır. Ən böyük leksik yaxınlıq göstərən şəhərlər bunlardır : Mexiko , Havana, Santyaqo, Boqota, Asuncion və Buenos Ayres. Az leksik yaxınlığa malik olanlar isə San Salvador, Manaqua, Lima, Qvatemala və Panamadır [1.səh 501] .

İspan dilinin Latın Amerika ölkələrindəki fərqli xüsusiyyətləri yerli xalqın qədim dili ilə də əlaqələndirilə bilər. bəzi araşdırmaçılara görə yerli xalqın öz ana dili indiki ispan dilində öz izlərini göstərir. Təəccüblüdür ki, onlar hələ də bu gün İspan dilində danışılanlara böyük təsir göstərirlər. unutmamalıyıq ki, ispan dilində yerli xalqın doğma dillərinin qarışığı var.

İspan dilinin Argentina variantı ilə bağlı linqvistik araşdırmalar göstərir ki, fonetika bölməsində bir sıra dəyişiklikləri sezmək olur. İspan dilinin əlifbasında Y və Ll hərfləri bir qayda olaraq, [y] səsini verir. Məsələn, yo [yo]- mən, llave[yave]- açar İspaniyada, Argentinada isə bu sözlər [şo], [şave] kimi tələffüz olunur. Bəzən bu hərflər Argentinanın müxtəlif əyalətlərində fərqli şəkildə tələffüz edilir. Digər fonetik fərqlilik S samiti ilə bağlıdır. Argentinada bu səs sözün sonunda gəlirsə, oxunmur. Məsələn, Los ojos (gözlər) [los oxos] sözü Argentinada [lo oxo] kimi tələffüz edilir.

İspan dilin Argentina variantında gözə çarpan müxtəlifliklər qrammatikasında hiss olunur. Voseo adlanan fenomen başda Argentina olmaqla, bir sıra Latın Amerika ölkələrində klassik Kasteyano dilindəki tú(sən) şəxs əvəzliyinin vos ilə əvəz olunması deməkdir. Yəni II şəxsin təkini ifadə edən tuteo termini Argentinada voseodur.

İspan dilinin Argentina variantında nəinki sən əvəzliyi, eyni zamanda bu şəxsə aid fellərin təsriflənməsi də Kasteyanodan- İspaniya ispan dilindən fərqlənir. İspan

dilinin əsas feli olan "ser" əsl ispan dilində II şəxsin təkində eres formasında təsriflənirsə, Argentina variantında sos formasında dəyişir. Məsələn:

1. Tú eres periodista
2. Vos sos periodista

Hər iki cümlənin tərcüməsi Sən jurnalistsən olsa da, 1. cümlə İspan dilinə, 2. cümlə isə İspan dilinin Argentina variantına aiddir.

Antik ispan dilində Vos daha nəzakətli müraciət forması idi. Kral və ya zadəgan ailələrinə mənsub insanları "siz" deyə çağırmaq üçün "vos" deyilirdi. Sonralar isə, müxtəlif sosial qrupların da istifadə etdiyi sözə çevrildi, çünki artıq həmin yuxarı təbəqə xalqın gözündə hörmətsiz insanlar oldular. Bu səbəbdən, "Usted" əvəzliyinin istifadəsinə zərurət yarandı, çünki nitqdə müraciətin rəsmi və qeyri-rəsmi formaları mütləqdir. Zamanla Argentinada "sən" artıq "vos" olmuşdu. "Usted" isə nəzakət ifadə edən "siz" oldu. Qeyd etmək lazımdır ki, Usted istər Kasteyano, istərsə də onun Argentina variantında rəsmi müraciət formasıdır. Sosial fərqlilik göstəricisi Usted qədim ispan dilində daha çox rast gəlinən "Vuestra Merced"- Əlahəzrətdən yaranan şəxs əvəzliyidir. Bu sözün ərəb mənşəli olduğu düşünülür, ***Ustad*** sözünün dəyişmiş forması ola bilər.

Ümumiyyətlə isə Amerika qitəsinə hər iki söz – Vos və Tú gəlib çatıb, lakin orada bunu İspaniyadakı kimi diferensial paradiqma olaraq saxlamayıb, qarışıq bir paradiqma kimi formalaşdırdılar. Sən əvəzliyin işlənməsinə görə , Latın Amerika ölkələrinin ispan dilini 3 zonaya bölmək olar:

I. Yalnız "tú" dan istifadə edənlər: Meksika və Peru

II. Yalnız "vos"dan istifadə edənlər: Argentina və Mərkəzi Amerika ölkələri (Nikaraqua, Qvetamala, Kosta-Rika, Salvador, Honduras)

III. Həm "tú" , həm də "vos"dan istifadə edənlər: ParaquvayÇili, Kolumbiya, Venesuela, Ekvador, Boliviya.

İspan dilinin cingilitili və sevilən dil olmasının əsas səbəblərindən biri sözlərin ahəngdar düzülüşüdür. Bu musiqi ahənginə bənzəyən harmoniya onun qrammatikasına borcludur. Hər felin müxtəlif zamanlarda hər şəxsdə fərqli şəkildə təsriflənməsi öyrənənlər üçün nə qədər çətinlik törətsə də, bu qrammatik quruluş sayəsində bu dil sevilən hesab olunur. İspan dilinin Argentina variantından bəhs ediriksə, bu hissədə də müxtəliflikdən danışmasaq olmaz. Yenə də adı çəkilən fərqlilik II şəxsin təkində özünü göstərir. Quiero, quieres, quiere... "istəmək" felinin indiki qeyri-zamanda təsriflənmə formasıdır. Bütün şəxslər olduğu kimi qalır, yalnız II şəxsin təki Argentina variantında fərqli şəkildə dəyişir: Querrés. Bu cür qaydasız fellər siyahısını artırmaq olar, məsələn, tenés , venís , oís və s.

İspan dilinin Argentina variantında 2 cür dialekt adı var: "lunfardo" və "kasteyano". Kasteyano ədəbi dil hesab olunur. Lunfardolar isə bizim dildə desək, jarqonlardır. Lunfardo, sırf bu ölkəyə xas olan, oradakı insanların başa düşə biləcəyi sözlər toplusudur. Mühacirlərin Argentinaya axını ,görünür, bu ölkədə oğurluq və başqa cinayət hallarını artırmışdı. Kiçik qrupların öz aralarında istifadə etdikləri

"şifrələr" daha sonralar məişət dilinə məxsus sözlər hesab olunmaya başladı. Argentinada Lunfardo hesab edilən sözlərə nəzər yetirək:

Attorante- utanmaz
Afán – oğru
Cana- polis (məntəqə)
Chabón - oğlan
Gil- axmaq
Guita- pul
Mina- qadın
Pibe- gənc oğlan

Bu siyahını yüz və minlərlə sözlərlə artırmaq olar. Bu sözlərin etimoloji araşdırması göstərir ki, lunfardolar italyan, ingilis, fransız və digər yerli olmayan etnik qrupların qeyri-qanuni işlər zamanı istifadə etdikləri parollardır.

Yerli xalqların dillərdən gələn bəzi Meksika sözlərini təqdim etməyə başlamazdan əvvəl, Vigueranın (2018) dediklərini nəzər salaq. Onun araşdırmasına görə araşdırmaya görə, ən çox öz anadili sözləri özündə daşıyan yerli dillər yalnız bir ölkədə cəmlənə bilir. [2.səh 20] . Meksika üçün bunlar Nahuatl və

Maya. Picková (2010) izah edir ki, Meksikada bir çox yerli dil var, ancaq

bəziləri artıq yox olub. Hələ də mövcud olan dillərdən Nahuatl və Maya dilləridir və bu dillər ispan dilinə ən böyük təsiri göstərənlərdir. Bu gün Meksikada gördüyümüz diglossia vəziyyətidir. Məsələn, cacao (kakao) və cacahuate (fıstıq) sözləri Nahuatldan gəlirlər. Digər yerli dillər, məsələn, Tarascan, Otomi, Zapotek, Totnaco və ya Cahita Meksikadakı ispan dilinə elə də böyük təsiri olmamışdır .[3.səh 16-17]

Kolumbiyaya gəldikdə, yerli xalqların təsiri Meksikada olduğu kimi Kolumbiyada danışılan ispan dilinə təsiri özünü göstərir. Giraldoya (1986) görə, Kolumbiyada məlum olan leksik indigenizmləri aşağıdakı qruplara bölmək olar:

1. Pan-İspan və ya Pan-Amerika yerliləri

Bu qrupa aid olan sözlər yerli dilin mənşəyi olan ölkələrdən başqa dörd və ya daha çox ölkəyə aid sözlərdir. Sal(1977) bu qrup haqqında deyir ki, onlar da daxil olan sözlərdir. Məsələn, *papa* sözü.

2. Keçuizmlər

Quechua bütün Latın Amerikasında ispan dilinə böyük təsir göstərmişdir.

Keçuanın ispan dilinə nə dərəcədə təsir etdiyinə dair çoxlu araşdırmalar yoxdur, lakin yalnız Keçua sözlərinin lüğətləri hazırlanmışdır (məsələn, condor sözü).

3. Muismizmlər

Muisca mədəniyyəti də Boqota ətrafında tapılan bir mədəniyyətdir.

Maya, Aztek və İnka mədəniyyətləri ilə birlikdə , Latın Amerikasındakı dörd böyük mədəniyyətdən biri hesab olunur . Cuba (kiçik oğul) və fique (cabuya, agave) kimi sözləri nümunə olaraq göstərmək olar.

4. Digərləri

Giraldo qeyd edir ki, digər yerli dillər üzərində hələ kifayət qədər araşdırma aparılmayıb, lakin bu, artıq Karib ailəsinin çox vacib olduğunu göstərir və bu səbəbdən, Karib ailəsindən gələn yerli sözlərin çox olduğu qənaətinə gəlmək olar [4. s. 337-340].

Bir neçə illər sonra Redondo bu bölgünü təkrarlayır, lakin yeni araşdırmalar aparır, onları genişləndirir və son kateqoriyaya daha çox məlumat əlavə edə bilir:

1. Keçuizmlər

Məsələn, sazan, koka, kondor, lama, mate, kartof

2. Muismizmlər

Məsələn, amero (qarğıdalı yarpağı), chisa (larva, kartof zərərvericisi)

3. Karibizmlər

Məsələn, ahuyama (balqabaq), arepa (qarğıdalı çörəyi), kolibri

4. Tupí-Qaranizmlər

Məsələn, coati, jaguar, passion fruit, piranha, tucan [5.s. 19-25].

"Amerika İspan dilisi" ifadəsi Amerika qitəsində danışılan dialekt növlərinin toplusuna aiddir. José Moreno de Alba (1988) kimi bəzi müəlliflər Amerika linqvistik reallığına istinad etmək üçün "Amerikada İspan dili" ifadəsindən istifadə etməyi üstün tuturlar. Sözönünün burda işlənməsi əbəs deyil və bu baxımdan eyni dilin diatopik növlərinin toplusu kimi başa düşülməli olan bir dil kimi ispan dilinin qlobal birliyinin lehinə aydın bir mövqedir. Manuel Alvarın (1996) qeyd etdiyi kimi, İspaniyadan bir ispan və Amerikadan bir ispan deyil, bir dil və bu dildə çoxlu danışanlar var.

Amerikada ispan ideyası da ispan dilini Amerikada İspan Tarixinin ayrılmaz hissəsi kimi birləşdirir. Rivarola qeyd etdiyi kimi, Amerika hələ formalaşmaqda olan bir dil üçün yeni coğrafi məkan təmin edir və bu fakt ispan dilinin birliyi və məhsuldar müxtəlifliyi baxımından bütövlükdə tarixi təkamülündən ayrılmazdır. Lakin dilin vəhdətinə olan bu inam heç də həmişə belə aydın olmayıb. Müstəmləkələrin müstəqillik qazandığı və yeni millətlərin yarandığı andan -1810-20-ci illərdə Atlantikanın hər iki tərəfindəki dilçilər və tədqiqatçılar ispan dilinin gələcəyini və onun birliyini şübhə altına alırdılar. İspan və Latın dillərinin müqayisəsi qaçılmaz idi və ispan dilinin gələcəkdə parçalanacağını proqnozlaşdıranlar arasında mübahisəyə səbəb oldu. Menéndez Pidal "Dilin Birliyi" (1944) əsərində bildirmişdi ki, dil canlı orqanizm deyil, sosial faktdır və latın və roman dillərinin tarixi proseslərinin əksəriyyətinin keçmişdə çox fərqlidir.

O vaxtdan bəri, Atlantikanın hər iki tərəfində mövcud olan dil və mədəni birliyi təsdiqləmək meyli açıq-aşkar olsa da, dilçilərin əksəriyyəti fərqlərin daha da pisə doğru gedə biləcəyi riskindən xəbərdardır. Məsələn, Humberto López Morales , bu differensiallaşma meylini gücləndirən bəzi linqvistik və qeyri-linqvistik amilləri qeyd etdi, məsələn:

a. müstəmləkəçilərin fərqli dialektik mənşəyi
b. aborigen dillərinin müxtəlifliyi
c. təməl nüvələrin izolyasiyası
d. bərabərləşdirici dil siyasətinin olmaması

Bu müəllifin işğal (a) anına və yerli dillərlə (b) birgəyaşayışının sonrakı mərhələlərinə və gələcək dövlətlərin yeni kolonların yaradılmasına (c) istinad etdiyi Amerikada ispan dilinin xüsusiyyətlərinin müəyyən edilməsində müstəmləkəçiliyin ilk illərinin əhəmiyyətini ön plana çıxarır. Əslində, dilin mövcud vəziyyəti ilə bağlı araşdırmalar (d) dilin quruluşunu başa düşmək üçün vacibdirsə, Amerikada ispan dilinin mənşəyi və formalaşması prosesi ilə bağlı tədqiqatların çox işıqlandırdığı və hazırda Amerika ispan dilini təşkil edən dialekt növlərinin toplusunun formalaşdığı dil və sosial əsasların yaradılmasına töhfə verdiyi heç də səhv deyil. Beləliklə, müstəmləkə dövrü adlandırdığımız dövr – ***konkista*** anından , 1492-ci ildən XVIII əsrin sonuna qədər olan geniş dövr kimi başa düşülür - dilin təkamülünün əsas mərhələsi və indiki vəziyyətini çox izah edən bir mərhələ hesab edilə bilər. Burada, görəcəyimiz kimi, yarımada ispan dilində artıq başlayan fonoloji, morfoloji və leksik cərəyanların təkamülü, seçilməsi bir dilin nəhəng və naməlum bir məkanda yerli dillərlə təması və öz sosial istinad dillərini axtaran cəmiyyətin formalaşmasını təmsil edən mübahisəsiz yeniliklə birləşir.

İspan dilli bölgələr arasında lüğətdəki dəyişikliklər nəzərəçarpandır. Bir ispan mətbəxindəki yeməklərini soyudan cihaza istinad etmək üçün nevera (soyuducu) deyərkən, argentinalı heladera və meksikalı refrigerador deyəcək. Bunun kimi minlərlə nümunələr mövcuddur. Buna bənzər sözlərə nəzər yetirək.

İspaniyada: móvil

Latın Amerikasında: celular

Telefon hər gün ən çox istifadə etdiyimiz cihazlardan biridir, buna görə də biz ona daimi , qalıcı bir ad təyin edirik. Ancaq İspaniyada movil telefon kimi tanındığı halda, Latın Amerikasında celular telefon kimi tanınır. ***Movil*** mobil cihazın hərəkətliliyinə aiddir, ***celular*** isə şəhərin telefon şəbəkələri ilə əlaqəlidir: antenalar tərəfindən ötürülən elektromaqnit dalğalarının əhatə etdiyi ərazinin hissələri. Maraqlısı odur ki, Britaniya ingilisi və Amerika ingilisi arasında da eyni variasiya var: İngiltərədə ***mobile*** kimi tanındığı halda, ABŞ-da ***cell phone*** dur. Amma təbii ki, indiki vaxtda sadəcə olaraq "telefon" demək daha çox yayılmışdır.

İspaniyada: ordenador (kompüter)

Latın Amerikasında: computadora, computador (kompüter)

İkinci fərq də gündəlik istifadə etdiyimiz cihazlarla bağlıdır. İspaniyada kompüter termini (ordena feli yəni "o əmr edir"; Fransız ordinatorundan götürülmüşdür) istifadə olunduğu halda, Latın Amerikasında ***computadora*** sözləri əksər ölkələrdə, Çili və Kolumbiyada isə ***computador*** sözündən istifadə olunur.

İspaniyada: bolígrafo

Latın Amerikasında : bolígrafo, lapicero, birome, pluma və digərləri

Mürəkkəb əsaslı yazı aləti, demək olar ki, heç bir Amerika ölkəsinin razılaşa bilmədiyi hallardan biridir. İspaniyada qısaca boli adlanan bolígrafo sözü qələm mənasını bildirir, lakin Latın Amerikasında qələm sözü bir neçə isimlə adlandırılır - bolígrafo, lapicero, birome, pluma.

Boligrafo sözü ilk dəfə 1940-cı ildə Argentinada Ladislao Xose Biro və Xuan Xorxe Meyne tərəfindən istifadə olunmuşdur . Bu səbəbdən, bu ölkədə ***birome*** kimi tanınır: iki ixtiraçının soyadlarının qısaldılması: Biro və Meyne. Bununla belə, ***lapicera*** termini daha populyardır. Bundan başqa, qələm sözü Doominikan Respublikasında və Peruda ***lapicero*** ; Venezuelada ***boligrafo***; Meksikada ***pluma***; Kolumbiyada ***esfero*** ; Çilidə ***lápiz pasta*** ; Hondurasda ***lápiz tinta*** ;Karibin bəzi regionlarında ***plumero*** və Boliviada ***puntabola*** kimi işlənir.

Ədəbiyyat siyahısı

1. de Alba, J. M. (1996). Léxico de las capitales americanas frente al léxico madrileño. Lexis, 487-501.
2. Viguera, M. A. (2011). A vueltas con los indigenismos americanos del español peninsular. Pag 20
3. Picková, T. (2010). La influencia de las lenguas nativas en el español de México. Pag 16-17
4. Giraldo, J. (1986). El influjo indígena en el español de Colombia. Caracterización sumaria.Revista de Filología RománicaPag.337-340
5. Redondo, H. F. L. (2018). Los indigenismos léxicos en las variedades diatópicas del español colombiano. Forma y FunciónPag.19-25

ЭФЕНДИЕВА ГУЛЬНАРА РАУФ КЫЗЫ

ОТЛИЧИТЕЛЬНЫЕ ОСОБЕННОСТИ ЛАТИНСКО-АМЕРИКАНСКОГО ВАРИАНТА ИСПАНСКОГО ЯЗЫКА

РЕЗЮМЕ

Статья предоставляет информацию об испанском языке, на котором говорят в Испании и странах Латинской Америки. Рассматриваются лингвистические различия между кастильским, испанским языком, который используется в Испании, и испанским языком, распространённым в странах Американского континента. В разговорной речи Америки можно обнаружить множество общих особенностей, которые напоминают черты Южной Испании, особенно западной части Андалусии (Севилья, Кадис) и Канарских островов. Каждая область имеет свои региональные языковые особенности и стили выражений. В испанском языке Латинской Америки часто встречаются слова, заимствованные напрямую из английского, и существует значительное влияние местных языков коренных народов каждой из региональных культур. Речь

коренных народов несомненно оказала влияние на испанский язык, на котором говорят в этих странах. Хотя лексические различия более заметны, также существуют грамматические вариации. Например, в испанском языке, используемом в Аргентине, глаголы во второй личности изменяются по-другому.

AFANDİYEVA GULNARA RAUF

THE DİSTİNCT FEATURES OF THE LATİN AMERİCAN VARİANT OF THE SPANİSH LANGUAGE

SUMMARY

The article provides information about the Spanish language spoken in Spain and Latin American countries. It highlights the linguistic differences between Castilian, the Spanish spoken in Spain, and the Spanish spoken in countries on the American continent. In the spoken language of the Americas, many common features are found that resemble the characteristics of Southern Spain, particularly the western region of Andalusia (Seville, Cádiz) and the Canary Islands. Each region has its own regional linguistic features and expression styles. In Latin American Spanish, words directly borrowed from English are more prevalent, and there is a significant influence from the indigenous languages of each region's local cultures. The speech of indigenous peoples has certainly impacted the Spanish spoken there. Although there are more lexical differences, grammatical variations also exist. For example, in the Spanish spoken in Argentina, verbs in the "you" form change differently.

Rəyçi: prof. N. Seyidova

Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu, *ISSN 2224-9257*
Filologiya məsələləri № 3, 2025
Səh. ————————

ƏSGƏROVA KƏMALƏ TOFIQ QIZI
AzMİU-nun Əcnəbi dillər kafedrası
kamala.hajıyeva@hotmail.com

AZƏRBAYCAN VƏ İNGİLİS DİLLƏRİNDƏ MƏTNLƏRİN YARANMASINDA SİTATLARIN ROLU

Açar sözlər: *mətn, sintaktik bütöv,sitat, mətn sintaksisi,cümlə, kommunikativ*
Ключевые слова*:* текст, синтаксическое целое, цитата, синтаксис текста, предложение, коммуникативный
Key words: text, syntactic whole, quote, text syntax, sentence,communicative

Giriş: Mətnin cümlədən böyük, yəni mürəkkəb sintaktik bütöv səviyyəsində araşdırılması problemi dilçilikdə XX əsrin ikinci yarısında başlanmışdır. Ümumilikdə isə mətn sintaksisi XX əsrin son illərində filoloji elm sahəsi kimi formalaşmışdı.

Müasir dönəmdə mətn dilçiliyində bütövlüyə malik olan mətnin quruluş qaydaları və bunlara əsasən müəyyənləşdirilən semantik-funksional əlaqələr də öyrənilir.

Qeyd edək ki, sitat müxtəlifsistemli dillərdə mətnyaradıcı komponent kimi çıxış edir. Sitatlar ingilis və Azərbaycan dillərində psixolinqvistik məqamlarda fikrin ifadəsində mühüm amilə çevrilə bilir. Sitatlar mətnin hər hansı bir yerində işlənməklə aktual bir məlumatın açarı kimi istifadə olunur. Dildaşıyıcıları sitatın bu cür psixolinqvistik imkanlarından uğurla istifadə edərək ondan faydalanmışlar..

S.İlenko mətnyaradıcı funksiyalar sırasında sintaktik vasitələrin roluna əhəmiyyət verir və yazır: "*Sintaktik vahidin yaradıcı funksiya xüsusiyyəti ondan ibarətdir ki, mətni "hərəkətə" gətirsin, onun ən vacib kateqoriyası olan bütövlük, üzvlənmə, modallığın həyata keşməsində iştirak etsin*" [1, s.4-11].

Mətnyaradan sitatlar mühüm linqvistik bir kateqoriyadır; onların istifadəsində bir çox problemlər üzə çıxmışdır; mətn, psitxolinqvistika, sintaktik semantika, distributiv, vasitəsiz iştirakçılar, transformasiya vasitələri və s. hər hansı bir mətnin əmələ gəlməsində iştirak edən faktorlardır.

Beləliklə, öncə sitat mətnqurucu vasitə kimi öyrənilir. Dilin başlıca konstruktiv funksiyası sintaktik əlaqələr vasitəsilə icra olunur. Əsasən, mətnlə sitat arasında koordinativ əlaqə sintaktik bağlılığı əmələ gətirir. Müəyyənləşdirilmiş mətnlərdə sitatın oynadığı həlledici mövqe və sözügedən mətnin yaranmasında semantikanın ifadəsinə təsirini göstərir. Bu zaman mətndə sintaktik-semantik sistem müəyyənləşir. Müxtəlif sitat formaları mətnin ümumi təsirini artırır. Mətnquran sitatlarla yanaşı mətnin əlaqəli inkişafında digər vasitələr də iştirak edir. Bunlar da

intonasiya, prosodika və sairədir.

Əsas hissə: Sitat – hər hansı mənbədən gətirilmiş çıxarışdır, mətnlə sitat arasında qarşılıqlı münasibət mövcuddur.

Sitatlardan elmi və publisistik qaynaqlarda üç məqsəd üçün istifadə edilir:

1) müəllif öz fikrini gücləndirmək məqsədilə etibarlı qaynaqlara müraciət edir;

2) tənqid etmək istədiyi, razılaşmadığı faktı pisləmək üçün özgəsinin düzgün olmayan fikrindən örnəklər gətirir, özünün və ya digər yazarın ifadələri ilə həmin mülahizəni inkar edir;

3) sitatdan mətnyaratmaq üçün istifadə olunur.

Ümumiyyətlə, İngilis dilli mətnlərində sitatlar aktivdir. Sitatdan ingilislərin gündəlik həyatında ida stifadə olunur. Sitatlar internet portallarında geniş işlənir.

İngilis dilində məşhur insanların sitatları da geniş yayılmışdır. Məsələn, "*Two things are infinite: the universe and human stupidity; and I'm not sure about the universe" (İki şey sonsuzdur: kainat və insanın axmaqlığı və mən kainat haqqında əmin deyiləm) (Albert Einstein); "Laugh as much as you choose, but you will not laugh me out of my opinion."* (*Jane Austen) (İstədiyiniz qədər gülün, amma mənim fikrimdən mənə gülməyəcəksiniz).*

Sitat elmi mətnlərdə iki cür verilir: 1) vasitəli sitatlar; 2) vasitəsiz sitatlar. Sitat mətnin məna, fikir nüvəsi kimi kontekstlə geniş şəkildə bağlıdır, həmin mühitdə funksionallaşır.

Elmi nitqdə müəllif nitqi ilə yanaşı, sitatlaşmış nitqdən də istifadə olunur. *"Sitat ən çox elmi nitqdə, üsluba dair mətnlərdə işlədilr. Sitatlaşmış nitq (речь цитатная; quotational speech) elmi mətnlərə digərlərindən alınan fikirlərin gətirilməsi ilə xarakterizə olunur"* [2, s.387].

Mətn kommunikasiyanın əsas vahididir. Sitat və onun növləri nitqi – mətni aktivləşdirir.

Elmi mətnlərdə sitat keçmiş biliklərin əsas gerçəkləşmə vasitəsi kimi çıxış edir. Bu, sitatın əsas koqnitiv funksiyasdır. Bu funksiya daxilində keçmiş bilik funksionallaşır, müxtəlif münasibətlər yeni biliklər fonunda meydana gəlir, yeni mərhələdə subyektin dərketmə səviyyəsi yüksəlir.

Y.Seyidov əlavə sözlərin və eləcə də cümlələrin mövqe və rolundan danışarkən onların sitat biçimində olan ifadə formalarını aşağıdakı kimi göstərir:

Birinci. Müəyyən əsərlərdən, müəyyən mənbələrdən sitatlar gətirilir, fikirlərdən nümunələr gətirilir və həmin sitat və fikirlərin müəlliflərinin adları, mənbələrin adları əlavə sözlər kimi qeyd edilir. Bu da, əsasən, bir neçə formada olur.

a) sitatın müəllifi əlavə söz kimi. Məsələn, M.Arif bədii əsərlərdə tez-tez təkrarlanan fikirlərə diqqəti cəlb edərək yazır: *"Ayrı-ayrı şairlər tərəfindən işlənən və qulağımıza çox tanış gələn bu ifadələrə diqqət edin: "Yenə alır qanadına duyğular məni", "Sevinc almış qanadına bu gün məni" (Əli Kərim)...*

b) sitatın mənbəyi, sitatın aid olduğu əsərlərin adları əlavə sözlər kimi. Misal

üçün yenə M.Arifə müraciət edirik. Ədib, Osman Sarıvəllinin yaradıcılığından bəhs edərkən yazır: *"Sarıvəllinin "Sən çörək istədin hökmdarından, o, panama qoydu sənin başına" ("Panamalı dilənçi")...* [3, s. 590].

Elmi dilin universal cəhətləri, subyektin dərketmə mərhələləri sitatla əsas mətnin arasındakı paralelizmini də ortaya çıxarır. Sitat elmi mətnlərdə bir vasitə kimi tarixi bilikləri də reallaşdırır. Bu isə sitatın əsas koqnitiv funksiyalarından biridir.. Subyektin dərketmə fəaliyyəti köhnə biliklərdə yeni yaranan informasiyaları birləşdirir. Sitatın koqnitiv funksiyasına daxil olan icmal-fon funksiyası elmi ideyalar, nəzəriyyələr, elmi-tarixi informasiyalar, elmi məktəblər və istiqamətlər və s. haqqında təsəvvür yaradır.

Elmi mətn quruculuğunda sitatlar əlverişli rol oynayır. Bu optimal rol sitatların koqnitiv funksiyasını doğurur. Əslinə qalanda müxtəlif funksional üslub mətnlərində rəngarəng funksiyaları yerinə yetirir. Amma elmi mətnlərdə sitatın funksionallaşması xüsusi olaraq görünür.

Sitat hər hansı birinin düşüncəsinin (təfəkkürünün) məhsulu olduğu üçün o həmin prosesi (yəni düşüncə prosesini) təmin edir. Ona görə də o, bir konseptdir. Ətraf aləm, eləcə də əsas mətnə daxil edilən sitat mental vasitə kimi çıxış edir. Sitat da əsas mətn kimi dünya barədə bilikləri yadda saxlamaq funksiyasını yerinə yetirir. Məsələn, *"Learning is a treasure that will follow its owner everywhere" (Chinese Proverb) – "Öyrənmək hər yerdə sahibinə itaət edəcək bir xəzinədir"; "Knowledge is power" (Sir Francis Bacon) (Bilik-gücdür).*

Sitatdan elmi məruzələrdə, çıxışlarda da istifadə olunur. Məsələn, Zakon Merfi öz məruzələrinin birində aşağıdakı sitatı işlətmişdir: *"Every solution breeds new problems" (Murphys Law) (Hər qərar yeni problem doğurur).*

Bir iqtisadçı çıxış edərkən Mark Tvendən aşağıdakı sitatı göstərir: *"A banker is a fellow who lends you his umbrella when the sun is shining, but wants it back the minute it begins to rain" (Mark Twain).(Bankir sizə günəş parlayarkən çətirini verən, yağış yağmağa başlayan kimi geri istəyən adamdır).*

Hər bir sitatın mətn daxilində özünəməsus xüsusiyyətləri vardır. O cümlədən elmi mətnlər onu təşkil edən cümlələrin, sitatların bir-biri ilə əlaqəsi, bağlılığı əsasında yaranır.

Sitatın bir növü kursiv-sitatlardır. Bunlar mətnin hər hansı bir yerində gəlir və izahedici səciyyə daşıyır. Mətndə bəzi cümlə üzvləri üslubi yük daşıyır. Onlar fikrin üslubi yükünü bölüşdürməkdə mühüm rol oynayır. Bir sıra hallarda üslubi yük mətnin sadə cümlələrini təşkil edən cümlə üzvlərinin üzərinə düşür. Məsələn, elmi mətnlərdə müəllif istifadə etdiyi özgə nitqinin bir hissəsinə oxucunun nəzərini yönəltmək istəyir.

Publisistik diskurslarda sitatın statusu iki formada gerçəkləşir: eksplisit formada; implisit formada.

Eksplisit formada. Eksplisit üsul, yəni açıq-aşkar ifadəsi olan hər hansı məna.

İmplisit formada. İmplisit – gizli halda ifadəsi nəzərdə tutulan hər hansı

məna. İmplisit formalarla sitatın əlaqəsi.

Sitatlaşma prosesi qəzet mətnlərində də özünü müxtəlif formalarda göstərir. Sitatlaşma hadisəsi bir linqvistik hadisə kimi həmin mətnlərin daxili forma əlaməti kimi diqqəti cəlb edir.

Mətn növləri arasında bədii mətn səciyyəvi cəhətlərinə görə fərqlənir. Bədii mətndə dilin imkanlarından heç bir məhdudiyyət qoyulmadan geniş istifadə olunur.

A.Qurbanovun dediyi kimi, "*bədii mətn dil meydanıdır*" [4, s.5].

Bədii ədəbiyyatda sitatlar vasitəsilə tarixi-mədəni assosiasiyalar yaranır. Etnolinqvstikanın bir bölməsi olan linqvomədəniyyətin öyrənilməsində sitat bir vasitə kimi iştirak edir. Sitat mətndə kulturoloji komponent kimi istifadə olunur. Sitat obrazlı ifadə vasitəsi kimi çıxış edir. Məsələn, aşağıdakı sitatlar bu formadadır.

"The British Civil service is a beautifully designed and effective braking system". (Britaniya Dövlət Xidməti gözəl dizayn edilmiş və effektiv əyləc sistemidir). (Shirley Williams).

Sitat mətndə bədii şəraitdə obrazlılıq, emosionallıq, ekspressivlik və ifadəlilik yaratma vasitəsi kimi çıxış edir.

Poeziyada və ya nəsrdə əksər onomastik sitatlar ən çox antroponimlərdən ibarət olur. Bunlar vasitəsilə əlavə konnotativ mənalar yaranır. Bununla da intertekstual kompetensiya əmələ gəlir. Yeni poetik mənanın, fikrin ifadəliliyi, emosional və ekspressivliyi yüksəlir. Məsələn, *"İstər burada, istər Mil, Muğan düzlərində, digər bölgələrdə toxumluq kimi səpilib yerləşdirilmiş xristianların yeni məskənlərinə köhnə adlar verilmişdi: Alekseyevka, Qolovino, Borispol, Slavyanka və s."*

Qeyd edək ki, sitat, epiqraf bədii mətnlərin kommunikativ məkandır. Epiqraf kommunikativ və potensial işarədir, funksionallaşma prosesində onun mahiyyəti əhatə olunur. Epiqraf polifunksional mətnin elementidir. Bədii ədəbiyyatda onun ümumi və universal funksiyaları vardır. Epiqrafın əsas funksiyası informativliyi və formanı təyin etməkdir. Bunlar funksional kompleks təşkil edir.

Sitatdan həm müsbət, həm də mənfi mənada istifadə etmək olar. Hər iki halda o, emosional təsir yaratmalıdır. Ona görə ki, normal sitat natiqlik sənəti ilə bağlıdır. Müəllifin çox sitat işlətməsi acizlik, az sitat gətirməsi isə dayazlıq ilə müqayisə bilər.

Sitat vasitəsiz nitqin elə növüdür ki, burada başqasına aid olan söz, cümlə, yaxud fikir olduğu kimi qalır. Nitqin bu növündə heç bir dəyişiklik edilmir və fikir dırnaq içərisinə alınır.

Nəticə: Son illərin mətnlə bağlı tədqiqatlarında onun dilin hansı vasitələri ilə qurulması məsələsi önə çəkilir. Hazırkı dövrə kimi mətnin qurulmasında müxtəlif cümlə növlərinin, təkrarların, terminlərin, frazeologizmlərin və s. rolu öyrənilmişdir. Bizim məqalənin əsas məqsədi mətnin qurulmasında sitatın rolunun meydana çıxarılmasıdır. Yəni məqsəd "intertekstual" xüsusiyyətlərə malik olan sitatın mətnyaradıcı funksiyalarını üzə çıxarmaqdır. Beləliklə, sitat vasitəsilə mətn qurmaq imkanlarını təyin etmək araşdırmanın əsasını təşkil edir. Şübhəsiz, mətn sitatsız da qurulur. Amma sitatla real mətnin birliyi mətnə nə verir, mətn ondan nə qazanır? Bu

məsələ ümumi dilçilikdə, o cümlədən mətn sintaksisində öyrənillməyib.

Ümumən mətnin əsas xüsusiyyətlərindən biri də onun müxtəlif mövqelərində işlənən sitatlarla bağlıdır. Sitatın mətn daxilində bir funksiyası da tematik plandan çıxış edərək remanı aşkarlamasıdır.

Sitatların mətnyaradıcı funksiyası həm mətnin strukturunu, həm də onun fikir, informasiya, mətndaxili əlaqələrini dərk etməyə, anlamağa kömək edir.

Mətnin bir hissəsi kimi sitatdan istifadənin öz istiqaməti vardır. Müxtəlif bədii, elmi, publisistik və digər tip mətnlərin formalaşmasında sitatlar fikiryaradıcı və mənayaradıcı bir vasitə kimi iştirak etmişdir.

XÜLASƏ

AZƏRBAYCAN VƏ INGILIS DILLƏRINDƏ MƏTNLƏRIN YARANASINDA SITATLARIN ROLU

Sitat mətni struktur-semantik, funksional-kommunikativ yöndə yeniləşdirərək onun intensivliyini artırır. Sitatlar müxtəlifsistemli dillərdə əvəzedilməz mətnyaradıcı komponent kimi çıxış edir. Sitatların mövqeyi əsas mətnə yardımçı rol oynamasındadır.Sitatlar Azəbaycan və ingilis dillərində psixolinqvistik məqamlarda fikrin ifadəsində mühüm faktora çevrilə bilir,

Mətnlərdə sitat həm formal-struktur, həm də məntiqi-semantik əlaqə yaradır. Bu münasibət dillə təfəkkürün əlaqəsinə əsaslanır. Sitat mətndə ekstralinqvistik əəmiyyət kəsb edir, intertekstual işarəyə yol açır.

Sitat hər bir mətndə - bədii, elmi və publisitik mətnlərdə mənanı, fikri stimullaşdıran bir amil kimi çıxış edir.

Tədqiqat göstərir ki, sitat ən çox elmi üsluba dair mətnlərdə işlədilr. Elmi nitqdə müəllif nitqi ilə yanaşı, sitatlaşmış nitqdən də istifadə olunur.

РЕЗЮМЕ

РОЛЬ ЦИТАТ В СОЗДАНИИ ТЕКСТОВ НА АЗЕРБАЙДЖАНСКОМ И АНГЛИЙСКОМ ЯЗЫКАХ.

Цитата повышает свою интенсивность за счет обновления текста в структурно-смысловом, функционально-коммуникативном направлении. Цитаты выступают незаменимым текстообразующим компонентом в различных системных языках. Положение цитат призвано играть вспомогательную роль по отношению к основному тексту.

Цитаты могут стать важным фактором выражения мысли в психолингвистические моменты на азербайджанском и английском языках.
Цитирование в текстах создает как формально-структурную, так и логико-смысловую связь. В основе этой связи лежит связь языка и мышления. Цитата приобретает в тексте экстралингвистическое значение и открывает путь к интертекстуальному знаку.

В любом тексте – художественном, научном и публицистическом – цитата выступает фактором, стимулирующим смысл и мысль.

Исследования показывают, что цитирование чаще всего используется в текстах научного стиля. В научной речи кроме авторской речи употребляется также цитируемая речь.

ASGAROVA KAMALA

SUMMARY

THE ROLE OF QUOTATIONS IN THE CREATION OF TEXTS IN THE AZERBAIJANI AND ENGLISH LANGUAGES

The quotation increases its intensity by renewing the text in a structural-semantic, functional-communicative direction. Quotations act as an irreplaceable text-creating component in various system languages. The position of quotations is to play an auxiliary role to the main text.

Quotations can become an important factor in the expression of thought in the psycholinguistic moments in Azerbaijani and English.

Quotation in texts creates both a formal-structural and a logical-semantic connection. This relationship is based on the connection between language and thinking. The quotation acquires an extralinguistic significance in the text and opens the way to an intertextual sign.

Quotation acts as a factor that stimulates meaning and thought in every text - artistic, scientific and publicistic texts.

Research shows that citation is most often used in texts on scientific style. In scientific speech, in addition to the author's speech, quoted speech is also used.

Ədəbiyyat

1. Ильенко, С.Г. Синтаксические единицы в тексте : Учебное пособие к спецкурсу . Ленинград: ЛГПИ, – 1989. – 82 с.
2. Ахманова, О.С. Словарь лингвистических терминов. Изд. 4-е. – Москва: КомКнига, – 2007. – 571 с.
3. Seyidov, Y. Əsərləri: [15 cilddə] .Bakı: Bakı Universiteti, – c. 1. – 2006. – 628 s.
4. Qurbanov, A. Bədii mətnin linqvistik təhlili. – Bakı: Nurlan, – 2005. – 476 s.

Rəyçi: f.ü.f.d., dos., Məhəbbət Əsədova

Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu, *ISSN 2224-9257*
Filologiya məsələləri № 3, 2025
Səh. ——————

SULTAN XATIRƏ
x.sultan@edu.atu.az
ATU

DİLDƏ BAŞ VERƏN SEMANTİK DƏYİŞMƏLƏRİN MEXANİZMLƏRİ VƏ SƏBƏBLƏRİ

Xülasə:

Bu məqalədə semantik dəyişikliklərin dilin təbii inkişafı ilə necə əlaqəli olduğu və bu dəyişikliklərin səbəbləri araşdırılmışdır. Semantik dəyişikliklər, sözlərin mənasında zamanla baş verən dəyişikliklərdir və bu proses dilin və cəmiyyətin inkişafı ilə sıx bağlıdır. Məqalədə Azərbaycan və Türkiyə türkcəsi əsasında bu dəyişikliklərin qarşılıqlı təsiri nəzərdən keçirilmiş, həmçinin texnologiyanın inkişafı, qloballaşma və sosial medianın dilə təsiri vurğulanmışdır. Sosial, mədəni və texnoloji dəyişikliklər, sözlərin mənalarını genişləndirərək yeni anlayışların və ifadələrin yaranmasına səbəb olmuşdur. Dilin semantik inkişafı, həmçinin, məna genişlənməsi, daralması və evfemizmlərin yaranması kimi fenomenlərlə əlaqəlidir. Bu dəyişikliklər dilin dinamikliyini göstərir və dil daşıyıcılarının cəmiyyətin ehtiyaclarına necə uyğunlaşdığını nümayiş etdirir.

Açar sözlər: semantik dəyişikliklər, dilin inkişafı, xalq etimologiyası, məna genişlənməsi, evfemizm, dil daşıyıcıları.

Giriş. Dil cəmiyyətin inkişafının və dəyişməsinin bir güzgüsü olaraq, zamanla fərqli amillərdən təsirlənir və bu dəyişikliklər dilin strukturunda, xüsusilə də semantik sahədə özünü göstərir. Semantik dəyişikliklər, bir sözün mənasında zamanla baş verən dəyişikliklərdir və bu prosesin təbii olaraq, dilin və cəmiyyətin inkişafı ilə sıx bağlı olduğu açıqlanır. Sözlərin mənasında baş verən dəyişikliklər, həm dil daşıyıcılarının gündəlik həyatına, həm də cəmiyyətin sosial, mədəni və iqtisadi dəyişikliklərinə əsaslanır. Bu məqalənin məqsədi, Azərbaycan və Türkiyə türkcəsi əsasında semantik dəyişikliklərin əsas səbəblərini təhlil etmək, dilin inkişafında baş verən bu dəyişikliklərin dil daşıyıcıları və sosial mühitlə necə əlaqələndiyini göstərməkdir.

Semantik dəyişikliklər dilin təbii inkişafı çərçivəsində baş verir və çox vaxt zamanla tədricən dəyişir. Bu dəyişikliklər həm nəzəri, həm də praktik baxımdan dilin inkişafını əks etdirən mühüm bir elementdir. Müasir dövrdə baş verən semantik dəyişikliklər xüsusilə dilin gündəlik istifadə və müasir texnologiyalarla əlaqəli inkişafı ilə əlaqəlidir. Yeni anlayışların və texnoloji yeniliklərin ortaya çıxması, sözlərin mənalarını genişləndirir, daraldır və ya dəyişdirir. Həmçinin, bir sözün mənasında baş verən dəyişikliklər, müxtəlif dillər arasında qarşılıqlı təsirə səbəb olur və bu, dilin zənginləşməsinə və inkişafına təkan verir. Azərbaycan və Türkiyə türkcəsi arasındakı semantik dəyişikliklərə nəzər salaraq, bu dil dəyişikliklərinin baş vermə səbəblərini anlamaq mümkündür.

Müasir dövrdə semantik dəyişikliklərin tədqiqi dilçiliyin ən aktual sahələrindən biri olmuşdur. Texnologiyanın inkişafı, qloballaşma və sosial medianın təsiri ilə sözlərin mənasında ciddi dəyişikliklər baş verməkdədir. Məsələn, sosial şəbəkələrdə istifadə olunan dilin özəllikləri, həmçinin müasir dövrün texnoloji inkişafı, yeni terminlərin və ifadələrin yaranmasına səbəb olub. Bu, bir tərəfdən dilin dinamikliyini göstərsə də, digər tərəfdən cəmiyyətin dəyişən ehtiyaclarına uyğunlaşan bir dilin necə formalaşdığını da üzə çıxarır. Beləliklə, semantik dəyişikliklərin baş vermə səbəblərini və onların dilin təbiətində necə əks olunduğunu başa düşmək, həm dilçilər, həm də cəmiyyətin dilindən istifadə edənlər üçün əhəmiyyətli bir məsələdir.

Bu məqalə, semantik dəyişikliklərin nəzəri əsaslarını, onların dilin sosial və mədəni faktorlarla necə əlaqəli olduğunu və müasir dövrdə necə baş verdiyini araşdırmağı hədəfləyir. Azərbaycan və Türkiyə türkcəsi əsasında bu dəyişikliklərin qarşılıqlı təsirini izah etmək, həmçinin dilin strukturu və istifadəsindəki dəyişiklikləri daha yaxşı başa düşmək üçün əhəmiyyətlidir. Beləliklə, məqalənin məqsədi yalnız dilin semantik inkişafını araşdırmaq deyil, eyni zamanda bu dəyişikliklərin səbəblərini və onların gündəlik həyatımıza təsirini anlamaqdır.

Məqalənin əsas məqsədi, dilin inkişafını şərtləndirən amilləri, xüsusilə də semantik dəyişiklikləri nəzərdən keçirərək bu prosesin müasir dövrdə daha da intensivləşdiyini və buna səbəb olan faktorları təhlil etməkdir. Həmçinin, dilin tarixində baş vermiş semantik dəyişikliklərin, bu günə qədər necə davam etdiyini və dil daşıyıcılarının bu dəyişiklikləri necə qəbul etdiyini göstərmək məqsəd qoyulmuşdur. Bütün bu məqamlar məqalənin aktuallığını və müasir dövrdə dilin inkişafı və istifadəsi sahəsindəki əhəmiyyətini ortaya qoyur.

Bu məqalə, semantik dəyişikliklərin yalnız dilin strukturunu deyil, həm də cəmiyyətin düşüncə tərzini necə formalaşdırdığını və bu dəyişikliklərin dilin təbiətinə olan təsirini göstərməyə çalışacaq. Bu mövzunun əhəmiyyəti, dilin yalnız kommunikasiya vasitəsi olmasından daha çox, cəmiyyətin dəyişən sosial, iqtisadi və mədəni tələblərinə necə uyğunlaşdığını anlamamızda özünü göstərir. Bu baxımdan semantik dəyişikliklərin təhlili, dilin dinamikliyi və dəyişən dünyamızla necə əlaqəli olduğunu anlamaq üçün mühüm bir alət təqdim edir.

Metod və materiallar. Bu tədqiqatda istifadə olunan metodlar, semantik dəyişiklikləri və onların dilə təsirini başa düşmək məqsədilə geniş bir analitik yanaşmaya əsaslanır. Təsvir metodunun tətbiqi, mövcud dil nümunələrinin analizinə imkan verərək, müəyyən sözlərin və ifadələrin mənalarının necə dəyişdiyini izləməyə kömək etmişdir. Bununla yanaşı, qarşılaşdırmalı metod da istifadə edilmişdir, belə ki, müxtəlif dövrlərdə və mühitlərdə istifadə olunan dil nümunələri müqayisə edilərək semantik dəyişikliklərin yaranma səbəbləri təhlil olunmuşdur.

Material olaraq, tədqiqatda Azərbaycan dilinin müxtəlif dövrlərə aid nümunələri, həmçinin müasir dövrdəki sözlər və ifadələr üzərində aparılan təhlillər əsas götürülmüşdür. Xalq etimologiyası, məcazların istifadəsi, korpus nümunələri və

sosial dilin dəyişməsi kimi sahələrdəki materiallar toplanmış və analiz edilmişdir. Müxtəlif dil dövrlərinə aid mətnlər, elmi əsərlər, sözlüklər və dialekt materialları araşdırılıb. [5]

Əsas hissə. Semantik dəyişmə (mənanın dəyişməsi) dilin tarixi inkişafının təbii və labüd bir hissəsidir. Hər bir dilin lüğət tərkibi zaman keçdikcə müxtəlif ekstralinqvistik (dildən kənar) və intralinqvistik (daxili dil) amillərin təsiri ilə dəyişir. A.Qurbanovun qeyd etdiyi kimi, bu prosesin nəticəsində dilin leksikası miqdarca yox, məzmunca inkişaf edir [2]. Dilçilikdə semantik dəyişmələr dedikdə, sözün mövcud forması sabit qalmaqla məna sistemində yeni mənaların əlavə olunması, mövcud mənaların itməsi və ya çevrilməsi prosesi başa düşülür. Bu dəyişiklik çox zaman tədricən cərəyan edir və dil daşıyıcılarının hamısı tərəfindən eyni anda qəbul olunmur; əvvəlcə yenilik kimi ortaya çıxır, sonra cəmiyyətdə yayılaraq ümumi istifadəyə keçir. Nəticədə bir sözün əvvəlki mənası ilə yeni mənası müəyyən dövr yanaşı mövcud ola bilər, zamanla isə yeni məna üstünlük təşkil edir.

Müxtəlif tədqiqatçılar semantik dəyişiklikləri təsnif edərkən onların səbəblərini başlıca olaraq iki yerə ayırırlar: dildənkənar səbəblər və daxili dil səbəbləri. Dildənkənar (ekstralinqvistik) faktorlar cəmiyyət həyatındakı tarixi, sosial, siyasi, mədəni və texnoloji dəyişikliklərlə bağlıdır. Məsələn, ictimai quruluşdakı yeniliklər, elmi biliklərin artması, yaşayış tərzinin dəyişməsi, yeni əşyaların və anlayışların meydana çıxması kimi amillər sözlərin məna çevrələrinə birbaşa təsir göstərir. Yeni obyekt və ya anlayışlar ortaya çıxdıqda, dil ya tamamilə yeni söz yaradır, ya da mövcud sözə yeni məna yükləyir. Belə ki, tarixin müəyyən dövrlərində "radio", "televizor", "kompüter" kimi əvvəllər mövcud olmayan əşyalar meydana çıxdıqca, bu anlayışları ifadə etmək üçün ya yeni sözlər yaranmış, ya da mövcud sözlərə bu yeni predmetləri qarşılayan əlavə məna verilmişdir. Bəzən də referentin (obyektin) özü dəyişməsə də, cəmiyyətin həmin referent barədə məlumatı və ya münasibəti dəyişir ki, bu da sözün məna çalarına təsir edir. Məsələn, bəzi sözlər zaman keçdikcə neytral yüklü mənadan müsbət və ya mənfi emosional rənglənməli mənaya keçə bilər.

Dildaxili (intralinqvistik) səbəblərə gəldikdə, bunlar dilin öz strukturundan və inkişaf dinamikasından irəli gələn amillərdir. Fonetik dəyişikliklər nəticəsində fərqli mənalı sözlərin eyni və ya oxşar səslənməsi (omonimiya) meydana çıxa bilər ki, dil bu qarışıqlığı aradan qaldırmaq üçün sözlərdən birinin mənasında dəyişikliyə ehtiyac duyur. Məsələn, orta əsr fransız dilində eyni formaya düşən *nouer* feilinin "bağlamaq" mənası qorunub saxlanmış, "üzmək" mənasında olan omonim söz isə başqa sözlə əvəzlənmişdir. Bu kimi *omonim qarşıdurması* səbəbindən dildə bir sözün mənasını dəqiqləşdirmək üçün dəyişiklik müşahidə edilə bilər.

Xalq etimologiyası, yəni sözün yanlış anlaşılaraq yenidən yozulması, dilin canlı və dəyişkən təbiətini nümayiş etdirir. Məsələn, "demokrat" sözünün "demir kırat" şəklində yanlış tələffüzü və "buldozer" sözünün "yol düzərə" kimi leksik vahidə çevrilməsi, dil daşıyıcılarının dilə verdiyi anlamların, bəzən təbii olaraq,

dəyişə biləcəyini göstərir [1]. Bu, sözlərin yalnız məzmununu deyil, həm də formalarını dəyişdirərək onları daha anlaşılan və daha uyğun hala gətirmək cəhdidir.

Bu proses A.Həsənova tərəfindən izah edilən semantik daralma və genişlənmə kimi anlayışlarla əlaqələndirilə bilər. A.Həsənova bu prosesi "dilin semantik qanunları əsasında tədricən baş verən çoxcəhətli semantik proseslər" kimi təhlil edir və vurğulayır ki, bu cür dəyişikliklər "lüğət tərkibinin semantik yolla zənginləşməsinə xidmət edir" [3]. Burada, yeni mənaların və anlayışların yaranması milli dilin təbii inkişafının bir hissəsidir və xalq etimologiyasının da bu inkişafın təbii bir mərhələsi olduğunu görürük. Xalq etimologiyası, eyni zamanda, dil daşıyıcıları üçün daha aydın və anlaşılan söz formalarının yaranmasına şərait yaradır, bu da dilin inkişafını daha asan və təbii edir.

Əslində, hər iki yanaşma - xalq etimologiyası və semantik inkişaf - dilin təbii dəyişməsi və zənginləşməsi ilə bağlı mühüm anlayışlar yaradır. Bu dəyişikliklər, sözlərin mənasını genişləndirərək, dilin yeni dövrə uyğunlaşmasına və sosial kommunikasiya üçün daha uyğun hala gəlməsinə səbəb olur. Beləliklə, hər iki fenomen bir-birini tamamlayır və dilin canlı inkişafını göstərir.

Bununla yanaşı, *metafora*, *metonimiya*, *sinekdoxa* kimi məcaz və assosiativ keçidlər semantik dəyişmənin əsas mexanizmləri kimi çıxış edir. Söz bir obyekti və ya hadisəni digərinə bənzətmə yolu ilə metaforik məna genişlənməsi əldə edə bilər. Məsələn, Azərbaycan dilində **"ayaq"** sözü insan orqanını ifadə etdiyi əsas mənadan əlavə, metaforik yolla "stulun ayağı", "dağın ayağı" kimi tamamilə fərqli obyektlərin alt hissəsini bildirmək üçün işlənməyə başlamışdır. Bu, *mənanın genişlənməsi* hesabına yeni məna çalarlarının yaranmasına nümunədir.

Metonimiya yolu ilə isə söz mənalar arasında məkan, zaman yaxud səbəb-nəticə əlaqəsi əsasında dəyişir. Məsələn, türkcədə **"sobanı yandırmaq"** ifadəsində *soba* sözü əslində isitmə cihazını bildirdiyi halda, metonimik dəyişmə nəticəsində sobanın içində yandırılan yanacağı ifadə etmək üçün işlənməyə başlamışdır. Bu tip mexanizmlər nəticəsində bir çox sözün **çoxmənalılığı** (polisemiyası) artır; yəni, dilin lüğət vahidləri zamanla bir neçə fərqli, lakin əlaqəli mənalara sahib olur.

Beləliklə, semantik dəyişikliklərin nəzəri çərçivəsi onu göstərir ki, sözlərin mənası statik deyil, dilin tarixi inkişafı boyunca müxtəlif faktorların təsiri ilə daima yenilənir. Bu dəyişikliklərin müxtəlif növləri mövcuddur ki, ədəbiyyatda bunlar, adətən, aşağıdakı kateqoriyalarla izah olunur:

Məna genişlənməsi: Sözün əvvəl daha dar, spesifik anlayışı ifadə etdiyi halda, sonradan daha geniş konseptual sahəni əhatə etməsidir. Məsələn, **"yol"** sözü ilkin olaraq yalnız fiziki keçid yerini bildirirdisə, sonralar abstrakt şəkildə **"metod, üsul"** mənasında da işlənməyə başlamışdır. Toplumsal ehtiyaclar və yeni situasiyalar yarandıqda, dar anlayışlı söz daha ümumi anlayışı ifadə edəcək şəkildə genişlənə bilər [1].

Məna daralması: Sözün əvvəl geniş və ümumi bir anlayışı ifadə edərkən, zamanla daha məhdud sahəyə aid mənada işlənməsidir. Buna misal olaraq, **"oğlan"**

sözünü göstərə bilərik – qədim dövrlərdə oğlan sözü həm qız, həm oğul övladı üçün işlənə bildiyi halda, müasir dildə yalnız kişi cinsindən olan uşaq üçün xüsusi mənada istifadə olunur. Yaxud Azərbaycan dilində **"maşın"** (rus dilindən alınma *машина*) sözü əslində "mexanizm, cihaz" demək ikən, bu gün xalq dilində, əsasən, məhdud şəkildə **"avtomobil"** mənasında işlədilir (ümumi mənası isə ixtisaslaşmış termin olaraq qalır). "Dil vahidlərinin mənaları sistemlidir və bir dilin semantik dəyişkənliyi sonsuzdursa, semantik siniflər (kateqoriyalar) kompleksi ümumilikdə insan düşüncəsinin sistematik təbiəti və ümumiyyətlə, bilik quruluşu ilə əlaqəli müəyyən məhdudiyyətlərə malikdir. Buna görə də verilmiş mənanı (düşüncəni) ifadə etməyə qadir olan bir sıra dil vasitələri ilə yanaşı, semantik kateqoriyalarda ehtimal edilən dəyişiklikləri hətta proqnozlaşdırmaq mümkündür. Bu fikir semantik sahələr nəzəriyyəsinin əsasını təşkil edir" [4].

Məna yaxşılaşması (ameliorasiya): Sözün əvvəlki neytral və ya mənfi çalarlı mənasını itirib daha müsbət məzmun qazanmasıdır. Məsələn, klassik türkcədə "yavuz" sözü "pis, zalım" mənasında olub, lakin tarixi şəxsiyyət Yavuz Sultan Səlimin ləqəbi kimi şöhrət qazandıqdan sonra bu söz müasir türkcədə "igid, cəsur" kimi müsbət mənada anlaşılır. Bu cür semantik yüksəlmə nəticəsində sözün konnotativ yükü pozitivləşir.

Mənanın mənfi çalar qazanması (peyorasiya) əvvəlcə daha neytral və ya müsbət anlam daşıyan sözün zamanla mənfi çalar qazanmasıdır. Məsələn, **"canavar"** sözü türk dillərinin çoxunda ilk etimoloji mənasında sadəcə "canlı, heyvan" anlamını daşıyırdı, lakin sonralar insanlar üçün təhlükəli yırtıcı obrazına istinadla bu söz **"yırtıcı, qorxulu heyvan"** anlamında mənfi məna çaları qazanıb. Azərbaycan dilində də **"qarı"** sözü tarixən "qadın" mənasında işlənsə də, sonralar yalnız yaşlı qadınlara yönəlik və bəzən xırda mənfi çalarlarla (küpəgirən qarı) işlənir.

Evfemizm birbaşa ifadəsi uyğun görülməyən, kobud və ya tabu sayılan anlayışların daha yumşaq sözlərlə əvəz olunmasıdır. Bu proses nəticəsində bir sözün açıq mənası arxa plana keçir, onun yerinə incə ifadə tərzi gəlir. Məsələn, Azərbaycan dilində **"öldü"** demək əvəzinə **"vəfat etdi"**, **"cin"** əvəzinə **"üç hərflilər"** kimi ifadələr işlədilir ki, bunlar əslində həmin anlayışlara yeni, dolayı mənalar qazandırır. Evfemizmlər bəzən zamanla özləri də neytrallaşaraq adi sözə çevrilir və dilin semantik sisteminə daxil olur. "Tabuların yaratdığı ehtiyac nəticəsində yaranan evfemizmlər dildə bəzən daimi, bəzən də müvəqqəti olur. Ümumiyyətlə, dini düşüncəyə əsaslanan və ya dini inancın bir hissəsi olan insanlar və əşyalarla bağlı tabular daimidir. Bundan başqa, bu, insanın davranışından, xarakterindən və elementlərindən asılıdır. Leksikologiyanın bir tədqiqat sahəsi kimi isə onlar dildə müvəqqəti yer ala bilər. Ölüm, xəstəlik, ədəbsizlik, bədənin orqanları və ya onların fəaliyyəti, yəni cəmiyyətdə biabırçı sayılan şeylər; əvvəllər tabu edilmiş, lakin sonradan tabudan çıxarılan bitki, heyvan və əşyalarla bağlı evfemik söz və ifadələr də müvəqqəti evfemizmlərin əhatə dairəsindədir" (Yusifova, S. Türkologiyada evfemizmlər linqvistik tədqiqat obyekti kimi. [3]

Yuxarıdakı təsnifat semantik dəyişmələrin müxtəlif təzahür formalarını göstərir. Bu dəyişmələr universal dil hadisəsidir və türk dilləri daxil olmaqla bütün dillərdə müşahidə olunur. Xüsusilə maraqlıdır ki, eyni kökdən gələn sözlər müxtəlif dillərdə zamanla fərqli semantik inkişaf yolu keçə bilər. Məsələn, **"qadın"** sözü qədim türk dövründə yalnız "xanım, hökmdarın həyat yoldaşı (kraliça)" mənalarında işlənirdisə, müasir Azərbaycan və Türkiyə türkcəsində ümumiləşərək sadəcə "qadın" mənasında işlədilir. Bu, türk dillərində söz mənalarının cəmiyyət inkişaf etdikcə necə genişlənə biləcəyinə dair tarixi bir nümunədir.

Nəticə. Semantik dəyişikliklər dilin dinamik təbiətini və cəmiyyətin inkişafını əks etdirən mühüm bir prosesdir. Həm dildənkənar, həm də daxili dil səbəbləri, dilin leksikasının və mənalarının zamanla dəyişməsinə səbəb olur. Tarixi, sosial, mədəni və texnoloji dəyişikliklər sözlərin mənalarını genişləndirir, daraldır və ya yeniləyir. Müasir dövrün sosial şəbəkələr və texnoloji inkişaflarla əlaqəli semantik dəyişikliklər, dilin necə müasir ehtiyaclara cavab verdiyini göstərir. Eyni zamanda, xalq etimologiyası və məcazların (metafora, metonimiya, sinekdoxa) rolunun böyük olduğunu görürük. Bu proseslər, dilin yalnız kommunikasiya vasitəsi olmasından daha çox, cəmiyyətin sosial, iqtisadi və mədəni inkişafı ilə necə əlaqəli olduğunu açıq şəkildə göstərir. Semantik dəyişikliklərin təhlili, dilin canlı və dəyişən təbiətini anlamağa, eyni zamanda dilin strukturundakı inkişafları izləməyə kömək edir. Bu mövzunun tədqiqi, dilin təbii inkişafını daha dərindən başa düşməyə və dilin zənginləşməsi və dəyişməsinin əsas mexanizmlərini başa düşməyə imkan yaradır. Nəticə olaraq, semantik dəyişikliklər həm dilin struktural, həm də cəmiyyətin düşüncə tərzinin formalaşmasında mühüm rol oynayır.

İstifadə edilmiş ədəbiyyat siyahısı

1. Anlam genişlemesi nedir? Anlam genişlemesi ile ilgili örnekleri ile konu anlatımı: [Elektron resurs]: URL: https://www.turkedebiyati.org/anlam-genislemesi/#google_vignette
2. Qurbanov, A. Müasir Azərbaycan dilinin semasiologiyası. Bakı, 1964, 54 s.
3. Həsənova, A. Semantik üsulla söz yaradıcılığı dildə yeni sözlərin yaranma yollarından biri kimi // İpək yolu. № 3, 2024, s. 146-154.
4. Yusifova, S. Türkologiyada evfemizmlər linqvistik tədqiqat obyekti kimi: [Elektron resurs]:URL: Uluslararası Türk Dünyası Araştırmaları Sempozyumu. https://www.utudas.org/Makaleler/396250589_XI.%201.%201.pdf
5. Новикова, У.В. Теория поля в лингвистике: [Электронные ресурсы] / – Научные труды КубГТУ, Российская Федерация, г. Краснодар, 2015, № 10. URL: 0552.pdf (kubstu.ru)

Azərbaycan Milli Elmlər Akademiyasi M. Füzuli adına Əlyazmalar Institutu, *ISSN 2224-9257*
Filologiya məsələləri № 3, 2025
Səh. ——————

СУЛТАН ХАТИРА
x.sultan@edu.atu.az

МЕХАНИЗМЫ И ПРИЧИНЫ СЕМАНТИЧЕСКИХ ИЗМЕНЕНИЙ ПРОИСХОДЯЩИХ В ЯЗЫКЕ

Аннотация: В данной статье исследуется, как семантические изменения связаны с естественным развитием языка и причины этих изменений. Семантические изменения представляют собой изменения в значении слов с течением времени, и этот процесс тесно связан с развитием языка и общества. В статье рассматривается взаимное влияние этих изменений на основе азербайджанского и турецкого языков, а также подчеркивается влияние технологического развития, глобализации и социальных медиа на язык. Социальные, культурные и технологические изменения способствуют расширению значений слов и возникновению новых понятий и выражений. Семантическое развитие языка также связано с такими явлениями, как расширение и сужение значений, а также появление эвфемизмов. Эти изменения показывают динамичность языка и демонстрируют, как носители языка адаптируются к потребностям общества.

Ключевые слова: семантические изменения, развитие языка, народная этимология, расширение значений, эвфемизм, носители языка.

KHATIRA SULTAN
x.sultan@edu.atu.az

Mechanisms and causes of semantic changes occurring in language

Abstract: This article explores how semantic changes are related to the natural development of language and the reasons behind these changes. Semantic changes are shifts in the meanings of words over time, and this process is closely linked to the development of language and society. The article examines the mutual influence of these changes based on Azerbaijani and Turkish languages, highlighting the impact of technological advancement, globalization, and social media on language. Social, cultural, and technological changes have led to the expansion of word meanings, resulting in the emergence of new concepts and expressions. The semantic development of language is also related to phenomena such as the broadening and narrowing of meanings, as well as the emergence of euphemisms. These changes demonstrate the dynamism of language and show how language carriers adapt to the needs of society.

Keywords: semantic changes, language development, folk etymology, meaning expansion, euphemism, language carriers.

Rəyçi: Zülfiyyə İsmayıl
Filalogiya üzrə elmlər doktoru

Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu, *ISSN 2224-9257*
Filologiya məsələləri № 3, 2025
Səh. ——————

İSAYEVA SƏFURƏ İLQAR QIZI
Türk Dünyası Atatürk Liseyi
s.isayeva1@gmail.com

FONOLOJİ SƏVİYYƏDƏ QƏNAƏT-REDUKSİYA

Açar sözlər: qənaət prinsipi, fonoloji səviyyə, nitq fəaliyyəti, reduksiya, tələffüz
Key words: economy principle, phonological level, speech activity, reduction, pronunciation
Ключевые слова: принцип экономии, фонологический уровень, речевая деятельность, редукция, произношение.

İngilis dili daim dəyişmə prosesindədir. Nitq fəaliyyəti öz təbiətinə görə olduqca yüksək səviyyəli dəyişkənliyi nəzərdə tutur. Dil, linqvistik cəhətdən uyğun olan ziddiyyətlərin ardıcıl sistemi kimi nitqin yaranmasında dil vahidlərinin istifadəsində müxtəlif variasiyalara imkan verir. Tələffüz nadir hallarda sərt şəkildə sabitlənir, həmişə və hər yerdə dəyişir. Ancaq tələffüzün çox tez dəyişməsinə imkan verməyən son dərəcə əhəmiyyətli bir amil var. Bu, başa düşülən ilkin ehtiyacdır, çünki nitqin əsas funksiyası fərdin özünüifadəsi deyil, qarşılıqlı əlaqədir.

A.S. Gimson, tələffüz standartının ümumi qəbul edilmiş neytral forması ilə yanaşı, hazırda gənclərin əksəriyyəti tərəfindən istifadə edilən və qarşıdan gələn əsrdə ümumi qəbul edilmiş tələffüz standartının inkişafını qeyd edən qabaqcıl çeşidin mövcudluğunu göstərir. Bu iki formadan əlavə, yaşlı insanlar tərəfindən istifadə edilən arxaik və ya mühafizəkar tələffüz növü də mövcuddur (7, s.146).

D. Cons beş tələffüz üslubunu fərqləndirir: 1) sürətli təsadüfi üslub *(the rapid familiar style*); 2) daha yavaş danışıq üslubu *(the slower colloquial style);* 3) ədalətli auditoriyaya müraciət zamanı istifadə olunan təbii üslub *(the natural style used in addressing a fair-sized audience)*; 4) süni teatr üslubu (*the acquired style of the stage)*; 5) oxumada istifadə olunan qazanılmış üslub*(the acquired style used in singing)* [8, s.13].

L.V. Şerba, fərqli bir prinsip kimi, sözlərin tələffüz olunduğuna uyğun olaraq hərtərəflilik səviyyəsini təqdim edir. O, tam və danışıq üslubu arasında fərq təqdim edir. . L.V. Şerbaya görə, hər bir söz, nə qədər sürətli olursa olsun, nə qədər fonetik kəsilmə ilə tələffüz olunursa olunsun, bu anda eşidilən kəsilmiş kompleks kimi deyil, bu sözün təcrid olunmuş tələffüzü zamanı və ya yavaş-yavaş ortaya çıxan tam, aydın bir səs kimi qəbul edilir. [4, s.143].

Ənənəvi olaraq, ingilis sait sistemi uzun və qısa saitləri fərqləndirir. Həm uzun, həm də qısa saitlər vurğulu və vurğusuz ola bilər. Vurğulu hecaların sait səsləri səsin maksimum aydınlığı ilə seçilir. Vurğulu saitlər, daha böyük intensivlik və aydınlıqla bərabər, daha böyük uzunluğa və ton dəyişikliyinə malikdir. Bunun səbəbi vurğulanan saitin tələffüzü zamanı rezonator mexanizmini təşkil edən nitq orqanlarının əzələlərinin daha gərgin olması və rezonatorun formasının daha uzun

müddət dəyişməz qalması ilə bağlıdır. Vurğusuz hecalardakı saitlər daha qısa, zəif, daha az fərqlənir. Onların kəmiyyət və keyfiyyət fərqləri artikulyasiyanın az intensivliyi, ekshalasiya qüvvəsinin az olması və saitlərin daha az uzunluğu nəticəsində silinir və ya zərərsizləşdirilir. Saitlərin bütün zəifləmə növlərinə reduksiya deyilir. Müddətdə azalma kəmiyyət azalma termini ilə, tembr aydınlığının itirilməsi isə keyfiyyətcə azalma adlanır.

Vurğulu və vurğusuz ingilis saitlərinin təbiəti (vurğudan başqa) bir sıra digər səbəblərdən də asılıdır: 1) fonetik kontekstdən; 2) sözdəki sait mövqeyindən; 3) hecanın xarakterinə görə; 4) hecanın və sözün sintaqmadakı mövqeyindən; 5) intonasiyadan; 6) nitqin tempinə görə.

Vurğulu saitlər səssiz samitlərdən əvvəl qısalmağa meyl göstərir.

Məsələn:

Seed-toxum [si:d] seat-oturacaq [si:t]
Played-oynadı [pleid]plate- boşqab [pleit]
Bid-təklif [bıd] bit-az [bit]

Həmçinin, uzun saitlər və diftonqlar, nazal və yan sonantlardan əvvəl səsli deyil, səssiz samitlər gəlirsə, daha qısa olur.

Məsələn:

pained-ağrılı [peind] paint-boya [peint]
Bald-keçəl [bɔ:ld] Balkan-balkan [ˊbɔ:lkɔ̂n]

Həmçinin, saitlərdən dərhal sonra başqa sait gəlirsə, daha qısa olur. Məsələn: *seeing[ˊsi:ıŋ] -görmək, sea anchor-dəniz lövbəri [ˊsi: æŋkɔ̂].*

AE-də(amerikan ingiliscəsi) [a:] ingilis standartlarına uyğun tələffüz edilən bir sıra sözlərdə [æ] Amerika standartlarına uyğun səslənir, məsələn: ask-soruşmaq [æsk], can't-bacarmamaq [kænt], dance-rəqs [dæns] və s. ., Britaniya standartına uyğun isə [æ]-dən daha uzun, lakin [a:]-dan daha qısa ilə xarakterizə olunur. Deməli, bu tələffüz daha qənaətcil və bir növ kompromis sayıla bilər.

Saitlər sahəsində uzun saitlərin bir sıra mövqelərdə azaldılması tendensiyası var. Deməli, frost [frɔst], off [ɔf], tez-tez [ˊɔfn] kimi sözlərdə sait uzunluğunda azalma müşahidə olunurdu. Həmçinin bəzi digər saitləri və hər şeydən əvvəl, *please-xahiş edirəm [pli•z], see-bax [si•], week-həftə [wi•k]* və s kimi çox işlənən sözlərdə [i:] sait fonemini azaltma tendensiyası var. . Onu da qeyd edirik ki, uzun sait və diftonqlar sözün əvvəlində və ortasında daha qısa, sonunda isə daha uzun olur. Misal üçün:

See-bax [si:] seat-oturacaq [si:t]
may [meı] mate [meıt] maker [ˊmeıkɔ̂]

Bu qismən həm tək sözün, həm də bütöv bir ritmik qrupun tərtibatı ilə bağlıdır. İngilis dilində ritm vurğulanmış hecaya əsaslanır. Deyimlər hər birində bir və yalnız bir vurğulu hecadan ibarət heca qruplarına bölünür. Vurğu altında olan və ritmik qrupun mərkəzini təşkil edən sait fonemləri bu qrupdakı vurğusuz (xüsusilə sonrakı) hecaların sayına uyğun yığılmağa meyllidirlər. Deməli, might [maıt]

sözündəki [aı] diftongu mighty-[ˊmaıtı] güclü, mightily[ˊmaıtılı] güclü şəkildə, [hıˊmaıtnt hðv d n ıt] he mightn't have done it- kimi ritmik qruplarda azalmağa meyllidir. */The man laughed//-(Kişi güldü) və /The manager laughed//-(Müdir güldü*) cümlələrini müqayisə etsək, görərik ki, hər iki halda [mæn] və [la:ft] hecaları vurğulanır, lakin [mæn] insan sözündəki /æ/ səsinin uzunluğu menecerdə olduğundan daha qısadır, çünki vurğular arasında hecaların eyni vaxt intervalında sıxılma meyli kifayət qədər sabitdir. Beləliklə, biz idarəçi sözünü insan sözündən az müddətdə tələffüz edirik və buna görə də [mæn] hecası iki nümunədə uzunluq baxımından çox fərqlidir.

Bəzi hallarda, məntiqi və ya təkidli vurğu və deməli, sait uzadılması ifadəyə birmənalılıq verən, başa düşülən müxtəlif qeyri-dəqiqlikləri və qeyri-müəyyənliyi istisna edən əlamətlərdir. Bunlar, məsələn, /on/, /by/, /in/ və s kimi ön sözlərin olduğu hallardır və feillə az-çox yaxından bağlıdır. Məsələn: /*He was up on the hill//cümləsi* -(O, təpədə idi və ya *təpənin başında idi)* mənasını verə bilər. Birinci mənada, həm *was*, həm də *up* vurğulanır və *up-yuxarı* ilə əlaqəni göstərmək üçün daha qısadır, *up-yuxarı* isə *on* sözönündən ayrıldıqda daha uzundur. İkinci dəyərdə *up-yuxarı* daha qısa və vurğusızdır.

Danışıq dilində vurğulanmış və vurğulanmamış sözlər arasında aydın şəkildə fərqlənən bir təzad var. Məlumatların çoxunu daşıyan sözlər adətən vurğulanır və əhəmiyyətli sözlər adlanır. Cümlədə qalan sözlər əsasən köməkçi sözlərdir, əhəmiyyətli sözləri əlaqələndirir və bizə ifadələr tərtib etməyə kömək edir. Onların çoxu ən çox nitqdə olur. Xidməti sözlər cümlədə adətən vurğusuz olduğundan şifahi nitqdə onların zəif, qısaldılmış formaları işlənir. Bu şəkildə zəifləmiş formalar dildə azalmamış, tam formalarla eyni vaxtda mövcuddur. Güclü formalardan istifadənin əsas halları sözün təcrid edilməsi və ya hər hansı bir ifadənin vurğu mövqeyində tələffüzüdür. Sözlərin zəif formaları yalnız vurğusuz mövqelərdə mümkündür və nitq tempinin sürətlənməsi ilə onların səsinin zəifləmə və sadələşmə dərəcəsi artır. Ən zəifləmiş tələffüz formaları adətən ritmin təsiri altında yaranır. Belə şəraitdə səlis danışıq dilində leksik məna daşıyan sözləri ixtisar etmək də mümkündür. Məsələn: *do-etmək [du:] > [du•, du, dð, d], have -var[hæv] > [hðv, ðv, v], to-istiqamət bildirən sözönü [tu:] > [tu•, tð, t], saint-müqəddəs [seınt] > [sðnt, sðn, sn] (St. Paul's-müqəddəs Pol [sn pɔ:lz]), madam-xanım [mædðm] >[mædm, mæm, mðm, mm] /It's here, ma'am// –(Buradır xanım)[ıtsˊhıð mðm]) [/]* və s.

Səsin əmələ gəlməsində nə qədər az enerji iştirak edirsə, artikulyasiya orqanlarının mövqeyini bir o qədər az dəyişirik. Və beləliklə, bütün vurğulanmamış saitlər dil dincəldikdə əmələ gələn neytral sait [ð] istiqamətində formalaşmağa meyllidir.

Qəbul edilmiş tələffüzdə vurğulanmamış [ð] və [ı] istifadə fərqi nadir hallarda fərqli təsir göstərərək sözlərin mənasını anlamağa kömək edir. Məsələn: Lenin [ˊlenın] - Lennon [ˊlenðn]. Vurğusuz mövqedə [ð] və [ı] arasında fonoloji ziddiyyətin olmasına baxmayaraq, bir çox söz iki tələffüz variantında - [ð] və [ı] ilə

və [ı] əvəzində işlənir, neytral sait ilə sözlərin böyük əksəriyyətində həyata keçirilir və ingilis dilində ən bariz müasir tələffüz tendensiyalarından biri hesab edilə bilər.

İngilis dili tələffüzünün vurğusuz vokalizminin fonetik təhlili də morfoloji aspektə malikdir. Eyni kökdən əmələ gələn müxtəlif törəmələrdə və ya eyni sözün müxtəlif qrammatik formalarında, eyni morfemin müxtəlif allomorflarında vurğulu və vurğusuz saitlər arasında müəyyən uyğunluq və ya fərqlər vardır. Belə dəyişikliklərə sait qradasiyası deyilir. Vurğulana bilən hər hansı bir ingilis sait fonemi vurğusuz vəziyyətdə neytral saitlə əvəz edilə bilər: /the/ [ði:] – /the sun/-günəş [ðə ˊs n] /

a combine/-kombayn [ˊkombaın] – /to combine/ -(birləşdirmək) [kəmˊbaın]
/man/ [mæn] – /postman/- (poçtalyon) [ˊpəustmən]
/pence/ –(pul vahidi) [pens] – /sixpence/ [ˊsıkspəns]
/particle/-(ədat) [ˊpa:tıkl] – /particular/-(xüsusilə) [pəˊtıkjulə]
/toward/-doğru, [təˊwɔ:d] – /forward/ –(irəli) [ˊfɔ:wəd
/fully/-(tam) [ˊfulı] – /beautifully)-(gözəl) [ˊbju:tıfəlı]
herd [hɜ:d] – /shepherd/-(çoban) [ˊʃepəd]
/not from, but to/ […ˊtu:] – /to the door/ –(qapıya tərəf) [tə…] up [p] –/ upon/ – (üzərinə)[əˊpɔn
/face/-(üz) [feıs] – /preface/-(önsöz) [ˊprefəs]
shire [ˊʃaıə] – /Yorkshire/ [ˊjɔ:kʃə]
/mouth/-(ağız) [mauθ] – /Plymouth/ [ˊplımə θ] /most/ [məust] –/topmost/-(ən üst) [ˊtɔpməst].

Bəzi hallarda sözlərdə vurğu quruluşunun variantları olur ki, bu da semantik fərqə təsir etmir, lakin saitlərin gradasiyası nəzərə çarpır. Əksər hallarda variantlar arasındakı fərq yalnız onların istifadə tezliyindədir. Buna misal olaraq aşağıdakı sözləri göstərmək olar: /television/-(televiziya) [ˊtelivıɜn], [ˌteliˊvıɜn]; /hospitable/-(qonaqpərvər) [ˊhɔspıtəbl], [həˊspıtəbl]; /week-end/-(həftə sonu) [ˌwi:kˊend], [ˊwi:kend].

Digər hallarda isə variantlar arasındakı fərqlər sözün işlədildiyi yerə əsaslanır.

Beləliklə, BE(Britaniya ingiliscəsi)-dən fərqli olaraq AE(Amerikan ingiliscəsi)-də -/ary/, -/ery/, -/ory/, -/mony/, -/ative/ şəkilçilərində iki vurğu var və şəkilçinin saiti azalmır. Misal üçün: İngilis tələffüzünün Amerikan və İngilis versiyası:

/January/-(Yanvar) [ˊdɜænju ɛərı] [ˊdɜænjuərı]
/millinery/ - (dəyirmançılıq) [ˊmılı nɛərı] [ˊmılnərı]
/territory/- (ərazi) [ˊtɛər ıtoərı] [ˊterıtərı]
/operative/- (operativ) [ˊɔpə reıtıv] [ˊɔpərətıv]
/ceremony/- (mərasim) [ˊserə mənunı] [ˊserəmənı]

Bu nümunələrdən gördüyümüz kimi, BE-ni bu baxımdan daha qənaətli hesab etmək olar, çünki ingilis dilinin bu variantında danışanlar ikinci dərəcəli səsdən

istifadə edərək, azaldılmamış saitli sözdə daha bir hecanı ayırmaq üçün ikinci dərəcəli vurğunun köməyi ilə əlavə səy sərf etməli deyillər.

Bütün sait fonemlərindən diftonqlar ən sabit tembrə malikdir. Onların azaldılması adətən nüvənin müddətinin azalması ilə məhdudlaşır, yəni kəmiyyətcə azalma baş verir. Buna baxmayaraq, bəzi sözlərin səs qabığında diftonqların keyfiyyətcə zəifləməsini müşahidə etmək olar. Keyfiyyət reduksiyası adətən tembrə [ı], sürətli nitqdə isə neytrallaşmaya yönəldilir. Məsələn: /direction/-(istiqamət) [daı′rekʃn] > [dı′rekʃn] > [d∂′rekʃn]; /deligate/-(incə) [′deligeıt] > [′delıgıt] > [′delıg∂t]. [eı] diftongu, məsələn, /again/-(yenidən) [∂′geın] > /then/-[∂′gen](sonra) sözündə olduğu kimi, monoftong [e] halına salına bilər.

Həmçinin qeyd etməliyik ki, */home/-(ev), /go/-(get), /most/-(ən çox), /soap/-(sabun)* və s. sözlərdə [ou] diftongunun [∂u] olaraq dəyişməsi olmuşdur. Bu dəyişiklik o qədər geniş vüsət alıb ki, onun gələcəyin yeni tələffüzü olması şübhəsizdir. Üstəlik, səlis nitqdə neytrallaşmaya qədər daha çox daralma olur. Aşağıdakı misallarda [∂u] diftongunun azalmasını izləyə bilərik: /Oh/! [∂u] > /so-so/-(belə) [′s∂u s∂u] > /so late/-(belə gec) [s∂u′leıt] >/not so late/- (o qədər də gec deyil) [′nɔt s∂′leıt]. Vurğulamaq lazımdır ki, Amerika tələffüzündə [eı] və [∂u] diftongları adətən bir qədər diftonqoid olur; demək olar ki, monoftonqdur. Bu baxımdan, AE-də tam monoftonqizasiyaya daha çox meyllidirlər. Məsələn: /Negro/-(zənci) [′nıgr∂], /fellow/ -(yoldaş)[′fel∂], /lay/ -(uzandı)[le], /gave/-(verdi) [gev], /mode/-(rejim) [mɔd], /wrote/-(yazdı) [rɔt]. Həmçinin ingilis [u∂], [aı], [ı∂] diftonqlarını əvəz edən Amerika monoftonqları tələffüzə xüsusi effekt verir. Məsələn: /curing/-(müalicə) [′kjurıŋ], /clearing/-(təmizləmə) [′klırıŋ], /either/-(ya) [i:ð∂r], /neither/-(nə də) [ni:ð∂r].

S.Potter və C.Braun da öz əsərlərində gündəlik ünsiyyətdə bir çox diftonqların monoftonlaşmaya meylli olduğuna diqqət çəkiblər [9, s.16-19]; [5, s. 76-77]. Məsələn: diftonq [ε∂]: */where/-(harada) [we:], /fair/-(ədalətli) [fe:], /over there/-(orada) [∂uv∂′∂e:];* дифтонг [au]: */now/ /that/-(indi ki) [′na ð∂t] [′saθf′ıŋgl∂nd] /South of England/- (İngiltərənin cənubunda);* дифтонг [o∂]: */pore/ –(məsamə)[pɔ:],/ sore-yara/ [sɔ:], /tore/- (cırmaq) [tɔ:].*

İngilis dilində beş triftonq[aı∂, ∂u∂, eı∂, au∂, oı∂] nitqdə olduqca nadirdir və əhəmiyyətli qeyri-sabitliyə malikdir, yəni diftonglara və ya hətta monoftonglara qədər azaltma qabiliyyəti vardır. Məsələn*: /our/-(bizim) [au∂]* > [a∂]: /*Brown's our neighbour/ -(Braun bizim qonşumuzdur) [′braunz a∂ neıb∂]; qoyan [′leı∂] > [′lε∂]: /This hen is a good layer/ -(Bu toyuq yaxşı yumurta qoyandır) [ðıs′hen ız ∂′gud le∂].*

Beləliklə, danışıq üslubundan istifadə edərkən, istənilən vaxt, sözü tam üslubda təkrarlayaraq aydın tələffüz edə bilərik . Lakin sözün ideal fonetik tərkibini təmsil edən dolğun üsluba xalis formada real şifahi nitqdə rast gəlinmir. İstənilən şifahi nitq tələffüzün tam və natamam növlərinin bölmələrinin nisbəti baxımından bir

sıra növlərə malikdir: mətndə nə qədər çox kortəbiilik, qeyri-rəsmilik, asanlıq olarsa, o qədər natamam tipli bölmələri ehtiva edir.

ƏDƏBİYYAT SİYAHISI

1. Мартине А. Принцип экономии в фонетических изменениях: проблемы диахронической фонологии. М.: Изд-во иностр. лит-ры, 1960. 301с.
2. Торсуев Г.П. Проблемы теоретической фонетики и фонологии. -Л.: Наука, 1969. – 100с.
3. Филатов И.С. Языковая избыточность в научном тексте. Автореф. дисс. канд. филол. наук. Пермь, 2011. – 28 с.
4.Щерба Л.В. О разных стилях произношения и об идеальном фонетическом составе слова//Языковая система и речевая деятельность. Л., 1974.С.141-146.
3. Brown G. Listening to Spoken English.M.: Prosvescheniye, 1984 .131p.
4. Dickushina O.J. English Phonetics. M. L.: Prosvescheniye, 1965. 202p.
5. Gimson A. An Introduction to the Pronunciation of English. 2nd ed. Caxton Hill, 1970. 320p.
6. Jones D. An Outline of English Phonetics. Cambridge: Univ. Press, 1976.378p.
9.Potter S. Changing English. 2nd ed. – London: Deutsch, 1975. – 206p
10.Светличная В.Ю. Основные подходы к классификации плеоназма. ФИЛОЛОГИЧЕСКИЕ И СОЦИОКУЛЬТУРНЫЕ ВОПРОСЫ НАУКИ И ОБРАЗОВАНИЯ сборник материалов VI Международной научно-практической очно-заочной конференции. Кубанский государственный технологический университет. Краснодар, 2021, с 379-387.
11. Вих А.В. Языковая экономика во франкоязычном медиадискурсе: морфологический аспект. Вестник МГЛУ. Гуманитарные науки, 2021. Вып. 13(855), стр. 75-86. https://doi.org/10.52070/2542_2197_2021_13_855_75

XÜLASƏ
FONOLOJİ SƏVİYYƏDƏ QƏNAƏT-REDUKSİYA

Bu məqalə fonoloji səviyyədə qənaətdə reduksiyanın rolundan bəhs edir. Məqalədə deyilir ki, dil, linqvistik cəhətdən uyğun olan ziddiyyətlərin ardıcıl sistemi kimi nitqin yaranmasında dil vahidlərinin istifadəsində müxtəlif variasiyalara imkan verir. Tələffüz nadir hallarda sərt şəkildə sabitlənir, həmişə və hər yerdə dəyişir. ingilis sait sistemi uzun və qısa saitləri fərqləndirir. Həm uzun, həm də qısa saitlər vurğulu və vurğusuz ola bilər. Vurğulu hecaların sait səsləri səsin maksimum aydınlığı ilə seçilir. Vurğulu saitlər, daha böyük intensivlik və aydınlıqla bərabər, daha böyük uzunluğa və ton dəyişikliyinə malikdir. Bunun səbəbi vurğulanan saitin tələffüzü zamanı rezonator mexanizmini təşkil edən nitq orqanlarının əzələlərinin daha gərgin olması və rezonatorun formasının daha uzun müddət dəyişməz qalması

ilə bağlıdır. Vurğusuz hecalardakı saitlər daha qısa, zəif, daha az fərqlənir. Onların kəmiyyət və keyfiyyət fərqləri artikulyasiyanın az intensivliyi, ekshalasiya qüvvəsinin az olması və saitlərin daha az uzunluğu nəticəsində silinir və ya zərərsizləşdirilir. Saitlərin bütün zəifləmə növlərinə reduksiya deyilir. Müddətdə azalma kəmiyyət azalma termini ilə, tembr aydınlığının itirilməsi isə keyfiyyətcə azalma adlanır, və bu da dildə qənaətə xidmət edir.

İSAYEVA SAFURA

SUMMARY
ECONOMY AT THE PHONOLOGİCAL LEVEL- REDUCTİON

This article discusses the role of reduction in economy at the phonological level. The article states that language allows for variations in the use of language units in the production of speech as a coherent system of linguistically appropriate contrasts. Pronunciation is rarely rigidly fixed, it changes always and everywhere. The English vowel system distinguishes between long and short vowels. Both long and short vowels can be stressed or unstressed. Vowel sounds of stressed syllables are selected with maximum clarity of voice. Stressed vowels have greater length and pitch variation, along with greater intensity and clarity. This is due to the fact that the muscles of the speech organs, which make up the resonator mechanism, are more tense during the pronunciation of the stressed vowel, and the shape of the resonator remains unchanged for a longer time. Vowels in unstressed syllables are shorter, weaker, less distinct. Their quantitative and qualitative differences are erased or neutralized by less intensity of articulation, less force of exhalation and shorter length of vowels. All types of weakening of vowels are called reduction. A reduction in duration is termed a quantitative reduction, and a loss of timbre clarity is called a qualitative reduction, which also serves the economy in the language.

РЕЗЮМЕ
ЭКОНОМИЯ НА ФОНОЛОГИЧЕСКОМ УРОВНЕ- РЕДУКЦИЯ

В данной статье рассматривается роль редукции экономии на фонологическом уровне. В статье утверждается, что язык допускает вариации использования языковых единиц при производстве речи как целостной системы лингвистически соответствующих контрастов. Произношение редко бывает жестко закреплено, оно меняется всегда и везде. В английской системе гласных различают долгие и краткие гласные. И долгие, и краткие гласные могут быть ударными и безударными. Гласные звуки ударных слогов подбираются с максимальной четкостью голоса. Ударные гласные имеют большую длину и высоту звука, а также большую интенсивность и ясность. Это связано с тем, что мышцы органов речи, входящие в состав резонаторного

механизма, во время произнесения ударной гласной сильнее напрягаются, и форма резонатора длительное время остается неизменной. Гласные в безударных слогах короче, слабее, менее отчетливы. Их количественные и качественные различия стираются или нивелируются меньшей интенсивностью артикуляции, меньшей силой выдоха и меньшей длиной гласных. Все виды ослабления гласных называются редукцией. Уменьшение продолжительности называют количественной редукцией, а потерю ясности тембра — качественной редукцией, которая также служит экономию языка.

Rəyçi: fil.d., dos., İzaura Şirinova

Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu, *ISSN 2224-9257*
Filologiya məsələləri № 3, 2025
Səh. ————————

OQTAY CƏLİLBƏYLİ
MƏRYƏM XOCANƏZƏRZADƏ
Baki Dövlət Universiteti
Ünvan: Bakı şəhəri, AZ-1148, Z. Xəlilov küç., 33
E-mail: jalilbeyliogtayeg@gmail.com
E-mail: xocanazer@gmail.com

AZƏRBAYCAN VƏ YAPON DİLLƏRİNDƏ TABESİZ MÜRƏKKƏB CÜMLƏLƏRİN MÜQAYİSƏLİ TƏDQİQİ

Xülasə

Tabesiz mürəkkəb cümlələr tərkib hissələri arasında heç bir aslılığın olmadığı mürəkkəb cümlələrdir. Bu məqalədə Azərbaycan və yapon dillərində tabesiz mürəkkəb cümlələr və tərkib hissələrini bağlayan vasitələr araşdırılır, onların oxşar cəhətləri müəyyən edilir. Bununla yanaşı hər iki dildə tabesiz mürəkkəb cümlələr tərkib hissələrinin arasındakı məna əlaqələrinə görə qruplaşdırılmışdır. Qarşılıqlaşdırma əlaqəli tabesiz mürəkkəb cümlələrin tərkib hissələrini bağlayan vasitələrin cədvəl şəklində müqayisəsi də tərtib edilmiş və üçüncü bir dil olaraq ingilis dili ilə müqayisə edilmişdir. Məqalənin əsas məqsədi Azərbaycan və yapon dillərinin sintaksisini araşdıraraq oxşarlıqların müəyyən edilməsidir.

Açar sözlər: *mürəkkəb cümlə, tabesiz mürəkkəb cümlə, fukubun, cūbun*

ОКТАЙ ДЖАЛИЛБЕЙЛИ
МАРЬЯМ ХОДЖАНАЗАРЗАДЕ
БАКИНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ

СРАВНИТЕЛЬНОЕ ИССЛЕДОВАНИЕ СЛОЖНОСОЧИНЕННЫХ ПРЕДЛОЖЕНИЙ В АЗЕРБАЙДЖАНСКОМ И ЯПОНСКОМ ЯЗЫКАХ

Резюме

Сложносочинённые предложения- это сложные предложения, в которых между частями отсутствует зависимость. В данной статье рассматриваются сложносочинённые сложные предложения в азербайджанском и японском языках, а также средства, связывающие их части, и выявляются их сходства. Кроме того, сложносочинённые предложения в обоих языках классифицированы в зависимости от смысловых связей между их частями. Также проведено сравнение средств, связывающих части сложносочинённых предложений с отношением противопоставления, в табличной форме, с добавлением третьего языка- английского. Основная цель статьи- исследовать синтаксис азербайджанского и японского языков и выявить их сходства.

Ключевые слова: *сложные предложения, сложносочинённые предложения, fukubun, jūbun*

OGTAY JALILBAYLI
MARYAM KHOJANAZARZADE

A COMPARATIVE STUDY OF COMPOUND SENTENCES IN AZERBAIJANI AND JAPANESE LANGUAGES

Summary

Compound sentences are complex sentences in which there is no dependency between the components. This article examines compound sentences in Azerbaijani and Japanese, as well as the tools that connect their components, identifying their similarities. Additionally, compound sentences in both languages are classified based on the semantic relationships between their components. A comparative table has also been created to analyze the tools that connect components of compound sentences with contrasting relations, including a comparison with English as a third language. The main goal of the article is to study the syntax of Azerbaijani and Japanese languages and identify their similarities.

Key words: *complex sentences, compound sentences, fukubun, jūbun*

Mürəkkəb cümlə iki və daha artıq sadə cümlənin bağlanmasından əmələ gələn sintaktik konstruksiyadır. Belə cümlələr fikrin ifadə olunmasında sadə cümlələrdən daha təsirli hesab olunurlar. Sadə cümlədən fərqli olaraq, mürəkkəb cümlələr iki və daha artıq qrammatik əsasa malik olurlar. Bu cür cümlələr vahid bitmə intonasiyasına malik olurlar, tərkib hissəsini təşkil edən sadə cümlələr isə bitmə intonasiyalarını itirirlər. Məsələn:

"Zəng çalındı, uşaqlar sinifə doluşdular, müəllimlər nəzakətlə vidalaşıb ayrıldılar." (M.İbrahimov)

Buna baxmayaraq mürəkkəb cümlənin tərkib hissələrinin tərkibindəki komponentlərin arasındakı əlaqə pozulmadığına görə onun tərkib hissələrinə sadə cümlə demək mümkündür.

Mürəkkəb cümlənin tərkib hissələri arasında zaman, qarşılaşdırma, səbəb, nəticə və s. kimi məna əlaqələri mövcuddur. Belə cümlənin tərkib hissələri müxtəlif vasitələrin köməyilə bir-birinə bağlanır. Tərkib hissələri arasındakı qarşılıqlı əlaqənin fərqliliyinə görə mürəkkəb cümlənin iki növü mövcuddur: tabeli və tabesiz mürəkkəb cümlələr.

Tabesiz mürəkkəb cümlələrin tərkib hissələri bərabərhüquqlu olur, yəni bu hissələrin arasında heç bir asılılıq yoxdur. Buna baxmayaraq cümlələr arasında müəyyən məna əlaqəsi mövcuddur.

Tabeli mürəkkəb cümlələr isə tərkib hissələri arasında müəyyən asılılıq olan mürəkkəb cümlələrdir. Belə cümlələr baş və budaq cümlədən ibarət olur.

Azərbaycan dilində tabesiz mürəkkəb cümlənin tərkib hissələri intonasiya və ya intonasiya və tabesizlik bağlayıcıları ilə bir-birinə bağlanır. Tabesizlik bağlayıcıları tabesiz mürəkkəb cümlənin tərkib hissələrin və həmcins sözlərin bağlanması zamanı istifadə olunan bağlayıcılardır. Tabesizlik bağlayıcıları məna qruplarına bölünmüşdür: birləşdirmə, qarşılaşdırma, bölüşdürmə, iştirak, inkarlıq, aydınlaşdırma.

1) Birləşdirmə bağlayıcıları: və, ilə.
2) Qarşılaşdırma bağlayıcıları: amma, ancaq, lakin, isə, fəqət, halbuki və s.
3) Bölüşdürmə bağlayıcıları: ya, ya da, gah, gah da, yaxud, istər, istərsə, və ya.
4) İştirak bağlayıcıları: həm, həm də, habelə, həmçinin, hətta və s.
5) İnkarlıq bağlayıcıları: nə, nə də, nə də ki və s.
6) Aydınlaşdırma bağlayıcıları: yəni, yəni ki, məsələn.

Tabesiz mürəkkəb cümlələrin tərkib hissələri arasında 6 məna əlaqəsi mövcuddur: zaman əlaqəsi, ardıcıllıq əlaqəsi, səbəb-nəticə əlaqəsi, aydınlaşdırma əlaqəsi, qarşılaşdırma əlaqəsi, bölüşdürmə əlaqəsi. Tabesiz mürəkkəb cümlələr arasındakı 6 əlaqə belə adlandırılıb: sadalama əlaqəsi, səbəb-nəticə əlaqəsi, aydınlaşdırma əlaqəsi, qarşılaşdırma əlaqəsi, qoşulma əlaqəsi, bölüşdürmə əlaqəsi.

Zaman əlaqəli tabesiz mürəkkəb cümlələrin tərkib hissələrindəki hadisələr eyni zamanda baş verir. Zaman əlaqəli tabesiz mürəkkəb cümlələrin ya sırf sadalama intonasiyası ilə, intonasiya və tabesizlik bağlayıcıları ilə bağlana bilir.

"Gecə böcəkləri səs-səsə verib ötür, çəmənlikdəki yaşıl qurbağalar quruldaşırlar." (İ.Şıxlı)

Ardıcıllıq əlaqəli tabesiz mürəkkəb cümlələrdə hadisələr müəyyən ardıcıllığa uyğun olaraq sadalanır. Bu cür tabesiz mürəkkəb cümlələrin tərkib hissələri sadalama intonasiyası və "və" bağlayıcısı ilə bağlanır.

"Bir az sonra göyün üzünü qara buludlar örtdü, günəş gözdən itdi." (Y.V.Çəmənzəminli)

"Müasir Azərbaycan dili" əsərində isə bu iki məna əlaqəsi birləşdirilmiş, sadalama əlaqəsi olaraq adlandırılmışdır. Əsərə görə sadalama əlaqəsi eyni zamanlı sadalama və ardıcıl zamanlı sadalama olaraq iki yerə ayrıla bilər. Eyni zamanlı sadalama komponentləri bir vaxtda olan işləri, hadisələri bildirdiyi üçün bu cümlənin tərkib hissələrini dəyişdikdə belə məzmuna xələl gəlmir. Ardıcıl zamanlı sadalamada isə komponentlərin ifadə etdiyi işlər, hadisələr birincidən sonuncuya doğru ardıcıllıqla vaqe olur. [1, s.280]

Səbəb-nəticə əlaqəli tabesiz mürəkkəb cümlələrin birinci tərkib hissədə səbəb verilir, ikinci hissə onun nəticəsi olur.

"Ağacların dövrəsində yarasalar uçuşdu, Əşrəf diksindi." (İ. Şıxlı)

Səbəb-nəticə əlaqəli tabesiz mürəkkəb cümlələr və ardıcıllıq əlaqəli mürəkkəb cümlələrdə hər ikisi işi müəyyən ardıcıllıqla yerinə yetiməyinə baxmayaraq, səbəb-nəticə cümlələrində ardıcıl hadisələrdə məntiqilik, səbəb-nəticə əlaqəsi müşahidə olunduğundan biz onları fərqləndiririk.

Aydınlaşdırma əlaqəli tabesiz mürəkkəb cümlələrdə tərkib hissələrdən biri, digər tərkib hissədəki fikri aydınlaşdırmağa xidmət edir.

"Yazın gözəl çağı idi: yer yamyaşıldı, bənövşə açmışdı, ağ və çəhrayı çiçəklər ağacları bəzəkli gəlinə döndərmişdi." (Y.V.Çəmənzəminli)

Bu mürəkkəb cümlələrdə çox zaman ikinci tərkib hissə birinci tərkib hissədəki fikri aydınlaşdırır. Cümlənin tərkib hissələri arasında, vergül qoyulmalıdır. İkinci tərkib hissələrdə vergül olduqda, əvvəlki tərkib hissədən sonra nöqtəli vergül qoyulur. Aydınlaşdırma əlaqəli tabesiz mürəkkəb cümlələrin tərkib hissələri, əsasən, intonasiya ilə əlaqələnir.

Qarşılaşdırma əlaqəli tabesiz mürəkkəb cümlələrin tərkib hissələrindəki iş və ya hadisə bir-biri ilə qarşılaşdırılır. Qarşılaşdırma əlaqəli tabesiz mürəkkəb cümlələrin tərkib hissələri intonasiya, qarılaşdırma bağlayıcıları ilə birləşir.

"Hamı heyran qalmışdı, ancaq deyəsən kənd cavanlarının çoxu qəzəbli idi." (İ.Şıxlı)

Bölüşdürmə əlaqəli tabesiz mürəkkəb cümlələrin tərkib hissələrindəki iş, hadisə ya növbə ilə bir — birini əvəz edir, ya da onlardan yalnız birinin mümkünlüyü bildirilir.

"Ya zaman hər şeyi öz yerinə qoyacaq, ya da hər şey təsadüfən özü düzələcək." (İ.Məlikzadə)

Yapon dilində 多重文 (tacūbun) mürəkkəb cümlənin növləri üçün seçilmiş ümumi bir termindir. Tacūbun çoxtərkibli və ya çoxqatlı cümlə olaraq başa düşülə bilər. Yapon dilində mürəkkəb cümlələr iki növə ayrılır: 重文 (cūbun) və 複文 (fukubun)

Fukubun, eyni zamanda complex sentence (mürəkkəb cümlə) adlanan cümlələrdə mürəkkəb cümlənin tərkib hissələri arasında müəyyən asılılıq olur. Fukubun baş və budaq cümlələrdən ibarətdir.

Umemoto Yukiko *"Türkçe ve Japoncada söz dizimi"* əsərində qeyd edir ki, cūbun özü iki hissəyə ayrılır: "bağımlı sıralı cümle" və "bağımsız sıralı cümle". Cümlə ünsürləri arasında ortaqlıq olan cuubuna "bağımlı sıralı cümlə" deyilir. Cümlələrin hər üzvü yalnız aid olduğu cümləyə aiddirsə və cümlə üzvləri arasında ortaq bir əlaqə yoxdursa, belə cümlələrə "bağımsız sıralı cümle" adı verilir. Bu cümlələr bərabərhüquqludur və hər birinin öz mübtədası, xəbəri və digər komponentləri vardır. [3, s. 280]

Belə bir nəticə çıxarırıq ki, "bağımlı sıralı cümlə" həmcins üzvlü cümlə, "bağımsız sıralı cümlə" isə tabesiz mürəkkəb cümlədir.

Azərbaycan dilində olduğu kimi, yapon dilində də tabesiz mürəkkəb cümlə intonasiya və yaxud intonasiya və bağlayıcı vasitəsilə tərkib hissələrini birləşdirir.

Yuxarıda qeyd etdiyimiz kimi, tabesiz mürəkkəb cümlənin tərkib hissələri sırf intonasiya ilə birləşə bilər. Məsələn:

雨が降っている、私は外に行く。

Ame ga futte iru, watashi wa soto ni iku.

Yağış yağır, mən bayıra çıxıram.

Tabesiz mürəkkəb cümlənin tərkib hissələri əsasən intonasiya+bağlayıcı ilə bir-birinə bağlanır. Yapon dilində belə bağlayıcılara çoxlu nümunələr vermək mümkündür. Məsələn: だから [dakara]、だが [daga]、しかし [shikashi]、けれども [keredomo]、けど [kedo] 、けれど [keredo] və s.

Yapon dilində「けど」[kedo],「が」[ga] və s. kimi bağlayıcılar iki müstəqil cümləni birləşdirərək mürəkkəb cümlələr yaratmaq üçün mühüm rol oynayır. Bu bağlayıcılar 接続詞 (setsuzokushi) Azərbaycan dilindəki kimi, cümlələr arasında qarşılaşdırma, səbəb-nəticə kimi əlaqələri ifadə etmək üçün istifadə olunur.

Qarşılaşdırma bağlayıcıları:「けど」(kedo) və「が」(ga)

「けど」 və「が」 bağlayıcıları iki cümlə arasında əkslik ifadə etmək üçün istifadə olunur.「けど」 daha qeyri-rəsmi və söhbət zamanı çox istifadə edilir,「が」 isə daha rəsmi və nəzakətli formadır. Hər iki bağlayıcı iki müstəqil cümləni birləşdirir, burada hər cümlə tam fikir ifadə edir, lakin bağlayıcı onların arasında qarşılaşdırma əlaqəsi yaradır. Məsələn:

今日は忙しいけど、明日は暇。

Kyou wa isogashī kedo, ashita wa hima.

Bu gün məşğulam, amma sabah asudəyəm.

Burada "今日は忙しい" (Bu gün məşğulam) və "明日は暇' (Sabah asudəyəm) hər biri müstəqil cümlədir.「けど」 bağlayıcısı bu iki müstəqil cümləni birləşdirir və danışanın bugünkü və sabahkı vəziyyəti arasında əkslik yaradır.

Azərbaycan dilində olduğu kimi yapon dilində də tabesiz mürəkkəb cümlələri məna qruplarına ayrımaq mümkündür. Biz tabesiz mürəkkəb cümlələrin mənasına görə 4 növünü təyin etdik.

1) Zaman əlaqəli tabesiz mürəkkəb cümlə
2) Ardıcıllıq əlaqəli tabesiz mürəkkəb cümlə
3) Qarşılaşdırma-kontrast əlaqəli tabesiz mürəkkəb cümlə
4) Səbəb-nəticə əlaqəli tabesiz mürəkkəb cümlə

Zaman əlaqəli tabesiz mürəkkəb cümlənin tərkib hissələrindəki hadisələr eyni zamanda baş verir. Məsələn:

僕は本を読んでいて、彼は宿題をしていた。

Boku wa hon o yonde ite, kare wa shukudai o shite ita.

Mən kitab oxuyurdum, o isə ev tapşırığını edirdi.

Ardıcıllıq əlaqəli tabesiz mürəkkəb cümlənin tərkib hissələrindəki hadisələr ardıcıl olaraq baş verir. Məsələn:

ドアが開いて、彼が入ってきた。

Doa ga aite, kare ga haitte kita.

Qapı açıldı, o içəri daxil oldu.

Qarşılaşdırma-kontrast əlaqəli tabesiz mürəkkəb cümlənin tərkib hissələrindəki hadisələr qarşılaşdırılır. Məsələn:

彼は外出した、私は家にいた。

Kare wa gaishutsu shita, watashi wa ie ni ita.

O, bayıra çıxdı, mən evdə qaldım.

Qarşılaşdırma əlaqəli cümlələrdə istifadə olunan bağlayıcıları Azərbaycan, yapon və ingilis dillərində müqayisə edək.

Bağlayıcılar	Yapon dili				İngilis dili		
Azərbaycan dili	しかし(shikashi)	けれども(keredomo)	けど(kedo)	が(ga)	However	But	Whereas
Amma	+	+	+	+	•	+	•
Ancaq	+	+	+	+	•	+	•
Lakin	+	+	+	+	•	+	•
İsə	-	-	-	-	+	•	+
Fəqət	+	+	+	+	+	•	+
Halbuki	•	+	+	+	+	•	+

Cədvəldə də göründüyü kimi bəzi bağlayıcılar bir-birilərini əvəz edə bilirlər. "+" işarəsi bağlayıcıların əvəz edilə bildiyini, "-" işarəsi əvəz edə bilmədiyini, "•" işarəsi isə əvəz edə biləcəyi halların mümkün olduğunu bildirir. "İsə" qarşılaşdırma bağlayıcısı ilə düzələn tabesiz mürəkkəb cümlələr, yapon dilində adətən sırf intonasiya ilə düzəlir. Azərbaycan və yapon dillərindən fərqli olaraq ingilis dilində qarşılaşdırma bağlayıcılarının işlənmə mövqeyi daha sərbəstdir, cədvəldən də göründüyü kimi onlar bağlayıcıların demək olar ki, hamsını əvəz edə bilir.

今日は忙しいけど、明日は暇。

Kyou wa isogashī kedo, ashita wa hima.

Bu gün məşğulam, amma sabah asudəyəm.

Today I am busy, however, tomorrow I am free.

Today I am busy, but tomorrow I am free.

Today I am busy, whereas tomorrow I am free.

Nümunədən də aydın görünür ki, ingilis dili Azərbaycan və yapon dili ilə müqayisədə bağlayıcılardan daha sərbəst şəkildə istifadə edə bilir.

Səbəb-nəticə əlaqəli tabesiz mürəkkəb cümlənin tərkib hissələrinin birində səbəb, digərində isə nəticə göstərilir. Məsələn:

風が吹いて、木の葉が落ちた。

Kaze ga fuite, ki no ha ga ochita.

Külək əsdi, ağacların yarpaqları töküldü.

Düzdür, yapon dilində səbəb bildirən「ので」(node) və「から」(kara) bağlayıcıları var. Lakin, bu bağlayıcılardan istifadə edilsə, cümlə tabeli mürəkkəb cümlə olar. Bu Azərbaycan dilində də belədir, çünki Azərbaycan dilində səbəb

bağlayıcıları tabelilik bağlayıcılarına aid edilir və tabeli mürəkkəb cümlənin tərkib hissələrini birləşdirir. Bu səbəbdən yapon dilində tabesiz mürəkkəb cümlənin qurulmasında 「 」 formadan istifadə etmək lazımdır. Zaman və ardıcıllıq əlaqəli tabesiz mürəkkəb cümlələr də daha çox bu forma ilə düzəlir.

ƏDƏBİYYAT

Azərbaycan dilində

1. Abdullayev Əlövsət, Seyidov Yusif, Həsənov Ağamalı. Müasir Azərbaycan dili Sintaksis. Bakı, 2007. 422 s.
2. Piriyeva Ofelya. Azərbaycan dilində bağlayıcıların işlənmə funksiyaları.

Türk dilində

3. Umemoto Yukiko. Türkçe ve Japoncada söz dizimi. Doktora tezi. İstanbul, 2012. 337 s.

İngilis dilində

4. Fukui Naoki. The principles-and-parameters approach: a comparative syntax of English and Japanese. Theoretical Comparative Syntax. 2006. s. 100-131
5. Inoue Kazuko. A study of Japanese syntax. University of Michigan. 1964. s. 221
6. Kuroda S.Y. Japanese syntax and semantics: collected papers. Springer Science & Business Media, 2012. 372 s.
7. Mintarsih, M., Yulianto, B., Subandi, U. Z. F., & Sasanti, N. S. (2021). Japanese compound sentences of syntactic structure acquisition in university students' speech. Advances in Social Science, Education and Humanities Research, 491. Atlantis Press.
8. Tae Kim. Conjunctions – A Complete Guide to Japanese Grammar. Accessed October 23, 2024. https://guidetojapanese.org/learn/complete/conjunctions.

Rəyçi: prof., fil.e.d. Həcər Hüseynova tərəfindən çapa tövsiyə olunmuşdur.

Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu, *ISSN 2224-9257*
Filologiya məsələləri № 3, 2025
Səh. ————————

SEVİNC SƏYYAD QIZI HƏMƏYEVA
Fil.ü.fəl.dok. dos.
Sumqayıt Dövlət Universiteti
Sevinc.hamzayeva@sdu.edu.az

Ə. HAQVERDİYEV VƏ HAUPTMAN YARADICILIĞINDA SƏSLƏŞMƏLƏR
(“Pəri cadu” və “Qərq olmuş çan” əsərləri)

Giriş

XIX əsr Azərbaycan ədəbiyyatının görkəmli nümayəndələrindən biri kimi tan;nan Əbdürrəhim bəy Haqverdiyevin ədəbi fəaliyyət illəri maarifçilik dövrünə təsadüf etdiyindən əsərləri demək olar ki, bu cərəyanın təsiri altında qələmə alınmışdı. Eləcə də, Herhart Hauptman XIX əsrin sonu XX əsrin əvvəllərində Şillerdən sonra alman dramaturgiyasını yeni mərhələyə çıxaran tanınmış yazıçı hesab olunur/ Hər iki ədibin yaradıcılığında oxşar məqam ondan ibarətdir ki, əsərlərində simvolizmdən maqrealizmə doğru yönələn bir inkişaf xəttinin ilkin izləri müşahidə olunur. “Pəri cadu”da olan ideya müəllifin Xortdanın cəhənnəm məktublarında da özünü göstərirsə, Hauptman da mənəvi inkişaf məsələsinə Hötesayağı yanaşaraq həqqin dərkində humanist dəyərlərə üstünlük verir və bu zaman gərəkdiyi qədər simvolikadan istifadə edilir.

Əsas hissə

Herhart Hauptman 1862-ci ildə noyabrın 15-də Polşada Şavno–Zdruy şəhərində anadan olub, əvvəl Polşa İncəsənət Akademiyasında, sonra İyen universitetində heykəltaraşlq üzrə təhsil almışdır. 1884-cü ildə öz emalatxanasını açmaq üçün Romaya gedir. Tibbə və psixologiyaya olan marağı onu Sürixdə bu ixtisaslar üzrə təhsil almağa təşviq edir, lakin ədəbiyyatla da maraqlanır.

Müəllifin ilk ədəbi əsəri “Tiberi” dramı və “Promitidlərin taleyi” hesab olunur. Bundan sonra yazıçı naturalizm üslubunda yazmağa başlayır. “Günəş çıxmazdan əvvəl” və “Toxucular” adlı əsərlər ona ilk ədəbi məşhurluğu gətirdi. Müəllifin “Tənha insanlar”, “Bizim yoldaş–Krampton” komediyası, “Hannel” nağılvari pyesi, “Florian Hayer” tarixi dramı da oxucular və tədqiqatçılar tərəfindən diqqətlə qarşılanmış və sevilmişdir. 1907-ci ildə Yunanıstana səfər edən Hauptman təəssüratlarını “Yunanıstanda bahar” əsərində cəm edir, 1910-cu ildə “Emmanuel Kvint”, “Böyük ananın adası” əsərləri qələmə alınır. Dramaturgiya sahəsində məhsuldar əməyi və hərtərəfli fəaliyyətinə görə Nobel mükafatına təqdim olunur. Şillerdən sonra alman teatrı məhz onun sayəsində yenidən ucalmışdı. Dramaturqun əsas işi insanın mənəvi həyatını təsvir etmək onu düzgün boyalarla göstərməkdən ibarət olduğunu iddia edən Hauptman hesab edirdi ki, müəyyən bir psixoloji akt baş verir və dramaturq məhz bu prosesi olduğu kimi verməyi bacarmalıdır. Məhz bu səbəbdən “sənətin predmeti–çılpaq qəlb, çılpaq insandır” konsepsiyasını irəli sürür.

Görüşləri etibari ilə yazıçı pasifist idi. I Dünya müharibəsində Almaniyanın məğlubiyyətindən sonra 1918-ci ildə müəllif Veymar respublikasının yaranması təşəbbüsü ilə çıxış edir. Yazıçı Hitlerin siyasi dəst-xəttini qəbul etmirdi, buna baxmayaraq, o hakimiyyətə gələndə Hauptman vətənini tərk etmək istəmir. Bu bəzi oxucularını narazı salır və müəllif 1942-ci ildə "Böyük yuxu" əsərini yazır. 1945-ci ildə ingilis və amerikanların Drezdeni bombalayır. Hauptman bu şəhəri çox sevdiyinə görə bombalanma ona çox pis təsir edir və onu dərin depressiyaya salır.

Yazıçı fəlsəfə və psixoloji mövzulara meyl edir, sosial problemlərlə maraqlanır, Marksı, Darvini oxuyur, Emil Zolya, İbsen, Dostoyevski, Tolstoy, Turgenevin və s. yaradıcılığına dərin rəğbət bəsləyirdi. Yazıçı kimi o müxtəlif janrlarda qələmini sınayır və uğur qazanır. Lirika və nəsr sahəsində şeirlər, hekayələr, dram əsərləri yazır.

1896-cı il dekabrında Berlində ilk premyeradan I Dünya Müharibəsinə qədər "Qərq olmuş çan" əsəri kifayət qədər məşhur və sevilən sənət əsəri olmuşdur. Bu əsərin nəzəri təhlilinə əsasən bəzi tədqiqatçıların onu simvolist və ya neoromantik adlandırmasına etiraz edir və belə bir nağıl–pyesin ərsəyə gəlməsi realizmdən uzaqlaşmaq anlamını vermədiyini qeyd edir. Əsərdə Hauptman yaradıcılığının əsas motivi səslənir ki, bu da özünü müəllifin əxlaqi məsələlərə münasibətində göstərir.

Əsərdə müəllif böyük ustalıqla alman mifoloji süjetlər, Sileziya saqalarından istifadə edir və bunu əsərin başlanğıcında alman nağıl-dramı adı ilə ümumiləşdirir. Əsərin əsas obrazı - Henrix haqqında danışarkən bəzi tədqiqatçılar onu Nitsesayağı qəhrəman hesab edir, digərləri isə bu fikri təkzib edir.

Allen Makkomik əsər haqqında danışarkən göstərdi ki, Hauptman tənqidinin qəribə cəhətlərindən biri də budur ki, Rauntendeleyyin və onun əsərdəki rolu haqqında dəqiq fikir söyləmək olmur. Belə ki, bir tərəfdən o, Henrixin xilaskarı, amma digər tərəfdən, onun məhvinə səbəb olan yarıməfsanəvi varlıqdır. Yarı uşaq, yarı gənc qız şəklində təzahür edən elf obrazıdır.

"Pəri-cadu" əsərində hadisələr müəyyən qədər fərqli şəkildə vaqe olur. Əbdürrəhim bəy Haqverdiyevin bu əsəri yazmaq istəyi "Qərq olmuş çan" əsərindən aldığı təsirin sayəsində olur. "Pəri-cadu" əsərinin meydana gəlməsi haqqında müəllif özü deyirdi: "Doxsanıncı illərin ortasında simvolizm deyilən bir ədəbiyyat üsulu teatro səhnəsinə atıldı. Alman ədibi Hauptmanın "Qərq olmuş çan" sərlöhvəli faciəsi mədəniyyət aləminə bir şəşəə saldı. Bu üsulun Şərq ruhuna xeyli uyğun olması məni artıq həvəsə gətirdi. Və mən Şərq həyatından götürülmüş simvolik bir əsər teatromuz üçün yazmaq fikrinə düşdüm. Nəhayət, 1901-ci sənədə "Pəri-cadu" nam əsərimi yazdım. Bu neçə ilin müddətində "Pəri-cadu"nun səhnədə müvəffəqiyyət qazanmasına səbəb, haman mən dediyim simvolizmin bizim ruhumuza uyğun olmasıdır."(2.332)

"Qərq olmuş çan" əsərindən fərqli olaraq, "Pəri-cadu" əsərində iblis öz obrazı, öz görkəmi ilə peyda olur və Pərinin qisas hayqırtısına cavab olaraq, onu intiqama sürükləyir. Müəllifin maraqlı priyomlarından biri əsərin əvvəlində dərviş

obrazını polemikaya cəlb etməsidir. XVIII əsrə qədərki ədəbi əsərlərdə və sosial-ictimai həyatda dərvişlər vacib mövqeyə malik olmuş, xalqın güvənilən, müdrik təbəqəsi hesab edilmişlər. Hər mübahisəli məsələlərin həllini tapan, hər müşkülün düyününü açan ən çətin məqamlarda uzaqgörən məsləhətləri ilə fərdin yanında olan, çıxış yolu göstərən dərviş obrazının XX əsrin əvvəlində öz real siması ilə ədəbiyyata gəlməyi, əslində sevindirici məqamdır. Çar Rusiyasının ölkəmizə kobud müdaxiləsi nəinki, siyasi sferada müstəqilliyimizin həbsinə gətirdi, eləcə də, mənəvi planda da dərin yaralar açdı. Öz inamı və mənəvi dərinliyi ilə zəngin olan Şərq İslam dünyasını qəsb etməyin birinci əsas yolu dini inamlara müdaxilə etməkdən keçə bilərdi. Azərbaycan klassik ədəbiyyatında əsas tərənnüm və təbliğ hədəfi insanın mənəvi təkamülü məsələsi olmuşdur. Belə ki, XVIII əsrə qədərki ədəbi nümunələrdə dərviş obrazı xümrə şəklində mənfi olanda təqdim edilmıyib. İstər nağıllar və dastanlar, istərsə də, yazılı dəəbi nümunələrdə dərvişlər öz fəaliyyətində xilaskar və nəcibdirlər. Əsərdəki dərviş obrazını təhlil edərkən tədqiqatçı Pərvanə Bəkirqızı yazır: "Türk mifoloji təfəkküründə dərviş ikili funksiya daşıyan obrazlardandır. Türkdilli xalqların nağıllarında dərviş xeyirxah, sonsuzlara övlad bəxş edən, sevgililərə buta verən nurani qoca, həm də xtonik zona ilə bağlı demonil statuslu obrazlardandır. Mifoloji strukturlu obrazlardan olan dərviş şamani-sufi kompleksinin atributunu daşıyır." (3)

Təəssüf ki, əsər yazıldığı zaman həqiqi qiymətini ala bilmir və bu hal müəllifə pis təsir edir: ""Pəri cadu"ya mövhumat adı qoyurlar. "Pəri cadu"nun ideyası belədir: hər kəsin öz əlinin əməyi onun müqəddaratını təmin edir. İnsan, taleyini kənarda axtarmayıb, öz-özündə axtarmalıdır. Nəfsi-əmmarə dalınca düşüb gedərsə, bəlalara uğrayıb fövt olar. Nəfsilə mübarizə edib, əlinin əməyinə bağlanarsa, axtardığı məqsədinə nail ola bilər. İnsanı həmişə nəhs yollara iğva edən nəfsi-əmmarə Şamama cadu sifətində ortalığa çıxıb. Bu həm Qurbanın, həm Hafizə xanımın, həm Pərinin təbiətində olub, onları asan vəchlə "səadətə nail olmaq" yoluna çəkib, hamısını məhv edir. Qurban ölümünə bir az qalmış səhvini anlayıb Səliməsi tərəfə qaçmaq istəyirsə də, daha iş-işdən keçdiyindən nəfsin çəngəlində fövt olur". (1.13)

Müəllif öz izahında tam haqlı idi. Dərviş obrazının əsərdəki iştirakı və ideyası da yazıçının bu amalından xəbər verir. Çünki, dərviş öz çağırışlarında xeyirxahlığın və mənəvi saflığın tərənnümçüsü kimi çıxış edir. Pərixanım həyat yoldaşının xəyanətini öyrəndikdən sonra dərin qüssəyə qərq olub ağlayır və dərviş məhz bu zaman peyda olur. Pəri yeganə əlacının ancaq göz yaşı olduğunu göstərir, lakin dərviş buna etiraz edir və dərdini bir başqasına danışanda onun həllini tapmağın mümkünlüyünü vurğulayır. Əgər dərdini söyləməyə bir qəlb yoldaşı yoxdursa, müəllif Füzulisayağı addım atır, dərvişin məsləhəti də elə bu fonda təqdim olunur, Pəriyə öz dərdini dağlara, meşələrə söyləməyi təklif edir, necə ki, Leyli, Məcnun belə edirdi. Lakin Pəri bununla rahatlıq tapmayacağını bildirir və yeganə yolun intiqam olduğunu vurğlayır. "Belə sözləri fikrinə gətirmə, qızım. Bilginən, cəmi məzlumların tərəfdarı Allahdır. Hər bir dünyada zülm edən əcrini Allahdan alır.

Qisas bir şərr əməldir. Zülm, həmçinin şərr əməldir. Zülm edən dünyada bir şərr törədir, ondan qisas alan da bir şərr törədib, dünyada iki şərrin törəməyinə səbəb olur. Sən şərrin müqabilində səbr et, ta şərr tək qalsın. Bu fikri başından çıxart, qızım, get atana himayə olginən və zalımı da Allah divanına tapşır. Mən də, düşəndə, bir gəlim sizin yanınıza, sizə keçmiş macəralardan, zalimin zülmündən, məzlumların zülmə təhəmmül edib, axırda təsəlli tapmaqlarından nağıl edərəm. Eşit nəsihətimi, qızım, qayıt atan evinə." (1.110)

Nəticə və elmi yeniliyi

Çar Rusiyasının işğalçı siyasıti nəticəsində həm dövlətçiliyimizdən olduq, həm də mənəvi sferada vacib və müqəddəs bildiyimiz dəyərlərə kölgə salındı. Yalançı dərviş siması ilə əhali arasında bir sıra yalançı, fırıldaqçı, ikiüzlü dərviş adı ilə saxtakarlıq edən insanlar çoxaldı və bu insanlar arasında dərvişə olan inama zərbə vurdu. Bədii ədəbiyyatda ikiüzlü ruhani, molla obrazlarının gəlişi də məhz bu mərhələdən sonra baş tutdu. Lakin böyük dramaturq Ə.Haqverdiyev ustalıqla yaratdığı dərviş surəti ilə bu yanlış yanaşmanı aradan qaldırmağa cəhd göstərdi və bu addım müəllifin ideoloji cəhətdən də vacib bir məqamın tərənnümçüsü olmağından xəbər verən vacib detal kimi diqqəti cəlb edir. Sufilər hesab edirdi ki, səbr edən dərviş, muradına ərmiş, bu yolu əsas bilən Haqverdiyev də öz ədəbi qəhrəmanına səbrli olmağı tövsiyyə edir, qəlbini Allaha bağlamağı məqləhət görür. Lakin içindəki etiraz və üsyan hissi böyük olan Pəri bu fikir rədd edir və intiqam həvəsinə düşür. Bir vaxt İblis də təkəbbür göstərmiş və Allaha üsyan etmişdi, o da cənnətdən qovulduğu üçün ondan qisas alacağını bildirmişdi. Pərixanımın bu coşğusu İblisin sevincinə səbəb olur, bir vaxtlar bu hissin əsiri olmuş şər qüvvə Allaha etiraz edənlərdən ibarət ordu sayını çoxaldacağına söz vermişdi. Pəri öz etiraz və qəzəbi ilə bu orduda yer ala biləcək növbəti üzvlərdən biri ola bilərdi və olur.

Ədəbiyyat

1. Haqverdiyev Əbdürrəhim bəy. Seçilmiş əsərləri. İki cilddə. I cild. Bakı, "Lider nəşriyyat", 2005, 504 səh.
2. Haqverdiyev Əbdürrəhim bəy. Seçilmiş əsərləri. İкi cilddə. II cild. Bакı, "Lider nəşriyyat", 2005, 408 səh.
3. Pərvanə Bəkirqızı. Ə.Haqverdiyevin "Pəri Cadu" dramında demonik obrazlar sistemi: semantika və funksiya - / https://edebiyyatqazeti.az/news/edebi-tenqid/5952-ehaqverdiyevin-peri-cadu-draminda-demonik-obrazlar-sistemi-semantika-ve-funksiya
4. Алла Персиевна Склизкова. Драма-сказка Г.Гауптмана «Потанувший колокол» как неоромантическое // drama-skazka-g-gauptmana-potonuvshiy-kolokol-kak-neoromanticheskoe-proizvedenie.pdf

5. Magic realism (Literature) 2. Fiction—20th century—History and criticism 3. Spanish American fiction—20th century—History and criticism. I. Zamora, Lois Parkinson. II. Faris, Wendy B. PN56.M24M34 1995 p.596

ABSTRACT
PARALLELISM BETWEEN A.HAGVERDIEV AND GERHART HAUPTMANN'S WORK
(The works "The Fairy Witch" and "The Sunken Bell")

Key words: simvolism, dervish, spiritual evolution, revange, dramaturgy

İn the article compares the works of Hagverdiyev and German writer G. Hauptmann, analyzes the ideas and content of the works "The Fairy Witch" and "The Sunken Bell", devoted to a similar theme. It was noted that the reason for writing the work "The Fairy Witch" was "The Sunken Bell". The elements of symbolism and magrealism manifested in both works were discussed.

РЕЗЮМЕ
ПАРАЛЕЛИЗМ МЕЖДУ А.АХВЕРДИЕВ И ТВОРЧЕСТВОМ Г.ГАУПТМАНА

Ключевые слова: символизм, дервиш, духовность реванш, драматургия

В статье сравниваются произведения А.Ахвердиева и немецкого писателя Г.Гаптмана, анализируется идей и содержание произведений «Волшебница пери» и «Утонувший колокол», посвященных схожей теме. Было отмечено, что причиной написания произведения «Волшебница пери» стало «Утонувший колокол». Обсуждаллись элементы символизма и магреализма, проявившиеся в обоих произведениях.

Rəyçi: filologiya üzrə fəlsəfə doktoru, dosent Törə Məmmədova

Azərbaycan Milli Elmlər Akademiyasi M. Füzuli adına Əlyazmalar İnstitutu, *ISSN 2224-9257*
Filologiya məsələləri № 3, 2025
Səh. ————————

УЛЬКЕР ДЖАВАДОВА ЯГУБ КЫЗЫ
Азербайджанский архитектурно-строительный университет
Кафедра иностранных языков
г. Баку, ул. А.Султановой,11
эл. почта: ulkar.javadova@azmiu.edu.az

УНИВЕРСАЛЬНОСТЬ КОНЦЕПТУАЛЬНОГО ПОЛЯ ПОНЯТИЯ «ГЕНДЕР» И ЕЕ МЕТАКОНЦЕПТНАЯ СУЩНОСТЬ

Резюме

В статье исследуется понятие «гендер». В рамках изучения концепта «гендер» ряд теоретических вопросов требует своего всестороннего изучения. Безусловно, среди этих теоретических вопросов на первый план выходит проблема концептуальной сущности понятия «гендер». Понятие «гендер» имеет двойственную сущность. Это проявляется в том, что семантические константы, представленные в семантическом ядре концепта, имеют универсальную сущность, в то время как на семантической периферии концепта находятся относительно обусловленные единицы языка. К константам относятся такие универсальные понятия, как женщина, мужчина, сексуальные отношения, женский характер, мужской характер, семейные отношения и т.д. На семантической периферии концепта находятся концепты, связанные с национально обусловленным подтекстом, или концепты, отражающие новые идеологические доктрины. Но даже наличие относительно обусловленной лексики (национально/идеологически маркированного лексического и фразеологического аппарата реализации) у данного концепта не дает оснований считать его национально-культурным концептом. Исходя из приведенного выше анализа понятия «концепт», можно прийти к выводу, что, по сути, концепты представляют собой особый формат универсального понятия, называемого метаконцептом, поскольку семантическое поле данного концепта включает в себя как универсальные концепты, так и концепты прототипического (архаического, архетипического) характера. В то же время гендерный концепт, в силу высокой степени относительности, обладает особенностью динамичного развития и открытости экстралингвистическим (социальным, идеологическим, этнокультурным и т.д.) влияниям. Проведенный анализ показывает, что концепт «гендер» обладает как сущностью универсального концепта, так и (одновременно) природой метаконцепта. Таким образом, будучи метаконцептом, концепт «Гендер» является также протоконцептом (исходным, первичным концептом).

Ключевые слова: концепт «Гендер», метаконцепт, семантические универсалии, национально-культурная обусловленность, идеологическая обусловленность.

В рамках исследования концепта «гендер» ряд теоретических вопросов требуют своего комплексного изучения. Несомненно, среди этих теоретических вопросов на первый план выходит проблема концептуальной сущности понятия «Гендер». В представленной статье хотелось бы обозначить свою позицию на счет этих лингвистических терминов и понятий, которые до сих пор будоражат умы ведущих ученых и на счет которых по сей день нет единого, общепризнанного мнения. Достаточно только вспомнить о том, что, несмотря на то что, с эпохи нововведения понятия «концепт» прошел почти без малого целый век, но тем не менее до сих пор ученые лингвисты предлагают новые трактовки семантического поля данного понятия, а также внедряют новые классификационные критерии разграничения форматов концептуализации понятий.

В контексте исследования гендерного концепта в первую очередь, хотелось бы напомнить о том, что, данный концепт без всякого сомнения входит универсальную концептуальную парадигму человеческого языка, иными словами, в парадигму семантических универсалий. В этом плане нельзя не согласиться с А. Вежбицкой, которая утверждает о том, что, наряду достаточно большим количеством специфичных черт и особенностей присущих к тому или иному конкретному языку, все языки мира наделены общими фундаментальными (общечеловеческими) понятиями [8 ; с.321-322]. Данный подход в свое время был зафиксирован в исследованиях лингвистов-универсалистов. В частности, в Меморандуме о лингвистических универсалиях отмечается, что, несмотря на наличие неоспоримых и бесконечных специфических особенностей, все известные науке языки мира имеют достаточную долю единообразия универсального масштаба [2 , с.3]. Тем не менее стоит отметить и то, что, не всегда метаконцепты равнозначны универсальным концептам, так как не все универсальные концепты могут считаться метаконцептами. Так как, метаконцепт по своей сути имеет некое прототипное, первичное начало, тогда как, не все универсальные концепты имеет такую специфичную особенность.

Напомним, что, есть два основных подхода классификации лексического и фразеологического аппарата языка: универсализм и релятивизм. По мнению, Б. Левандовска-Томащик, первый (универсалистский подход) создает достаточно благоприятную почву для контрастивного анализа концептосферы различных языков. Второй подход, согласно ученому, предлагает учитывать особенности языковой картины мира, факторы индивидуального или же коллективного человеческого восприятия [3 ; с. 17]. В данном ключе можно отметить, что, гендерный концепт представляет собой особый формат метаконцепта и одновременно универсального концепта,

который достаточно большой степени подвержен фактору человеческого (индивидуального и коллективного) влияния.

Иными словами, можно резюмировать что, как и все метаконцепты, концепт «Гендер», одновременно являются и универсальным концептом. Но вместе с тем, он отражает влияние факторов национального, социального или же иного локального характера. В этом плане концепт «Гендер» не входит в жесткие рамки классификаций концептов, где предлогается разграничение универсальных и национальных концептов [4 ; с. 26-29].

Если исходит из терминологии, представленной в работе В.Красных о психолингвистической характеристике понятия «концепт» [9; с. 53-70], можно сказать, и то, что, концепт «Гендер» в основном, опирается на ментефакты. Напомним, что, ментефактами являются такие абстрактные понятия, содержащиеся в человеческом сознании, которые представляют собой некие факты интеллектуального обобщения. Также ментефакты, в целом, представляют собой содержательные элементы (ячейки переработанной информации) человеческого сознания. [11 ; с. 3-7].

Метаконцептами являются иерархически-ризоматично структурированные семантические поля, вбирающие в себя совокупность знаний, понятий, которые в свою очередь, отражают фундаментальные общечеловеческие ценности, константы жизнедеятельности человека. Так, например, по мнению О.Фисенко и коллег, к метаконцептам относятся такие ценностно-релевантные семантические поля как «гендер», «брак», «семья», которые отражают общечеловеческие, универсальные ментальные единицы. Именно данная характеристика позволяет говорить о метаконцептах, как о неких архетипах культуры [1 ; с.266-267]. В этом плане неудивительно то, что, во многих лингвистических, особенно лингвокультурологических исследованиях метаконцепты противопоставляются лингвокультурологическим концептам. (см.: [13]).

Интересно и то, что, концепты, которые в большинстве случаев, в лингвистической литературе отмечаются как метаконцепты (например, [5 ; с. 111-118], А.Вежбицкой, характеризованы как, протоконцепты. Ученый, сопоставляет их концептам-автохонам, которые отражают национальную особенность носителей языка. [7; с.23].

Другая группа лингвистов, не отрицая факт наличия метаконцептных единиц и их основательного отличия от лингвокультурных концептов, все же склонны считать что, метаконцепты и лингвокультурные концепты в достаточной степени взаимосвязаны и на уровне семантической сети представляют собой сопряженных конструктов. Так, например, С.Проскурин и коллеги исходят из того, что, дуальность в языке и культуре дает возможность метаконцептам и лингвокультурным концептам взаимообогащать и подпитывать друг друга. [12]. Так как вокабуляр языка той или иной

национальной культуры зиждется на фундаменте общечеловеческих ценностей. Иными словами, вербализация микроконцепта «гендерные отношения» в азербайджанском, русском и американском дискурсах может отличаться своими национально-культурными особенностями, даже иметь некие лакунарные семантические ячейки, но тем не менее во всех трех случаях семантической базой данного рода смысловых разветвлений, является семантическое поле метаконцепта «гендер». В этом плане неудивительно что, метаконцепты, метарепрезентанты воспринимаются как семантические поля более высокого порядка [3 ; с.88-89], или же первичными концептами [14 ; с.88-89], устойчивыми базовыми концептами [10], архетипными явлениями [6]. Иными словами, концепт «Гендер» имеет дуальную сущность. Это проявляется в том, что, семантические константы, репрезентируемые в семантическом ядре концепта, имеют универсальную сущность, тогда как в семантической периферии концепта имеют место релятивно обусловленные единицы языка. Константам можно отнести такие универсальные понятия, как женщина, мужчина, сексуальные отношения, женский характер, мужской характер, семейные отношения и т.д. В семантической периферии концепта находятся понятия, связанные с национально обусловленным подтекстом, или же понятия, отражающие новые идеологические доктрины. Но даже наличие релятивно обусловленного вокабуляра (национально/идеологически-маркированного лексического и фразеологического аппарата реализации) данного концепта не дает основания считать его национально-культурным концептом. Исходя из выше представленного анализа понятия «концепт» можно прийти к выводу о том, что, по своей сути концепты представляют собой особый формат универсального концепта, именуемого метаконцептом. Так как, семантическое поле данного концепта вбирает в себя и универсальные понятия и понятия прототипного (архаичного, архетипного) характера. Вместе с тем, гендерный концепт в силу своей высокой степени релятивности имеет особенность динамичного развития и открытости внеязыковым (общественным, идеологическим, этнокультурным и др.) влияниям.

Литература

1. Fisenko, O.S., Nazartseva, E. A., Zharkova, E. Kh. Archetypes in metaconcept structure // Religación: Revista de Ciencias Sociales y Humanidades, vol. 4, núm. 13, pp. 266-270, 2019
2. Language Universals: From Dobbs Ferry to the Present Time (Edited by Morten H. Christiansen, Chris Collins, and Shimon Edelman), Oxford; Oxford University Press, 2019, 312 p. https://www. researchgate.-net/profile/Chris-Collins-9/publication/272816255_Language_Universals/links/5fbf0673299bf104cf7a3adb/Language-Universals.pdf

3. Wilson, D. Metarepresentation in Linguistic Communication, 2012 https://www.phon.ucl.ac.uk/home/PUB/WPL/99papers/wilson.pdf
4. Александров О. А., Андреева О.А. Универсальные концепты в когнитивной системе человека // Филологические науки. Вопросы теории и практики, Тамбов: Грамота, 2010. № 3 (7). С. 26-29, https://www.gramota.net/articles/issn_1997-2911_2010_3_06.pdf
5. Антропова, В. В. Метаконцепт «Духовность» в полидискурсивном пространстве печатных СМИ: специфика репрезентативных моделей // Знак: проблемное поле медиаобразования. - 2019. -№ 2 (32). - С. 111-118. https://cyberleninka.ru/article/n/metakontsept-duhovnost-v-polidiskursivnom-prostranstve-pechatnyh-smi-spetsifika-reprezentativnyh-modeley
6. Большакова А. Ю. Теория архетипа и концептология [Электронный ресурс] // Культурологический журнал. 2012. № 1 (7). http://cr-journal.ru/rus/journals/109.html&j_id=9
7. Вежбицкая А. Семантические универсалии и описание языков. М.: Языки русской культуры, 1999. 780 с., с. 23]
8. Вежбицкая А. Язык. Культура. Познание. М.: Русские словари, 1996. 416 с.
9. Красных, В. В. От концепта к тексту и обратно. К вопросу о психолингвистике текста // Вестник Моск. ун-та. - Сер. 9 : Филология. - 1998. - № 1. - С. 53-70.
10. Кузина Ю.В. Интерпретация текста: выявление метаконцептов // Педагогическое образование в России 2014, № 6 https://cyberleninka.ru/article/n/interpretatsiya-teksta-vyyavlenie-metakontseptov
11. Попова, Д.А. Оценочная категоризация ментефактов в английском языке: диссертации на соискание ученой степени кандидата филологических наук, Вороонеж, 2017, 24 с.
12. Проскурин, С. Г., Проскурина, А.В. Дуальность в языке и культуре: ценности и метаконцепты // https://www.researchgate.net/publication/378422888_Duality_in_Language_and_Culture_Values_and_Meta-Concepts
13. Слышкин, Г. Г. Лингвокультурные концепты и метаконцепты : автореферат диссертации ....доктора филол. наук :Волгоград, 2004, 44 с.
14. Степанов, Ю. С. Константы: словарь русской культуры / Ю.Степанов. — 2. изд., испр. и доп. — Москва : Акад. проект, 2001. — 989 с.

Ülkər Cavadova

“Gender” anlayışının konseptual sahəsinin universallığı və onun metakonseptual mahiyyəti

Xülasə

Məqalədə "Gender"konsepti araşdırılır. “Gender” konsepti ikili xarakter daşıyır. "Gender" konseptinin təhlili çərçivəsində bir sıra nəzəri məsələlər geniş rakurslu araşdırmasını tələb edir. Həmin nəzəri məsələlər çərçivəsində "Gender" konseptinin konseptual mahiyyəti məsələsi ön plana çıxır. Bu konseptin semantik özəyində təmsil olunan semantik konstantalar universal mahiyyət daşıdığı halda, konseptin semantik periferiyasında isə nisbi şərtlənmiş dil vahidlərinin yer alır. Semantik konstatntalara qadın, kişi, cinsi münasibətlər, qadın xarakteri, kişi xarakteri, ailə münasibətləri və s. kimi universal anlayışlar daxildir. Konseptin semantik periferiyasında milli-mədəni şərtlənməli anlayışlar və ya yeni ideoloji doktrinaları əks etdirən anlayışlar yerləşir. Amma hətta bu konseptin nisbətən şərtlənmiş lüğət tərkibinin (həyata keçirilməsi üçün milli/ideoloji işarələnmiş leksik və frazeoloji aparatın) mövcudluğu faktı da onu unioversal konsept deyil, sadəcə olaraq, milli-mədəni şərtlənməli konsept hesab etməyə əsas vermir. “Konsept” anlayışının məqalədəki təhlilinə əsasən belə nəticəyə gəlmək olar ki, mahiyyət etibarilə anlayışlar metakonsept adlanan universal konsepsiyanın xüsusi formatını təmsil edir. Çünki bu anlayışın semantik sahəsinə həm universal anlayışlar, həm də prototip (arxaik, arxetipik) xarakterli anlayışlar daxildir. Eyni zamanda, gender anlayışı yüksək nisbilik dərəcəsinə görə dinamik inkişaf xüsusiyyətinə və dildənkənar (sosial, ideoloji, etnomədəni və s.) təsirlərə açıqlıq xüsusiyyətinə malikdir. Təhlillər onu deməyə əsas verir ki, "Gender" konsepti həm universal konsept mahiyyətini daşıyır, həm də metakonsept təbiətinə malikdir. Belə ki, metakonsept olmaqla, "Gender" konsepti protokonsetual (ilkin konseptual) mahiyyət kəsb edir.

Açar sözlər: “Gender” konsepti, metakonsept, semantik universallar, milli-mədəni şərtlənmə, ideoloji şərtlənmə.

Ulkar Javadova

Universality of the conceptual field of the concept of "Gender" and its metaconceptual essence

Resume

The article explores the concept of "Gender". Within the framework of the study of the concept of "gender", a number of theoretical issues require their comprehensive study. Undoubtedly, among these theoretical issues, the problem of the conceptual essence of the concept of "Gender" comes to the fore. The concept of "Gender" has a dual essence. This is manifested in the fact that the semantic constants represented in the semantic core of the concept have a universal essence, while in the semantic periphery of the concept there are relatively conditioned units

of language. Constants include such universal concepts as woman, man, sexual relations, female character, male character, family relations, etc. In the semantic periphery of the concept there are concepts associated with a nationally conditioned subtext, or concepts reflecting new ideological doctrines. But even the presence of a relatively conditioned vocabulary (nationally/ideologically marked lexical and phraseological apparatus of implementation) of this concept does not give grounds to consider it a national-cultural concept. Based on the above analysis of the concept of "concept", we can come to the conclusion that, in essence, concepts represent a special format of a universal concept, called a metaconcept since the semantic field of this concept incorporates both universal concepts and concepts of a prototype (archaic, archetypal) nature. At the same time, the gender concept, due to its high degree of relativity, has the peculiarity of dynamic development and openness to extra-linguistic (social, ideological, ethnocultural, etc.) influences. The analysis shows that the concept of "gender" has both the essence of a universal concept and (at the same time) the nature of a metaconcept. Thus, being a metaconcept, the concept of "Gender" is also a protoconcept (an initial, primary concept).

Key words: concept of "Gender", metaconcept, semantic universals, national-cultural conditioning, ideological conditioning.

Rəyçi: prof. A.Y.Məmmədova

Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu, *ISSN 2224-9257*
Filologiya məsələləri № 3, 2025
Səh. ————————

ADİKƏ ALMƏMMƏDOVA
Xəzər Universiteti (magistr).
adikealimemmedova@gmail.com
BAKI, AZƏRBAYCAN

XƏTAİ TƏBRİZİNİN "YUSİF VƏ ZÜLEYXA" ƏSƏRİNDƏ FONETİK DƏYİŞİKLİYƏ UĞRAMIŞ ƏVƏZLİKLƏR

Xülasə

XV əsrin görkəmli şairlərindən biri də Xətai Təbrizidir. Şairin doğum və vəfat tarixi dəqiq məlum deyil. Tədqiqatçılar onun Ağqoyunlular dövlətinin sarayında yaşadığını qeyd edirlər. Xətai Təbrizi Azərbaycan türkcəsində 4500 beytlik "Yusif ilə Züleyxa" poeması kimi dəyərli sənət əsəri yaratmışdır. Bu əsərin dilini öyrənmək, təhlil etmək XV əsr ədəbi dili haqqında müəyyən təsəvvür yaradır. "Yusif və Züleyxa" əsərində əvəzliklər geniş şəkildə işlənmiş və demək olar ki, əvəzliyin bütün növlərinə aid nümunələrə rast gəlmək mümkündür. Mövzumuz Xətai Təbrizinin "Yusif və Züleyxa" əsərində fonetik dəyişikliyə uğramış əvəzliklərdir.

Açar sözlər: Əvəzlik, fonetik, Azərbaycan, işlənən, dəyişiklik, arxaik.

Adika Almammadova

Pronouns that have undergone phonetic changes in Khatai Tabrizi's "Yusuf and Zuleikha"

Abstract

Khatai Tabrizi is one of the prominent poets of the 15th century. The exact date of the poet's birth and death is unknown. Researchers note that he lived in the palace of the Aggoyunlu state. Khatai Tabrizi created a valuable work of art in Azerbaijani Turkish, such as the 4500-verse poem "Yusif and Zuleykha". Studying and analyzing the language of this work creates a certain idea of the literary language of the 15th century. Pronouns are widely used in the work "Yusif and Zuleykha" and it is possible to find examples of almost all types of pronouns. Our topic is the pronouns that have undergone phonetic changes in Khatai Tabrizi's work "Yusif and Zuleykha".

Keywords: Pronoun, phonetic, Azerbaijan, use, change, archaic.

XV əsrin görkəmli şairlərdən biri də Xətai Təbrizidir və şairin doğum və vəfat tarixi dəqiq məlum deyildir. Xətai Təbrizi haqqında məlumatlar az olsa da, "Yusif və Züleyxa" əsəri günümüzə qədər gəlib çatmışdır. Xətai Təbrizinin "Yusif və Züleyxa" əsərinin dilini tədqiq etmək XV əsr ədəbi dilini öyrənmək üçün çox əhəmiyyətlidir. "Yusif və Züleyxa" məsnəvisi zəngin lüğət tərkibi və qrammatik xüsusiyyətlərinə görə diqqəti cəlb edir. Tədqiqatımızın əsas mövzusu Xətai Təbrizinin "Yusif və Züleyxa" əsərində fonetik dəyişikliyə uğramış əvəzliklərdir. Bildiyimiz kimi Azərbaycan dilində mövcud olan əvəzliklər özünün inkişafı ərzində

elə ciddi bir dəyişikliyə uğramamış, məna və vəzifəsi etibarilə, əsasən, sabit qalmışdı. Azərbaycan dilində əvəzliklərin bəzisi ya dildə işlənmir, ya da fonetik dəyişikliyə məruz qalır. Xətai Təbrizinin "Yusif və Züleyxa" əsərində isə fonetik dəyişikliyə uğrayan əvəzliklər çoxluq təşkil edir. Fonetik dəyişikliyə uğramış arxaik əvəzliklər deyəndə əvəzliyin səs sistemində baş verən dəyişikliklər nəzərdə tutulur.

Fonetik dəyişikliyə uğramış əvəzliklər aşağıdakılardır:

Bən – Şəxs əvəzliyi I şəxsin təki olan mən şəxs əvəzliyinin qarşılığıdır. Mən şəxs əvəzliyi müasir Azərbaycan ədəbi dilində işlənsə də, *bən* forması XIII-XVIII əsr yazılı abidələrində, həmçinin də Türkiyə türkcəsində işlənir. Tarixən mən əvəzliyi m~b səs əvəzlənməsinə uğrayaraq *bən* şəklində də işlənmişdir. Xətai Təbrizinin "Yusif və Züleyxa" əsərində işlənən *bən* əvəzliyi: Dərdim əksilməz mənim hiç ah ilə,Neyləyim *bən* bu dili-gümrah ilə (s.54); Mən nagəhdan bil anı itirmişəm, Getdi ol, *bən* böylə yalquz qalmışam (s.80)

Digər yazılı abidələrin dilində işlənən *bən* əvəzliyi: Sürücəgin səni yüzü ağına, De *bənim* əhvalımı qulağına (Mehri və Vəfa, 42); *Bən* yüz dəgənək yedüm. Acımı səndən aluram", – dedüm (Fütuh, 213); Çü geçdüm bənligümdən *bən* sən oldum, Dəxi nə var gətür ortada hayil. (QB, 477)

Nümunələrdən də göründüyü kimi *bən* əvəzliyi yiyəlik hal şəkilçisi olan -ın [4] yox, -ım [4] şəkilçisi qəbul etmişdir. Bu hal müasir dövrümüz üçün də səciyyəvidir və istisna hal kimi qəbul edilir.

Ədəbi abidələrin dilində birinci şəxs əvəzliyinin təki ismin yönlük halında *maŋa<baŋa* şəklində verilmişdir. Belə hallar hətta türk dilində də müşahidə edilir [5, s.105]. Fikrimizcə, *maŋa* şəxs əvəzliyi müasir dövrümüzdə dialeklərdə də özünü göstərir [4, s.177]. Xətai Təbrizinin "Yusif və Züleyxa" əsərində həm *maŋa*, həm də *baŋa* şəxs əvəzlikləri işlənmişdir: Sən *maŋa* vergil mədəd, ya dəstigir, Çün *maŋa* qardaşlarım olmadı yar (s.23); Züleyxa aydır: gör bu oğlan netdi der, Mən yaturdum bu *maŋa* qəsd etdi de (s.39); Sordu Yusif, der:nə vəqt oldu, degil, Gün nə yerdədür *baŋa* bir söyləgil (s.22)

Həmçinin də yazılı abidələrin dilində işlənmiş *maŋa*, *baŋa* kimi fonetik dəyişikliyə uğramış əvəzliklərə də nəzər yetirək: Apalaca qalqanıŋı vergil *maŋa* (KDQ, 48); Asitanıŋ xakini vermən cəmii-aləmə, Hər ayağın torpağı mülki-Süleymandır *maŋa* (ŞİX, 285); Ya Rəb, *maŋa* cismü can gərəkməz, Cananımsız cahan gərəkməz! (Füzuli, 218); Qılmadıŋ bir gəz *maŋa* lütfü əta, Liykən artırdın əzabı günbəgün (Vaqif, 347); Eşqiŋ qonuğ oldı *baŋa* uş bəni bəndən ilədür, Bənüm işüm xo səhl ola, çoxları dindən ilədür (QB, 244); Hay Dirsə xan, *baŋa* qəzəb etmə! İncinüb acı sözlər söyləmə! (KDQ, 14)

Ol – Həm şəxs əvəzliyi, həm də işarə əvəzliyi funksiyasında çıxış edə bilir. Üçüncü şəxsin təki olan *o* əvəzliyi tarixən *ol* şəklində işlənmişdir. Məlum olur ki, *o* əvəzliyinin *ol* şəklində işlənməsi XIX əsrə qədərki yazılı abidələrin dilində, eləcə də Xətai Təbrizinin "Yusif və Züleyxa" əsərində də işlənməkdədir. *Ol* əvəzliyi

hallanarkən o~a əvəzlənməsi baş verir və belə əvəzliklər müasir Azərbaycan dilində işlənmir. *Ol* şəxs əvəzliyi zaman keçdikcə qrammatik mənadan daha çox üslubi xüsusiyyət almışdır [6, s.172]. Yuxarıda bildirdiyimiz kimi *ol* əvəzliyi həm şəxs əvəzliyi, həm də işarə əvəzliyi kimi işlənə bilər. Bunları bir-birindən ayırmaq üçün konteksdəki mənalarına diqqət yetirmək lazımdır. Əgər "ol" şəxs əvəzliyidirsə, mütləq mübtəda, şəxs mənasında işlənəcək. Aydınlaşdırmaq üçün Xətai Təbrizinin "Yusif və Züleyxa" əsərində həmçinin də digər yazılı abidələrin dilində işlənən "ol" şəxs əvəzliyinə baxaq: Olsun *ol*, mən verim hüsnün anınŋ, Ta muradi hasil ola Züleyxanıŋ (s.70); Yaxşı olsa agah-agah getdi *ol*, Yoxsa yerü-qap namu-nəngin etdi *ol* (s.80); Mən nagəhdan bil anı itirmişəm, Getdi *ol*, bən böylə yalquz qalmışam (s.80)

Nümunələrdən də aydın olur ki, ol şəxs əvəzliyi şəxsi əvəz etmişdir və cümlədə mübtəda rolundadır.

Bildiyimiz kimi Azərbaycan dilində üçüncü şəxsin cəmini ifadə etmək üçün "o" şəxs əvəzliyinə -lar şəkilçisi artırmaqla düzəlir (*onlar*). O-nun a-ya keçməsi nəticəsində *anlar* şəklində işlənərək həm yazılı abidələrin dilində, həm də Xətai Təbrizinin "Yusif və Züleyxa" əsərində işlənmişdir: *Anlar* aydır: oğurluq etdi ol, Sultan ani dutdi, andan etdi qul (s.84); Yusif *anlar* qatina heç gəlmədi, Anı qardaşları dəxi görmədi (s.77). Beləliklə, *o* şəxs əvəzliyi ismin hal şəkilçilərini qəbul edərkən belə fonetik dəyişikliyə məruz qalır: (*aŋa,anı, anda,andan* və.s)

"***Aŋa***" – *o* şəxs əvəzliyi hallanarkən yönlük halda *aŋa* şəklində işlənir: Kim ki arifdir *aŋa* bir söz yetər, Ol ki,nadandır deməkdən nə bitər? (s.83); Şah aydır: var söylə imdi sən *aŋa*, Hörmət edin yorsa *aŋa*, həm saŋa (s.61); Züleyxa aydır: at başın versin maŋa, Ta ki, yaxşı bildirim halım *aŋa* (s.67)

"***Anı***" – *o* şəxs əvəzliyi təsirlik halda *anı* kimi işlənir: Biz *anı* gördük fəraq kar eylədi, Köŋlümüzü ol bizim zar eylədi (s.79); Gördik *anı*, qorxdu andan gözimiz, Gər yenə dersən varali özümiz (s.86); Ol qul ikən ani Haqq xan eylədi, Təxti-Misirə *anı* sultan eylədi (s.66)

"***Andan***" – *o* şəxs əvəzliyi çıxışlıq halda *andan* kimi işlənir: Hər nə gəlsə saŋa səndən durur, Sən demə məndən degil, *andan* durur (s.88); Bəzi söylər *andan* ötri kim dedi, Bir gün ol Yusif öziylən söylədi (s.89); Qüdrət ilən Züleyxa eşqin ol qəni, Aldı *andan* Yusifə verdi anı (s.71)

"***Anıŋ***" – *o* şəxs əvəzliyi yiyəlik halda *anıŋ* şəklində işlənir: Mən *anıŋ* dərdindən dilbənd olmuşam, Yanmışam mən, böylə pabənd olmuşam (s.90); Pəs Bəşir bildi anasıdur *anıŋ*, Ol özi bağrı parəsidir *anıŋ* (s.90); Dedi: kor oldi *anıŋ* iki gözi, İlla Yusifdür dilində hər sözi (s.81)

Xətai Təbrizinin "Yusif və Züleyxa" əsərindən əlavə XIII-XVIII əsr yazılı abidələrin dilində də belə hallara rast gəlmək olar və burada da şəxs əvəzliyinin hallanması müşahidə edilir: Əbləh, – deyübən gülərdim *aŋa*, Hər tə'nə ki var, qılardım *ana* (ŞİX, 249); Əksin ləbi-lə'lüŋ yenə bu camə geyürmiş, Mətbu

geyüribən *anı* bir camə geyürmiş (QB, 181); İrağından-yaqınından bərü gəlgil! Yigitlərin zərbini görgil, *andan* ötgil! (KDQ, 41); *Anlar* daxı çəri *dərüb*, borı ağırdub Qazana qarşu gəldilər (KDQ, 301)

Ol işarə əvəzliyi şəxs əvəzliyindən fərqlənir. Türkologiyada *ol* işarə əvəzliyi geniş şəkildə tədqiq edilmişdir. *Ol* işarə əvəzliyinin şəxs əvəzliyindən fərqi odur ki, uzaqda olan hər hansı bir əşyanı göstərmək üçün istifadə edilir [5, s.111]. Müasir dilimizdə işlənən o-nun qədim forması sayılır və təxminən XX əsrə qədər dilimizdə işlək olmuşdur. Göründüyü kimi ol~o işarə əvəzliyi məna və vəzifə etibarilə elə ciddi dəyişikliyə uğramamışdır [5, s.111]. Deməli "ol" işarə əvəzliyi şəxs əvəzliyindən fərqli olaraq işarə məqsədilə işlənir və cümlədə təyin rolunda çıxış edir. Fikrimizi əsaslandırmaq üçün Xətai Təbrizinin "Yusif və Züleyxa" əsərində işlənən *ol* işarə əvəzliklərinə baxaq: Yəqubun *ol* dəmdə oldi göŋlü şad, Oldu köŋlü həm anıŋ qəmdən azad (s.18); Dedilər gəlin deyəli,ey əxi, Yəqubə ki,gəlsin *ol* Yusif dəxi (s.18); *Ol* zəmanda qurt adam yeməz idi, Bu sözi anlar dəxi deməz idi (s.18); Çünki gördü *ol* Yusif bu işləri, Bivəfa olmuş aŋa qardaşları (s.19); Çün qəbul etdi Yahuda *ol* sözi, Vardı qardaşların yanınə həm özi (s.20)

Yazılı abidələrin dilində işlənən *ol* işarə əvəzliyi: Gəldik, ol kim, dolduran topdur, dəpidincə yerindən örü durdı, əlin-yüzin yumadan obanıŋ *ol* ucından bu ucına, bu ucından *ol* ucına çarpışdırdı, quv quvaladı, diŋ diŋlədi, öylədəncə gəzdi. (KDQ, 9); *Ol* gündədir hesabıŋ, həm rahətü əzabıŋ, *Ol* gündə həq qatında icmai-ənbiyadır (Nəsimi, 18); *Ol* günəş bir zərrədir nuri-cəmalından anıŋ, Utanıbdır sərvü ər'ər qəddü balından anıŋ (ŞİX, 121)

Nümunələrdən də aydın olduğu kimi fonetik dəyişikliyə məruz qalan "ol" əvəzliyi həm Xətai Təbrizinin "Yusif və Züleyxa" əsərində, həm də digər XIII-XVIII əsr yazılı abidələrin dilində də geniş şəkildə işlənmişdir. Ancaq bunu qeyd etmək lazımdır ki, bu səs əvəzlənmələri bu və ya digər bir əsərin müəllifinin fərdi dil xüsusiyyətlərindən irəli gəlir.

Özi – bu əvəzlik təyini əvəzlikdir və fonetik dəyişikliyə uğramışdır. Müasir Azərbaycan ədəbi dilində *öz* əvəzliyinə üçüncü şəxsin təkinin mənsubiyyət şəkilçisini artırdıqda *özü* şəklində işlənir. Yəni ü~i əvəzlənməsi nəticəsində fonetik dəyişikliyə məruz qalmışdır. Ancaq həm Xətai Təbrizinin "Yusif və Züleyxa" əsərində, həm də digər yazılı abidələrin dilində bu şəkildə yox, *özi* şəklində işlənmişdir: Yusif aydır: söylə şah bilsün *özi*, Yeddi il bolluğ olur bu yer yüzi (s.62); Yusif aydır: ey xatun sözün nədir? Nə əcəb aşuftəsən *özin* nədir? (s.68); Sonra üç gündən Yusif gəldi der, *Özi* Züleyxa eşiqindən gördi der (s.71); Ta ki, qardaşları ol köşkə girə, *Öz* günahın *özlü-özində* bilə (s.78)

Xətai Təbrizinin "Yusif və Züleyxa" əsərində elə məqamlar var ki, bir nümunədə öz əvəzliyi həm müasir dildə işləndiyi kimi, həm də fonetik dəyişikliyə uğramış şəkildə işlənmişdir. Azərbaycan dilində elə məqamlar var ki, sözə mənsubiyyət şəkilçisi artırıldıqda bəzən sözün son saiti düşə bilir. Yuxarıda göstərilən nümunələrdə də bunu görmək mümkündür.

Deməli, *öz* qayıdış əvəzliyi müxtəlif fonetik dəyişikliyə uğrayaraq həm Xətai Təbrizinin "Yusif və Züleyxa" əsərində, həm də digər yazılı abidələrərin dilində də işlənmişdir.

Netmək? – Fonetik dəyişikliyə uğramış *netmək?* sual əvəzliyi müasir Azərbaycan ədəbi dilində nə etmək? şəklində işlənir. Xətai Təbrizinin "Yusif və Züleyxa" əsərində *netmək?* sual əvəzliyi bir dəfə işlənmişdir: Xacə aydır: imdi bəs *netmək* gərək? Anlar aydır: biz sataruq, alan gərək (s. 27) Netmek? sual əvəzliyi XIII-XVIII əsr yazılı abidələrin dilində də işlənmişdir: Pəs Mövlana Əminəddin dedi: "İmdi *netmək* gərək?" Şeyx Səfiəddin dedi: "Söylə ki, gerü verdim", Dedi: "Gerü verdim" (Ş.Səfi, 125); Çün mənüm mə'nidən ol surətpərəst agəh dəgül, *Netmək* olur, çünki bilməzlər necədür izzü yol? (Şühəd, 201)

Nəçün? – Fonetik dəyişikliyə məruz qalmış *nəçün?* sual əvəzliyi müasir Azərbaycan ədəbi dilində nə üçün? niyə? mənalarında işlənir. *Nəçün?* sual əvəzliyi Xətai Təbrizinin "Yusif və Züleyxa" əsərində geniş şəkildə işlənməmişdir: Yusif aydır: *nəçün* eylə oldi ol? Ərəb aydır: Yusifin itirdi ol (s.50)

Ancaq *nəçün*? sual əvəzliyi digər yazılı abidələrin dilində də işlənmişdir: Nəsimi laübalidir, aŋa eyb etmə, ey sufi, *Nəçün* təbdil qılım dersən əzəl gündənki qismətni? (Nəsimi, 45); Günəş ilə gecənüŋ ictimai yox ya *nəçün*, Bu qara zülfi nigaruŋ yüzündə dərxur ola? (QB, 23)

Eylə – *Eylə* əvəzliyi elə işarə əvəzliyinə "y" səsinin artırılması (səsartımı) ilə fonetik dəyişikliyə məruz qalmışdır. Ancaq *eylə* əvəzliyi heç bir qrammatika kitablarında işarə əvəzliyi olduğu verilməmişdir. Xətai Təbrizinin "Yusif və Züleyxa" əsərində daha çox *elə* işarə əvəzliyinə rast gəlinsə də, fonetik dəyişikliyə uğramış *eylə* əvəzliyi əsərdə az deyildir. *Elə* əvəzliyinin *eylə* şəklində verildiyi məqamlara nəzər salaq: Yəqub aydır: *eylə* dutuŋ siz anı, Qurt yeməsin yaxşi saxlayıŋ anı (s.18); Yusif aydır: həq kərimdir, ey əxi, *Eylə* etmə , incirəm həm mən dəxi (s.29); Yusif aydır: *eylə* olsun, ya əziz, Qarğış etmən mən aŋa bilüŋ əziz (s.40)

Yazılı abidələrin dilində də *elə* işarə əvəzliyinin *eylə* formasına təsadüf edilir: Münəvvər *eylə* vüsaliŋlə, ey qəmər, gözümi, Ki qürbətiŋ ani acıtdı tutiyasindən (Nəsimi, 52); Dünya duracaq yer degil, ey can, səfər *eylə*! Aldanma anıŋ alinə, andan həzər *eylə*! (Nəsimi, 179); Yarından ayrı yandı Həqiqi fəraq ilə, Gəlgil təfərrüc *eylə* anıŋ ahü zarına (Həqiqi, 194)

Maŋa – Müasir Azərbaycan dilində *mən* şəxs əvəzliyi birinci şəxsin təkini ifadə etmək üçün istifadə olunur. Ədəbi abidələrimizin dilindən məlum olur ki, *mən* şəxs əvəzliyi ismin yönlük halında *maŋa* şəklində işlənmişdir. Xətai Təbrizinin "Yusif və Züleyxa" əsərində *maŋa* şəxs əvəzliyinə rast gəlirik: Xətai Təbrizinin "Yusif və Züleyxa" əsərində işlənən *maŋa* şəxs əvəzliyi: Yusif aydır: mən bilürüm, Züleyxa, Mürüvvət eylə həm *maŋa*, kuh etmə sən (s.69); Sən *maŋa* vergil mədəd, ya dəstigir, Çün *maŋa* qardaşlarım olmadı yar (s.23); Bilməzəm noldi, nələr gəldi *maŋa*, Mən nagahan payi-bənd oldum sana (s.37)

Digər yazılı abidələrin dilində işlənən "*maŋa*" şəxs əvəzliyi: Apalaca qalqanını vergil maŋa (KDQ, 48); Həman kim həzrət Peyğəmbərün qutlu yüzini gördüm, çığırdum kim, ya Rəsulüllah, qövrümə yet və bir mürşid *maŋa* görsət (ŞS, 198); Köksümi qalxan qılıb mən oxlaruŋ qarşusuna, Gər inanmırsan, bir oq atgil *maŋa* qarşu sına. (Kişvəri, 302)

Saŋa – "*Saŋa*" şəxs əvəzliyi də "*maŋa*" şəxs əvəzliyi kimi fonetik dəyişikliyə uğrayaraq tarixən bir çox əsərlərin dilində işlənmişdir. İkinci şəxsin təkini ifadə edən sən şəxs əvəzliyi yönlük (-a,-ə) halda işlənərək tarixən *saŋa* kimi işlənmişdir. Xətai Təbrizinin "Yusif və Züleyxa" əsərində işlənən *saŋa* əvəzliyi: Bu sözi kim söylədin, Yusif, maŋa, Qəsd edər qərdaşlarıŋ duysə *saŋa* (s.17); Anlar aydır: qanlı gömləgi *saŋa*, Biz gətirdük deyübən verdi aŋa (s.23); Sonrə Züleyxa dedi, ey Malik, *saŋa*, Üç ağrınca qızıl verəm *saŋa* (s.34)

Yazılı abidələrin dilində işlənən *saŋa* şəxs əvəzliyi: Mehri aydır: "En gərək isəm *saŋa*. Verəsən bir yıl gərək möhlət baŋa" (Mehri və Vəfa, 30); Nə biləyin, oğul, arslandanmı oldı, yoxsa qaplandanmı oldı? Nə biləyin, oğul, bu qəzalar *saŋa* nerədən gəldi?! (KDQ, 27); Vaqifəm, canım *saŋa* hərdəm fədalər eylərəm, Ah çəkib hicrində qarğu tək sədalər eylərəm (Vaqif, 175)

Muna – "*Muna*" əvəzliyi ilk baxışdan şəxs əvəzliyinə oxşasa da, işarə əvəzliyi olan "bu" əvəzliyinin fonetik dəyişikliyə uğramış formasıdır. Dialekt və şivələrində geniş yayılan bu hadisəyə daha çox "bu" əvəzliyinin hallanması zamanı təsadüf olunur [4, s.182]. Adlıq haldan başqa digər hallarda b>m samiti ilə əvəz olunur və əvəzliklərdə öz əksini tapır: munu//mına, munda//mından və s. Xətai Təbrizinin "Yusif və Züleyxa" əsərində də ən çox "muna" əvəzliyinə rast gəlinir: Züleyxa aydır: yeddi ildir mən *muna*, Yoldaşımdur, doğru baxmaz bir maŋa (s.42); Züleyxa ilə töhmət etdilər *muna*, Saldı şah zindanə tapşurdı maŋa (s.52); Ol özü anlara ayıtdı, mən *muna*, Aşiqəm, bir göz açub baxmaz maŋa (s.64)

"Muna" yönlük halda işlənmiş əvəzlikdən başqa əsərdə az da olsa "muni" və "mundə" təsirlik və yerlik hallarında işlənmiş əvəzliklərə də təsadüf edirik: Çün *muni* dedi ərəb getdi, ey yar, Fikrə batub qaldı Yəqub biqərar (s.51); *Muni* deyüb giryəvü-zar eylədi,Yusifin həm könlünü kar eylədi (s.68); Dedilər: bilmiş Misr eli *muni*, Kimsə bilməz sağınurduq bil anı (s.78)

Dilimizin yazılı abidələrində m~b əvəzləməsinə dair faktlar olduqca çoxdur və nümunələrdən bunu görmək olar: Həzrət Şeyx kəlamun ortasında dedi: "..*mundan* yeməyəsiŋiz kim, bir ağulu əqrəb *muna* düşübdür.." (Ş.Səfi, 457); Aydur: "Merə qocalar, ikindü vaqtı *munı* maŋa çevürəsiz, yeyəm", – dedi (KDQ, 226); Həmtaşlar içrə *mundan* əqdəm, Qılmışdı birin özünə həmdəm (Məsihi, 49)

Yazılı abidələrin dilində elə məqamlar da vardır ki, Xətai Təbrizinin "Yusif və Züleyxa" əsərində belə məqamlara rast gəlinmir. Belə ki **mundağ / mundaq** işarə əvəzlikləridir və bunda, bundan, belə kimi mənaları ifadə edir.

Qansı – Əşyanın xarici əlamətini aşkara çıxarmaq üçün işlənən sual əvəzliyidir. Azərbaycan dialektlərini nəzərdən keçirdikdə aydın olur ki, dialektlərimizdə *qansı*, *qanqı*, *hanğı*, *xansı* – kimi müxtəlif şəkillərdə tələffüz olunan əvəzliklər çoxdur. Xətai Təbrizinin "Yusif və Züleyxa" əsərində ancaq *qansı* sual əvəzliyinə rast gəlirik. *Qansı* sual əvəzliyi isə müasir ədəbi dilimizdə *hansı* şəklində sabitləşmişdir. Bu sözün hansı şəklində sabitləşməsini XVIII əsrdən başladığını söyləmək olar [5, s.117]. Müxtəlif əsərlərin dilində Xətai Təbrizinin "Yusif və Züleyxa" əsərində *qansı* əvəzliyinə rast gəlirik: *Qansı* dağlara sənünçün varayım, Qurt yeməmiş səni kimdən görəyim? (s.24); Yenə anlar aydır: ayrı qurt yedi, Bilməzüz ki, ani *qansı* qurt yedi (s.25)

Digər yazılı abidələrində işlənən *qansı* əvəzliyi: *Qansı* mülkü tutsa dəgməz kimsəyə şurü şəri (M.Füzuli, 36); *Qansı* dağlara sənüŋçün varayım, Qurt yeməmiş səni kimdən görəyim? (ŞİX, 24); *Qansı* fələkin sitarəsisən Kim, surətinə əsir olur mah? (Nəsimi, 302); *Qansı* gülzar içrə bir gül açılır hüsnüŋ kimi, *Qansı* gül bərgi ləbi-lə'li-dürəfşanınca var? (Füzuli, 50)

Qanı – Sual əvəzliyidir və artıq bu əvəzlik müasir dilimizdə işlənməməkdədir. Məkan anlayışı ifadə edir. Hanı? sual əvəzliyi müasir dilimizdə geniş yayılsa da, orta əsr yazılı abidələrin dilində hanu, qanı və.s kimi işlənmişdir [5, s.116]. Xətai Təbrizinin "Yusif və Züleyxa" əsərində qanı əvəzliyinə az təsadüf edilir: Yaqub aydır: İbn Yaminim *qanı*? Göstərün siz maŋa, bir görüm anı (s.84); Dedi: tapşurmuşdum sizə, Yusif *qanı*? Dutər axır sizi Yusifiŋ qanı (s.23); Aydır: ey canım, əzizim qandasın? *Qanı* dar yerlərdəsin, dərməndasın? (s.82)

Digər yazılı abidələrin dilində də *qanı* sual əvəzliyinə rast gəlirik: İki varduŋ bir gəlirsin, yavrum *qanı*? Qara gərdunda bulduğum oğul *qanı*? (KDQ, 24); *Qanı*, xanum, altuŋda yaxşı atuŋ yoq! (KDQ, 239); Sundu Vəfa, əlinə aidi anı , Aydır: İlahi, bunuŋ xəsmi *qanı? (*Mehri və Vəfa, 35*)*

Qamu – *qamu* əvəzliyi təyini əvəzlikdir və *hamı* mənasını ifadə edir. Yazılı abidələrin dilində də işlənən qamu əvəzliyi müasir dilimizdə işlənən *bütün* sözünün sinonimi sayılır. Bu əvəzlik təyin etmək məqsədi ilə işlənir və danışıq dilində isə hamı mənasında işlənmişdir. H.Mirzazadə qeyd edir ki, *qamu* və *bütün* təyini əvəzliyinin işlənmə səviyyəsi tarixən eyni olmamışdır. Buna səbəb isə *bütün* sözü dildə çox az istifadə edilmiş, üstünlük hər zaman *qamu* sözünə verilmişdir [7, s.123]

Deməli, *qamu* təyini əvəzliyi də digər əvəzliklər kimi tarixən çox qədimdir. Xətai Təbrizinin "Yusif və Züleyxa" əsərində qamu əvəzliyinə 13 yerdə təsadüf edilir: Getdi, gəlməz, mənzili düşdi İraq, Ey müsəlmanlar, *qamu* olsun soraq (s.51); *Qamu* babindən həq ana vermiş, vəli İlla faş etməz, bilinməz əhvali (s.56); Onlar aydır: olsayduq biz xanım, Dağə düşərdük *qamu*, ey sultanım (s.42). Bu nümunələrdə qamu heç bir şəkilçi qəbul etmədən işlənmişdir. Ancaq elə məqamlar da vardır ki, *qamu* təyini əvəzlik mənsubiyyətə görə də dəyişdikdə ismin yerində işlənərək isimləşir: *Qamusini* Züleyxayə yoldaş eylədi, Yolə saldı ani xoş baş eylədi (s.32); Bilməzüz ki,

bu nə hali-təndədür, Yoxsa bu zindan *qamumuz* üstündədir (s.54); Yusifin əhvalini çün bildilər, *Qamusı* anın dininə girdilər (s.57)

Xətai Təbrizinin "Yusif və Züleyxa" əsərindən əlavə digər yazılı abidələrin dilində də *qamu* təyini əvəzlik mühüm yer tutur: *Qamusına* bəŋzəmədi cümlə aləmləri yaradan Allah-Taŋrı görkli (KDQ, 7); Övratü incilü Fürqan *qamu* hüsnüŋ sifəti,Adəmiŋ şərhidüdür, ayəti şeytan nə bilür? (Nəsimi, 138); Çü güldə hüsni-cəmalini dilbərüŋ yazalar, Xəttin görürlər isə, *qamular* gərək azalar (QB, 63).

Xətai Təbrizinin "Yusif və Züleyxa" məsnəvisi qrammatikası çox zəngindir. Deməli, əsərdə və digər yazılı abidələrin dilində fonetik dəyişikliyə uğramış əvəzliklərin geniş şəkildə işlənməsi əsərin dilinin zənginliyini bir daha sübut edir. Fonetik dəyişikliyə uğramış bir sıra əvəzliklər dialekt və şivələrimizdə hələ də işlənir. Ancaq elə əvəzliklərimiz var ki, Türkiyə türkcəsində işlək olsa da, artıq müasir dilimiz üçün arxaikləşmişdir.

Ədəbiyyat

1. Hüseynzadə.M (2007). Müasir Azərbaycan dili, Morfologiya, Bakı, Şərq-Qərb.
2. Kazımov.Q (2010). Morfologiya, Elm və təhsil.
3. Qurbanova.G (2016). Oğuz dillərində əvəzliklər və onların mətn yaranmasında rolu, Kooperasiya nəşriyyatı.
4. Məmmədağa.Ş (2008). Azərbaycan dialektologiyasının əsasları. Bakı, Şərq-Qərb.
5. Mirzazadə.H (1990). Azərbaycan dilinin tarixi qrammatikası. Bakı, ADU.
6. Müasir Azərbaycan dili (1980). Bakı.
7. Tanrıverdi.Ə (2017). Azərbaycan dilinin tarixi qrammatikası. Bakı, Elm və təhsil
8. Təbrizi.X (2004). "Yusif və Züleyxa" əsəri.
9. Türk mənşəli arxaizmlər lüğəti (2023) (I,II,III cild). Elm və təhsil.

Rəyçi: filologiya üzrə fəlsəfə doktoru, Reyhan Mədətova

Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu, *ISSN 2224-9257*
Filologiya məsələləri № 3, 2025
Səh. ————————

AIA
AYNUR TURABOVA
Bakı Fətəli Xan Xoyski
aynurturabova77@ gmail.com

ATALAR SÖZLƏRİ VƏ ZƏRB- MƏSƏLLƏRDƏ İŞLƏNƏN FİTONİM VƏ ZOONİMLƏR

XÜLASƏ

Hər iki dildə yer alan zoonimik və fitonimik frazeoloji vahidlər istər ingilis, istərsə də Azərbaycan dillərində xüsusi bir təbəqəni təşkil edirlər. İnsanlara aid mənfi və ya müsbət keyfiyyətləri, onların davranışları, yaşayış tərzləri, cəmiyyətə və bir birilərinə olan münasibətləri, habelə müxtəlif təbiət hadisələrini zoonim və fitonim tərkibli frazeologizmlər vasitəsi ilə ifadə etmək mümkündür.

Zoonim və fitonim səciyyəli frazeologizmləri Azərbaycan dilinə olduğu kimi hərfi tərcümə etmək mümkün deyil. Bu halda qeyri-real, gülünc məna alınar. Frazeoloji vahidlər hər bir xalqın adət-ənənəsini, milli koloritini, dil sistemindəki özünəməxsus spesifik leksik-qrammatik formalarını əks etdirdiyindən bu cür ifadələr Azərbaycan dilinə əksər hallarda yanlış tərcümə edilir.

5. Müstəqil kommunikativ vahidlər - atalar sözləri ayrı-ayrı semantik məna bildirərək, sadə və mürəkkəb - tabeli və tabesiz cümlə quruluşuna sahib ola bilərlər.

Sadə cümlə quruluşlu zoonim tərkibli atalar sözlərində zoonim bir çox hallarda mübtəda funksiyasında çıxış edir, əmr cümlələrində isə zoonim tamamlıq funksiyasında işlənir, mübtəda isə formal xüsusiyyət daşıyır.

Mürəkkəb cümlə quruluşuna malik atalar sözlərində isə zoonim həm mübtəda, həm də tamamlıq vəzifəsində çıxış edə bilər.

Açar sözlər:zoonym və fitonim məşəli atalar sözləri,fitonym və zoonim,zoometaforik komponentlər, zoonimik variantlar.

Atalar sözləri və məsəllər şifahi xalq ədəbiyyatın ən qədim janrlarından hesab olunur. Ayrı-ayrı xalqların müəyyən dövrlərdəki həyat təcrübəsi, şərait və vəziyyətləri o cümlədən əlaqə və münasibətləri yığcam və obrazlı şəkildə atalar sözləri və məsəllərdə öz əksini tapmışdır. Atalar sözləri və məsəllər frazeoloji vahidlərin zənginləşməsində mühim mənbə rolunu oynayır.

Atalar sözləri şifahi xalq yaradıcılığının epik növünə aid olan ən sadə formalarından biridir. Atalar sözləri ictimai-tarixi həqiqətlərin bədii ifadəsidir. Bu janrın yardıcısı olan xalq özünün müdrik fikirlərini ən sadə üsulla, sadəcə bir-iki lakonik cümlə vasitəsilə çatdırmağı böyük məharətlə bacarmışdır. Başqa sözlə, atalar sözləri xalqın həyat təcrübəsi ilə əlaqədar nəticələrinin, müdrikliyinin eləcə də dilin zənginliyinin və yığcamlığının inkişafıdır.

Xarici dilçilərin bir çoxu frazeologiyanı geniş anlamda qəbul edənlərdir. Bu dilçilər sırasına C.S.Frays, A.A.Reformatski, A.İ.Yefimov, İ.A.Bulaxovski, E.Potric, N.M.Şanski, İ.Qoldman və başqaları daxildir. İkinci qrupa daxil edilən dilçilər isə

frazeologiyanı dar mənada qəbul edənlərdir. Onların fikirlərinə görə atalar sözləri və məsəllər frazeologiyanın tərkib hissəsinə aid edilməməlidir. Bu qrupa N.N.Amasova, A.B.Babkin, V.V.Vinoqradov, V.V.Yukov, A.İ.Smiritnski və digərlərini göstərmək olar.

Bu dilçilərdən daha çox diqqəti cəlb edən H.H.Amasovanın fikirləridir. Onun fikrinə görə əksər tədqiqatçılar müstəqil cümlə xüsusiyyətlərini özündə nümayiş etdirən, obrazlı, qiymətləndirici, didaktik mənalı və xarakterizəedici məzmuna xas olan atalar sözlərini frazeologiyaya daxil edirlər. Lakin H.Amasova bu fikrin düzgün olmadığı qənaətindədir. Tədqiqatçıya görə, atalar sözlərinin frazeoloji vahidlərlə sadəcə bir neçə oxşar tərəfləri vardır. Bunlar aşağıdakılardır:

a) onlar dildə hazır şəkildə mövcud olurlar

b) tərkib hissəsini təşkil edən komponentləri ayrılıqda müstəqil leksik mənaya malikdirlər

c) Leksik tərkibləri sabit olub dəyişməzdir

d) onların əksəriyyətinin məzmunu anlaşıqlı deyil

e) onların ifadə etdiyi məna həm mənəvi, həm də məcazi səciyyə daşıyır.

Bundan başqa xalqın yerləşdiyi ərazi, habelə onun flora və faunası, məişət məsələləri, davranış, əxlaq və sosial-mədəni vəziyyəti də atalar sözlərində əks olunur. Eyni zamanda bu janr şifahi xalq ədəbiyyatının fəlsəfi dayağını təşkil edir.

Atalar sözləri - məna cəhətdən cilallanmış, quruluş baxımından sadələşmiş sintsksemlər əmələ gətirə bilir. İstər Azərbaycan istərsə də ingilis xalqının qədim dövrlərdən bu günə kimi olan məişətinin bütün sahələrinə dair atalar sözlərinə rastlaşmaq mümkündür. Atalar sözləri düşündürücü, tərbiyəedici, nəsihətamiz və təsiredici kimi müsbət xüsusiyyətləri özündə cəmləşdirir. Onların arasında fitonim və zoonimlər işlənən atalar sözləri də geniş yer tutur. Qeyd edək ki, zoonim tərkibli ingilis atalar sözləri üçün yüksək semantik və üslubi xüsusiyyətlər xarakterikdir.

İnsanların əməyə olan sevgisini əks etdirən və zəhmətkeş olmağı aşılayan atalar sözləri: He that would have eggs must endure the cackling of hens = könlü balıq istəyənin quyruğu suda gərək; No bees no money, no work no money = işləməyən dişləməz; Feather by feather goose is plucked = səbir hər şeyin dərmanıdır və s.

Müxtəlif atalar sözlərində insanların yüksək səriştəsi, ağılı, biliyi alqışlanır: zeal without knowledge is a runway horse = ağıl hər şeydən üstündür; the dog that rots about finds a bone = axtaran tapar və s.

İnsanların çoxillik həyat təcrübəsini əks etdirən atalar sözləri: A bird in the hand is worth two in the bush = soğan olsun nağd olsun; Care kills the cat = Fikir insanı qocaldır; Curst cows have short horns = Tanrı bilir dəvəyə niyə qanad vermir; Old birds are not caught with chaff = Qoca qurd tələyə düşməz.

Atalar sözləri və məsəllər vasitəsilə təkcə müsbət keyfiyyətləri deyil həm də mənfi cəhətləri də obrazlı və təsiredici formada əks etdirir (nankorluq, naşükürlük, lovğalıq, işsizlik, acgözlük, tamahkarlıq və s.)

Atalar sözləri və məsəllərdə avara, işsiz və tənbəl insanlar qınaq obyektinə çevrilir (8, səh.255). A cat in gloves catches no mice = halva deməklə ağız şirin olmaz; a lazy sheep thinks it's wool heavy = tənbəl ata quyruğu da ağırlıq edir; tortoise wins the race while the hare is sleeping = yatan aparmaz yetən aparar; the early bird gets the late one's breakfast = fəraş quş qurd tutar; the cat eats fish but doesn't wet its feet = nə yoğurdum nə yapdım hazırca kökə tapdım; if you swear you will catch no fish = dua oxumaqla donuz darıdan çıxmaz və s.

Özünü tərifləyən, lovğalanan insanlar atalar sözlərində tənqid edilir: count your chickens before they are hatched = cücəni payızda sayarlar; every ass likes to hear himself bray = cırcırama elə bilir ondan gözəl oxuyan yoxdur; first catch your hare, then cook him = arxı hoppan sonra "hop" de; catch the bear before you sell the skin = at almamış tövlə tikməzlər.

Tamahkarlıq, azgözlük kimi mənfi keyfiyyətlər pislənilir: too much pudding will chorke the dog = artıq tamah baş yarar; the dog that puts up many hares kills none = çox istəyən azdan da olar, one cannot run with the hare and hunt with the dogs = dovşana qaç, tazıya tut demək.

Atalar sözlərində həmçinin insanlar naşükür olmamağa dəvət olunur və nankorluq qınanılır: honey is not for the ass's mouth = eşşək nə bilir zəfəran nədir; don't look a gift horse on the mouth = bəy verən atın dişinə baxmazlar, if you agree to carry the calf, they will make you carry the cow = Allah verdikcə bəndə gümana gələr.

Səfeh, axmaq insanlar atalar sözləri vasitəsilə gülünc obyektinə çevrilirlər: if the ass brays at you, don't bray at him = abrını gözlə abırsızdan; all asses wag their ears = bütün səfehlər özlərini ağıllı sanır; jest with an assortment and he will flap you in the face with his tail = dəliyə dəymə başına daş yağdırar.

İngilis dilində atalar sözlərinin başlıca semantik cəhətlərindən biri onun təkmənalılığıdır.

İngilis dilində bir sıra atalar sözlərinə rast gəlinir ki, onların zoometaforik komponentləri bir digər zoonimik variantlarla əvəz edilə bilər. Məsələn: there are more ways killing the dog than cooking it with the bone (məqsədə çatmağın yolları çoxdur) atalar sözündəki "dog" zoonimini "cat" sözü ilə dəyişsək eyni semantik məna əldə olunar; və ya the scalded cat (dog) fears cold water (qaynar südlə yanan qatığı da üfürər). Başqa bir nümunəyə diqqət yetirək: fine feathers make fair fowls (fine birds) - gözəllik ondur, doqquzu dondu.

Bəzi atalar sözlərinin tərkibindəki komponentlərin təkrarlanması vasitəsilə məna daha da qüvvətləndirilir: No bees, no honey, no work no money = işləməyən dişləməz; love me love my dog = itə sahibinə görə hörmət edərlər; he that will steal an egg will steal an ox - bu gün yumurta oğurlayan sabah toyuğu oğurlar; if you sell the cow, you sell your milk too = inəyi satıb çatısını axtarır; like cow like calf = anasına bax qızını al. (8, səh.269-270)

Atalar sözlərinin əksəriyyəti kvantitativ variantlara da malikdir. Belə ki, bu qəbildən olan atalar sözlərinin variantında onun komponentlərindən biri və bir neçəsi ixtisas edilir: First catch your hare then cook him = first catch your hare (arxı hoppanmamış "hop" demə = əvvəl arxı hoppan) (8, səh.253).

Atalar sözləri quruluşuna görə sadə (Every dog has his own way - Hər aslanın öz dövranı var) və mürəkkəb strukturlu (when the fox preaches beware the geese) ola bilər. Sadə cümlə formasında olan atalar sözlərində mübtəda ismi zoometaforizm olur (all cats are grey in the dark - gecə bütün pişiklər bozdur). Lakin çox az hallarda atalar sözü əmr cümləsi şəkilində işlənir ki, burada mübtəda formal olaraq çıxış edir. (Əslində zoometaforizm tamamlıq vəzifəsində olur: Love me, love my dog - itə sahibinə görə hörmət edərlər) (7, səh.141).

Dildə yer alan atalar sözlərinin bütün quruluş növləri zoonim mənşəli ola bilər: a)sadə cümlə: birds like it's own nest – hər quşa öz məskəni şirindir b) mürəkkəb cümlə: Catch the bear before you sell his skin – Arxı hoppan sonra "hop" denən və s.Zoonim səciyyəli ingilis atalar sözləri bütün atalar məsəli fondunun ümumi qaydalarına və semantik üslubi keyfiyyətlərinə mənsubdur. Nümunələri gözdən keçirək:

There is a black sheep in every flock - Meşə çaqqalsız olmaz

All cats are grey in the dark - Gecə qara cücə qara

Each birds loves to hear himself sing - Heç kim öz ayranına turş deməz

övcuddur ki, onlar çox az hallarda danışıq dilində istifadə edilir. Bu qəbildən olan atalar sözləri əsasən ədəbi dil üçün xarakterikdir və danışıq dilində nadir hallarda təsadüf edilir. Məsələn:

Fine feathers make fine birds - Gözəllik ondur, doqquzu dondur

Nothing falls into the mouth a sleeping fox - İşləməyən dişləməz

Pigs, like poets, are never appreciated until dead - donuzlar da şairlər kimi ölümündən sonra qiymətləndirilirlər

A black hem lays a white egg - Ağ ayranı itə tökərlər, qara kişmişi cibə

While the grass grows the horse starves - ölmə eşşəyim, yaz gələr yonca bitər

Zoonimlər kimi fitonimlər də atalar sözlərinin formalaşmasında yaxından iştirak edirlər:

Don't judge a tree by its bark.

An apple doesn't fall far from the tree

A rotten apple spoils the barrel.

Zoonim və fitonim mənşəli atalar sözləri quruluş baxımından sadə (A black hem lays a white egg - Ağ ayranı itə tökərlər, qara kişmişi cibə; An apple doesn't fall far from the tree - Alma ağacının dibinə alma düşər) və mürəkkəb strukturlu (While the grass grows the horse starves - Ölmə eşşəyim, yaz gələr yonca bitər) ola bilər. Sadə cümlə halında olan atalar sözlərində mübtəda həmişə ismi zoometaforizm kimi təzahür edilir. (All cats are grey in the dark - Gecə qara cücə qara). Sadəcə çox az hallarda atalar sözlərinin əmredici mənada işləndiyini

görürük. Belə ki, burada mübtəda formal funksiya daşıyır (zoometaforizm əslində tamamlıq vəzifəsində çıxış edir - Love me, love my dog - iti sahibinə görə sayarlar) (9, səh.261).

İngilis və Azərbaycan dillərində mürəkkəb strukturlu atalar sözləri frazeologiyanın əhəmiyyətli bir hissəsini təşkil edir. Mürəkkəb strukturlu atalar sözləri tabeli və tabesiz quruluşda təzahür edə bilər. Tabesiz quruluşlu atalar sözlərinin spesifik xüsusiyyətlərindən biri onlarda çox vaxt paralellik müşahidə edilməsidir. Bu cür atalar sözləri üçün tərkibindəki komponentlərdən ikincisinin və ya bəzən də hər ikisinin yarımçıqlığı, natamamlığı atalar sözünün ümumi mənasına görə tamamlanır. Məsələn; Give a dog bad name and hang him - Eyibsiz gözəl olmaz; March comes in like a lion and goes out like a lamb - Mart girdi dərd girdi, mart çıxdı dərd çıxdı və s.

Struktur əlamətlərinə, qrammatik mənasına, intonasiya və bağlayıcıların xüsusiyyətlərinə əsasən tabesiz mürəkkəb cümləli atalar sözlərinin komponentləri arasında müəyyən məna əlaqələrinə rast gəlinir (9).

Qarşılaşdırma-güzəşt əlaqəli atalar sözlərində qarşılaşdırma həm mübtəda və xəbər arasında (honey is sweet, but the bee stings - Üstü bəzək içi təzək; The dog barks but the caravan goes - İt hürər karvan keçər), həm də mübtəda və zərfliklər arasında (argues come on horseback but goes away on foot - Hayla gələn vayla gedər) və s. özünü göstərə bilər.

Ardıcıllıq əlaqəli atalar sözlərində eynicinsli hadisə və faktlar sadalanır və aralarında müəyyən bir ardıcıllq zənciri müşahidə edilir. Ardıcılzamanli atalar sözləri ayrı-ayrı tərkib hissələri və (and) bağlayıcısının iştirakı ilə formalaşmış olur. Məsələn; Set a beggar on horseback and he will ride to the devil - Üz verərsən astar da istər.

Zaman əlaqəli atalar sözlərində ayrı-ayrı həmcins fakt və hadisələrin eyni zaman müddətində reallaşdığı əks olunur. (The cat would eat a fish and would not wet her feet; Two dogs fight for a bone and the third runs away - Nə yoğurdu, ne yapdı hazırca kökə tapdı)və s.

Yuxarıda göstərilən nümunələrdən da aydın olur ki, tabesiz mürəkkəb cümlə quruluşuna malik atalar sözləri struktur növ baxımından daha rəngarəng və zəngindir. Bu quruluşda olan atalar sözlərində zoometaforizm həm mübtəda, həm tamamlıq, həm də digər fərqli vəzifələrdə çıxış edə bilər. (4,A.Hacıyeva, "Zoometaforizmlər, səh 110)

Фитонимы и зоонимы, используемые в пословицах и поговорках

Турабова Айнур

Резюме

Зоонимические фразеологизмы в обоих языках составсляют особый пласт как в английском, так и в азербайдском языках.С помощью фразеологизмов состоящих из зоонимов и фитонимов, можно выразить отрицательные или

положительные качества людей, их поведение образ жизни отношения к обществу и друг к другу, а также к различным явлениям природы.Дословный перевод зоонимов и фитонимов на азербайджанский язык невозможен.В данном случае это приобретает нереальный, нелепый смысл.Являясь самостоятельными коммуникативными единицами пословицы могут выражать различные смысловые значения и иметь простые сложноподчиненные, а также самостоятельные структуры предложений.В пословицах содержащих зоонимы в простых по структуре предложениях зооним часто употребляется в функции сказуемого, а сказуемое имеет формальную характеристику.В пословицах со сложной структурой предложений зооним может выступать как роли сказуемого, так и в роли дополнения.

Ключевые слова:пословицы зоонимического и фитонимического происхождения, фитонимы и зоонимы ,зоометафорические комроненты, зоонимические варианты.

PHYTONYMS AND ZOONYMS USED IN PROVERBS AND SAYINGS

Summary

Key words:proverbs with zoonyms and phytonyms, phytonyms and zoonyms, zoometaforik components, zoonomical optins

Zoonymical phraseological units in both languages constitute a special layer in both Englishn and Azerbaijani.It is possible to express negative or positive qualities of people ,their behavior,lifestyle,relationships to society and each other,as well as various natural phenomena through phraseologisms consisting of zoonyms and phytonyms.It is not possible to translate zoonyms and phytonyms literally into Azerbaijani.In this case ,it takes on an unrealistic,ridiculous meaning.

Since phraseological units reflect the customs and traditions of each people,their national color,and their specific lexical and grammatical forms in the language system,such expressions are often incorrectly translated into Azerbaijani.Indepen-dent communicative units, proverbs can express different semantic meanings and have simple and complex –subordinate and independent sentence structures.In proverbs containing zoonyms in simple sentence structures,the zoonyms is often used in function of a predicate ,and the predicate has a formal characteristic. In proverbs with complex sentence structures,the zoonim can act as both predicate and a complement.

ƏDƏBİYYAT

1. Abbasquliyev T. İngilis atalar sözləri və onların azərbaycanca-rusca qarşılıqları, Bakı, Elm, 1981
2. Adilov M.İ., Azərbaycan zoonimləri haqqında - ADU-nun "Elmi əsərlər"i (Dil və ədəbiyyat seriyası), Bakı 1979, N:2, səh 14-20
3. Əlizadə Ə. Azərbaycan atalar sözü və zərbi məsəllərin leksik-semantik xüsusiyyətləri , Bakı, 1980
4. Hacıyeva A.K. İngiliscə-Azərbaycanca zoometaforik frazeoloji lüğət. Bakı. Nurlan, 2004
5. Səmədova D. Azərbaycan və ingilis atalar sözlərinin tipologiyası, Bakı, Nurlan 2007
6. Yusifov G. Azərbaycan atalar sözlərinin leksik üslubi xüsusiyyətləri, 1969
7. Амосова Н.Н. Основы английской фразеологии. Ленинград:Изд-во ЛГУ, 1963, 207 с.
8. Кунин А.В. Фразеология современного английского языка. М., 1972, 287 с.
9. Кунин А.В. Курс фразеологии современного английского языка. М., 1986, 396 с.
10. Arnold V. The English word. Moscow, 1986.
11. Gayibova M.T., Jafarova L.M., Stylistic of the English Language, Baku, Science and Education, 2007, 125 p
12. Hajiyeva A. Contrastive Lexicology, Baku, Science and Education, 2013, 211 p
13. Marchand H. The categories and Types of Present - day English Word Formation. Munchen, 1969.
14. Oxford Dictionary of English Proverbs, London, 2000, 333 p
15. Picture Dictionary. Baku, 1991.
16. Smith L.P. Words and Idioms, London, 1948, 136 p

İstifadə olunmuş internet saytları:

17. www.encyclopedia.com
18. https://www.urbandictionary.com/define.php?term=trees
19. https://www.phrases.org.uk/meanings/animal-phrases.html

Rəyçi: Filologiya üzrə fəlsəfə doktoru dosent Sevinc Səlimova tərəfindən çapa tövsiyə olunmuşdur.

Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu, *ISSN 2224-9257*
Filologiya məsələləri № 3, 2025
Səh. ————————

QƏNİRƏ MƏHƏMMƏDƏLI ALLAHVERDIYEVA
Azərbaycan Texniki Universiteti
ganira. Muhammedali@gmail.com

KONSEPT VƏ ONUN SEMANTİK BAZASI

Açar sözlər: konsept, fərqləndirmək, məntiqi münasibət,ekstralinqvistik fəaliyyət, koqnitiv struktur

Key words: concept, to distinguish, logical attitude, extra linguistic activity, cognitive structure

Ключевые слова: концепция, различать, логическое отношение, внеязыковая деятельность, когнитивная структура

Koqnitiv dilçilikdə konseptin təbiətinin öyrənilməsinə birinci dərəcəli əhəmiyyət verilir. Konseptin əlamətlərini öyrənmək üçün edilən hər bir cəhd bütöv bir sıra əlaqəli anlayış (məfhum) və terminlərin mövcud olması faktını dərk etməyə gətirib çıxarır. Bu, hər şeydən əvvəl, konsept, anlayış və məna arasında olan əlaqədir. Onları fərqləndirmək problemi bizim zəmanədə nəzəri dilçilikdə ən çətin həll olunan və diskursiyaya səbəb olan məsələdir. Bu, onunla izah olunur ki, konsepti təhlil edərkən biz tədqiqatçıya bilavasitə qavrayışda verilməmiş məzmun planının mahiyyəti ilə məşğul oluruq; onların xassələri və təbiəti haqqında biz yalnız əlavə (vasitəli) məlumatlar əsasında mühakimə yürüdürük. Bundan əlavə, koqnitiv dilçilik gənc elmdir, bu isə böyümə (artım) məsələsidir.

Qeyd etmək istərdik ki, konsept probleminin həllinə çalışan nə qədər tədqiqatçı varsa, təxminən o qədər də nöqteyi-nəzər vardır desək, yəqin ki, yanıl- marıq. Hələ 1990-cı ildə D.S.Lixaçev yazırdı: "Anlayış (konsept) sözün mənasının yerləşdiyi, lakin başqa əlaqələr sistemində nəzərdən keçirilən hadisədir, məna-dil sistemində anlayış istər dilçilikdə, istərsə də məntiqdə tədqiq olunan məntiqi münasibət və formadır" [18, s. 94].

Son on il ərzində bu məsələnin başa düşülməsində çox şey dəyişib. Konseptlər sözlər və ekstralinqvistik fəaliyyət arasında vasitəçidir və sözün mənası yalnız onu əmələ gətirən konseptlərlə izah edilə bilməz. Konsept semantik tutumu leksik mənadan çox genişdir. Konsept - söz münasibətinə dair ilk dəfə S.A.Askoldov tərəfindən ifadə olunmuş fikirlərdən biri belədir [5, s. 270-275].

D.S.Lixaçevə görə, konsept sözlə onun mənalarından biri ilə uzlaşır. V.A.Maslova bu fikrə münasibətini belə izah edir: "Sinonimlərin mövcudluğu, daxili forma və uyğunlaşma qabiliyyəti bütövlükdə sözə deyil, onun ayrıca bir leksik-semantik variantına aid olur" [19, s. 72].

Yəqin ki, konseptlər haqqında sözün mənası anlayışları ilə uzlaşan (uyğun gələn) konseptlər kimi danışmaq daha düzgün olardı. Sözün mənası “işarə ilə tutulmuş" konseptdir. Bu mənada A.Vejbitskayanın "məna müəyyən münasibətdə

dildən asılı deyildir" fikri ilə razılaşmaq çətindir. Bununla belə, elmdə mənanı dilçilikdə kənara çıxaran və onu öz təbiətinə görə qeyri-dil kateqoriyası kimi təfəkkürün spesifik funksiyalarından biri, yəni əslində bunu son dərəcə qeyri-obyektiv təsvir edən daha kəskin fikirlər olmuşdur [9.48].

"Konsept" koqnitiv strukturların ən kiçik vahidi kimi dəyərləndirilir. Konsept yaddaşın deyil, düşüncənin (təfəkkürün) vahididir [Z.D.Popova və İ.A.Sternin, 20

] və onun əsas vəzifəsi dərketmə prosesini təmin etməkdən ibarətdir. Konsept təcrübənin insan yaddaşında saxlanılan, dərk olunan tipikləşmiş fraqmentlərin mental strukturudur [V.İ.Karasik, 13]. Konsept özlüyündə elementar biliyi təmsil edən mental strukturdur [İ.P.Susov, 23]. Konsept insanın mental (əqli) dünyasında mədəniyyətin əsas özəyidir [Y.S.Stepanov, 25; 64].

İnsan konseptlərlə düşünür, onların kombinasiyası əsasında təfəkkür prosesində yeni konseptlər yaradır. Buna görə də konsept biliyin strukturlaşmış kvantını təmsil edən qlobal təfəkkür vahidi hesab edilir. Təsadüfi deyildir ki, konseptlərin öyrənilməsi bu gün linqvistikanın perspektivli istiqamətlərindən hesab edilir. "Konsept" termininin linqvistik tədqiqatların kateqorial aparatına daxil edilməsi, təbii ki, elmi paradiqmin dəyişməsi, daha dəqiqi, struktur paradiqmin insana "bütün varlıqların ölçüsü" və onu "kainatın mərkəzinə qaytaran" antroposentrik paradiqmla əvəzlənməsilə şərtlənmişdir [10, s. 64].

Dilçilikdə "konsept" termininin vahid şərhi mövcud deyildir. Konseptə verilən ayrı-ayrı tərif lərdə bu və ya digər cəhət qabardılır ki, bu da fərqli mənzərələr yaradır. Məsələn, koqnitiv dilçiliyin nümayəndələri A.P.Babuşkin, E.S.Kubryakova, Z.D.Popova, İ.A.Sternin konseptin şərhində onun (konseptin) menatal mahiyyətini, onun fərdi şüur sahəsinə aid olmasını xüsusi qeyd edirlər. Linqvomədəni aspektin nümayəndələri (N.D.Arutyunova, V.I.Karasik, Y.S.Stepanov, Y.M.Lotman va b.) konseptin etnokultur şərtlənməsini qeyd edirlər. Əlavə edək ki, bu aspektlər biri digərini istisna yox, əksinə tamamlama münasibətindədirlər.

Şüurumuzda əsas əlamətlərin dəsti ilə təmsil olunan anlayışdan fərqli olaraq. konseptlər təkcə düşünülmürlər, həm də yaşanırlar. Konseptlər emosiya, simpatiya, antipatiya, fərqli fikirlərin toqquşmasının predmetidir. Dil insanın fikirlər dünyasına, psixikasına aparan yoldur. L.Yelmslevin qənaətinə görə, dil "həm insanın üslubunun başa düşülməsinə, həm də keçmiş nəsillərin həyat hadisələrinə yol aşa bilər" [11, s. 131].

Y.S.Stepanova görə, konsept "mədəniyyətin insan şüurunda sanki qatılaş-ması" və ya "bir tərəfdən, mədəniyyətin insanın mental dünyasına daxil olduğu nəsnə, digər tərəfdən, sadə, adi "mədəni dəyərlərin yaradıcısı olmayan insanın" mədəniyyətə varid olmaq, bəzi hallarda isə həm də ona təsir etmək vasitədir" [24, s. 40]. Müəllifin qənaətinə görə, "konseptlər gerçəkliyi, lakin xüsusi - mental gerçəkliyi təsvir edir" [24, s. 41].

Konseptlər dünyanın konseptual mənzərəsini formalaşdırır və dünyanın dil mənzərəsində əks olunurlar. Belə ki, koqnisuyanın əsas vahidi olan konseptin

şərhində birtərəfli yanaşma tam təsəvvür yaratmadığından əvvəlcədə uğursuzluğa malikdir. E.S.Kubryakova hesab edir ki, "konseptlər insan təcrübəsini əks etdirən şüur və informasiya strukturunun vahidləridir" [16, s. 90]. Müəllif konsepti həm də "yaddaşın, bütün dünyanın əməliyyat vahidi, bilik kvantı" adlandırır [16, s. 90].

Konseptləri leksik va frazeoloji qruplara bölən [7, s. 12] A.P.Babuşkinə görə, konsept "varlıq və şeylərin necə əlaqələndiklərini və onların necə kateqo-riyalaşdırlarını müəyyənləşdirən mental reprezentasiyadır" [7, s. 81].

V.V.Kolyosov isə bu fikirdədir ki, konsept "dil formasına düşməmiş xalis anlamdır, o, ilkin anlam, ilkin obraz, arxetip, kontant və s.-dir" [14, s. 53].

N.F.Alefirenko da konsepti koqnitiv kateqoriya, bilik kvantı hesab edir [4, s. 17]. V.İ.Karasikin anlamında isə konsept "insan yaddaşında saxlanılan mənalı, dərk edilən, tipikləşmiş fraqmentlərin mental məhsuludur" [13, s. 59].

Konseptin öyrənilməsinə daha çox diqqət yetirən N.N.Boldirev hesab edir ki, dərketmə fəaliyyəti nəticəsində insanda anlayışlar formalaşır və sonradan onlar dünya haqqında biliklər sistemində birləşirlər [8.63]. Bu sistem müxtəlif səviyyəli mürəkkəb və abstrakt konseptlərdən təşkil olunur. Dərketmənin müxtəlif formaları insan şüurunda konseptlərin formalaşmasının müxtəlif üsullarını müəyyən edir. N.N.Boldirev konseptin formalaşmasının müxtəlif üsullarını hissi təcrübə əsasında, insanın predmet-praktik fəaliyyəti əsasında, təfəkkür fəaliyyəti əsasında, verbal və qeyri-verbal ünsiyyət və s. qeyd edir [8, s. 23].

Konsept dildə ifadə olunmuş və etnomədəni səciyyəli kollektiv şüurun vahidləridir. Məhz verballıq və etnomədəni cizgililik konsepti anlayış, təsəvvür və mənadan fərqləndirir. Y.S.Stepanovun qənaətinə görə, "Konseptlər insanın mental dilnyasında anlayışlar, biliklar, assosisasiyalar, insan şüurunda yaşantılar kimi mövcud olan mədəniyyətin əsas özəkləridir" [25, s. 41]. Konseptlər insan yaddaşında konkret situasiyalarla bağlıdır və bu situasiyalar konsept adlandırılan ssenarilərə uyğun gəlir.

Koqnitiv tədqiqatların əsas qayəsini "yaddaşda saxlanılan koqnitiv strukturlar ətraf aləmi mental əks etdirməkdə" görən F.Y.Veysəlli "konseptləri koqnitiv strukturların ən kiçiyi" və ya konsept dünya haqqında bilikləri yadda saxlamaq funksiyasını" yerinə yetirdiyini qeyd edir [3, s. 31].

Konseptdə diskursda biliyin reprezentasiya vasitəsi kimi yanaşan A.Y.Məmmədov (M.Məmmədovla birlikdə) yazır ki, "diskurs ... elə bir platformadır ki, biliyin strukturları olan konseptlərlə müxtəlif səviyyəli və ...təbiətli linqvistik reperzentasiyalar arasında əlaqənin yaradılmasını təmin edir" . Müəllif konseptlərin lokal (konkret mədəniyyətlərə xas olan) və universal (qlobal bilik) konseptlari farqlandirir [2, s. 49].

Konsept verballaşır və dil işarələri vasitəsilə ifadə olunaraq dilin semantik məkanının bir hissəsinə çevrilir. Dil insanın əldə etdiyi bütün informasiyanı və sosiumun toplanmış təcrübəsini reprezentasiya edə bilir. Bunu nəzərə alan L.Yelmslev qeyd edir ki, "dil insanın fikir və hisslərini, əhval-ruhiyyəsini, istəyini,

iradə və fəaliyyətini formalaşdırdığı alətdir. Həm də onun vasitəsilə insan digərlərinə təsir edir. Dil insan dərrakəsilə sıx bağlıdır" [11, s. 131].

Müraciət olunan mənbələrdən də göründüyü kimi konseptin şərhində fərqli yanaşmalar mövcuddur. Konsept fenomeninə fərqli baxışların kökündə, zənnimizca, onda (konseptdə) toplanmış informasiyanın son dərəcə çoxqütblülüyüdür, o (informasiya) işarələnən obyekt haqqında bütün aspektlari, obyektin bütün təzahürləri və digər obyektlərlə əlaqəsi haqqında məlumat verməsindən irəli gəlir.

Dil daşıyıcıları tərəfindən formalaşdırılmış və insanların yaddaşında saxlanılan konseptlar konseptosferi əmələ gətirir. Qeyd edək ki, "konseptlər məcmusu" kimi nəzərdən keçirilən konseptosfer anlayışı D.S.Lixaçyov tərəfindən formalaşdırılmışdır [18, s. 8-9]. D.S.Lixaçyov konsept anlayışını müəyyən edərkən konsepti "konsept və ya ümumi anlayış fikrən törəmə kimi fikir prosesində bizim üçün eyni cinsli predmetlərin qeyri-müəyyən çoxluğunu avaz edir" ideyasını irəli sürən S.A.Askoldova-Alekseyevanın şərhinə istinad etdiyini qeyd edir . Lakin maraqlı məsələ burasıdır ki, sələfindən fərqli olaraq, D.S.Lixaçyov üçün konsept "həm sözün özü üçün mövcuddur, birincisi, sözün əsas mənası üçün ayrılıqda və, ikincisi, təklif edirəm ki, bizim yazılı və şifahi nitqdə istifadə etdiyimiz mənanın "riyazi" ifadəsi kimi qəbul edilsin, zira insan mənanın bütün mürəkkəbliyini sadəcə əhatə etməyi çatdırmır, bəzən bacarmır, bəzən də onu özünəməxsus şəkildə şərh edir [18, s. 4].

Konsept sözün leksik mənası ilə insanın şəxsi təcrübəsinin toqquşmasının nəticəsidir. D.S.Lixaçyova görə, "Söz, məna və konseptin necə qavranılmasını nəzərdən keçirərəkən biz insanı istisna etməməliyik... insanın mədəni təcrübəsi geniş və zəngin olduqca, konseptin də potensiyası geniş və zəngin və insanın mədəni təcrübəsi az olduqda onun dili, elə koseptsferi də kasıb olur" [18, s. 320].

Müxtəlif sahələri əhatə edən konseptlər ümumilikdə milli dilin konseptsferini təşkil edir. D.S.Lixaçyov qeyd edir ki, milli dilin konseptlər sferasını (və ya konseptsferin) xalqın mədəniyyətilə sıx əlaqədə öyrənmək lazımdır. O qeyd edir ki, "Konseptsfer xalqın mədəniyyəti, ədəbiyyatı, folkloru, elmi, təsviri sənəti zəngin olduqca o da zəngin olur, konseptsfer xalqın bütün tarixi təcrübəsilə əlaqəlidir" [18, s. 284]. D.S.Lixaçyov konseptləri aşağıdakı qruplarda təsnif edir: universal (məsələn, ölüm, həyat) etni (vətən, intelligensiya), quplar (“səhnə” tamaşaçı və aktyorlar üçün), fərdi (bu konseptlər fərdin təcrübəsindən, dəyərlər sistemindən, mədəni səviyyəsindən tam asılıdır).

S.A.Koşarnaya hesab edir ki, konseptosfer konseptual sahələri əmələ gətirən konseptlərin birləşməsinin müxtəlif növləridir. Sahələrin birləşməsi isə konseptosferi amala gətirir [15, s. 54].

Z.D.Popova və İ.A.Sternin hesab edir ki, konseptlərin yaranma mənbəyi insanların idrak fəaliyyətidir. "Konsepts fer fikri obrazlar sahəsini, insanların strukturlaşdırlmış biliklərini təmsil edir. Bundan başqa, konseptlər yetərincə nizamlı xarakter daşıyır. Konseptsferi əmələ gətirən konseptlər özlərinin ayrı-ayrı

əlamətlərinə görə digər konseptlərlə oxşarlıq, fərqlilik və hierarxiya sistem münasibətlərinə girirlər [20, s. 18].

Şübhəsiz ki, konsept mental törəmə, yaddaş vahidi, fərdin psixi hayatından asılı olan şüurumuzun məhsuludur. O anlayışdan elmi təsvirin məhsulu kimi fərqlənir. Konseptin koqnitiv mənşəli olduğunu inkar etmək çətindir, lakin bu o demək deyildir ki, konsept yalnız koqnitiv törəmə, təfəkkür vahidi və ayrıca şəxsin psixi resursudur, çünki o, həm də mədəniyyət faktı, xalqın tarixidir. Konseptin madaniyyətlə əlaqəsini inkar etmək, insan təfəkkürünün mədəniyyətlə əlaqəsini inkar etməyə bərabərdir. Konseptin məzmunu zəngindir və obyektin relevant (əsas) əlmətlərini əks etdirən biliklə əlaqəlidir.

Konseptin vacib əlamətləri aşağıdakılardan ibarətdir: 1) konsept, bir tərəfdən, şüurun düşüncə, psixi resursunun vahidi, digər tərəfdən isə mədəniyyət faktı, vahididir; 2) konsept dinamik xarakterlidir və insanın psixi həyatının qanuna-uyğunluqlarına tabedir; 3) digər konseptlardan təcrid olunmuş formada mövcud ola bilməz, konseptlərin məcmusu konseptsferi əmələ gətirir, 4) çoxqatlı, çoxkom-ponentlidir, 5) konseptin əsas funksiyası əvəzetmədən ibarətdir, çlinki düşünmə fəaliyyəti prosesində eyni cinsli elementlər çoxluğunu əvəz edə bilir; 6) verbal (sözlü) ifadə vasitələrilə bağlıdır, onlar arasında leksik vasitələr əsas yer tutur; 7) adətən, konsept birdən çox leksik vahidə, yəni müxtəlifcinsli vahidlərin bütün məcmusunun ifadə planı ilə uyğun gəlir; 8) nitqdə tam ifadə olunmur, konseptin ifadəsinin bütün dil vasitələrini qeydə almaq mümkün deyildir; 9) gerçəkliyin konseptləşdirilməsi konseptin işarələnməsi, ifadəsi və təsviri vasitəsilə yerinə yetirilir.

Mürəkkəb mahiyyətli konseptlərin vahid təsnifatını vermək çətindir. Lakin bununla belə konseptlərin təsnifatı istiqamətində xeyli cəhdlər olmuşdur. Həmin cəhdləri ümumiləşdirsək aşağıdakı mənzərəni əldə etmiş olarıq:

1) koqnitiv (konkret-hissi obraz, təsəvvür, sxem, anlayış, prototip, propozisiya, ssenari, qeştalt);

2) kulturoloji (konkret, nisbətən abstrakt konseptlər, dünyagörüşü universaliləri);

3) sosiolinqvistik (etnomədəni, sosiomədəni və fərdi-mədəni);

4) məfhum (kosmik, sosioloji, psixoloji və s.).

Konseptlə bağlı dilçilər arasında ortaq fikir onun mürəkkəb struktura malik olmasıdır. Konsept baza (özək) və əlavə koqnitiv əlamətlərdən təşkil olunmuş şərh edilən (periferiya, ətraf) sahəyə malikdir. Konseptlər dünyanın konseptual mənzərəsini yaradır və dünyanın dil mənzərəsində əks olunurlar.

İstifadə edilmiş ədəbiyyat:

1. Məmmədov A., Məmmədov M. Diskurs tədqiqi. Dərs vəsaiti. -Bakı: Bakı Universiteti nəşriyyatı, 2013, 78s.
2. Məmmədov A., Məmmədov M. Diskurs təhlilinin koqnitiv perspektivləri. -Bakı:

Çaşıoğlu, 2010, 96 s.
3. Veysəlli F.Y. Semiotika. Studia Philologica IV.- Bakı: Mütərcim, 2010. 336s.
4.Алефиренко Н.Ф. Поэтическая энергия слова. Синергетика языка, сознания и культуры. - М.: Academia, 2002, 394 с.
5. Аскольдов С.А. Концепт и слова / Русская словесность: Антология / Под ред. В.Н.Нерознака. -М.: Academia, 1997, с. 251-270
6.Бабушкин А.П. Типы концептов в лексико-фразеологической семантике языка. -Воронеж: Изд-во Воронеж. гос. ун-та, 1996, 103с.
7. Бабушкин А.П. Концептуальные типы значений // Контрастивные сследования лексики и фразеологии русского языка. Воронеж: 1996, с. 226-236
8.Болдырев Н.Н. Когнитивная семантика. -Тамбов: Изд-во Тамб. Гос. ун-та, 2000, 123 с.
9.Вежбицкая А. Язык. Культура. Познание. -М.: Русские словары, 1996, 259 с.
10.Воркачев С.Г. Лингвокультурология, языковая личность, концепт. Становление антропоцентрической парадигмы в языкознании // Филологические науки. 2001, №1, с. 58-66
11.Ельмслев Л. Пролегомены к теории языка// Новое в лингвистике.Вып.I. -М.: 1960, с.131-256
12.Карасик В.И.Введение в когнитивную лингвистику. -М.: 2004, 236 с
13.Карасик В.И. Культурные доминанты в языке // Языковая личность: культурные концепты. -Волгоград: Архангельск: 1996, с. 231-245
14.Колесов В.В. О логике логоса в сфере ментальности // Мир русского слова. - М.: 2000, No2, с. 52-59
15.Кошарная С.А. Миф и язык. -Белгород: 2002, 287 с.
16.Кубрякова Е.С. Язык и знание: на пути получения знаний о языке. Части речи с когнитивной точки зрения. Роль языка в познании мира. - М.: Языки славянской культуры, 2004, 560 с.
17.Лангакер Р.У. Когнитивная грамматика. -М.: ИНИОН, 1992, 56 с. 49.
18.Лихачев Д.С. Концептосфера русского языка // Русская словесность: Антология / Под ред. В.П.Нерознака.- М.: Academia, 1997, с. 280-287
19.Маслова В.А. Введение в лингвокультурологию. -М.: 1997, 298 с
20. Попова З.Д. Понятие «концепт» в лингвистических исследованиях /З.Д.Попова, И.А. Стернин. Воронеж: 1999, с. 27-34
21. Рахилина Е.В. Когнитивная семантика: история, персоналии, идеи, результаты // Семантика и информатика. Сборник научных статей. -М.: Русские словари, 1998, вып. 36, с. 176-198
22.Рахилина Е.В. О тенденциях в развитии когнитивной семантики // Известия АН РАН. Серия литературы и языка. Т. 59. -М.: 2000, № 3, с.43-61
23.Сусов И.П. Интерграционный этап в развитии лингвистической теории и сущность вклада когнитивной лингвистики // Когнитивная лингвистика. Современное состояние и перспективы развития. Ч. 1. - Тамбов: 1998, 337 с.

24. Степанов, Ю.С. Константы: словарь русской культуры. 3-е изд. -М.: Акад. проект, 2004, 990 с.
25.Степанов Ю.С. Французская стилистика. -М.: Высшая школа, 1965, 356 с.
26.Телия В.Н. Культурно-национальные коннотации фразеологизмов / Славянское языкознание. -М.: 1992, 292 с.
27.Телия В.Н. К проблеме связанного значения слова: гипотезы, факты, перспективы //Язык-система, язык текст, язык-способность. -М.: 1995, с. 187-213
28.Jackendoff R. Grammer as Evidence for Conceptual Structure Linguistic Theory and Psychological Reality. Cambridge (Mass.): MIT Press, 1978, 321 p.
29.Lakoff G. Categories: an essay in cognitive linguistics/Linguistics in the Morning Calm, Seoul: Hanshin, 1983, p. 139-194
30.Lakoff G. Women, Fire and Other things, Burkeley University Press, UCB, 2008, 489 p.
31.Schwarz M. Einführung in die kognitive Linguistik. 3. Auflage, Tübingen, 2008, p. 22-38,42

АЛЛАХВЕРДИЕВА ГАРНИРА МУХАММЕД АЛИ

РЕЗЮМЕ

ПОНЯТИЯ И ЕГО СМЫСЛОВАЯ БАЗА

Чтобы исправить концептуальную систему, необходимо предположить, что существует несколько начальных или начальных концепции, за которыми следует другие.Не исключено, что одна и то же понятие по - разному понимается как в рамках одной культуры, так и в разных культурах.Концепции, как интерпретаторы значений, всегда подвержены дальнейшему уточнению и модификации.Они выступают лишь в качестве сущности, которая реализуется в самом начале времени их возникновения

ALLAHVERDIYEVA GANIRA MUHAMMADALI

SUMMARY

THE CONCEPTS AND ITS SEMANTIC BASE

To fix the conceptual system,it is necessary to guess that there are several initial concepts of which others do later.It is not exclude that the same concept is understood differently both within the framework of one culture and in different cultures.Concepts,are commentators of meanings ,are always caught up in subsequent refinement and modification.The act as essence, realized only at the beginning of the time of their own formation.

Rəyçi: f.e.d.prof. Shafaqat Mahmudova

Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu, *ISSN 2224-9257*
Filologiya məsələləri № 3, 2025
Səh. ——————

Fil.f.d. SƏFƏROVA AYSEL VƏLIYULLA QIZI
ADU
safarova.aysel@adu.az
novruzova.099@gmail.com

TƏRKİBİNDƏ "MONEY" SÖZÜ OLAN İNGİLİS FRAZEOLOJİ VAHİDLƏRİNİN SEMANTİK XÜSUSİYYƏTLƏRİ

Açar sözlər: frazeoloji vahidlər, linqvistik konseptuallaşdırma, dil vahidləri, məcazi məna
Key words: фразеологизмы, лингвистическая концептуализация, языковые единицы, переносное значение
Ключевые слова: phraseological units, linguistic conceptualization, language units, figurative meaning

Bütün dünyada getdikcə geniş vüsət alan qloballaşma prosesləri milliliyin müxtəlif aspektlərinin öyrənilməsinə marağı artırmışdır. Mədəniyyətlər, onların düzgün başa düşülməsi mədəniyyətlərarası dialoqun effektivliyini müəyyən edir. Frazeologizmlər milli mədəniyyətin özünəməxsus hissəsi kimi görünür və dünyanın xüsusiyyətlərini, xalqın idrakını, mentalitetini, onun tarixini və həyat tərzini obrazlı şəkildə əks etdirir. Onların istifadəsi mətnə milli kimlik və xüsusi ifadəlilik verir. Frazeoloji vahidlərin mədəni spesifikliyi, eləcə də frazeoloji ifadələrin hərfi tərcümə olunmaması, əksinə qavranılmas onların tərcüməsində çətinliklərə səbəb olur. Yalnız frazeoloji vahidin mənasını çatdırmaq deyil, həm də onun obrazlılığını və üslubi məzmununu nəzərə almaqla qorumaq lazımdır. Tərcüməçinin şəxsiyyətinin rolu da mühümdür, onun təkcə dili dərindən bilməsi deyil, həm də şübhəsiz ki, müəyyən xalqın mədəniyyətini, tarixi şəraiti və tərcümə mətninin yazıldığı dövrü dərk etməsidir. Frazeologiya (yun. Phrasis – "ifadə", logos – "tədris") dilçiliyin dildəki sabit birləşmələri öyrənən bölməsidir. Frazeoloji vahidlər dilin xüsusi vahidləri kimi 20-ci əsrin əvvəllərində dilçilərin diqqətini cəlb etməyə başlamışdı. 20-ci əsrin ikinci yarısında bu söz birləşmələri elmi araşdırma obyektinə çevrildi. Frazeoloji vahidlər nitqimizin daha parlaq və təsirli olması üçün müxtəlif sfera və sahələrdə geniş istifadə olunan ifadəli vasitələrə aiddir. Frazeoloji vahidlər bizi müəyyən mədəniyyətlərin və icmaların nümayəndələrinə tanış olan kodun köməyi ilə fikirlərimizi obrazlı şəkildə necə təqdim edəcəyimizə dair hazır ifadələrlə təmin edirlər. "Frazeoloji vahid" anlayışı ilk dəfə Çarlz Balli tərəfindən istifadə edilmişdir. Ç.Balli nəzəriyyəsində deyilir ki, frazeoloji vahidin əsas əlaməti onun bir sözlə əvəzlənməsinin mümkün və ya qeyri-mümkünlüyüdür [7, s.38]. R.S.Ginzburqun fikrincə "Frazeoloji vahidlər nitqdə sərbəst düzələ bilməyən, lakin hazır vahidlər kimi təkrarlanan motivsiz söz qruplarıdır" [7, s.38]. N.N.Amosova da öz növbəsində frazeoloji vahidləri müəyyən leksik komponentlərin spesifik və dəyişməz ardıcıllığı və onlar arasında mövcud olan özünəməxsus semantik əlaqə ilə xarakterizə olunan kontekst olan sabit kontekst vahidləri kimi müəyyən edir [7, s.38]. V.V. Vinoqradov

frazeoloji vahidləri bir nəsildən digərinə keçən və ənənəvi söz birləşmələri kimi nitq prosesində işlənən hazır dil vahidləri kimi müəyyən edir. Digər görkəmli rus dilçisi A.V.Kunin ətraflı tədqiqat apararaq belə nəticəyə gəlmişdir ki, frazeoloji vahidlər tam və ya qismən məcazi məna daşıyan sözlərin sabit birləşmələridir. [6, s.45]

Dilçilyin bir sahəsi kimi frazeologiyanın vəzifələri müəyyən bir dilin frazeoloji fondunun hərtərəfli öyrənilməsini əhatə edir. Bu elmin öyrənilməsinin mühüm cəhətləri bunlardır: frazeoloji vahidlərin sabitliyi, frazeologiyanın sistemliliyi və frazeoloji vahidlərin semantik quruluşu, onların mənşəyi və əsas funksiyaları. Frazeologiyanın xüsusilə mürəkkəb bir qolu frazeoloji vahidlərin tərcüməsidir ki, bunun tədqiqi sahəsində xeyli təcrübə tələb olunur.

Frazeoloji vahidlərin xarakterik xüsusiyyətləri:

1. canlı təsvirlər və bunun nəticəsində paralel mövcud ifadələrlə üst-üstə düşmə ehtimalı: to throw dust into smb.'s eyes, to be narrow in the shoulders, to burn one's fingers, to burn bridges və s.
2. ayrı-ayrı komponentlərin semantikasının qorunması: to put a spoke in smb.'s wheel
3. bəzi komponentləri digərləri ilə əvəz etməyin mümkünsüzlüyü: to hold one's cards close to one's chest
4. emosional və ifadəli işlənmə həlledici rol oynayır: to throw dust into smb.'s eyes, to paint the devil blacker than he is
5. ayrı-ayrı sözlər və ya digər frazeoloji vahidlərlə sinonim əlaqəyə girmək bacarığı: to gild refined gold = to paint the lily

Hər bir dilin özünəməxsus frazeologizmləri var. İngilis dilinin da frazeologiya dünyası çox böyük va müxtəlifdir. Ingilis dilinin tarixi inkişafı nəticəsində əmələ gəlmiş bu mürəkkəb frazeoloji sistem o dərəcədə zəngindir ki, danışıq prossesində, frazeologizmlərin vasitəsi ilə bu və ya digər fikri aydın şəkildə başqasına çatdırmaq mümkündür. Bu dilin frazeologizmləri minillik tarixə malikdir. Onlar müxtəlif ictimai tarixi şəraitdə və çox müxtəlif səbəblər əsasında əmələ gəlmişdir. Ingilis dilinin frazeologizmlərinin əmələgəlmə mənbəyi, əsasən, xalq danışıq dili, yazılı ədəbiyyat va folklor olmuşdur. Frazeologizmlər hər bir xalqın həyat və yaşayış tərzi, sənəti-peşəsi, mifik rəvayətləri, dini və mövhumi təsəvvürləri, adət-ənənəsi, dünyagörüşü ilə əlaqədar yaranmış və indi da yaranmaqdadır.

İngilis dilində frazeoloji vahidlərin tədqiqi göstərir ki, onlar bir növ linqvistik konseptuallaşdırma vasitəsidir. İngilis frazeoloji vahidləri milli mədəniyyətlər haqqında məşhur faktları, xalqların tarixi hadisələri, adət-ənənələri və əfsanələri müəyyən bir məsələ üçün vacib olan məlumatları ehtiva edir. [4, s.132]

İngilis etimoloji lüğətinə görə, "money" sözü 13-cü əsrin ortalarında meydana çıxmışdır. Söz qədim fransız "monoie" – "pul, sikkə, valyuta" sözündəndir, bu da öz növbəsində latın "moneta" dan əmələ gəlmişdir. Qeyd etmək lazımdır ki, latın dilində "moneta" (pul) sözü Roma ilahəsi Juno Monetanın adından götürülmüşdür. Bu məqalənin məqsədi ingilis dilində tərkibində "money" sözü

frazeoloji vahidlərin tədqiqini həyata keçirməkdir. Əsrlər boyu "money" pul insani dəyərləri, davranışları və sərvət və güclə münasibətləri əks etdirən deyimlərə və ifadələrə daxil olmuşdur. Tərkibində "money" sözü olan deyimlər yalnız bankda və ya büdcə danışıqları, iş müsahibələri zamanı deyil, hətta maliyyə ilə bağlı olmayan gündəlik söhbətlər zamanı da eşidilə bilər. Bu mədəni ifadələr ingilis dilində danışanlar tərəfindən asanlıqla başa düşülsə də, dil öyrənənlər onların mənasına görə çaşıb qala bilərlər. Pulla bağlı əksər deyimlər insanın maddi vəziyyəti ilə bağlıdır, baxmayaraq ki, onlar həm də bir insanın görünüşünü və ya münasibətini təsvir etmək və hətta kiməsə qarşı hörmətsizlik ifadə etmək üçün istifadə edilə bilər. Gəlin "money" sözünü, mənalarını və etimoloji mənşəyini ehtiva edən ən məşhur idiomlardan bəzilərini nəzərdən keçirək.

- *Easy money/soft money/* money for jam- Çətin iş olmadan qazanılan pul; az səy tələb edən pul. Məsələn: The movie rights to a successful play mean easy money to the writer of the play. Young people who look for easy money are usually disappointed.
- *Made of money* – çox varlı, zəngin deməkdir. Məsələn: Mr. Jones buys his children everything they want. He must be made of money.
- *On the money* - Tam doğru; tam dəqiq. Məsələn: Algernon won the lottery; the numbers he picked were right on the money. I won the contest because my guess was on the money. I think her assessment of the situation is right on the money.
- *Pour money* down the drain – pulunu məqsədsiz şəkildə xərcləmək, öz vəsaitini israf etmək. Məsələn: She is so thoughtless! She needs to save up to pay the bills but she just pours her money down the drain. [9]
- *Put one's money on a scratched horse* - udmaq şansı olmadan qumar oynamaq, mərc gəlmək. Məsələn: You bet on the New York Mets to win the World Series? Why put your money on a scratched horse?
- *See the color of one's money* - xərcləmək üçün pulunuz olduğunu bilmək. Məsələn: Before I show you the diamond, let me see the color of your money. I want to see the colour of his money before shipping the goods.
- *Spending money/pocket money* – cibxərcliyi, xəcləmək üçün insane verilən pul deməkdir. Məsələn: When the seniors went to New York City on a trip, each was given $10 in spending money. Father gave John a nickel in pocket money when he went to the store with Mother. [9]
- *Front money* – avans, ilkin ödəniş mənasını bildirir. Məsələn: You need to put up some front money.
- *Blood money* - böyük zəhmətlə və ya çətinliklərə dözərək qazanılan pula işarə edir.
- *Mad money* - istirahət üçün qənaət edilən pul deməkdir. Məsələn: I don't have any mad money for the vacation. [10]
- *Raise money/raise funds* - Xeyriyyə və ya müəyyən bir layihə üçün ianə tələb etmək. Məsələn: Our church is trying to raise the money for a new organ.

- *Money burns a hole in one's pocket* – olan pulu tez xərcləmək, pulu saxlaya bilməmək, qazanan kimi xərcləmək mənasını bildirir. Məsələn: Money burns a hole in Linda's pocket. The silver dollar that Don got for his birthday was burning a hole in his pocket, and Don hurried to a dime store.
- *World money* - beynəlxalq borcların ödənilməsi üçün geniş şəkildə qəbul edilən valyuta və ya mübadilə vasitəsi kimi nəzərdə tutulur.
- *Be in the money* – çoxlu pulu olmaq, varlı, zəngin olmaq deməkdir. Məsələn: After his rich uncle died, Richard was in the chips. After years of struggle and dependence, air transportation is in the money.
- *Be pressed for money/be pushed for money* – pula ehtiyacı olmaq, az pulu olmaq deməkdir. Məsələn: I'm kind of pressed for money right now, so can we go out to dinner next weekend instead? An unexpected car repair has left me pressed for money this month.
- *Money talks* – pulun insana təsitini ifadə edir, pulla hər şey əldə etmək olduğu anlamına gəlir, pulun varsa güclüsən deməkdir. Məsələn: The executive wasn't worried about their critics in Congress. After all, money talks.
- *Money doesn't grow on trees* - Kiməsə pulun məhdud olduğunu və diqqətsiz xərclənməməli olduğunu xatırlatmaq üçün istifadə olunur. Məsələn: We're not going back to the mall—money doesn't grow on trees! [11]
- *Hush money* - kiməsə utanc verici və ya etibarsız məlumatların yayılmasının qarşısını almaq üçün ödənilən pul. Məsələn: He's accused of paying her hush money to keep their affair secret.
- *Marry money* – varlı adamla evlənmək, zənginlə ailə həyatı qurmaq mənasını bildirir. Məsələn: Ellen married money when she became Hal's wife.
- *One's money's worth* - xərclənmiş və ya investisiya edilmiş pulun ədalətli qaytarılması anlamını ifadə edir. Məsələn: I wouldn't say that the trip was a great bargain, but I feel that we got our money's worth.
- *Pots of money* – çox pulu olmaq deməkdir. Məsələn: She's got pots of money (= she's very rich) and can easily afford it.
- *Run for one's money* – iki mənası vardır: 1)çətin mübarizə mənasını bildirir. Məsələn: Our team didn't win the game, but they gave the other team a run for their money. 2) məmnuniyyət; maraq; həyəcan ifadə edir. Məsələn: People like to watch the champion fight because they get a good run for their money from him. A good student gives a teacher more than a run for his money.
- *A fool and his money are soon parted* - bu ifadə 16-cı əsrdə ingilis şairi Tomas Tusser tərəfindən yazılmış bir atalar sözünə gedib çıxır. Bu o deməkdir ki, maliyyəsi ilə müdrik olmayan insanlar sərvətlərini tez itirəcəklər. Məsələn: "He spent his entire paycheck on lottery tickets. A fool and his money are soon parted."

- *Time is money* – vaxt qızıldır mənasını bildirir. Məsələn: Time is money and I do not want to waste time talking to our supervisor because she always wants to argue with me. [9]
- Mugs' money - riskdən xəbərsiz olan investorlardan gələn pula işarə edir.
- Ooftish money - qumar və ya investisiya üçün mövcud olan deməkdir.
- Money speaks sense in a language all nations understand (Aphra Behn) - Pul millətlərin başa düşdüyü dildə danışır.
- A successful man is one who makes more money than his wife can spend. A successful woman is one who can find such a man (Lana Turner) - Uğurlu kişi arvadının xərcləyə biləcəyindən daha çox pul qazanan adamdır. Uğurlu qadın elə kişini tapa biləndir.
- Liking money like I like it, is nothing less than mysticism. Money is a glory (Salvador Dali) - Pulu mənim sevdiyim kimi sevmək, ən azından mistikdir. Pul şöhrətdir.
- Always borrow money from a pessimist. He won't expect it back (Oscar Wilde) - Həmişə bir pessimistdən borc götürün. O, pulun geri qaytarılacağını gözləməyəcək.
- Where large sums of money are concerned, it is advisable to trust nobody (Agatha Christie) – Söhbət böyük puldan gedərsə, heç kimə etibar etməmək məsləhətdir.
- Do not hire a man who does your work for money, but him who does it for love of it (Henry David Thoreau) - İşini pulla görən adamı işə götürməyin; işini sevərək görən adamı işə götürün. [12]

Yekun olaraq qeyd etmək lazımdır ki, tərkibində "money" olan ingilis deyimləri maliyyə sferasının müxtəlif aspektlərinin ən ümumi vəziyyətlərini və hadisələrini təmsil etməyə kömək edən müxtəlif strukturlarla təmsil olunur. Onlar xüsusi maliyyə lüğətini əhatə edə bilər və ya yalnız ümumi sözlərdən ibarət ola bilər.

ƏDƏBİYYAT

1. Əhmədova F. İngilis və Azərbaycan dillərinə məxsus frazeoloji vahidlərdə struktur-semantik xüsusiyyətlərin müqayisəli tədqiqinə dair // ADU-nun Elmi xəbərləri, № 4, 2007.
2.Quliyev T.S. Müxtəlifsistemli dillərdə idiomatik birləşmələr Bakı, 2016
3.Амосова Н. Н. Основы английской фразеологии. М.: Либроком, 2010.
4.Басуева Н. Агафонова Д. О некоторых особенностях перевода английских фразеологизмов на русский язык Studia Russologica 12, 2019
5.Виноградов В.– Перевод: общие и лексические вопросы, Москва, «Книжный дом», 2004
6.Кунин А. В. Курс фразеологии современного английского языка: учеб. пособие для ин-тов и фак. иностр. яз. Изд-е 3-е, 2005.

7.Colenciuc I. Structural and Semantic Peculiarities of Money-related Phraseological Units University Lecturer
8. Goddard1 C., Wierzbicka A., FARESE G. M. The Conceptual Semantics of "Money" and "Money Verbs" Russian Journal of Linguistics, 2022
9. https://enpuz.ru/idiom/money/4
10. https://engblog.ru/expressions-and-idioms-about-money-in-english
11. https://www.grammarly.com/blog/idioms/idioms-about-money/
12.https://www.yescenter.ru/informaciya/baza-znanij/anglijskij-yazyk/aforizmy/ afo-rizmy- pro-dengi/

SƏFƏROVA AYSEL VƏLIYULLA QIZ

TƏRKİBİNDƏ "MONEY" SÖZÜ OLAN İNGİLİS FRAZEOLOJİ VAHİDLƏRİN SEMANTİK XÜSUSİYYƏTLƏRİ

Xülasə

Frazeoloji vahidlərin yaranması, insanların birbaşa yaşam tərzləri ilə həmahəng olmasından irəli gəlir. Belə ki, frazeologizmlər yaranan zaman etnik və kənar linqvistik amillər çox böyük rol oynayır. Məhz bu səbəbdən də bu amillər frazeoloji vahidlərin formalaşmasını və inkişafını şərtləndirən xüsusi cəhətlər hesab olunur. Frazeoloji birləşmələr bütün başqa dillərdə olduğu kimi ingilis dillində də xüsusi əhəmiyyət kəsb edən söz birləşmələridir. Frazeoloji vahidlər nitqi daha gözəl, canlı və rəngarəng edir. Məqalədə tərkibində "money" sözü olan ingilis frazeoloji vahidlərinin strukturu, leksik tərkibi və semantikası araşdırılmışdır. Ümumbəşəri və ya mədəniyyətə xas mentalitet xüsusiyyətlərini əks etdirən bu ifadələr insanların pula, zənginliyə və ya yoxsulluğa münasibətini ifadə edir. Onlar həmçinin insanların dəyərlərini, adət-ənənələrlə zəngin həyat tərzini və meyllərini, habelə onların maddi və sosial statusu ilə bağlı fikirlərini açıqlayır. İngilis dilində tərkibində "money" sözü olan frazeoloji vahidlərin tətbiqi və mənası kifayət qədər genişdir. Müəllif dildə üslubi rəngarəngliyi ilə seçilən frazeoloji vahidlərin hərtərəfli öyrənilməsi, onlara xas olan səciyyəvi əlamətlərin müəyyənləşdirilərək təhlilə cəlb etmişdir. Müəllif tətqiq etdiyi frazeoloji vahidləri xalqın özünəməxsus dünyagörüşünü, həyat tərzini, tarixini, inanclarını əks etdirən milli mədəniyyətin tərkib hissəsi hesab edir.

SAFAROVA AYSEL VALIYULLA

SEMANTIC FEATURES OF ENGLISH PHRASEOLOGICAL UNITS CONTAINING THE WORD "MONEY"

Summary

The emergence of phraseological units stems from the direct harmony of people with their lifestyles. Thus, when phraseologisms arise, ethnic and external linguistic factors play a very important role. It is for this reason that these factors are considered special features that determine the formation and development of phraseological units. Phraseological units are word combinations that are of

particular importance in English, as in all other languages. Phraseological units make speech more beautiful, lively and colorful. The article examines the structure, lexical composition and semantics of English phraseological units containing the word "money". These expressions, which reflect universal or cultural characteristics of mentality, express people's attitude towards money, wealth or poverty. They also reveal people's values, lifestyles and tendencies rich in customs and traditions, as well as their ideas about their material and social status. The application and meaning of phraseological units containing the word "money" in English is quite wide. The author has conducted a comprehensive study of phraseological units, distinguished by their stylistic diversity, and has analyzed their characteristic features. The author considers the phraseological units she studied to be an integral part of the national culture, reflecting the unique worldview, lifestyle, history and beliefs of the people.

САФАРОВА АЙСЕЛЬ ВАЛИУЛЛА

СЕМАНТИЧЕСКИЕ ОСОБЕННОСТИ АНГЛИЙСКИХ ФРАЗЕОЛОГИЗМОВ, СОДЕРЖАЩИХ СЛОВО «MONEY»

Резюме

Возникновение фразеологизмов обусловлено непосредственным взаимодействием людей с их образом жизни. Таким образом, этнические и внешнеязыковые факторы играют весьма важную роль в образовании фразеологизмов. По этой причине данные факторы рассматриваются как особые аспекты, определяющие формирование и развитие фразеологических единиц. Фразеологические сочетания — это словосочетания, которые имеют особое значение в английском языке, как и во всех других языках. Фразеологизмы делают речь более красивой, живой и красочной. В статье рассматриваются структура, лексический состав и семантика английских фразеологизмов, содержащих слово «money». Эти выражения, отражающие универсальные или специфические культурные особенности, выражают отношение людей к деньгам, богатству или бедности. Они также раскрывают ценности людей, традиционный образ жизни и тенденции, а также их взгляды на свой материальный и социальный статус. Область применения и значение фразеологизмов, содержащих слово «money» в английском языке, достаточно обширны. Автор провел комплексное исследование фразеологических единиц, отличающихся стилистическим разнообразием, и проанализировал их характерные черты. Автор считает изученные им фразеологизмы неотъемлемой частью национальной культуры, отражающей своеобразие мировоззрения, образа жизни, истории и верований народа.

Rəyçi: prof. Fikrət Cahangirov

Azərbaycan Milli Elmlər Akademiyasi M. Füzuli adına Əlyazmalar Institutu, *ISSN 2224-9257*
Filologiya məsələləri № 3, 2025
Səh. ————————

ÜLKƏR ZAKİR QIZI ƏFƏNDİYEVA
Bakı Dövlət Universitetinin əyani doktorantı
ulker.efendiyeva@list.ru

QAZAX VƏ QIRĞIZ DİLLƏRİNDƏ "ҚАЛПАҚ/КАЛПАК" BAŞ GEYİMİ VƏ NÖVLƏRİNİN ADLARI

Açar sözlər: qalpaq, qazax dili, qırğız dili, baş geyimləri, etnolinqvistika
Keywords: kalpak, Kazakh language, Kyrgyz language, headgears, ethnolinguistics
Ключевые слова: калпак, казахский язык, киргизский язык, головные уборы, этнолингвистика

Қалпақ/калпак [kalpak] türk xalqlarının mədəniyyətində və tarixində çox mühüm bir yerə sahib olan ənənəvi baş geyimidir. Bu baş geyimi fiziki qoruma funksiyasına malik olmaqla yanaşı, həm də sosial, mədəni və estetik mənalar daşıyır. *Қалпақ/калпак* baş geyiminin tarixi kökləri qədim dövrlərə gedib çıxır və onun müxtəlif formaları zamanla hər bir türk xalqının ənənəvi geyimlərinin ayrılmaz hissəsinə çevrilmişdir. Bu baş geyimi həm də özünün simvolik və sosial funksiyası ilə diqqət çəkir. Belə ki *қалпақ/калпак* baş geyimi onu geyinənin yaşını, sosial vəziyyətini, hətta mənsub olduğu bölgəni belə bildirən mühüm bir mədəni göstəricidir.

Қалпақ/калпак tarixən təkcə gündəlik həyatın bir hissəsi olmaqla qalmamış, eyni zamanda xüsusi mərasimlərdə, bayramlarda və ictimai tədbirlərdə geyinilmişdir. Hər bir bölgəyə və xalqa xas olan xüsusi *қалпақ/калпак* formaları bu geyimin yalnız sadə bir baş geyimi olmadığını, həm də yüksək sosial statusu və etnik kimliyi simvolizə etdiyini göstərir. Məsələn, Qazaxıstanda və Qırğızıstanda *қалпақ/калпак* baş geyimi yalnız gündəlik istifadədə deyil, həm də əhəmiyyətli ictimai hadisələrdə, rəsmi qəbul və mərasimlərdə istifadə edilib.

Tarixi mənbələrə əsasən, *қалпақ/калпак* ilk dəfə Orta Asiyada, xüsusən də türk xalqları arasında geniş yayılmağa başlamışdır. Bu baş geyimi həm yun, ipək, keçə kimi təbii materiallardan tikilmiş, həm də xüsusi bəzəklərlə zənginləşdirilmişdir. Bu bəzəklər, xüsusilə yüksək təbəqələrdə sosial statusu vurğulayan elementlər kimi çıxış etmişdir. *Қалпақ/калпак* baş geyiminin müxtəlif növləri arasında zəngin naxışlardan, rəngarəng parçalardan istifadə olunmuş, bəzən həmin naxışlar müəyyən bir etnik qrupu və yüksək rütbəli şəxsi simvollaşdırmışdır.

Maraqlıdır ki, *қалпақ/калпак* həm də bir çox türk xalqlarında təntənəli mərasimlərin ayrılmaz hissəsi olmuşdur. Məsələn, müharibə zamanı *қалпақ/калпак* döyüşçü və rəhbərlərin rəmzi baş geyimi kimi istifadə olunub. Həmçinin, *қалпақ/калпак* baş geyiminə görə müxtəlif ritual və inanclar da yaranmışdır. Bu, həm sosial, həm də mədəni kontekstdə *қалпақ/калпак* baş geyiminin nə qədər mühüm və dərin mənalara malik olduğunu bir daha göstərir.

Fərqli dövrlərdə və müxtəlif coğrafi ərazilərdə *қалпақ/калпак* baş geyiminin formaları müxtəliflik göstərsə də onun mədəniyyətlərə təsiri eyni dərəcədə böyük olmuşdur. Həm qədim dövrlərdə, həm də müasir dövrümüzdə *қалпақ/калпак* bir çox türk xalqları arasında qorunub saxlanılmışdır və bu gün də müxtəlif formalarda istifadə olunur. Bu, *қалпақ/калпак* baş geyiminin yalnız bir geyim əşyası olmaqla yanaşı, eyni zamanda bir mədəni və tarixi irs olaraq da qorunmasını təmin edir.

Қалпақ/калпак baş geyiminin sosial və mədəni həyatda tutduğu yer onun həm yalnız fiziki bir əşya olmadığını, həm də onun cəmiyyətin hər bir təbəqəsindəki insanlar üçün fərqli mənalar ifadə etdiyini ortaya qoyur. Həmçinin, *қалпақ/калпак* müxtəlif xalqlarda fərqli sosial statusu, ənənələri və inancları simvollaşdıraraq bu baş geyimin zamanla necə inkişaf etdiyini və müxtəlif coğrafi bölgələrdə necə dəyişdiyini göstərir. Məsələn, qırğızlar arasında istifadə edilən *калпак* ilə qazaxlar arasında istifadə edilən *қалпақ* baş geyimi arasında müəyyən oxşarlıqlar olsa da, hər birinin özünəməxsus dizaynı və istifadəsi var.

Қалпақ/калпак müasir dövrümüzdə də öz mədəni dəyərini qoruyub saxlayır. Müasir dövrdə *қалпақ/калпак* bir çox türk xalqlarında həm gündəlik həyatın, həm də xüsusi mərasimlərin bir parçası olaraq istifadə edilir. Hətta bəzi xalqlarda, xüsusən də mədəni irsin qorunmasına böyük önəm verilən bölgələrdə *қалпақ/калпак* müasir şəkildə hazırlanaraq ənənəvi formalarını qoruyur. Bu, *қалпақ/калпак* baş geyiminin həm etnik kimlik, həm də sosial dəyər baxımından hələ də nə qədər əhəmiyyətli olduğunu göstərir.

Қалпақ/калпак, ümumiyyətlə, iki əsas hissədən ibarət olur: təpəsi və ətəyi (bəzən *қайырма* [kayırma] olaraq da adlandırılır). Bu hissələr bir-birini tamamlayır və onun struktural quruluşunu təşkil edir. Bu baş geyiminin təpəsi dörd əsas hissədən ibarət olur. Usta hər biri xüsusi ölçülərdə və formaya malik olan bu dörd parçanı birləşdirərək tikir. Hər bir qatın arasına, xüsusilə, *қалпақ/калпак* geyiminin möhkəmliyini təmin etmək və estetik görkəmini artırmaq məqsədilə qara məxmər lent yerləşdirilir. Nəticədə onun təpəsi kubbe və ya günbəz şəkli alır. Bu dizayn baş geyimin başa həm estetik, həm də funksional baxımdan rahat oturmasını təmin edir və başın üst hissəsini qoruyur.

Baş geyimin ətəyi üst hissədən fərqli olaraq daha geniş olur. Ətəyin kənarları keçədən hazırlanır, eni təxminən dörd santimetrə bərabər olur və dairəvi şəkildə kəsilir. Zövqlü və estetik bir görünüş əldə etmək məqsədilə qalpağın ətəyinin alt hissəsi bəzən qara məxmərlə örtülür. Bu əlavə bəzək baş geyimin xarici görünüşünü tamamlayaraq daha cəlbedici edir.

Baş geyimin təpəsi müxtəlif bəzəklərlə də bəzədilir. Ən çox istifadə olunan bəzək baş geyimin üst hissəsinə əlavə olunan qara, ya da başqa rəngli saçaqlardır. Saçaqlar baş geyimə xüsusi bir zəriflik və mədəni dəyər qatır. Kənar hissələri isə dörd tərəfdən müxtəlif rəngli ipək saplarla işlənilir. Bu, *қалпақ/калпак* baş geyiminin sənətkarlıq baxımından və estetik cəhətdən zənginləşməsinə kömək edir, həmçinin xalqların mədəniyyətini əks etdirir.

Ağ keçədən tikilən *қалпақ/калпак* həm yüngül, həm də sərin olur. Keçə materialının xüsusiyyətləri sayəsində *қалпақ/калпак* yayda başı istidən və tərləmədən qoruyur, soyuq havalarda isə başı soyuqdan qorumağa kömək edir. Bu cür baş geyimləri həm funksional, həm də zərif bir estetikaya sahibdir, belə ki, həm istifadə, həm də müasir sənətkarlıq baxımından yüksək qiymətləndirilir.

Son dövrlərdə, yerli sənaye müəssisələri *қалпақ/калпак* baş geyimlərini müxtəlif rənglərdə keçə ilə istehsal etməyə başlamışdır. Bu, *қалпақ/калпак* baş geyimlərinin daha geniş bir auditoriya tərəfindən qəbul olunmasına və onların müxtəlif mədəniyyətlərdə daha geniş yayılmasına səbəb olmuşdur. Artıq yalnız ənənəvi ağ keçə ilə deyil, həm də fərqli rənglərdə keçələrdən hazırlanan *қалпақ/калпак* həm dizayn, həm də funksionallıq baxımından müasir tələblərə uyğun gəlir. Bu inkişaf həm də sənaye istehsalının artmasına və *қалпақ/калпак* baş geyimlərinin daha geniş bazara çıxarılmasına imkan yaratmışdır [3, s.236].

Қалпақ/калпак termini türk xalqlarının mədəni irsində qədimdən bəri "dəri, kürk və ya parçadan hazırlanmış baş geyimi" mənasında işlənən və müxtəlif formalarda yaşamaqda davam edən sözlərdən biridir. Bu söz bir çox türk dillərində eyni və ya oxşar fonetik formalarda işlədilir, belə ki Azərbaycan dilində ***qalpaq*** [1, s.26], qazax dilində ***қалпақ*** [kalpak] [8, s.92], qırğız, qaraqalpaq, noqay və çuvaş dilində ***калпак*** [kalpak], özbək ***qalpoq*** və s. şəklində deyilir [4, s.332], [5, s.234].

Қалпақ/калпак leksik vahidi türk dillərinin demək olar ki, böyük bir hissəsində baş geyimini bildirən ümumi bir ad kimi işlənmiş və bu söz bir sıra fonetik və morfoloji variantlarda bu günədək yaşamışdır. Etimoloji baxımdan *қалпақ/калпак* sözünün mənşəyi barədə bir neçə fərqli nəzəriyyə mövcuddur. Bu barədə ətraflı məlumat S.E. Malovun "Этимологический словарь тюркских языков" əsərində təqdim olunur. Müəllif göstərir ki, bu söz qaraqalpaq, qazax, qırğız, tatar, başqırd, noqay, uyğur, krım-tatar, çuvaş və digər türk xalqlarında geniş şəkildə yayılmışdır.

Sözün fonetik variantları arasında *қалпағ* [kalpağ], *қалпақ* [kalpak], *қалмак* [kalmak], *қалбақ* [kalbak], *галпак* [qalpak], *халпах* [xalpak] kimi formalar diqqət çəkir. Bu fonetik müxtəlifliklər bir tərəfdən türk dillərinin regional fonoloji xüsusiyyətlərini, digər tərəfdən isə fonetik assimilyasiya və dissimilyasiya proseslərinin izlərini əks etdirir. Məsələn, ***қалпақ*** və ***калпак*** forması qazax və qırğız dillərində daha çox rast gəlinən sabit formadır. Halbuki, digər variantlar, məsələn, *qalpak* (Anadolu türkcəsinin bəzi dialektlərində), ya da *қалбақ* [kalbak] (Tatar dialektlərində) müvafiq dialektlərin fonetik xüsusiyyətlərinə uyğun yaranmışdır.

Morfoloji baxımdan *қалпақ/калпак* sözünün tərkibi bir qədər mübahisəlidir. Bəzi tədqiqatçılar bu sözü *қал/кал* [kal] "qal" kökü ilə *пақ/пак* [pak] (şəkilçi) kimi təhlil etməyə çalışsalar da bu etimoloji yanaşma qəti elmi konsensus qazanmamışdır. Bununla belə sözün kökü qədim türk dillərində qorunan bəzi leksik birləşmələrlə əlaqələndirilir və ümumilikdə əşya adı olaraq "başı örtən, qoruyan" mənasını ifadə edir [5, s.234].

Bir başqa nəzəriyyəyə görə *қалпақ/калпак* sözü iki komponentdən ibarətdir: *kalıp* "forma", "örtük" və *-ak* (kiçiltmə və ya törəmə yaradan şəkilçi). Qədim türk dialektlərinin bəzilərində *kalıp* sözü "örtü", "qapaq" mənasında qorunub saxlanmışdır. Bu baxımdan *қалпақ/калпак* "qalpaq" ilkin olaraq "örtük", "qapaq" mənasında işlənmiş, zamanla bu sözün mənası spesifik olaraq "baş örtüyü", yəni "baş geyimi" kimi formalaşmışdır.

Bəzi türk xalqlarında *қалпақ/калпак* "qalpaq" yerinə *börük* və ya *papaq* kimi alternativ terminlər də işlədilir.

Қалпақ/калпак termini türk dillərindən digər dillərə də keçmişdir. Slavyan dillərində (rusca *колпак* [kolpak]), balkan dillərində (serbcə *kalpak*), bolqarca *kalpak*), macar dilində (kalbaq) və hətta fransız (*colback* [kolbak]) və alman (*kolpak*) dillərində də rast gəlinir. Bu isə onun tarixi türk mədəniyyətinin təsir dairəsində olan geniş bir coğrafiyada yayıldığını göstərir.

Eyni zamanda uzun tüklü və daha iri baş geyimləri bəzi bölgələrdə *papaq* və ya *telpek* adlanır. Bəzi türk dillərinin dialektlərində *malakay* adı ilə tanınan qalpaq növü isə moğol mənşəlidir [2, s.203].

Bu nəzəriyyələrdən yola çıxaraq belə qənaətə gəlmək olar ki, Azərbaycan dilində *qalpaq*, qazax dilində *қалпақ*, qırğız dilində *калпак* formasında işlənən bu söz, bizim fikrimizcə, "qalaq-qalaq", "qat-qat", "qalın", "qapamaq", "qapaq", "qapı", "qab" sözləri ilə eyni kökdən gəlir və bu sözlərin hamısının kökü "örtmək", "üstünə çəkmək" ifadələri ilə eyni mənanı bildirir.

Semantik baxımdan bu söz baş geyiminin ümumi adını ifadə etməklə yanaşı, bəzi bölgələrdə sosial statusun, yaş göstəricisinin və ya etnik kimliyin nişanəsi kimi də çıxış etmişdir. Bu da *қалпақ/калпак* sözünün yalnız məişət leksikonu daxilində deyil, həm də etnolinqvistik baxımdan mühüm bir komponent olduğunu göstərir.

Bəzi araşdırmaçılar bu termini yalnız Orta Asiya türkləri ilə əlaqələndirmir, eyni zamanda Altay dilləri və daha geniş areal üzrə qədim türk tayfalarının leksikasında da izlərinə rast gəlindiyini qeyd edirlər. Bu isə onu göstərir ki, *қалпақ/калпак* anlayışı həm dil, həm də mədəniyyət baxımından geniş tarixi və coğrafi kontekstdə formalaşmışdır.

Türk xalqları arasında qalpağın bir neçə növü formalaşmış və hər biri özünün funksiyası, materialı və sosial mənası ilə fərqlənmişdir. Bu növlər əsasən istifadə məqsədinə, hazırlanma texnikasına və daşıdığı simvolik dəyərə görə qruplaşdırıla bilər. *Қалпақ/калпак* yalnız gündəlik geyim elementi deyil, həm də mərasimlərdə, döyüş zamanlarında və dini-etnoqrafik ayinlərdə istifadə edilən, status və mənsubiyyəti bildirən simvolik bir atribut olmuşdur. Belə ki *қалпақ/калпак* həm qazax, həm də qırğız cəmiyyətlərində funksional bir geyim əşyası olmaqla yanaşı status, yaş, regional mənsubiyyət və mədəni kimlik göstəricisi kimi də çıxış edir. Sözün istifadəsində bu mənalarla bağlı müxtəlif semantik çalarlara rast gəlinir. *Қалпақ/калпак* baş geyiminin qazax və qırğız xalqlarında bir çox növü vardır. Məqalədə bu növlərdən bəziləri haqqında danışaq.

Bunların içində ən yayğın olanı qazax dilində ***айырқалпақ*** [ayırkalpak], qırğız dilində isə ***айры қалпақ*** [ayrı kalpak] adlanan *қалпақ*/*калпак* növüdür. Bu *қалпақ*/*калпак* növü xüsusilə qazax və qırğız xalqları arasında geniş yayılmışdır. Ağ keçədən hazırlanır, təpə hissəsi sivri və dörd dilimli olur. Bəzən üzəri ipək saplarla işlənir və saçaqlarla bəzədilir. Bu *қалпақ*/*калпак* növü də kişilər üçün nəzərdə tutulmuşdur və həm gündəlik, həm də mərasim geyimi kimi istifadə edilmişdir. Adından da göründüyü kimi "ayrılmış", "uc hissəsi fərqli" mənasını verir və əsasən, təpəsi şiş, konusvari formada olur. Qırğız dilində *айыр* [ayır] feili "ayırmaq" mənasına gəlir [4, s.36]. Fonetik və leksik cəhətdən Azərbaycan dilindəki kimi *ayırmaq* feili ilə eynidir. Belə ki qırğız dilində *айры* [ayrı] sözü də Azərbaycan dilində *ayrı* olaraq işlədilərək fonetik və leksik cəhətdən eynilik təşkil edir [4, s.33]. *Айырқалпақ /айры қалпақ* təpəsi şiş formalı, ağ keçədən və ya payız yunundan tikilən kişi baş geyimidir. Tarixi baxımdan ayırqalpağın çox qədim olduğu güman edilir. Bu tip qalpağın ən erkən nümunələrindən biri Altay dağlarındakı Pazırıq kurqanlarında aşkar olunmuşdur. Arxeoloji tapıntılar göstərir ki, qədim türklər bu baş geyimini gündəlik həyatlarında istifadə etmişlər. *Айырқалпақ /айры қалпақ* əsasən yaz və payız fəsillərində, eyni zamanda yay aylarında dağlıq və sərin iqlimli bölgələrdə geyinilmişdir. Keçə materialı nəfəs alma xüsusiyyətinə malik olduğu üçün isti havada başı günəşin təsirindən qoruyur, eyni zamanda sərinlik hissi yaradır. Soyuq havada isə istiliyi qorumağa kömək edir. Müasir dövrdə ayırqalpaq ənənəvi geyim nümunəsi kimi milli bayramlarda, folklor festivallarında və etno-mədəni tədbirlərdə istifadə olunur. Bəzi bölgələrdə isə bu baş geyimi gündəlik həyatın bir parçası olaraq hələ də yaşadılır və nəsildən-nəslə ötürülür [6, s.26].

Qalpağın bir növü də qazax dilində ***мұрақ*** [murak] adlanır. Bu baş geyimi yalnız yüksək rütbəli şəxslər, yəni xanlar, sultanlar, bəylər tərəfindən geyilən xüsusi mərasim papağı növüdür. Onun forması iki tərəfindən qoç buynuzu formasında bükülərək hazırlanır və əsasən rəsmi və təntənəli tədbirlər üçün nəzərdə tutulur. *Мұрақ* geyən şəxsə baxaraq xalq onun nüfuzlu, yüksək vəzifəli biri olduğunu anlayardı.

Bu baş geyimi zəngin şəkildə bəzədilir, müxtəlif naxış və ornamentlərlə işlənir, üzərinə qızılı və ya gümüşü saplarla toxunmuş zərli bəzəklər əlavə olunur. *Мұрақ* bir çox bölgələrdə müxtəlif adlarla tanınır; bəzi yerlərdə ona *айырқалпақ*, bəzi yerlərdə isə *сәукеле қалпақ* [səukele kalpak] da deyirlər.

Мұрақ geyinməyin də özünəməxsus qaydası olmuşdur. O, xüsusi olaraq tikilmiş təpəsi şiş formalı başqa bir qalpağın üzərindən geyinilərdi. Bu qayda həm geyimin estetik görünüşünü, həm də onun daşıdığı rəmzi mənanı qoruyub saxlayırdı. *Мұрақ* təkcə geyim elementi deyil, eyni zamanda sosial statusun, hakimiyyətin və ictimai nüfuzun simvolu kimi qəbul edilirdi [7, s.24].

Beləliklə, *қалпақ*/*калпак* baş geyiminin qazax və qırğız dillərindəki fərqlərini belə göstərə bilərik:

Qazax dilində *қалпақ*:

- gündəlik və mərasim geyimi anlamında istifadə olunur;
- *айырқалпақ* klassik dörd dilimli ağ *қалпақ* növüdür;
- ədəbi dildə *қалпағын шешу* [kalpağın şeşu] "qalpağını çıxarmaq" hörmət və təvazökarlıq aktı kimi işlədilir [8, s.92].

Qırğız dilində *калпак*:

- *айры калпак* forması ilə daha çox simvolik məna daşıyır;
- *калпак кийүү* "qalpaq geyinmək" ifadəsi ilə geniş yayılıb və hörmətli insan mənasını bildirir;
- metaforik dildə *калпагы жок адам* [kalpaqı jok adam] "qalpağı olmayan adam" cəmiyyətdə mövqesiz, nüfuzsuz insan mənasında işlədilə bilir [4, s.332].

Məqalədə aparılan müqayisələr əsasında müəyyən olundu ki, *қалпақ*/*калпак* anlayışı türk xalqlarının lüğətində sadəcə bir baş geyimini deyil, həm də mədəniyyətin, tarixin, milli kimliyin, ictimai statusun, mənəvi dəyərlərin rəmzidir. Qazax və qırğız dillərində bu sözün formaları arasında müşahidə olunan fonetik fərqlər tarixi fonetik qanunauyğunluqların nəticəsidir. Bu cür simvolik anlayışların araşdırılması təkcə dilçilik baxımından deyil, həm də etnoqrafiya, mədəniyyətşünaslıq və tarix elmləri üçün əhəmiyyətlidir. *Қалпақ*/*калпак* kimi mədəni elementlərin öyrənilməsi türk xalqları arasında ortaq tarixi yaddaşın və mədəni irsin bərpasına, qorunmasına və gələcək nəsillərə ötürülməsinə töhfə verir.

Bu tədqiqat göstərdi ki, *қалпақ*/*калпак* sözü həm etimoloji kökləri, həm də leksik və semantik təhlili baxımından qədim türk dillərilə sıx bağlıdır və bu bağlılıq müasir qazax, qırğız və qalan türk dillərində də qorunub saxlanılmışdır. Bu isə tarixi-linqvistik ardıcıllığın və dilin davamlı inkişaf xəttinin göstəricisidir. Belə mədəni leksik vahidlərin öyrənilməsi yalnız tarixi-dilçilik və müqayisəli linqvistika baxımından deyil, həm də etnoqrafiya, mədəniyyətşünaslıq və tarix sahələri üçün vacib məlumatlar təqdim edir.

Nəticə etibarilə, *қалпақ*/*калпак* kimi simvolik leksik vahidlərin sistemli tədqiqi türk xalqları arasında ortaq tarixi yaddaşın, mədəni irsin və dil mirasının bərpasına, qorunmasına və gələcək nəsillərə ötürülməsinə mühüm töhfə verir. Bu baxımdan, leksik-semantik və etnolinqvistik araşdırmalar dil və mədəniyyət arasında mövcud olan qarşılıqlı münasibətlərin daha dərindən öyrənilməsinə şərait yaradır.

ƏDƏBİYYAT:

1. Azərbaycan Milli Elmlər Akademiyası, Nəsimi adına Dilçilik İnstitutu. Azərbaycan dilinin izahlı lüğəti. Dörd cilddə. III cild. Bakı: Şərq-Qərb, 2006, 672 s.
2. Eren, Hasan. Türk dilinin etimoloji sözlüğü. Ankara: Türk Dil Kurumu Yayınları, 1999, 479 s.

3. Антипина, К.И. Особенности материальной культуры и прикладного искусства южных киргизов. Фрунзе, 1962, 290 с.
4. Киргизско-русский словарь. Москва: Советская энциклопедия, 1985, 504 с., с. 36.
5. Малов, С.Е. Этимологический словарь тюркских языков. Москва: Наука, 1974–2000,
6. Ошуркова, Е.Н. (сост.). Казахи: потомки белых лебедей. Екатеринбург, 2013, 84 с.
7. Алашабаева, Ұ.Н. Қазақтың ұлттық киімдерін үлгілеу: Оқу құралы. Алматы: Қыздар университеті баспасы, 2014, 116 б.
8. Қазақ әдеби тілінің сөздігі. 9-том / Құраст.: Ә.Ыбырайым və b. Алматы, 2011, 744 б.

XÜLASƏ

Baş geyimləri türk xalqlarının tarixi və mədəni irsində mühüm yer tutur. Xüsusilə kişilər tərəfindən geyinilən ənənəvi papaqlar yalnız iqlimə uyğun qoruyucu funksiyanı yerinə yetirmir, eyni zamanda geyinənin yaşı, sosial statusu və etnik kimliyi haqqında məlumat verən sosial-mədəni simvol kimi çıxış edir. Bu kontekstdə *қалпақ/калпак* [kalpak] adlanan baş geyimi xüsusilə seçilir. Onun özünəməxsus forması, əsasən keçədən hazırlanması, bəzək elementləri və regional xüsusiyyətləri bu geyim əşyasının sadə bir məişət əşyasından mənəvi və mədəni dəyər daşıyıcısına çevrildiyini göstərir.

Tarixən türk xalqları arasında *қалпақ/калпак* sosial iyerarxiya, yaş fərqləri, hətta dini və mədəni mənsubiyyət göstəricisi kimi qəbul olunub. Onun quruluşu, bəzək elementləri və istifadə olunduğu kontekstlər (gündəlik həyat, bayramlar, mərasimlər və s.) bu baş geyimini yalnız funksional deyil, həm də mədəni və etnoqrafik baxımdan maraqlı bir tədqiqat mövzusuna çevirir.

Bu məqalədə *қалпақ/калпак* sözünün qazax və qırğız dillərindəki leksik mənası, fonetik və morfoloji quruluşu, semantik xüsusiyyətləri sistemli şəkildə təhlil edilir. Eyni zamanda, bu baş geyiminin həmin xalqların etnoqrafik ənənələrində, mərasimlərində və gündəlik həyatlarında oynadığı rol araşdırma mövzusu kimi öyrənilir. Məqalənin əsas məqsədi *қалпақ/калпак* anlayışını dilçilik və mədəniyyətşünaslıq çərçivəsində araşdırmaq, onun türk dillərində leksik və fonetik baxımdan necə qorunub saxlanıldığını və müxtəlif formalarda təzahür etdiyini müəyyənləşdirmək, həmçinin bu anlayışın türk mədəniyyətindəki mürəkkəb semantik dəyərini üzə çıxarmaqdır. Bu baxımdan, *қалпақ/калпак* baş geyiminin elmi şəkildə araşdırılması həm dilçilik, həm də mədəniyyət baxımından xüsusi əhəmiyyət kəsb edir.

Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu, *ISSN 2224-9257*
Filologiya məsələləri № 3, 2025
Səh. ——————

ULKAR AFANDİYEVA

NAMES OF THE ‘QALPAQ/KALPAK’ HEADGEAR AND ITS TYPES IN THE KAZAKH AND KYRGYZ LANGUAGES

SUMMARY

Headgear holds an important place in the historical and cultural heritage of the Turkic peoples. In particular, traditional hats worn by men not only serve a protective function adapted to the climate but also act as socio-cultural symbols that convey information about the wearer’s age, social status, and ethnic identity. In this context, the headgear known as *qalpaq/kalpak* stands out. Its distinctive shape, materials (primarily felt), decorations, and regional variations show that this item of clothing has evolved from a simple utilitarian object into a bearer of spiritual and cultural values.

Historically, among Turkic peoples, the *qalpaq/kalpak* has been regarded as a marker of social hierarchy, age, and even religious or cultural affiliation. Its structure, decorative elements, and the contexts in which it is used (such as daily life, festivals, and ceremonies) make it not only functional but also a fascinating subject of study from both cultural and ethnological perspectives.

This article systematically analyzes the lexical meaning, phonetic and morphological structure, and semantic features of the word *qalpaq/kalpak* in Kazakh and Kyrgyz languages. Additionally, its role in the ethnographic traditions, ceremonial practices, and everyday lives of these communities is explored as a topic of research. The main aim of the article is to examine the concept of qalpaq/kalpak within the frameworks of linguistics and cultural studies, to identify how it has been preserved in similar and varying forms across Turkic languages from lexical and phonetic perspectives, and to reveal its complex semantic value within Turkic culture. Thus, the scholarly study of the *qalpaq/kalpak* is of special importance from both linguistic and cultural viewpoints.

НАЗВАНИЯ ГОЛОВНОГО УБОРА ‘ҚАЛПАҚ/КАЛПАК’ И ЕГО ВИДОВ В КАЗАХСКОМ И КЫРГЫЗСКОМ ЯЗЫКАХ

РЕЗЮМЕ

Головные уборы занимают важное место в историческом и культурном наследии тюркских народов. Особенно традиционные головные уборы, носимые мужчинами, выполняют не только защитную функцию, адаптированную к климату, но и служат социокультурными символами, передающими информацию о возрасте, социальном статусе и этнической принадлежности владельца. В этом контексте особенно выделяется головной убор под названием *қалпақ/калпак*. Его характерная форма, материалы изготовления (в основном войлок), украшения и региональные особенности

свидетельствуют о том, что этот предмет одежды превратился из простого утилитарного объекта в носителя духовных и культурных ценностей.

Исторически среди тюркских народов *қалпақ*/*калпак* считался показателем социальной иерархии, возрастных различий, а также религиозной или культурной принадлежности. Его структура, декоративные элементы и контексты использования (повседневная жизнь, праздники, церемонии и т. д.) делают этот головной убор не только функциональным, но и интересным объектом для культурологических и этнологических исследований.

В данной статье системно анализируются лексическое значение, фонетическая и морфологическая структура, а также семантические особенности слова *қалпақ*/*калпак* в казахском и кыргызском языках. Кроме того, рассматривается роль этого головного убора в этнографических традициях, обрядовой культуре и повседневной жизни этих народов. Основная цель статьи — исследовать понятие *қалпақ*/*калпак* в рамках лингвистики и культурологии, определить, каким образом оно сохранилось в тюркских языках в лексическом и фонетическом аспектах, и раскрыть его сложную семантическую ценность в тюркской культуре. Таким образом, научное изучение *қалпақа*/*калпака* имеет особую значимость как с лингвистической, так и с культурной точек зрения.

Rəyçi: prof. Elbrus Əzizov

Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu, *ISSN 2224-9257*
Filologiya məsələləri № 3, 2025
Səh. ————————

ŞÜKÜRZADƏ ŞAHNAZXANIM
Cəbrayıl rayonu 1 nömrəli tam orta məktəb
Qaradağ rayonu, Lökbatan qəsəbəsi, Qobu Park Yaşayış Kompleksi 3.
sahnazxanim.sukurzade@mail.ru

MƏKTƏBDƏ OPTİK ÜNSİYYƏT: MÜƏLLİMİN BƏDƏN DİLİ (baxışı, duruşu)

Qeyri-verbal kommunikasiya məktəbdə müəllim-şagird münasibətlərinin düzgün qurulmasında olduqca əhəmiyyətli rola malikdir. Sinif otağında müəllimin verdiyi bilgiləri şagirdlərin daha yaxşı mənimsəməsi və aparılan məlumat mübadiləsinin faydalılığı üçün optik ünsiyyət vacib şərtlərdən biridir.

Sinif otağına ilk dəfə daxil olan hər bir müəllim şagirdin sərhədləri kəşf etməyə meyilli olduğunu bilərək, həmişəkindən daha sərt davranır. Ən sərt müəllim əslində çox dözümlü insandır. O, bu xüsusiyyətini bildiyindən şagirdləri ilk gündən qorxudaraq özündən uzaq tutmağa çalışır. Bəzən nizam-intizamı qorumaq çətin olsa da, müəyyən məhdudiyyətlər daxilində sərbəstlik şagirdin dərsi daha yaxşı başa düşməsi üçün faydalı ola bilər. Unudulmamalıdır ki, ibtidai sinif şagirdinin diqqət müddəti 15-20 dəqiqə olduğuna görə mövzu izahatları maksimum 20 dəqiqə ilə məhdudlaşdırılmalıdır. Şagirdlərin diqqətini bərpa etmək və dərsi davam etdirmək üçün bədən dilindən səmərəli istifadə etmək, siniflə əlaqəni aktiv saxlamaq çox faydalı ola bilər. Heidemannın "Sinifdə bədən dili" kitabı müəllimlərə bədən dilindən daha səmərəli istifadə etmək üçün praktiki təkliflər verir. Bu proqramda təcrübəçi müəllimlərin məsləhətçilərinin üzərinə böyük məsuliyyət düşür. Heydeman bu fikirdədir ki, təcrübəçi müəllimlər ilk dəfədən öz üzərinə çox dərs saatı götürməməli, əksinə, addım-addım müəllimlik peşəsinə öyrəşməlidirlər. Bu proqramın bir hissəsi olaraq, müəllimlərin bədən dili ilə verdikləri mesajlardan xəbərdar olması əsas hədəfdir. Bu təlim proqramının əsas konturları aşağıdakılardır:

Müəllimin baxışı:

Baxış eyni anda həm vermək, həm də almaq xüsusiyyətinə malik olduğu üçün siniflə ünsiyyətin ən vacib hissəsidir. "Qeyri-verbal ünsiyyətin əsas fenomeni qarşılıqlı baxışdır, əlaqəni idarə etmək üçün onların mübadiləsi çox vacibdir. Hər kəs həmsöhbətinin üzündəki baxışları və hərəkətləri "oxumağa" çalışır, buna daha çox etimad göstərir" [5, 55]. Göz təması vasitəsilə müəllim mədəni fərqləri nəzərə alaraq hər bir şagirdlə fərdi ünsiyyət qura bilər. Müəllim şagirdi bəyənib-bəyənmədiyini, onun haqqında müsbət və ya mənfi düşüncələrinin olub olmadığını, ona dəyər verib-vermədiyini göstərə bilər. Heidemannın fikrincə, müəllim sinfə girən kimi və ya səs-küyü yatırmaq üçün dərsə başlamamalıdır, çünki bu, nizam-intizam problemlərinə səbəb ola bilər; Əvvəlcə o, şagirdlərlə bir-bir göz təması qurmalı, sonra sakitcə bütün sinfə baxmalı və şagirdlərin baxışlarını sözün əsl mənasında ələ almalıdır. Bu yolla o, şagirdlərin diqqətini cəlb etdikdən sonra asanlıqla dərsə başlaya bilər.

Bununla belə, sinifdə uzun müddət xüsusi bir şagirdə diqqət yetirərkən ehtiyatlı olmaq lazımdır, çünki bu, utancaq şagirdi narahat edərək özgüvənsizlik və ya təhlükə kimi qəbul edə bilər.

Heidemann vurğulayır ki, yeni işə qəbul olunmuş müəllim sinfə daxil olarkən ona yönələn baxışlardan narahat ola bilər, ona görə də dərsə başlayarkən müsbət auralı bir şagirdi özünə tərəfdaş seçməsi dərsə müsbət təsir göstərəcək. Tövsiyə olunduğu kimi, heç vaxt divarda bir nöqtəyə baxmaq olmaz və baxışlar qarşındakılara, yəni şagirdlərə yönəlməlidir. Sinif qarşısında çıxış edən şəxs doğru zamanlarda auditoriya ilə göz əlaqəsi yaratmadıqda, dinləyici özünü diqqətdən kənarda hiss edə, hətta natiqi təkəbbürlü bir insan hesab edə və gərgin mühit yarana bilər, çünki o hər bir şagird üçün tərəfdaşdır. Xüsusilə yeniyetmə şagirdlər köhnə vərdişlərini davam etdirərək özlərinə diqqət çəkmək istəyirlər. Müəllimin dərsə maraq göstərən şagirdə yönələn baxışı həmin şagirdin yanında əyləşən şagirdlər tərəfindən qəbul edilərək müəllimə müsbət təsir edəcəyindən, bu müsbət münasibət qarşılıqlı əlaqə sayəsində tədricən bütün sinfə yayılacaq. Beləliklə, xoş dərs mühiti təmin ediləcək. Şagirdə gülümsəyən müəllim, təbəssümün "yoluxucu" təsiri səbəbindən həmin şagirdin yanında oturan digər şagirdlərin ona gülümsədiyini görəcək [3, 77]. Yuxarıda izah etdiyimiz kimi, baxış şagirdlərin davranış problemlərini düzəltmək və sinifdə nizam-intizamı qorumaq üçün "monitor" kimi istifadə edilə bilər. Sinifdəkilərin xəbəri olmadan müəllim nadinc şagirdlə həm mühazirə oxumaqla (şifahi ünsiyyət), həm də onun baxışları ilə (şifahi olmayan ünsiyyət) şəxsi ünsiyyət qura bilər. Baxışlarını bu şagirdə dikərək, dərsə qulaq asması üçün xəbərdarlıq edərkən dərsini fasiləsiz davam etdirə bilər; vurğu və səs tonunu dəyişdirə bilər və lazım olduqda səssiz qala bilər. Ancaq bu aydın siqnallara görə digər tələbələr də bu vəziyyətdən xəbərdar ola bilərlər. Baxışlar dərsin gedişatını tənzimləməkdə və münasibətləri saxlamaqda çox təsirlidir. Müəllim sinfə sual verdikdən sonra sinfə baxaraq cavab gözlədiyini göstərə bilər. Belə vəziyyətdə cavab vermək istəməyən şagirdlərin üzünü çevirmələri və ya gizlətmələri müşahidə olunur. Şagirdə söz vermək üçün göz siqnalı və bir az təsdiqləyici baş hərəkəti ola bilər. Bir-birinin ardınca danışmaq hüququ verərkən, söhbətin və ya müzakirənin tempini aşağı salmamaq üçün göz işarəsi ilə növbəti şagirdə keçə bilər. Danışan şagirdə yönələn gülümsəyən gözlər həm onu, həm də digər şagirdləri danışmağa həvəsləndirəcək. Müəllimin açıq tərəfdə dayanması və U formalı oturma tənzimləməsi tövsiyə olunur ki, həm müəllim, həm də tələbələr bir-biri ilə göz təması qura bilsinlər. Müşahidə olunur ki, U şəklində oturanda şagirdlər dərsdə daha fəal iştirak edir, həm müəllimlə, həm də öz aralarında konstruktiv müzakirələr aparırlar. Lakin ölkəmizdəki məktəblərin bir çoxunda siniflərdə şagird sayının çox olması buna imkan vermir.

Bəzi müəllimlər baxışlarından istifadə etməkdə çətinlik çəkə bilərlər. Onlar heç vaxt özlərini bu qüsuru aradan qaldırmağa məcbur etməməlidirlər, çünki bu, şagirdlər tərəfindən dərhal fərq edilir. Təhsil proqramında Heidemann əvəzinə

müəllimə bütün siniflə ünsiyyət qurmaq üçün tək bir çalışqan şagird və ya kiçik bir qrup şagird ilə göz təmasından istifadə etməyi tövsiyə edir. Baxışın şüurlu şəkildə istifadə edilməsi nəticəsində müəllim və şagirdlərin bir-birlərinə daha yaxından bağlanması müşahidə olunur.

Müəllimin duruşu:

Təlim materiallarının mənimsənilməsində əsas məsələlərdən biri də müəllimin duruşudur. Bu məsələ müəllimin şəxsiyyəti ilə sıx bağlı olduğundan çox diqqətli olmaq lazımdır. Başı əymək və baxışları irəli və aşağı yönləndirmək utancaqlığı əks etdirən bir reaksiyadır. Kədərli və ümidsiz olduğumuz vəziyyətlərdə gülümsəməyə çalışdığımız zaman üzümüzdə təbəssümü pozan bir anlıq ifadə yaranır və ağızın qulaqlara doğru dartıldığını formalaşdırmaq mümkün olmur. Bizim nəzarətimizdən kənar baş verən və insanın əhval-ruhiyyəsini bizə əks etdirən avtonom siqnallar müşahidə edənlər üçün daha vacibdir. Məsələn, heç kim könüllü olaraq tərləyə, nəfəsini kəsə, həyəcandan sürətlə qalxıb enən sinəsini idarə edə bilməz və ya boynunda qırmızı ləkələr əmələ gətirə bilməz. Narahat və həyəcanlı insan baxır və narahatlığı baxışlarına əks olunur. Şagirdlər avtonom siqnalları qiymətləndirərək onlara göstərilən səthi və saxta sevgini asanlıqla ayırd edə bilirlər.

Heidemannın verdiyi bəzi misallar və onların mənaları belədir: əli ilə alnını silmək (nə edəcəyini bilməmək), başını boynunun arasına çəkmək (narahatlıq, günahkarlıq hissi), çənəsini sığallamaq (düşünmək), başını bir neçə dəfə arxaya əymək (başını geri atmaq, irad tutmaq), gözünü qırpmaq (əsəb halı), qaşlarını qaldırmaq (təəccüb, təkəbbür), qaşlarını çatmaq (hirs, fikirlilik), baxışlarına baxmaq, hökmranlıq (etibar, təkəbbür), burnuna toxunmaq (düşünmək), pencəyinin düymələrini açmaq (etibar, rahatlıq) və s. Unudulmamalıdır ki, bu siqnallar bütün bədən tərəfindən verilən siqnallarla birlikdə qiymətləndirilməlidir. Bu məlumatların işığında özünə güvənən müəllimi digərlərindən fərqləndirmək kifayət qədər asandır. Şagirdin müəllimi qıcıqlandıran davranışına görə başını aşağı salan, baxışlarını pəncərəyə yönəldən (qaçmaq istəyi), bir addım geri çəkilərək yazı taxtasına tərəf çəkilən və qollarını birləşdirən müəllimi düşünək. Digər tərəfdən, belə bir vəziyyətdə gözünü qaçırmayan, dik durub, qaşlarını çatmış şagirdə doğru addım atan müəllimi təsəvvür edək. Sinifdə əmin-amanlığı və nizam-intizamı təmin edən, özünə inamlı münasibət sərgiləyən müəllim ən yaxşı nümunə olacaqdır.

Heidemann vurğulayır ki, müəllim tez-tez kürəyini divara söykəməkdən çəkinməlidir. Bu hərəkətə əlavə olaraq, ayaq üstə ikən əlləri ciblərə salmaq, başı irəli əymək və ayaqları çarpazlaşdırmaq; rahatlıq, həm də etibarsızlıq kimi şərh oluna biləcəyi üçün qaçınılması lazım olan duruşlar arasındadır. Sinifdə sərbəst və rahat dayanmaq ən uyğun duruşdur. Mühazirə üçün ayağa qalxmağı ünsiyyət siqnalına çevirən müəllim hər dəfə ayağa qalxanda şagirdlərin ona diqqətlə qulaq asdıqlarını görəcək.

Rosenbuş deyir ki, şagirdlər onlara əhəmiyyət verən və onlara yaxın olan müəllimləri məsafə saxlayanlardan daha sevimli və şagird dostu kimi

qiymətləndirirlər [6, 196]. Müəllimlər isə qabaqda oturan şagirdləri arxada oturanlardan daha diqqətli və xoş görürlər. Stol arxasında otuараq işləyən müəllimlər sinifdə işləyənlərdən daha az bəyənilir, çünki parta siniflə müəllim arasında maneə yaradır.

Müəllimlər qeyri verbal siqnallara həssas olan şagirdləri daha ağıllı və istedadlı hesab edirlər. Halberstadt və Hall, 1980-ci ildə apardıqları araşdırmada aşkar ediblər ki, şagirdin şifahi olmayan siqnalları başa düşmək qabiliyyəti bu şagirdin intellektual qabiliyyəti haqqında müəllimin fikrinə təsir edir [6, 196]. Fəal olmayan və ya tənbəl şagirdləri cəzalandırmaq üçün sinfin ən ucqar küncündə oturtduqları bir həqiqətdir. Arxa cərgələrdə oturan şagirdlərin dərsi izləməkdə çətinlik çəkməsinə bu cəza elementi əlavə olunduqda heç bir valideyn övladlarının arxa cərgələrdə oturmasını istəməz.

Rotasyonla yaradılan sinif dizaynı (qısa boylu tələbələr kənara oturdula bilər ki, onlar lövhəni görə bilsinlər) bu problemi aradan qaldıra bilər. Beləliklə, hər bir şagirdi növbə ilə sinfin arxa cərgəsində oturtmaqla "əks piqmalion effekti" azalır. "Pigmalion effekti" ("Rosenthal effekti" də deyilir) heykəltəraş kimi tanınan Kipr kralı Piqmalion tərəfindən fil sümüyündən düzəldilmiş mifoloji qadın heykəli əfsanəsinə əsaslanır. Piqmalion hazırladığı bu heykələ aşiq olur və Allahdan onun sevgilisi olmasını istəyir. Yalvarışlarına dözə bilməyən Afrodita heykəli canlandırmaqla mümkün olmayan bu istəyini yerinə yetirir. Psixologiyada bu fenomen "inamın və ya gözləntinin gerçəkləşməsi" kimi izah edilə bilər. Bu fikrə görə, müəllimin gözləntisi və münasibəti fərziyyənin özünü doğrultmasına gətirib çıxarır. Rosenthalın bu sahədə apardığı təcrübələrdən birində "ibtidai sinif müəllimlərinə etibarlı intellekt testi nəticəsində aldıqları ballara görə şagirdlərinin 20%-nin mütləq dərslərində irəliləyiş əldə edəcəyi bildirilib". Uğur qazanan tələbələrin adları müəllimlərə verildi. Səkkiz aylıq araşdırmadan sonra təkrar testdə bu proqnoz təsdiqləndi" [7, 107-108]. Bu uğurun əsl səbəbi orta qrupdakı bu uşaqların intellekt səviyyəsi deyildi: "Onların müqayisəli səviyyədə digər uşaqlardan daha yaxşı qiymət almaları yalnız belə izah edilə bilər: Uşaqlarla bağlı müsbət gözləntilər müəllimlərin onlara daha çox diqqət yetirməsinə, onlara etibar etməsinə bağlıdır ki, bunun nəticəsində uşaqlar irəliləyiş əldə etmişlər. Bu piqmalion effekti adətən bədən linqvistik siqnalları (vokal davranış daxil olmaqla) nəticəsində baş verir. Onlarla şirin səslə danışmaq, onlara gülümsəmək, onlara baxmaq və başlarını tərpətməklə şagirdlər diqqət, həvəsləndirmə və müsbət münasibət görürlər. Çətinlik yarananda müəllimlər onlara qarşı daha dözümlü olub, danlamaqla inamsızlıq mühiti yaratmaqdan çəkinirlər" [7, 108]. Tələbə müəllimin müsbət gözləntilərinə cavab olaraq daha çox işləməyə meyilli olacaq.

Bates öz tədqiqatında aşkar etdi ki, müsbət qeyri-verbal şagird davranışı (məsələn, müəllimə baxmaq, tez-tez gülümsəmək) müəllimdə müsbət qeyri-verbal reaksiya tapır və bu, şagirdin qiymətində müsbət şəkildə öz əksini tapır. Bundan

əlavə, müəllimlər (xüsusən də qadın müəllimlər) sevimli şagirdlərlə danışarkən daha uzun və müsbət səs tonu ilə danışırlar [1, 1079-1088].

1978-ci ildə Chaikin və Derlega tərəfindən aparılan araşdırmaya görə, həvəsli və ağıllı olduğuna inanılan şagirdlərin digər normal şagirdlərə nisbətən daha müsbət şərhlər verildiyini aşkar etdilər [6, 198]. Bu tədqiqatlar göstərir ki, "piqmalion effekti"nə etinasızlıq göstərilməməlidir.

Müəllim dərs zamanı daima narahat olaraq sinfin bir tərəfindən o biri tərəfinə dolaşaraq öz partası başına qayıdırsa, bu, şagirdlərin diqqətini dərsin məzmununa cəmləyə bilməməsinə səbəb olur. İmtahan zamanı müəllimin davamlı olaraq sinifdə, xüsusən də səs-küy yaradan ayaqqabılarla gəzməsi stress faktorudur və şagirdlərin fəaliyyətinə mənfi təsir göstərə bilər. Ona görə də imtahan zamanı səssizliyi saxlamaq son dərəcə vacibdir. İzahlar mümkün qədər bütün şagirdlərin müəllimi rahat, ayaq üstə, sakit şəkildə görə bildiyi vəziyyətdə edilməlidir. Heydemanna görə, 20 dəqiqəlik mühazirə zamanı nəzarətsiz və tələsik olmamaq şərti ilə yerləri iki və ya üç dəfə dəyişmək olar. Bu hərəkətlər zamanı göz təması saxlamaq hərəkətin təbii olaraq qəbul edilməsi üçün son dərəcə əhəmiyyətlidir.

İzahlar zamanı ən münasib yer sinif otağından təxminən iki metr qabaqda bütün şagirdlərin (arxada oturan şagird də daxil olmaqla) müəllimi (bədəni tam şagirdlərə tərəf dönmüş) və onun hərəkətlərini asanlıqla görə biləcəyi yerdir. Əks halda müəllim bədən dilindən səmərəli istifadə edə bilməz. Bununla belə, qarşı tərəfdə və ya proyektorun arxasında dayanıb maneə yaratmamağa diqqət etmək lazımdır. Düzdür, bəzi müəllimlərin bu tip şəxsi məkana ehtiyacı var. Müəllimlər özləri ilə çantalarda kitab, eynək, saat və s. götürərsə, onlar öz əşyalarını sinif otağında stul arxasına qoya bilərlər. Bütün günü ayaq üstə durmaq mümkün olmadığından, arabir müəllim stolunun kənarında oturmaq olar. Müəllim lövhədə yazı yazarkən sinfə arxasını çevirməli olduğundan siniflə əlaqəsini itirməmək üçün yazdığı eyni mətni söyləmək şərti ilə danışmağa davam edə bilər (lövhəyə qarşı edilən izahatların bütün sinifdən akustik şəkildə eşidilməsi mümkün deyil). Beləliklə, lövhədə yazarkən mətnin tam görünmədiyi hallarda şagirdin yazını dəftərinə köçürməsi asanlaşacaq. Bəzən müəllimlər lövhədə yazarkən göz təması kəsiləcək və sinif danışacaq. Bu, normal haldır və bunun müəyyən qədər qarşısını almaq üçün ilin əvvəlində sinfə deməyi tövsiyə edilir ki, lövhədə yazılanların hamısını dəftərlərinə köçürsünlər. Şagirdlər artıq lövhədə yazılanların vacib olduğunu düşündükləri üçün onu yazmağa meyillidirlər. Müəllimin lövhədən yaxşı istifadə edə bilməsi son dərəcə vacibdir. Müəllim lövhədə yazı yazarkən siniflə ünsiyyətə ehtiyac duyduqda bunu adətən sol çiyninin üstündə edir. Müəllimin çiyni və qolu onun siniflə ünsiyyətinə mane olur. Əvəzində lövhədə yazıya qısa fasilə verib yenidən sinfə qayıdıb danışmaq daha məqsədəuyğun olardı.

Sinifdə şagirdlərin arxasına keçməklə lövhədəki yazıları izah etməkdən qaçmaq lazımdır, çünki müəllimlə lövhə arasında qalan şagird fikrini hara cəmləyəcəyini bilmir. Xüsusilə, kiçik yaşlı şagirdlər müəllimin səsini və hərəkətlərini

izləyəcəklər. Səssiz sinifdə ev tapşırıqları və slayd təqdimatları zamanı arxada durmağın heç bir zərəri yoxdur.

Ədəbiyyat

9. Bates, J.E. (1976). "Effects of children's nonverbal behavior upon adults", Child Development 47/1976, 1079-1088.
10. Chaikin, A.L. ve Derlaga, V. (1978) "Nonverbal mediators of expectancy effects in black and white children", Journal of Applied Social Psychology 8/1978,117-125
11. Heidemann, R. (1986). Körpersprache vor der Klasse. Wiesbaden: Quelle und Meyer Verlag.
12. Hübler, A. (2001). Das Konzept Körper in den Sprach- und Kommunikationswissenschaften. Tübingen: A. Franke Verlag.
13. Nadir Məmmədli. Azərbaycan dilində İşgüzar və akademik kommunikasiya. "Elm və Təhsil". Bakı – 2024
14. Rosenbusch, H. S. (2000). "Nonverbale Aspeke interkultureller Kommunikation". İn H. S. Rosenbusch, O. Schober (Eds.). Körpersprache in der schulischen Erziehung (166-207, 207-215). Baltmannsweiler: Schneider Verlag.
15. Schober, O. (1994). Beden Dili. (S. Özbent, Çev.) İstanbul: Arion Yayınevi.
16. Schober, O. (2000). "Körpersprache als Gegenstand des Deutschunterrichts". In: H. S. Rosenbusch, O. Schober (Eds.). Körpersprache in der schulischen Erziehung (215-244). Baltmannsweiler: Schneider Verlag.
17. Watzlawick, P./Beavin, J. H./ Jackson, D. D. (1990). Menschliche Kommunikation. Bern: UTB Verlag.
18. https://communicationacademy.az/kommunikasiya-nedir/

Şükürzadə Şahnazxanım Cümşüd qızı

Məktəbdə optik ünsiyyət: müəllimin bədən dili (baxışı, duruşu)

Xülasə

Tədrisin keyfiyyətini və səmərəliliyini artırmaq üçün verbal kommunikasiyanın önəmliliyi qədər qeyri-verbal kommunikasiya da düzgün qurulmalıdır. Sinif otağında müəllimin bədən dili əsas şərtdir. Baxış qeyri-verbal ünsiyyətin əsas elementlərindən biridir. Təlim materiallarının mənimsənilməsində əsas məsələlərdən biri müəllimin münasibətidir. Baxış və duruşdan şüurlu istifadə nəticəsində müəllim və şagirdlər arasına əks-əlaqənin daha güclü olduğu müşahidə edilir.

Açar sözlər: məktəbdə qeyri-verbal kommunikasiya, optik ünsiyyət, müəllimin bədən dili, müəllimin baxışı, müəllimin duruşu

Шукюрзаде Шахназханум Джумшуд кызы

Невербальное общение в школе: дистанция, жесты и мимика, одежда и внешний вид

Резюме

Для повышения качества и эффективности обучения необходимо правильно структурировать вербальное и невербальное общение. Язык тела учителя имеет решающее значение в классе. Взгляд — фундаментальное явление невербальной коммуникации. Одним из главных вопросов в освоении учебных материалов является отношение преподавателя. Замечено, что в результате осознанного использования взгляда и позы учителя и ученики становятся более тесно связанными друг с другом.

Ключевые слова: невербальное общение в школе, оптическая связь, язык тела учителя, взгляд учителя, поза учителя

Shukurzade Shakhnazkhanim Gumshud kizi

Nonverbal communication at school: distance, gestures and facial expressions, clothing and appearance

Summary

To improve the quality and efficiency of teaching, verbal and non-verbal communication must be properly established. The teacher's body language in the classroom is a basic condition. Gaze is a fundamental phenomenon of nonverbal communication. One of the main issues in mastering training materials is the teacher's attitude. As a result of the conscious use of gaze and posture, teachers and students are observed to become more closely connected to each other.

Key words: nonverbal communication at school, optical communication, teacher's body language, teacher's gaze, teacher's posture

Rəyçi: professor Nadir Məmmədli

Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu, *ISSN 2224-9257*
Filologiya məsələləri № 3, 2025
Səh. ——————

GAMARLI SAIDA KHAMIS
UKLEYN DIANA YURYEVNA
Azerbaijan State Oil And Industry University
saida.qamarli@mail.ru

THE ROLE OF IDIOMS IN THE ENGLISH LANGUAGE

SUMMARY

Idioms are an integral part of the English language, enriching communication by adding depth, color, and nuance. They are expressions whose meanings cannot be understood literally but must be interpreted based on common usage and cultural context. While idioms can sometimes present challenges for non-native speakers, they also offer a fascinating glimpse into the culture, history, and evolution of language. Idioms play a significant role in the English language, contributing to its richness, expressiveness, and cultural depth. Their meaning isn't directly derived from the individual meanings of the words. Instead, idioms typically have a figurative meaning that is understood through common usage. This article explores the significance of idioms in English, their role in everyday speech, and their influence on communication.

Key words: idiom, meaning, communication, phrase, native speaker, literal, cultural

An idiom is a phrase or expression whose meaning is different from the literal interpretation of the words it contains. For example, the idiom "kick the bucket" means "to die," but it has nothing to do with kicking or buckets. Idioms can be metaphorical, cultural, or historical in origin, and their meanings often evolve over time. English, like many other languages, is rich in idiomatic expressions, making them a distinctive and intriguing feature of the language.

*Idioms and Communication***:** The primary role of idioms is to make communication more expressive and engaging. They allow speakers to convey complex ideas, emotions, or situations in a concise and often vivid manner. Idioms can inject humor, irony, or sarcasm into conversations, making them more relatable or entertaining.

For instance, instead of saying "I'm very tired," one might say, "I'm running on empty," using a metaphor that evokes the image of a car with no fuel. This idiomatic expression not only conveys the message efficiently but also adds a layer of creativity and vivid imagery. Similarly, phrases like "under the weather" (ill), "burning the midnight oil" (working late), or "a blessing in disguise" (a good thing in an unexpected way) all offer unique ways to express common situations.

Cultural Significance: Idioms often reflect the culture and history of the language from which they originate. In English, many idioms are influenced by the

country's historical events, occupations, and traditions. For example, the idiom "barking up the wrong tree" likely comes from hunting dogs in the past, where a dog might mistakenly bark at the base of a tree while the prey is higher up. Such idioms provide insight into the practices and daily lives of earlier societies.

Idioms also reflect shared cultural experiences. Expressions like "don't cry over spilled milk" or "the ball is in your court" draw on metaphors that are widely understood within specific communities. These sayings not only enrich communication but also strengthen social bonds by providing a common understanding and shared vocabulary [1].

Idioms in Literature and Media: Throughout literature, idioms have played an important role in shaping the tone and style of writing. Authors use idiomatic expressions to make their characters sound more authentic, relatable, and realistic. They can also be employed for dramatic effect, allowing the author to convey emotions, attitudes, or themes in a concise way.

In modern media, idioms continue to be widely used, especially in advertising, television, and film. Catchphrases or popular idioms often become memorable parts of pop culture. For example, phrases like "break a leg" (to wish someone good luck) or "the bigger picture" (the overall perspective) have become so widely recognized that they are used outside of their original contexts.

Idioms and Language Learning: For non-native speakers, learning idioms can be one of the most difficult aspects of mastering English. Because idioms are not meant to be understood literally, they can be confusing when first encountered. However, understanding idioms is crucial for fluency and cultural integration. They allow learners to speak more naturally and understand the nuances of native speakers.

Language learners often struggle with idioms because their meanings do not follow the rules of standard grammar or vocabulary. A direct translation from one language to another often results in confusion or misinterpretation. For instance, the German idiom "Ich verstehe nur Bahnhof" (literally, "I only understand train station") means "I don't understand anything." Without knowledge of this idiomatic expression, a German speaker might struggle to understand why an English speaker would say something similar.

To master idioms, language learners need to immerse themselves in everyday English, watch films, listen to native speakers, and read literature that uses idiomatic expressions. Over time, they begin to understand these phrases as part of the living fabric of the language. [2]

The Impact of Technology on Idioms: In the age of digital communication, idioms have also evolved. The internet, texting, and social media have introduced new idiomatic expressions, particularly in the form of acronyms and slang. Terms like "LOL" (laugh out loud), "BRB" (be right back), or "TMI" (too much

information) are modern idioms that convey meaning quickly and efficiently in the fast-paced world of online communication.

Additionally, emoji and GIFs are becoming new forms of visual idioms, offering a shorthand way to express emotions, actions, or situations. These digital forms of idiomatic expressions are reshaping the way we communicate, particularly in casual or informal settings.

Here's a list of popular idioms, their meanings, and examples of how they can be used in different contexts:

1. "Break the ice"

- *Meaning*: To initiate conversation in a social setting or to make people feel more comfortable.
- *Context*:
- *Social*: "I wasn't sure how to start the meeting, but the joke I told helped break the ice."
- *Workplace*: "The new manager tried to break the ice by organizing a casual lunch for the team."

2. "Burning the midnight oil"

- *Meaning:* To work late into the night, usually on something important.
- *Context***:**
- *Student***: "**I've been burning the midnight oil studying for my final exams."
- *Workplace***: "**We've been burning the midnight oil to finish the project before the deadline."

3. "A piece of cake"

- *Meaning*: Something that is very easy to do.
- *Context*:
- *Casual*: "The test was a piece of cake; I finished it in 10 minutes."
- *Workplace*: "The task seemed daunting at first, but once I got started, it was a piece of cake."

4. "Hit the nail on the head"

- *Meaning*: To describe exactly what is causing a situation or problem.
- *Context*:
- *Workplace*: "You hit the nail on the head when you said that our marketing strategy needs more focus."
- *Conversation*: "When Jane mentioned that we needed better communication, she really hit the nail on the head."

5. "Under the weather"

- *Meaning*: To feel ill or unwell.
- *Context*:
- *Casual*: "I'm feeling a bit under the weather today, so I'll be staying home."
- *Workplace*: "I'm sorry I missed the meeting; I was feeling under the weather."

6. "Spill the beans"

- *Meaning*: To reveal a secret or disclose information that was supposed to be kept confidential.
- *Context*:
- *Casual*: "I accidentally spilled the beans about the surprise party!"
- *Workplace*: "You're not supposed to spill the beans about the new project before the official announcement."

7. "The ball is in your court"

- *Meaning*: It's up to you to make the next decision or take action.
- *Context*:
- *Conversation*: "I've done all I can do. Now, the ball is in your court."
- *Workplace*: "We've given you all the information you need; now, the ball is in your court to make the decision."

8. "Bite the bullet"

- *Meaning*: To do something difficult or unpleasant that you've been avoiding.
- *Context*:
- *Personal*: "I know I need to go to the dentist, but I keep putting it off. I guess I'll just have to bite the bullet."
- *Workplace*: "We're facing some tough decisions, but we have to bite the bullet and make them."

9. "Cat's out of the bag"

- *Meaning*: A secret has been revealed.
- *Context*:
- *Social*: "We were planning a surprise, but the cat's out of the bag now."
- *Workplace*: "It looks like the cat's out of the bag about the company merger. Everyone's talking about it."

10. "A dime a dozen"

- *Meaning*: Something that is very common and easy to find.
- *Context*:
- *Casual:* "Those types of movies are a dime a dozen. There's nothing special about them."
- *Workplace*: "Jobs like this are a dime a dozen. You could find one anywhere."

11. "Throw in the towel"

- *Meaning*: To give up or admit defeat.
- *Context*:
- *Sports*: "After losing the first two sets, he decided to throw in the towel."
- *Personal*: "I was so frustrated with the project, I almost threw in the towel, but then I pushed through."

12. "A blessing in disguise"

- *Meaning*: A good thing that seemed bad at first.
- *Context*:

- *Personal*: "Losing that job was a blessing in disguise. It led me to a career I'm much happier with."
- *Workplace*: "The delay in the shipment was a blessing in disguise; it gave us more time to prepare."

13. "The early bird catches the worm"

- *Meaning*: People who wake up early or start working on something early have an advantage.
- *Context*:
- *Casual*: "I always get up at 5 AM to work out because the early bird catches the worm."
- *Workplace*: "If you want to get ahead, remember, the early bird catches the worm."

14. "Cost an arm and a leg"

- *Meaning*: To be very expensive.
- *Context*:
- *Personal*: "The new smartphone costs an arm and a leg, but I really want it."
- *Workplace*: "We're going to need a larger budget for this project—it's going to cost an arm and a leg."

15. "Add fuel to the fire"

- *Meaning*: To make a bad situation worse.
- *Context*:
  - *Personal*: "Don't argue with him right now; it'll just add fuel to the fire."
  - *Workplace*: "Bringing up past issues in the meeting just added fuel to the fire during the conflict."

16. "Jump on the bandwagon"

- *Meaning*: To join others in doing something that's popular or fashionable.
- *Context*:
  - *Social*: "Everyone's joining that fitness challenge now. I guess I'll jump on the bandwagon too."
  - *Workplace*: "A lot of companies are starting to adopt eco-friendly policies. We should jump on the bandwagon before it's too late."

17. "Let the cat out of the bag"

- *Meaning*: To accidentally reveal a secret.
- *Context*:
  - *Personal:* "I was planning a surprise for her birthday, but my brother let the cat out of the bag."
  - *Workplace*: "We were trying to keep the project under wraps until the launch, but someone let the cat out of the bag."

18. "*Put all your eggs in one basket***"**

- *Meaning*: To risk everything on a single opportunity or plan.
- *Context*:

o *Personal*: "It's risky to invest all your savings in one stock. You don't want to put all your eggs in one basket."

o *Workplace*: "We're relying too much on this one client—let's not put all our eggs in one basket."

19. "When pigs fly"

- *Meaning*: Something that is impossible or will never happen.
- *Context*:

o *Personal*: "Sure, he'll finish that report early. When pigs fly!"

o *Workplace*: "They say they'll cut down the project costs. Yeah, right—when pigs fly."

20. "Under your nose"

- *Meaning*: Something that is right in front of you but you haven't noticed.
- *Context*:

o *Personal*: "The keys were under my nose the whole time, but I couldn't find them!"

o *Workplace*: "The answer to the problem was right under our noses, but we missed it."

Conclusion: Idioms are much more than just colorful phrases in the English language; they are a reflection of culture, history, and creativity. They enrich conversations, convey complex meanings in a simple way, and provide insight into the collective experience of English-speaking communities. [3] Whether used to add humor, evoke emotion, or share wisdom, idioms are an essential part of everyday speech. As the English language continues to evolve, idiomatic expressions will undoubtedly remain a vital component of how we communicate with one another.

REFERENCES

1. Teliya, V.N. Linguistic Encyclopedic dictionary: linguistic encyclopedic dictionary / Editor-inchief V.N. Yartseva / V.N. Teliya. – M: «Soviet Encyclopedia», 1990. – 559 p.
2. Ter-Minasova, S.G. English language: textbook for educational institutions: 3 class: The Akademiya/textbook / S.G. Ter-Minasova, L.M. Uzunova, E.I. Sukhina. – Moscow, 2012. – ISBN 978-5- 49400-062-0.
3. Vinogradov, V.V. Basic types of phraseological units in Russian the Selected works. Lexicology and lexicography / V.V. Vinogradov. – M., Nauka, 1977. – P. 145–161. Idioms in English language. English idioms.
4. Yesayan, A.J. Role of studying of English idioms in expansion of a lexical stock of pupils / A.J. Yesayan // Lingvuoculturology. – 2016. – No. 10.

S.X.QƏMƏRLİ
D.Y.UKLEYN

İNGİLİS DİLİNDƏ İDİOMLARIN ROLU

XÜLASƏ

İdiomlar ingilis dilinin ayrılmaz hissəsidir, dərinlik, rəng və nüans əlavə etməklə ünsiyyəti zənginləşdirir. Onlar mənaları hərfi mənada başa düşülməyən, lakin ümumi istifadə və mədəni kontekst əsasında şərh edilməli olan ifadələrdir. İdiomlar bəzən ikinci dil öyrənənlər üçün çətinliklər yaratsa da, eyni zamanda dilin mədəniyyətinə, tarixinə və təkamülünə heyrətamiz bir baxış təqdim edir. İdiomlar ingilis dilində mühüm rol oynayır, onun zənginliyinə, ifadəliliyinə və mədəni dərinliyinə töhfə verir. İdiom, mənası birbaşa sözlərin fərdi mənalarından alınmayan sözlər qrupu və ya ifadədir. İdiomlar adətən ümumi istifadə vasitəsilə başa düşülən məcazi məna daşıyır. Məqalə ingilis dilində idiomların əhəmiyyətini, gündəlik nitqdəki rolunu və ünsiyyətə təsirini araşdırır.

Açar sözlər: idiom, məna, ünsiyyət, ifadə, ana dili, hərfi, mədəni

С.Х.ГАМАРЛИ
Д.Ю.УКЛЕЙН

РОЛЬ ИДИОМ В АНГЛИЙСКОМ ЯЗЫКЕ

РЕЗЮМЕ

Идиомы являются неотъемлемой частью английского языка, обогащая общение, добавляя глубину, цвет и нюансы. Это выражения, значения которых не могут быть поняты буквально, а должны интерпретироваться на основе общего использования и культурного контекста. Хотя идиомы иногда могут представлять трудности для неносителей языка, они также предлагают увлекательный взгляд на культуру, историю и эволюцию языка. Идиомы играют важную роль в английском языке, способствуя его богатству, выразительности и культурной глубине. Идиома — это группа слов или фраз, значение которых напрямую не выводится из индивидуальных значений слов. Вместо этого идиомы обычно имеют переносное значение, которое понимается через общее использование. В этой статье рассматривается значение идиом в английском языке, их роль в повседневной речи и их влияние на общение.

Ключевые слова: идиома, значение, общение, фраза, носитель языка, буквальный, культурный

Rəyçi: Filologiya üzrə fəlsəfə doktoru, dosent Rəhimə Məmmədova tərəfindən çapa tövsiyə olunmuşdur.

Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu, *ISSN 2224-9257*
Filologiya məsələləri № 3, 2025
Səh. ————————

b/m **SƏYYARƏ QƏHRAMANOVA**
b/m **SEVİNC RƏHMANOVA**
Azərbaycan Dillər Universiteti
Email:qehremanovaseyyare5@gmail.com

DİLÇİLİK ELMİ ÜÇÜN DİL VƏ İDRAK PROSESİNİN HƏLLİ YOLLARI

Açar sözlər:dil,idrak prosesi,predmetin xassələri, təfəkkür, kommunikasiya, problem.

Key words:language,cognitive process,properties of the objekt, thinking communication, problem.

Ключевые слова:язык,корнитивный процесс,свойства предмета, созерцание, коммуникация,проблема.

Dil son dərəcə çoxşaxəli və çox funksiyalı fenomendir. Məhz o, həqiqi biliyə can atan fikrin inkişafını müəyyən edir. Dilin həqiqi mahiyyətini açmaq üçün onu müxtəlif aspektlərdə nəzərdən keçirmək zəruridir. Bunun üçün ilk növbədə onun strukturunu, sistemini, başlıca elementlərinin nisbətini, obyektiv gerçəklik və idrak prosesi ilə qarşılıqlı əlaqəsini, ictimai münasibətlər və mədəniyyət sistemində hansı funksiyaları yerinə yetirməsini və s. müəyyən etmək tələb olunur. Təbii ki, bir məqalə həcmində sözügedən problemlərin hamısını araşdırmaq qeyri-mümkündür. Ona görə də istər fəlsəfə, istərsə də, dilçilik elmləri üçün çox mühüm əhəmiyyət kəsb edən dil və idrak prosesi problemi üzərində dayanmağı daha məqsədəuyğun hesab edirik. Məhz bu problemin həlli dil fəlsəfəsini digər mühüm problemlərinin həlli üçün bir açarıdır. Təsadüfi deyil ki, dünyanın insan şüurunda inikasının spesifikliyi və onun dildə təzahürü ən çox mübahisə doğuran və hələ də elmi ədəbiyyatda öz həllini tam tapmayan problemlərdən biridir. Bunun bir sıra səbəbləri vardır. Birincisi, dil fenomeni bütün tədqiqatçılar üçün bir sirr olaraq qalır. Onlar belə hesab edirlər ki, ünsiyyət vasitəsi olmaq, kommunikasiya funksiyasını yerinə yetirmək dilin başlıca mahiyyətini müəyyən edən xassədir. Bu, həqiqətən də belədir. Dil özü-özlüyündə praktiki, gerçək şüurdur. Dili praktiki şüur adlandırarkən, hər şeydən əvvəl onun məgsədyönlü, instrumental fəaliyyətini nəzərdə tuturlar.

Lakin dilin kommunikasiya funksiyasını yerinə yetirməsi üçün onun hansı mərhələlərdən keçməsi, modifikasiyaya uğramasi, dünyanı necə dərk etməsi və alınan nəticələrin hansı yollarla insanlar arasında ünsiyyət vasitəsinə çevirməsi idrak prosesinə ciddi təsir göstərməsi və onunla dialektik sıx əlaqədə olması tam aydınlaşdırılmamışdır. Bu, sirr olaraq qalır. Həmin problemi həll etmədən dilin kommunikasiya funksiyasının mahiyyətini axıra qədər düzgün başa düşmək qeyri-mümkündür. Kommunikasiya aktının əsasında insanın onu əhatə edən obyektiv aləmi əks etdirmək prosesi durur. Burada obyektiv aləmin ayrı-ayrı tərəfləri deyil, nisbətən tam əksi verilir. Predmetin xassələri və onun qanunauyğun əlaqələri kommunikasiya aktında aşkar olunur va predmetə müxtəlif təriflər verilir. İkincisi,

dil va idrak prosesinin dialektik əlaqəsini açmağa maneçilik törədən fəlsəfi ədəbiyyatda dil fonemenilə bağlı olan təfəkkür, şüur, ideal va idrak kateqoriyalarinin şərhindəki qeyri-müəyyənlik və anlaşılmazlıqdır. Belə ki, filosofların bir qismi təfərkkür kateqoriyasını geniş mənada götürür və təfəkkürün hissi-idrakdan çıxıs edərək onu dəyişdirməsini göstərirlər.

Deməli, təfəkkürü hissi idraksiz təsəvvür etmək çətindir. Halbuki filosoflarin digər qismi təfəkkürü mücərrəd (abstrakt) və yaxud məntiqi (rasional) idrakla eyniləşdirirlər və bununla da onu dar mənada götürürlər.Tanınmış Azərbaycan filosofu, prof. Y.Rüstəmov yazır ki, təfəkkür rasional (məntiqi) idrakdır(8,s.252) Bu hal dilin idraki fəaliyyətinin səviyyələrini müəyyən etməyə kömək etmir. Bununla bərabər, filosoflar təfəkkür, şüur ve idrak kateqoriyalarını eyniləşdirirlər (12,s. 392, və belə hesab edirlər ki, onların hər üçü obyektiv reallığın inikasının ali formasıdırlar. İdrakın da həmçinin müxtəlif səviyyələri göstərilir: hissi idrak, təfəkkür, empirik və nəzəri idrak . İdeal şüurun və insan fəaliyyətinin müəyyən aspekti kimi götürülür (15,≤309) Halbuki təfəkkür də ideal hadisələr növünə daxildir. Beləliklə, təfəkkür, şüur, idrak va ideal kategoriyaları haqqında söylənilən fikirlər göstərir ki, onlar arasındakı ümumi va fərqli cəhətlər tam müəyyən olunmamışdır. Ona görə də həmin fəlsəfi kategoriyaların dilə tətbiqi lazımı səmərə vermir. Biz bunu nəzərə alaraq dilin fəlsəfi problemini idrakin (inikasın), predmet-praktiki fəaliyyətin va kommunikasiyasının vəhdəti prinsipi əsasında təhlil etmək fikrindəyik. Bu məqsədlə təfəkkürü təkcə nəzəri (məntiqi, rasional) deyil, həm də praktiki təfəkkür kimi götürürük; dili də praktiki, gerçək şüur kimi götürürük. Bu baxımdan dil və idrak prosesini məntiqi (rasional) təfəkkür səviyyəsində deyil, hissi idrak səviyyəsində nəzərdən keçirməyi vacib sayırıq. Məhz bu aspektdə dilin praktiki, gerçək şüur olması özünü daha aydın şəkildə biruzə verir. Ancaq bu problemə toxunmazdan əvvəl dilin idrak prosesinə ciddi təsir göstərməsi va insan həyatında rolu məsələsi üzərində dayanmaq istərdik. Qeyd etmək lazimdir ki, dilin müxtəlif formalari mövcuddur: təbii dil, ədəbi dil, xalq danışıq dili, loru dil, ərazi dialekti, sosial dialekt, obrazlar dili (incəsənət), simvol va işarə dili. Tarixi inkişaf prosesində mürəkkəbləşən biliklər sistemi süni işarə sistemlərinin, məsələn, riyazi dilin meydana çıxmasına səbəb oldu. Lakin biz təbii dildən istifadə edəcəyik, çünki o, elmi anlayışların ilk ifadə vasitəsi olmuşdur, insan fəallığının əsas va ayrılmaz amili kimi çıxış edir. Heç bir elmi nəzəriyyə dilsiz yarana bilməz. Təbii dil ünsiyyət vasitəsi, hiss va həyacanın ifada vasitəsi, fikrin başqasına çatdırlması, eldə edilən biliyin saxlanma va sonrakı nəsillərə ötürülmə vasitəsi, nəhayət, fikri əsaslandırmaq, yəni başqasını nəyəsə inandırmaq vasitəsidir. İnsan varlığının heç bir fundamental problemi dilə xüsusi diqqət yetirilmədən, onun potensial idraki imkanlarını nəzərə almadan qoyula və həll oluna bilməz. İnsan yeganə varlıqdır ki, dil vasitəsilə özü üçün problem yaradır va təfəkkürün müxtəlif tiplərindən istifadə edərək həmin problemi həll etməyə çalışır. Bu mənada dil insan şüurunun va davranışının idarə olunması vasitəsidir.

Dil təfəkkür zəruri müqəddəm şərtidir. Dil va təfəkkürün qarşılıqlı asililiği, şərtliyi və təsiri elə amildir ki, bu amil insanı insan edir, onu digər canlı məxluqlardan fərqləndirir. Dünyanı müxtəlif cür qavramaq və strukturlaşdırmaq olar; insanın uşaq vaxtı mənimsədiyi dil onun dünyanı duyma və strukturlaşdırma qabiliyyətini müəyyən edir. Bunu hindu dillərini öyrənən Amerika tədqiqatçısı Bencamen Uorfun dil nisbiliyi konsepsiyası təsdiq edir. O, bu barədə yazır: müəyyən edilmişdir ki, hər bir dilin dil sisteminin əsasi (grammatika) sadəcə olaraq fikri əks etdirmə aləti deyildir. Əksinə, qrammatika özü fikri formalaşdırır, təfəkkür fəaliyyətini proqramlaşdırır. B.Uorfun dil nisbiliyi konsepsiyasi baxımından dil bir-biri ilə əlaqəda olan kateqoriyalar sistemidir; Bu sistem bir tərəfdən, obyektiv gerçəkliyi əks etdirir, digər tərəfdən isə dünyaya baxışı təsbit edir.

B.Uorfun konsepsiyasina əsasən müxtəlif dillərdə danışan insan qrupları dünyanı müxtəlif cür qavrayır və başa düşürlər. Dünya dilləri bir-birindən həm onların lügətlərinin dünyanı təsnif etməsinə, həm də ayrı-ayrı məna vahidlərinin müxtəlif üsullarla kombinasiya edilməsilə fərqlənirlər. B.Uorfun fikrincə, bu kombinasiya növləri müəyyən dil qrupunun reallıq haqqında təsəvvürünü təhtəl-şüur formasında əks etdirir və müəyyən edir. Məsələn,alman dilində fellər zaman fərqlərinə müvafiq olaraq müxtəlif formalar (keçmiş, indiki və gələcək zaman) alırlar. Hindu qəbiləsinin dilində isə,əksinə,fellər ifadə etdikləri hərəkətin doğruluq dərəcəsinə görə fərqlənirlər.Başqasının sözü ilə məlum hadisə haqqında söhbət gedəndə bir fel,danışan adamın özü hadisənin şahidi olanda eyniköklü deyil,sinonim olan başqa fel işlədilir.Məsələn, törədilən cinayətin şahidi atəş səsini söz vasitəsilə "eşidir, "polis işçisi isə həmin hadisə haqqında protokol tərtib edərkən protokol formasında "eşidir".

Dilin və təfəkkürün ümumiliyi o deməkdir ki, idrak prosesində onlar bir-birindən ayrılıqda mövcud ola bilməzlər, əksinə, bir tam halında birləşirlər. Təvəkkürsüz dil mümkün olmadığı kimi, dil olmadan təfəkkür də mümkün deyildir. İnsanın təvəkkürü yalniz dil materialları bazasında, yəni ayrı-ayrı sözlər və ifadələr formasında mümkündür. Əgər sözlər təfəkkür prosesini tamamilə ifadə etsəydi, onda boşboğazlar « böyük mütəfəkkirlər» olardılar. Sözlər və ifadələr mücərrəd (məntiqi) təfəkkürün meydana çixmasının müqəddəm şərtidirlər, təfəkkür də öz növbəsində dilin inkişafı üçün perspektivler açır. Anlayış sözdən azad ola bilmaz; söz səs və anlayışın vəhdətidir, anlayışların işarələridir. Səs insan üçün predmet təsəvvürü rolunu oynayır, anlayış isə bizim predmet haqqında baxışımızı ifadə edir. Söz anlayişın dildə ifadəsi, maddiləşmiş formasıdır. Anlayış adətən söz və cümlə ilə ifadə olunur. Məsələn, atom mürəkkəb hissəcikdir cümləsi müəyyən mühakiməni ifadə edir. Dilsiz mövcud olması mümkün ola bilməyən digər təfəkkür formaları kimi, mühakimə də cümlə xaricində meydana gələ bilməz. Sözün mənası predmet və hadisəyə olan iki əsas mü-nasibətdən yaranır: a) predmetin inikası; b) predmetin işarə olunması. Dil praktiki olaraq təfəkkürlü sıx əlaqəda insanın bütün ali psixi funksiyalarının həyata keçirilməsində iştirak edir. Təəssüf ki, bu əlaqə elmi

ədəbiyyatda çox vaxt nitq va təfəkkür prosesinda paralel, yəni tam müstəqil, yanaşı mövcud olan əlaqə kimi şərh edilir və buna müvafiq olaraq dil və təfəkkür vahidlərinin (söz va anlayış, cümlə və mühakimə) qarşılıqlı münasibətləri müəyyən edilir. Bu isə dilin obyektiv aləmi əks etidirmək nəticəsində söz vasitəsilə əldə etdiyi mənanin bəsit, bayağı şərhindən başqa bir şey deyildir. Məna nitq fəaliyyətinin konstant (sabit) sistemidir. Həmin sistem dilin strukturunun bu və yaxud digər predmetlər sinfinə daxil olmasını təmin edir.Bununla da məna onun daşıyıcısı tərəfindən tam mənimsənildikdə insan fəaliyyətinin potensial tənzimləyicisinə çevrilir. Demək olar ki, dil ictimai əmək xarakterinə malik olması ilə yanaşı, şüurun spesifikliyini və ümumiyyətlə insan psixikasini müəyyən edən amillərdən biri kimi çixiş edir. Zənnimcə, dil və təfəkkür idrak prosesində müstəqil mərhələlər olmaqla yanaşı,qarşılıqlı sürətdə bir-birini şərtləndirir və tam halında birləşirlər. İdrak prosesində, xüsusilə hissi idrakda dilin əhəmiyyəti böyükdür.

İnsanın hiss orqanlarının hər hansı maddi obyektlə təmasda olması, onun artıq dilə yiyələnməsini göstərir Bu yolla acı, şirin, turş və s. sözlər meydana çıxır. Bu fakt insanın həm də dil formaları ilə birlikdə keçmiş tarixi təcrübəni toplanmasını, ümumiləşdirməsini nümayiş etdirir. İnsan dil vasitəsilə hissi-empirik təcrübənin ayrı-ayrı faktların, onun yaşadığı və fəaliyyət göstərdiyi ictimai həyatın mühüm əlaqə və münasibıtləri haqqındakı bilikləri birləşdirir. Hər bir insan dilə yiyələndiyini görə gündəlik həyatda praktiki olaraq çox əsrlik təcrübəyə əsaslanır.İnsan dildə ifadə olunan konkret məzmunu mənimsəməklə ictimai münasibətlər, mədəniyyət və biliklər sisteminə daxil olur.Bu baximdan dil hissi idraki təşkil edir və formalaşdırır.

Dildə işarə insan şüurunun bəzi məzmununu ifadə etdiyinə görə sosial informasiya daşıyıcısına çevrilir. Danışıq və yaxud yazılı dilin ifadəsi məna və yaxud əhəmiyyət kəsb edir. Deməli, insanın maddi-mənəvi fəaliyyətini əks etdirən hissi idrak dildən və məntiqi (rasional) təfəkkürdən asılı olur.

Biz adi praktiki həyatda real mövcud olan və hiss orqanları (lamisə, görmə, esitmə və s.) vasitəsilə bilavasitə qavranılan ayrı-ayrı konkret predmetlərlə əlaqəda oluruq. Ancaq, bununla bərabər, biz predmet və hadisələr arasındakı münasibətləri aşkar edirik va onlara olan münasibətimizi təsbit edirik. Bunu ən sadə cümlələrdə görmək olar: «bu evdir», «bu ev gözəldir» və s. «ev», «gözəl» sözləri bizim bilavasitə nəzərdə tutduğumuz müəyyən konkret ayrı-ayrı obyektlərə də aid ola bilərlər. «Ev» sözü olduqca bir-birinə oxşamayan bütün binalara aid edilə bilər; «gözəl» sözü həmçinin çox müxtəlif predmetlərə aid ola bilər. Belə ki, yalniz evlər gözəl deyildir. Lakin həmin sözlər konkret predmet və hadisələr arasındakı münasibətləri ümumiləşmiş formada əks etdirir və ifadə edir. Biz həmin sözləri işlədəndə bəzi ümumi xassələri, müxtəlif predmetlərin son dərəcə fərqli olan xarakterik cəhətlərini nəzərdə tuturuq. Məhz xassələrin obyektiv ümumiliyi dildə əks olunaraq idrakın başlıca obyektinə çevrilir. Burada idrak prosesi belə gedir. İnsan, hər şeydən əvvəl, öyrəndiyi real, konkret predmetlərin həqiqi, obyektiv mövcud olan keyfiyyət və əlamətlərinə əsaslanır. Bununla yanaşı, fəal idrak prosesi gedir, yəni

insan məqsədəuyğun şəkildə heç də həmişə bir-birinə təsir göstərməyən müxtəlif predmetləri müqayisə edir, praktiki məqsəd güdür və eyni zamanda həmin anda onu maraqlandırmayan münasibət və əlaqələrdən fikrən sərf-nəzər olur. İnsan sanki fikrən digər predmetlərlə münasibətdə olan konkret predmetin tamlığını iki yerə bölür. Dil konkret predmetin tamlığını elə bölür ki, burada bir şey başqa şey vasitasilə, ümumi xüsusidə təzahür tapir, tam isə hər yerə nüfuz edən qüvvəyə çevrilir. Buna görə də konkret predmet potensial şəkildə ən müxtəlif xassə və əlamətlərin məcmusundan ibarət olur. Şübhəsiz, həmin predmet maddi tamlığında qalmaqda davam edir. İnsan öz fikri vasitəsilə tam halında olan konkret predmetdən əla münasibətləri və əlaqələri ayırır ki, onlar özlüyündə həmin predmetdən kənarda mövcud olmur. İnsan tərəfindən ayrılan və dərk olunan həmin obyektlər «ev», «gözəl» və s. sözlərə oxşar olan sözlərdə ifadə olunur.

Söz-anlayış olmadan insan idraki qeyri-müəyyən olardı. Praktiki fəaliyyət prosesində sözlər-anlayışlar sonradan həmin fəaliyyətin mühüm komponentinə çevrilir. Biz konkret insan va yaxud sosial qrup, birlik haqqında danışarkən təbii ki, insan sözünü işlədirik. Biz «insan» sözünü çox hallarda bütün insan məxluqlarının ümumi xassələri, onların mahiyyətini digər bütün canlılardan fərqləndirmək haqqındakı biliklə bağlayırıq. Söz həmin biliklə vəhdət halında çıxış edəndə məhz anlayış kimi mövcud olur. Anlayış idrak prosesində sözlərdə təcəssüm olunmaqla yanaşı,predmet və hadisələrin ümumi, mühüm xassələrini və münasibətlərini əks etdirir.Əgər insan idrakının tarixi gedişində fikrin ümumiləşmiş forması işlənib hazırlanmasaydı,onda hər bir yeni nəsil hər bir konkret predmeti,əşyanı ayrı -ayrı sözlərlə yenidən təsvir etməyə müqayisə etməyə və ifadə etməyə məcbur olardı.Buradan belə aydın olur ki, sözlər-anlayışlar maddi-mənəvi aləmin ümumi xassələrini əks etdirir və ifadə edir.Sözlər-anlayışlar idrakın maddi deyil,ideal obyektləri olurlar və bununla da maddi-mənəvi ailəmin obraz şəklində inikası özlüyündə ümumiləşmənin birinci mərhələsini təşkil edir. Məsələn,əgər bizim şüurumuzda "insan"obrazı vardırsa,onda həmin obrazda müşahidə etdiyimiz müxtəlif adamların xüsusiyyətləri,xasiyyətləri və s.sin-tez şəklində olur.Əgər dili təkcə,xüsusi və ümumi fəlsəfi kateqoriyalar sistemində götürsək,onda dildə təkcə yoxdur, onun hər bir elementi tamın hissəsi kimi təzahür edir.Hissi idrak şeylərin ayrı-ayrı tərəfləri və xassələri haqqında bilik verir.Hissi idrakdan fərqli olaraq dil obyektiv aləmin bu və ya diğər fraqmentini deyil,dünyanı tam şəkildə öyrənir və bütövlükdə təsvir edir.

Beləliklə,dili donmuş,statik fenomen kimi yox,yaradıcı proses kimi götürüb təhlil etmək lazımdır.Yalnız bu yolla dilin potensial idrakı imkanlarını aşkar etmək olar.

İstifadə olunmuş ədəbiyyat.

1.Arxiv K.Marks və F.Engels,M.1935.səh99
2.Rüstəmov Y.Fəlsəfənin əsasları. Bakı2004.səh252 -277
3.Rüstəmov.Y.Qloballaşma vəsivilizasiya .Bakı2001.səh.96

4.Yopf.B.Elm və dilçilik.M.1960.səh.174-175
5.Prof.Ramazanovun redaktorluğu ilə.Bakı 1997.səh.208-209

Seyyare Qahramanova
Sevinj Rahmanova

SOLUTIONS TO LANGUAGE AND COGNITIVE PROCESSES FOR LINGUISTICS.
SUMMARY

Speech realizing the function of the means of communication is the main feauture determining the essence of the language.The role of communication is great in carrying out the functions of the laungage.But to realize the communicative functions,language first of all is a means of underslanding of general features of objektive realities and pfenomena.İn this respect in the artikle the enfluence of language in the process of Cognition on the one hand,and on the other hand its potentials of possibilities in the understanding of the objective world are analysed.

If we consider language in the system of specific and general philosophical categories,then language does not exist alone ;each of its elements appears as part of a whole.Sensory perception provides knowledge about the individual aspects and properties of things.

РЕШЕНИЯ ЯЗЫКА И КОГНИТИВНОГО ПРОЦЕССА ДЛЯ ЛИНГВИСТИКИ
РЕЗЮМЕ

Функция быть средством общения,коммуникации-это свойства языка определяет его главную сущность.Однако коммуникативная функция языка невозможна без познания и обобщения общих черт, свойств и связей предметов и явлению объективного мира.С этого целью в статье анализируется,с одной стороны, влияние языка на процесс познания,а с другой-раскрываются познавательные потенциальные возможности языка в познании объективной действительности.Если рассматривать язык только в системе специальных и общий философских категорий,то язык не просто существует,каждый его элемент проявляется как часть целого.

Чувственное восприятие даёт знания о различных аспектах и свойствах вещей.

Rəyçi: filologiya üzrə fəlsəfə doktoru, dosent Aida Sabor

Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu, *ISSN 2224-9257*
Filologiya məsələləri № 3, 2025
Səh. ——————

Doktorant **ABBASOVA RƏŞADƏ MƏHƏMMƏDƏLI QIZI**
Xəzər Universiteti,Məhsəti küçəsi 41
antar.abal@mail.ru

ALMAN DİLİNDƏ KONYUKTİVİN İFADƏ VASİTƏLƏRİNİN TƏHLİLİ

Açar sözlər: feilin formaları,feilin konyuktiv forması,konyuktivin ifadə vasitələri, tabeli mürəkkəb cümlələr

Alman dilinin qrammatikası öz mürəkkəbliyi ilə digər dillərdən seçilir.Alman dilinin qrammatikasını mürəkkəbləşdirən qaydalardan biri də,feilin formalarından olan Konyuktivdi. Azərbaycan və rus dillərində,alman dilində olan feilin konyuktiv formasına tam mənası ilə uyğun gələn xüsusi bir forma yoxdu.Müasir alman dilində feilin konyuktiv formasının işlənmə sahəsi çox genişdi.Gündəlik danışıqda,elmi və siyasi məqalələrdə,bədii ədəbiyyatda,radio və televiziya verlişlərində feilin konyuktiv formasından daim istifadə olunur.Bu forma real və real olmayan arzu,xahiş,əmr,ehtimal,şübhə,şərt,mümkünlük ifadə edən bir feil şəklidi.Feilin xəbər forması iş və hərəkətin olub bitməsini qətiyyətlə bildirdiyi halda,konyuktiv iş və hərəkətin icrasının ehtimalla,şübhə ilə bağlı olduğunu,müəyyən şəraitdən asılı olduğunu göstərir.Bunu aşağıdakı nümunələrdə nəzərdən keçirək:

Wenn ich Geld habe, helfe ich dir.

Mənim pulum olanda sənə kömək edəcəm.

Bu halda feilin xəbər forması hərəkətin qətiyyətlə icra olunduğunu göstərir.

Wenn ich Geld hätte,würde ich dir helfen.

Əgər mənim pulum olsaydı,sənə kömək edərdim.

Bu cümlədə feilin konyuktiv formasından istifadə olunmuşdu.Hərəkətin real olmadığı,həqiqətə uyğun gəlmədiyi görünür.Danışanın arzusunu,istəyini bildirir.

Alman dilində Konyuktivin iki əsas forması var.Konyuktiv I və Konyuktiv II.

Alman yazıçıları öz fikirlərini obrazlı şəkildə ifadə etmək üçün Konyuktivin hər iki formasından öz əsərlərində geniş istifadə edirlər.Bədii əsərlərdə Konyuktiv I-dən yalnız vasitəsiz nitqi vasitəli nitqə çevirmək üçün istifadə edilsə də,Konyuktiv II-dən daha geniş şəkildə istifadə olunur.Bunu bədii əsərlərdən götürülmüş nümunələr üzərində nəzərdən keçirək.

Er sagte er habe keine Eile zu seiner Frau zu kommen.

O deyirdi ki,arvadının yanına getməyə tələsmir.

Wer an ihnen vorüberspaziert könnte denken,es seien riesengroße Bienenstöcke. Onların yanından keçən hər kəs,onların nəhəng arı pətəkləri olduğunu düşünə bilərdi.

Beim Abendbrot hast du sie unterm Tisch so gegens Schienbein getreten,dass sie beinahe gebrüllt hätte.

Axşam yeməyində stolun altından onun baldırına sən elə təpik vurdun ki,az qaldı ki qışqırsın. 1-ci cümlədə Konyuktiv I-dən istifadə olunmuşdu.Burda məlumat xarakterli fikir yazılmışdı.2-ci və 3-cü cümlədə isə Konyuktiv II tətbiq olunmuşdu.2-ci cümlədə real olmayan yalnız düşünülə bilən fikirdən söhbət gedir.Yəni gördüyünü arı pətəyi kimi düşünə də bilər,düşünməyə də bilər. 3-cü cümlədə də düşünülən amma həyata keçməyən fikirdən danışılır.Yəni zərbə alan şəxs qışqıra bilərdi,amma qışqırmayıb sakit dayanıb.Bu cümlələri təhlil etdikdə görürük ki,Konyuktivin xüsusilə də Konyuktiv II-nin bədii əsərlərdə istifadəsi yazıçıya,öz fikirlərini daha geniş,hərtərəfli şəkildə oxucuya çatdırmağa kömək edir.Bədii əsərlərdən götürülmüş digər nümunələrə də baxaq.

Wenn es nicht dunkel wäre,würden sie sogar zwischen jenen blauen
Nebelwänden,die Berge sind, das Meer erkennen.

Əgər qaranlıq olmasaydı,onlar hətta dağlar olan o mavi duman divarları arasında dənizə belə görə bilərdilər.

Wenn ich keine Angst hätte,würde ich mit dir morgen auf den Berg klettern.

Əgər mən qorxmasaydım,sabah sənlə dağa çıxardım.

Wenn Sie nun jeden Ziegel auf dem Dach einen andern Heiligen weihen würden,wie mein Herr,dann hätten wir den Lärm alle Tage?

Əgər siz damda olan hər kərpici,mənim rəbbim kimi başqa müqəddəsə həsr etsəydiz,onda bizdə bütün günü səs-küy olardı?

Cümlələr şərt budaq cümləsi kimi Konyuktiv II-də yazılmışdı.Əsl şərt budaq cümlələrində həyata keçə bilən,reallaşan şərt olduğu halda,Konyuktiv II-də yazılmış şərt budaq cümlələrində yalnız danışanın təxəyyülündə yerinə yetirilə bilən şərt olur. Yazılmış cümlələrdən bunu aydın şəkildə görmək olur.Hər üç cümlədə qoyulmuş şərti dəyişmək mümkün deyil.Nəticədə real olmayan arzu və istəkdən söhbət gedir. Konyuktiv II-nin məhz bu ifadə vasitəsilə yazıçı öz fikirlərinə heç bir məhdudiyyət qoymadan təxəyüllündə formalaşdırdığı düşüncələri,ideyaları oxucuya təqdim edir. Yazıçı nə qədər çox real həyatda gerçəkləşməyən arzu və istəklərdən yazsa,bir o qədər çox Konyuktiv II-dən öz əsərlərində istifadə edir.

Yalnız bədii əsərlərdə deyil,siyasi mövzuda yazılmış əsərlərdə də Konyuktivdən istifadə olunur. Siyasi mövzuda yazılmış əsərlərdən götürülmüş nümunələrdə bunu görə bilərik. Deren Vorgesetzter er geworden wäre,wenn seine damals aktuelle Kandidatur für das Amt des Regierenden Bürgermeisters Erfolg gehabt hätte. O kimin müdiri olardı,əgər onun o vaxtkı bələdiyyə sədri vəzifəsinə namizədliyi uğurlu olsaydı.

Wenn ein junger Student in den siebziger Jahren ähnliches geäußert hätte,wäre er in Bayern mit hoher Wahrscheinlichkeit nicht in den öffentlichen Dienst aufgenommen worden. Əgər yetmişinci illərdə gənc tələbə buna bənzər bir şey desəydi,böyük bir ehtimalla o Bavariyada dövlət xidmətinə qəbul olunmazdı.

Auch spricht nichts dafür,dass die Entwicklung in der DDR beschleunigt worden wäre,wenn wir unsere Bemühungen in diese Richtung noch verstärkt hätte. Əgər bu istiqamətdə səylərimizi gücləndirsəydik,ADR-də inkişafın daha da sürətlənəcəyini söyləmək üçün heçnə yoxdu.

Bədii əsərlərdə,siyasi mövzuda yazılmış əsərlərdə feilin Konyuktiv formasına çox rast gəlinsə də,elmi ədəbiyyatda Konyuktiv zərurilik və vaciblik bildirmək üçün "sein" feilinin prezensi(indiki zaman) və əsas feilin partisip II şəkli ilə düzəlir.Belə cümlələr kimi yazılır. Es sei hier erwähnt….

Burda qeyd etmək lazımdır ki....

Es sei hier eingehend erleutert....

Burada ətraflı izah etmək lazımdır.....

Elmi əsərlərdə zərurilik və vaciblik bildirilən fikirlərdən başqa,həmçinin arzu və istək bildirən fikirlərə də rast gəlinir.Aşağıdakı cümlələr buna misal ola bilər.

Es falsch wäre,als Künstler in der Industrie aufzugehen und aus der

Einsicht,dass es sowohl aus der ökonomischen Not der Zeit heraus.

Sənətkarın sənaye ilə məşğul olması və bunun həmin dövrün iqtisadi çətinliyindən qaynaqlandığını düşünmək yanlış olardı.

Es wäre denkbar,dass die Arbeit in den Werkstätten des Bauhauses mehr und mehr zur Schaffung typischer Einzelstücke führen wird.

Düşünmək olardı ki,tikinti emalatxanalarında görülən işlər getdikcə daha çox tipik fərdi parçaların yaradılmasına səbəb olacaq.

Es wäre eine grobe Vereinfachung und unzulässige Verkürzung,würde man sich gerade auf die Pädagogik des Bauhauses berufen,um aus den Grundlehren alles Inhaltliche auszuklammern. Bu kobud sadələşdirmə və yolverilməz qısaltma olardı,hər şey əsas təlimlərdən kənarlaşmaq üçün tikinti pedaqogikasına arxalansaydı. Elmi əsərlərdə Konyuktivdə yazılmış cümlələrə az rast gəlinsə də, gündəlik məişətdə danışıq dilində belə cümlələrə çox rast gəlinir.Xüsusilə də, Konyuktiv II-də yazılmış olan cümlələrdən daha çox istifadə olunur.Konyuktiv II-də olan cümlələr daha çox tabeli mürəkkəb cümlə şəklində olur.Amma xahiş bildirən cümlələr sadə cümlə kimi də ola bilər.Nümunə kimi aşağıdakı cümlələrə baxa bilərik.

Würden Sie mir bitte die Rechnung bringen?

Siz zəhmət olmasa mənə hesabı gətirə bilərsiz?

Könntest du morgen zurückrufen?

Sabah yenidən zəng edə bilərsən?

Danışıq dilində şərt budaq cümləsində,güzəşt budaq cümləsində,təyin budaq cümləsində, nəticə budaq cümləsində Konyuktiv I-ə nisbətən Konyuktiv II daha çox istifadə olunur.Çünki insanlar gündəlik danışıqda öz arzu və istəklərini,güman və şübhələrini Konyuktiv II ilə ifadə edirlər.Konyuktiv II-də verilmiş şərt budaq cümlələrində əvvəlcədən qoyulmuş şərt gerçəkliyə uyğun olmadığı halda,nəticə

budaq cümlələrində işin nəticəsi reallığa uyğun gəlmir.Bunu misallar üzərində nəzərdən keçərək.

Die Ausstellungsräume sind so weitläufig,dass man sich beinahe darin verirren könnte. Sərgi otaqları o qədər genişdir ki,orada az qala azmaq olar. Die Umleitung war so schlecht ausgeschildert,dass wir uns fast verfahren hätten.

Dolama yol o qədər zəif işarələnmişdi ki, biz az qala azmışdıq.

1-ci cümlədə sərgi otaqlarının çox geniş olmasının nəticəsi kimi orda az qala azmaq olar.2-ci cümlədə dolama yolun zəif işarələnməsinin nəticəsi kimi azmaq olar.Digər cümlələrə də baxaq. Wenn ich Französisch könnte,würde ich diese Unterlagen für dich übersetzen. Əgər mən fransız dilini bilsəydim,sənin üçün bu sənədləri tərcümə edərdim. Wenn er schneller gewesen wäre,hätte er gewinnen können. Əgər o daha sürətli olsaydı,o qalib gələ bilərdi.

Bu cümlələrdə əvvəldən qoyulmuş şərtlər reallığa uyğun deyil.Şərtlər reallığa uyğun olmadığına görə də yerinə yetirilməsi də mümkün deyil.Feilin xəbər formasında olan şərt budaq cümlələr həyati gerçəkliyə istinad etsə də,Konyuktiv II-də olan cümlələr xəyal gücünə əsaslanır.Buna görə də,istər yazılı nitqdə, istərsə də şifahi nitqdə şərt budaq cümləsinin feilin xəbər formasında yaxud Konyuktiv formasında olmasına diqqət etmək lazımdı. Şifahi nitqdə Konyuktiv II-də olan cümlələr daha çox şərt budaq cümləsi şəklində olur. Çünki danışan şəxs gerçəkliyə uyğun olmayan fikirlərini müəyyən şərtlərlə əlaqələndirir. Konyuktiv II-də olan şərt budaq cümlələri həm indiki zamanda,həm də keçmiş zamanda ola bilər.Həyata keçməyən,gerçəkləşməyən fikirləri Konyuktiv II-də olan təyin budaq cümlələri şəklində də, ifadə etmək olar.Gündəlik danışıqda Konyuktiv II-də olan təyin budaq cümlələri, şərt budaq cümlələri qədər geniş istifadə olunmasa da,yenə də şifahi nitqdə belə cümlələrə rast gəlinir.Nümunələr üzərində bunu nəzərdən keçirək. Ich kenne keine Methode,mit der man diese Arbeit noch mehr beschleunigen könnte. Mən heç bir üsul bilmirəm ki, bu işi daha da sürətləndirə bilərdi. Es gab noch keinen Menschen,der den Atlantik von Frankreich bis zur Ostküste der USA durchschwommen hätte.

Hələ elə bir adam yoxdur ki,Atlantik okeanını Fransadan ABŞ-ın şərq sahillərinə kimi üzsün.

Təyin budaq cümlələrini Konyuktiv II-də istifadə etmək bir o qədər də münasib deyil. Çünki Konyuktiv II-də gerçəklikdən kənar olan fikir bildirilir.Təyin budaq cümlələri isə baş cümlədə isimlə,əvəzliklə ifadə olunmuş cümlə üzvünü təyin edir.Belə cümlələri Konyuktiv II-yə uyğunlaşdırmaq əlverişli deyil.Yuxarıda yazılmış cümlələrdən də, aydın görünür ki, təyin budaq cümlələrini Konyuktiv II-də yazdıqda,Konyuktiv II-nin bildirdiyi gerçək olmayan arzu və istək tam ifadə olunmur. Bunun üçün şərt budaq cümlələri daha uyğundu.

Konyuktiv II müqayisə budaq cümlələrində də istifadə olunur.Konyuktiv II-də olan müqayisə budaq cümlələrində reallıqdan çox da uzaq olmayan fikirlər olsa

da,yenə də bu cümlələri Konyuktiv II-yə aid etmək olar.Belə cümlələrə nəzər yetirək. Er sah so aus,als ob er keine Lust auf die Wanderung hätte.

O elə görünür ki,elə bil gəzintiyə çıxmağa həvəsi yoxdu.

Ich war so müde,als hätte ich seit Tagen nicht geschlafen.

Mən elə yorulmuşam ki,elə bil günlərdi yatmamışam.

Er fuhr, als ob er getrunken hätte.

O maşını elə sürürdü ki,elə bil sərxoşdu.

Bu cümlələrdə reallıqdan tam uzaq olan,gerçək həyata heç uyğun olmayan fikirlər yoxdu. Amma buna baxmayaraq,bu cümlələr Konyuktiv II-də yazılıb. Konyuktiv II-də cümlə qurarkən zamana diqqət yetirmək lazımdı.Belə ki,əgər reallaşması hələ də mübahisəli olan fikirdən söhbət gedirsə,belə halda indiki və gələcək zamana istinad olunmalıdı.Bu cümlələr Konyuktiv Präteritum-da (konyuktiv keçmiş zaman) işlənir.Çünki Konyuktiv Präteritum-la indiki və gələcək zamana aid olan fikirlər ifadə olunur. Nümunələrdə bunlara baxaq.

Wenn ich doch schon mit allem fertig wäre!

Əgər mən hər şeyi artıq bitirə bilsəm.

Amma Konyuktiv Plusquamperfekt-də(konyuktiv keçmiş zaman) reallaşması heç vaxt mümkün olmayan fikirlər ifadə olunur.

Wenn ich mich doch nur besser vorbereitet hätte!

Əgər mən daha yaxşı hazırlaşa bilsəydim.

Konyuktiv mövzusunun bədii əsərlərdən,elmi əsərlərdən,siyasi əsərlərdən, qrammatika kitablarından götürülmüş nümunələr əsasında təhlil olunması,bu mövzunu dərk etməyə kömək olar.Bəzi hallarda mənimsənilməsi çətin olan mövzu bədii əsərlərdən olan nümunələr əsasında çox asanlıqla qavranılır.Məqalədə müxtəlif mənbələrdən götürülmüş kifayət qədər nümünə olduğu üçün, Konyuktiv mövzusunu anlamaqda çətinlik çəkənlərə faydalı olar. Alman dilinin qrammatikasına xas olan Konyuktiv mövzusunu yalnız qrammatika kitablarindan öyrənilməsi bəzən yaxşı nəticə vermir.Ona görə də,bu mövzunu öyrəndikdə bədii əsərlərdən,elmi əsərlərdən götürülmüş nümunələrə də baxmaq lazımdı.

Abbasova Rəşadə

Xülasə
Alman dilində Konyuktivin ifadə vasitələrinin təhlili

Məqalədə Konyuktivin ifadə vasitələri təhlil edilir. Bədii əsərlərdə,elmi əsərlərdə,gündəlik danışıq dilində Konyuktivin düzgün istifadə qaydası göstərilir.Cümlələr şəklində nümünələr vasitəsilə gündəlik danışıq dilində Konyuktivdə düzgün cümlə qurmaq üçün zamanların bir-biri ilə qarşılıqlı əlaqəsi müəyyən edilir.

Аббасова Рашада

Резюме

Анализ средств выражения конъюктива в немецком языке

В статье анализируются средства выражения конъюктива.В художественных произведениях, в научных работах,в повседневной разговорной речи проявляется обработка и правильное употребление конъюктива. Посредством примеров в форме предложений определяется взаимодействие времен с целью построения правильного предложения в конъюктиве.

Abbasova Rashada

Summary

Analysis of the means of expression of the subjunctive mood in the German language

The article analyzes the means of expression of the subjunctive mood.The correct usage of the subjunctive mood is demonstrated in literary works,scientific works and everyday speech.Through sentence examples, the interrelation of tenses is determined to form correct sentences in the subjunctive mood in everyday spoken language.

Ədəbiyyat

1.Əliyev Ə. Alman dilinin qrammatikası,Bakı 1969
2.Balcik I.,Röhe K.,Wrobel V. Die große Grammatik Deutsch, Stuttgart 2009
3.Buscha A.,Szita S.,Raven S. C Grammatik, Leipzig 2013
4.Kästner E.Das doppelte Lottchen,Leipzig 1949
5.Mann T.Der Zauberberg, Frankfurt 1991
6.Wick R.Bauhaus Pädagogik,Köln 1982
7.Vogel H.Nachsichten,München 1996

Rəyçi: f.ü.f.d. dos.Camalzadə N.E.

Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu, *ISSN 2224-9257*
Filologiya məsələləri № 3, 2025
Səh. ————————

ƏLIYEVA LƏTAFƏT ƏLIŞAH QIZI
BDU-nun Filologiya fakültəsinin
"Azərbaycan dili və nitq mədəniyyəti"
kafedrasının dosenti, fil.ü. f.d.
Z.Xəlilov küç.33

ENANTİOSEMİK MƏNANIN KONTEKSTDƏ AKTİVLİYİ

Müasir Azərbaycan dilinin lüğət tərkibi Azərbaycan xalqının təşəkkül və inkişaf tarixi ilə əlaqədar zənginləşmişdir. Dilin lüğət tərkibindəki sözlər mənaca müxtəlifdir, onlar müxtəlif məfhumlarla bağlıdır. Sözün müəyyən mənaya malik olması o deməkdir ki, söz müəyyən məna sisteminə, müxtəlif məna tiplərinə, başqa sözlərlə əlaqəyə girmək imkanına, söz yaratma və üslubi xüsusiyyətlərə malikdir. "Məna insanın xarici aləmlə qarşılıqlı əlaqə və təsiri nəticəsində şüurda yaranır və formalaşır. Birgə həyat və fəaliyyət prosesində adamların beynində eyni və ya oxşar məfhumlar yaranır. İnsanın dərketmə fəaliyyətində xarici aləm faktları şüur faktına çevrilərək mənanın əmələ gəlməsinə səbəb olur"(3,s.40). Hər hansı bir söz bu və ya digər bir anlayışın adını, təfəkkür kateqoriyası olan məfhumlardan birini ifadə edir. Məfhum əşyaya aid əsas və mühüm əlamətlərin məcmusudur. Məna, hər şeydən əvvəl, məfhumun məzmunu ilə müəyyənləşdirilir, məna məzmunu tamamlayır. Sözün məzmununa məfhumdan başqa, onun üslubi və emosional xüsusiyyətləri də daxildir.

Cəmiyyətdə baş verən dəyişikliklər dilin də inkişafına təsir edir. Dildəki sözlərin məna kəmiyyəti zamanla dəyişir, yəni sözün mənası genişlənir, daralır, məcaziləşir. Sözün məna həcmi onun işlədilməsindən asılıdır. Sözün məna kəsb etməsi semantik təkamül proseslərinin nəticəsi olaraq və məcazi mənanın formalaşması qanunauyğunluqları sayəsində dəyişir. Sözlərin əksəriyyəti metaforik işlənməklə yeni məzmun qazanır.

Sözün fonetik tərkibinin sözün ifadə etdiyi əşyanın məzmunu ilə heç bir əlaqəsi yoxdur. Bu o deməkdir ki, əşya ilə onun tələffüz forması arasında, həmçinin səs kompleksi ilə məfhum arasında heç bir eyniyyət yoxdur. Eyni məfhum müxtəlif münasibətlərlə əlaqədar olaraq müxtəlif səs tərkibi ilə (sözlərlə) ifadə oluna bilər, yaxud eyni fonetik tərkibə malik olan söz müxtəlif məfhumları ifadə etmək xarakterinə malik ola bilər. Beləliklə, ünsiyyətin müxtəlif şəkildə təzahüründən asılı olaraq lüğət tərkibi qruplarının müxtəlif şəkildə, müxtəlif cəhətdən istifadəsi tələbləri meydana çıxır. "Buna görə də sözlər mətn içərisində müəyyən məqamlarla əlaqədar olaraq, müxtəlif məna və məna çalarlığına malik olur və müxtəlif emosional rəngə düşə bilir"(5, s.317).

Dilçilikdə eyni fonetik cildə malik olan sözün bir – birinə əks mənalar ifadə etməsi enantiosemiya hadisəsi adlanır. Burada sözün məna həcminin genişlənməsi

antonimlik əlaqəsi nəticəsində yaranır. Məsələn, "keçinmək" sözü 1) dolanmaq, yaşamaq ("Qonşumuz yaxşı dolanır"), 2) ölmək ("Qonşumuz keçindi"); "qaldı "sözü 1) dayandı, hərəkətsiz oldu ("Yorulub yerində qaldı") , 2) uzun müddət davam etdi ("Xatirə qaldı"); "qaranlıq" sözü həm təhlükə və qorxu ("Onun qaranlıq keçmişi var"), həm də sakitlik və rahatlıq mənasında("Kəndə qaranlıq çökmüşdü") işlənərək antonim mənaları ifadə edir. Göründüyü kimi, bu sözlərdə daxili əksmənalılıq xüsusiyyətləri vardır.

Enantiosemiya yunan sözü olub "enantios" - əks, zidd, sema isə "işarə" deməkdir. Onun yaranma səbəbləri müxtəlifdir, adətən sözün tarixi inkişafı, metaforik istifadəsi və ya kontekstlə bağlıdır, dildaxili və dilxarici amillərlə müəyyənləşir. Fərqli coğrafi bölgələrdə və ya sosial qruplarda bir sözün müxtəlif mənalarda istifadə edilməsi ziddiyyətlər yarada bilər. Məsələn: "yaman" sözü bəzi bölgələrdə çox yaxşı mənasında ("Yaman yaxşı qızdır") işləndiyi halda, digər bölgələrdə isə, pis mənada istifadə olunur("Yaman günün ömrü az olar"); "ağır"sözü - yavaş hərəkət edən, süst ("Maşın çox ağır gedir") və hörmətli, sanballı ("Ağır adamdır") mənasında; "qara" sözü - bərəkətli, bol ("Bu il qara il olacaq") və qəm, kədər mənasında ("Qara günlər başladı") və s. işlədilir. Burada məna üslubi-emosional məzmuna uyğun olaraq dəyişir. Bu cür enantiosemiya hadisələri əsasən bölgələrin ləhcə fərqləri, tarixi inkişaf və məişət faktorları ilə bağlıdır. Bəzən bir sözün əvvəlki və yeni mənaları arasında ziddiyyət yaranır. Məsələn: "mənfi" sözü bəzən "pis" mənada , riyaziyyatda isə "dəyəri azaldan" kimi qəbul edilir. "Bu zidd məna sözün inkişafı nəticəsində kəsb edilmişdir ki, buna ibtidai sinkretik məna deyilir"(1,s.265).

Enantiosemiyanı omonimlərlə qarışdırmaq mümkündür, çünki hər ikisi müəyyən mənada bir sözün iki və ya daha çox fərqli məna ifadə etməsi ilə bağlıdır. Bu onların oxşar cəhətlərindən biridir. Onlarda forma eyniliyi vardır. Digər oxşar cəhət isə hər iki halda sözlərin mənasının kontekstdən asılı olaraq dəyişməsidir, yəni sözün düzgün mənası kontekstdə aydınlaşır. Fərqli cəhətlər isə bunlardır: 1. Enantiosemik sözlərin zidd mənaları eyni əsas semantik sahəyə və əlaqəyə söykənir. Yəni, eyni söz həm bir mənanı, həm də onun tam əksini ifadə edir. Məsələn: qiymətsiz sözü bir mənada dəyəri olmayan("Bu əşya qiymətsizdir" (mahiyyəti yoxdur), digər mənada isə dəyərli("Sənin verdiyin hədiyyə mənim üçün qiymətsizdir"(çox dəyərlidir) kimi anlaşılır. Omonimlərdə isə sözün mənaları arasında məntiqi və ya semantik əlaqə yoxdur, onlar tamamilə fərqli mənaları ifadə edən eyni səslənən sözlərdir. Məsələn, gül(çiçək) – gül(gülmək), qaz(quş növü) – qaz(torpağı qazmaq), yaz(ilin fəsli)-yaz (yazmaq feilinin əmr forması) və s. 2. Enantiosemik mənalar adətən tarixi inkişaf və ya metaforik genişlənmə nəticəsində yaranıb, çox vaxt eyni mənşəyə malikdir. Onların hər ikisində sözün orijinal mənası və ya kök anlayışı qorunub saxlanılır. Məsələn, "qurban" sözündə həm fədakarlıq, həm də zərər çəkmək mənası olsa da, hər iki mənada insan duyğuları, həyatın reallığı və etik dəyərlərlə əlaqədar semantik elementlər mövcuddur. Omonimlər isə

fonetikanın təsiri ilə müxtəlif mənşəli sözlərin təsadüfən eyni formada görünməsidir, həqiqi mənalı sözlərdir, məcazi yolla əmələ gəlmir. Deməli, əgər bir söz zidd mənalar ifadə edirsə, bu enantiosemiyadır, bir söz tamamilə fərqli və əlaqəsiz mənalara malikdirsə, bu omonimdir.

Enantiosemiyanın antonimlərə yaxınlaşması yalnız sözün bir-birinə əks olan mənalar ifadə etməsi ilə bağlıdır. Burada bir sözün daxili antonimlik yaratmasından söhbət gedir. Enantiosemiya həm təsdiq, həm də inkar məfhumu bildirir. "Antonimlər müxtəlif səs kompleksinə, fonetik tərkibə malik əks mənalı sözlər olduğu halda, onlar isə (enantiosemiya) eyni fonetik tərkibli, əks mənalı sözlərdir"(4,s.176). Enantiosemiyanın bu xüsusiyyətləri onun dilçilikdə və ünsiyyətdə fenomen bir hadisə olduğunu göstərir. Bu hadisə dilin çevik və elastikliyini, zənginliyini, dinamik təbiətini nümayiş etdirir, insanlar arasındakı ünsiyyətin məna qatlarını daha yaxşı anlamağa kömək edir.

Enantiosemik sözlər intonasiya vasitəsilə mənaları fərqləndirə bilər, lakin bu hər zaman əsas fərqləndirici xüsusiyyət deyil. Enantiosemiya daha çox kontekstlə bağlıdır. İntonasiya müəyyən hallarda sözün mənasının güclənməsinə, aydınlaşmasına, dəqiqləşməsinə kömək edə bilər. Bu, əsasən danışıq dilində baş verir. "İntonasiya nitqin semantik mənasını genişləndirməklə yanaşı, fikrin ən incə çalarlarını da çatdırır"(6, s. 153). Emosional vurğu vasitəsilə sözün mənası dəyişə bilər. Məsələn: "kəsdi" sözü neytral intonasiya ilə deyildikdə hərəkətin dayanmasını ("Külək kəsdi"); vurğulu intonasiya ilə deyildikdə isə tərif və ya hərəkətin təsir gücünü ifadə edə bilər ("Həkim xəstənin qanını necə kəsdi!") və s. İntonasiya, sözün məcazi və ya ironiya ilə işlədilməsində mühüm rol oynayır. Bu, enantiosemik mənaların təsirli şəkildə çatdırılmasını təmin edir. Məsələn, vurğulu intonasiya ilə "Dostum açıq insandır" dedikdə, həqiqətən şəffaf və dürüst bir insan nəzərdə tutulur. Sarkastik intonasiya ilə əksinə, sirr saxlamayan və ya qeyri ciddi bir şəxs başa düşülür.

Enantiosemiya dilin linqvistik və psixolinqvistik cəhətləri ilə meydana çıxır. Bu cəhətlər dili həm struktur, həm də insanın onu qəbul və emal etmə üsulu baxımından daha dərindən başa düşməyə imkan verir. Enantiosemiya ilə dilin linqvistik aspektləri arasındakı əlaqələrə nəzər salaq: a). Semantik çoxmənalılıq – enantiosemik sözlər adətən polisemiya (bir sözün çoxmənalı olması) çərçivəsində yaranır, lakin onların mənası bir-birinə ziddir. Bu dilin semantik strukturunun çevikliyini və dinamikliyini nümayiş etdirir; b). Kontekstə bağlılıq – enantiosemik sözlərin mənası həmişə konteksdən asılıdır. Bu, dilin sintaktik və praqmatik səviyyədə necə işlədiyini göstərir; c).Tarixi və etimoloji inkişaf – bir sözün zamanla həm öz ilkin mənasını, həm də sonradan əks məna qazanmasını göstərir; d). Morfoloji dəyişikliklərin təsiri – bəzən bir sözün eyni morfoloji forması, fərqli mənalar yaratmağa səbəb ola bilər. Bu, enantiosemiya ilə morfoloji struktur arasındakı əlaqəni göstərir.

Enantiosemiyanın dilin psixolinqvistik sistemi ilə də maraqlı əlaqələri vardır. Psixolinqvistika insan beyninin dili necə qavradığını və istifadə etdiyini araşdırır. "Bu sahə, dilin insanın daxili dünyası ilə necə əlaqəli olduğunu və nitqin psixoloji aspektlərini araşdırır"(2, s.45). Enantiosemik sözlər beyində zidd mənalar şəklində təmsil olunur. Bu mənaların hansı kontekstdə aktivləşəcəyini insanın situasiyanı necə dərk etdiyi müəyyənləşdirir. Məsələn, "qəribə qızdır" ifadəsinin həm yaxşı qızdır, həm də anormal qızdır, qeyri-adi qızdır kimi ironik və ya məcazi şəkildə deyilməsi kontekstdən asılıdır. Danışıq dilində intonasiya və vurğu, beyinə enantiosemik sözün mənasını düzgün şərh etməyə kömək edir. İnsanlar bu qrammatik vasitələrdən mənanı müəyyənləşdirmək üçün intuitiv istifadə edirlər. Enantiosemik sözlərin mənalarını düzgün başa düşmək üçün beyində əlavə idrak yükü yaranır. Bu, insanların nitqi formalaşdırmaq üçün daha çox diqqət və analitik düşüncə sərf etməsini tələb edir. "İnsan düşüncəsi nitq aktında və emosiyada öz həqiqi ifadəsini tapır"(7, s.27).

Enantiosemiya frazeoloji birləşmələrdə də müşahidə olunur. Frazeoloji birləşmələrin çoxu məcazi xarakter daşıdığı üçün onlar müxtəlif kontekstlərdə fərqli mənalar ifadə edə bilir. Bu məcazilik bəzən ziddiyyətli mənaların yaranmasına şərait yaradır. Məsələn: "can vermək" ifadəsi - 1) ölüm ayağında olmaq("Qonşumuz can verir"); 2) həyat vermək, diriltmək kimi("Həkim xəstəyə can verdi") frazeoloji əksliklər yaratmışdır. Eyni ifadə həm müsbət, həm də mənfi məna kəsb edir. Bəzi nümunələrə nəzər salaq: "dil açmaq" – 1).danışmağı öyrənmək("Uşaq dil açmağa başladı"), 2). kiməsə qarşı kobud danışmaq, lağ etmək("Mənə dil açmısan"); "başını itirmək" – 1).çaşqınlıq vəziyyətinə düşmək("O qədər qorxdu ki, başını itirdi"), 2). sərbəst olmaq, özünü idarə edə bilməmək("Sevincindən başını itirmişdi"); "ayağı yer almaq" – 1). öyünmək("İşdə ayağı yer aldı"), 2). hərəkət etməyə başlamaq("Uşağın artıq ayağı yer alıb") və s. Göründüyü kimi, frazeoloji birləşmələr metaforik mənalarını genişləndirdikcə ziddiyyətli (enantiosemik) mənalar qazanır. Frazeoloji enantiosemiya bəzən ünsiyyətdə çaşqınlıq yarada bilər, xüsusilə , əgər kontekst qeyri-müəyyən olarsa və qarşı tərəf ifadənin məcazi və ya birbaşa mənasını düzgün başa düşməzsə. Məsələn, "Dilini saxla!" ifadəsi bir kontekstdə susmağı , başqa bir kontekstdə isə dilinə sahib çıxmağı, diqqətli danışmağı ifadə edə bilər.

Frazeoloji birləşmələrdə enantiosemiya dilin məna baxımından zənginliyini göstərir, məcazi mənanın çevikliyini, kontekstin əhəmiyyətini və ironiya kimi məqamların ünsiyyətə təsirini vurğulayır. Enantiosemik sözlər dilin kommunikativ potensialında mühüm rol oynayır, dil istifadəçilərinə sözləri daha yaradıcı şəkildə işlətmək imkanı verir, dinləyicinin diqqətini cəlb etməyi təmin edir. İnsanlar fikri düzgün çatdırmaq üçün müxtəlif mənaları araşdırmağa, düşünməyə çalışırlar. Məhz bu zaman ünsiyyət daha təsirli, mənalı və emosional ola bilər.

Enantiosemiya bədii üslubun formalaşmasında mühüm rol oynayır, dilin üslubi və poetik imkanlarını genişləndirir. Şeir dilində enantiosemiyaya tez-tez rast

gəlinir, çünki poetik ifadələr çox vaxt məcazi mənaya malik olur, bu isə şeirin alt mənalarını araşdırmağa təşviq edir. Məsələn:

Dünya həm gülzar, həm də xar olar,
Gülmək istərsən, səni zərbə vurar. (Xaqani Şirvani).

"Gülzar" sözü bir tərəfdən dünyanın gözəlliyini, digər tərəfdən isə onun müvəqqəti və aldadıcı olmasını ifadə edir. Eyni zamanda "gülmək" həm sevinmək, həm də təhlükə ilə üzləşmək mənasında işlədilmişdir.

"Gülər üzlüdür hər kim ki, içində bir qəm yox,
Gülər, lakin gülüşlərdə gizlənər min ah." (M. Füzuli).

Burada "gülər" sözü bir tərəfdən sevinc, xoşbəxtlik ifadə edir, digər tərəfdən isə bu sevincin saxta olduğunu və altında qəm gizləndiyini göstərir. Eyni ifadə iki zidd emosiyanı çatdırır.

"El bilir ki, sən mənimsən,
Yüz il də keçsə, yenə mənimsən." (M.Ə.Sabir).

"Mənimsən" ifadəsi burada həm mülkiyyətçi düşüncə ilə bağlı sevgi tələbi, həm də ironiya ilə vurğulanan sosial tənqid ifadə edir.

"Sönən ümid, yanar qəlbimdə yenidən,
Hər sönüş bir doğuş deməkdir bəzən." (Əli bəy Hüseynzadə).

Burada "sönmək" sözü həm ümidlərin itməsi, həm də yeni başlanğıca zəmin hazırlamaq mənasında işlədilir.

"Düzlüklər əyilir sözlərdə,
Əyilənlər düzəlir izlərdə." (R.Rza).

Burada" düzlük" sözü həm doğruluq, həm də məkan mənasında işlədilməklə oxucuya ziddiyyətli bir mənzərə təqdim edilir və həyatın dəyişkənliyi vurğulanır.

Yazıçılar ironiya, sarkazm və metaforik məna yaratmaq üçün enantiosemiyadan istifadə etməklə əsərin məna dərinliyini artırır, oxucunu düşünməyə sövq edir. Bu ifadələr bədii əsərlərdə personajların daxili dünyasını, hisslərini, emosional vəziyyətini göstərməyə kömək edir, xüsusilə dramatik əsərlərdə konfliktləri, ziddiyyətləri açmağa, personajlar arasındakı mübahisələri, daxili diemmanı və ya əks fikirləri daha təsirli formada təqdim etməyə imkan verir. Məsələn: "Mənim bəxtim elə açıldı ki, indi yalnız bu kənddə çürümək qaldı"(M.F.Axundov, "Hekayəti-Müsyö Jordan və Dərviş Məstəli Şah"). "Burada "bəxtin açılması" ifadəsi həm müsbət, həm də mənfi ironiya ilə istifadə olunmuşdur; "Xilas olmaq istəyirdim, amma xilasım yeni bir mübarizəyə çevrildi"(Mir Cəlal Paşayev, "Bir gəncin manifesti") cümləsində "xilas" ifadəsi həm mübarizənin nəticəsi, həm də başlanğıcı kimi başa düşülür;" "Poçt qutusu gəldi, guya hər şey düzələcəkdi, amma nə dəyişdi ki?"(C.Məmmədquluzadə, "Poçt qutusu"). "Düzəlmək" ifadəsi həm ümid, həm də ironik təəssüf mənasında işlənmişdir; "Sevilin azadlığı, mənim ən böyük xoşbəxtliyimdir, amma bu azadlıq bizi hələ çox imtahana çəkəcək." (C.Cabbarlı, "Sevil" dramı). Burada" azadlıq" həm sevinc, həm də çətinlik gətirən bir hal kimi təqdim edilir. Bu nümunələr göstərir ki, enantiosemik

ifadələr həm klassik, həm də müasir Azərbaycan ədəbiyyatında mühüm yer tutur. Ümumilikdə, yazıçı və şairlər bu yolla cəmiyyətin sosial-mədəni problemlərini və insan psixologiyasını açıb göstərməyə nail olurlar. Bu səbəbdən enantiosemiya bədii əsərlərdə həm dilçilik, həm fəlsəfi dərinlik, həm də də estetik baxımdan böyük əhəmiyyətə malikdir.

Bədii ifadə vasitəsi kimi enantiosemiyalar antiteza, oksimoron kimi işlənə bilər. Onlar arasında müəyyən oxşarlıqlar olsa da, müxtəlif dil hadisələridir və birbaşa bir- birininin əvəzinə işlədilə bilməz. Antiteza iki zidd fikrin və ya anlayışın qarşılaşdırılaraq bir mətn və ya ifadə daxilində vurğulanmasıdır. Enantiosemiya isə bir sözün və ya ifadənin öz daxilində zidd mənalar ifadə etməsidir. Əgər enantiosemik bir söz və ya ifadə bədii mətndə iki zidd məna yaratmaq məqsədilə işlədilirsə, həmin məna antitez təsiri yarada bilər. Məsələn: "O qədər ağladı ki, sanki gülürdü" cümləsində "ağlamaq" sözü həm kədəri, həm də sevincdən gələn göz yaşlarını ifadə edir. Bəzi hallarda oksimoron ifadələr də enantiosemik xüsusiyyət daşıya bilər. Əgər oksimoron ifadə kontekstdə zidd mənalar daşıyırsa, bu enantiosemik ola bilər. Məsələn: "müqəddəs günah" ifadəsi həm günahın cəmiyyətdə qəbul edilməyən tərəfini, həm də onun mənəvi və ya pozitiv məna daşıyan tərəfini (məsələn, qurban vermək) göstərə bilər. Lakin oksimoron enantiosemiya deyil, oksimoron iki ayrı sözü birləşdirərək ziddiyyət yaradırsa, enantiosemiya isə bir sözdə və ya ifadədə daxili ziddiyyəti ortaya çıxarır.

Beləliklə, enantiosemiya təkcə maraqlı bir semantik hadisə deyil, həm də dilin inkişafı, zənginləşməsi və kommunikativ funksiyasının genişlənməsi baxımından əhəmiyyətli bir aspektdir: 1). Enantiosemiya dilin dinamik və çevik təbiətini göstərir. Eyni sözün müxtəlif və bəzən ziddiyyətli mənalar ifadə etməsi dilin müxtəlif situasiyalara uyğunlaşma qabiliyyətini nümayiş etdirir, məcaziliyi artırır və ifadə vasitələrini zənginləşdirir.2). Enantiosemiya nitqin dəqiqliyi və mənanın düzgün qavranılması üçün kontekstin əhəmiyyətini göstərir. İnsanlar kontekst vasitəsilə mənaları fərqləndirməyi və başa düşməyi öyrənir. 3). Enantiosemiya dilin tarixi inkişafının və mədəni təsirlərin izlərini daşıyır. Bir sözün bir-birinə zidd mənalar qazanması onun keşmişdə necə istifadə edildiyi və yeni kontekstlərdə necə dəyişdiyini göstərir. 4). Enantiosemik sözlər və ifadələr sosial və mədəni fərqləri əks etdirir. Fərqli cəmiyyətlərdə bir sözün mənaları müxtəlif şəkildə inkişaf edə bilər. 5). Enantiosemiya ünsiyyətdə kreativliyi və effektivliyi gücləndirir, insan beyninin dilin ziddiyyətli mənalarını necə qavradığını öyrənməyə imkan verir.

Ədəbiyyat siyahısı

1. Adilov M., Verdiyeva Z., Ağayeva F. Azərbaycan dilinin semasiologiyası. Bakı," Elm", 2019, 304 s.
2. Əsgərov M. Linqvo – psixoloji vəhdət nəzəriyyəsi. Bakı, "Elm və Təhsil, 2015, 191 s.

3. Həsənov H. Müasir Azərbaycan dilinin leksikası. Dərslik.Bakı, "Nurlan" nəşriyyatı, 2005, 452 s.
4. Xəlilov B. Müasir Azərbaycan dilinin leksikologiyası. Bakı, "Nurlan" nəşriyyatı, 2008, 442s.
5. Qurbanov A. Müasir Azərbaycan ədəbi dili. I cild (2 cilddə). Bakı, "İmak" mətbəəsi, 2019, 464 s.
6. Виноградов В.В. О теории художественной речи. Москва, Высшая школа, 1971, 240 стр.
7. Шаховский В.И. Лингвистическая теория эмоций: монография. Москва, Гнезис, 2008, 416 стр.

Xülasə

Açar sözlər: enantiosemiya, antonim, omonim, əks məna, kontekst, frazeoloji enantiosemiya, ünsiyyət.

Məqalədə eyni sözün fərqli kontekstlərdə bir-birinə zidd mənalar ifadə etməsindən, onların yaranma səbəblərindən bəhs edilir. Enantiosemik sözlərin məna həcminin genişlənməsi antonimlik əlaqəsi nəticəsində meydana gəlmişdir. Məqalənin məqsədi ünsiyyət zamanı insanların kontekstə uyğun olaraq dilin ziddiyyətli mənalarını düzgün fərqləndirməsinə istiqamət verməkdir. Enantiosemiya dilçilikdə az tədqiq edilmişdir. Dilin və cəmiyyətin inkişafı, insanlar arasında sosial və coğrafi fərq eyni sözlərin niyə ziddiyyətli mənalar qazandığını hər dövrdə araşdırmağa imkan verir. Mövzunun yeni aspektdə tədqiq olunması həm dilin daxili strukturunun, kontekstlə bağlı semantik xüsusiyyətlərinin öyrənilməsi, həm də müasir dövrdə ünsiyyətin daha anlaşıqlı olması, psixolinqvistlk proseslərin başa düşülməsi üçün aktualdır. Məqalədə enantiosemiyanın antonim və omonimlərlə oxşar və fərqli cəhətləri izah olunmuşdur. Burada həmçinin intonasiyanın enantiosemik mənaların fərqləndirilməsində köməkçi rolundan bəhs edilmiş, lakin mənanın tam açılması üçün kontekstin vacibliyi vurğulanmışdır. Məqalədə enantiosemiyanın dilin linqvistik və psixolinqvistik aspektləri ilə əlaqəsi geniş şərh edilmişdir. Tədqiqat işində frazeoloji enantiosemiya haqqında söhbət açılmış, bədii əsərlərdə enantiosemiyanın bədii ifadə vasitəsi kimi əhəmiyyəti, onun antiteza və oksimoronla oxşar və fərqli cəhətləri müqayisə edilmişdir.

Sonda enantiosemiyanın dilin inkişafı, zənginləşməsi və kommunikativ funksiyasının genişlənməsi baxımından əhəmiyyəti göstərilmişdir.

Лятафет Алиева

Активность энантиосемического значения в контексте

Резюме

Ключевые слова: энантиосемия, антоним, омоним, противоположное значение, контекст, фразеологическая энантиосемия, коммуникация.

В статье речь идет о внутрисловной антонимии, или поляризации значений внутри одного слова, т.е. о способности одного того же слова выражать противоположные значения в разных контекстах, о причинах данного феномена. Расширение объема энантиосемических слов возникает в результате антонимической связи. Цель настоящей статьи - направленность на правильную дифференциацию противоположных значений в языке соответственно контексту в процессе коммуникации. Следует отметить, что энантиосемия мало изучена в языкознании. Развитие языка и общества, социальные и географические различия между людьми во все времена позволяют разъяснить причину приобретения словом противоположных значений. Исследование данной темы в новом аспекте актуально как для изучения внутренней структуры языка, семантических особенностей, связанных с контекстом, так и для большей доступности коммуникации, понимания психолингвистических процессов на современном этапе. В статье разъясняются сходства и различия между энантиосемией и антонимией, омонимией. Отмечается также вспомогательная роль интонации в дифференциации энантиосемических значений, однако подчеркивается важность контекста для полного понимания семантики. В статье подробно разъясняется связь энантиосемии с лингвистическими и психолингвистическими аспектами языка. В исследовании особое внимание уделяется и фразеологической энантиосемии, отмечается значимость энантиосемии как средства образной выразительности в художественных произведениях. В заключении отмечается значимость энантиосемии в развитии, обогащении языка и расширении его коммуникативной функции.

Latafat Aliyeva

Activity of enantiosemic meaning in context

Summary

Keywords: enantiosemy, antonym, homonym, opposite meaning, context, phraseological enantiosemy, communication.

The article deals with the intraword antonymy, or polarization of meanings within a word, i.e. the ability of the same word to express opposite meanings in different contexts, and the reasons for this phenomenon. The expansion of the volume of enantiosemic words occurs as a result of antonymic connection. The purpose of this article is to focus on the correct differentiation of opposite meanings in the

language according to the context in the communication process. It should be noted that enantiosemy has been little studied in linguistics. The development of language and society, social and geographical differences between people at all times allow us to explain the reason for the acquisition of opposite meanings by a word. The study of this topic in a new aspect is relevant both for the study of the internal structure of language, semantic features associated with context, and for greater accessibility of communication, understanding of psycholinguistic processes at the present stage. The article explains the similarities and differences between enantiosemy and antonymy, homonymy. It also notes the auxiliary role of intonation in differentiating enantiosemic meanings, and also emphasizes the importance of context for a complete understanding of semantics. The article explains in detail the connection between enantiosemy and linguistic and psycholinguistic aspects of language. The study pays special attention to phraseological enantiosemy, noting the importance of enantiosemy as a means of figurative expressiveness in literature. The conclusion notes the importance of enantiosemy in the development, enrichment of language and expansion of its communicative function.

Rəyçi: BDU, fil. ü. f. d., dosent Rəhilə Quliyeva

Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu, *ISSN 2224-9257*
Filologiya məsələləri № 3, 2025
Səh. ————————

BAYRAMOVA ARZU ASTAN QIZI
Sumqayıt Dövlət Universiteti
bayramova.arzu2@gmail.com

AZƏRBAYCAN DİLİNDƏ SÖZ BİRLƏŞMƏLƏRİ, SİNTAKTİK ƏLAQƏLƏR VƏ ONLARIN TƏDQİQİ

Açar sözlər: substantivləşmə,idarə, yanaşma, karlaşma, qrammatika

1. Sintaksis və söz birləşmələri haqqında

Azərbaycan dilçiliyində dilimizdəki sözlərin sərbəst və sabit mövqedə olmasına görə sabit birləşmələr leksikologiyanın tərkibində sərbəst birləşmələr isə sintaksisin tərkibində öyrənilir

"Sintaksis" mənşəyinə görə yunan sözü olub, mənası "birləşmə", "qurmaq", "tərtibat" deməkdir. Qrammatikanın bir bölməsi kimi sintaksisdə sözlərin, söz birləşməsi və cümlələr şəklində birləşməsi qaydalarından bəhs edilir. Sintaksis qrammatikanın bir şöbəsi olmaqla, sintaktik vahidlər sistemini, sintaktik vahidlərin qurulmasını, bağlanma vasitə və üsüllarını, mətnin quruluşunu və s. öyrədir [5.233].

Hər hansı bir dilin linqvistik sistemində fonem, söz, söz birləşmələri, cümlə özünə məxsus qanunauyğunluqlarla sıralanaraq dilin ümumi mənzərəsini əks etdirir.

Söz birləşmələri sözlə cümlənin sərhədində dayanaraq sözə nisbətən daha çox leksik konkretliyə malikdir. Məsələn.: qaşıq- çay qaşığı, oxumaq- mahnı oxumaq və s. Söz birləşmələri 2, 3, 4 və daha artıq sözdən ibarət ola bilər. Məsələn.: dünən evə gələndə, ali təhsil almaq üçün oxumaq, Qarabğın ermənilər tərəfindən dağıdılmış kəndləri və s. Söz birləşmələri qrammatik kateqoriya olaraq mürəkkəb sözdən fərlənir. Söz birləşmələrinin tərkibindəki sözlər ayrı (ağ daş, doşab qabı, çayda çimən və s) , mürəkkəb sözlər isə bitişik (itburnu, şəhərlərarası, ağlabatan vəs), yazılır. Mürəkkəb sğzlər əsasən bir vurğu ilə deyilir. Söz birləşmələrində əks olunan sözlərin isə hər birinin müstəqil vurğusu olur [1- 503].

Bəzi dilçilər 60- cı illərə qədər söz birləşmələrini tabeli mürəkkəb cümlə kimi təqdim etsələrdə, söz birləşmələri cümlə üzvü kimi təqdim edən müəlliflər çoxluq təşkil edir [5.161].

2. Söz birləşmələri və onların növləri

Söz birləşməsi iki və daha artiq müstəqil sözün məna və qrammatik cəhətdən birləşməsindən əmələ gəlir. Məsələn: yaşıl yamac, uca dağ, evin qapısı, qapını açmaq, məktəbdə oxuyan, səhər evdən gedərkən və s. Söz birləşməsi müstəqil mənalı gözlərdən yaranır. Ona görə də müstəqil sözlə köməkçi sözün birləşməsi söz birləşməsi yaratmır (məsələn: evə tərəf, sənin kimi və s.), söz birləşmələrində əsas və asılı tərəf olmur. Asılı tərəf əsas tərəfə sintaktik əlaqə üsullarından (uzlaşma, idarə, yanaşma) əsas tərəfə tabe olur. Əsas tərəfin nitq hissələri ilə ifadə olunmasına görə söz birləşməsinin iki növü var: ismi və feili birləşmələr.

a) İsmi birləşmələr

İsmi birləşmələr əsas tərəfi adlarla (isim, sifət, say, əvəzlik, zərf) ifadə olunan birləşmələrə deyilir. Məsələn: yaşıl yarpaq, qızıl üzük, əldən iti, evin yuxarısı və s. Asılı tərəfin əsas tərəfi izah etməsinə görə qramamtika kitablarında bu birləşmələrə təyini söz birləşməsi də deyilir [4. 210]. Bu birləşmələr forma və məna xüsusiyyətlərinə görə üç növə bölünür:

1. Birinci növ təyini söz birləşmələri;
2. İkinci növ təyini söz birləşmələri;
3. Üçüncü növ təyini söz birləşmələri.

Bundan əlavə, dilimizdə durna gözlü, dosta hörmət, aydan arı, əlində kitab, hamıdan cəld tipli ismi birləşmələr də var. Bunlar cümlənin bir mürəkkəb üzvü olur. Bu birləşmələr qeyri-təyini söz birləşmələri və yaxud təyini söz birləşmələrinə daxil olmayan ismi birləşmələr adlanır.

a) Birinci növ təyini söz birləşmələri

Birinci növ təyini söz birləşmələrini prof. Q.Kazımov yanaşma əlaqəli ismi birləşmə (rəngli şüşə, beş kitab, qızıl üzük və s.), ikinci növ təyini söz birləşmələrini yanaşma-uzlaşma əlaqəli birləşmə (kafedra müdiri, məktəb direktoru və s.), üçüncü növ təyini söz birləşmələrini isə uzlaşma – idarə əlaqəli birləşmə adlandırmağı münasib hesab edir. (ağacın budağı, inəyin südü, mənim kitabım).

Fikirimizcə, eyni modelli birləşmələri orta məktəb və ali məktəb qrammatikalarında fərqli terminlərlə ifadə etmək dolaşıqlıq yaradır.

Hal və mənsubiyyət şəkilçilərinin iştirakı olmadan yaranan birləşmələrə birinci növ təyini söz birləşməsi deyilir (yanaşma əlaqəli birləşmə). Bu tipli biləşmələrdə əsas tərəf isimlə ifadə olunur, asılı tərəf isə isim, sifət, say, əvəzlik, zərf, feili sifətlə ifadə oluna bilir. Məs: daş hasar, hündür hasar, beş hasar, bu hasar, aşağı hasar, sökülən hasar və s. Bu birləşmələrin birinci tərəfi adətən təyin, ikinci tərəfi isə mübtəda, xəbər, tamamlıq, zərflik olur.

b) İkinci növ təyini söz birləşmələri

İkinci növ təyini söz birləşməsi (uzlaşma-yanaşma əlaqəli) birinci tərəfi yiyəlik hal şəkilçisiz, ikinci tərəfi mənsubiyyət şəkilçili (-ı, -i, -u, -ü) birləşmələrə deyilir (dağ havası, dərs kitabı, şəhər bağı, yazı taxtası).

İkinci növ təyini söz birləşməsinin (uzlaşma-yanaşma əlaqəli birləşmələrin) bir sıra məna və qrammatik xüsusiyyətləri var.

1) Bu birləşmələr ümumilik, mücərrədlik ifadə edir..
2) Bu birləşmələrin mürəkkəb isimlərə doğru inkişaf meyli var: kəklikotu, ayaqqabı, dəvədabanı və s.
3) Bu birləşmələrin tərəflərinin ifadə vasitələri məhduddur. Əsasən, isimlə ifadə olunur. İstisnalar da var. Məsələn, gözəllər gözəli və s.
4) Cümlələrin mürəkkəb üzvü olur – bütün cümlə üzvü vəzifəsində işlənə bilir.

5) Bu birləşmələrin tərəfləri eyni zamanda cəmlənə bilmir. Bir tərəf cəmləndikdə digər tərəf cəmlənməz. Burada da istisnalar var (həmkarlar ittifaqları, atalar sözləri və s.)

6) Bu birləşmələrin tərəfləri arasına heç bir söz daxil ola bilmir. Ona görə də yuxarıda dediyimiz kimi, prof. Q.Kazımov bu xüsusiyyətinə görə həmin birləşmələri yanaşma-uzalşma əlaqəsi kimi dəyərləndirir.

yanaşma
məktəb ⇄ direktoru
uzlaşma

Qoy qırılsın artıq cəllad bıçağı,
Dünya olsun azad ana qucağı (C.C.).

c) Üçüncü növ təyini söz birləşmələri

Bu birləşmələrin birinci tərəfi yiyəlik hal, ikinci tərəfi mənsubiyyət şəkilçisinin iştirakı ilə yaranır. Məsələn: ağacın yarpağı, Qarabağın qəhrəmanları, xalqımızın sevinci, bizim ölkəmiz, oxumağın faydası və s.

III növ təyini söz birləşmələrinin bir sıra məna və qrammatik xüsusiyyətləri var:

1) Bu birləşmələrin tərəflərinin ifadə vasitələri genişdir (isim, sifət, say, əvəzlik, məsdər, zərf və s. ilə ifadə olunur.). Məs.: vətənin oğulları, yaxşıların yaxşısı, kəndin yuxarısı, Arifin oxumağı və s.

2) Bu birləşmələrin tərəfləri birlikdə cümlənin mürəkkəb üzvləri olur. Məs.: Maşının sürəti getdikcə artırdı. Oxuyan Əhmədin qardaşıdır. Ancaq bəzi hallarda bu birləşmənin birinci tərəfi cümlənin təyini vəzifəsində çıxış edir. Bizim (sizin) dağlar ucadır cümləsində bizim sözü cümlənin təyini rolunda çıxış edir.

3) Bu birləşmələrin tərəfləri eyni zamanda cəmlənir. Məs: məktəblərin şagirdləri, şagirdlərin əlaçıları və s.

4) III növ təyini söz birləşmələrinin tərəfləri arasına söz artırmaq olur. Məs.: məktəbin həyəti – məktəbin geniş həyəti və s.

5) Bu birləşmələrin tərəfləri arasında uzlaşma-idarə əlaqəsi mövcuddur. Məs.: Qızın gözəlliyi; mənim dərdim; sənin həyatın və s.

idarə
Sənin ⇄ həyatın;
uzlaşma

idarə
Mənim ⇄ dərdim
uzlaşma

6) Bu tipli birləşmələrin birinci tərəfi şəxs əvəzlikləri ilə ifadə olunur. Ancaq II növ təyini söz birləşmələrində bu xüsusiyyət yoxdur. Məs.: insan ömrü, həftə aşırı, qələm dostlarımız.

Azərbaycan dilində ismi birləşmələrin bir növü də var ki, bu da təyini söz birləşmələrinə daxil olmayan ismi birləşmələrdir. Belə birləşmələrin birinci tərəfi mənsubiyyət şəkilçili sözlərlə, ikinci tərəf –lı4 şəkilçili sifətlərlə ifadə olunur. Bu forma geniş yayılmışdır. Məs: gözləri yaşlı, əlləri qandallı, camalı solğun, beli bükülü və s. Bununla yanşı, birinci tərəfi yönlük, yerlik və çıxışlıq halda olan

birləşmələr də bu sıraya daxildir. Məsələn, insana hörmət, dosta məhəbbət, belində kəmər, əlində qələm, əldən iti, aydan arı, sudan duru. Bu tip birləşmələr şeir dilində daha çox işlənir.

b) Feili birləşmələr

Əsas tərəfi – feillərdən ibarət olan birləşmələrə feili birləşmələr deyilir. Feili birləşmə dedikdə, əsas tərəfi feili sifət, feili bağlama və məsdərlərdən ibarət olan birləşmələr nəzərdə tutulur. Məsələn: məsələni həll etmək, məktubu oxuyan, məktəbdən gələrkən və s. Zahirən feili birləşməyə oxşayan yaxşı olmaq, danışa bilmək, yaza bilmək, şad olmaq, namaz qılmaq və s. kimi formaları feili birləşmə adlandırmaq olmaz. Çünki bu formalı feillər tam müstəqil leksik mənaya malik olmayan köməkçi feillərdən ibarətdir. Bu feillər tərkibi feillərdir.

Gördüyümüz kimi, feili birləşmə müstəqil sözlərin feili sifət, feili bağlama və məsdərə tabe olması ilə yaranmışdır. Feili birləşmələr cümlədə tərkib əmələ gətirir. Bu tərkiblər əsas tərəflərin adları ilə adlanır və bunların üç növü var:

a) Məsdər tərkibləri;

b) Feili sifət tərkibləri;

c) Feili bağlama tərkibləri.

Feili birləşmələrdə hərəkətlə onun aid olduğu müxtəlif anlayışlar arasında əlaqələr əks olunur. Bu əlaqələr aşağıdakı şəkildə özünü göstərir.

1. Hərəkətlə onun subyekti arasında: Tural oxuyanda, biz danışdıqca, tələbə öyrənərkən və s.
2. Hərəkətlə lonun obyekti arasında: kitabı almaq, məktubu oxumaq və s.
3. Hərəkətlə onun zamanı arasında: səhər oyanmaq, axşam yatmaq, gündüz işləmək və s.
4. Hərəkətlə onun məkanı arasında: şəhərə gəlmək, kənddən qayıdarkən, evdə oxumaq, irəli getmək, kənara çəkilmək.
5. Hərəkətlə onun tərzi arasında: tez-tez yerimək, asta-asta getmək, yaxşı oxumaq, birdən qaçmaq və s.
6. Hərəkətlə onun kəmiyyəti arasında: az işləmək, çox yemək və s.
7. Hərəkətlə onun səbəbi arasında: sevincdən ağlamaq, həyəcandan titrəmək və s.
8. Hərəkətlə onun məqsədi arasında: oxumağa getmək, yemək üçün yaşamaq və s.

Söz birləşmələri quruluşuna görədə 2 cür olur:

a) Sadə söz birləşmələri (məktəbin bəzəyi, aylı gecə, məktub yazmaq və s.)

b) Mürəkkəb söz birləşmələri (məktəbin geniş həyəti, kəndə məktub yazmaq).

Son dövrün qrammatika dərsliklərində mürəkkəb söz birləşmələri "tərkib" kimi qed edilir.

Məsdər, feili sifət və feili bağlama tərkibləri

Feili birləşmənin ikinci - əsas tərəfi feilin təsriflənməyən formaları ilə ifadə olunur. Buna görə də feili birləşmələr üç növə bölünür: məsdər, feili sifət və feili bağlama tərkibləri.

a) Məsdər tərkibləri.

Əsas tərəfi məsdərlərdən ibarət olar birləşmələrə məsdər tərkibləri deyilir. "Tərkib" və "birləşmə" əslində, sinonim terminlərdir. Ancaq tərkiblərdə sözlərin miqdarı, adətən, çox olur (məktəbə getmək - birləşmə, həmişə məktəbə getmək - tərkib hesab olunur).

Məsdər tərkibləri cümlənin müxtəlif üzvü vəzifəsində çıxış edə bilər (mübtəda, tamamlıq, xəbər və zərflik vəzifəsində çıxış edir). Çox irəli getmək təhlükəli idi (İ.S.); Bizim məqsədimiz həmişə yaxşı oxumaqdır (ismi xəbər); Ənvər gecələr göydəki parlaq ulduzlara baxmaqdan doymur. (tamamlıq) [8. 231-232]. Məsdər tərkiblərində idarə etmək üçün xüsusiyyətinə malikdir. Məs: universitetə gəlmək, işdən getmək, sükanda olmaq və s. Məsdər və məsdər tərkibləri felin bacarıq tərzi ilə də işlənə bilir: danışa bilmək, susa bilmək və s.

b) Feili sifət tərkibləri. Əsas tərəfi feili sifətdən ibarət olan tərkiblərə feili sifət tərkibləri deyilir. Feili sifət tərkibləri cümlədə əksərən təyin vəzifəsində çıxış edir. Məsələn: Bir layı açılmış pəncərənin ağzında üç adam oturmuşdu (S.Ə.) Feili sifət tərkibləri isimləşdikdə mübtəda, tamamlıq və xəbər vəzifəsində də çıxış edə bilər. Məsələn: Əhəd at ayaqlarından qopan şaqqıltını eşitmirdi (İ.M.) Həmişə yaxşı oxuyanları müəllim tərifləndi. Tez ol, soyuqdan titrəşənləri öz nəfəsinlə isit (İ.Ş.) Feli sifət tərkibləri də, feil kimi təsdiq və inkarda olur.Məs: yazılmış məktub, yazılmamış məktub və s. Feli sifətlər əşyanın hərəkətlə bağlı əlamətini zamanla da ifadə edə bilir:

a) keçmiş zamanda: bu gün qurulmuş çadır, dünən əkilmiş tarla və s.

b) indiki zamanda: göydə uçan quş, yerə enən təyyarə və s.

c) gələcək zamda: sabah görüləcək iş, qaçqınlara tikiləsi ev və s.

c) Feili bağlama tərkibləri. Əsas tərəfi feili bağlamalardan ibarət olan tərkiblərə feili bağlama tərkibləri deyilir. Məsələn: Cahandar atı dirəyə bağlayıb, bir qədər duruxdu (İ.Ş.). Bu cümlədə atı dirəyə bağlayıb feili bağlama tərkibidir. Bağlayıb əsas tərəf, atı, dirəyə sözləri isə asılı tərəfdir. Feli bağlama tərkibləri təsirli və təsirsiz, təsdiq və inkarda olur. Feli bağlama, həmdə feli bağlama tərkibləri əsas feilə aid olub hərəkətin zamanını (Mən işə gələndə) və hərəkətin təsvirini (Uşaq qaçaraq tullandı) və s. Bəzi müstəsnaları nəzərə almasaq, feli bağlama tərkibləri cümlədə xəbər vəzifəsində işlənə bilmir[8. 231-233].

3. Sintaktik əlaqələrin mahiyyəti

Söz birləşmələrini və cümlələri əmələ gətirən sözlər arasında həm məna, həm də qrammatik əlaqələr olur. Sözlər arasındakı məna əlaqələrinin əsasını təbiətdə olan obyektiv əlaqələr təşkil edir. Sözlər arasındakı məna əlaqələri müxtəlif və rəngarəng olur. Maraqlı kitab birləşməsində əşya ilə onun əlaməti, beş kitab birləşməsində əşya ilə onun kəmiyyəti, kitab almaq birləşməsində hərəkətlə onun obyekti, kəndə getmək birləşməsində hərəkətlə onun istiqaməti arasındakı münasibəti ifadə edir.

Sözlər arasında məna əlaqələri müxtəlif şəkildə olur:

1) Predikativ əlaqəsi – mən gedirəm, o gəlir və s.

2) Obyektiv əlaqə – məktub yazmaq, paltar tikmək və s.
3) Atributiv əlaqə – dəmir qapı, daş hasar, taxta qapı və s.
4) Relyativ əlaqə – tez-tez getmək, asta danışmaq və s.

Sintaktik əlaqələr iki formada təzahür edir: tabesizlik və tabelilik.

1. Tabesizlik əlaqəsi

Tabesizlik əlaqəsi məna və qrammatik cəhətdən bir-birindən asılı olmayan, bir-biri ilə eyni münasibətdə olan sözlər və cümlələr arasında olur. Məsələn: oğlanlar və qızlar, dağlar və dərələr, yazın və oxuyun və s. Tabesizlik əlaqəsi həmcins üzvlər arasında və tabesiz mürəkkəb cümlələrin komponentləri arasında olur. Məsələn: Axşam düşdü və lampalar yandı. Dağlar, dərələr lərzəyə gəldi.

Birinci cümlədə tabesizlik əlaqəsi tabesiz mürəkkəb cümlənin komponentləri arasında, ikinci cümlədə isə həmcins üzvlər (mübtədalar) arasında tabesizlik əlaqəsi mövcuddur.

Dilimizdə bütün cümlə üzvləri həmcins olur. Həmcins xəbər və mübtədalar (Atlar, öküzlər kotana güc verir, gah yeriyir, gah yıxılır, gah durur (Ə.S.), zərfliklər (Su sakit və lal axırdı (S.R.), təyinlər (əlbəttə, bu həqiqi və kamil bir əsər deyildi (Ə.M.), tamamlıqlar (Bir vaxt bunlar xaçı paşalara, əfəndilərə satdılar (M.C.) arasında tabesizlik əlaqəsi vardır. Eyni zamanda həmcins xitablar arasında da tabesizlik əlaqəsi olur (*Qardaşlar, bacılar, bu azadlıq bayrağı altında azad həyata doğru irəli. C.C.*).

Tabesizlik əlaqəsinin xüsusi formal əlaməti yoxdur. Bu əlaqə sadalayıcı intonasiya, tabesizlik bağlayıcıları ilə meydana çıxır.

2. Tabelilik əlaqəsi

Azərbaycan dilində tabelilik əlaqəsinin işlənmə dairəsi genişdir. Bu əlaqə söz birləşmələrinin tərəfləri arasında, tabeli mürəkkəb cümlənin baş və budaq cümlələri arasında özünü göstərir. Tabelilik əlaqəsi iki tərəfdən ibarətdir. Bu əlaqədə tərəflərdən biri digərindən asılı olar, biri digərini izah edir, aydınlaşdırır. Digər söz isə müstəqil olaraq, məsələn, *dadlı meyvə, sənin kitabın, evə getmək* və s. birləşmələri bu əsasda yaranmışdır.

Tabelilik əlaqəsi predikativ və qeyri-predikativ birləş-mələrdə özünü göstərir. Bu əlaqələrin aşağıdakı növləri vardır: ***uzlaşma, idarə, yanaşma.***

a) Uzlaşma əlaqəsi

Uzlaşma əlaqəsi tabe sözün tabe edici sözə, şəxsə və kəmiyyətə görə uyğunlaşmasına deyilir. Tabelilik əlaqəsinin bu növündə tabe edən tərəf hansı şəxsə aiddirsə, tabe tərəf də həmin şəxsə məxsus qrammatik əlamətlər qəbul edir, tabe edən tərəfin tək və cəm olması tabe tərəfdə əks olunur. Bu əlaqə həm predikativ əlaqəli birləşmələrin, həm də atributiv əlaqəli birləşmələrin tərəfləri arasında olur. Predikativ əlaqəli birləşmələrdə uzlaşma əlaqəsinin göstəricisi xəbərlik və şəxs şəkilçilərinin vasitəsi ilə formalaşır. Məsələn: *mən həkiməm, biz mühəndisik, biz gedirik, siz gəlirsiniz və s.*

Azərbaycan dilində şəxsə görə uzlaşma daimi xarakter daşıyır və heç vaxt pozulmur: mən yazdım, siz yazdınız, onlar yazırlar (həkimdirlər). Kəmiyyətə görə uzlaşmada isə bir qədər fərqli cəhətlər var. Qeyd edək ki, mübtəda və xəbər arasında, iki və üçüncü növ ismi birləşmələr arasında uzlaşma əlaqəsi olur. Mübtəda və xəbər arasında uzlaşmalarda mübtəda əsas, xəbər isə asılı tərəfdir. Mübtəda hansı şəxsdədirsə, xəbər də həmin şəxs şəkilçisini qəbul edir. Məsələn, *mən işləyirəm, biz işləyirik, onlar işləyirlər.*

Birinci və ikinci şəxslərdə (mən, biz, sən, siz) xəbər mübtəda ilə həmişə şəxsə və kəmiyyətə görə uzlaşır və uzlaşma heç vaxt pozulmur. Üçüncü şəxsdə təkində də uzlaşma pozulmur. Üçüncü şəxsin cəmində xəbər kəmiyyətcə uzlaşa da bilər, uzlaşmaya da bilər. Məsələn: müəllimlər gəldilər də deyilir, müəllimlər gəldi də deyilir.

Tabe edən tərəfin müxtəlif əşyalara aid olması uzlaşmanın nisbətinə təsir edə bilir. Məsələn:

1. Əgər tabe edən tərəf (mübtəda) insanlara aiddirsə tabe tərəf (xəbər) əksər hallarda onunla uzlaşır, bəzən də uzlaşmır. Məsələn: *Adamlar buraya gələndə tələsirdilər. Nümayəndələr qarşılandı.*

2. Tabe edən tərəf heyvan və quş anlayışı ifadə edərsə, mübtəda cəm olsa da, xəbər cəm də ola bilir, tək də. Məsələn: *Atlar daha da coşurdular; Səsimə səs verir quşlar yuvadan* (S.V.) .

3. Mübtəda (tabe edən tərəf) cansız varlıq olarsa, xəbər (tabe tərəf) əksər hallarda onunla bəzən uzlaşmır, bəzən uzlaşır. Məsələn: *Dağlar, dərələr titrədi; Evlər tikildi* və s. Mübtəda şəxsləndirilmiş olarsa (məcazi məna kəsb edərsə), uzlaşa da bilir. Məsələn: *Çiçəklər pıçıldaşırdılar.*

Deməli, uzlaşma əlaqəsi ikinci növ (dağ qartalı, vətən həsrəti, yazı taxtası), üçüncü növ (mənim vətənim, oxumağın faydası, şagirdlərin çoxu, ağacın kölgəsi) ismi birləşmələr və mübtəda ilə xəbər arasında olur.

Uzlaşma əlaqəsinin qrammatik göstəricisi mənsubiyyət, xəbərlik və şəxs şəkilçilərindən ibarətdir.

b) İdarə əlaqəsi

İdarə əlaqəsi, əsasən, obyekt və relyativ əlaqəli birləşmələrin tərəfləri arasında olur. İdarə əlaqəsinin əsas göstəricisi budur ki, əsas sözün tələbi ilə asılı söz ismin bu və ya digər halına düşür. Demək, idarə əlaqəsi ismin halları ilə bağlıdır və qrammatik göstəricisi ismin hallarıdır (adlıq haldan başqa). İdarə əlaqəsində hallanan söz asılı tərəf olub müxtəlif nitq hissələri ilə ifadə oluna bilər [7. 315-316].

a) İsimlərin idarə olunması: qapını açmaq, evə getmək, şəhərdə yaşamaq.

b) Əvəzliklərin idarə olunması: məni dinləmək, sənə baxmaq, bizdən getmək.

c) Sifətlərin idarə olunması: yaxşını pisdən ayırmaq, qırmızını xoşlamaq.

d) Sayların idarə olunması: beşdən üçü çıxmaq, azı aparmaq, çoxu gətirəndə.

e) Məsdərlərin idarə olunması: yazmağı öyrənmək, oxumaqdan gəlmək.

ə) Feili sifətlərin idarə olunması: danışanı dinləmək, oxuyanlara qulaq asmaq.

j) Zərflərin idarə olunması: geriyə dönmək, irəliyə baxmaq.

İdarə əlaqəsində əsas tərəf, əsasən, feillərdən ibarət olur. Əsas tərəfin ifadəsi baxımından idarə əlaqəsinin müxtəlif növlərinə rast gəlirik.

- feillərlə idarə: kitaba baxmaq, kitabı almaq, evdən gəlir və s.
- isimlərlə idarə: Qarabağın şikəstəsi, vətənin döyüşçüləri, onun kitabı.
- sifətlərlə idarə: kitabın maraqlısı, dünyada məşhur, gözəllər gözəli.
- saylarla idarə: kitabların çoxu, beşdə dördünü, tələbələrin biri.
- zərflərlə idarə: evin yuxarısı, kəndin aşağısı, dərənin yuxarısı.
- qoşmalarla idarə: mənə görə, sənin üçün, ondan başqa.
- əvəzliklərlə idarə: uşaqların hamısı.

c) Yanaşma əlaqəsi

Asılı tərəfin heç bir qrammatik şəkilçi qəbul etmədən əsas tərəfə yanaşıb, mənaca ona bağlanmasına yanaşma deyilir. Yanaşma əlaqəsinin yaranması üçün heç bir formal qrammatik vasitə iştirak etmir. Məsələn: yaxşı kitab, beş dəftər, gözəl insan, tez getmək, asta qaçmaq və s. Demək, tabelilik əlaqəsində iki söz arasında uzlaşma və idarə yoxdursa bu sözlərin əlaqəsi yanaşmadır. Yanaşma əlaqəsində sözlərin yanaşı işlənməsi əsas götürülür[7. 298]

Yanaşma əlaqəsi müxtəlif nitq hissələrindən olan sözlər arasında olur. Bu baxımdan yanaşma əlaqəsini müxtəlif tiplərinə rast gəlirik.

1) İsmin ismə yanaşması: dəmir sətirlərim, odlu sözlərim (S.R.). Uçun qızıl şahinlərim (S.V.)

2) Sifətin ismə yanaşması: böyük şəhər, tənbəl uşaq, gözəl hava, parlaq ulduz, yamyaşıl çəmən və s.

3) Sayın ismə yanaşması: beş kitab, birinci sinif, xeyli adam. Yanaşma əlaqəsində işlənən saylarla isimlər arasında numerativ sözlər də işlənə bilər: beş cüt ayaqqabı, üç dənə kitab, beş kisə un, bir baş kələm və s.

4) Əvəzliyin ismə yanaşması: işarə və təyini əvəzliklərlə yanaşma əlaqəsi daha çox yaranır: bu kitab, həmin kitab, necə səhər və s.

5) Feili sifətin ismə yanaşması: düşünən beyinlər, döyünən ürək, yazar şairlər və s.

6) Zərfin ismə yanaşması: aşağı düşdü, yuxarı qalxdı, içəri girdi və s.

7) Feili bağlamalarla əsas feillər arasında, o cümlədən qoşmalı sözlər arasında yanaşma əlaqəsi olur: durub baxmaq, quş kimi uçmaq, yay kimi dartınmaq və s.

2. Söz birləşmələri və sintaktik əlaqələrin tədqiqi haqqında

Hər hansı bir dilin sintaksisində sözləri birləşməsi qaydalarından, söz birləşmələri, cümlə və cümlə üzvlərindən bəhs edir. Sözlərin bir- biri ilə əlaqələnməsi nəticəsində söz birləşmələri və cümlələr əmələ gəlir. Bunun nəticəsində də insan fikirləri maddi dil şəklinə düşür[7. 279]. Doğrudan da, belədir. Bir- biri ilə əlaqəsi olmayan minlərlə söz və ya söz birləşməsi sadalasan da, müəyyan bir fikir ifadə edilməyəcək. Çünki burada nə tema var, nə də rema. Çünki sözlər və söz

birləşmələri arasında yanaşma, uzlaşma, idarə əlaqələri yoxdur. Odurki sintaksisin əsas tətbiq obyekti söz birləşmələri və cümlənin tərkibini, aktual üzvlənməni və mətn dilçiliyini öyrənməkdir.

Söz birləşmələri problemi qədim yunan dilçiliyində, daha sonra zaman-zaman rus dilçiliyində öyrənilmiş, geniş tətqiqatlar aparılmışdır. Bu sahə ilə məşğul olan dilçilərdən F. Fortunatov, A. Peskovski, A. Şaxmatov, A. Potebnya, İ. Ubyatova və digərlərini göstərmək olar. Türkoloji dilçilikdə M. Dimitriyev, M. Kazım bəy, A. Kononov, N. Başkakov, S. Meyzel, M. Axundov, L. Budaqov, M. Vəzirov, M, Hüseynzadə, Y. Seyidov, M. Şirəliyev, N. Məmmədov, Ə. Abdullayev, A. Həsənov, B. Xəlilov, Q. Kazımov və digərləri bütövlükdə sintaksisə aid elmi araşdırmaları, dərslik və monoqrafiyalar yazmışlar.

İstifadə edilmiş ədəbiyyat siyahısı

1. Azərbaycan dilçiliyi müntəxabatı, III cild, Bakı: 2013, 321 s.
2. Abdullayev K. Azərbaycan dili sintaksisinin nəzəri məsələləri. Bakı: 1998. 350 s.
3. Abdullayev Ə., Seyidov Y., Həsənov H. Muasir Azərbaycan dilinin sintaksisi. Bakı: Şərq-Qərb, 2007, 320 s.
4. Ədəbiyyat və dil institutunun əsərləri, VI cild. Bakı:1964., 191 s.
5. Xəlilov B. Azərbaycan dilinin sintaksisi. Bakı: Adiloğlu, 2017, 428 s.
6. Kazımov Q. Muasir Azərbaycan dili. Sintaksis. Bakı, "Təhsil", 2007, 496 s.
7. Məmmədov N. Azərbaycan dilçiliyinin nəzəri əsasları. Bakı: Maarif, 1971., 305 s.
8. Mirzəyev H. Azərbaycan dilində feil. Bakı: Elm, 2006, 543 s.
9. Seyidov Y. Azərbaycan dilində söz birləşmələri. Bakı: BDU nəşriyyatı 1992, 408 s.

Xülasə

Azərbaycan dilində söz birləşmələri, sintaktik əlaqələr və onların tədqiqi

Fil.f.d. Bayramova Arzu Astan

Açar sözlər: substantivləşmə, idarə, yanaşma, karlaşma, qrammatika

Beləliklə, söz birləşmələri qrammatik əlamətlərinə görə bir-birindən fərqləndirilir. Bir qrup dilçilər ismi birləşmələri, "təyini söz birləşmələri" adlandırırlar, ona görəki birləşmənin birinci tərəfindəki söz ikinci tərəfi daxilən təyin edir. Digər qrup dilçilər bu birləşmələri "ismi birləşmələr" adlandırmasının səbəbi isə əsas aparıcı sözün yəni tabe edən sözün mövqeyidir. Burada tabe edən söz (isim) nisbətən müstəqil mövqe tutur.

Feli sifət və məsdər feilin bir sıra xüsusiyyətlərini saxlamaqla həm də substantivləşərkən hal və mənsubiyyət kateqoriyasının şəkilçilərini qəbul edir. Məsələn: onun dünən dediyi (söz), kobud danışmağın nəticəsi və s. Göründüyü kimi feli sifət və məsdər tərkibləri III növ ismi birləşmələrin tərəfi kimi də işlənir, lakin feli bağlama tərkibləri substantivləşə bilmir.

Sintaksis əlaqələrə gəldikdə isə tarixi, ədəbi-bədii nümunələrdə işlənən sözbirləşmələri cümlədəki sözlər arasında olan əlaqələr muasir dildə işlənən həm tabelilik həm də tabesizlik əlaqələri ilə o qədər fərqlənmir.

Summary

PhD in Philology Bayramova Arzu Astan

Word combinations, syntactic relations and their study in the Azerbaijani language

Keywords: substantivization, management, approach, deafness, grammar

Thus, word combinations are distinguished from each other according to their grammatical features. A group of linguists call noun phrases "defining phrases" because the word on the first side of the phrase internally defines the second part. The reason why other groups of linguists call these combinations "noun combinations" is the position of the main leading word, i.e. the subordinate word. Here the subordinating word (noun) takes a relatively independent position.

The verb retains several features of the adjective and infinitive verb, but also receives the suffixes of the case and affiliation category when becoming a substantive. For example: what he said yesterday, the result of talking nonsense, etc. As it can be seen, the adjective and infinitive verbs are also used as part of noun compounds of the III type, but the verb clauses cannot be substantiveized.

As for the syntactic relationships, the word combinations used in historical, literary and artistic examples, the relationships between the words in the sentence are not so different from the relationships of both subordination and independence used in the modern language.

РЕЗЮМЕ

Д.ф. по фил. Байрамова Арзу Астан

Словосочетания, синтаксические отношения и их изучение в азербайджанском языке

Ключевые слова: субстантивация, управление, подход, глухота, грамматика.

Таким образом, словосочетания отличаются друг от друга по своим грамматическим признакам. Группа лингвистов называет именные фразы «определяющими фразами», потому что слово в первой части фразы внутренне определяет вторую часть. Причиной, по которой другие группы лингвистов называют эти сочетания «именными сочетаниями», является положение главного ведущего слова, т. е. подчинённого слова. Здесь подчинительное слово (существительное) занимает относительно самостоятельное положение.

Глагол сохраняет ряд особенностей прилагательного и инфинитива глагола, но также получает суффиксы падежа и категории принадлежности, становясь

существительным. Например: то, что он сказал вчера, результат несения ерунды и т. д. Как видно, прилагательные и инфинитивные глаголы также употребляются в составе именных соединений III типа, но глагольные придаточные не могут быть субстантивированными.

Что касается синтаксических связей, словосочетаний, употребляемых в исторических, литературных и художественных примерах, то отношения между словами в предложении не так уж отличаются от отношений как подчинения, так и самостоятельности, используемых в современном языке.

Rəyçi: Dos. İbayev Nemet

Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu, *ISSN 2224-9257*
Filologiya məsələləri № 3, 2025
Səh. ————————

NIGAR NAMIG ABILOVA
Azerbaijan University of Architecture and Construction

CRITICAL THINKING IN THE EFL CLASSROOM: ENGAGING AND EMPOWERING STUDENTS

Key words: critical thinking, encouragement, students, activities, challenges

Critical thinking- is the ability to effectively evaluate information and form judgements. It means that in traditional classroom students answer questions that are either right or wrong, but in a critical thinking classroom, instead teachers encourage students to evaluate information and express their thoughts, using evidence to support their thinking. This makes learning meaningful to them. It is one of the most important skills the teachers can teach their students. Empower means that teachers can help them to be stronger and more confident in their own lives.

If students are strong critical thinkers, they demonstrate these eight pillars of critical thinking:

1. Communicate ideas clearly
2. Reflect on their own actions and learning
3. Consider different perspectives
4. Demonstrate creativity
5. Apply knowledge to new situations
6. Solve problems
7. Evaluate information
8. Inquire and ask meaningful questions

Students who can do these eight things have the ability to reach their potential. They are not just memorizing facts in the classroom; they are learning how to think, which, in my opinion, is the purpose of education. There are some benefits of critical thinking:

1. Thinking independently; 2. Making informed decisions; 3. Evaluating information; 4. Considering differing viewpoints; 5. Fostering self-reflection; 6. Positive impact on students' motivation and language acquisition

However, many teachers are hesitant to try to do too much critical thinking in their classes, because there are also many challenges. Let's mention some challenges the teachers face:

1. **Not enough time.** One of the big challenges is that doing critical thinking takes time. It doesn't take much time to answer "yes" or "no," but if a teacher wants students to elaborate on their answers to address a controversial topic or consider different sides of an argument, they need time to process.

2. **It feels like it takes away from the curriculum.** Teachers feel like it takes away from the curriculum. Teachers face a lot of pressure because their school is giving them a curriculum to follow. So, critical thinking feels like it is taking time away from the curriculum. I would argue, however, that critical thinking activities enhance the curriculum and accelerate language acquisition, because students are thinking and communicating on a different level.

3. **Schools don't provide much training.** Doing effective critical thinking takes training. It takes a lot of practice and training for teachers to be good and making critical thinking a part of their curriculum. Many teachers don't know how to help their students think more critically and unfortunately a lot of schools don't provide enough support in this area.


4. **Some think it's just for advanced learners.** Teachers of beginning levels feel that critical thinking is just for advanced learners and suppose that they can't teach critical thinking when their student's level of proficiency is low. However, I disagree. I am going to show you some ways to help your beginning students think critically as well. These challenges are important to consider. Hopefully though you'll see that the benefits outweigh the challenges.

Even beginning students can be taught critical thinking skills. Let's look at how you can incorporate critical thinking for beginners.

For example, beginners typically learn a list of occupations or jobs such as teacher, doctor or accountant. Well, it is fine to have your students learn vocabulary list, you can push them further to think critically. Here are some questions you can ask them:


1) Which 3 jobs are the most difficult, and why?
2) Which job would you like the most, and why?
3) Which job is the most important? Why do you think that?

Getting beginning students to talk about the occupations helps them to engage with the vocabulary and leads to better language acquisition. To follow up with this activity you can have your beginning students research and present their dream job. In this example (pic.1) students choose a veterinarian as a dream job:



(Pic.1)

In this activity you force your students to do much more than just memorize a list of jobs. They are practicing critical thinking. After this activity you can push their learning even further by asking questions that help them reflect on the activity (Pic.2)




(Pic.2)

Asking the first question allows them to reflect on what they are learning, which is one of the pillars of critical thinking. By asking the second question, this helps students to consider different prospectives, which is another pillar of critical thinking. This is an overview of critical thinking. The next step is asking Open-Ended Questions. This is a key to critical thinking. Firstly, let's define what the Open-Ended Questions are:

The questions that can't be answered with just a simple "yes" or "no". Instead, these questions require students to elaborate or give more information and examples. Students will need to support their answers not just say "yes" or "no". So, why ask open-ended questions?

- Students think more deeply about a topic
- Students practice communication and listening
- Accelerates language learning
- Consider other perspectives

In traditional English as a foreign language classes, we see a lot of questions, where the answers are either "right" or "wrong". If we want to faster more critical thinking in the classes, we need to ask questions that require deeper thinking. When we ask open-ended questions, students think deeply about the topic. They practice communication and listening which accelerates language learning. It also helps students to consider other perspectives. Here are some examples of open-ended questions:



(Pic.3)

These questions require reflection and deeper understanding. Don't be satisfied with one-word answers like "yes" or "no". Push your students to provide examples to explain why this is important or how it is connected to their own lives.

Словарный состав турецкого и азербайджанского языков включает также термины, которые представляют собой еще неизученную часть. Термины, относящиеся к науке, технике, политике и культуре, являются специализированными словами и выражениями, которые отражают научные концепции. Все термины, которые обозначают научные понятия, имеют особое значение для возникновения, формирования и развития соответствующей науки. Именно поэтому несерьезное отношение к терминам, их путаница и неправильное использование могут негативно повлиять на развитие науки. Специальные слова, с одной стороны, отличаются точностью семантических границ, интеллектуальной чистотой, исключением эмоциональных и образных чувств, что отличает их от других слов.

В современную эпоху политическая терминология играет важную роль в формировании общественного мнения, государственном управлении, законодательстве и медийном дискурсе. Политические термины в турецком и азербайджанском языках развивались под воздействием исторических, социальных и международных факторов, а также приобрели определенные функциональные и стилистические особенности.

Политическая терминология в турецком и азербайджанском языках используется в основном в официальных, научных и медийных дискурсах. В официальных документах и законодательных актах эти термины используются в точной и нейтральной форме. В юридических текстах встречаются такие выражения, как «законодательная власть», «исполнительный орган», «избирательная система». В медийном и общественном дискурсе политические термины приобретают более эмоциональный и выразительный стиль, насыщены метафорическими и пропагандистскими выражениями для воздействия на общественное мнение. Например, в турецких СМИ широко используются термины «национальная воля», «стабильность», «великая Турция», а в Азербайджане — «национальные интересы», «стратегическое партнерство», «устойчивое развитие».

Ключевые слова: термин, политическая терминология, дискурс, общественное мнение, историческое и идеологическое влияние.

Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu, *ISSN 2224-9257*
Filologiya məsələləri № 3, 2025
Səh. ————————

MAMMADLI NURANA ELMAN

THE ROLE AND STYLISTIC FEATURES OF POLITICAL TERMINOLOGY IN MODERN TURKISH AND AZERBAIJANI LANGUAGES

ABSTRACT

The unexplored part of the vocabulary of the Turkish and Azerbaijani languages also includes terms. Terms consisting of specialized words and expressions related to science, technology, politics, and culture reflect scientific concepts. All terms that denote scientific concepts play a special role in the emergence, formation, and development of the respective field of science. Therefore, neglecting scientific terms or confusing them can negatively impact scientific progress. Words with a special function also differ from other word groups by the specialization of meaning, the precision of semantic boundaries, intellectual clarity, and the absence of emotional and figurative connotations.

In the modern era, political terminology plays a crucial role in shaping public opinion, state governance, legislation, and media discourse. Political terms in the Turkish and Azerbaijani languages have developed under the influence of historical, social, and international factors and have acquired specific functional and stylistic characteristics.

Political terms in Turkish and Azerbaijani are primarily used in official, scientific, and media discourse. In official documents and legislative texts, these terms are used in a precise and neutral style. Legal texts include expressions such as “legislative power,” “executive body,” and “electoral system.” In media and public discourse, political terms are used in a more emotional and persuasive manner, enriched with metaphoric and propagandistic expressions to influence public opinion. For example, in Turkish media, terms such as “national will,” “stability,” and “Great Turkey” are widely used, while in Azerbaijan, expressions like “national interests,” “strategic partnership,” and “sustainable development” are more prominent.

Keywords: term, political terminology, discourse, public opinion, historical and ideological influences.

Siyasi terminologiya hər bir dövlətin siyasi diskursunun əsas tərkib hissəsidir. Beynəlxalq əlaqələr, qanunvericilik və media kimi sahələrdə siyasi terminlər xüsusi əhəmiyyət daşıyır. Azərbaycan və türk siyasətində işlədilən siyasi terminologiya tarixi, sosial və dil faktorlarındam təsirlənərək formalaşmış və zamanla inkişaf etmişdir.

Müasir siyasi diskursda terminlərin əsas rolu informasiya ötürmək, ictimai rəyi yönləndirmək və siyasi mövqeləri ifadə etməkdir. Siyasi terminlər cəmiyyətə təsir baxımından da önəmlidir. Onların rəsmi nitqlərdə, media çıxışlarında və

qanunvericilik sənədlərində istifadəsi vətəndaşların dövlət siyasətini necə qavramasına birbaşa təsir edir. Məsələn, Azərbaycan mediasında "strateji tərəfdaşlıq" ifadəsi beynəlxalq münasibətlərdə müttəfiqlik anlayışını gücləndirmək üçün istifadə edilir. Türkiyə mediasında isə "qlobal güç" termini ölkənin beynəlxalq arenada nüfuzunu artırmaq məqsədilə işlədilir.

Müasir dövrdə Azərbaycan və Türkiyə siyasətində işlədilən terminlər müxtəlif mənşələrə malikdir və onların rolu bir neçə əsas sahədə özünü göstərir:

1. Qanunvericilik və Dövlət İdarəçiliyi

Türk və Azərbaycan dillərində qanunvericilik aktlarında və rəsmi sənədlərdə istifadə edilən terminlər aydın, konkret və standartlaşdırılmış olmalıdır. Azərbaycan qanunvericiliyində tez-tez rast gəlinən terminlər: "qanunvericilik hakimiyyəti", "icra hakimiyyəti", "dövlət suverenliyi", "konstitusiya dəyişikliyi", "referendum" və s.

Türkiyə qanunvericiliyində isə oxşar anlayışlar belə ifadə olunur: " devlet egemenliği", "anayasa değişikliği", "halk oylaması" və s. Bu terminlər rəsmi sənədlərdə dəqiq və konkret mənalar daşıyır. Onların düzgün istifadəsi hüquqi təfsirlərin və dövlət idarəçiliyinin səmərəli həyata keçirilməsində mühüm rol oynayır.

2. Media və ictimai diskurs

Siyasi terminlər mediada geniş şəkildə istifadə olunur və ictimai rəyə təsir etmək gücünə malikdir. Azərbaycan və Türkiyə mediasında siyasi terminologiyanın işlədilməsi ölkələrin siyasi kursunu və cəmiyyətin dünyagörüşünü formalaşdırır.

Azərbaycan mediasında: "milli maraqlar", "beynəlxalq təşkilatlar", "regional təhlükəsizlik" kimi ifadələr geniş yayılmışdır.

Türkiyə mediasında: "milli irade", "bölgesel güç", "stratejik işbirliği" kimi anlayışlar tez-tez işlədilir.

3. Beynəlxalq münasibətlər və Diplomatiya

Azərbaycan və Türkiyə diplomatik münasibətlərdə beynəlxalq terminlərdən istifadə edir və bu sahədə ortaq siyasi dil formalaşdırmağa çalışır.

Azərbaycan diplomatiyasında işlənən terminlər: "ikitərəfli əməkdaşlıq", "diplomatik missiya", "sülh prosesləri" və s.

Türkiyə diplomatiyasında istifadə edilən terminlər: "diplomatik misyon", "ikili işbirliği", "barış süreci" və s. Bu terminlər beynəlxalq siyasətə inteqrasiyanı gücləndirən vasitələr kimi çıxış edir.

Siyasi terminologiyanın üslubi xüsusiyyətləri müxtəlif nitq strategiyalarında özünü göstərir. Siyasətçilər rəsmi nitqlərində terminlərdən istifadə edərək fikirlərini daha təsirli və inandırıcı şəkildə çatdırmağa çalışırlar.

Nəticə

Müasir türk və Azərbaycan dillərində siyasi terminologiya müxtəlif ictimai-siyasi diskursda mühüm rol oynayır. Siyasi terminlərin rəsmi, emosional və metaforik üslubları onların müxtəlif kontekstlərdə işlənməsinə təsir edir. Azərbaycan və Türkiyə siyasi terminologiyası arasında həm ortaq cəhətlər, həm də fərqlər

mövcuddur. Lakin hər iki ölkənin siyasi leksikası zamanla inkişaf edərək daha da zənginləşməkdədir. Bu nəticəyə gəlirik ki, siyasi terminlər təkcə rəsmi ünsiyyət vasitəsi deyil, həm də ictimai rəyin formalaşmasında, ideoloji diskursun qurulmasında və dövlət siyasətinin icrasında mühüm əhəmiyyət kəsb edir.

İstifadə edilmiş ədəbiyyat siyahısı

1. Cəfərov S. Müasir Azərbaycan dilinin leksikası. Bakı: Azərbaycan Universiteti, 1956
2. Cəfərov S. Müasir Azərbaycan dili, II hissə, Leksika. Bakı: Şərq-Qərb, 2007
3. Cəfərov V.B. Diplomatik yazışma. Bakı: Elm, 1997, 71 s.
4. İzahlı ictimai-siyasi terminlər lüğəti. S.Sadıqova, S.Novruzova, S.Quliyeva. AMEA, Bakı: Zərdabi nəşr, 2023.
5. Diplomasi kavramları sözlüğü
6. Türkel Y. Politologiya (açıqlamalarla sözlük)

Rəyçi: dosent T.A. Quliyev

ZƏHRA MAQSUD QIZI QOCAYEVA
Azərbaycan Dövlət İqtisad Universiteti
Xarici Dillər departamentinin müəllimi
İstiqlaliyyət küç.,6murselovaz1989@gmail.com

DİLDƏ ÇOXMƏNALILIQ

Açar sözlər: dilçilik, çoxmənalılıq, növ, məna, əhəmiyyəti
Ключевые слова: лингвистика, полисемия, тип, значение, значимость
Keywords: linguistics, polysemy, type, meaning, significance

Bir hadisələr dünyası, bir biliklər dünyası, bir də söz dünyası var. Əsas vəzifələrdən biri bu dünyalar arasında qarşılıqlı anlaşma, adekvat münasibət qurmaqdır. Söz, anlayış, loqos adi danışıq dilinin əsasını təşkil edir. Məhz buna görədir ki, bir çox filosofların fikrinə görə, adi danışıq dili həqiqi varlığın özüdür. Yəni hadisələr dünyası da, ideyalar dünyası da məhz adi danışıq dili sayəsində həyatiləşir, insaniləşir və bizim üçün dünyaya çevrilir.

Bir ünsiyyət vasitəsi olmaqla bərabər, dil həm də biliklərin saxlanması, ötürülməsi və mənimsənilməsinə xidmət edir. (Səlahəddin Xəlilov 525-ci qəzet.-2012.-30 iyun.-S.16-19)

Məqalədə dildə çoxmənalılıq və çoxmənalılığın xüsusiyyətləri haqqında bəhs olunur. Dilçilikdə çoxmənalılıq polisimiya adı ilə də şərh olunur.

Polisemiya Qədim yunan dilindən πολύ- (polý-) 'çox' və σῆμα (sêma) 'işarə' deməkdir. Bununla da polisimiya yəni çoxmənalılıq çoxlu söz, simvola malik olmaq anlamına gəlir. (The American Heritage Dictionary of the English Language (Fourth Edition). 2000.

O, başını tərpətdi. (bədən hissələri)

Şöbə başçısı çıxış etdi. (lider)

Biz cığırın başına çatdıq. (başlanğıc və ya yuxarı)

O, stəkana pivə töküb, köpüklü başına heyran oldu. (üst təbəqə)

Bu mənalar kontekstdə fərqlənsə də, hamısı konseptual olaraq bir şeyin "yuxarı" və ya "aparıcı hissəsi" ideyası ilə əlaqədardır.

Çoxmənalılıq bir sözün iki və ya bir neçə məna ilə əlaqələndirilməsi hadisəsi kimi xarakterizə olunur. Bir söz formasının bir məna ilə əlaqələndirildiyi monosemiyadan və bir söz formasının iki və ya bir neçə əlaqəsiz məna ilə əlaqələndirildiyi omonimiyadan fərqləndirilir. Polisemiya, monosemiya və omonimiya arasındakı fərqlər intuitiv səviyyədə aydın görünsə də, praktikada onları fərqləndirmək çətinləşmişdir. (Agustín Vicente, Ingrid L. Falkum,2017:1) Polisemiyanı başa düşmək insan dilinin mürəkkəbliyini və uyğunlaşma qabiliyyətini qiymətləndirmək üçün çox vacibdir. Dil fenomeni kimi polisemiya ünsiyyətdə və

dilin təkamülündə mühüm rol oynayır və dildən istifadədə çeviklik və yaradıcılığa imkan verir.

Çoxmənalılıqla omonimliyin fərqli və oxşar cəhətləri ilə bağlı T.Əfəndiyevanın fikirləri daha qənaətbəxşdir: "Polisemiya bu və ya digər sözün müxtəlif mənalarının bir əsas məna ətrafında birləşməsi, omonomiya isə heç bir əlaqədə olmayan müxtəlif mənalı sözlər deməkdir". (Əfəndiyeva, T.Ə. Azərbaycan dilinin leksik üslubiyyatı. – Bakı: Elm, 1980. Səh. 14)

Polisemiya bir söz formasının çoxsaylı əlaqəli mənalarla əlaqələndirilməsi ilə xarakterizə olunan mürəkkəb bir dil hadisəsidir. Bu konsepsiya təbii dilin işlənməsini başa düşmək üçün vacibdir. Bir çox alimlər vurğulayırlar ki, polisemiya bir-biri ilə əlaqəli olmayan mənaların eyni formanı paylaşdığı omonimiyadan əsaslı şəkildə fərqlənir. Məsələn, "bank" maliyyə qurumu və ya çayın sahili (homonimiya) mənasında ola bilər, "line" isə bütün əlaqəli mənalar olan bir sıra insanlara, çəkilmiş xəttə və ya növbəyə aid ola bilər (Falkum & Vicente, 2015; Bergenholtz & Gouws, 2017;)

Polisemiya ilə bağlı araşdırmalar dil sistemləri daxilində çoxlu mənaların necə qurulduğunu izah etmək məqsədi daşıyan müxtəlif modelləri və nəzəriyyələri vurğulamışdır. Koqnitiv semantika əlaqəli mənaların təsnif oluna biləcəyi çərçivə təklif edir, bu mənaların aydınlaşdırılmasında kontekst və ensiklopedik biliklərin rolunu vurğulayır. Prototipik mənalar və ya ən çox istifadə olunan məna çoxmənalı sözlərin əlaqəli mənaları üçün lövbər rolunu oynayır (Martínez et al., 2024; Falkum, 2015; Dobrić, 2014).

Üstəlik, polisemiyanın praqmatik ölçüləri mənaların necə statik olmadığını vurğulayır. Onlar mədəni, kontekstual və sosial təsirlərə əsaslanaraq inkişaf edir. Çoxmənalı sözlərin istifadəsi zamanla dəyişə bilər, bu fenomen onların semantik təmsillərinin davamlı olaraq yenidən qiymətləndirilməsini tələb edir (Cinta et al., 2023; Evans, 2009).

Çoxmənalı sözlər dillərin zəifliyini deyil, zənginliyini göstərir. Əslində lüğətin zənginliyi təkcə söz sayının çoxluğu ilə deyil, əksinə kəlmələrin məna genişliyi, müxtəlif məcazi mənalarda işlədilmə imkanlarının genişliyi ilə də ölçülür (Cəfərov, S. Müasir Azərbaycan dili. – Bakı: Maarif, 1982.səh. 97)

Polisemiyanın növləri

Xətti və ya Şaquli Polisemiya

Bu kateqoriya mənalar arasında iyerarxik əlaqələri əhatə edir:

- Avtohiponimiya: Ümumi mənadan xüsusi mənaya keçid (məsələn, hər hansı bir şeyi "içmək" və "alkoqol içmək")
- Automeronymy: Tam hissəyə münasibət (məsələn, "qapı" bütün struktura qarşı qapı paneli)
- Autohyperonimy: Xüsusidən daha geniş hissiyyat hərəkəti
- Avtoholonimiya: Part-to-bütün əlaqə

Qeyri-xətti Polisemiya

Bu, məcazi uzantıları əhatə edir:

- Metonimiya: Bir hissin digərini təmsil etməsi (məsələn, "əllər" bədən hissələri kimi, əl işçiləri)
- Metafora: Oxşarlığa əsaslanan məna (məsələn, həbi “udmaq” və arqumenti “udmaq”)

Çoxmənalılıq dillər və mədəniyyətlər arasında fərqli şəkildə özünü göstərir və aşağıdakılardan təsirlənir:

1. Mədəni kontekst və aktuallıq
2. Dilə xas nümunələr
3. İsimlər, fellər və sifətlər arasında kateqoriyalar arası funksionallıq

Çoxmənalı sözlərin semantik diapazonu müxtəlif mədəni və linqvistik ehtiyacları əks etdirən dillər arasında əhəmiyyətli dərəcədə fərqlənə bilir.

Polisemiyada bir sıra idrak problemləri mövcuddur:

- Kontekstdən asılı məna seçimi
- Müxtəlif hisslər arasında müdaxilə təsirləri
- Çoxlu mənalar arasında rəqabət
- Kontekstli işarələrə əsaslanan sürətli məna seçimi

Polisemiya dilin təkamülündə həlledici rol oynayır:

1. Onu semantik struktur modifikasiyasının təkamül nəticəsi kimi göstərən riyazi modelləşdirmə
2. Çoxmənalı adlandırmada və leksik dəyişmədə vahid meyllər
3. Semantik hüceyrə modifikasiyası vasitəsilə yeni mənaların inkişafı

Dillər Arasında Ümumi Nümunələr

Müxtəlif dillər polisemiyanın müxtəlif nümunələrini nümayiş etdirir:

İngilis: "bank" (maliyyə institutu/çay kənarı)

Fransızca: "feuille" (yarpaq / vərəq / səhifə)

İspanca: "banco" (dəzgah/bank/balıq sürüsü)

Çin: "书" (kitab/yazma/məktub)

Bu zəngin nümunələr çoxmənalılığın insan dilinin əsas xüsusiyyəti olduğunu nümayiş etdirir və sözlərin kontekst vasitəsilə başa düşülə bilən çoxsaylı əlaqəli mənaları daşımasına imkan verir. Bu fenomen müxtəlif dillərdə, ixtisaslaşmış sahələrdə və tarixi dövrlərdə özünü göstərir və insan ünsiyyətinin çevikliyinə və səmərəliliyinə töhfə verir.

Polisemiya dilin həm idrak proseslərini, həm də mədəni təsirləri əks etdirən mürəkkəb və dinamik aspektini təmsil edir. Polisemiyanı başa düşmək insan dilinin zənginliyini və müxtəlif kontekstlərdə və mədəniyyətlərdə uyğunlaşma qabiliyyətini qiymətləndirmək üçün vacibdir.

Bundan əlavə çoxmənalılıq dilin zənginliyinə və uyğunlaşmasına sübutdur. Bu, insanların məhdud sözlər toplusundan istifadə edərək ətrafdakı dünyanı necə təsnif etdiyini, əlaqələndirdiyini və şərh etdiyini əks etdirir. Polisemiyanı başa düşmək dilin incəliyinə olan qiymətimizi dərinləşdirir və ondan səylə istifadə etmək üçün lazım olan koqnitiv incəliyi xatırladır.

ƏDƏBİYYAT SİYAHISI:

1. Agustín Vicente, Ingrid L. Falkum,2017:1
2. Cəfərov, S. Müasir Azərbaycan dili. – Bakı: Maarif, 1982.səh. 97
3. Cinta et al., 2023; Evans, 2009
4. Əfəndiyeva, T.Ə. Azərbaycan dilinin leksik üslubiyyatı. – Bakı: Elm, 1980. Səh. 14
5. Falkum & Vicente, 2015; Bergenholtz & Gouws, 2017
6. Martínez et al., 2024; Falkum, 2015; Dobrić, 2014
7. Səlahəddin Xəlilov 525-ci qəzet.-2012.-30 iyun.-S.16-19
8. The American Heritage Dictionary of the English Language (Fourth Edition). 2000.
9. https://en.wikipedia.org/wiki/Polysemy#:~:text=%2D%20metaphor%2C%20where%20there,pill%29%22%20to%20%22swallowing%20%28an

ZƏHRA QOCAYEVA

DİLDƏ ÇOXMƏNALILIQ
XÜLASƏ

Nəticə olaraq, polisemiya linqvistik təqaüd və hesablama tətbiqləri üçün əhəmiyyətli problemlər və imkanlar təqdim edir. Tədqiqatçılar koqnitiv semantikadan nəzəriyyələri və dil modelləşdirməsindəki yenilikləri birləşdirərək, dil istifadəsinin koqnitiv prosesləri çərçivəsində mənaların necə təkamül etdiyi və qarşılıqlı əlaqədə olduğu anlayışımızı dəqiqləşdirə bilər. Bu çoxşaxəli yanaşma insan dilinin zənginliyini adekvat şəkildə deşifrə edə bilən effektiv modellərin işlənib hazırlanması üçün vacibdir.

ZAHRA GOJAYEVA

POLYSEMY IN LANGUAGE
SUMMARY

In conclusion, polysemy presents significant challenges and opportunities for linguistic scholarship and computational applications. By bridging theories from cognitive semantics and innovations in language modeling, researchers can refine our understanding of how meanings evolve and interrelate within the cognitive processes of language use. This multifaceted approach is essential for developing effective models that can adequately decode the richness of human language.

ЗАХРА ГОДЖАЕВА

МНОГОЯЗЫЧИЕ В ЯЗЫКЕ
РЕЗЮМЕ

В заключение следует отметить, что полисемия представляет собой существенные проблемы и возможности для лингвистических исследований и вычислительных приложений. Объединяя теории когнитивной семантики и инновации в языковом моделировании, исследователи могут уточнить наше понимание того, как значения развиваются и взаимодействуют в рамках когнитивных процессов использования языка. Этот многогранный подход необходим для разработки эффективных моделей, которые могут адекватно расшифровывать богатство человеческого языка.

Rəyçi: Filologiya elmləri doktoru,dosent Aynel Məşədiyeva Ənvər qızı

Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu, *ISSN 2224-9257*
Filologiya məsələləri № 3, 2025
Səh. ————————

ƏLİZADƏ TAMARA ŞƏRBƏT Q.
telizade@amu.edu.az
İMANOVA İRADƏ İSA QIZI
iimanova@amu.edu.az
Azərbaycan Tibb Universiteti

BİR DÜNYADA MİN SƏS: QLOBALLAŞMA VƏ MULTİKULTURALİZM

> "*Dövlət, ölkə nə qədər çox xalqı birləşdirsə, bir o qədər zəngin olur, çünki onların hər biri... ümumdünya mədəniyyətinə və sivilizasiyasına öz töhfəsini verir".*
>
> ***Heydər Əlirza oğlu Əliyev.***

Açar sözlər: *ümummilli lider, multikulturalizm, siyasət, çoxmillətlilik, çoxmədəniyyətlilik.*
Key words: *national leader, multiculturalism, politics, multinationality, multiculturalism.*
Ключевые слова: *национальный лидер, мультикультурализм, политика, многонациональность, мультикультурализм.*

Qloballaşma - elmi yeniliklərin və kəşflərin hesabına surətli inkişafla xarakterizə edilən, mədəniyyət, ictimaiyyət, siyasət, elm və təhsil, iqtisadiyyat kimi sferaları əhatə edən və ideoloji bütövlüyü formalaşdırmaq yolu ilə inteqrasiyaya nail olan uneversal bir hadisədir. Təşəkkül dövrü XX əsrin əvvəlindən götürülən, qloballaşma prosesini xarakterizə edən əsas cəhətlərdən biri ölkələrarası beynəlxalq səciyyəli kommunikasiyaya olan tələbatdır.

Başqa sözlə desək, qloballaşma dedikdə siyasət, ticarət və oxşar ideyalar mübadiləsi yolu ilə dövlətləri və maliyyə bazarlarını birləşdirən, sosiomədəni, texnoloji xüsusən də iqtisadi amillərin mürəkkəb kombinasiyası nəzərdə tutulur. Bir çox sferalarda zaman, məkan sıxlaşmasına səbəb olan nəhəng qloballaşma hadisəsi ayrı-ayrı mədəniyyətlərin qarşılaşması, onların bir birinə doğru istiqamətlənməsi ilə nəticələnir.

Dil və mədəniyyət arasında əlaqə danılmazdır, çünki qarşılıqlı ünsiyyət prosesində sözlərin və hərəkətlərin real gücünü dərk etmək üçün cəmiyyət üzvlərinin ehtiyac duyduğu anlayış məhz mədəniyyətdir. Mədəniyyət hər hansı bir milləti, xalqı başqalarından fərqli edən mənəvi dəyərlər, həyat tərzi, məhz həmin xalqa mənsub olan düşüncələrin, ənənələrin formalaşdırdığı ümumi hadisədir. O, nəsillərin bir-birinə ötürdüyü ictimai irsin bir nümunəsidir. Eyni zamanda mədəniyyət, bu və ya digər xalqın özünəməxsus yaradıcılığının, davranış tərzinin daxil olduğu təbii və canlı bir varlıq olaraq qeyd edilir. Mədəniyyətlə bağlı olan, onu formalaşdıran hər bir məqam özünü dilin köməyi ilə reallaşdırır. Beləki, din, təhsil, tərbiyə, adət və

ənənələr, şifahi və yazılı ədəbiyyat, incəsənət kimi müxtəlif növlü ünsürlər mədəniyyətin ötürmə vasitələridir. Başqa sözlə desək mədəniyyət insan zəkasının və əlinin təsiri ilə dəyişikliklərə məruz qalan və bu səbəbdən də sosial situasiyanın bir parcası olan hər hansı bir proses kimi qiymətləndirilə bilər. Bu anlayış yalnız insanla bağlı olub, insandan yaranır və onda yekunlaşır. Təsadüfi deyil ki, mədəniyyət fenomenini dərk etmək məqsədilə insanı araşdırmaya cəlb edirlər. Mədəniyyətə verilən çoxsaylı tərifl ərin müqayisəsi onu deməyə imkan verir ki, onun başlıca özülü öz əksini insan təfəkküründə tapır.(2, s. 36-37).

Multikulturalizm sözü "çoxmədəniyyətlilik" anlamına gəlir. Multikulturalizm siyasəti dedikdə müxtəlif mədəniyyətlərin inkişafı, qorunması və təbliğinə yönəlmiş humanist və demokratik dövlət siyasəti nəzərdə tutulur.

Multikulturalizmin əsasını təşkil edən dövlət-din münasibətlərinə böyük önəm verən ulu öndərimiz Heydər Əliyev deyirdi: "Azərbaycan Respublikası çoxmillətli bir dövlətdir. Azərbaycanda müsəlmanlarla yanaşı, başqa dinlərə mənsub olan vətəndaşlar da yaşayır. Azərbaycan müstəqil, demokratik dövlət kimi öz ərazisində yaşayan bütün xalqlara, bütün millətlərə, dinindən, irqindən, siyasi mənsubiyyətlərindən asılı olmayaraq azadlıq, hürriyyət imkanları verir". Ulu öndərin müəyyənləşdirdiyi bu strateji istiqamətdə inkişaf edən Azərbaycan dünyaya örnək ola biləcək multikııltural dəyərlər sistemini və modelini formalaşdırıb. Azərbaycan dövləti mənəvi dəyərlərin qorunmasını, təbliği və təşviqini cəmiyyətin inkişaf meyarlarından biri kimi qəbul edir. Bu, xalqımızın ümummilli lideri Heydər Əliyevin müəllifi olduğu azərbaycançılıq ideologiyasının və dövlət siyasətinin tərkib hissəsidir. Başqa sözlə, bu gün Azərbaycan cəmiyyətinin və dövlətinin həm sosial-iqtisadi inkişafının, həm də mənəvi tərəqqisinin bünövrəsində Heydər Əliyev siyasəti dayanır. Bu siyasətin hazırda Prezident İlham Əliyev tərəfindən uğurla və ardıcıllıqla davam etdirilməsinin nəticəsidir ki, Azərbaycan həm sosial iqtisadi, həm də mənəvi dəyərlərin qorunmasına və inkişafına görə regionun lider dövlətinə çevrilib.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev öz çıxışlarında daima vurğulayır ki, multikulturalizm və qloballaşma Azərbaycanda həyat tərzidir, dövlət siyasətidir və alternativi yoxdur. Güclü multikulturalizmin (dövlət siyasəti müstəvisində) mövcud olduğu hər bir dövlətə bu anlayış xarakterikdir. Hər hansısa qanuni, siyasi quruluşu və ya idarəetmə formasını bir aya, bir ilə və ya bir neçə ilə dəyişmək mümkündür. Ancaq hər hansı bir xalqın mədəniyyətini yüz illər keçsə də dəyişmək mümkün deyil. Bugünkü dünyada xalqların sayı dövlətlərin sayından 10 dəfə çoxdur. Əgər hər bir xalqın öz mədəniyyətini qoruyub saxlamaq hüququ olmasaydı, hər bir coğrafiyada etnik münaqişələrin qarşısını almaq mümkün olmazdı.

Qloballaşmanın əsas cəhətlərindən biri də odur ki, hər bir xalq öz mədəniyyətini təbliğ edir. Mədəniyyətin qlobollaşması həm də dünya mədəni dəyərlərinin qarşılıqlı əlaqəsini təşkil edir. Xalqlar arasında mədəni əlaqələrin genişlənməsi eyni zamanda həmin xalqların bir-birinə yaxınlaşmasını şərtləndirir.

Ulu öndərin həyata keçirdiyi bu siyasət Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Azərbaycanın multikulturalizm dəyərlərinə sahib olması, onu təşviq etməsi aparıcı beynəlxalq təşkilatlar və dünya birliyi tərəfindən yüksək dəyərləndirilir. Müasir gərgin beynəlxalq şəraitdə Azərbavcanda Beynəlxalq Multikulturalizm Mərkəzinin yaradılması, praktiki, elmi, təbliğati və təşviqati istiqamətdə fəaliyyət göstərməsi xüsusi əhəmiyyət kəsb edir. Hazırda ölkəmizin təcrübəsi tədqiqat obyektidir, bir çox ölkələrdə öyrənilir və tədris edilir. Bu istiqamətdə əməkdaşlığa maraq artır və ilbəil əlaqələr genişlənir. Azərbaycanın əsrlər boyu dinlər, mədəniyyətlər və sivilizasiyaların bir araya gəldiyi məkan olduğunu vurğulayan cənab İlham Əliyev bildirdi ki, Azərbaycan Şərq və Qərb arasında yalnız coğrafi körpü deyil, həm də mədəniyyət körpüsüdür: "Əsrlər boyu müxtəlif dinlərin və mədəniyyətlərin nümayəndələri Azərbaycanda sülh şəraitində və ləyaqətlə yaşayıblar. Dini dözümlülük və multikulturalizm burada hər zaman mövcud olmuşdur. "Multikulturalizm" sözü mövcud olmadığı bir zamanda belə, həmin ideyalar daim yaşayıb. Bunun nəticəsidir ki, bu gün Azərbaycan çox millətli və çoxkonfessiyalı ölkədir. Burada bütün dinlərin və etnik qrupların nümayəndələri sülh və əmin-amanlıq şəraitində yaşayırlar. Bu bizim ən bövük sərvətimizdir və biz tariximizlə fəxr edirik. Biz müxtəlif mədəniyyətləri özündə əks etdirən tarixi abidələrimizlə fəxr edirik".

Cəmiyyətin başlıca kommunikasiya vasitəsi, fikir mübadiləsi aləti olan dil insanın fəaliyyət prosesini, onun sosial və ictimai cəhətdən varlığını şərtləndirən sosial mədəni hadisə kimi qəbul edilir. Dil daşıyıcısının ətraf aləm, reallıq haqqında olan biliyi dil və mədəniyyət əlaqəsinin dərk olunması üçün xüsusi əhəmiyyət kəsb edir. İnsanın öz mövcudluğunu dərk edən vaxtdan etibarən dilin yaranması və keçdiyi inkişaf dövrü ilə bağlı mülahizələr irəli sürməsi onun insan həyatı üçün əvəzolunmaz olduğunun göstəricisidir. Məlumdur ki, hər bir xalqın mədəni irsi, tarixi, məişəti və adət ənənələri öz təzahürünü o xalqın dilində tapmışdır.

Heydər Əliyev 1993-cü ilin 15 iyununda ölkə rəhbərliyinə qayıtdığı gün, Milli Məclisdə etdiyi ilk çıxışında bu məqamı xüsusi vurğulamış, respublikadakı çoxmillətliliyi Azərbaycanın sərvəti adlandırmışdır: "Azərbaycan əhalisinin çoxmilli tərkibi bizim sərvətimizdir, üstünlüyümüzdür. Azərbaycanın ən başlıca sərvətlərindən biri qədimlərdən bu torpaqda yaşayan, öz taleyini, öz həyatını bu torpağa bağlayan müxtəlif dinlərə etiqad edən adamlardır. Biz bunu qiymətləndiririk və saxlayacağıq. Dövlət, ölkə nə qədər çox xalqı birləşdirsə, bir o qədər zəngin olur, çünki onların hər biri ümumdünya mədəniyyətinə və sivilizasiyasına öz töhfəsini verir. Azərbaycan onun ərazisində yaşayan bütün millət və xalqların ümumi vətənidir. Azərbaycanlı sözü bizi həmişə birləşdirib". Ulu öndərin ümumdövlət məfkurəsi səviyyəsinə yüksəltdiyi Azərbaycançılıq ideyası da mahiyyət etibarilə milliliyin və bəşəriliyin təcəssümüdür. Bu ideya heç bir halda milli təcridolunmanı tələqin etmir, o, təkcə milli kimliyin ifadəsi, xalqın mənəvi irsinə hörmət, onun təbliği və tərənnümü demək deyil, eyni zamanda dünya irsinə, ümumbəşəri dəyərlərə

açıqdır. O deyirdi: “Biz həm milli tariximizdən aldığımız mənəvi sərvətlərdən istifadə etməli, həm də bəşəriyyətin yaratdığı mənəvi dəyərlərə yiyələnməliyik”.

Tarixi inkişafdan keçərək formalaşmış çoxmədəniyyətli bir cəmiyyətin mövcudluğu və bu cəmiyyəti qoruyub saxlamaq üçün dövlətin siyasi iradəsinin mövcud olması əslində multikultiralizmin mövcud olmasına əsas verir. Azərbaycan daim müxtəlif mədəniyyətlərin toqquşduğu, müxtəlif xalqların özlərinə güvənli vətən seçdiyi məkan kimi hələ də liderlər sırasındadır və illər keçməsinə baxmayaraq multikulturual cəmiyyətə açılan qapılardan biri məhz Azərbaycandadır.

X Ü L A S Ə

Ümummilli liderimiz H.Əliyev çoxmillətliliyi Azərbaycanın sənəti adlandırmışdır. O, öz çıxışlarında deyirdi: “Dövlət, ölkə nə qədər çox xalqı birləşdirsə, bir o qədər zəngin olar. Çünki onların hər biri ümumdünya mədəniyyətinə öz töhfəsini verir. Azərbaycan onun ərazisində yaşayan bütün millət və xalqların ümumi vətənidir. H.Əliyevin həyata keçirdiyi siyasət nəticəsində özünün mədəni müxtəlifliyini qorumaq üçün milli azlıqlar və dini qruplarla bağlı çoxlu sayda normativ hüquqi aktlar qəbul olundu. Multikulturalizmin əsasını təşkil edən dövlət – din münasibətlərinə böyük önəm verən ulu öndərimiz deyirdi: “Azərbaycan Respublikası çoxmillətli bir dövlətdir. Azərbaycan müstəqil, demokratik dövlət kimi öz ərazisində yaşayan bütün xalqlara, bütün millətlərə azadlıq, hürriyyət imkanları verir”. Ulu öndərin həyata keçirdiyi bu siyasət prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Elə bunun nəticəsidir ki, Azərbaycan həm sosial-iqtisadi, həm də mənəvi dəyərlərin qorunmasına və inkişafına görə regionun lider dövlətinə çevrilib.

Tamara Alizade
Irada Imanova

A THOUSAND VOICES IN ONE WORLD: GLOBALIZATION AND MULTICULTURALISM

S U M M A R Y

Our national leader H. Aliyev called multinationality the art of Azerbaijan. He used to say in his speeches: "The more people the country unites, the richer it will be. Because each of them contributes to the world culture. Azerbaijan is the common homeland of all nations and peoples living in its territory. As a result of H. Aliyev's policy, a large number of normative legal acts related to national minorities and religious groups were adopted in order to protect his cultural diversity. Our great leader, who attached great importance to statereligion relations, which is the basis of multiculturalism, said: "The Republic of Azerbaijan is a multi-ethnic state. As an independent, democratic state, Azerbaijan provides opportunities for freedom and liberty to all peoples and nationalities living in its territory. This policy implemented by the great leader is successfully continued by President Ilham Aliyev. As a result

of this, Azerbaijan has become a leading state in the region in terms of the protection and development of both socio-economic and moral values.

Тамара Ализаде
Ирада Иманова

ТЫСЯЧА ГОЛОСОВ В ОДНОМ МИРЕ: ГЛОБАЛИЗАЦИЯ И МУЛЬТИКУЛЬТУРАЛИЗМ

Р Е З Ю М Е

Наш общенациональный лидер Г.Алиев назвал многонациональность искусством Азербайджана. В своих выступлениях он говорил: “Чем больше людей объединит страна, тем богаче она будет. Потому что каждый из них вносит свой вклад в мировую культуру. Азербайджан является общей родиной всех наций и народов, проживающих на его территории”. В результате политики Г.Алиева, в целях защиты его культурного разнообразия, было принято большое количество нормативных правовых актов, касающихся национальных меньшинств и религиозных групп. Наш великий лидер, придававший большое значение государственно-религиозным отношениям, являющимся основой мультикультурализма, сказал: «Азербайджанская Республика является многонациональным государством. Как независимое, демократическое государство, Азербайджан предоставляет возможности свободы всем народам и национальностям, проживающим на его территории. Политику, которую проводил великий лидер, успешно продолжает Президент Ильхам Алиев. В результате этого Азербайджан стал ведущим государством региона с точки зрения защиты и развития как социальноэкономических, так и моральных ценностей.

Ə D Ə B İ Y Y A T

1. Heydər Əliyev “Müstəqillik yolu”. Seçilmiş fikirlər. Bakı, 1997;
2. İlham Əliyev “Azərbaycan tolerantlıq örnəyidir”. Bakı, Elm və təhsil, 215, 615s.; 3. Azərbaycan qəzeti. 23 iyul 2014;
4. Kamal Abdulla. Ulu öndər Azərbaycan multikulturalizminin siyasi banisidir. //htpp//www.azerbaijan-news.az.;
5. Kamal Abdulla. Azərbaycan multikulturalizminin ədəbi-bədii qaynaqları. Bakı, Mütərcim 2016, 287 s.;
6. F.F.Cahangirov. Dil və mədəniyyət. Bakı Elm və təhsil, 2014/308 s.

Rəyçi: filologiya üzrə fəlsəfə doktoru, dosent Məmmədova Elnarə Adil qızı tərəfindən çapa tövsiyə olunmuşdur.

.

Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu, *ISSN 2224-9257*
Filologiya məsələləri № 3, 2025
Səh. ————————

Dosent NAĞIYEVA DÜRDANƏ
dnağıyevaa@mail.ru
ƏLIYEVA İRADƏ BƏBIR QIZI
iradaazeri@mail.com
Azərbaycan Tibb Universiteti

ƏCNƏBİ DİLİN ÖYRƏNİLMƏSİNDƏ LEKSİKA VƏ ONUN TƏDRİSİ

Açar sözlər: *leksika, başlanğıc mərhələ, lüğət, sintaktik konstruksiya, sinonim, tərcümə, dil hazırlığı*

Key words: *vocabulary, initial stage, dictionary, syntactic construction, synonym, translation, language preparation*

Ключевые слова: *лексика, начальный этап, словарь, синтаксическая конструкция, синоним, перевод, языковая подготовка.*

Leksika, dilin söz ehtiyatıdır və öyrənilən dilin mənimsənilməsində çox mühüm rol oynayır. Leksikanın düzgün tədrisi, əcnəbi dilin tədrisində tələbələrin təbii və səlis danışıq bacarıqlarının əsasını təşkil edir. Azərbaycan dili əcnəbi vətəndaşlara xarici dil kimi tədris olunan zaman dilin lüğət tərkibinin zənginliyi aşkarlanır.

Əcnəbi dilin öyrənilməsi, tələbələrin dilin qrammatik strukturlarını, cümlə quruluşlarını və sintaktik qaydalarını mənimsəməkdən əlavə, leksikanın doğru və təsirli istifadəsini də tələb edir.

Xarici dildə danısmaq üçün, bu dilin leksikasını və sözlərin işlənmə qaydasını bilmək lazımdır.

Xarici dillərin öyrənilməsində leksikanın tədrisinə ayrılan vaxt səmərəli şəkildə bölünməlidir. Belə ki, dərsin əvvəlində tələbələri fəallaşdırmaq, onları müxtəlif, əvvəlcədən nəzərdə tutulmuş fəaliyyət növlərinə cəlb etmək məqsədilə onlara nitq fəaliyyətlərini aktivləşdirən sualların verilməsi tövsiyə edilir.

Tələbələr daha çox söz və ifadə öyrəndikcə, öz dil bacarıqlarını daha da inkişaf etdirə bilirlər. Onlar sözləri kontekstdə düzgün və uyğun şəkildə istifadə etməyi öyrənirlər.

Dilin leksikası, həmin dilin mədəniyyətini və cəmiyyətini əks etdirir. Leksikanın öyrənilməsi, öyrəncilərin dilin sosial və mədəni aspektlərini anlamalarına kömək edir.

Leksikanın öyrədilməsi tələbələrin müxtəlif mövzularda daha sərbəst danışmağına, oxumağına və yazmağına kömək edir.

Əcnəbi dilin öyrənilməsi tələbələrin dilin qrammatik strukturlarının, cümlə quruluşlarının və sintaktik qaydalarını mənimsətməkdən əlavə, leksikanın doğru və təsirli ifadəsini də tələb edir.

Leksikanın tədrisində əsas prinsiplərindən biri də sözlərin və ifadələrin kontekstdə öyrədilməsidir. Bir söz, müxtəlif vəziyyətlərdə fərqli mənalar kəsb edə bilər. Məsələn, "break" sözü "qırmaq", "fasilə" və ya "ayırmaq" mənalarında istifadə oluna bilər. Bu səbəbdən, sözlərin kontekstdə təqdim edilməsi, tələbələrə həmin sözlərin düzgün mənasını anlamağa kömək edir.

Leksika, müxtəlif söz növlərindən (isimlər, feillər, sifətlər, zərflər, bağlayıcılar və s.) ibarətdir. Dil öyrənicilərinin, söz ehtiyatlarını daha effektiv mənimsəmək üçün bu söz növlərini düzgün ayırd etməyi və hər birinin funksiyasını başa düşməyi vacibdir.

Sözlər kontekstdən asılı olaraq müxtəlif mənalar kəsb edə bilər. Məsələn, "gülmək" sözü bir vəziyyətdə *əyləncə*, başqa bir vəziyyətdə isə *təəssüf* hissi verə bilər. Hər bir dilin özünəməxsus mədəniyyətə bağlı leksik ifadələri var. Bu ifadələr yerli əhval-ruhiyyə, ənənələr, adətlər və sosial normalardan qaynaqlanır. Dil öyrəniciləri, dilin təkcə qrammatik və sintaktik strukturlarını deyil, həm də həmin dilin mədəni aspektlərini öyrənməlidirlər.

Sözlərin cümlə içində necə istifadə olunduğunu öyrənmək də vacibdir. Bir sözün cümlə içindəki yerini, onun digər sözlərlə əlaqəsini və cümlənin ümumi quruluşunu başa düşmək öyrənicinin dil bacarıqlarını inkişaf etdirir.

Leksikanın düzgün tələffüzü də onun mənimsənilməsində mühüm rol oynayır. Dil öyrəniciləri, yeni sözlər öyrəndikdə tələffüzünə də diqqət yetirməlidirlər. Bu, ünsiyyətin daha düzgün və anlaşılan olmasına kömək edir.

Leksikanın öyrənilməsi zamanı yeni sözlərin yadda saxlanması və bu sözlərin gündəlik həyatda istifadəsi əhəmiyyətlidir. Müxtəlif yadda saxlama texnikaları, təkrarlama metodları və interaktiv məşqlər leksikanın uzun müddət yaddaşda qalmasına kömək edir.

Dil öyrəniciləri, sosial və mədəni xüsusiyyətlərə uyğun leksikanı öyrənməklə yalnız dilin strukturlarını deyil, həmçinin cəmiyyətin dilə olan münasibətini və gündəlik həyatını da başa düşə bilərlər. Bu, onların dili daha dərin şəkildə mənimsəmələrinə imkan yaradır.

Leksikanın tədrisində məqsəd, tələbələri yalnız sözləri başa düşməyə deyil, həm də bu sözləri danışıqda və yazıda düzgün şəkildə istifadə etməyə hazırlamaqdır.

Dilin öyrədilməsi zamanında sözlərin müxtəlif qruplar üzrə öyrədilməsi vacibdir. Məsələn, isimlər, sifətlər, feillər və s. sözlərin sinonimləri və antonimləri ilə də tanışlıq da vacibdir.

Dil öyrənciləri üçün sinonimlər və antonimlər vasitəsilə leksika öyrədilməsi, tələbələrə sözlərin zənginləşdirilməsi və düzgün seçilməsi sahəsində əhəmiyyətli bacarıqlar qazandırır. Bəzi yeni sözlərin mənasını sinonimlərin (*nəhəng – çox iri*), antonimlərin seçiminin (*başlanğıc – son*) və s. köməyi ilə başa salmaq olur. Məsələn, bir sözü əvəz etmək üçün fərqli sinonimlərdən istifadə etmək tələbənin ifadə etmə bacarığını genişləndirir: *həkim-loğman*, *həmişə-daima* və s., antonimlər isə əks mənaları başa düşməyi asanlaşdırır: *kömək etmək-mane olmaq*, *isti-soyuq*.

Dil öyrənicilərinə frazeologizmlərin (sabit ifadələr) öyrədilməsi çox vacibdir. Hər bir dilin özünəməxsus deyimləri və ifadələri var. Bu ifadələrin tədrisi, tələbələrin dilin təbii ritmini və mədəniyyətini əks etdirir: *yardım etmək-qayğı göstərmək.*

Leksikanın öyrədilməsi yalnız sözlərin mənasını başa düşmək deyil, həm də onların formasını (felin zaman forması, isimlərin cinsi və sayları, sifətlərin dərəcələri və s.) başa düşməkdir. Bu, dilin qrammatik qaydalarına riayət edərək sözlərin düzgün istifadəsini təmin edir.

Leksikanın öyrədilməsi zamanı interaktiv fəaliyyətlərdən istifadə etmək tələbələrin marağını artırır və onları dilin praktiki istifadəsinə cəlb edir. Müxtəlif oyunlar, rollu oyunlar, danışıq məşqləri və qrup fəaliyyətləri leksikanın öyrədilməsini daha əyləncəli və effektiv edir.

Leksika tədrisi, müəyyən mövzularda (s*əyahət, alış-veriş, iş həyatı* və s.) qruplaşdırılaraq təqdim oluna bilər. Bu, tələbələrə daha fokuslanmış şəkildə müəyyən sahələr üzrə yeni sözləri öyrənməyə imkan yaradır.

Dilin tədrisində dialoqlar və müzakirələr çox vacibdir. Bu, tələbələrin həm öz söz ehtiyatlarını artırmalarına, həm də leksikanı real həyatda necə istifadə etmələri barədə daha yaxşı anlayış əldə etmələrinə kömək edir.

Yeni sözləri yadda saxlamaq üçün müxtəlif yaddaş texnikalarından istifadə etmək də çox faydalıdır. Məsələn, sözləri bir-birinə oxşar və ya əlaqəli mövzular üzrə qruplaşdırmaq, şəkillərlə əlaqələndirmək və ya həmin sözləri müntəzəm təkrarlamaq yaxşı öyrənməyə zəmin yaradır.

Əcnəbi dilin tədrisində leksika və onun tədrisi, dil öyrənicilərinin dili mənimsəməsində və müxtəlif kommunikativ vəziyyətlərdə səlis və düzgün şəkildə ifadə etmələrində əsas rol oynayır. Leksikanın öyrədilməsi yalnız sözlərin mənasını başa düşmək deyil, həm də onları real həyatda, doğru kontekstdə və müxtəlif situasiyalarda istifadə etmək bacarığını inkişaf etdirir.

X Ü L A S Ə

Xarici dilə yiyələnmək üçün ilk növbədə öyrənilən dilin lüğət tərkibini genişləndirmək, sözlərdən istifadə üsullarını işləyib hazırlamaq lazımdır.

Məqalədə təlimin ilkin mərhələsi üçün minimum söz ehtiyatı seçilərkən digər dillərdə olduğu kimi, Azərbaycan dilində də sinonimlərin, omonimlərin, polisemantik sözlərin çox olmağı nəzərə alınmalıdır. Bu baxımdan təlimin ilkin mərhələsində dərsin mövzusundan asılı olaraq antonimlər sinonimlərdən daha çox miqdarda daxil edilir və müəyyən dərəcədə öyrənilir. Buna görə də yeni lüğətin semantikləşdirilməsi üsullarından istifadə etmək və dilin qavrayış bacarıqlarını inkişaf etdirən əlavə oxu materialları tətbiq etmək lazımdır.

Qeyd olunur ki, təlimin ilkin mərhələsində leksik vahiddən sonra sözlərin leksik-semantik və leksik-qrammatik variantları qəbul edilməlidir.

Həmçinin yeni sözlərin semantikləşdirilməsi zamanı müxtəlif üsullardan istifadə etməklə, yəni çertyoj, diaqram, plyonka və digər əyani vəsaitlərdən istifadə etməklə və ya obyektin özünü göstərməklə izah edilməlidir.

Bu prosesdə görmə və eşitmənin eyni vaxtda iştirakı yeni sözün mənasının tərcüməsiz daha möhkəm mənimsənilməsinə gətirib çıxarır.

Durdana Nagiyeva
İrada Aliyeva

LEXICAN IN FOREIGN LANGUAGE TEACHING AND ITS TEACHING

S U M M A R Y

First and foremost, developing a word usage strategy and expanding one's vocabulary are requirements for learning a foreign language. The article points out that when selecting a lexical minimum for the early stage of learning, one should take into account the fact that, like in other languages, the Azerbaijani language has a large number of synonyms, homonyms, and polysemantic words.

In this regard, one should use the strategies of semantization of new vocabulary and provide supplementary reading resources that enhance language perception abilities at the initial stage of training, depending on the topic of the class. It should be highlighted that the lexical-semantic and lexical-grammatical variations of a word should be acknowledged from the beginning of learning, following the lexical unit.

Furthermore, new words should be semantically explained using a variety of techniques, such as illustrations, films, infographics, and other visual aids, as well as by illuminating the topic directly (realia). Participating in this process of visual and hearing simultaneously results in a stronger understanding of a new word's meaning without translation. Simultaneous participation in this process of vision and hearing leads to a stronger assimilation of the meaning of a new word without translation.

Дурдана Нагиева
İrada Alieva

ЛЕКСИКА В ПРЕПОДАВАНИИ ИНОСТРАННЫХ ЯЗЫКОВ И ЕГО УЧЕНИЕ

Р Е З Ю М Е

Для освоения и нострaнного языка, в первую очередь необходимо расширять – словарный запас изучаемого языка и разрабатывать методы и способы использования слов.

В статье отмечается, что при выборе лексического минимума для начального этапа обучения следует учитывать, что, как и в других языках, в Азербайджанском языке много синонимов, омонимов, многозначных слов. В

связи с этим, на начальном этапе обучения, в зависимости от темы урока антонимов в определенной степени включается и усваивается большее количество, чем синонимов. Поэтому, следует применять приемы семантизации новой лексики и вводить дополнительные материалы для чтения, развивающие навыки языкового восприятия.

Отмечается, что на начальном этапе обучения, после лексической единицы должны быть приняты лексико-семантические и лексико-грамматические варианты слов.

А также при семантизации новых слов их следует объяснять различными методами, то есть с помощью рисунков, схем, фильмов и других наглядных пособий или путем показа самого предмета. Одновременное участие в этом процессе зрения и слуха приводит к более прочному усвоению значения нового слова без перевода.

İstifadə olunmuş ədəbiyyat

1. Azərbaycan dilinin izahlı lüğəti. II cild. Bakı, 2006.
2. MalıyevQ.Q., Qorodilov Q.Q., “Təlim materiallarının əyanilik kompleksi” 2010.
3. Musayeva S., Leksik sinonimlik. Bakı: “Maarif”, 2012.
4. Balıyev H., Orta məktəblərdə Azərbaycan dilinin tədrisinə aid. Bakı, 2003.
5. Kərimov Y., Ana dilinin təliminin metodikası. Bakı, 2010.

Rəyçi: dosent Məmmədova Elnarə

Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu, *ISSN 2224-9257*
Filologiya məsələləri № 3, 2025
Səh. ————————

ƏHMƏDOVA AYTƏN ARZULLA qızı
Filologiya üzrə fəlsəfə doktoru, dosent
Gəncə Dövlət Universiteti

İNVERSİYA POETİZM YARADAN ÜSLUBİ FİQUR KİMİ

Açar sözlər: *üslub, intensional, informasiya, təfəkkür, intensivlik*
Ключевые слова: *стиль, интенсионалный, информация, мышления, интенсивность*
Key word: *stile, intensionality, information, thought, intensive*

İnversiya termini mənşəcə latın dilinə məxsusdur. Mənası yerdəyişmə deməkdir. Linqvistik bir termin kimi *inversiya* ifadəli nitqin baş verməsi və bədii informasiyanın intensivləşməsi anlayışı bildirir. *İnversiya* cümləni təşkil edən elementlərin xətti ardıcıllıq normasının pozulması kimi qəbul edilir. Lakin bu pozulma ardıcıl sıra normasına zidd olsa da nitq prosesində informasiyaların intensivləşməsinə xidmət edir, odur ki, dil normasından keçib nitq normasına çevrilir. Beləliklə nitq prosesi dildə baş verən ziddiyyəti intensivləşmə üzrə yenidən normalaşdırır. Beləliklə, inversiya üslubi fiqur kimi işlənərək intensional qrammatikanın tədqiqat obyektinə çevrilir. Dilin başlıca vəzifəsi informasiya kommunikasiyasına xidmət etdiyi üçün burada qarşılıqlı əlaqələrin çoxfunksiyalı prosesləri ilə qarşılaşmaq olur. Bu da dildə ayrı-ayrı üslubların yaranmasına ciddi təsir göstərir. Onu qeyd etmək lazımdır ki, dil üslubları özlərinin səciyyəvi norma xüsusiyyətlərinə malik olmaqla həm də bir-biri ilə daxili əlaqələrə malik olur. Yəni bədii üslub təkcə bədii mətnlərin qapalı üslubu olmayıb eyni zamanda digər üslublarla da həmhüdud elementlərə malikdir. Eyni zamanda hər hansı bir dil üslubunun daxilində başqa üsluba xas olan elementləri müşahidə etmək mümkündür. Bu ondan irəli gəlir ki, insan təfəkküründə informasiyalar bir istiqamətli deyildir. İnsan psixologiyasında, təfəkküründə, dünyagörüşündə çoxşaxəli informasiyalar mövcuddur ki, bunlar da verbal və ya qeyri-verbal şəkildə ötürülür. Nəticədə informasiyalar ayrı-ayrı üslublar üzrə paylaşdırıldığı kimi həm də bir-biri ilə daxili əlaqələrə malik olur. Üslubların qarşılıqlı əlaqəsi ilə bağlı Afaq Ağayeva (Quliyeva) *təxmini olaraq iyirmi əlaqənin (bədii-rəsmi, publisistik-epistolyar, elmi-publisistik, bədii-elmi, rəsmi-elmi, elmi-epistolyar, bədii-publisistik, rəsmi-bədii, epistolyar-bədii, bədii-epistolyar, rəsmi-epistolyar, epistolyar-publisistik, publisistik-bədii, rəsmi-publisistik, epistolyar-rəsmi, publisistik-rəsmi, elmi-bədii, epistolyar-elmi, publisistik-elmi, elmi-rəsmi olduğunu göstərir* [1, s.8]. Üslublararası əlaqələrin baş verməsində ayrı-ayrı dil elementlərinin, o cümlədən üslubi fiqurlar qismindəki inversiyanın da mühüm rolu vardır. İnversiya təkcə bədii təsvirin, bədii informasiyanın canlandırılmasına yox, eyni zamanda, fikrin, ideyanın çatdırılmasında intensivləşdirici əhəmiyyət kəsb edir. Bunu Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Qərbi Azərbaycan İcmasının İnzibati

binasında yaradılan şəraitlə tanış olduğu vaxtdakı çıxışında işlətdiyi aşağıdakı cümlədən də aydın görmək olur:

"*Benzinin, sürəti yağlarının və neftin təqribən 70, 80, 90 faizi Azərbaycandan təchiz edilirdi. Buna baxmayaraq xalqımıza qarşı növbəti cinayətin törədilməsi, yenə də deyirəm, böyük vicdansızlıqdır*" [2]. Burada "*yenə də deyirəm*" ifadəsi adi nitqdə əvvəldə işlədilə bilərdi. Lakin ifadənin yerini dəyişdirilib cümlə daxilinə gətirilməsi dinləyicinin, auditoriyanın diqqətini cəlb etmək məqsədi daşıyır və informasiya intensivliyini bir daha canlandırır. Ümumiyyətlə, bədii təfəkkürün, məntiqi düşüncənin, psixoloji emosiyaların canlı ifadəsinin təcəssümü kimi informasiyaların həm də koqnitiv baxımdan canlandırılmasında mühüm bir vasitə roluna malikdir. İnversiyadan insanların gündəlik həyatındakı kommunikasiyaları, o cümlədən, bədii təfəkkürün məhsulu olan hadisə və situasiyaları qabaqlaşdırmaq məqsədi ilə daha çox istifadə edilir. Odur ki, bəzi tədqiqatlarda inversiya dil-nitq, bəzən də daha çox şifahi verbal dil hadisəsi kimi nəzərə çatdırılır. İnversiyanın dil-nitq hadisəsi kimi baş verməsi onun ümumi prinsipidir. Yəni dilin xətti, ardıcıl qaydalarında inversiyanın yeri yoxdur. Ancaq informasiyaların canlandırılmasında inversiyanın peyda olması müşahidə edilir. Bu da o deməkdir ki, xətti, ardıcıl dil qaydaları xüsusi bir linqvistik normalılığa malik olduğu kimi inversiya da özünəməxsus norma ilə səciyyələnir. İnversiyanın dil norma isə informasiya intensivliyi ilə, daha dəqiq deyilsə ekstralinqvistik üsulla tənzim edilir. Sintaktik vahidlərin sırasına dair tədqiqat aparmış Ə.Cavadov hesab edir ki, inversiyalar nitqə aid məsələdir. Eyni zamanda, Ə.Cavadov inversiyanı aktual sintaksislə bağlı hadisə kimi adlandıraraq yazır ki, "*Sözlərin sıralanması nitq prosesində aktuallaşır, inversiya olunur. İnversiya isə əsasən intonasiya ilə müşayiət olunur. Əgər potensial sintaksis dil faktlarını əhatə edirsə, dilin qrammatik quruluşuna aiddirsə aktual sintaksis üslubiyyata xidmət edir*" [5, s.17].

B. Xəlilov cümlə üzvlərinin sıralanmasından bəhs edərkən düzgün sıralanmanın vacib olduğunu nəzərə çatdırır [8, s.372]. Ancaq burada onu da əlavə nəzərə almaq yerinə düşər ki, düzgün sıralanma dedikdə adi, nominativ, xətti, ardıcıl, linqvistik sıra qaydası xatırlanır. Ekstralinqvistik sıralanmanın özü də əslində əks, pozulmuş sıralanma deyil, informasiyaların intensivliyi ilə müşayiət edilən özünəməxsus normalılığa malik olan sıralanmadan ibarətdir. K.Mehdixanlının inversiya ilə bağlı gəldiyi qənaət bundan ibarətdir ki, cümlədə söz sırasının mövcudluğu onun qrammatik funksiyasından irəli gəlir. İnversiyanın baş verməsi isə ekspressiv-üslubi hadisə ilə bağlıdır. Bu da bədii dil üçün səciyyəvidir. İnversiyanın təyin olunması meyarı müəllifin qeyd etdiyi kimi *cümlənin invariant strukturu üzrə müəyyən edilir* [13, s.12].

Tənzilə Qasımovanın söz sırasına həsr edilmiş məqaləsində inversiya sərbəst söz sırası kimi nəzərə alınır və bir qayda olaraq onun baş verməsi danışıq dilinə dair hadisə kimi qeyd edilir [11]. T.Nağıyeva cümlədə söz sırasına dair yazdığı məqalədə sıralanmanın linqvistik bir ahəngdarlıq kimi qeyd edir. İnversiya tipli yerdəyişməni

sıranın pozulması hesab edir. Lakin bu pozulmanın üslubi xarakter daşıdığını göstərir [14, s.22]. Bu qısa xülasələrdən göründüyü kimi, söz sırası, o cümlədən inversiya çoxcəhətli, çoxşaxəli bir hadisədir və ayrı-ayrı tədqiqat işlərində, dil materiallarının təhlilində bu hadisəyə müxtəlif aspektlərdən yanaşmalar vardır. İnversiya bir dil hadisəsi kimi informasiyalarda ritorizmin, poetizmin, ekspressiv-emosionallığın, işgüzar-əməli kommunikasiyaların, bədii informasiyaların, üslubi rəngarəngliyin canlandırılmasına xidmət edir. Odur ki, inversiyaların funksionallığı ancaq üslubi çalarlıq yaratmağa xidmət etməklə məhdudlaşmır. Ona görə də, A.Eyyubovanın belə bir fikrinə tam haqq qazandırmaq olar ki, "*Söz sırası və onun inversiyası geniş və dərin araşdırma tələb edən sahədir. İnversiya dil-nitq hadisəsidir. Bir sıra üslubi fiqurlar kimi (ellipsis, antiteza, paralelizm, qradasiya, xiazm) simmetrik-asimmetrik fiqurdur. İnversiya bədii əsərdə struktur-qrammatik və kommunikativ funksiyanı yerinə yetirir*" [6, s.92-93].

Ümumiyyətlə, dil hadisələrinin çoxaspektli olması informasiyaların çoxşaxəli olması ilə ölçülür. Bu da özünü dil elementlərinin informasiyaya uyğun sıralanmasında təcəssüm etdirir. Q.Kazımov bunu nəzərə alaraq söz sırasının iki başlıca funksiyasını fərqləndirir [10, s.163]. Bunlardan birincisini sintaktik-semantik, ikincisini isə üslubi funksiya adlandırır. Belə çıxır ki, dildəki məntiqilik, ritorizm, poetizm, nominativizm, aktualaşma, koqnitiv-psixoloji aspektlərin hamısı bu istiqamətlər üzrə funksionallaşır.

İnversiya və onun üslubi-emosional xüsusiyyətlərindən bəhs etdikdə onu da nəzərə almaq lazımdır ki, bu dil hadisəsi bədii mətndə yazıçı və personajların dilində müşahidə edilir. Yazıçı dilində inversiya hadisələri, situasiyanı və personajları xarakterizə edir. Personajların dilində işlənən inversiyada isə onların daxili aləmi, duyğu və hissləri, dünyagörüşü və şəxsi keyfiyyətləri qabarıqlaşdırılır. İnversiyadan həm nəsr və həm də nəzm əsərlərində bədii informasiyaları qabarıqlaşdırmaq üçün istifadə edilir. Nəsr dilində inversiya nəsrin təhkiyə dilini poetikləşdirir, poetik dildə isə daha çox müəllif tərəfindən təsvir edilən hadisə, situasiya və bədii obrazlar canlandırılır. Nəsr dilində yazıçının hadisələri, situasiyaları, yerli koloriti canlandırmasına dair aşağıdakı kimi nümunələri misal göstərmək olar: "*Tağlarda düzülübdür çox bərni və hədsiz çini qab. Taxçalarda düzülübdür bir neçə samovar, sandıqça, qəlyan, dörd-beş kəllə rus qəndi və xırdavat şeyləri*" [12, s.54]. "*Həsən kişi bu dünyada nədən qorxurdu? Özünün ölməyindən qorxurdu. Qorxurdu ki, bir gün ölər, kəhər at bu dünyada tək-tənha qalar*" [15, s.462]; "*Budur, Mirzə Nəsib, iranlı qoca kişi yuxarı başda əyləşib qabağında bir dəstə çubuq, gözlərində eynək uşaqlara məşq başı yazmağa məşğuldur*" [7, s.7].

Bu nümunələrdən göründüyü kimi onların hər birində yazıçı təsviri verilir. Təsvirdə həm hadisələrə və həm də personajlara aid xarakter əlamətlər cümlə üzvlərinin inversiyası üzrə qabarıqlaşdırılır. Oxucunun diqqəti yazıçının təsvir etdiyi hadisələrə cəmləşdirilir. Bu halda oxucu özünü sadəcə kənar bir şəxs kimi, oxucu kimi yox, həm də hadisələrin iştirakçısı kimi hiss edir, bir sözlə, özünü təsvir edilən

hadisələrin içərisində görür. Yazıçının təsvirində cümlə üzvlərinin inversiyası yolu ilə personajların da şəxsləndirilməsi, onların xarakterik cizgilərinin qabarıqlaşdırılması obrazların daxili aləminin canlandırılması baxımından mühüm əhəmiyyət kəsb edir. Bu halda oxucunu inversiyanın quruluşu və ya tərtibatı yox, obrazın canlandırılması cəlb edir. Həmçinin, bu canlandırılma fonunda xüsusi bir cümlə ahəngdarlığı baş verir ki, burada da poetik bir vüsət yaradılmış olur. Bu cəhətdən aşağıdakı kimi nümunələrdə diqqəti çəkən məqamları müşahidə etmək olur: [hacı Qara] "*Allah kəssin belə bazarı? Belə alış verişi! Evin dağılsın, çit satan! Qapın çırpılsın, şilə verən! Çadra verən!*" [3, s.6]. "*Qurana and olsun, peyğəmbər haqqı oğlu Bəşirin toyun görməyim, yalan deyirəmsə tamam Ağcabədidə bundan yaxşı qədək və çit heç kimdə tapmazsınız*" [3, s.7]; "*Bircə mənə de görüm, sən nəyə lazımsan, oturubsan bu fındığın, şabalıdın içində, özünü də çəkibsən, elə bilirsən adamsan?*" [7, s.15]. "*İndi mən gedib tutaq ki, ziyarət edib gəlmişəm evimə, sən nə deyirsən, gəlməzsən, mənim görüşümə?*" [12, s.49]. "*Həsən kişi nə deyirdi? – Deyirdi ki, bu külli-aləm ibarətdi xırda-xırda dünyalardan*".

Bu nümunələrdən göründüyü kimi, personajların dilində inversiyadan istifadə onların daxili aləminin açılması üçün bir vasitə kimi işlənmişdir. Eyni zamanda, burada inversiyanın emosionallıqla müşayiət edilən tərtibatında poetizm diqqəti cəlb edir. İnversiyanın obrazların dilində yaratdığı bədii informasiya mühiti həm də danışıq dilinə aid əlamətlərlə təcəssüm olunur ki, bu da hadisələrin təfərrüatını bir daha canlandırır. Təsadüfi deyildir ki, inversiya barədə aparılan tədqiqatlarda bu üslubi fiqur vasitəsi ilə danışıq dili aurası yaradılması təqdir olunur. Personajların dilində inversiya ümumiyyətlə təsvir, təhkiyə dilini bir növ, danışıq, xalq dilinin sintaktik-üslubi bir vasitəsinə çevirir [9, s.25].

İnversiya bədii nəsrdə təsvirin və təhkiyənin intensivləşdirilməsi yolu ilə poetizm yaratdığı kimi, poetik nümunələrdə də müəllifin təsvir etdiyi hadisə, situasiya və obrazlarla bağlı güclü bir poetik mənzərə yaradır. Burada da iki əsas məqam diqqəti cəlb edir. Birincisi, sənətkarın hadisə və situasiya ilə bağlı təxəyyülünün, təsəvvürünün canlandırılmasıdır ki, bu üsulla poetizm daha da rəngarəng təravət qazanır. Buna aid aşağıdakı kimi nümunələri misal göstərmək olar:

"*Biz doymadıq yarın şirin dilindən*
Şəkər parçasından, ləli-bağından" [16, s.20].
Mətləbidir bir növrəstə könlümün
Olmadı dərmanı, xəstə könlümün [16, s.15].

İkincisi isə sənətkarın təsvir etdiyi, obrazlaşdırdığı şəxslə bağlı yaratdığı poetik mənzərədir. Buna aid aşağıdakı nümunəni misal göstərmək olar:

Tovuz kimi qalxdın çeşmə başından
Cəmi gözəllərin gözəli Güllü!
Almadı yanağın, büllur buxağın
Dodaqların meyli, məzəli, Güllü! [4, s.90].

Göründüyü kimi, inversiya dildə pərakəndəlik deyil, üslubi ekspressivlik yaradan, hadisə, situasiya və obrazları poetikləşdirən, təsviri xalq dili elementləri ilə canlandıran, daxili hiss və duyğuların əzəmətli bir bədii mənzərəsini yaradan ekstralinqvistik vasitədir.

İstifadə edilən ədəbiyyat

1. Ağayeva (Quliyeva) A. Müasir Azərbaycan ədəbi dili üslublarının qarşılıqlı əlaqəsi. Filol.elm.dokt.dis.avtoreferatı. Bakı, 2011, 43 s.
2. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Qərbi Azərbaycan İcmasının İnzibati binasında yaradılan şəraitlə tanış olduğu zaman çıxışı. President.az/az/articles/view/58330.
3. Axundov M.F. Sərgüzəşti-Mərdi-Xəsis (hacı Qara): azeri.org/Azeri/az-latin/latin-az-literature/drama/mirza-fateli-akhundov-az/akhundov-hagiqara.pdf.
4. Aşıq Ələsgər. Əsərləri dastan - rəvayətlər, xatirələr. Bakı, Şərq - Qərb, 1999, 578 s.
5. Cavadov Ə. Müasir Azərbaycan dilində sintaktik vahidlərin sırası. Bakı, Elm, 1977, 112 s.
6. Eyyubova A.İ. Mətnin struktur-semantik yarusunda söz sırası inversiyasının üslubi xarakteri. Bakı Qızlar Universiteti. Elmi əsərləri. Cild 12, №3, 2021. (47) s.92-97.
7. Haqverdiyev Ə. Seçilmiş əsərləri. 2 cilddə, II cild, (hekayələr). Bakı, Lider nəşriyyat, 2005, 408 s.
8. Xəlilov B. Müasir Azərbaycan dili sintaksis. Bakı, Adiloğlu, 2017, 428 s.
9. İslamzadə M.İ. Müasir Azərbaycan bədii nəsrində xalq dilinin bəzi sintaktik-üslubi vasitələri. Bakı Universitetinin Xəbərləri, Humanitar Elmlər seriyası, №1, 2006, s.25-30.
10. Kazımov Q. Müasir Azərbaycan dilinin sintaksisi. Bakı, Təhsil, 2007, 496 s.
11. Qasımova T.S. Sadə cümlənin məqsəd və intonasiyaya görə söz sırası: aem.az/uplouds/files/2022-10/1666 986 973-elmiiş-9 pdf.
12. Məmmədquluzadə C. Əsərləri. 4 cilddə, I c.,Bakı, Öndər nəşriyyat, 2004,664 s.
13. Mehdixanlı K.Ə. İngilis və Azərbaycan dillərində inversiya. Filol.üzrə fəlsəfə dokt.diss.avtoreferatı. Bakı, 2018, 29 s.
14. Nağıyeva T. Cümlədə söz sırası sintaktik təkamülün aspektlərindən biri kimi.//Elmi Tədqiqat Beynəlxalq Elmi jurnalı: İmpakt Faktor. 1.172.2024/cild 4, sayı 9/20-24.
15. Rövşən R. Nəfəs. Kitablar kitabı. Bakı, Qanun, 2006, 760 s.
16. Vaqif M.P. Əsərləri. Bakı, Şərq-Qərb, 2004, 264 s.

Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu, *ISSN 2224-9257*
Filologiya məsələləri № 3, 2025
Səh. ——————

Əhmədova Aytən Arzulla qızı

İNVERSİYA POETİZM YARADAN ÜSLUBİ FİQUR KİMİ

Xülasə

İnversiya dil elementlərinin cümlə daxilindəki yerdəyişməsi deməkdir. Cümlə daxilindəki yerdəyişmə təsvir olunan hadisə, situasiya və obrazlarla bağlı informasiyaları intensivləşdirir. İnversiya zamanı cümlə daxilindəki sintaktik elementlərdə yerdəyişmə baş verir. Lakin bu zaman cümlədə məna pozulması yaranmır, əksinə cümlədə poetik mənzərə canlanır. İnversiya bədii mətnlərdə bədii təfəkkürün ifadə vasitəsinə çevrilir. Cümlədə informasiya intensivliyinin ifadə vasitəsi kimi işlənən inversiya üslubi fiqur vəzifəsini yerinə yetirir. İnversiya hadisəsinin baş verməsi həm nəsr, həm də nəzm, poeziya nümunələrində müşahidə edilir. Nəsr nümunələrində inversiya mətnin, mətni təşkil edən cümlələrin ekspressiv-emosional təsirini artırır, tonal ahəngdarlıq yaradır və nəsr nümunələrinin poetikləşdirilməsinə zəmin yaradır. Poetik nümunələrdə isə inversiya poetik mənzərəni qat-qat canlandırır. İnversiya həm yazıçının, sənətkarın təsvirində, həm də personajların dilində işlənir. Yazıçı, sənətkar dilində inversiya təsvir olunan hadisə, situasiya və obrazlar barədə informasiya intensivliyi yaradır, oxucu diqqətini özünə cəlb edir. Personajların dilində işlənən inversiya isə onların daxili aləminin canlandırılmasına xidmət edir. Üslubi fiqur kimi baş verən inversiya üslubi sintaksisin, eyni zamanda intensional qrammatikaların tədqiqat obyekti kimi nəzərə alınır.

Ahmadova Aytan

INVERSION AS A STYLISTIC FIGURE CREATING POETISM

Abstract

Inversion refers to the rearrangement of language elements within a sentence. Shifting within a sentence intensifies information about the event, situation, and images being described. During inversion, there is a rearrangement of syntactic elements within the sentence. However, this does not lead to a distortion of meaning, on the contrary, it creates a poetic imagery within the sentence. Inversion becomes a means of expressing artistic thinking in literary texts. Inversion, which is used as a means of expressing information intensity in a sentence, performs the task of a stylistic figure. The occurrence of inversion is observed both in prose and in the examples of verse, poetry. In prose examples, inversion enhances the expressive-emotional impact of the text and the sentences that make up the text, creates tonal harmony, and lays the foundation for the poeticization of prose. In poetic examples, inversion vividly enhances the poetic imagery. Inversion is used both in the descriptions of the writer or artist and in the language of the characters. In the language of the writer or artist, inversion creates an intensity of information about the described event, situation, and characters, drawing the reader's attention. The inversion used in the characters' language serves to bring their inner world to life.

Azərbaycan Milli Elmlər Akademiyasi M. Füzuli adına Əlyazmalar Institutu, *ISSN 2224-9257*
Filologiya məsələləri № 3, 2025
Səh. ————————

ИНВЕРСИЯ КАК СТИЛИСТИЧЕСКАЯ ФИГУРА, СОЗДАЮЩАЯ ПОЭЗИЗМ

Аннотация

Инверсия относится к изменению порядка языковых элементов в предложении. Перестановка внутри предложения усиливает информацию о событии, ситуации и образах, которые описываются. При инверсии происходит перестановка синтаксических элементов в предложении. Однако это не приводит к искажению смысла, напротив, создает поэтический образ в предложении. Инверсия становится средством выражения художественного мышления в литературных текстах. Инверсия, используемая как способ усиления информации в предложении, выполняет функцию стилистической фигуры. Возникновение инверсии наблюдается как в прозе, так и в примерах стиха, поэзии. В примерах прозы инверсия усиливает экспрессивно-эмоциональное воздействие текста и предложений, составляющих текст, создаёт тональную гармонию и закладывает основу для поэтизации прозы. В поэтических примерах инверсия ярко усиливает поэтический образ. Инверсия используется как в описаниях писателя или художника, так и в языке персонажей. В языке писателя или художника инверсия создает интенсивность информации о описываемом событии, ситуации и персонажах, привлекая внимание читателя. Инверсия, используемая в языке персонажей, помогает оживить их внутренний мир.

RƏYÇİ: Mübariz İmran oğlu Yusifov
filologiya elmləri doktoru, professor

Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu, *ISSN 2224-9257*
Filologiya məsələləri № 3, 2025
Səh. ————————

TURAL RÖVŞƏN OĞLU ƏSKƏROV
Odlar Yurdu Universiteti
999a.tural@gmail.com

NƏBİ XƏZRİ LİRİKASINDA SİNONİMLƏRİN FUNKSİONALLIĞI

Xülasə

"Nəbi Xəzri lirikasında sinonimlərin funksionallığı" mövzusunda aparılan bu araşdırmada şairin poetik dilində sinonimlərin rolu və onların bədii mətn daxilindəki funksiyaları geniş şəkildə təhlil edilir. Tədqiqatın əsas məqsədi Nəbi Xəzrinin lirikasında sinonimlərin dilin ifadə imkanlarını necə zənginləşdirdiyini, fikir və emosiyaların daha təsirli çatdırılmasına necə xidmət etdiyini üzə çıxarmaqdır.

Ədəbi nümunələr əsasında müəyyən olunur ki, Nəbi Xəzri sinonimləri yalnız eyni mənanı ifadə edən sözlər kimi deyil, müxtəlif üslubi çalarlar və emosional təsir gücü daşıyan vasitələr kimi də istifadə edir. Şairin yaradıcılığında sinonimlər poetik dili daha rəngarəng, ahəngdar və emosional cəhətdən güclü etmək məqsədilə seçilir. Onlar şeirlərdə obrazların dərinləşdirilməsi, fikrin incələşdirilməsi və ifadənin təsirinin artırılmasında mühüm rol oynayır.

Nəticə etibarilə, bu mövzu üzrə aparılan tədqiqat Nəbi Xəzrinin poetik irsində sinonimlərin funksionallığını üzə çıxarır və onların estetik-bədii dəyər baxımından şairin lirikasında əhəmiyyətli yer tutduğunu göstərir. Bu da onun dilə münasibətini və sənətkarlıq məharətini daha yaxından dərk etməyə imkan verir.

Açar sözlər: lirika, sinonimlər, funksionallıq, poetik dil, bədii təsir, üslub, emosional ifadə, sinonimləşmə.

Tural Askarov

The functionality of synonyms in Nabi Khazrı's lyrıcs

Abstract

This study, titled "The Functionality of Synonyms in Nabi Khazri's Lyrics," analyzes the role of synonyms in the poet's literary language and their functions within the poetic text. The main aim of the research is to reveal how synonyms enrich the expressive capacity of language in Nabi Khazri's lyrics and contribute to conveying thoughts and emotions more effectively.

Based on literary examples, it is established that Nabi Khazri uses synonyms not only as words with similar meanings but also as stylistic tools carrying various emotional and expressive nuances. In his creative work, synonyms are chosen to make the poetic language more vivid, harmonious, and emotionally powerful. They play a significant role in deepening images, refining meaning, and enhancing the overall impact of expression in his poems.

As a result, the research highlights the functionality of synonyms in Nabi Khazri's poetic heritage and demonstrates their important place in terms of aesthetic

and artistic value in his lyrical works. This, in turn, provides a deeper understanding of his linguistic approach and artistic mastery.

Key words: lyrics, synonyms, functionality, poetic language, artistic effect, style, emotional expression, synonymization.

Giriş

Bədii ədəbiyyatın ən mühüm ifadə vasitələrindən biri olan dil, şairin və yazıçının estetik düşüncəsini, dünyagörüşünü və hiss dünyasını oxucuya çatdıran əsas vasitədir. Bu baxımdan, dilin leksik imkanlarından məharətlə istifadə etmək, xüsusilə sinonimlərin funksional cəhətdən düzgün və yerində işlədilməsi bədii əsərin təsir gücünü artıran əsas amillərdəndir. Sinonimlər poetik dildə ifadənin dəqiqliyini, obrazların rəngarəngliyini və emosional zənginliyini təmin edən leksik vasitə kimi mühüm əhəmiyyətə malikdir.(Əliyev, K. 2013)

Azərbaycan ədəbiyyatında özünəməxsus yeri olan Nəbi Xəzri bədii-estetik düşüncəsi, fəlsəfi dərinliyi və poetik dili ilə seçilən qüdrətli söz ustadıdır. Onun lirikasında vətən sevgisi, təbiətə heyranlıq, insanın daxili aləmi, mənəvi-əxlaqi dəyərlər geniş şəkildə əks olunur. Nəbi Xəzrinin poetik dili zəngin və çoxqatlıdır. Bu zənginliyin əsas mənbələrindən biri də sinonimlərdir. Şair sinonimlər vasitəsilə fikirlərinə əlavə məna çalarları qazandırır, hiss və duyğuları daha təsirli şəkildə oxucuya çatdırır, poetik dilin axıcılığını və ahəngini qoruyur.

Bu tədqiqat işində Nəbi Xəzri lirikasında sinonimlərin funksionallığı müxtəlif aspektlərdən təhlil edilir. Əsas məqsəd onun poetik mətnlərində sinonimlərin məna dərinliyinin artırılmasına, bədii təsirin gücləndirilməsinə və ifadə imkanlarının genişləndirilməsinə necə xidmət etdiyini araşdırmaqdır. Mövzu həm dilçilik, həm də ədəbiyyatşünaslıq baxımından aktualdır. Çünki sinonimlərin poetik mətnlərdə istifadəsinin sistemli şəkildə təhlili həm dilin bədii imkanlarının, həm də şairin yaradıcılıq fərdiyyətinin daha dərindən öyrənilməsinə imkan yaradır.

Beləliklə, bu işdə Nəbi Xəzrinin lirikasında sinonimlərin estetik və funksional dəyəri, onların şeirin ümumi strukturundakı rolu və poetik təfəkkürlə əlaqəsi geniş şəkildə işıqlandırılır.

Aparılan tədqiqatın nəticəsi olaraq müəyyən edilmişdir ki, Nəbi Xəzri lirikasında sinonimlər yalnız eyni və ya oxşar mənalı sözlərin istifadəsi ilə məhdudlaşmır, əksinə, onlar şairin poetik dünyagörüşünü, estetik zövqünü və dilə bədii yanaşma tərzini əks etdirən mühüm vasitələr kimi çıxış edir. Şair sinonimlərdən istifadə etməklə poetik nitqə emosional çalarlar, ritmik ahəng, mənəvi dərinlik və estetik gözəllik qatır. Bu isə onun yaradıcılığında dilin obrazlılıq imkanlarının maksimum səviyyədə reallaşmasına səbəb olur.

Tədqiqat zamanı məlum olmuşdur ki, Nəbi Xəzri sinonimləri məqsədli şəkildə seçərək onların semantik və üslubi fərqlərindən yararlanır. Sinonimlər poetik ifadələrin gücləndirilməsində, obrazların zənginləşdirilməsində, hiss və duyğuların daha incə şəkildə ifadəsində xüsusi rol oynayır. Onlar həm də şairin fikirlərinə

müxtəlif məna çalarları əlavə etməklə, poetik mətnin çoxqatlı mənalandırılmasına şərait yaradır. (Məmmədov, M. 2010)

Bundan əlavə, Nəbi Xəzri lirikasında sinonimlərin istifadəsi şairin milli dilin imkanlarına dərindən bələd olduğunu, klassik ədəbi ənənələrlə müasir poetik düşüncə arasında uğurlu bir körpü yaratdığını da nümayiş etdirir. Bu da onun yaradıcılığını həm məzmun, həm də forma baxımından zəngin və təsirli edir.

Nəticə olaraq demək olar ki, sinonimlərin funksionallığı Nəbi Xəzri poeziyasının əsas bədii-estetik komponentlərindən biri kimi çıxış edir. Şairin lirikasında bu leksik vasitələrin məqsədyönlü və məharətli şəkildə istifadəsi onun dil duyumunun zənginliyini, poetik təfəkküründün dərinliyini və sənətkarlıq məharətini bir daha sübut edir. Bu xüsusiyyətlər Nəbi Xəzrinin Azərbaycan poeziyasındakı mühüm mövqeyini və sənətkarlıq irsini daha da dəyərləndirir.

Tədqiqat

Müasir Azərbaycan ədəbiyyatında xüsusi yer tutan Nəbi Xəzri yalnız fəlsəfi və ictimai məzmunlu əsərləri ilə deyil, həm də zəngin poetik dili ilə seçilən sənətkarlardandır. Onun lirikasında dilin bədii-estetik imkanlarının yüksək səviyyədə reallaşması, şairin sözə olan münasibətinin, dil duyumunun və poetik düşüncəsinin təzahürüdür. Bu baxımdan, Nəbi Xəzrinin yaradıcılığına sinonimlərin istifadəsi kontekstində yanaşmaq olduqca maraqlı və aktualdır. Sinonimlər onun şeirlərində dilin emosional təsir gücünü artıran, fikri daha incə və dərin ifadə etməyə xidmət edən əsas leksik vasitələrdəndir.

Araşdırmalar göstərir ki, Nəbi Xəzri sinonimləri yalnız eyni mənalı sözlərin bir-birini əvəz etməsi kimi yox, müxtəlif üslubi çalarlar və semantik dərinliklər yaradan ifadə vasitəsi kimi işlədir. Məsələn, “qəm – kədər – hüzn”, “sevgi – məhəbbət – eşq” kimi sinonim sıraları şairin fikirlərinə həm ritmik zənginlik, həm də emosional çalarlar əlavə edir. Bu sözlər mətn daxilində fərqli kontekstlərdə işlədilərək poetik fikrin dolğun şəkildə ifadəsinə zəmin yaradır. Bu da göstərir ki, sinonimlər yalnız leksik təkrarçılığın qarşısını almaq üçün deyil, bədii fikrin daha təsirli və estetik çatdırılması üçün seçilir. (Rüstəmov, B. 2015)

Bundan əlavə, Nəbi Xəzri lirikasında kontekstual sinonimlərə də geniş yer verilir. Eyni anlayış fərqli sözlərlə ifadə olunur, lakin bu sözlər konkret kontekstdə əlavə mənalar, xüsusi ovqat və bədii çalarlar yaradır. Bu cür sinonimlər şairin lirikasında semantik və üslubi zənginliyi təmin edir. (Qarayev, İ.2004)

Nəbi Xəzrinin şeirlərində sinonimlərin funksionallığı həm də onun poetik üslubunun rəngarəngliyini ortaya qoyur. Onun lirikasında sinonimlər vasitəsilə obrazlar daha canlı təsvir olunur, fikirlər daha emosional təqdim edilir, şeirin ahəngi və ritmik quruluşu daha təbii və axıcı olur. Sinonimlərin bədii strukturdakı bu rolu həm dilçilik, həm də ədəbiyyatşünaslıq baxımından əhəmiyyətlidir.

Tədqiqat nəticəsində məlum olur ki, Nəbi Xəzrinin lirikasında sinonimlər poetik dili bəzəyən ünsürlər olmaqla yanaşı, həm də şeirin məzmununu dərinləşdirən, fikir və hissləri daha təsirli şəkildə çatdıran funksional vasitələr kimi çıxış edir. Şairin bu

yanaşması onun poetik təfəkküründə dərinliyini, dilə olan yaradıcı münasibətini və bədii-estetik baxışlarını əks etdirir.

Nəticə olaraq, sinonimlərin funksionallığı Nəbi Xəzrinin lirikasında dilin poetik imkanlarının genişliyini, bədii fikrin gücünü və sənətkarlıq ustalığını göstərən mühüm göstəricilərdən biridir. Bu da şairin Azərbaycan ədəbiyyatındakı mövqeyini daha da möhkəmləndirir və onun yaradıcılığının dilçilik baxımından da dəyərli tədqiqat obyekti olduğunu sübut edir.

Nəticə

Aparılan tədqiqat nəticəsində aydın olmuşdur ki, Nəbi Xəzrinin lirikasında sinonimlərin funksionallığı onun poetik dilinin əsas bədii-estetik dayaqlarından birini təşkil edir. Şairin bədii təfəkküründə sinonimlər təkcə eyni və ya yaxın mənalı sözlərin işlədilməsi ilə məhdudlaşmır, əksinə, bu leksik vahidlər poetik mətnin emosional-üslubi dərinliyini, fikir yükünü və təsir gücünü artırmaq məqsədilə məqsədyönlü şəkildə istifadə olunur.

Tədqiqatda qeyd olunduğu kimi, sinonimlər Nəbi Xəzri lirikasında bir neçə funksiyanı yerinə yetirir: birincisi, leksik təkrarçılığın qarşısını alır; ikincisi, fikir və hisslərin müxtəlif çalarlarda ifadəsinə imkan verir; üçüncüsü, poetik nitqin axıcılığına, ahənginə və ritminə müsbət təsir göstərir; dördüncüsü isə, poetik obrazların mənəvi-estetik zənginliyini təmin edir. Bu da şairin dilə yaradıcı yanaşmasının, söz seçiminin şüurlu şəkildə həyata keçirilməsinin və poetik düşüncəsinin yüksək səviyyədə olmasının göstəricisidir.

Nəbi Xəzrinin lirikasında işlədilən sinonimlər arasında leksik, kontekstual və stilistik sinonimlər geniş yer tutur. Bu sinonimlər şairin poetik ifadə vasitələrini daha rəngarəng və çoxşaxəli edir. Onların vasitəsilə yaradılan poetik təsvirlər, hiss və duyğuların təqdimatı oxucuda dərin emosional təsir yaradır və mətnin estetik dəyərini artırır.

Tədqiqat eyni zamanda göstərir ki, sinonimlər vasitəsilə şairin milli-mənəvi dəyərlərə münasibəti, insana və təbiətə baxışı, həyat fəlsəfəsi və vətən sevgisi daha təsirli şəkildə oxucuya ötürülür. Bu cəhətlər Nəbi Xəzrinin lirikasının ideya-məzmun zənginliyini və poetik dəyərini bir daha nümayiş etdirir.

Ümumilikdə, sinonimlərin funksionallığının öyrənilməsi Nəbi Xəzrinin poetik dünyasını daha dərindən dərk etməyə, onun dil və üslub xüsusiyyətlərini daha dəqiq təhlil etməyə imkan yaradır. Bu nəticələr onu deməyə əsas verir ki, sinonimlər Nəbi Xəzri lirikasında həm məzmun, həm forma baxımından bədii bütövlüyün yaranmasında mühüm yer tutur və şairin sənətkarlıq irsinin zənginliyini sübut edən əsas göstəricilərdən biridir.

Ədəbiyyat

1.Xəzri, Nəbi. Seçilmiş Şeirlər. Bakı: Yazıçı, 1978.

2.Hüseynov, V. Azərbaycan Poeziyasının Estetikası. Bakı: Elm, 2005.

3.Abbasov, F. Azərbaycan Ədəbiyyatında Sinonimlər və Onların Funksiyaları. Bakı: Təhsil, 2002.

4.Məmmədov, M. Poetik Dil və Leksik Seçim: Nəbi Xəzri nümunəsi. Bakı: Elm və Təhsil, 2010.

5.Quliyev, S. Azərbaycan Şeirində Dil və Düşüncə. Bakı: Şərq-Qərb, 2007.

6.İsmayılov, R. Bədii Dil və Sinonimlər. Bakı: Nurlan, 2009.

7.Səmədov, A. Sinonimlərin Poeziyada Funksionallığı. Bakı: Maarif, 2012.

8.Rüstəmov, B. Nəbi Xəzri və Azərbaycan Modernizmi. Bakı: İrs, 2015.

9.Qarayev, İ. Azərbaycan Poeziyasının Semantik Zənginliyi. Bakı: Azərbaycan Dövlət Nəşriyyatı, 2004.

10. Həsənov, Z. Azərbaycan Şeirində Emosional Təsir və Dilin Funksiyası. Bakı: Azərbaycan Yazıçılar Birliyi, 2011.

11. Əliyev, K. Sinonimlərin Poetika və Estetik Funksiyaları. Bakı: Təhsil Nəşriyyatı, 2013.

12. Məmmədli, R. Nəbi Xəzri və Müasir Azərbaycan Poeziyası. Bakı: Elm və Nəşriyyat, 2018.

Rəyçi: filologiya üzrə fəlsəfə doktoru Nizami Adışirinov

Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu, *ISSN 2224-9257*
Filologiya məsələləri № 3, 2025
Səh. ————————

SADIXOVA SARIGÜL ORUC
ADPU
sarigulsadixova1960@gmail.com

İNGİLİS DİLİNDƏ SUFFİKSLƏRİN TƏHLİLİ

XÜLASƏ

Dilçiliyin özünün bir elm kimi inkişafı mədəniyyətin inkişafından xəbər verir. Bütün elmlər mədəni inkişafın nəticəsidir.Onların hamısı bu və ya digər dərəcədə mədəniyyətin inkişafına xidmət edir. Mədəniyyətin elə bir sahəsi yoxdur ki, orda dildən istifadə edilməsin.

Tətbiqi dilçiliyin tərcümə nəzəriyyəsi dünya elm və ədəbiyyatı ilə tanış olmaq üçün lazım olan tərcümə işlərini düzgün istiqamətləndirir və onun elmi – metodoloji əsaslarını hazırlayır.

Xarici dillərin öyrənilməsində də dilçilik əvəzsiz rol oynayır. Məlumdur ki, dili iki yolla öyrənmək mümkündür. Birinci, dilin öz qrammatik quruluşundan öyrənilməsidir. Xarici dili həm mükəmməl elmi əsaslarla, həm də qrammatika vasitəsilə öyrənmək üçün dilçilik problemlərini yaxşı bilmək lazımdır.

Beləliklə, qəti demək olar ki, morfoloji üsulla sözlərin əmələ gəlmə prosesi sintaktik üsulla olan bu prosesin davamı olub, ondan törəmiş və sonra meydana gəlmişdir. Bununla belə, morfoloji yolla sözlərin əmələ gəlmə prosesi öz mənşəyinə bağlı olaraq məhdud bir dairədə qalmamış, olduqca inkişaf etmişdir.

Açar sözlər: dilçilik, metod, funksiya, köməkçi söz, tərcümə nəzəriyyəsi, tədqiqat.

Suffikslərin tədrisi zamanı aşağıdakı çalışmalardan istifadə etmək olar:

1. She had no particular üish to go home, it wasn’t just then a very agreeable place (Painted Veil, p.33).
2. “Oh, something like charming – boy – poor dear mother & I absolutely inseparable (The Picture of Dorian Gray, p.37).
3. “Of course they are charitable (The Picture of Dorian Gray, p.27).
4. There were good ones & the sensible ones, and they deserved it (A Farewell to Arms, p. 207.)
5. … and into my ear, in a tragic whisper which must have been perfectly audible to everybody in the room (The Picture of Dorian Gray, p. 37).
6. She told me she had discovered a wonderful young men, who was going to help her (The Picture of Dorian Gray, p. 33).
7. He was certainly wonderfully handsome with his frank blue eyes (The Picture of Dorian Gray, p. 35).
8. “Henry, you are quite delightful & dreadfully demorilising (The Picture of Dorian Gray, p. 64).
9. He was bareheaded (The Picture of Dorian Gray, p. 40).

10. I have a boy of fifteen, I'm a middle aged gent (The Picture of Dorian Gray, p. 40).

11. He was well-dressed, best-dressed man in the room (The Picture of Dorian Gray, p. 46).

12. ''I mean to say that me Jews have a Jewish God (The Part of Thunder, p.5).

13. ''Jim was a childish corruption of her curious baptismal name: Jennifer (The Gadfly, p. 59).

14. Martha took the situation & piped out childishly (Gemmie Gerhardt, p.41).

15. Josing hope of overtaking her, & suddenly recognizing her simple, girlish shame (Gemmie Gerhardt, p.42).

16. Broken fragments of images & fanius followed each other (The Gadfly, p. 263).

17. No one suspected that stores of forbidden merchandise were often kept, for weeks together (The Gadfly, p. 260).

18. Then, through the shrieking of the panic-stricken people, came a loud voice of the officer in command (The Gadfly, p.241).

19. They immediately rose & followed him each man with one hand on the hidden pistol (The Gadfly, p. 240).

20. But I can very clearly see you dyeing nobly, one may or another, for some highly unworthy cause (The Cather in the Rye of Dorian Gray, p. 190).

21. Jocarno is very attractive place (A Farewell to Arms, p. 246).

22. From the long eyebrows & sensitive mouth to the small hands feet, everything was too much chiseled (Gadfly, p. 29).

23. ''It is awfully impressive, he said (A Farewell to Arms, p.135).

24. Jord Henry sipped his champagne in a meditative manner (The Picture of Dorian Gray, p.201).

25. ''I am told that pork-packing is the most lucrative profession in America, after politics (The Picture of Dorian Gray, p. 56).

Leksika ilə qrammatikanın qarşılıqlı münasibətini, dilin qrammatik sistemində leksikanın əsas yer tutduğunu nəzərə alaraq hər iki sahənin quruluşunda böyük rol oynayan şəkilçiləri əsas dörd qrupa ayırmaq olar:

1. leksik şəkilçilər;
2. leksik-qrammatik şəkilçilər;
3. qrammatik-leksik şəkilçilər;
4. qrammatik şəkilçilər.

Birinci qrupa malik olan şəkilçilər ancaq müəyyən məfhum ifadə edən leksik vahidlərin düzəlməsində iştirak edir və sözlər arasında qrammatik əlaqənin yaranmasına heç bir təsir göstərə bilmir.

İkinci qrupa mənsub olan şəkilçilər müəyyən məfhum ifadə edən yeni leksik vahidlər əmələ gətirməklə bərabər, bu vahidlərin başqa sözlərlə qrammatik əlaqəyə girməsi tələbini də özündə əks etdirir.

Üçüncü qrupa mənsub olan şəkilçilər artırıldığı sözlərdə əsasən müəyyən qrammatik kateqoriyaya mənsub olan məna bağları əmələ gətirdiyi kimi, eyni zamanda yeni bir məfhum ifadə etməyə də meyl göstərir. Dördüncü qrupa mənsub olan şəkilçilər artırıldığı sözlərdə ancaq bu və ya digər qrammatik kateqoriyanın funksiyasını yerinə yetirir. Bu qrupa ismin hal şəkilçilərini və şəxs sonluqlarını əlavə etmək olar. Leksik və leksik-qrammatik şəkilçilərdən bəziləri ancaq ismə və bəziləri ancaq felə aid olduğu halda, bəzi şəkilçilər isim, sifət və saylara da aid ola bilir. Bundan əlavə həmin şəkilçilərin bəzisi eyni nitq hissəsi daxilində yeni məfhum ifadə edən söz yaradırsa, bəzisi bir nitq hissəsindən başqa nitq hissəsinin yaranmasına xidmət edir. Bəzi şəkilçilər isə müxtəlif nitq hissələrini əmələ gətirir.

Leksik və qrammatik xüsusiyyətlərə görə şəkilçilərin bu cür qruplaşması, eyni zamanda hər qrupa mənsub şəkilçilərin özlərinə məxsus məna cəhətləri, sözlərin semantikası ilə olan münasibəti, nitq hissəsinə görə təsbiti və nəhayət, bu və ya digər qrupa mənsub şəkilçilər arasındakı məna bağlılığı (birinin digərinə keçməsi) bir dil sistemi əmələ gətirməklə leksika ilə qrammatika arasında olan yaxınlığı və sıx əlaqəni aydın göstərir.

İSTİFADƏ OLUNMUŞ ƏDƏBİYYAT

1. Л.С.Бархударов <<Очерки по морфологии современного английского языка>>. Москва, 1985, стр.42-48.
2. Р.Г.Зятковская <<Суффиксальная система современного английского языка>>. Москва, 1992,стр. 72-78.
3.A.Axundov. Ümumi dilçilik.Bakı,1980,səh. 22-35.
4.K.Hacıyev <<Azərbaycan dilində xüsusi nitq hissələri>>,Bakı, 1999, səh. 40-45.
5.Y.B.Antrushina ‘’English Lexicology’’, Moscow, 1985, p. 12-13, 18-32.
6.I.V.Arnold ‘’The English Word’’ Moscow, 1986, p. 80-85.
7.Ginsburg ‘’A course in Modern English Lexicology’’, Moscow, 1985, p.28-55
8. М.Карашук <<Словообразование английского языка>>, Москва, 1977, стр. 43-48.
9.Смирницкий <<Лексикология английского языка>>, Москва, 1982, стр. 34-38.

SADIKHOVA SARIGUL ORUJ QIZI

ANALYSIS OF SUFFIXES IN ENGLISH

SUMMARY

Keywords: linguistics, method, function, auxiliary word, translation theory, research.

The development of linguistics itself as a science indicates the development of culture. All sciences are the result of cultural development. All of them serve the development of culture to one degree or another. There is no area of culture where language is not used.

The translation theory of applied linguistics correctly directs the translation work necessary to get acquainted with world science and literature and prepares its scientific-methodological foundations. Linguistics plays an indispensable role in learning foreign languages. It is known that it is possible to learn a language in two ways. The first is the study of the language from its grammatical structure. In order to learn a foreign language both on a perfect scientific basis and through grammar, it is necessary to have a good knowledge of linguistic problems.In order to learn a foreign language on the basis of the natural material of the native language, it is necessary to use the method of comparison and reconciliation of linguistics. If this method of linguistics is not used, it will not be possible to teach a foreign language in the Azerbaijani audience. New words enrich the vocabulary due to grasping and matching. In modern language, a number of trends have emerged in foreign linguistics according to the methods used in the study of the language. Currently, these currents have their own special research methods in the study of language facts in different countries. They have a certain period of historical development and improvement. When explaining the process of suffixation of words, many scientists show that words with full meaning first take the place of auxiliary words, and finally, after losing the feature of living as words, they become an element with a grammatical function and become suffixes. Today, a number of facts that show the truth of this ruling, which is accepted as an axiom, occur in our language. This shows that a number of words that were once used as independent words in the language and are now used as auxiliary words are developing towards suffixation. Suffixes, especially the suffixes involved in the process of word creation, were formed not only by the words first replacing auxiliary words and then becoming suffixes, but at the same time by changing the phonetic composition of one of the words in the complex word and losing its independence. Thus, it can be definitely said that the process of formation of words by the morphological method was a continuation of this process by the syntactic method, it was derived from it and came into being later. However, the process of morphologically forming words did not remain in a limited circle due to its origin, but rather developed. In the modern language, this process has its own rich, both semantic and formal features. Therefore, in order to honestly understand the process of the formation of words by morphological means, both general and individual parts of speech of suffixes that make up its most abstract element It is necessary to study the world, the soul, and to know their groupings according to meaning and image.Thus, it can be definitely said that the process of formation of words by the morphological method was a continuation of this process by the syntactic method, it was derived from it and came into being later. However, the process of morphologically forming words did not remain in a limited circle due to its origin, but rather developed.

САДЫХОВА САРЫГЮЛЬ ОРУДЖ

АНАЛИЗ СУФФИКСОВ В АНГЛИЙСКОМ ЯЗЫКЕ

РЕЗЮМЕ

Ключевые слова: лингвистика, метод, функция, вспомогательное слово, теория перевода, исследование.

Развитие языкознания как науки свидетельствует о развитии культуры. Все науки являются результатом культурного развития. Все они в той или иной степени служат развитию культуры. Нет такой области культуры, где бы не использовался язык.

Теория перевода прикладной лингвистики правильно направляет переводческую работу, необходимую для ознакомления с мировой наукой и литературой, и подготавливает ее научно-методологические основы.

Языкознание играет незаменимую роль в изучении иностранных языков. Известно, что выучить язык можно двумя способами. Первый – это изучение языка с точки зрения его грамматического строя. Чтобы изучать иностранный язык как на совершенно научной основе, так и посредством грамматики, необходимо хорошо знать лингвистические проблемы.

Чтобы изучить иностранный язык на основе естественного материала родного языка, необходимо использовать метод сравнения и согласования языкознания. Если не использовать этот метод языкознания, невозможно будет преподавать иностранный язык азербайджанской аудитории. Новые слова обогащают словарный запас за счет схватывания и сопоставления.

Суффиксы, особенно суффиксы, участвующие в процессе словотворчества, образовывались не только путем замены слов сначала вспомогательными словами и затем превращения в суффиксы, но и одновременно путем изменения фонетического состава одного из слов в сложном слове и утраты ее независимость.

Таким образом, можно определенно сказать, что процесс образования слов морфологическим методом был продолжением этого процесса синтаксическим методом, произошел от него и возник позже. Однако процесс морфологического образования слов не оставался в ограниченном кругу в силу своего происхождения, а, наоборот, развивался. В современном языке этот процесс имеет свои богатые, как семантические, так и формальные особенности.

Rəyçi: filologiya üzrə fəlsəfə doktoru, dosent Elmira Əliyeva

Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu, *ISSN 2224-9257*
Filologiya məsələləri № 3, 2025
Səh. ——————

AYGÜL EYYUBOVA
ADU
E – mail:aygul-1991@list.ru

TƏDRISDƏ OXU TƏLIMINDƏ INTERAKTIVLIK PRINSIPININTƏTBIQI VƏ LEKSIK VAHIDLƏRIN MƏNIMSƏNILMƏSI YOLLARI.

Açar sözlər: *təlim ,tədris metodu, təhsil strategiyaları,diskussiya,interaktivlik prinsipi.*
Ключевые слова: *обучение, метод обучения, образовательные стратегии, дискуссия, принцип интерактивности.*
Key words: *training, teaching method, educational strategies, discussion, interactivity principle.*

Xarici dil tədrisinin orta və yuxarı mərhələlərində tələbələri mətn əsasında təşkil edilmiş diskursiyalara cəlb etməklə onlarda oxu vərdişləri ilə bərabər şifahi nitq, daha dəqiq desək, danışıq vərdişlərinin inkişaf etdirilməsi üçün müvafiq şəraiti yaratmış və beləliklə, interaktiv təlim prinsiplərinə riayət etmiş oluruq. Lakin, onu da demək lazımdır ki, bu növ tapşırıqla və ümumilikdə, bu istiqamətdə aparılan işə yüksək qiymət verən tədqiqatçı alimlərin bəziləri tələbələrə oxu vərdişlərinin deyil, daha çox danışıq vərdişlərinin aşılanmasının baş verdiyini sübut etməyə çalışır [1, s.6-11].

Mətn əsasında təşkil edilmiş, müzakirə xarakterli fəaliyyət növləri bilavasitə oxu ilə bağlı olduğundan, bu istiqamətdə tapşırıqların oxu təlimi prosesində yerinə yetirilməsi tələbələrdə, xüsusilə də dil fakültəsi tələbələrində oxu vərdişlərinin tələb edilən səviyyədə inkişaf etdirilməsini təmin edir. Biz oxunun kommunikativyönümlü təliminə interaktiv xarakterli tapşırıqların daxil edilməsini zəruri hesab edirik.

Məlum olduğu kimi, kommunikativ təlimi təşkil edən əsas prinsiplərdən biri məhz interaktivlik prinsipidir. Hər hansı xarici dilin, xüsusilə də qlobal miqyasda əsas ünsiyyət dili statusu əldə etmiş ingilis dilinin öyrədib-öyrənilməsində əsas məqsəd həmin dildən kommunikativ məqsədlərdə istifadə etmək qabiliyyətinə yiyələnməkdən ibarətdir [1, s.6-11].

Dilin aspektləri olan leksika, qrammatika, fonetika, eləcə də əsas nitq fəaliyyət növləri olan şifahi nitq, eşidib-anlama, yazı və oxunun öyrənilməsi özü-özlüyündə bir məqsəd kimi çıxış edə bilməz. Lakin, dilin aspektlərinə və nitq vərdişlərinə yiyələnmədən həmin dildən kommunikativ məqsədlərlə adekvat şəkildə istifadə etmək qabiliyyətinə yiyələnmək qeyri-mümkündür.

Dilin aspektlərinə gəldikdə, burada leksikanın tədrisinin rolu danılmazdır. Oxunun təlimindən danışarkən burada mübahisəli mövqe və ideyaların mövcudluğunu qeyd etmək lazımdır. Tədqiqatçılar həm ana, həm də xarici dildə

oxunun təlimində lüğətin əhəmiyyətini vurğulayaraq mətnin məzmununun başa düşülməsi üçün semantik əlaqələrin sintaktik əlaqələrilə müqayisədə vacib olduğunu qeyd edirlər. Oxu prosesini əhəmiyyətli dərəcədə çətinləşdirən amillərdən biri tələbələr tərəfindən dilin lüğətinin lazımi səviyyədə mənimsənilməməsidir. Tələbələrdə lüğət ehtiyatının məhdudluğu oxu prosesində çətinlik və problemlərə səbəb olur [2, s.87].

Məlum olduğu kimi, xarici dil öyrənən tələbələr lüğət vahidlərini iki əsas məqsədlərlə mənimsəməlidirlər: produktiv məqsədlə və reseptiv məqsədlə. Leksik vahidləri reseptiv məqsədlərlə öyrənən tələbələərin qarşısında duran məqsəd oxuduqları mətnləri və yaxud eşidilən nitqi başa düşməkdirsə, produktiv məqsədlə xarici dil sözlərini mənimsəyən tələbələrin qarşısında olan məqsəd mənimsənilmiş leksik vahidlərdən yaradıcı nitq prosesində istifadə etməkdən ibarətdir. Leksik vahidlərin mənimsənilməsində əsas məqsəd onlardan kommunikativ məqsədlərlə istifadə etməkdir. Eyni zamanda, hər bir söz həm semantik, həm də qrammatik mənaya malikdir. Misal olaraq "hope", "speak" və "softly" sözlərini gətirmək olar. Belə ki, "hope" sözünün semantik mənası "ümid"dir. Həmin sözün qrammatik mənasından danışarkən, onun qrammatik xüsusiyyətlərini məsələn, onun isim olduğunu göstərmək lazımdır.

Eyniliklə, "speak" və "softly" sözlərinin mənalarından danışarkən onların "danışmaq" və "mülayim" semantik mənaları ilə yanaşı, müvafiq olaraq, onların feil və zərf olduqlarını, yəni, daşıdıqları qrammatik mənalarını da göstərmək lazımdır. Eyni zamanda oxu təlimi prosesində aşağı kurs tələbələrini əsas mənaları məhz qrammatik məna olan, funksional, yəni dildə müxtəlif funksiyaları yerinə yetirən sözlər haqqında məlumatlandırmaq lazımdır. Bu qrupa köməkçi feillərin, artiklların, bağlayıcıların, sözönlərinin daxil olduğunu tələbələrə məlumat vermək lazımdır. Mətnin məzmununu adekvat şəkildə qavramaq və qrammatik cəhətdən düzgün danışmaq üçün dili öyrənən tələbə dildə müvafiq funksiyaları yerinə yetirən "köməkçi" sözləri bilməlidir.

Oxu prosesində diqqət mərkəzində olan əsas məsələ - məna daşıyan sözlərin kontekstual mənalarının tapılması yalnız reseptiv vərdişlərin inkişaf etdirilməsi məqsədini daşıyır. Lakin tədqiqatçıların fikrincə, sözlərin reseptiv və produktiv məqsədlərlə mənimsənilməsi arasında olan fərqləri müəyyənləşdirmək heç də asan deyil. Belə ki, bəzi tələbələr oxu təlimi prosesində mənimsəyən söz və söz birləşmələrini sonra nitq prosesində istifadə edir, bəziləri isə həm sözləri yalnız reseptiv səviyyədə mənimsəmiş olur və onlardan nitqlərində istifadə etmir [2, s.105].

Beləliklə, oxu tələbələrin produktiv lüğətinin zənginləşdirilməsi üçün müvafiq şəraiti yaradır. Müəllimin vəzifəsi isə əsas məna daşıyan, gələcəkdə kommunikasiya prosesində yaradıcı şəkildə istifadə edilməsi üçün vacib olan "açar" sözlərin, tələbələrin diqqətini cəlb edərək onlara xüsusi əhəmiyyət verilməsini tövsiyə etməkdir.

Xarici dil tədrisinin digər sahələrində olduğu kimi, lüğətin öyrədilməsində də əsas məqsəd "nəyi" və "necə" öyrətməkdir. Mənimsənilməli olan lüğət vahidlərinin müəyyənləşdirilməsi onların reseptiv və yaxud produktiv məqsədlərlə tədris

edilməsindən bilavasitə asılıdır. Produktiv istifadə məqsədi ilə mənimsənilməli olan sözlər iki əsas kriteriyaya əsaslanaraq seçilməlidir. Onlardan birincisi işlədilmə tezliyi göstəricisi, ikincisi isə çətinlik göstəricisidir.

İşlədilmə tezliyi göstəricisini müəyyənləşdirmək məqsədilə xüsusi lüğət və soraq kitabçalarına müraciət etmək lazımdır [3, s.34]. Lakin bu cür mənbələrə müraciət etməklə problemlərin həllini təmin etmək mümkün deyil. Bu cür soraq kitabçaları bu və ya digər təlim situasiyasında mənimsənilməli olan leksik vahidlərin seçilməsi prosesində müəllim və tələbələri istiqamətləndirmək məqsədilə, bir növ bələdçi kimi istifadə edilə bilər. Qeyd edildiyi kimi, müzakirə obyekti olan ikinci amil leksik vahidlərin çətinlik göstəricisidir. Adətən dil materiallarının təqdim edilməsi və mənimsənilməsindən danışarkən asandan çətinə, sadədən mürəkkəbə doğru irəliləmək tövsiyə edilir. Onu da qeyd etmək lazımdır ki, lüğət vahidlərinin mənimsənilməsinin çətinlik dərəcəsini müəyyənləşdirərkən, adətən həmin prosesə tələb edilən vaxt müddətini əsas tuturlar. Eyni zamanda, problemi araşdıran müəlliflərin fikrincə, "çətinlik" meyarının kifayət qədər etibarlı və inandırıcı olması məsələsi birmənalışəkildə qəbul edilmir və mübahisələrə səbəb olur. "Qəti absolyut" çətinlik mövcud deyil, "çətinlik" məfhumunun əsasında duran səbəblər fonologiya, morfologiya, sintaksis, leksika və s. ilə əlaqədar ola bilər. Onu da demək lazımdır ki, bir qrup tələbələrin çətin hesab etdikləri dil və nitq vahidləri, başqa tələbələr üçün heç bir çətinlik törətməyə bilər. Oxu prosesində çətinliklərə səbəb olan əsas amillərdən biri ana dilinin mənfi təsiridir. Təcrübənin göstərdiyi və tədqiqatçıların qeyd etdiyi kimi, çox vaxt həm semantik, həm də qrammatik mənası baxımından kifayət qədər mürəkkəb olan və tələbələr üçün çətin olan, işlədilmə tezliyi göstəricisi kifayət qədər yüksək olan sözləri aşağı kurslarda tələbələr tərəfindən mənimsənilməli olurlar. Misal olaraq forma baxımından sadə olan və tez-tez işlənən sözlər "make" və "do" Azərbaycan dilində bir sözlə "etmək" kimi tərcümə edilir. Onu da vurğulamaq lazımdır ki, ilk baxışdan kifayət qədər sadə olan və müvafiq olaraq, tələbələrə asan olmalı olan bu cütlük əslində çətinliklərə və çoxsaylı səhvlərə səbəb olur [4, s.3-12]. Hətta yuxarı kurs tələbələri "do" və "make" feilləri istifadə etməkdə çətinlik çəkir.

Azərbaycanlı tələbələrin etdiyi tipik səhvlərdən danışarkən aşağıdakı cümlələri misal gətirmək olar:

He explained the financial arrangements he had done (had made).

He did (made) his way unsteadily back to his small flat in George Square.

Problemi tədqiq edən müəlliflərin fikrincə, sözlərin seçilməsində aparıcı meyar onların semantik baxımdan əhəmiyyətli olmasıdır [5, s.43]. Məhz semantik cəhətdən əhəmiyyətli olan sözlərin mənimsənilməsi oxu prosesində məzmunun, əsas ideyanın tələbələr tərəfindən anlaşılmasını təmin edir. Semantik əhəmiyyəti daha yüksək olan leksik vahidlər daha tez və asan mənimsənilir. Misal olaraq, "taboo words" yəni qadağan olmuş sözləri gətirmək olar: bu cür sözlər asanlıqla dilöyrənənlər tərəfindən mənimsənilir [7, s.28].

Mənimsənilməli olan sözlərin seçilməsi zamanı semantik cəhətdən əhəmiyyətli olan sözlərə üstünlük verilməlidir. Burada söhbət qadağa olan sözlər deyil, tələbələr üçün əhəmiyyətli olan sözlərdən getməlidir. Məhz tələbələrin ehtiyacı və tələbatları, onların marağı səviyyəsinə uyğun olan sözlərə üstünlük verilməsi prinsipi mənimsənilməsi olan sözlərin seçilməsində əsas meyar kimi götürülməlidir.

Oxunun təlimi prosesində mənimsənilməli olan sözlər əsasən seçilmiş mətnlərdə olan "açar" sözlərdir. Lakin mətnlərin tələbələrin tələbat, ehtiyac və maraqları prinsipinin əsasında seçilməsindən, həmin mətnlərdə olan əsas leksik vahidlərin onlar üçün vacib və əhəmiyyətli olduğu güman edilir. Bu da oxu təlimi prosesində mənimsənilməli olan sözlərin seçilməsi prosesinin müəyyən dərəcədə intuitiv xarakterli və qeyri-obyektiv olmasını şərtləndirir. Lakin, bu prosesin subyektiv xarakter daşıdığına baxmayaraq, kifayət qədər səmərəli nəticələrin əldə edilməsi üçün imkan yaradır. Yuxarı kurslarda təhsil alan müəyyən bilik və bacarıqlara yiyələnmiş tələbələrə gəldikdə, mətndə olan hansı sözlərin onlar üçün naməlum olmasını müəyyənləşdirmək heç də asan məsələ deyil. Tələbələrin səviyyələri müxtəlif olan qruplarda müəllim onlara mətndəki olan bilmədikləri sözlərin altından xətt çəkməyi tapşırır. Onu da xüsusilə vurğulamaq lazımdır ki, deyilənlər yalnız mətndə olan açar söz və ifadələrə aid edilə bilər. Bu yolla tələbələr üçün hansı sözlərin naməlum olduğunu müəyyənləşdirən müəllim, yeni leksik vahidlərin hansı yolla onlara öyrədilməsi məsələsini həll etməlidir. Onu da qeyd etmək vacibdir ki, oxu prosesində yeni sözlər öyrədilməli deyil, onlar öyrənilməli, mənimsənilməlidir. Daha dəqiq desək, yeni leksik vahidlər tələbələrə təqdim edilməli, onlar isə həmin leksik vahidləri mənimsəməlidirlər. Müəllimin vəzifəsi yeni sözlərin hansı yollarla tələbələrə təqdim edilməsini müəyyənləşdirməkdən ibarətdir. Xarici dil tədrisinin mərhələsindən asılı olaraq, yeni lüğət vahidlərinin tələbələrə təqdim edilməsi yolları fərqli olmalıdır. Tələbənin bilik səviyyəsinin nəzərə alınması təlim prosesinin səmərəliliyini şərtləndirən əsas amillərdəndir.

Belə ki, aşağı mərhələdə bilik səviyyələri hələ də aşağı olan və söz ehtiyatları məhdud olan tələbələrə yeni sözləri təqdim edərkən aşağıdakı üsullardan istifadə etmək tövsiyə edilib:

1. Mətndə hər hansı sözün tələbələr üçün naməlum olduğunu bilən müəllim həmin sözün heç bir çətinlik olmadan izah oluna bildiyi aşağıdakı üsuldan istifadə edir:

S_1 – What does "force" mean? – S_2 – Strength, effort

S_1 – What is "handkerchief"? – S_2 – Square cotton carried in the pocket or bag for wiping nose.

Nəzərə almaq lazımdır ki, burada suallar müəllim tərəfindən deyil, tələbə tərəfindən verilir. Suala cavab verən tələbə çətinlik çəkərsə qrup yoldaşları və yaxud müəllim ona kömək edirlər.

2. Oxu təlimi prosesinin tədrisin ilkin mərhələsində baş verdiyi halda jestlərdən, mimikadan, ingilislərin "body language" adlandırdıqları vasitələrdən istifadə edilməsi tövsiyə edilir:

a. What does "ceiling" mean in the sentence spacious?

b. What is

His room, in the guest wing, was spacious, with a high ceiling.

a. Making an appropriate gesture, pointing to the ceiling the teacher says: "This is a ceiling"

b. Making an appropriate jesture, as if trying to embrace something that can't be embraeed,the teacher says: "Our room is spacious".

3. Oxu üçün nəzərdə tutulmuş mətndə olan açar sözlərinin bəzilərinin mənaları onlara sinonim və antonim olan və tələbələr tərəfindən artıq mənimsənilmiş olan sözlərin təqdim edilməsi vasitəsilə çatdırıla bilər:

S: What is an aged person?

T: A person who is old.

4. Konkret məna daşımayan, abstrakt sözlərin mənalarının izah edilməsi kontekst vasitəsilə, yəni cümlə daxilində onların təqdim edilməsi yolu ilə həyata keçirilə bilər. Bu yolla adətən sözün kontekstual mənası, yəni müəyyən kontekst daxilində olan mənası mənimsənilir. Burada müəllim cümlələrin seçilməsinə diqqətlə yanaşmalı, yeni sözün kontekstdə daşıdığı mənanın ikinci dərəcəli mənaları deyil, məhz əsas mənalarının təqdim edilməsindən əmin olmalıdır. Xüsusilə də bu ingilis dilinə xas olan çoxmənalı sözlərə aid edilməlidir:

S: What does the word "distant" mean in the sentence. "The conversation was civilised and polite, but distant?"

T: The conversation is distant when everybody trying to avaid familiarity.

5. Tədrisin aşağı pilləsində olan tələbələrlə işləyərkən, çox vaxt yeni sözlərin mənalarının lüğətdə olan izahatlarını təqdim etməklə, mətndə olan açar sözlərin mənalarını onlara çatdırmaq və həmin sözlərin tələbələr tərəfindən mənimsənilməsini təmin etmək mümkündür:

S: What does "magnificent" mean?

T: Splended, statety, excellent, fine.

6. Oxu materiallarının adekvat şəkildə qavranılması məqsədilə müəllim tələbəni naməlum leksik vahidlərin mənalarının semantik kontekst və qrammatik strukturlar vasitəsilə dərk etmək istiqamətində yönəltməlidir:

S: a) What does the word "delight" mean in the sentence "The face shone with a kind of peaceful delight?"

b) What does the word "peaceful" mean in the same sentence?

T: a) What kind of word is "delight"? Tell me what kind of word it is by looking at its position in the sentences.

b) What kind of word is "peaceful"? Tell me what kind of word it is by looking at its position in the sentence and its suffix what does the "ful" ending on words mean?

Oxunun təlimi prosesində yeni sözlərin tələbələr tərəfindən başa düşülməsi və mənimsənilməsi məsələsini araşdırarkən burada tərcümənin rolu və yerini, onun kəsb etdiyi əhəmiyyəti xüsusilə vurğulamaq lazımdır. Eyni zamanda tərcümədən istifadə etmə probleminin mübahisəli olduğunu, metodist-alim, tədqiqatçılar və dili tədris edən müəllimlər tərəfindən birmənalı qaydada qəbul edilmir. Oxu zamanı naməlum sözlərin mənalarının açılmasının ən cəld və eyni zamanda ən sadə yolu tərcümədən, yəni lüğət vasitəsilə tələbələrin ana dilində olan ekvivalentlərinin tapılmasıdır.

Xarici dilin tədrisində tərcümənin qətiyyətlə əleyhinə çıxan tədqiqatçı alimlərlə bərabər tərcüməni dəstəkləyən, onun xüsusi rolu və əhəmiyyətini qeyd edən mütəxəssislərin də sayı az deyil. Dillərin tədrisində tərcümə probleminə daha yaradıcılar tərcümənin əhəmiyyətini danılmaz hesab edir, tərcümədən yerində və zamanında istifadə etməyi və sui-istifadə hallarının qarşısının alınmasını tövsiyə edir [6, s.23].

Tədrisin ilkin mərhələsində ayrı-ayrı sözlərin, adətən mətndə olan açar sözlərin mənalarının ikidilli lüğət vasitəsilə tapılması tövsiyə edilə bilər. Tədrisin orta və yuxarı mərhələsində tərcüməyə fövqəladə hallarda müraciət edilməli, sözlərin mənaları əsasən kontekst vasitəsilə tapılmalıdır. Tədqiqat müəllifləri qeyd edirlər ki, ana dillərində ekvivalentləri olmayan hər hansı yeni məfhumları bildirən sözlərin məhz kontekst daxilində mənimsənilməsi mümkündür. Bəzi müəlliflər qeyd edirlər ki, probektiv məqsədlərdə, yəni yaradıcı nitq prosesində istifadə edilməli olan sözlər xüsusilə şəkildə göstərilməlidir. Məsələn, tanınmış Cambridge University Press nəşriyyatının buraxdığı Cambridge English Readers seriyasının kitablarında oxucular tərəfindən mənimsənilməli olan əsas sözlər "Glossary" (Lüğət) başlığı altında verilir. Burada verilən sözlərin əsasən reseptiv səviyyədə, yəni mətni anlamaq məqsədilə mənimsənilməsi nəzərdə tutulur. Misal olaraq yazıçı Alan Maleyin "He Knows Too Much" kitabının "Glossary" hissəsində aşağıdakı leksik vahidlər təqdim edilir:

1. Chowkidar: night watchman

2. baronet: the head of a noble family An aristocrat

3. high table: where teachers and professors eat at school or university

4. the City: the City of London. A way of referring to the financial (district) centre of London

5. dowry: the money and goods which the bride's family has to pay to the groom's family when their daughter marries

1. The Chowkidar opened the gate and the car sud gratefully into the cool shade of the porch.

2. He was the son of a baronet, had been educated at Eton and Frinity College, Cambridge.

3. Dick called the Steward's office and booked himself for dinner at High Table the next day.

4. He learned that John Verghese had taken up a job as a traince at a wellknown bank in the city.

5. Then she began to tell him about her own marriage: the way she had been "advertised" in the "brides" column of the newspaper, then "inspected" by the boy's family; how the dowry had been agreed, and how, finally, she had married Girijan and moved to Udipi to low with his family.

Lüğətlərin oxu üçün kitablara daxil edilməsi əsas məna daşıyan "Açar" sözləri tələbələrin diqqətinə təqdim etməklə onların mənimsənilməsini təmin etmək və beləliklə, məzmunun tələbələr tərəfindən adekvat şəkildə qavranılmasını təmin etməkdir. "Glossary" başlığı altında verilən bu cür əlavələr kitabın oxunulmasını əhəmiyyətli dərəcədə asanlaşdırır və oxu təlimi prosesini daha səmərəli şəkildə təşkil etməyə imkan verir. Onu da qeyd edim ki, müəllif tərəfindən verilən izahatların auditoriya şəraitində, dərsdə oxunulması tövsiyə edilmir, həmin lüğət vahidləri ilə tanışlıq oxucuların ixtiyarına verilir və dərsdənkənar şəraitdə baş verir. Xüsusən çətin olan sözlərin təqdim edilməsi dərsdə baş verə bilər. Bu siyahıya aşağıdakılar daxil edilə bilər:

1. Müxtəlif dillərdə fərqli şəkildə şərh edilən sözlər. Məsələn, "ambitious" sözünü misal deyim. İngilis dilində olduqca müsbət mənaya malik olan bu söz bir çox dillərdə mənfi məna daşıyan və yaxud mənfi məna çalarlarına malikdir. Məsələn, həmin sözün rus dilinə olan ekvivalenti «амбициозный» izzət-nəfsli, lovğa, təkəbbürlü mənasını daşıyır.

2. Ekvivalent olan, lakin mənaları fərqli olan sözlər. Misal olaraq amerikalıların "second floor" söz birləşməsini gətirmək olar. Başqa dillərdə bu əslində "first floor" deməkdir. Hər iki halda söhbət Azərbaycan dilində "ikinci mərtəbə" adlandırılan məfhumdan gedir.

3. Yeni, əvvəllər mövcud olmayan, məfhumları və ana dilində ekvivalentləri olmayan sözlər (jay walking-walking in or across road without regard for traffic). İngilis dilinin azərbaycanlı tələbələrinə tədrisindən danışarkən, son illər ərzində ingilis sözləri "curriculum, test, syllabus" demək olar ki, heç bir dəyişikliklər etmədən dilimizə daxil edilir. Bu gün "kurikulum, test, sillabus" sözləri artıq təhsil sahəsində çalışan mütəxəssislər və tələbələr tərəfindən istifadə edilən sözlər siyahısına daxildir.

Ümumiyyətlə, oxu təlimi prosesində sözlər haqqında danışmaq cəhətlərinin qarşısı alınmalı və burada leksik vahidlərin müəyyən məqsədlə mənimsənilməsi, sözlərin öyrənilməsinin bir məqsəd kimi irəli sürülməməsi nəzərə alınmalıdır.

Həll edilməli olan daha bir problem bir dərs ərzində tələbələr tərəfindən reseptiv məqsədlərlə mənimsənilməli olan sözlərin sayıdır. Oxu problemini araşdıran tədqiqatçılar tələbələr tərəfindən hər dərsdə orta hesabla 20-30 sözün

mənimsənilməsindən gedə bilər. Lakin ilk növbədə tələbələrdə oxu prosesində yeni sözlərin mənimsənilməsi istiqamətində maraq, motivasiya yaratmaq lazımdır.

Oxu prosesində tələbələrdə lüğət ehtiyatlarının zənginləşdirilməsi məsələsinin vacibliyinə baxmayaraq, burada sözlərin mənimsənilməsi məqsəd yox, bir vasitədir. Ən vacibi isə anlama məqsədilə verilən suallar və onların cavablandırılmasıdır. Qeyd olunduğu kimi, mətnlə tanışlıqdan əvvəl verilən suallar tələbələrin diqqətini mətndə olan vacib problem və məsələlərə yönəltməlidir. Burada verilən suallar mətndə olan məzmunla əlaqəli olmalıdır. Bu mərhələdə, tələbələrə ingilisdilli mədəniyyətdə mövcud olan qayda və normalar, müxtəlif məsələlərə dair münasibətlər haqqında fikir və rəylərini bildirmək təklif edilir. İngilisdilli mədəniyyət dedikdə, yalnız ingilislərin mədəniyyəti deyil, həm də amerikalıların və Britaniyada yaşayan digər yerli xalqların mədəniyyəti nəzərdə tutulur. Güman edilir ki, naməlum olan leksik vahidlər deyil, məhz kulturoloji xarakterli məlumatların tələbələrdə olmaması çox vaxt oxu prosesində problem və çətinliklərə səbəb olur. Onu da qeyd etmək lazımdır ki, verilən sualların heç də hamısı dərsdə cavablandırılmamalı, əksər sualların cavablarını tələbələr dərsdə deyil, auditoriyadankənar şəraitdə, müstəqil şəkildə araşdırmalar apararaq tapmalıdır.

Sualların formal cəhətdən qurulması tələbələrə imtahan zamanı verilən testlərin formal cəhətdən necə qurulmasından bilavasitə asılıdır. Məlum olduğu kimi, Avropa Təhsil Sisteminə inteqrasiya prosesində olan Azərbaycanda imtahanlar test üsulu ilə qəbul edilir. Tədris prosesində, o cümlədən oxunun təlimi prosesində tələbələri müəyyən formatda keçirilən testlərə hazırlamaq proqram tərtibatçıları, dərslik müəllifləri və xarici dili tədris edən müəllimlər qarşısında duran əsas vəzifələrdən biridir. Dərslərdə və dərsdənkənar şəraitdə tələbələrin yerinə yetirdiyi tapşırıqların həmin formatda onlara təqdim edilməsi olduqca vacib olan bir məsələlərdən biridir.

Oxunun təlimi prosesində tələbələrin mövqe və münasibətlərini bildirməklə əlaqəli mövzular əsasında inşaların yazılması tövsiyə edilir.

Oxunun təlimi prosesində tələbələrin mövqe və münasibətlərini bildirməklə əlaqəli mövzular əsasında inşaların yazılması tövsiyə edilir.

İngilis dili tədrisinin orta və yuxarı mərhələlərində tələbələrə oxuduqları materiallar ilə əlaqədar olaraq xülasə, qısa şərh, ifadə, mətndə olan məlumat və hadisələrin qısa təhlili ilə bağlı yazılı tapşırıqların yerinə yetirilməsi kommunikativ təlim prinsiplərindən ən vacibi olan interaktivlik prinsipinə tamamilə uyğundur.

Tələbələrə üsul seçimində müəyyən müstəqilliyin verilməsində əsas məqsəd onlarda oxunulan mətnin və yaxud kitabın məzmununa maraq oyatmaq, onları oxu ilə bağlı olan və oxu prosesini səmərəliləşdirən müxtəlif fəaliyyət növlərinə cəlb etmək, onlarda rast gəldikləri problem və çətinliklərə baxmayaraq oxunu davam etdirmək həvəsini yaratmaqdan ibarətdir.

Tələbələri düzgün istiqamətləndirmək, onları mətnin məzmununu adekvat şəkildə başa düşmək üçün hansı üsullardan istifadə etmək haqqında məlumatlandırmaq və bu məqsədə nail olmaq üçün yerinə yetirilməsi tövsiyə edilən

çalışmalar və tapşırıqlar onlara təqdim edilməlidir. Lakin, tələbəyönümlülük prinsipinə riayət edərək, onlara müstəqillik verilməli və əslində oxu vərdişləri tələbələrə aşılanmamalıdır, tələbələr zəruri olan vərdiş və bacarıqlara yiyələnməlidirlər.

Belə ki, naməlum olan sözlərin mənalarının öyrənilməsinə gəldikdə, tələbə mətni təkrar olaraq oxumalı və hansı sözlərin vacib olduğu, hansıların isə məzmunun başa düşülməsi üçün o qədər də əhəmiyyətli olmadığını tələbənin özü müəyyənləşdirməlidir. Çox vaxt oxu prosesində tələbələr onlara tanış olmayan, bilmədikləri sözləri ucadan oxumasa da, tələbələrin bu üsula üstünlük verdiyi halda, müəllim tərəfindən heç bir etiraz edilməməlidir. Müəllim tələbələri mövcud oxu strategiyaları haqqında məlumatlandırmalı, onları bir növ "silahlandırmalıdır". Həm də müəllim tələbələrə başa salmalıdır ki, oxu təlimi zamanı əsas vəzifə və məqsəd sözlərin semantik və qrammatik mənalarının öyrənilməsi deyil, oxu vərdişlərinin günün tələblərinə uyğun olan səviyyədə inkişaf etdirilməsidir. Sözlərin mənimsənilməsi isə burada bir vasitədir. Oxunun təlimi prosesində yerinə yetirilən tapşırıqların əsas məqsədi həmin prosesin səmərəliləşdirilməsi və daha yüksək nəticələrin əldə edilməsidir.

İSTİFADƏ EDİLMİŞ ƏDƏBİYYAT

1. Ağazadə N.A. Xarici dillərin tədrisi metodikası və dilçilik. Bakı, 1974, s. 6-11
2. Barsuk R.Y. Azərbaycan məktəblərində xarici dil tədrisinin bəzi problemləri. Bakı, Maarif, 1967, 115 s.
3. Əhmədov B. Fəndaxili və fənlərarası əlaqə probleminə dair // Azərbaycan məktəbi, 1973, №1, s.34.
4. Yunusov D. Müasir ingilis dilində feillərin leksik-semantik xüsusiyyətlərinin bəzi məsələləri // Elmi xəbərlər. Bakı, ADU, 2011, №3, s.3-12
5. Артемов В.А. Вербальное поведение и речевой поступок / Речевая ситуативность в преподавании иностранных языков в срециальном языковом вузе. М., 1973, с. 28-46.
6. Anderson J. Selecting a Suitable Reader | Procudures for Teachers to Assess Language Difficulty, RELS Journal 2, December, 1971, №2, p.35-42.
7. Ur P. A course in language teaching. Cambridge: Cambridge University Press,1991, 375 p.

Eyyubova .A

Application of the principle of interactivity in reading instruction and ways of mastering lexical units in education

(Summary)

The instillation of reading skills in students in the foreign language being taught remains one of the most important and still not adequately resolved problems of modern methodology. When talking about the instillation of speech skills in the specialized language of junior students of language faculties, it is necessary to note the special importance of instilling reading skills in students at this stage of

education. The effective instillation of reading skills in a foreign language should occur not in isolation, but in an integrative manner, that is, in connection with other types of activities, such as oral speech, listening comprehension and writing skills.

When implementing reading instruction in English, special attention should be paid to the implementation of activities aimed at improving grammatical skills and enriching students' lexical resources. In order to organize the reading process effectively, it is very important to provide students with tasks that reflect the interactive nature of reading and provide them with the required level of reading strategies.

One of the main goals of teaching reading in a foreign language is to develop students' critical thinking in the language being taught, to develop their ability to approach the text creatively, and to express their opinions and positions, as well as their attitudes to the information, facts, and events reflected in the text, in a well-founded manner.

Эюбова .А

Применение принципа интерактивности в обучении чтению и способы усвоения лексических единиц в образовании
(Резюме)

Привитие навыков чтения у студентов на изучаемом иностранном языке остается одной из важнейших и до сих пор недостаточно решенных проблем современной методики. Говоря о привитии речевых навыков на специализированном языке у студентов младших курсов языковых факультетов, необходимо отметить особую значимость привития навыков чтения у студентов на этом этапе обучения. Эффективное привитие навыков чтения на иностранном языке должно происходить не изолированно, а интегративно, то есть во взаимосвязи с другими видами деятельности, такими как устная речь, аудирование и письмо. При реализации обучения чтению на английском языке особое внимание следует уделять реализации мероприятий, направленных на совершенствование грамматических навыков и обогащение лексического запаса учащихся. Для эффективной организации процесса чтения очень важно предоставлять учащимся задания, отражающие интерактивный характер чтения и обеспечивающие им необходимый уровень стратегий чтения. Одной из основных целей обучения чтению на иностранном языке является развитие у учащихся критического мышления на изучаемом языке, развитие у них умения творчески подходить к тексту, аргументированно выражать свои мнения и позиции, а также отношение к отраженным в тексте информации, фактам и событиям.

Rəyçi: prof. Fikrət Cahangirov

Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu, *ISSN 2224-9257*
Filologiya məsələləri № 3, 2025
Səh. ————————

NAİBOV CAVİD HƏZİ OĞLU
Azərbaycan Dövlət İqtisad Universiteti,
naibovcavid@gmail.com

İNNOVASIYALI İSTEHSALIN İDARƏ EDİLMƏSİNDƏ VERİLƏNLƏR BAZASINA ƏSASLANAN YANAŞMALARIN NƏZƏRİ ƏSASLARI

Açar sözlər: innovasiyalı istehsal, verilənlər bazası, qərar qəbuletmə, data-driven yanaşma
Keywords: innovative production, database, decision-making, data-driven approach
Ключевые слова: инновационное производство, база данных, принятие решений, подход, основанный на данных

XÜLASƏ

Bu məqalədə innovasiyalı istehsal fəaliyyətinin idarə edilməsində verilənlər bazasına əsaslanan yanaşmaların nəzəri əsasları araşdırılır. Tədqiqatın məqsədi data-driven qərar qəbuletmə modellərinin müəssisələrdə innovasiyaların planlaşdırılması və tətbiqində rolunu qiymətləndirməkdir. Məqalədə klassik innovasiya nəzəriyyələri ilə yanaşı, Alessandro Bertoni və həmkarlarının təklif etdiyi model əsaslı qərar qəbuletmə çərçivəsi də təhlil olunur. Substantive və preferential modellər əsasında qurulan qərar strukturlarının innovasiyalı idarəetməyə təsiri izah edilir. Bundan əlavə, verilənlərin vizualizasiyasının qərarların sürətli və əsaslandırılmış qəbuluna necə dəstək olduğu göstərilir. Nəticədə, verilənlər bazasına əsaslanan idarəetmə sistemlərinin strateji qərarların qəbulunda, innovasiya fəaliyyətinin istiqamətləndirilməsində və müəssisənin rəqabət üstünlüyünün təmin olunmasında mühüm rol oynadığı sübut olunur.

Naibov Javid

THEORETICAL APPROACHES TO DATABASE-BASED MANAGEMENT OF INNOVATIVE PRODUCTION

ABSTRACT

This paper explores the theoretical foundations of database-driven approaches in the management of innovative production activities. The study aims to evaluate the role of data-driven decision-making models in planning and implementing innovation strategies in enterprises. In addition to classical innovation theories, the article analyzes the model-based decision-making framework proposed by Alessandro Bertoni and colleagues. It discusses how decision structures based on substantive and preferential models impact innovation management. Furthermore, the study highlights the importance of data visualization tools in supporting faster and more justified decisions. As a result, it is demonstrated that database-oriented

management systems play a critical role in strategic decision-making, guiding innovation processes, and enhancing the competitive advantage of organizations.

РЕЗЮМЕ

В данной статье исследуются теоретические основы подходов к управлению инновационной производственной деятельностью, основанных на базах данных. Цель исследования — оценить роль моделей принятия решений на основе данных (data-driven) в планировании и реализации инновационных стратегий на предприятиях. Помимо классических теорий инноваций, в работе анализируется модель принятия решений, предложенная Алессандро Бертони и соавторами. Рассматривается влияние моделей substantive и preferential на управление инновациями. Также подчеркивается значимость визуализации данных как инструмента, способствующего более быстрому и обоснованному принятию решений. В результате делается вывод о ключевой роли систем управления на основе баз данных в стратегическом управлении, координации инновационной деятельности и обеспечении конкурентных преимуществ предприятий.

GİRİŞ

Müasir dövrdə texnologiyaların sürətlə inkişaf etməsi və rəqabət mühitinin kəskinləşməsi müəssisələri istehsal fəaliyyətində innovativ yanaşmalar tətbiq etməyə vadar edir. İnnovasiyalı istehsal fəaliyyətinin uğurlu şəkildə idarə olunması yalnız yeni texnologiyaların tətbiqi ilə deyil, həm də qərar qəbuletmə proseslərinin daha dəqiq və əsaslandırılmış şəkildə aparılması ilə mümkündür. Bu məqsədlə verilənlər bazasının qurulması və idarə olunması xüsusi əhəmiyyət daşıyır.

Verilənlər bazası vasitəsilə innovasiya proseslərinə dair toplanmış məlumatların strukturlaşdırılması, təhlili və vizualizasiyası, müəssisələrin strateji qərarlarının əsaslandırılmasına kömək edir. Bu cür yanaşmalar müasir idarəetmə modellərində "data-driven" (verilərə əsaslanan) idarəetmə kimi tanınır. Belə sistemlər istehsalda tətbiq edilən yeniliklərin effektivliyini qiymətləndirməyə, gələcəkdə hansı innovasiyalara ehtiyac olduğunu müəyyənləşdirməyə və tətbiqlərin real vaxt rejimində təsirini izləməyə imkan yaradır.

Bu məqalədə innovasiyalı istehsal fəaliyyətinin idarə edilməsində verilənlər bazasına əsaslanan yanaşmaların nəzəri əsasları araşdırılır. Məqalə çərçivəsində həm klassik innovasiya nəzəriyyələri, həm də verilənlərə əsaslanan qərar qəbuletmə modelləri təhlil edilərək müasir yanaşmaların əsas prinsipləri təqdim edilir.

İNNOVASİYALI İSTEHSAL FƏALİYYƏTİNİN MAHİYYƏTİ

İnnovasiyalı istehsal fəaliyyəti – müəssisələrin istehsalat proseslərində yeniliklərə əsaslanaraq məhsuldarlığı artırmaq, xərcləri optimallaşdırmaq və rəqabət qabiliyyətini gücləndirmək məqsədi ilə həyata keçirdiyi strateji tədbirlər toplusudur. Bu fəaliyyət texnoloji inkişaf, idarəetmənin təkmilləşdirilməsi, məhsul və xidmət

keyfiyyətinin artırılması istiqamətində aparılan sistemli və məqsədyönlü fəaliyyətləri əhatə edir.

İnnovasiya iqtisadiyyatın inkişafında mühüm rol oynayır. Məşhur iqtisadçı Yozef Şumpeter innovasiyanı iqtisadi inkişafın əsas hərəkətverici qüvvəsi kimi qiymətləndirərək, onun yeni məhsullar, proseslər və bazarların formalaşmasında əsas rol oynadığını vurğulamışdır [3, s. 18].

Müasir dövrdə innovasiyalı istehsal fəaliyyətinin məqsədləri aşağıdakı kimi ümumiləşdirilə bilər:

- Yeni məhsul və texnologiyaların tətbiqi ilə istehsal prosesinin modernləşdirilməsi;
- Xammal və resurslardan daha səmərəli istifadə;
- Bazar ehtiyaclarına uyğun çevik məhsul istehsalı;
- Rəqəmsallaşma və avtomatlaşdırma texnologiyalarından istifadə [2, s. 11].

İnnovasiyalı istehsal fəaliyyətində uğurun əsas şərtlərindən biri də mövcud qərar qəbuletmə sistemlərinin verilənlərə əsaslanaraq qurulmasıdır. Müəssisələr fəaliyyətlərini planlaşdırarkən yalnız təcrübəyə deyil, həm də konkret və strukturlaşdırılmış verilənlərə əsaslanaraq qərarlar qəbul etməlidir. Bu yanaşma müasir idarəetmədə **verilənlərə əsaslanan (data-driven) idarəetmə** kimi tanınır [1, s. 70].

Nəticə etibarilə, innovasiyalı istehsal fəaliyyəti yalnız texnoloji yeniliklərlə məhdudlaşmır, həm də məlumatların toplanması, emalı və istifadəsi ilə bağlı olan sistemli idarəetmə yanaşmalarını da özündə ehtiva edir. Bu isə innovasiyaların planlaşdırılması, həyata keçirilməsi və nəticələrinin ölçülməsi prosesində verilənlər bazasının əhəmiyyətini artırır.

VERİLƏNLƏR BAZASI VƏ MODEL ƏSASLI QƏRAR QƏBULETMƏ

Müasir innovasiya idarəetməsində qərar qəbuletmənin əsaslandığı məlumatların miqdarı və keyfiyyəti getdikcə daha vacib rol oynayır. Verilənlər bazaları, innovasiya proseslərinin izlənməsi, qiymətləndirilməsi və istiqamətləndirilməsi üçün zəruri informasiya infrastrukturunu təmin edən sistemlərdir. Bu sistemlər müəssisəyə daha çevik və əsaslandırılmış qərarlar qəbul etmək imkanı yaradır. Ənənəvi təcrübə əsaslı idarəetmə yanaşmaları artıq kifayət etmir; verilənlərə əsaslanan (data-driven) qərar qəbuletmə müasir idarəetmənin ayrılmaz tərkib hissəsinə çevrilmişdir [1, s. 70].

Verilənlər bazasının tətbiqi innovasiyaların müxtəlif mərhələlərində əhəmiyyətlidir: ideyaların seçilməsi, texniki və maliyyə baxımından qiymətləndirilməsi, prototiplərin hazırlanması və bazar analizinin aparılması. Məsələn, müəssisədə toplanmış tarixə əsaslanan performans məlumatları yeni texnologiyaların tətbiqinin hansı hallarda uğur qazandığını, hansılarda isə əlavə risklər yaratdığını müəyyən etməyə imkan verir [3, s. 22].

Verilənlər bazasının strukturlaşdırılması yalnız texniki məsələ deyil, eyni zamanda qərar qəbuletmənin hansı model üzrə aparılacağını müəyyən edən strateji prosesdir. Bertoni et al. (2020) tərəfindən irəli sürülmüş çərçivəyə əsasən, qərar qəbuletmə iki model üzrə qurula bilər: “substantive” (məqsədyönlü, obyektiv məlumatlara əsaslanan) və “preferential” (istifadəçinin seçimlərinə əsaslanan)

modellər. Substantive model qərarların real vəziyyətin analitik təsviri ilə, preferential model isə fərdi və ya kollektiv üstünlüklərlə əsaslandırılmasını nəzərdə tutur. Bu yanaşmalar, innovasiya ilə bağlı verilən qərarların həm texniki, həm də təşkilati baxımdan dəyərləndirilməsini mümkün edir [1, s. 75].

Eyni zamanda, verilənlərin vizual analizi də innovasiyalı idarəetmədə böyük rol oynayır. Vizual alətlər (bar chart, scatter plot, decision tree və s.) vasitəsilə kompleks məlumatların daha sadə və anlaşılan formada təqdim olunması, idarəedicilərin daha tez və effektiv qərar verməsini asanlaşdırır [1, s. 79]. Bu xüsusilə çoxvariantlı qərar vəziyyətlərində önəmlidir.

Azərbaycan təcrübəsində də innovasiyalı fəaliyyətin təkmilləşdirilməsi üçün verilənlər bazalarının rolunun artırılması prioritet istiqamət kimi qəbul olunmaqdadır. Dövlət səviyyəsində qəbul edilmiş strategiyalar və rəqəmsal inkişaf planları, innovasiya layihələrinin qiymətləndirilməsində məlumat əsaslı yanaşmaların genişlənməsinə şərait yaradır [2, s. 17].

Nəticə etibarilə, verilənlər bazası yalnız informasiya toplama vasitəsi deyil, eyni zamanda qərar qəbuletməni sistemləşdirən və innovasiyanın səmərəliliyini artıran vacib alətdir. Onun model əsaslı strukturu isə idarəetmənin elmi və strateji əsaslarla həyata keçirilməsinə şərait yaradır.

TƏKLİFLƏR

İnnovasiyalı istehsal fəaliyyətinin idarə edilməsində verilənlər bazasına əsaslanan yanaşmalar müasir idarəetmənin əsas tələblərindən biri kimi çıxış edir. Əldə edilən elmi nəticələr göstərir ki, verilənlərə əsaslanan qərar qəbuletmə modeli müəssisələrin texnoloji yenilikləri daha effektiv planlaşdırmasına, tətbiq etməsinə və qiymətləndirməsinə şərait yaradır [1, s. 75]. Belə sistemlər yalnız məlumat toplamaqla kifayətlənmir, həm də bu məlumatların analizi və vizualizasiyası vasitəsilə strateji qərarların əsaslandırılmasını təmin edir.

İnnovasiya prosesləri çoxfaktorlu və mürəkkəb xarakter daşıdığından, qərar qəbuletmə prosesində həm obyektiv məlumatlara (substantive model), həm də istifadəçi ehtiyac və üstünlüklərinə (preferential model) əsaslanan yanaşmalar vacibdir [1, s. 76]. Bu modellərin vəhdəti, müəssisələrin rəqabət üstünlüyü qazanmaq üçün daha çevik və əsaslandırılmış qərarlar verməsinə kömək edir.

Verilənlər bazasının düzgün strukturlaşdırılması və daim yenilənməsi, innovasiya fəaliyyətinin real vəziyyətini əks etdirən dinamik bir informasiya sisteminin qurulmasını təmin edir [2, s. 18]. Bu isə idarəetmənin daha sistemli aparılmasına və resurslardan optimal istifadəyə şərait yaradır. Xüsusilə, Azərbaycanda bu cür yanaşmaların tətbiqi Milli İnnovasiya Sisteminin gücləndirilməsi və rəqəmsal transformasiya proseslərinin sürətlənməsi baxımından aktualdır [3, s. 24].

Nəticə olaraq, təhlil olunan materiallar əsasında aşağıdakı təkliflər irəli sürülür:

- Müəssisələrdə innovasiya idarəetməsi sahəsində verilənlər bazası infrastrukturu gücləndirilməlidir; bu bazalar yalnız texniki məlumatları deyil, həm də idarəetmə, maliyyə və bazar analizləri ilə bağlı informasiyanı da əhatə etməlidir.

• Qərar qəbuletmə prosesində vizual analitik alətlərin (dashboard, heatmap, decision tree və s.) istifadəsi genişləndirilməlidir; bu yanaşma rəhbər şəxslərə daha çevik və anlaşılan qərar imkanları təqdim edir [1, s. 79].

• Verilənlər bazasının əsaslandığı struktur modellər hər bir müəssisənin öz spesifikasına uyğun olaraq formalaşdırılmalı və mütəmadi yenilənməlidir.

• İnnovasiya fəaliyyətinin qiymətləndirilməsində iqtisadi göstəricilərlə yanaşı, sosial və ekoloji amillər də verilənlər bazasında nəzərə alınmalıdır [2, s. 20].

Bütün bunlar göstərir ki, verilənlər bazası müasir innovasiya idarəetməsinin texnoloji deyil, eyni zamanda strateji sütunudur. Doğru planlanmış və tətbiq olunmuş bir verilənlər bazası, istehsalda innovasiyaların uğurla həyata keçirilməsinin və davamlı inkişafın əsas təminatçısı ola bilər.

NƏTİCƏ

Bu məqalədə innovasiyalı istehsal fəaliyyətinin idarə edilməsində verilənlər bazasına əsaslanan yanaşmaların nəzəri əsasları araşdırılmışdır. Tədqiqat göstərdi ki, data-driven qərar qəbuletmə metodları müəssisələrin daha rasional və effektiv innovasiya strategiyaları hazırlamasına şərait yaradır. Verilənlər bazası yalnız informasiyanın saxlandığı texniki resurs deyil, həm də strateji qərarların əsaslandırılması üçün mühüm vasitədir. Substantive və preferential modellər əsasında qurulan qərar strukturunun tətbiqi, innovasiyaların uğurlu və məqsədyönlü şəkildə həyata keçirilməsini təmin edir. Bundan əlavə, vizual analitik alətlərin istifadəsi qərarvermə prosesini sadələşdirir və şəffaflaşdırır. Məqalədə təhlil edilən nəzəri yanaşmalar, Azərbaycanın da daxil olduğu inkişaf etməkdə olan ölkələr üçün innovasiyalı idarəetmənin rəqəmsal transformasiya mərhələsində necə tətbiq edilə biləcəyinə dair mühüm ipucları təqdim edir.

İSTİFADƏ OLUNMUŞ ƏDƏBİYYAT SİYAHISI

1. **Bertoni A., Yi X., Baron C., Esteban P., Vingerhoeds R.** (2020). A Framework for Data-Driven Design in a Product Innovation Process: Data Analysis and Visualization for Model-Based Decision Making. International Journal of Product Development, 24(1), 68–94.
2. **Əliyeva Nigar.** (2021). İnnovasiya fəaliyyətinin təşkili və idarə olunması. Magistr dissertasiyası, UNEC, Bakı.
3. **Səfərəliyev Ağa.** (2022). İnnovasiya fəaliyyəti biznesin effektiv inkişafına mühüm amil kimi. Magistr dissertasiyası, UNEC, Bakı.

Rəyçi: i.e.d., professor Balayev Rəsul

Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu, *ISSN 2224-9257*
Filologiya məsələləri № 3, 2025
Səh. ————————

MƏMMƏDLİ SAHİB FAİQ OĞLU
Azərbaycan Dövlət İqtisad Universiteti(UNEC),
mammadli.sahib.faig.2023@unec.edu.az

FOND BAZARINDA SÜNI INTELLEKT:İNVESTISIYA QƏRARLARI VƏ AVTOMATLAŞDIRILMA ILƏ BAĞLI TENDESIYALAR

Açar sözlər: fond bazarı,süni intellekt, ticarət, investisiya, maliyyə.
Keywords: stock market, artificial intelligence, trading, investment, financial.
Ключевые слова: фондовый рынок, искусственный интеллект, торговля, инвестиции, финансы.

Səhmlərin proqnozlaşdırılması mühüm əhəmiyyət kəsb edir, çünki bu məlumatlar əsasında şəxslər maliyyə qərarlarını formalaşdırmalıdırlar. Lakin fond bazarındakı dalğalanmalar investorların əhvalına təsir edərək onların sərmayə qoyuluşlarına təsir göstərə bilər. Risk dərəcəsi də investorların düşüncələrinə təsir edir. Bununla belə, fond bazarı kapitalın səfərbər edilməsində mühüm rol oynayır və uzunmüddətli sərmayələrdə aşağı risk kimi maraqlı nəticələr təqdim edir.

Hələ dəqiq nəticə verən bir düstur tapılmasa da, bəzi alətlər və müəyyən qaydalar yaxşı gəlir əldə etmək şansını artırır. Məqsəd məbləğinə çatmaq üçün düzgün araşdırma və qərarlar vacibdir. Bunun üçün müxtəlif səhmlərə sərmayə qoyaraq ətraflı tədqiqat aparmaq lazımdır. Səhmlərə sərmayə qoymazdan əvvəl yetərli bilik və anlayışa malik olmaq, həmçinin bazar dövrləri boyunca müntəzəm iştirak etmək tövsiyə edilir. Sistemli və intizamlı sərmayə yanaşması uzunmüddətli plan üçün yaxşı gəlir gətirə bilər. Emosiyalar qərar verməyə təsir etməməlidir; yeni başlayanlar aşağı risklə başlayıb portfellərini müxtəlifləşdirməlidirlər. Hər dəfə eyni növ gəlir əldə etmək mümkün olmadığından, real gözləntilərə sahib olmaq və hər dəfə müxtəlif məqsədlər və zaman çərçivələri ilə risk tolerantlığını düzgün istifadə edərək sərmayənin artımını izləmək vacibdir. [4, s.96]

Fond bazarında yanaşmalar

Səhmlər bazarında hər hansı bir strategiyanı düşünməzdən əvvəl, dərin biliklərə malik olmaq və yetərli araşdırma aparmaq vacibdir ki, bu da yaxşı gəlir əldə etməyə kömək edər.

Səhmlər bazarında fundamental analiz, texniki analiz, artım yönümlü sərmayə, keyfiyyət analizi, al və saxla strategiyası, qiymət azalanda alma kimi yanaşmalar mövcuddur. Hər bir strategiya fərqli üstünlüklər təqdim edir və investorun məqsədlərinə uyğun olaraq seçilməlidir. Riskləri azaltmaq və bazardan fayda əldə etmək üçün investorlar risk idarəetmə üsullarını öyrənməlidirlər. Hətta az miqdarda vəsaitlə də səhmlərə sərmayə qoymağa başlamaq mümkündür. Portfeli müxtəlifləşdirmək, yəni sərmayəni müxtəlif sektorlar arasında bölüşdürmək, riskin

azalmasına və uzunmüddətli perspektivdə daha stabil gəlir əldə etməyə kömək edir. Qısamüddətli sərmayələr üçün gündəlik texniki analiz, uzunmüddətli sərmayələr üçün isə fundamental analiz daha uyğun hesab edilir.

Fərdiləşdirilmiş Sərmayə Məsləhətləri

Süni intellektlə gücləndirilmiş platformalar şəxsi maliyyə hədəflərini, riskə dözümlülüyü və əvvəlki sərmayə tarixçəsini təhlil etməklə fərdiləşdirilmiş investisiya tövsiyələri təqdim edə bilər. Bu platformalar avtomatik olaraq investorun üstünlüklərinə və cari bazar şəraitinə uyğun səhmləri təklif edə bilir.

Məsələn, Pictet kimi süni intellektlə idarə olunan fondlar indeks izləməsini maşın öyrənməsi ilə birləşdirərək gəlirliliyi artırmağı hədəfləyir. Bu fondlar performansı yaxşılaşdırmağa çalışsa da, nəzərə almaq lazımdır ki, süni intellekt keçmiş məlumatlar üzərində öyrədildiyindən, cari hadisələrin kontekstini nəzərə ala bilməyə bilər və bu da gözlənilməz nəticələrə səbəb ola bilər. Buna görə də insan nəzarəti hələ də mühüm rol oynayır. [5]

Süni intellektlə avtomatlaşdırma və proqnozlaşdırma

Süni intellekt (Sİ) fond bazarındakı tədqiqat proseslərini inqilabi şəkildə dəyişməkdədir. Tədqiqat sahəsində təqdim etdiyi geniş imkanlarla yanaşı, Sİ-nin avtonom və proqnozlaşdırıcı tətbiqləri fond bazarını daha da transformasiya edə bilər. Bu tətbiqlərə avtomatlaşdırılmış portfel qurulması və idarə edilməsi, eləcə də proqnozlaşdırıcı təhlil və risklərin idarə olunması daxildir.

Dərin Öyrənmə və Gücləndirici Öyrənmə

Uğurlu süni intellekt (Sİ) əsaslı portfel yaratmaq üçün sürətləndirilmiş məlumat emalı texnikalarının, xüsusilə maşın öyrənməsinin Maşın öyrənməsi (MÖ) tətbiqi mühüm əhəmiyyət kəsb edir. MÖ proqramları tarixi məlumatların təhlili vasitəsilə alqoritmik ticarətdə inqilabi dəyişikliklər edə bilər. Bu təhlil qiymət dəyişikliklərindəki nümunələri müəyyən etməyə kömək edərək, Sİ ilə sürətləndirilmiş portfellərdə sərmayə qərarları üçün statistik anlayışlar, məsələn, uğur ehtimalı və risk kimi göstəricilər təqdim edə bilər. MÖ həmçinin Sİ-avtomatlaşdırılmış sərmayə qərarlarını dəstəkləmək və tamamilə Sİ tərəfindən idarə olunan səhmlər portfeli yaratmaq üçün istifadə edilə bilər.

İrəliləmiş maşın öyrənməsi (MÖ) sistemləri, o cümlədən dərin öyrənmə (DÖ) və gücləndirici öyrənmə (GÖ), bu sahələrdəki inkişafları daha da təkmilləşdirə bilər. Bu amillər sistemin etibarlılığını artırır, bu da investorların süni intellektə güvənməsinə və onu öz strategiyalarında tətbiq etməsinə şərait yaradır. Məsələn, DÖ neyron şəbəkələrindən istifadə edir və insanlara bənzər məntiqi ardıcıllıqla işləyən alqoritmlər inkişaf etdirir.

Neyron şəbəkələri insan beyninin quruluşu və funksiyasından ilham alan hesablama sistemləridir və bir-biri ilə əlaqəli düyünlərdən (“neyronlar”) ibarət təbəqələrdən təşkil olunmuşdur. Hər bir neyron daxil olan məlumatı emal edir və nəticəni növbəti təbəqəyə ötürür, bu proses davam etdikcə isə sistem mərhələli şəkildə nümunə və əlaqələri müəyyənləşdirir. Fond bazarında bu şəbəkələr dərin

öyrənmə prosesini həyata keçirərək, tarixi məlumatları təhlil edir və gələcək üçün trend və nümunələri müəyyənləşdirir. Bu sistemlər DÖ-nü son dərəcə effektiv edir, çünki insan analitiklərin fərq edə bilməyəcəyi incə əlaqələri – məsələn, müxtəlif amillərlə qiymət dəyişmələri arasındakı əlaqələri – aşkar edə bilirlər.

Məsələn, portfel idarəsində "vəziyyətlər" bazar şəraitini (məsələn, səhmlərin qiymətinin yüksəlməsi və ya düşməsi), "hərəkətlər" isə səhmin alınması və ya satılması kimi qərarları ifadə edə bilər. "Mükafatlar" isə həmin qərarların gəlirliliyi ilə ölçülə bilər.[3, s.718]

Hazırda dünya üzrə səhm ticarətinin böyük hissəsi məhz yuxarıda qeyd olunan alqoritmlərlə işləyən kompüterlər vasitəsilə həyata keçirilir. Nisbətən az olsa da, bu sistemlər istiqraz bazarında da tətbiq olunur. Məsələn, ABŞ birjalarında dövriyyədə olan səhmlərin təxminən 75%-i avtomatlaş-
dırılmış ticarət sistemlərindən qaynaqlanır və bu sistemlər getdikcə daha çox süni intellekt texnologiyalarına əsaslanır.

Süni intellekt tərəfindən həyata keçirilən təhlil və qərarvermə proseslərinə dair tarixi nümunələr olduqca təsir edicidir: bir model 1992–2015-ci illər arasında illik təxminən 9% gəlir təmin etmişdi, digər bir sistem isə 2008-ci il maliyyə böhranı zamanı 681% gəlir əldə etmiş, 2000-ci ildə isə "köpük" partlamasından sonra 545% gəlir qazandırmışdı.

Hal-hazırda süni intellektə əsaslanan sistemlər "dərin öyrənmə" metodologiyasından istifadə edərək məlumatlardakı nümunələri tanımaq üçün çalışırlar. Maşın öyrənməsi və dərin öyrənmə maliyyə şirkətləri və treyderlərə strukturlanmamış məlumatları – məsələn, maliyyə xəbərləri olan saytlar, bloqlar, sosial media platformaları və s. – təhlil etməyə və əvvəllər yalnız insan müşahidəsi ilə aşkarlana bilməyən əlaqələri üzə çıxarmağa imkan verir. Bu da qərar qəbul etmədə tamamilə yeni bir yanaşma və dəqiqlik yaradır.

Baxmayaraq ki, keçmiş göstəricilər gələcək gəlirləri dəqiq proqnozlaşdıra bilməz, bu mexanizmlər tarixi hadisələrə bazarın verdiyi reaksiyaları analiz etməklə gələcəkdə müxtəlif bazar şəraitlərində daha effektiv qərarlar verməyə imkan yaradır.

Süni intellektin səhm bazarları sahəsindəki rolu getdikcə genişlənir, əsaslı çevikliklərə yaxın gələcəkdə rast gəlmək olar. 23 hedge-fondun məlumatlarını təhlil edən tədqiqat işi göstərdi ki, bu qurumlar insanlar tərəfindən idarə olunan analoji təşkilatlardan daha uğurlu nəticələr əldə edir. Son altı il ərzində Sİ-əsaslı fondlar illik 8,44% gəlir göstəricisinə çatarkən, klassik fondların qazancı 1,62% ilə 2,62% aralığında qərarlaşıb.

Coalition Development şirkətinin araşdırmalarına əsasən, dünyanın ən iri 12 investisiya bankında işçilərin orta illik maaşı 500 min dollara çatır. Saatda 500 dollar qazanan işçiləri avtomatlaşdırılmış sistemlərlə əvəz etmək motivasiyası başa düşüləndir. Məsələn, 2000-ci ildə dünyanın ən nüfuzlu investisiya banklarından biri olan Goldman Sachs-da bankın iri müştərilərinin göstərişi ilə səhmlər alıb-satan 600 treyder işləyirdi. Hal-hazırda isə bu cəmi 2 nəfərdir, qalan bütün əməliyyatları

robotlar həyata keçirir. Süni intellektin üstünlüyü ondadır ki, o, sadəcə məlumat yığmaqla kifayətlənmir, daimi olaraq təkrar testlər aparır. Maşınlar səhm bazarı iştirakçılarına xəbər saytları, bloqlar, sosial şəbəkələr kimi quruluşsuz məlumatların böyük həcmini sonsuz şəkildə emal etməyə imkan verir. Bu, insan gözünün əvvəllər müəyyən edə bilmədiyi modelləri aşkar etməklə tamamilə yeni ticarət strategiyalarının qurulmasını və qərarların dəqiqliyini təmin edir.[2, s.1142]

Verilənlərin toplanılması

Maşın öyrənməsinin əsas komponentlərindən biri istifadə olunan verilənlərin toplanılmasıdır. Verilənlər mümkün qədər konkret olmalıdır, çünki kiçik bir dəyişiklik belə nəticələrdə əhəmiyyətli dəyişikliklərə səbəb ola bilər.


Bu işdə proqnozlaşdırma alqoritmi kimi "Prophet" alqoritmi istifadə edilmişdir. Verilənlər

Yahoo Finance-dən əldə edilmişdir və fond bazarında AMAZON şirkətinin səhmlərinə aiddir. Bu dəstdə aşağıdakı 5 dəyişən yer alır:

- Açılış (Opening),
- Bağlanış (Closing),
- Minimum (Low),
- Maksimum (High),
- Həcm (Volume).


Açılış, bağlanış, minimum və maksimum dəyişənləri səhmlərin müxtəlif vaxtlardakı təklif qiymətlərini əks etdirir. Həcm isə müəyyən bir müddət ərzində bir sahibindən digərinə keçən səhmlərin sayını göstərir. Model test verilənlər üzərində sınaqdan keçirilir.

FB Prophet Alqoritminin Səhmlərin Proqnozlaşdırılmasında Tətbiqi



Şəkil 2. Amazon səhmlərinin keçmiş dövrə aid və təxmini qiymət göstəriciləri [1, s.24]

Müşahidə edirik ki, modelimiz son 3 il ərzində səhmlər üzrə aparılan müşahidələrlə yaxşı uyğun gəlir. Proqnoz etmək mümkündür və biz aşağıdakı proqnoz nəticələrinə çatdıq:



Şəkil 3. Amazon səhmlərinin tarixi göstəriciləri və gələcək proqnozları [1, s.24]

Diqqət yetirin ki, proqnoz (yaşıl xətt) inam aralığını özündə birləşdirir. Bu, modelin proqnozlaşdırmada dəqiqlik dərəcəsini əks etdirir. Bu halda inam aralığının genişliyi 80% təşkil edir, yəni gözləyirik ki, həqiqi dəyər 80% hallarda bu sərhədlər daxilində yerləşsin. Zaman keçdikcə inam aralığı genişlənir, çünki məlumat mənbəyindən uzaqlaşdıqca təxminin dəqiqliyinin azalması ilə əlaqədar qeyri-müəyyənlik artır.

Nəticə

1. Süni İntellektin Fond Bazarında Yeri və Əhəmiyyəti

Süni intellekt, fond bazarındakı analiz və qərarvermə proseslərini inqilabi şəkildə dəyişdirir. Maşın öyrənməsi və dərin öyrənmə alqoritmləri, bazar təhlilini sürətləndirərək daha dəqiq proqnozlar və sərmayə qərarları əldə etməyə imkan yaradır. Süni intellektin tətbiqi, investorların səhmlərin qiymət dəyişikliklərini daha effektiv şəkildə izləməsinə və buna əsaslanaraq daha doğru qərarlar vermələrinə kömək edir.

2. Proqnozlaşdırma və Avtomatlaşdırma Sistemləri

Süni intellektin əsas tətbiqlərindən biri, avtomatlaşdırılmış proqnozlaşdırma alqoritmləridir. FB Prophet kimi alqoritmlər, tarixi məlumatlara əsaslanaraq gələcək qiymət dəyişikliklərini proqnozlaşdırmağa imkan verir. Bu alqoritmlər, investorların səhmlərin qiymət dəyişmələrini daha yaxşı təhlil etmələrini təmin edir və onların gələcəkdəki bazar şəraitinə uyğun qərarlar vermələrinə kömək edir.

3. Risk İdarəetməsi və Portfel İdarəçiliyi

Süni intellekt, portfel idarəçiliyində də mühüm rol oynayır. Avtomatlaşdırılmış sistemlər, riskləri idarə etməklə yanaşı, portfeli müxtəlifləşdirmə və sərmayə qərarlarını daha dəqiq və vaxtında qəbul etmə imkanı təqdim edir. Dərin öyrənmə və

gücləndirici öyrənmə sistemləri, bazarın dəyişən şəraitlərinə sürətlə uyğunlaşaraq daha etibarlı nəticələr təqdim edir.
4. Gələcək Perspektivlər və Çətinliklər
Süni intellektin fond bazarlarında tətbiqi, gələcəkdə daha da genişlənəcəkdir. Lakin, süni intellektin proqnozlaşdırdığı nəticələr hər zaman doğru olmaya bilər. Keçmiş məlumatlar əsasında öyrədilmiş alqoritmlər, yeni bazar hadisələrini nəzərə ala bilməz, bu da gözlənilməz nəticələrə səbəb ola bilər. Buna görə də insan nəzarəti və doğru risk idarəetmə yanaşmaları hələ də vacibdir.
Bu nəticələr göstərir ki, süni intellektin tətbiqi fond bazarlarında ticarət və sərmayə qərarlarının effektivliyini artırır, lakin hələ də bəzi məhdudiyyətlər mövcuddur və insan müdaxiləsi mütləq vacibdir.

Xülasə

Məqalə süni intellektin fond bazarındakı tətbiqlərini və investorların sərmayə qərarlarına təsirini araşdırır. Süni intellekt maşın öyrənməsi və dərin öyrənmə alqoritmləri vasitəsilə qiymət dəyişikliklərini daha dəqiq proqnozlaşdırmağa imkan verir. Portfel idarəçiliyində risklər azaldılır və avtomatlaşdırılmış qərarvermə prosesləri ilə sərmayə strategiyaları optimallaşdırılır. Lakin süni intellekt keçmiş məlumatlar əsasında işlədiyi üçün bazardakı yeni hadisələri proqnozlaşdırmaqda çətinliklər mövcuddur və insan nəzarəti hələ də vacibdir. Gələcəkdə bu texnologiyaların inkişafı daha dəqiq qərarların alınmasına şərait yaradacaq.

MAMMADLİ SAHİB

ARTIFICIAL INTELLIGENCE IN THE STOCK MARKET: TRENDS IN INVESTMENT DECISIONS AND AUTOMATION

Summary

The article explores the application of artificial intelligence (AI) in the stock market and its impact on investment decisions. AI, through machine learning and deep learning algorithms, enables more accurate predictions of price changes. Risk is reduced in portfolio management, and investment strategies are optimized through automated decision-making processes. However, AI relies on historical data, which may struggle to predict new market events, making human oversight still essential. In the future, the development of these technologies will enable more precise decision-making.

Краткое содержание:

Статья исследует применение искусственного интеллекта (ИИ) на фондовом рынке и его влияние на инвестиционные решения. ИИ, используя алгоритмы машинного обучения и глубокого обучения, позволяет более точно прогнозировать изменения цен. В управлении портфелем риски снижаются, а инвестиционные стратегии оптимизируются через автоматизированные

процессы принятия решений. Однако ИИ опирается на исторические данные, что может затруднить прогнозирование новых рыночных событий, поэтому человеческий контроль по-прежнему остается важным. В будущем развитие этих технологий позволит принимать более точные решения.

Ədəbiyyat siyahısı:

1. Агнон Х.О, Прогнозирование Цены Акций С Использованием Машинного Обучения, 2021, 21.
2. Филиппова Д.С, Искусственный Интеллект На Фондовом Рынке, 2021, 1140.
3. Ness Kotecha, Artificial Intelligence in the Stock Market: The Trends and Challenges Regarding AI-Driven Investments, 2025, 709.
4. Badri Narayan Mohapatra, Bhagwat Nagorgoje, Prajwal Zurunge, Suraj More, Artificial Intelligence in stock market investment, 2021, 96.
5. Lester Pereira, The Disruption of AI in stock markets: A new era of investment decisions and automation, 2025. https://www. forbes. com/councils/forbestechcouncil/2025/03/06/the-disruption-of-ai-in-stock-markets-a-new-era-of-investment-decisions-and-automation/

Rəyçi: f.-r.e.d., dos. Kərimov Ədalət Kərim

Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu, *ISSN 2224-9257*
Filologiya məsələləri № 3, 2025
Səh. ————————

YASIN BABAZADƏ
Naxçıvan Dövlət Universiteti
https://orcid.org/0000-0002-3727-3622
yasinbabazade@ndu.edu.az

FRAZEOLOGİZMLƏRİN BƏDİİ-ESTETİK YÜKÜ VƏ İNGİLİS DİLİNƏ TƏRCÜMƏDƏ MƏNA-FORMA MÜNASİBƏTLƏRİ (MÜASİR AZƏRBAYCAN POEZİYASI NÜMUNƏSİNDƏ)

XÜLASƏ

Frazeologizmlər hər bir xalqın dilində əsrlərlə formalaşmış düşüncə tərzinin, dünyagörüşünün və mədəni dəyərlərinin daşıyıcısıdır. Poeziyada isə bu dil vahidləri yalnız semantik deyil, həm də estetik və emosional missiya daşıyır. Bəzi hallarda şairin dil-üslubunun mükəməlliyi məhz onun dilində işlədilən frazeologizmlərlə ölçülür. Müasir Azərbaycan poeziyasında frazeoloji vahidlər şairlərin fərdi üslubunu, milli poetik dünyagörüşünü və bədii ifadə vasitələrinin zənginliyini göstərən əsas komponentlərdən biri kimi çıxış edir. Lakin bu frazeologizmlərin başqa dillərə, xüsusən də ingilis dilinə tərcüməsi zamanı mənanın və formanın saxlanılması ciddi dilçilik və tərcümə problemləri yaradır.

Bu məqalənin məqsədi müasir Azərbaycan poeziyasında işlənən frazeologizmlərin bədii-estetik yükünü təhlil etmək, onların ingilis dilinə tərcüməsi zamanı yaranan mənalandırma və forma uyğunluğu məsələlərini araşdırmaqdır. Tədqiqat prosesində müqayisəli təhlil, leksik-semantik təhlil və diskurs analiz metodlarından istifadə edilmişdir. Azərbaycan dilindən ingilis dilinə edilmiş poetik tərcümələr nümunəsində frazeoloji vahidlərin necə çevrildiyi və bu zaman bədii-estetik yükün qorunub-qorunmadığı araşdırılmışdır.

Aparılan ilkin təhlillər göstərir ki, frazeologizmlərin tərcüməsində semantik və struktur uyğunluq saxlanılmadıqda, poeziyanın əsas məna qatları və estetik təsir gücü zəifləyə bilir.

Açar sözlər: *Frazeologizmlər, müasir Azərbaycan poeziyası, bədii-estetik funksiya, tərcümə problemləri*, *məna və forma uyğunluğu*

GİRİŞ

Frazeologizmlər dilin sabit və bütöv mənaya malik ifadələri olmaqla yanaşı, həm də milli-mədəni dəyərlərin daşıyıcısı kimi çıxış edir. Onlar məcazi mənaya, emosional yüklənməyə və ekspressivliyə malik olduqları üçün poeziyada obrazlılığın artırılmasında mühüm rol oynayır. Frazeoloji vahidlərin işlədilməsi şairin fikrini daha dərin və təsirli formada ifadə etməsinə imkan verir. Məhz bu xüsusiyyətlərinə görə frazeologizmlər poetik mətndə həm semantik, həm də estetik funksiyaları yerinə yetirir.

Tədqiqatçılar qeyd edirlər ki, frazeologizmlər poetik diskursda metaforik və simvolik mənaların formalaşmasında aktiv komponentlərdir. Məsələn, Q.Qarayev frazeoloji vahidlərin dilin bədii qatında oynadığı rolu xüsusi vurğulayaraq qeyd edir

ki, “bu vahidlər milli dilin obrazlılıq imkanlarının poetik sistemə daşınmasında körpü rolunu oynayır” (4, s. 112).

ƏSAS HİSSƏ

İngilis dilində də bədiiliyin təmin olunmasında bu vahidlər geniş istifadə olunur. Dilçi Sərcan Sadiqova bu haqda qeyd edir: “İngilis poeziyasında frazeoloji birləşmələr geniş istifadə edilir və dilin milli xüsusiyyətlərini özündə aydın şəkildə əks etdirir. Frazeoloji birləşmələr danışıq dilinin ən zəngin ifadə vasitələrinə xas, xalqla əlaqəli geniş məlumat verməyə malik olan söz birləşmələri və həmçinin ən qapalı ifadələrdir” (6, s. 99).

Bundan əlavə, E.Kərimovun araşdırmalarında frazeologizmlərin poeziyada kontekstual mənaya uyğun yenidən işlənməsi, bəzən transformasiyaya uğraması qeyd olunur ki, bu da müəllifin üslubunu fərqləndirən əsas cəhətlərdən biri hesab olunur (3, s. 87).

Frazeoloji vahidlər həmçinin milli-mənəvi kimliyin poeziyada təzahüründə də vacib elementdir. Onlar sadəcə bir dil faktı yox, eyni zamanda xalqın tarixi, düşüncə tərzi və dünyaya baxış bucağını əks etdirən poetik işarələrdir. Bu baxımdan, müasir Azərbaycan poeziyasında frazeologizmlər yalnız bədii bəzək vasitəsi deyil, eyni zamanda dərin mədəni təbəqələrin daşıyıcısı kimi çıxış edir.

Bu cür ağır missiya daşıyan və olduqca çətin dil faktı olan frazeologizmlərin tərcümə prosesi də çətinlik yaradır. Tərcümə zamanı frazeologizmlərin yalnız leksik mənası deyil, həm də onların mədəni, emosional və kontekstual çalarları nəzərə alınmalıdır. Tərcüməçi, orijinal mətndəki bədii-estetik yükü qoruyaraq, hədəf dildə eyni təsiri yaratmağa çalışmalıdır. Bu isə bəzən birbaşa tərcümədən daha çox, ekvivalent ifadənin seçilməsini və ya adaptasiyanı tələb edir. Əks halda, poetik mətnin ruhu itə, frazeoloji vahidlərin estetik və məna tutumu zədələnə bilər. Bu haqda Sərcan Sadiqova qeyd edir ki, “Xalqın mədəniyyəti və yaşayış tərzindən məlumatlı ola bilməyən mütərcimlər çox zaman belə ifadələrin tərcüməsində çətinliklərlə üzləşir və nəticədə proses zamanı orijinallıqdan uzaqlaşa bilirlər. Frazeologizmlər kontekstdən asılı olaraq fərqli formada və müxtəlif prinsiplər əsasında tərcümə oluna bilər. Bu, tərcüməçidən yaradıcılıq, yəni həm məxəz, həm də hədəf dilinə böyük həssaslıq tələb edir” (6, s. 99).

Frazeoloji vahidlərin tərcüməsi dilçilikdə və xüsusilə poetik tərcümədə ən mürəkkəb məsələlərdən biri hesab olunur. Çünki frazeologizmlər sabit struktur və məcazi məna ilə yanaşı, özündə müəyyən tarixi, milli və mədəni komponentləri də ehtiva edir, bəzən kökündə bir açıqlama və ya mətn böyük bir ritual daşıya bilir. Məhz bu səbəbdən onların başqa bir dilə, xüsusilə də İngilis dilinə tərcüməsində leksik və semantik uyğunluğun qorunması ilə yanaşı, bədii-estetik dəyərin də saxlanılması vacib şərtdir.

Frazeoloji birləşmələrin ingilis dilinə tərcümə zamanı rast gəldiyimiz əsas problemlər və ya məqamlar, əsasən, məna uyğunsuzluğu, mədəni fərqlər, struktur fərqləri, bədii-estetik effektin itməsi sıralana bilər.

Bu çətinliklərin aradan qaldırılması ilə bağlı bir çox strategiyalar mövcuddur. Məşhur dilçi alim Mona Baker frazeoloji vahidlərin tərcüməsində bir neçə effektiv strategiyanı müəyyənləşdirmişdir. Onun ortaya qoyduğu tərcümə strategiyaları: Ekvivalent frazeologizmlə tərcümə. Bu üsulda hədəf dildə həmin frazeologizmə uyğun sabit ifadə seçilir. Bu ən uyğunudur, ancaq bütün hallarda bu metotdan istifadə etmək mümkün deyil. Bu metoda uyğun nümunəyə diqqət edək.

Başına daş düşsün

A pox on you! və ya *Curse you!*

Göründüyü kimi tam eyni mənaya gəlməsə də ekvivalent frazeoloji vahidlərlə əvəz olunmuşdur. Hər iki nümunədə mədəni kontekstə uyğun olaraq bərabər emosional təsir imkanları mövcuddur (1, s. 71).

Digər bir metod isə tərcümə olunmayan vahidlərin adaptasiyası kimi qeyd olunur. Belə ki, bu metodda orijinal frazeologizm tərcümə olunur, lakin məcazi mənanı verən ifadə seçilir.

Dili topuq çalmağa başladı

He started to talk nonsense

Görüldüyü kimi bu nümunənin tərcüməsi zamanı struktur dəyişsə də, məna qorunur (5, s. 125).

Digər bir metod da Literal (sözbə-söz) tərcümə metodudur. Ancaq bu metod bir çox hallarda effektli olmur. Çünki tərcümə zamanı anlaşılmazlıq yaranır. Bu metoddan istifadə digərlərinə nisbətən məhdud istifadə imkanlarına malikdir.

Gözünün ağı-qarası

The white and black of the eye

Bu nümunədə bu cür tərcümə ingilisdilli oxucu üçün qeyri-müəyyən və anlaşılmaz ola bilər. Mahiyyət kənarda qalır və sadəcə sözün hərfi tərcüməsi orijinal ifadənin mənasını və məqsədini tam ötürə bilmir. Bu cür tərcümə edildikdə, frazeologizmin məcazi mənası itir, və nəticədə oxucuya yalnız sözün fiziki mənası ötürülür, amma ifadənin emosional və mədəni yükü çatmır. Bu səbəbdən, "Gözünün ağı-qarası" kimi frazeoloji ifadələrin tərcüməsində daha uyğun ekvivalentlər tapılmalı və ya onları tərcümə edərkən mədəni uyğunluqlar nəzərə alınmalıdır ki, mənanın tam ötürülməsi mümkün olsun. Başqa bir poetik nümunə əsasında metoda diqqət edək.

Mirvarid Dilbazinin “Ana laylası” şeirindəki “Qara günlər başım üstə kölgə salanda” misrasında “qara günlər” frazeologizmi mənfi hadisələr, bədbəxtlik anlamındadır.

Əgər bu ifadə ingilis dilinə *“Black days cast shadow over my head”* kimi tərcümə olunsa, hərfi məna saxlanılsa da, ifadənin milli və poetik yüklü dərinliyi itə bilər. Daha uğurlu tərcümə variantı: “Hard times darkened my soul” və ya “Misfortunes overshadowed my life” – bu halda həm məna, həm də emosional təsir qorunur (2, s. 58).

Yaxud Zəlimxan Yaqub “Köç mənim” şeirində “yaxasından yapışmaq”

frazeoloji ifadəsinin ingilis dilinə tərcüməsi zamanı bu üç metoddan istifadə imkanlarına diqqət edək (7).

Ekvivalent frazeologizmlə tərcümə: Əgər ingilis dilində "yaxasından yapışmaq" ifadəsinə bənzər bir frazeoloji vahid mövcuddursa, bu zaman onunla əvəzləmək mümkündür. Məsələn, "to grab someone by the collar" ifadəsi həm vizual, həm də emosional təsir baxımından uyğun sayılır. Bu tərcümə həm struktur, həm də məna baxımından orijinala yaxın görünür:

"Yaxasından yapışmaq" → "To grab him by the collar"

Lakin qeyd etmək lazımdır ki, bu cür ifadələr kontekstdən asılı olaraq fərqli mənalar verə bilər, buna görə də ehtiyatla yanaşılmalıdır.

Adaptasiya (uyğunlaşdırma) metodu: Bu metodda ifadənin məcazi mənasına uyğun ingiliscə bənzər bir təsvir seçilir. Məsələn, “yaxasından yapışmaq” bəzən qəti şəkildə tələb etmək, kiminsə üzərinə getmək, günahlandırmaq kimi mənalarda işlənə bilər. Bu halda uyğun bir ifadə belə ola bilər:

"To confront someone strongly" və ya "To hold someone accountable"

Bu tərcümə ifadənin mahiyyətini qoruyur və ingilisdilli oxucu üçün daha aydın olur. Literal tərcümə: Sözbə-söz tərcümə metodu, məsələn, "To hold his collar" şəklində verilsə, bu, çox zaman anlaşılmaz qalacaq və ifadənin poetik gücü itməyə məhkum olacaq. Bu tip tərcümə frazeologizmin emosional və semantik yükünü daşıya bilmədiyindən, yalnız dilin struktur baxımından analizində məhdud istifadə edilə bilər.

NƏTİCƏ

Frazeoloji ifadələrin tərcüməsində əsas çətinlik onların yalnız söz mənasını deyil, həm də milli dünyagörüşünü, tarixi və mədəni kodları ötürməsidir. Məsələn, "qara günlər" ifadəsi Azərbaycan mədəniyyətində bədbəxtlik və çətinlikləri simvolizə edir. Bu cür frazeologizmlərin ingilis dilinə tərcüməsində hərfi yanaşma ("black days") effektiv olmur, çünki mədəni konnotasiya itir. Bunun əvəzinə, məna baxımından uyğun olan "hard times" və ya "misfortunes" kimi ifadələr daha dəqiq seçimdir. Frazeoloji ifadələrin tərcüməsində üç əsas metod (ekvivalentlə əvəz, adaptasiya, hərfi tərcümə) tətbiq olunur, lakin onların uğuru kontekstdən asılıdır. Ekvivalent frazeologizmlərin tapılması ideal həlldir, lakin bu hər zaman mümkün olmur. Adaptasiya metodu mənanı qoruyur, lakin bəzən mədəni spesifikası itir. Hərfi tərcümə isə demək olar ki, həmişə uğursuz olur. Buna görə də, tərcüməçi hər bir halda mətnin ümumi estetik və semantik tələblərini nəzərə alaraq optimal üsulu seçməlidir.

ƏDƏBİYYAT SİYAHISI

1.Baker, M. (1992). *In Other Words: A Coursebook on Translation*. London: Routledge.

2.Əliyeva, R. (2021). *Azərbaycan frazeologizmlərinin tərcümə problemləri*. Bakı: Elm və Təhsil.

3.Kərimov, E. (2019). *Müasir Azərbaycan poeziyasında frazeologizmlərin semantik və funksional xüsusiyyətləri*. Bakı: ADPU nəşriyyatı.

4.Qarayev, Q. (2015). *Azərbaycan dilində frazeoloji vahidlərin poetik funksiyaları*. Bakı: Elm və Təhsil.

5.Newmark, P. (1988). *A Textbook of Translation*. New York: Prentice Hall.

6.Sərcan İslam qızı Sadiqova "İngilis dilində say tərkibli frazeoloji birləşmələr" adlı tamalanmış dissertasiya işi, Naxçıvan-2023 s. 99. Cəm 146

7.Zəlimxan Yaqub "Köç mənim" 2019. http://goyce.az/news.php?id=709

ABSTRACT

Yasin Babazade

THE AESTHETIC VALUE OF PHRASEOLOGISMS AND MEANING-FORM RELATIONS IN TRANSLATION INTO ENGLISH
(ON THE EXAMPLE OF MODERN AZERBAIJANI POETRY)

Phraseological units are carriers of a nation's centuries-old way of thinking, worldview, and cultural values. In poetry, these linguistic units fulfill not only a semantic function but also serve aesthetic and emotional purposes. Sometimes, the perfection of a poet's language and style is measured precisely by the richness of phraseologisms used. In modern Azerbaijani poetry, phraseological expressions are one of the key components reflecting the poet's individual style, national poetic worldview, and the richness of artistic expression. However, translating these expressions into other languages—especially into English—poses significant linguistic and translational challenges related to preserving both meaning and form. This article aims to analyze the aesthetic and emotional load of phraseologisms in modern Azerbaijani poetry and to examine the issues related to their semantic interpretation and form compatibility when translated into English. The study employs methods of comparative analysis, lexical-semantic analysis, and discourse analysis. The research investigates how phraseological expressions are rendered in poetic translations from Azerbaijani to English, and whether their aesthetic-emotional value is preserved. Preliminary findings indicate that when semantic and structural consistency is not maintained in translation, the core meaning layers and artistic impact of poetry can be significantly diminished.

Keywords: Phraseological units, modern Azerbaijani poetry, aesthetic function, translation issues, meaning and form compatibility

Azərbaycan Milli Elmlər Akademiyasi M. Füzuli adına Əlyazmalar Institutu, *ISSN 2224-9257*
Filologiya məsələləri № 3, 2025
Səh. ————————

РЕЗЮМЕ

Ясин Бабазаде

ХУДОЖЕСТВЕННО-ЭСТЕТИЧЕСКАЯ НАГРУЗКА ФРАЗЕОЛОГИЗМОВ И СООТВЕТСТВИЕ СМЫСЛА И ФОРМЫ ПРИ ПЕРЕВОДЕ НА АНГЛИЙСКИЙ ЯЗЫК
(НА ПРИМЕРЕ СОВРЕМЕННОЙ АЗЕРБАЙДЖАНСКОЙ ПОЭЗИИ)

Фразеологизмы являются носителями многовекового образа мышления, мировоззрения и культурных ценностей каждого народа. В поэзии эти языковые единицы выполняют не только семантическую, но и эстетическую, эмоциональную функции. В некоторых случаях мастерство поэта определяется именно по богатству использования фразеологических выражений. В современной азербайджанской поэзии фразеологизмы выступают одним из основных компонентов, отражающих индивидуальный стиль поэта, национальное поэтическое мировоззрение и богатство художественных средств выражения.

Однако при переводе этих выражений на другие языки, особенно на английский, возникают серьезные лингвистические и переводческие проблемы, связанные с сохранением смысла и формы. Цель данной статьи — проанализировать художественно-эстетическую нагрузку фразеологизмов в современной азербайджанской поэзии и рассмотреть вопросы, возникающие при их переводе на английский язык в контексте смысловой и формальной адекватности. В исследовании использованы методы сравнительного анализа, лексико-семантического анализа и дискурсивного анализа. На основе примеров поэтического перевода с азербайджанского на английский язык рассматривается, как переводятся фразеологизмы и сохраняется ли при этом их художественно-эстетическая ценность. Предварительные результаты показывают, что несоблюдение семантического и структурного соответствия при переводе может значительно ослабить смысловые слои и художественное воздействие поэтического текста.

Ключевые слова: Фразеологизмы, современная азербайджанская поэзия, художественно-эстетическая функция, переводческие проблемы, соответствие смысла и формы

Rəyçi: filologiya üzrə fəlsəfə doktoru, dosent Arifə Zeynalova

Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu, *ISSN 2224-9257*
Filologiya məsələləri № 3, 2025
Səh. ————————

GÜNEL CEYHUN QIZI ZÖHRABOVA
Bakı Slavyan Universiteti
E-mail: gunelzohrabova77@gmail.com

ADLAR VƏ ONLARIN AZƏRBAYCAN DİLÇİLİYİNDƏ ÖYRƏNİLMƏSİ

Xülasə

Onomastika dildə olan xüsusi adların toplusu deməkdir. Lüğət tərkibinin böyük bir hissəsini formalaşdırır. Azərbaycan dilçiliyində bu sahə nisbətən yeni olsa da, bir çox elmi tədqiqatlar aparılmış və müəyyən nəticələr əldə olunmuşdur. Hər bir elm sahəsində olduğu kimi onomastikada da tədqiq tarixinin öyrənilməsi olduqca vacibdir. Məqalədə dilçiliyin bir bölməsi kimi onomastikanın tədqiqi məsələləri Azərbaycan dilçiliyində araşdırılır. Dilçilik tariximizdə onomastik vahidlərin tədqiqinə xüsusi töhfələr vermiş alimlər – Afad Qurbanov, Aydın Paşayev və digər tədqiqatçıların elmi araşdırmaları təhlil edilir. Onomastik tədqiqatlar bir millətin tarixi yaddaşının qorunub saxlanılmasına və gələcək nəsillərə çatdırılmasına xidmət edir. Məqalə Azərbaycan onomastikasının nəzəri əsaslarını və bu sahədə aparılan tədqiqatların əhəmiyyətini vurğulayır.

Məqalədə Azərbaycan dilçiliyində onomastik vahidlərin, xüsusilə də antroponimlərin tədqiqinə dair aparılmış elmi işlər, tədqiqat istiqamətləri və əsas nəticələr ümumiləşdirilmişdir. Onomastika xüsusi adların toplusunu öyrənən elm sahəsi kimi təqdim edilir və bu sahənin alt bölməsi olan antroponimikanın insan adlarının mənşəyi, quruluşu, funksional və mədəni yeri ilə bağlı məsələləri araşdırdığı vurğulanır. Azərbaycan antroponimikasının zənginliyi, tarixi qatlılığı və regional xüsusiyyətləri bu sahənin əsas araşdırma predmetlərindən biri kimi göstərilir. Məqalədə XIX əsrdən başlayaraq antroponimikanın tədqiq tarixinə nəzər salınır, A.Bakıxanovun "Adlar və titullar" əsəri ilk elmi mənbə kimi qeyd olunur. Keçən əsrin ortalarından etibarən bu sahənin sistemli şəkildə tədqiqinə başlanıldığı və Afad Qurbanov, Mədəd Çobanov, Aydın Paşayev, Musa Adilov, Bəhruz Abdullayev, Osman Mirzəyev kimi alimlərin bu istiqamətdə əhəmiyyətli töhfələr verdiyi bildirilir. Onların elmi əsərləri, monoqrafiyaları və izahlı lüğətləri Azərbaycan onomastikasının elmi əsaslarını formalaşdırmış, antroponimlərin təsnifi, semantikası, orfoqrafiyası və funksional cəhətləri geniş şəkildə araşdırılmışdır. Eyni zamanda, onomastik lüğətçiliyin inkişafı və bu sahədə hazırlanmış əsas lüğətlər – "Azərbaycan şəxs adlarının izahlı lüğəti", "Adlarımız", "Azərbaycan şəxs adlarının ensiklopediyası" və digər nəşrlər barədə məlumat verilir. Bu lüğətlərin həm nəzəri, həm də praktiki baxımdan əhəmiyyəti qeyd olunur. Nəticə olaraq, məqalə Azərbaycan onomastikasının tarixi inkişaf yolunu, elmi əsaslarını və gələcək

tədqiqatlar üçün zəmin yaradan fundamental araşdırmaları ümumiləşdirir, bu sahənin dilçilik və humanitar elmlər üçün mühüm əhəmiyyət kəsb etdiyini vurğulayır.

Açar sözlər: dilçilik, onomastika, tədqiqat, onomastik vahidlər.

Гюнель Джейхун кызы Зехрабова

ИМЕНА И ИХ ИЗУЧЕНИЕ В АЗЕРБАЙДЖАНСКОМ ЯЗЫКОВЕДЕНИИ.

Резюме

Ономастика — это совокупность собственных имён в языке. Она составляет значительную часть словарного состава. Хотя данная область в азербайджанском языкознании относительно новая, проведено множество научных исследований и достигнуты определённые результаты. Как и в любой другой научной области, изучение истории ономастики имеет большое значение. В статье рассматриваются вопросы исследования ономастики как раздела языкознания в азербайджанской лингвистике. Анализируются научные работы таких учёных, как Афад Курбанов, Айдын Пашаев и других исследователей, внёсших значительный вклад в изучение ономастических единиц в истории нашего языкознания. Ономастические исследования способствуют сохранению исторической памяти народа и её передаче будущим поколениям. Статья подчёркивает теоретические основы азербайджанской ономастики и значение проводимых в этой области исследований.

В статье обобщены научные исследования, направления и основные результаты, связанные с изучением ономастических единиц, особенно антропонимов, в азербайджанском языкознании. Ономастика представляется как наука, изучающая совокупность собственных имён, а её подраздел антропонимика занимается вопросами происхождения, структуры, функционального и культурного значения имён собственных. Подчёркивается богатство азербайджанской антропонимии, её историческая слоистость и региональные особенности. В статье прослеживается история исследований антропонимики, начиная с XIX века, в частности отмечается труд А.Бакыханова «Имена и титулы» как первое научное произведение в данной области. С середины прошлого века начались системные исследования, в результате чего значительный вклад внесли такие учёные, как Афад Курбанов, Мадед Чобанов, Айдын Пашаев, Муса Адилов, Бехруз Абдуллаев, Осман Мирзоев и другие. Их научные труды, монографии и толковые словари заложили научную основу азербайджанской ономастики, углублённо изучая классификацию, семантику, орфографию и функциональные особенности антропонимов. Также в статье освещается развитие ономастической лексикографии и представлена информация о таких значимых словарях, как «Толковый словарь азербайджанских личных имён», «Наши имена»,

«Энциклопедия азербайджанских личных имён» и других. Указывается как теоретическая, так и практическая значимость этих работ. В заключение подчёркивается, что статья обобщает историческое развитие, научные основы и фундаментальные исследования азербайджанской ономастики, демонстрируя её важность как для языкознания, так и для гуманитарных наук в целом.

Ключевые слова: языкознание, ономастика, исследование, ономастические единицы.

Gunel Jeyhun qizi Zohrabova

NAMES AND THEIR STUDY IN AZERBAIJANI LINGUISTICS.

Abstract

Onomastics refers to the collection of proper names in a language. It forms a significant part of the vocabulary. Although this field is relatively new in Azerbaijani linguistics, numerous scientific studies have been conducted, and certain results have been achieved. As in any scientific field, studying the history of onomastics is of great importance. This article explores the study of onomastics as a branch of linguistics within Azerbaijani linguistics. It analyzes the scientific research of scholars such as Afad Gurbanov, Aydin Pashayev, and other researchers who have made valuable contributions to the study of onomastic units in the history of Azerbaijani linguistics. Onomastic studies serve to preserve a nation's historical memory and pass it on to future generations. The article emphasizes the theoretical foundations of Azerbaijani onomastics and the importance of research conducted in this field.

The article summarizes scientific studies, research directions, and key findings related to the study of onomastic units, particularly anthroponyms, in Azerbaijani linguistics. Onomastics is presented as a field that investigates the totality of proper names, while its subfield, anthroponymy, focuses on the origin, structure, functional, and cultural significance of personal names. The richness, historical layering, and regional diversity of Azerbaijani anthroponymy are emphasized as central aspects of the research. The article traces the history of anthroponymic studies beginning from the 19th century, highlighting A. Bakikhanov's "Names and Titles" as the first scholarly work in this field. From the mid-20th century onward, systematic studies began, with significant contributions made by scholars such as Afad Gurbanov, Madad Chobanov, Aydın Pashayev, Musa Adilov, Bahruz Abdullayev, and Osman Mirzayev. Their scientific works, monographs, and explanatory dictionaries laid the foundation of Azerbaijani onomastics by extensively analyzing the classification, semantics, orthography, and functions of anthroponyms. The development of onomastic lexicography is also discussed, with references to important dictionaries such as The Explanatory Dictionary of Azerbaijani Personal Names, Our Names, and The Encyclopedia of Azerbaijani Personal Names. These works are highlighted for

their theoretical and practical value. In conclusion, the article offers a comprehensive overview of the historical development, scholarly foundations, and essential research in Azerbaijani onomastics, underscoring its significance for both linguistics and the broader field of the humanities.

Keywords: linguistics, onomastics, research, onomastic units.

Azərbaycan dilçiliyində onomastik vahidlərin, xüsusilə də antroponimlərin tədqiqi qədim və zəngin elmi ənənəyə malikdir. Ad – insanın fərdi kimliyini müəyyən edən, sosial-mədəni kod daşıyan fundamental dil vahididir. Onun əsas funksiyaları nominativlik, fərqləndiricilik və sosial tanıdılma kimi təsnif olunsa da, dil və cəmiyyətin qarşılıqlı münasibətlər sistemində bu funksiyalar daha geniş semantik yüklə zənginləşir.

Adların tədqiqi ilə məşğul olan elm sahəsi onomastika, bu sahədəki xüsusi altbölmə isə antroponimika adlanır. Antroponimika insan adlarının mənşəyi, formalaşma mexanizmləri, struktur xüsusiyyətləri və funksional-mədəni yeri ilə bağlı araşdırmalar aparır. Bu istiqamətdə aparılan elmi işlərdə Azərbaycan antroponimiyasının zənginliyi, regional fərqlilikləri, tarixi təbəqələşməsi və mədəni-mənəvi daşıyıcılıq xüsusiyyətləri geniş şəkildə öyrənilmişdir.

Antroponimika təkcə adların dil quruluşunu deyil, eyni zamanda adqoyma mədəniyyətini, dini təsirləri, cəmiyyətin dəyərlər sistemini də əks etdirir. Məsələn, bir çox valideynlər övladlarına dini, tarixi və ya müasir populyar mədəniyyətdən təsirlənmiş adlar verir. Bu da antroponimik materialların daim yenilənməsinə və dəyişməsinə səbəb olur.

Azərbaycan dilçiliyində antroponimika sahəsi geniş tədqiq olunan və daim aktuallığını qoruyan sahələrdən biridir. Bu elm sahəsi insan adlarının, soyadların, ata adlarının, ləqəb və təxəllüslərin mənşəyi, quruluşu, semantikası və tarixi inkişafını öyrənir. Antroponimlər xalqın dili, mədəniyyəti, dini inancı, tarixi keçmişi və ictimai münasibətləri ilə sıx bağlı olduğu üçün onların tədqiqi həm dilçilik, həm də ümumilikdə humanitar elmlər üçün xüsusi əhəmiyyət daşıyır.

Onomastika xüsusi adların toplusu kimi Azərbaycan dilçiliyində 1950-ci illərdən etibarən tədqiq edilməyə başlanılmışdır. Dilçiliyin gənc sahəsi olan onomastika elminin inkişafı üçün bir çox tədqiqatçı alimlərimiz bu istiqamətdə təqdirəlayiq işlər görmüşlər. Onomastikanın öyrənilməsi dilçilik elmi ilə məhdudlaşmır, həmçinin tarix, coğrafiya və sosial elmlər üçün böyük əhəmiyyət kəsb edir. Bu sahənin araşdırılması dilin inkişafı, təkamülü, xalqların kökləri və bir sıra etnik dəyişikliklər barədə məlumatlar əldə etməyə imkan verir.

Azərbaycan dilçiliyində onomastik vahidlər bir çox tədqiqatçı alimlərimiz tərəfindən həm nəzəri, həm də praktik cəhətdən araşdırılmışdır. Xüsusilə də, A.Qurbanov, M.Çobanov, A.Paşayev, M.Adilov, Ə.Tanrıverdi, Z.Sadıqov, B.Abdullayev, O.Mirzəyevin adı vurğulanmalıdır.

Onomastikanın tədqiqinin keçən əsrin ortalarından etibarən başlanıldığını desək də, dilçilik tariximizdə ilk tədqiqat xarakterli iş XIX əsrə aiddir. 1843-cü ildə çap

edilən A.Bakıxanovun "Adlar və titullar" əsəri ilk tədqiqat xarakterli bir iş kimi antroponimiyamız haqqında müəyyən fikir formalaşdırır. Müəllif əsərdə titul bildirən apelyativlərdən yaranmış antroponimlərdən bəhs etmişdir.

Bu sahədə yazılan ilk dərslik isə Mədəd Çobanova aiddir. "Azərbaycan antroponimiyasının əsasları" adlı dərslikdə müəllif antroponimlərin tədqiq tarixini, onların inkişafını, orfoqrafiyasını, poetikliyini araşdırmışdır.

Keçən əsrdə bu sahənin tədqiqində Afad Qurbanovun rolu əvəzolunmazdır. İlk dəfə 1986-cı ildə onomastika problemlərinə dair konfrans məhz Qurbanovun rəhbərliyi ilə keçirilmişdir. Həmin dönəmdən etibarən bu sahə ilə bağlı bir çox əsərlər, monoqrafiyalar, məqalələr çap olunmuşdur. A.Qurbanov öz əsərlərində dilimizin onomalogiyasını sistemli şəkildə izah etmiş, onomalogiyanın problemləri, təsnifi, şöbələri, metodları, inkişafı, üslubi xüsusiyyətlərini şərh etmişdir. Müəllifin "Azərbaycan şəxs adları ensiklopediyası" kitabı xüsusən təqdirəlayiqdir. Ensiklopediyada antroponimlər nəzəriyyəsinə dair mülahizələr, onların yaranma yolları və mənşəcə tərkibi təsvir etmişdir. Həmçinin antroponimlərin quruluşca növlərinə və onların leksik – semantik xüsusiyyətlərini araşdırmışdır. Qurbanov, eyni zamanda, əsərdə adseçmə zövqündən, valideynlərin advermə zamanı müraciət etdiyi advermə ənənələrindən bəhs etmişdir. Bundan başqa, antroponimlərin orfoqrafiyası və orfoepiyası məsələlərinə də toxunulmuşdur. Ensiklopediyanın bir hissəsi isə adların ensiklopedik şərhinə həsr edilmişdir. Bu bölmə, təbii olaraq, dilimizin bütün şəxs adlarını deyil, sadəcə leksik – semantik mənası bir qədər aydın olmayan şəxs adlarını əhatə edir. Ensiklopedik şərhlə yanaşı, antroponimlərin əlifba sırası üzrə siyahısı verilmişdir.

Azərbaycan dilçiliyində mühüm yeri olan tədqiqatçı alimlərimizdən biri də Aydın Paşayevdir. Onu əbəs yerə "Azərbaycan onomastikasının fəhləsi" adlandırmayıblar. Müəllifin bu sahədə bir çox dəyərli işləri vardır. O, "Azərbaycan şəxs adları" (1996), "Azərbaycan şəxs adlarının leksik problemləri" (1997), "Azərbaycan antroponimikası" (2015) monoqrafiyalarında əsas və köməkçi ad kateqoriyalarını dərindən araşdırmış, onların bənzər və fərqli xüsusiyyətlərini təhlil etmişdir. Paşayevin "Türk mənşəli beynəlmiləl onomastik vahidlər" (2017) adlı monoqrafiyası müqayisəli onomastikanın dəyərli əsərlərindəndir. İki fəsildən ibarət olan monoqrafiyanın ilk fəslində dünya dillərinin təsnifi geniş şəkildə şərh edilmişdir. Digər fəsildə isə türk mənşəli beynəlmiləl onomastik vahidlər ("ana", "baba", "türk", "gün", "ay" və b. Komponentli) araşdırılmışdır. Aydın Paşayevin Musa Adilovla ortaq işi olan "Azərbaycan onomastikası" əsəri özünün orijinallığı ilə seçilir. Terminlərin sərhədlərinin dəqiqləşdirilməsi və konkret bir sahə, yəni onomastika üzrə terminlərin toplanması ən vacib ehtiyaclardan biri olduğu üçün bu izahlı – terminoloji lüğətin hazırlanması dilçilik sahəsinin ən dəyərli işlərindəndir. Əsərdə yüzlərlə termin toplanmış və onların izahları qeyd olunmuşdur.

Onomastik leksikoqrafiyanın şöbələrindən biri də antroponimik lüğətçilikdir. Antroponimik lüğətçilik antroponimlərdən ibarət lüğətlərin yaradılmasının

qanunauyğunluqlarını araşdırır. Antroponimik lüğətçiliyin işi antroponimləri toplamaq, onları sistem halına gətirməkdir. Dilimizin onomastik sisteminin məhz praktik cəhətdən araşdırılması indiyə qədər ərsəyə gəlmiş onomastik lüğətlərin hesabınadır. Onomastik lüğətçilik tariximizdə bir sıra lüğətlərin adını xüsusilə vurğulamalıyıq. Bunlardan biri Bəhruz Abdullayevin "Azərbaycan şəxs adlarının izahlı lüğəti" -dir. Lüğətdə 1000-ə yaxın qadın və kişi adları verilib. Bu sahədə hazırlanan ilk lüğətlərdən olduğu üçün müəyyən nöqsanları da vardır.

Bir digər lüğət Osman Mirzəyevin "Adlarımız" lüğətidir. Müəllif lüğətdə işlək adları geniş şərh edir. Antroponimlərin tərcümeyi-halını verir. Onların mənalarından əlavə mənşə xüsusiyyətlərini də qeyd edir. Bunlardan əlavə müəllif 715 oğlan, 455 qız adı siyahısı verir. Lüğətin həm elmi, həm də praktik əhəmiyyəti vardır. Eyni zamanda ensiklopedik səciyyə daşıyır. Qeyd olunmalı digər lüğət isə A.Paşayev və A.Bəşirovanın müəllifi olduğu "Azərbaycan şəxs adlarının izahlı lüğəti" -dir. Lüğətdə müəlliflər adları əlifba sırası üzrə kişi və qadın adları olaraq ayrıca sistemləşdirmişlər. Qeyd edək ki, lüğətdə 6000-dən çox kişi, 4000-dən çox qadın adı əks olunub.

Nəticə: Onomastik vahidlərin, xüsusən də, antroponimlərin tədqiqi hər zaman elm adamlarının diqqət mərkəzində olmuşdur. Azərbaycan antroponimikası həm dilçilik, həm də tarix və mədəniyyət baxımından əhəmiyyətli bir tədqiqat sahəsidir. Bu sahədəki araşdırmalar insan adlarının mənşəyini, quruluşunu, semantikasını, sosial və etnik mənsubiyyətlə bağlı xüsusiyyətlərini üzə çıxarır.

İstifadə olunmuş ədəbiyyat siyahısı

1. Abdullayev B. Azərbaycan şəxs adlarının izahlı lüğəti. Bakı: Azərnəşr, 1985
2. Çobanov M. Azərbaycan antroponimiyasının əsasları.
3. Qurbanov A. Azərbaycan onomalogiyasının əsasları. 2 cilddə. II cild. Bakı: Nurlan, 2004
4. Paşayev A. Azərbaycan şəxs adları.

Rəyçi: *filologiya üzrə fəlsəfə doktoru*
Dosent **G.F.Əliyeva - Koşkun**

Azərbaycan Milli Elmlər Akademiyasi M. Füzuli adına Əlyazmalar Institutu, *ISSN 2224-9257*
Filologiya məsələləri № 3, 2025
Səh. ————————

НАДЖАФОВА САБИНА ДЖАМАЛ
Бакинский Государственный Университет
Докторант кафедры Общего языкознания
e-mail: sabina_alieva_711@mail.ru

СЛОВООБРАЗОВАТЕЛЬНЫЕ МОДЕЛИ НЕКОТОРЫХ ОТЗООНИМИЧЕСКИХ ДЕРИВАТОВ
(на материале русского языка)

Резюме

Настоящая статья посвящена анализу словообразовательных моделей отзоонимных прилагательных и других частей речи в русском языке. Зоонимические производные являются важным элементом лексической системы, выполняя не только номинативную, но и экспрессивно-оценочную функцию. В исследовании рассмотрены основные типы деривации, включая суффиксальные и приставочно-суффиксальные модели, а также выявлены семантические особенности, присущие зоонимическим производным.

Особое внимание уделяется метафорическому использованию прилагательны, таких как («лисий», «волчий», «медвежий», «свиной», «кошачий» и др.), которые активно функционируют в устойчивых выражениях и культурно значимых контекстах. Также рассмотрены другие части речи, производные от зоонимов — существительные, наречия и глаголы, что позволяет более широко охарактеризовать словообразовательный потенциал данной группы лексики.

Результаты исследования подтверждают высокую продуктивность зоонимов как основы для словообразования, их важную роль в формировании образной и эмоционально окрашенной речи, а также значимость для отражения культурных и поведенческих стереотипов.

Ключевые слова: зоонимы, словообразование, деривация, зоонимические производные, метафора, экспрессивность, русская лексика, лингвокультурология, части речи.

ВВЕДЕНИЕ

Зоонимические слова в русском языке образуют богатую систему производных, охватывающую различные части речи. Например, от слова «лиса» формируются такие слова, как «лисий», «лисица», «лисёнок», «по-лисьи». Также в русском языке имеются и фамилии, образованные от слова «лиса» -«Лисичкин», «Лисаков». Распространёнными русскими «зоонимическими» фамилиями являются «Медведев» и «Волков». Отметим также фамилию литературного персонажа «Собакевич» в поэме Н.В. Гоголя «Мёртвые души». Слово «волк» даёт прилагательное «волчий»,

существительные «волчица», «волчонок», наречие «по-волчьи» — со значением жестокости или настороженности, а также глагол «волчиться», связанный с агрессией и охотой [5, с.85].

Слово «медведь» порождает прилагательное «медвежий»; например, в устойчивом выражении «медвежья услуга», существительные «медведица» и «медвежонок», наречие «по-медвежьи» — описывающее неуклюжую, массивную походку, а также глагол «медвежничать», имевший ранее значение охоты на медведей. Отметим также слово «медвежатник», имеющее значение: Взломщик сейфов (в уголовном жаргоне), так как для вскрытия сейфов у воров имелся инструмент, который назывался «медведка». От «свинья» образуются «свиной», «свинка», «поросята», наречие «по-свински», часто употребляемое с негативной оценкой, и глагол «свинячить», означающий грубое, неопрятное поведение [9, с.45].

Слово «кошка» также активно участвует в словообразовании: «кошачий» употребляется для передачи мягкости и грациозности, как и наречие «по-кошачьи»; производные имена существительные — «котёнок», «котяра» — нередко приобретают ласкательные или экспрессивные оттенки. В разговорной речи используется и глагол «кошачить», описывающий игривое, ласковое поведение. «Змея» даёт производные «змеиный», «змейка», «змеёныш», наречие «по-змеиному», а также глагол «змеиться», обозначающий извивающееся движение [3, с.54].

Эти примеры демонстрируют, степень продуктивности зоонимов в русском языке как основу для словообразования. Они формируют целую систему слов, отражающих не только биологические, но и культурные, эмоциональные и поведенческие характеристики, часто закреплённые в устойчивых выражениях и метафорах.

Продолжая анализ прилагательных, производных от зоонимов, можно отметить, что они обладают яркой экспрессивностью и нередко используются в переносном значении для характеристики черт характера, поведения или внешности человека. Такие прилагательные, как *лисий*, *волчий*, *медвежий*, *свиной*, *кошачий*, *змеиный*, несут в себе богатый семантический потенциал и часто приобретают метафорическое звучание в контексте [7, с.44].

Например, прилагательное «*лисий»* ассоциируется с хитростью, скрытностью и коварством. Оно часто используется в выражениях вроде «лисья улыбка», «лисьи повадки», где подчёркивается ловкость и скрытые намерения. *Волчий* же акцентирует силу, агрессивность и одиночество, как в словосочетаниях «волчий взгляд», «волчий аппетит». Эти формы обладают высокой экспрессивной нагрузкой и передают не только внешние признаки животного, но и устойчивые ассоциативные смыслы [11, с.83].

Прилагательное *медвежий* чаще используется для обозначения грубости, массивности, неуклюжести, а также в выражении «медвежья услуга» – как символ вреда, причинённого с благими намерениями. В свою очередь, *кошачий* ассоциируется с мягкостью, грацией и независимостью: «кошачья походка», «кошачий взгляд». *Свиной* несёт негативную оценку, часто указывая на нечистоплотность или грубость, как в выражениях «свиной характер». *Змеиный* подчеркивает коварство, злобность, подлость или скрытую опасность — например, «змеиный язык», «змеиный характер» [14, с.99].

Таким образом, прилагательные, производные от зоонимов, в русском языке образуют не только лексико-семантическую, но и культурную систему. Их использование в речи придаёт описанию выразительность, эмоциональность, экспрессивность и позволяет передать сложные характеристики человека или явления одним словом. Эти прилагательные часто выступают как компоненты устойчивых выражений и метафор, что подтверждает их высокую функциональность и активное употребление в русском языке [1, с.170].

Продолжая исследование производных от зоонимов, следует отметить, что кроме прилагательных в русском языке активно формируются также существительные, наречия и глаголы, отражающие поведенческие, эмоциональные и физические особенности, приписываемые животным. Эти слова обогащают язык за счёт образности и позволяют создавать живые, выразительные описания [2, с.78].

Так от зоонима *осёл* образуются производные: прилагательное ослиный существительные *ослица*, *ослёнок*, а также наречие *по ослиному*, обозначающее упрямое, глуповатое поведение. Подобные слова часто используются в ироническом или уничижительном контексте. Зооним *телёнок* даёт производные телячий, *по-телячьи*, где последний может описывать наивное, глуповатое или чрезмерно восторженное поведение, как в выражении «телячьи нежности».

От зоонима «*собака» образует* прилагательное *собачий*, которое может использоваться как в прямом, так и в снижено-оценочном значении (например, *собачий холод*, *собачья верность*), а также производные *по-собачьи*, *собачиться* — глагол, обозначающий ссору или агрессивное поведение [8, p.170].

Интерес представляют и более редкие зоонимы, такие как *барсук* — *барсучий*, *барсучонок* — которые используются преимущественно в нейтральном или научном контексте, но также могут переноситься в разговорную речь для создания определённого колорита. Зоонимы *жук*, *слон*, тоже дают широкий спектр производных: *жучок*, *по-слоновьи*, некоторые из них служат для характеристики внешнего вида, манер или поведения [13, p.436].

Производные от зоонимов в русском языке охватывают разные части речи и используются в разнообразных дискурсивных ситуациях. Они позволяют создавать выразительные характеристики, опираясь на знакомые всем образы животного мира, и играют важную роль в формировании эмоционально насыщенной и образной речи.

ЗАКЛЮЧЕНИЕ

Обобщая проведённый анализ, можно сделать вывод, что производные от зоонимов занимают важное место в системе русской лексики и демонстрируют высокую степень словообразовательной продуктивности. Эти слова охватывают широкий спектр частей речи — прилагательные, существительные, наречия и глаголы, — и активно используются как в литературной, так и в разговорной речи. Зоонимические производные выполняют не только номинативную, но и выразительно-оценочную, метафорическую функцию, позволяя передавать черты характера, поведение, эмоции и даже социальные стереотипы через ассоциации с животными.

Такие прилагательные, как «волчий», «лисий», «медвежий», «кошачий» и другие, образованные от зоонимов, служат мощным средством семантической и стилистической окраски высказывания. Они являются частью устойчивых выражений и метафор, глубоко укоренившихся в языке и культуре. Такие глаголы и наречия, как «свинячить», «собачиться», «по-кошачьи», дополняют эту систему и придают речи дополнительную эмоциональность и живость.

Зоонимические дериваты не только обогащают русский язык новыми лексическими единицами, но и отражают народное мировосприятие, культурные ассоциации и поведенческие шаблоны, связанные с животными. Их изучение важно, как для лингвистической теории, так и для понимания механизмов функционирования языка в социальной и культурной среде.

Продолжая рассуждение, следует подчеркнуть, что зоонимические производные отражают не только лексико-семантические процессы, но и культурные коды, устоявшиеся в коллективном сознании носителей языка. Через такие слова язык «очеловечивает» животных и, наоборот, наделяет людей качествами, присущими представителям фауны — как положительными, так и отрицательными. Это создаёт богатую палитру значений, где одно слово может одновременно передавать образ, эмоцию и оценку.

Зооним как словообразовательная база функционирует в языке не изолированно, а в тесной взаимосвязи с социальным контекстом, менталитетом, историко-культурными реалиями. Например, в разных культурах один и тот же зооним может нести противоположные значения: если в русском языке «змея» — символ предательства, то в восточной традиции она

может ассоциироваться с мудростью и обновлением. Это открывает перспективу для межъязыкового и межкультурного сопоставительного анализа.

Кроме того, зоонимические прилагательные и их производные активно развиваются в современных медиа, публицистике, фольклоре, молодежном и интернет-сленге, что подтверждает их актуальность и адаптивность к новым реалиям. Это делает их не только объектом лингвистического интереса, но и важным ресурсом в изучении социокультурных изменений, отражённых в языке.

В дальнейшем исследовании представляется перспективным более глубоко изучить прагматический аспект употребления таких слов, проанализировать их частотность в разных регистрах речи, а также рассмотреть динамику их значений и форм в современных речевых практиках.

СПИСОК ЛИТЕРАТУРЫ

1. Asadova, S. S. (2020). Stylistic features of zoonyms. *Scientific Notes of Taurida National V.I. Vernadsky University. Series: Philology. Social Communications*, 31(4), 166–170. https://doi.org/10.32838/2663-6069/2020.4-1/30Grafiati
2. Bomhard, A. R. (2022). *The Nostratic origin of Afrasian I: Zoonyms*. Academia.edu. https://www.academia.edu/77567724/Bomhard_The_Nostratic_Origin_of_Afrasian_I_Zoonyms_2022_Academia
3. Blažek, V. (2013). Indo-European zoonyms in Afroasiatic perspective. *Journal of Language Relationship*, 9, 37–54.Academia
4. Militarev, A. (2022). Reconstructing a cultural lexicon for pre-history: Berber zoonyms of Afrasian (Afro-Asiatic) origin. *Asian and African Studies*, 31(1), 1–20.Academia
5. Sokolova, A. O., & Olehnovich, O. G. (2020). Zoomorphic terms in clinical medical terminology. *Journal of Grodno State Medical University*, (3), 85–88. https://cyberleninka.ru/article/n/zoomorfnye-terminy-v-klinicheskie-meditsinskoy-terminologii
6. Pishukova, A. G., & Morgunova, O. V. (2022). Greek-Latin zoomorphic terms in clinical terminology. In *Proceedings of the Ural State Medical University*, 225–229. https://elib.usma.ru/bitstream/usma/7590/1/USMU_Sbornik_statei_2022_225.pdf
7. Safaraliyeva, G. M. (2015). Comparative study of zoonyms in Russian and Azerbaijani languages (Doctoral dissertation, Baku Slavic University). https://azerbaycandili.az/Synopsis/Download/3278/S%C6%8FF%C6%8FR%C6%8FL%C4%B0YEVA%20G%C3%9CNEL%20M%C4%B0RZ%C6%8FL%C4%B0%20QIZI%20RUS%20V%C6%8F%20AZ%C6%8F

RBAYCAN%20D%C4%B0LL%C6%8FR%C4%B0ND%C6%8F%20ZOON%C4%B0ML%C6%8FR%C4%B0N%C4%B0N%20QAR%C5%9EILA%C5%9EDIRMALI%20T%C6%8FDQ%C4%B0Q%C4%B0.pdf

8. Nikolaeva, N. V. (2022). Zoological vocabulary of the Azerbaijani language: Based on ornithonyms (Doctoral dissertation, Chuvash State University). https://www.chuvsu.ru/wp-content/uploads/2022/06/nikolaeva_nv-avtoref.pdf
9. Skokova, A. O., & Olehnovich, O. G. (2019). Latin zoomorphic terms in medical terminology. *Archivarius*, (3), 45–49. https://archivarius.org.ua/Archive/DOI/%D0%9B%D0%90%D0%A2%D0%98%D0%9D%D0%A1%D0%9A%D0%98%D0%95%20%D0%97%D0%9E%D0%9E%D0%9C%D0%9E%D0%A0%D0%A4%D0%9D%D0%AB%D0%95%20%D0%A2%D0%95%D0%A0%D0%9C%D0%98%D0%9D%D0%AB.pdf
10. Dorogaikina, E. M., & Ignatieva, T. G. (2019). Zoological names as object of linguistic research. *Theoretical and Applied Linguistics*, (3), 53–66. https://doi.org/10.22250/2410-7190_2019_5_3_53_66Grafiati
11. Varnikova, E. N. (2018). Zoonyms in Russian fairy tales: To the issue of interpretation. *Russian Language at School*, 79(7), 83–89. https://doi.org/10.30515/0131-6141-2018-79-7-83-89Grafiati
12. Kalko, V. V., Kalko, M. I., & Selivanova, O. O. (2021). Stereotyped zoonyms in Rusin phraseology. *Rusin*, (65), 250–276. https://doi.org/10.17223/18572685/65/14Grafiati
13. Yang, W. (2020). Russian fixed comparisons with zoonym component describing human character traits in Russian and Chinese languages. *Prepodavatel XXI vek*, (3), 436–451. https://doi.org/10.31862/2073-9613-2020-3-436-451Grafiati
14. Trifanova, S. S., & Titova, O. Z. (2023). Onomasiological characteristics of zoonyms in New Zealand lexical substandard. *Philology. Issues of Theory and Practice*, 16(12), 4324–4329. https://doi.org/10.30853/phil20230656

Nadhzafova Sabina

Zoonimlərdən yaranmış bəzi derivatların sözyaratma modelləri (rus dilinin materialları əsasında)

Xülasə

Məqalə rus dilində zoonimlərdənyaranmış sifətlərin və digər nitq hissələrinin sözyaratma modellərinin təhlilinə həsr edilmişdir.Zoonimlərdən yaranmış sözlər leksik sistemin mühüm elementi olaraq həm nominativ, həm də ekspressiv-dəyərləndirici funksiya yerinə yetirir.Araşdırmada derivasiyaların əsas növləri, o cümlədən suffiksal və prefiksal suffiksal modellər araşdırılır və zoonimik düzəltmə sözlərin semantik xüsusiyyətləri müəyyən edilir.

Sabit söz birləşmələri və mədəni əhəmiyyətli kontekstlərdə aktiv istifadə edilən “лисий” (“tülkü”),“волчий” (“qurd”), “медвежий” (“ayı”), “свиной” (“donuz”), “кошачий” (“pişik”) və s. kimi sifətlərinmetaforik istifadəsinə xüsusi diqqət yetirilir. Həmçinin zoonimlərdən yaranan digər nitq hissələri - isimlər, zərflər və feillər də nəzərdən keçirilir ki, bu da həmin leksik qrupun sözyaratma potensialını daha geniş səciyyələndirməyə imkan verir.

Tədqiqatın nəticələri zoonimlərin söz yaradıcılığında yüksək məhsuldarlığını, obrazlı və emosional çalarlı nitqin formalaşmasındakı mühüm rolunu, habelə mədəni və davranış stereotiplərini əks etdirmək baxımından əhəmiyyətini təsdiq edir.

Açar sözlər: zoonimlər, söz yaradıcılığı, derivasiya, zoonimik düzəltmə sözlər, metafor, ekspressivlik, rus dilinin leksikası, linqvokulturologiya, nitq hissələri

Nadzhafova Sabina

Word-formation models of some zoonymic derivatives
(based on the material of the russian language)

Summary

The article deals with analysis of word-formation models of zoonymic adjectives and other parts of speech in the Russian language. Zoonymic derivatives are an important element of the lexical system, performing not only a nominative but also an expressive-evaluative function. The study examines the main types of derivation, including suffixal and prefix-suffixal models, and also identifies semantic features inherent in zoonymic derivatives.

Particular attention is paid to the metaphorical use of adjectives, such as (“fox”, “wolf”, “bear”, “pig”, “cat”, etc.), which actively function in idioms and culturally significant contexts. Other parts of speech derived from zoonyms are also considered - nouns, adverbs and verbs, that allow for a broader characterization of the word-formation potential of this group of vocabulary. The results of the research confirm the high productivity of zoonyms as a basis for word formation, their important role in the formation of figurative and emotionally charged speech, as well as their significance for reflecting cultural and behavioral stereotypes.

Keywords: zoonyms, word formation, derivation, zoonymic derivatives, metaphor, expressiveness, Russian vocabulary, linguocultural studies, parts of speech

Rəyçi: filologiya elmləri doktoru, dosent Sevinc Məhərrəmova

Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu, *ISSN 2224-9257*
Filologiya məsələləri № 3, 2025
Səh. ————————

AYSU ZAUR QIZI BABAYEVA
Azərbaycan Dillər Universiteti
aysubabayeva56@gmail.com

XXI ƏSR İNGİLİSDİLLİ MEDİA MƏTNLƏRİNDƏ NEOLOGİZMLƏRİN FUNKSİONAL-ÜSLUBİ TƏHLİLİ

XÜLASƏ

Son dövrlərdə qlobal dünya yetəri qədər informasiya ilə zəngindir və cəmiyyəti informasiya ilə təmin edən əsas vasitə mediadır. Media dilşünaslığı müxtəlif media mətnlərinin araşdırılmasına həsr olunmuş yeni bir istiqamət kimi formalaşıb. Ənənəvi media — çap, radio, televiziya və kompüter informasiya texnologiyalarının inkişafı sürətlə baş verir. Televiziya kanallarının, radio stansiyalarının və onlayn mənbələrin artması ilə qlobal informasiya məkanı formalaşır ki, bu da dilin fəaliyyətini xüsusi bir sahə olaraq qiymətləndirir.

XX əsrin sonlarına doğru media dilşünaslığı müstəqil bir elmi sahə kimi tanınmağa başlamışdır. Bu sahə kütləvi kommunikasiya dilinin öyrənilməsi ilə bağlıdır. Media mətnləri yalnız söz səviyyəsində deyil, həm də müxtəlif işarələr vasitəsilə özünü ifadə edir. Kütləvi media diskursu dilin dinamikliyini nümayiş etdirir və müxtəlif sosial dəyişikliklərə bağlı olaraq neologizmlərin yaranmasına səbəb olur. Qəzet dili cəmiyyətin nitq inkişafının göstəricisi kimi çıxış edir və sosial dəyişiklikləri əks etdirir.

Fərqli formatlarda media istifadəsi geniş auditoriyaya çatmaq üçün dil və neologizmlərin rolunu artırır. Neologizmlər innovasiya və müasirləşmə funksiyalarını yerinə yetirir, diqqət cəlb edir və sosial şərh rolunu oynayır. Onların istifadəsi dilin təkamülünü nümayiş etdirir və cəmiyyətin dəyərlərini əks etdirir. Qəzet diskursu müəyyən tarixi dövrün spesifik xüsusiyyətlərini təqdim edir və dilin müasir tələblərə uyğun inkişafını göstərir.

Açar sözlər: media dilşünaslığı, media mətnləri, neologizm, ingilis dili, qəzet üslubu, 21-ci əsr

Aysu Babayeva Zaur

21-ci əsrdə yaşadığımız qlobal dünya yüksək dərəcədə informasiya ilə xarakterizə olunur. Media dilşünaslığının yeni sistematik yanaşma kimi əsas aspekti media mətnlərinin bu günün ən geniş yayılmış dil varlığı formalarından biri olduğudur. Ənənəvi media: çap, radio, televiziya sürətlə inkişaf edir, yeni kompüter informasiya texnologiyalarının meydana çıxması, qloballaşma da bu prosesdə mühüm rol oynayır. Üstəlik, televiziya kanallarının, radio stansiyalarının, çap edilmiş nəşrlərin onlayn versiyalarının sayının dinamik artımı və onlayn nəşrlərin meydana gəlməsi ilə qlobal informasiya sahəsi yaranmışdır ki, müasir tədqiqatçılar bunu dilin fəaliyyət göstərdiyi xüsusi və spesifik bir sahə kimi qiymətləndirirlər. 20-ci əsrin sonuna qədər media dilşünaslığı, media dilinin tədqiqi sahəsində yeni müstəqil bir

istiqamət kimi özünü etibarlı şəkildə sərgilədi. Yeni elmin mövzusu kütləvi kommunikasiya dilinin, kütləvi medianın dilinin öyrənilməsi oldu. Məhz bu yeni dilşünaslıq sahəsi, müasir səviyyədə peşakar mütəxəssislərin yetişdirilməsini mümkün edir. Əgər ənənəvi dilşünaslıq üçün əsas anlayış sözlü mətn, bütövlük və əlaqəlilik idisə, media mətnində yalnız söz səviyyəsi deyil, həm də digər bütün işarələr də istifadə olunur. Beləliklə, kütləvi media diskursu sözlü və ekstralinqvistik komponentləri bir bütün halında birləşdirir [4, s. 2142].

XXI əsr ingilisdilli media mətnlərində neologizmlərin funksional və üslubi analizi müasir dilçilik və kommunikasiya sahəsində əhəmiyyətli bir mövzudur. Fərqli mədəniyyətlər və ideologiyalar arasında baş verən qarşılıqlı təsirlər nəticəsində dil dinamik bir forma alır və bu dinamiklik yeni terminlər, ifadələr və söz birləşmələrinin yaranmasına səbəb olur. Neologizmlər, yalnız leksik mühitin inkişafında deyil, eyni zamanda müasir cəmiyyətin sosial, iqtisadi və mədəni dəyişikliklərini əks etdirmək baxımından da mühüm rol oynayır.

Qəzetin dili dilçilik tədqiqatları üçün maraqlıdır, çünki kütləvi informasiya vasitələri müasir cəmiyyətin ayrılmaz bir hissəsidir və spesifik xüsusiyyətlərə malikdir. Qəzet diskursu müəyyən tarixi dövrdə reallaşan və bu dövrü formalaşdıran və müəyyən edən, habelə insan fəaliyyətinin müxtəlif sahələrini əks etdirən müxtəlif leksik və semantik vasitələrlə təqdim edilən media diskursunun bir növü kimi müəyyən olunur.

Dünya dilləri arasında yeni sözlərin yaradılması prosesindən sonra bu sözlər başqa dillərə keçir və həmin dillərin xüsusiyyətlərini qəbul edir. Bəzən bütöv ifadələr dilin söz fonduna qəbul olur və dəyişikliyə uğramır. Məsələn, bəzi dillər yeni sözləri və deyimləri asanlıqla qəbul edir. Lakin bəzi dilçilərin fikrincə, neologizmlərin başqa dillərin leksikonuna asanlıqla daxil olması dil quruluşunun saflığına təhlükə kimi görünür. Bunun əvəzinə, yeni sözlər və ifadələr götürərkən bu dillər daxili morfofonemik və sözdüzəltmə mexanizmlərindən istifadə edərək neologizmləri dilə uyğunlaşdırmağa çalışırlar [3, s. 58].

Media mətni insanları məlumatlandırmaq, maarifləndirmək və bəlkə də yönləndirmək məqsədini güdür. Buna görə də, xəbərlər, blog yazıları, sosial media paylaşmaları və digər media formatlarında neologizmlər geniş şəkildə istifadə olunur. Bu yeni sözlər, media vasitəsilə innovativ fikirlərin, trendlərin və hadisələrin auditoriyaya çatdırılmasında əhəmiyyətli bir rol oynayır. Lakin dil olmadan media cəmiyyətə təsir edə bilməz və məlumatı müfəssəl şəkildə çatdıra bilməz. Ümumiyyətlə, dil və neologizmlər media mətnlərində mühüm rol oynayır, mesajların çatdırılmasına, başa düşülməsinə təsir göstərir. Neologizmlərin əsas xarakteristik xüsusiyyətləri bunlardır:

- **İnnovasiya və müasirləşmə:** Neologizmlər cəmiyyətin, texnologiyanın və sosial şəraitin dəyişməsi nəticəsində yaranır. Yeni trendləri və fikirləri ifadə etdiyi üçün media dili dinamik olur və yeni anlamlar qazandırır.

- **Diqqəti cəlb etmək:** Neologizmlər adətən cəlbedici və yadda qalan olur. Bu səbəbdən reklam və media kampaniyalarında auditoriyanın diqqətini çəkmək üçün effektiv bir vasitədir.
- **Mədəni identiklik və trendlər:** Neologizmlər spesifik demoqrafik qruplara (məsələn, gənc mədəniyyətinə) aidiyyət hissi yarada bilər. Ayrıca, müəyyən sosial hərəkatların və ya trendlərin simvolu kimi çıxış edir.
- **Sosial şərh:** Media yeni sözləri təqdim etməklə, sosial dəyişikliklər və istiqamətləri əks etdirə bilər. Məsələn, texnologiya, ekoloji məsuliyyət və ya sosial ədalət ilə bağlı terminlərin istifadəsi ictimai diskursdakı dəyişiklikləri nümayiş etdirir.
- **Dilin təkamülü:** Neologizmlərin istifadəsi dilin zamanla necə inkişaf etdiyini nümayiş etdirir. Media yeni terminləri populyarlaşdıraraq, dilin təkamülündə mühüm rol oynayır.

Media mətnlərində istifadə olunan neologizmlər meydana gəlməsi koronavirus epidemiyası zamanı daha da artdı və bütün dünyada yayıldı. COVID-19-un meydana gəlməsi dünya miqyasında insanlara və onların ünsiyyətinə ciddi şəkildə təsir etdi. Pandemiya təkcə səhiyyəyə deyil, qlobal təhsil sisteminə, iqtisadiyyata və ən əsası dilə də böyük təsir göstərdi. Epidemiyanın təsiriylə yeni yaradılan sözlər və neologizmlər nəzərəçarpacaq dərəcədə artmışdır və bu terminlər əksər dillərdə geniş şəkildə yayılmağa başladı [2, s. 286-290].

Son iki ildə COVID-19 kontekstində 200-dən çox yeni söz və ifadə yaradılıb. Bir çox tədqiqat məqaləsi onların yaranması və təsiri, izahı və tərcüməsinə həsr olunmuşdur. Hazırda Koronavirusdan ilhamlanan neologizmlərin post-pandemiya dövründən sonra nə qədər müddət ərzində istifadə ediləcəyini proqnozlaşdırmaq mümkün deyil. Bu tədqiqat pandemiya ilə əlaqəli yeni sözlərə xüsusi diqqət yetirmir, baxmayaraq ki, ingilis korpusunda bir neçə nümunə mövcuddur [5, s. 189-190]:

1. **Super-spreader** “an event/ location where a significant number of people contract the same contagious disease” (müəyyən sayda insanın eyni yoluxucu xəstəliyə yoluxduğu hadisə/məkandır).
2. **Vaccine passport** “a physical or digital document providing proof of vaccination against one or more infectious diseases (such as COVID-19)” (bir və ya bir neçə infeksion xəstəlik (məsələn, COVID-19) qarşısında vaksinasiya sübutunu təqdim edən fiziki və ya rəqəmsal sənəd).
3. **Zoom** “to use Zoom video conferencing platform for work, school, and social gatherings” (iş, məktəb və sosial yığıncaqlar üçün Zoom video konfrans platformasından istifadə etmək).
4. **WFH** (Work From Home) “An abbreviation used to describe remote work arrangements that became more prevalent during the pandemic” (pandemiya dövründə daha da yayılan uzaqdan işləmə düzənini təsvir etmək üçün istifadə olunan qısaltma).

5. **Remote learning** “the shift from in-person education to online learning for schools and universities” (məktəblər və universitetlər üçün əyani təhsildən onlayn öyrənməyə keçid).

Pandemiya, “sosial uzaqlaşma” (social distancing), “icma daxilində yayılma” (community spread), “karantin xətti” (cordon sanitaire), “hava-damcı yolu ilə yoluxma” (droplet transmission), “infeksiyanın yayılma sürətini azaltmaq” (flattening the curve), “COVID-19-un dalğaları” (tsunamis of COVID-19 cases), “ilk dəfə müəyyən edilən və sürətlə artan infeksiyalar” (emerging disease), “birnəfərlik kamera” (solitary confinement), “heyvan-insan interfeysi” (animal-human interface), “inkubasiya müddəti” (incubation period), “epidemiyanı nəzarət altında saxlamaq” (contain the outbreak) və “virusun ötürülməsi” (viral shedding) kimi yeni terminlərin geniş şəkildə yayılması ilə nəticələndi. Bu neologizmlər publisistik və elmi üslubda daha geniş yayılmışdır.

Koronavirus epidemiyası dövründə ingilis dilində yaranan neologizmlər CNN televiziya proqramlarında öz əksini tapmışdır. Bu proqramlarda toplam 286 yeni söz meydana gəlmişdir. Bəzi nümunələr bunlardır: *globosity* (qlobus və obezite), *vodcast* (video və yayım), *blogosphere* (bloq və atmosfer), *chatiquette* (çat və etiket), *wedsite* (toy və sayt), *loxit* (kilidləmə və çıxış), *covidpreneur* (Koronavirus xəstəliyi və sahibkar), *covidiot* (Covid19 və axmaq), *Cybrarian* (kiber və kitabxanaçı), *gootube* (Google və YouTube) və *quarantini* (karantin və martini). Qeyd etmək lazımdır ki, bu sözlərin bəziləri artıq ingilis dilində daimi yerləşmiş olsa da, epidemiyanın təsiri ilə yeni mənalar qazanmışlar və bu səbəbdən neologizm kimi qəbul edilirlər [1, s. 374-378].

İKT və sosial media neologizmləri son dövrlərdə daha aktualdır. Bunlara nümunə olaraq, “screenshot”, “hashtag”, “selfie”, “Snapchat”, “share” və s. kimi neologizmləri göstərmək olar. Bu neologizmlər assimilyasiya olaraq bir çox dillərə keçmişdir [5, s. 190].

Bəzi sözlər, məsələn, "climate action" (iqlim hərəkatı), "global heating" (qlobal isinmə), "extinction" (nəsli kəsilmə) kimi ifadələr artıq bəzi dilçilər tərəfindən leksik yenilik sayılmır. Ətraf mühit problemlərinə həsr olunmuş media mətnlərində "flight shame" (siyahətinin iqlimə zərər verən nəticələrini bilən, lakin yenə də hava yolu ilə səyahət edənlərin hissləri) və "plogging" (gəzərkən və ya qaçarkən zibil toplama fəaliyyəti) kimi yeni birləşmələr diqqət çəkir. Bu iki söz isveç dilindən götürülmüşdür. "Plogging" neologizmi 2018-ci ildə Collins lüğətinin siyahısına əlavə edilib və Macmillan lüğəti tərəfindən BUZZWORD kimi tanınıb. 2019-cu ildəs isə "Flight shame" Oksford Lüğətinin siyahısına daxil edilib. Həm "flight shame", həm də "plogging" birləşmələr şəklində optimal şəkildə yaradılmışdır; lakin bu leksik yeniliklərin ideoloji konsepsiyası Britaniya media mətnlərində geniş yayılmamışdır, yalnız "flight shame" anlayışı amerikalı jurnalistlərin diqqətini cəlb etmişdir. Bu, o deməkdir ki, bir çox yeni sözlərin istifadəsi tezliyi azdır, çünki onlar dilə yeni daxil

olunublar. Bundan əlavə, xarici mənşəli sözlər, Atlantik okeanının hər iki tərəfində ingilis dilinə eyni dərəcədə daxil olmur.

Ümumilikdə desək, yeni sözlərə olan marağın artması lüğətçilərin onların meydana çıxmasından ən azı 3-4 il sonra baş verir. Eyni tendensiya keyfiyyətli qəzetlərdə yeni sözlərin istifadəsi ilə bağlı da müşahidə olunur. Məsələn, "Brexit" neologizmi ilk dəfə 2012-ci ildə ortaya çıxdı, 2016-cı ilin Collins Sözü seçildi və Macmillan Lüğəti tərəfindən bu il BUZZWORD olaraq qeyd olundu. İndiyə qədər onun populyarlığı Britaniya və Amerika qəzetlərində eyni dərəcədə yüksəkdir. Bundan əlavə, "Brexidity", "Brexiteer", "Brextremist" və "Brexodus" kimi törəmə söz formaları da meydana çıxmağa başlamışdır və bu terminlər britaniyalı jurnalistlər arasında olduqca populyardır. Amerika qəzetlərində "Brexit" daha çox üstünlük təşkil edir və yeni "Brexodus" forması ilə bağlı bir neçə məqalə yayımlanmışdır. İngilis dilinin iki müxtəlif variantında terminlərin istifadə dərəcəsindəki fərqlilik, linqvokultural aspekti göstərir.

Elm və texnologiya, adətən, elmi üslubda (və ya texniki üslubda) öz əksini tapır. Elmi üslub, elmi və texnoloji mövzuları aydın və dəqiq şəkildə ifadə etməyə yönəlib. Bu üslub, akademik məqalələr, elmi jurnallar, texniki sənədlər və digər müvafiq materiallarda geniş tətbiq olunur. Elm və texnologiyanın təqdimində bu üslubların istifadəsi, biliklərin dəqiqliyini və obyektivliyini təmin etməyə kömək edir.

20-ci əsrin ikinci yarısında, dünya üzrə elmi və texnoloji inkişafın sürətli irəliləməsi ilə texnologiyadan yaranmış sayısız yeni ingilis sözləri meydana çıxdı. Texnologiyaya aid ən tipik neologizmlər “e-” ilə başlayanlardır. “E-” elektronun ilk hərfidir. Elektron texnologiyasının sürətli inkişafı ilə "e-" söz yaradılmasında güclü bir funksiyaya malikdir və bir çox yeni sözlərin yaranmasına səbəb olur. Bunlara misal olaraq aşağıdakı ifadələri göstərə bilərik: *e-AD* (elektron reklam), *e-banking* (elektron bankçılıq), *e-commerce* (elektron ticarət), *e-cash* (elektron nağd pul), *e-center* (elektron mərkəz), *e-education* (elektron təhsil), *e-government* (elektron hökumət), *e-learning* (elektron öyrənmə), *e-library* (elektron kitabxana), *e-life* (elektron həyat), *e-market* (elektron bazar), *e-conference* (elektron konfrans), *e-money* (elektron pul), *e-office* (elektron ofis), *e-school* (elektron məktəb), *e-store* (elektron mağaza), *e-text* (elektron mətn), *e-transaction* (elektron əməliyyat) və s [6, s. 13-14].

Aysu Babayeva Zaur

SUMMARY

Functional and stylistic analysis of neologisms in English-language media texts of the 21st century

In recent years, the global world has been rich in sufficient information, and the main means of providing society with information is media. Media linguistics has emerged as a new direction dedicated to the study of various media texts. Traditional media—print, radio, television—and the rapid development of computer information

technologies are undergoing significant changes. With the increase in the number of television channels, radio stations, and online sources, a global information space is being formed, which evaluates the functioning of language as a specific area.

By the end of the 20th century, media linguistics began to be recognized as an independent scientific field. This area is related to the study of the language of mass communication. Media texts express themselves not only at the level of words but also through various signs. Mass media discourse demonstrates the dynamism of language and leads to the emergence of neologisms in connection with different social changes. The language of newspapers serves as an indicator of the speech development of society and reflects social changes.

The use of media in different formats increases the role of language and neologisms in reaching a wide audience. Neologisms fulfill functions of innovation and modernization, attract attention, and serve as social commentary. Their use demonstrates the evolution of language and reflects the values of society. Newspaper discourse presents the specific characteristics of a certain historical period and shows the adaptation of language to modern requirements.

Keywords: media linguistics, media texts, neologism, English language, journalistic style, 21st century.

Айсу Бабаева Заур

РЕЗЮМЕ

Функционально-стилистический анализ неологизмов в англоязычных медиатекстах XXI века

В последние годы глобальный мир обладает достаточным количеством информации, и основным средством, обеспечивающим общество информацией, является медиа. Медиа-лингвистика появилась как новое направление, изучающее различные формы медиа-текстов. Традиционные медиа — печать, радио, телевидение и развитие компьютерных информационных технологий — стремительно обновляются. С увеличением числа телевизионных каналов, радиостанций и онлайн-источников формируется глобальное информационное пространство, которое рассматривает деятельность языка как особую сферу.

К концу XX века медиа-лингвистика начала признаваться как самостоятельная научная область. Эта сфера связана с изучением языка массовой коммуникации. Медиа-тексты выражаются не только на уровне слов, но и с помощью различных знаков. Дискурс массовых медиа демонстрирует динамичность языка и приводит к появлению неологизмов в связи с различными социальными изменениями. Язык газет является индикатором развития речи общества и отражает социальные изменения.

Использование медиа различных форматов для охвата широкой аудитории увеличивает роль языка и неологизмов. Неологизмы выполняют

функции инноваций и модернизации, привлекают внимание и служат социальным комментарием. Их использование демонстрирует эволюцию языка и отражает ценности общества. Газетный дискурс представляет собой специфические характеристики определённого исторического периода и демонстрирует адаптацию языка к современным требованиям.

Ключевые слова: медиалингвистика, медиатексты, неологизм, английский язык, газетный стиль, 21 век

İstifadə olunmuş ədəbiyyat

1. Al-Haj Eid, O., Abu Guba, M. N., Abu Jweid, A. N., & Abuelhommus, S. M. Neologisms in Mass Media on Selected CNN TV Programs during Coronavirus Epidemic: A Morphological Analysis//International Journal of Arabic-English Studies// Volume 24, No. 2. Amman, 2024, p. 371–394.
2. Al-Salman, S & Haider, A. S. Jordanian University Students' Views on Emergency Online Learning during COVID-19//Applied Science Private University//Volume 25, No. 1. Amman, 2021, p. 286-302.
3. Crystal, D. The English Language [Text]. London: Penguin Books, 1990. 288 p.
4. Khodjayorov, M. B. Media Linguistics and Its Role in The Language of Modern Mass Media//International Journal for Research in Applied Science & Engineering Technology//Volume 10. New Delhi, 2022, p. 2141-2145.
5. Nedelcheva, N. 21-Century Neologisms - Word-formative Strategies and Adaptation (a Corpus Study of English and Bulgarian)// Cultural Perspectives -Journal for Literary and British Cultural Studies in Romania//Volume 28, 2023, p. 187-212.
6. Zonghua, Z. The formation, formation, and translation of English neologisms//English Knowledge//Volume 8. Beijing, 2009, p. 13-14.

Rəyçi: f.f.d., dos. Mədətova Nigar Aydın qızı

Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu, *ISSN 2224-9257*
Filologiya məsələləri № 3, 2025
Səh. ————————

HACIYEVA YAQUT MÜBARIZ QIZI
Leksika və Ölkəşünaslıq kafedrası
Gəncə Dövlət Universitetinin Azərbaycan dili kafedrasının dissertantı

BALAŞ AZƏROĞLU POEZIYASINDA DİALEKTIZMLƏR

Açar sözlər: dialektizm, poetik dil, ziddiyyət, norma, ədəbi dil, dialektoloji lüğət, poetik forma
Ключевые слова: диалектим, поэтический язык, противоречие, норма, литературный язык, диалектологический словарь, поэтическая форма
Key words: dialecticism, poetic language, contradiction, norm, literary language, dialectological dictionary, poetic form

Azərbaycan dilinin leksik-semantik sisteminin müxtəlif laylarından məharətlə istifadə etməklə ədəbi dilimizi zənginləşdirməkdə özünəməxsus rolu olan Balaş Azəroğlunun poeziya dilində dialektizmlər xüsusi bir lay təşkil edir. Dialektizmlər vasitəsilə şair və yazıçılar öz əsərlərinin milli koloritini daha da gücləndirir, obrazların xarakterinin açılmasında belə sözlərdən isifadə edərək onların daha da yaddaqalan olmasına nail olur. Məlum olduğu kimi, elm və texnikanın, sivilizasiyanın inkişafı ilə əlaqədar olaraq dialektizmlər öz işləkliyini itirir, dildən çıxır. Bu sözlərin mühafizə olunaraq gələcək nəsillərə ötürülməsində, bir növ yaşamasında da söz sənətkarlarının rolu böyükdür.

Beləliklə, şairin poeziyasından danışarkən birinci növbədə onun əsərlərinin dili, üslubu müəyyənləşdirilməli, üslubi baxımdan dilin zənginliklərindən istifadə üsullarının geniş bir şəkildə tədqiq edilməsi zəruridir. S. Abdullayev yazır: *"Əgər bir yazıçı əsərində məhəlli sözlərsiz, dialektlərsiz və jarqonsuz ötüşə bilmirsə, bu o deməkdir ki, həmin yazıçı ümumxalq ədəbi dil normalarından və bu dilin tarixi inkişaf prosesindən və inkişaf səviyyəsindən xəbərsizdir"*[1, s.158].

Dialekt və şivə sözləri Balaş Azəroğlunun şeir dilində doğmalaşır. Bu doğmalıq dialektizmin qədim leksik qat kimi sözün qorunub saxlanan mənalarını üzə çıxarır, forma və deyim qəliblərində poetik mənanın dolğunlaşmasına səbəb olur. Ana dilinin leksik imkanlarının nəyə qadir olduğunu, onun ifadəlilik imkan və çalarlarını əks etdirir. Bədii- estetik düşüncəyə keçərək şeiri poetik dillə yükləməkdə iştirak edən dialekt leksikası şairin söz seçmək məharəti nəticəsində bədii üslubun tələblərinə cavab verir: Məsələn,

"*Gələnlər qocanın bu hörmətindən,*
Onun qəlbə yatan məhəbbətindən,
Sanki ***sustaldılar,*** *qəzəb də, kin də*
Sovuyub *yox oldu bir an içində"* [4, s.185].

Bu seirdə işlənən "*sustalmaq" sözü* Lerik rayon şivələrində*"susdəlməğ"*şəklində ürəyi getmək [1, s.448]mənasını ifadə edir*, "Sovuyub"*sözü

isə ədəbi dilimizdəki dağılmaq, yox olmaq mənalarını ifadə edən sovrulmaq sözünün dialektal variantıdır. Şair bu sözləri işlətməklə özünün şeir dilini xalq danışıq dilinə daha da yaxınlaşdırmış, məhz buna görə də onun dili koloritliyi ilə səciyyələnir.

O yerdə ki, B. Azəroğlu təbiətdən, kənd həyatından yazır, onda onun yazı üslubu folklor kökünə söykənir, canlı xalq danışıq dilinin ənənələrini izləyir. Bu deyim üslubu bütün hallarda özünü doğruldur. Çünki *"xalq nitqi sadə və qüdrətlidir, o özündə bir çox nəsillərin zehni əməyinin səmərəsini, xalqın fəlsəfəsini və tarixini ehtiva edir"*[5, s.7].

"Axı bu görkəmin, bu qamətinlə
Oğlum, bizlərə yox, ***yana*** *çəkmisən*"[3, s.29].

Nümunədə işlənən *yan* sözü(yönlük halda yana) yad, özgə mənasını ifadə edir. "Azərbaycan dilinin dialektoloji lüğəti"ndə qeydə alınan bu sözün omonim səciyyəli oluğu, qeyd edilən mənadan əlavə, hananın dayaq ağacı və hissə mənalarnı da ifadə etdiyi göstərilir [1, s.539].Göstərilən nümunədə çəkmək sözü ilə birləşərək frazeoloji birləşmənin tərkib hissəsi kimi çıxış etmişdir: *yana çəkmək,* yəni özgəyə, yada oxşamaq, bənzəmək.

Balaş Azəroğlunun şeirində dialektizmlər misranın ümumi məna yükünün daşınmasında maksimum güc ilə çıxış edir. Şeir mətnindəki hər bir dialektizm ifadə olunan ümumi poetik mənanın vacib bir forma ünsürü, hiss və düşüncələrinin təcəssümu səviyyəsində işlədilir.

"*Hələ də yadımdadır*
Çırağın altında bərq vuran
Bıçağının ***ovxarı"***[3, s.44]

Nümunədə işlənmiş *ovxar* sözü "itilik" mənasını ifadə edir. Qeyd edək ki, bu söz ADDL-də *o:xar* şəklində əksini tapır, yəni ilk hecasındakı o səsinin uzun tələffüz olunduğu göstərilir. Bu sözdən yaranan *o:xarrı* (itilənmiş, iti), *o:xarramax*(itiləmək), *o:xarratmax*(itilətmək) sözləri, eləcə də *o:xarı gedməg*(kütləşmək) frazeoloji ifadəsi də qeyd edilir[5, s.380].

"*Köçri quşlar uçur hər gün cənuba sarı,*
Gərdənbəndə *oxşayır durnaların qatarı"*[3, s.57].

Fars mənşəli olan *gərdənbənd*sözünün "Azərbaycan dilinin izahlı lüğəti"ndə boyunbağı mənasınada işləndiyi qeyd edilir. C.Məmmədquluzadənin, Ə.Haqverdiyevin əsərlərindən nümunələr verilir[4, s.236]. Lakin Salyan dialektində bu söz "xamut" mənasını ifadə edir:-*Gərdənbəndin ipin bərk bağlağınan ki, at yaxşı güc eləsin*[1, s.179]. Heç şübhəsiz, şair burada *gərdənbənd* sözünün boyunbağı mənasını əsas götürmüşdür.

"*Günah sarbandadır, böyük bir nərin*
Ovsarın *gör hara bağlamış naşı"*[3, s.119]

Dəvənin noxtası mənasını ifadə edən *ovsar* sözü *avsar* şəklində Füzuli, *ovsar* şəklində Beyləqan şivələrində bu mənada işlənir [1, s.29, 383].

Dialektizmlər şeir dilində formal əlamət deyil, poetik formanın elə ünsürüdür ki,

onun vasitəsi ilə bədii fikir sadə deyim ölçülərində və onun yaratdığı dəqiq, emosional cizgilərlə təzahür edir. Şair yazır:

*"Dostum **tarlaşmış** eynəyini*
***Hovxurur,** silir"* [3, s.80].

Qeyd edək ki, nümunədə verilmiş *tarlşmış* və *hovxurur* sözləri ADDL-də qeydə alınmamışdır. *Hovxurmaq* sözü ADİL-də belə izah edilir: *"Yarımbükülü barmaqlarını ağzına tutaraq nəfəsi ilə onları qızdırmaq*[1,s.398]. B.Əhmədov bu sözün eimoloji izahını verir: "*Sözün kökü hov kəlməsidir, hovlamaq və hovxurmaq eyni kökdən düzəlib"* [3, s50]. O, *hov* kəlməsini hava sözünün dəyişmiş variantı hesab edir.

Burada *tarlaşmış* sözü isə "tutqunlaşmış" mənasını ifadə edir. *Tar* kökündən yaranmışdır. *Tar* fars dilində tutqun, aydın olmayan deməkdir. Qeyd edəki ki, dilimizdə bu mənada *tor*(gözünə tor gəlmək, zəif görmək), tor sözündən isə *torlaşmaq* (görmənin zəifləməsi), *toran* (alaqaranlıq), *toranlaşmaq* (alaqaranlıqlaşmaq) sözləri yaranmışdır. Demək, *tarlaşmaq* sözü dilimizdə işlək olan *tor, torlaşmaq* sözlərinin dodaq saitli variantıdır.

Qərbi Azərbaycan şivələrində isə *tarraşmax* sözü işlənir.Toyuqların tara çıxması mənsını ifadə edir. Bu sözün əsasındakı *tar* əksər dialekt və şivələrimizdə toyuqların axşamlar üstündə yatdığı ağac mənasında işlənir[1, s.481].

"Deyəndə neçə söz də artırırdı özündən,
*Yalandan danışdığı **bəllənirdi** üzündən"*[4, s.240].

ADDL-də *bəllənmək* sözünün üç müxtəlif mənası verilmişdir: "*1. Yoluxmaq, baş çəkmək; 2. Nişanlamaq, işarə qoymaq, müəyyənləşdirmək; 3. Boş-boş danışmaq"*[5,s.50]. Verilən nümunədə bu sözün, heç şübhəsiz, ikinci, yəni müəyyənləşdirmək mənası əsas götürülmüşdür:*"Yalan danışdığı üzündən müəyyənləşirdi, aydın olurdu".*

*"Gəldi kəndli, gəldi **hampa,***
Gəldi əsnaf, gəldi baqqal"[3, s.242].

Nümunədə işlənən *hampa* sözü varlı mənasını ifadə edir. Qeyd edək ki, bu sözün ADDL-də iki mənası verilmişdir: "ağsaqqal" (Şəkidə) və "varlı, dövlətli" (Füzuli). Lerik rayon şivələrində isə yoldaş, sirdaş mənasında işlənir: - *Novruz biznən hampadu.*

"Axşam hansı evdə qalsan,
*ya Təbriz **çilovu***
yeyərsən,
ya da Qafqaz kababı" [3, s.130].

Nümunədə işlənmiş *çilov* sözünün ADİL-də mənası belə izah edilir: "*Lobya, mərci, əriştə və düyüdən bişirilmiş aş, plov"*[2, s.484]. Bakı dialektində isə *yarmaçilov* sözü işlənir, yarmaplov mənasını ifadə edir. Azərbaycan dili dialekt və şivələrində *çilov* sözündən yaranan, aşsüzən mənasını ifadə edən *çilossən, çilo:sən* sözləri işlənir[1, s.102].

Balaş Azəroğlu şeirlərində xalq arasında keçirilən bəzi adətləri də canlandırır, bu zaman məxsus olduğu dialektə uyğun ifadələrdən istifadə edir. Məsələn, o, axır çərşənbənin səhəri günü, günəş çıxmamış su üstünə getmək adətindən belə bəhs edir:

"Yenə el adəti, elin bayramı,
Axır cərşənbəsi, novruz axşamı,
Bu gün ***nov üstünə çıxacaq*** *hamı,*
Qızların qatarı yadıma düşdü" [2, s. 147]

Burada işlənən "*nov üstünəçıxmaq"* şairin yaşadığı yerin dialektinə məxsus ifadədir. Bu adət haqqında yazılır: "*Bəzi yerlərdə bu adət "novbaşı" adlanır. İlk növbədə, insanlar səhər tezdən bulaq kənarına, nov başına gedər, suyun üstündən tullanarlar. Su üstündən tullananda "Allahımız, ruzimizi bol eylə",- deyib, suya buğda atarlar. Şahbuz rayonunun bəzi kəndlərində isə "İlahi, qohumların, ailəmizin ağzını şirin eylə", -deyib, suya kişmiş atarlar. Əl-üzlərini yuyar, sudan bir az da içərlər. İnama görə, bu su dərdlərin dərmanıdır, içən xəstələr şəfa tapar. Çərşənbə suyundan insanlar arasında bir-birinin üstün çiləmə adəti də icra olunur*"[1,133].

Məlumdur ki, nişan mərasimində oğlan evindən qız evinə ətrafı qırmızı lentlərlə bəzədilmiş xüsusi güzgü aparardılar. Buna *bəxt güzgüsü, bəxt aynası* deyərdilər. Gəlini oğlan evinə aparanda da həmin güzgü oğlan yengəsinin, yaxud qızın soldişinin əlində gəlinin yanında gedərdi. Bu mərasimə "güzgü tutmaq" deyərdilər. Şair həmin prosesi belə təsvir edir:

"Gəlin gətirəndə, bizlərdə kəndə,
Qarılar ***qabağa ayna tutardı***
Cavanlar at çapıb fişəng atardı"[3, s.116].

Bu şeir parçasında şair yaşadığı regionun adət-ənənəsinə, danışıq tərzinə uyğun olaraq bu prosesi *"qabağa ayna tutmaq"* şəklində ifadə edir. Məlum olur ki, gəlinin bəxt aynasını yaşlı qadınlar – qarılar götürərmişlər.

Xalq təqviminə görə, kiçik çillədən sonra Boz ay gəlir. Fevralın 20-dən martın 21-nə kimi davam edən bu ayda hava yağışlı, buludlu, günəşli olur. Boz aya xalq arasında müxtəlif adlar verilib: Çilləbeçə, Ağlar-gülər, Alaçalpov. Şair mənsub olduğu dialektə əsasən *Alaçalpov* sözünü poeziya dilinə gətirir:

"Çöldəqar yağır,
Alaçalpov.
Evdə gülqabında nərgiz çiçəyi" [3, s.57]

Yaxud:

"İndi yaylaqda ***Alaçalpov,***
Aranda yağış yağır" [3, s.217]

Şair bu aya məxsus hava dəyişkənliyinin yaratdığ əksliyi çox məharətlə təsvir etmişdir. Çöldə qar yağır, evdə isə gülqabında nərgiz çiçəyi, yaylaqda alaçalpov, aranda isə yağış yağır. Ümumiyyətlə, Balaş Azəroğlunun dilində xalq ruhuna, milli təfəkkürə bağlılığın ifadəsi olan dialektizmlər saysız-hesabsızdır:*"Yoluna gül səpd el* ***tabaq-tabaq****; "Ya da* ***qələmə*** *tək dümdüz olsaydın; "Şümşad barmaqlar döşlərin*

*üstündə **daraqlanıb**; "Bir **dəstərxan** çörəyim"; "**Sısqa** yağışda"; "Əsirdi **zağ-zağ**"; "**Kəndidən** un qurtardı"; **"**Gəlinlər, qızlar **hərəsan** yatdılar";"Başı Səhənd **çalmalı**"; **"**Babam **çubuğunu** tüstülədərək"; "Əlində **həşyəsi** yazılı mis **piydəsi**", "qızıl **şirazələr**"*və s.Qeyd edək ki, bu sözlərin bəziləri ADDL-də öz əksini tapmış, bəziləri isə burada da qeydə alınmamışdır.

Göründüyü kimi, şair daha çox keçmiş həyatı, yaşadığı günləri, mühiti canlandırdıqda dialekt leksikasına müraciət edir. Onun şeirlərində psixoloji mənzərə canlı danışıq sözlərinin, məhəlli dil ünsürlərinin içinə hopur. Bədii deyim biçimləri yerli danışıq tərzinə söykənir.

Xülasə

Dialekt və şivə sözləri Balaş Azəroğlunun şeir dilində doğmalaşır. Bu doğmalıq dialektizmin qədim leksik qat kimi sözün qorunub saxlanan mənalarını üzə çıxarır, forma və deyim qəliblərində poetik mənanın dolğunlaşmasına səbəb olur. Ana dilinin leksik imkanlarının nəyə qadir olduğunu, onun ifadəlilik imkan və çalarlarını əks etdirir. Bədii- estetik düşüncəyə keçərək şeiri poetik dillə yükləməkdə iştirak edən dialekt leksikası şairin söz seçmək məharəti nəticəsində bədii üslubun tələblərinə cavab verir. Məqalədə deyildiyi kimi, şair daha çox keçmiş həyatı, yaşadığı günləri, mühiti canlandırdıqda dialekt leksikasına müraciət edir. Onun şeirlərində psixoloji mənzərə canlı danışıq sözlərinin, məhəlli dil ünsürlərinin içinə hopur. Bədii deyim biçimləri yerli danışıq tərzinə söykənir.

Резюме

Диалектные и акцентные слова являются родными для поэтического языка Балаша Азероглу. Это сродство, как и древний лексический пласт диалектизмов, выявляет сохранившиеся значения слова и приводит к обогащению поэтического смысла формами и идиоматическими моделями. Он отражает то, на что способны лексические возможности родного языка, его выразительные возможности и оттенки. Диалектная лексика, которая участвует в наполнении стихотворения поэтическим языком, переходя к художественно-эстетической мысли, отвечает требованиям художественного стиля в результате мастерства поэта в подборе слов. Как указано в статье, поэт часто прибегает к диалектной лексике, вспоминая свою прошлую жизнь, прожитые дни и окружающую среду. В его стихах психологический ландшафт воплощен в живой устной речи и элементах местного языка. Художественные идиомы основаны на местных речевых моделях.

HACIYEVA YAQUT

DIALECTS IN BALASH AZEROGLU' S POETRY

SUMMARY

Dialect and dialect words are native to Balash Azeroglu's poetic language. This nativeness reveals the preserved meanings of the word as an ancient lexical layer of dialectism, and leads to the enrichment of poetic meaning in forms and idioms. It reflects what the lexical possibilities of the native language are capable of, its expressive possibilities and shades. The dialect lexicon, which participates in loading the poem with poetic language by passing to artistic-aesthetic thought, meets the requirements of the artistic style as a result of the poet's skill in choosing words. As stated in the article, the poet mostly turns to dialect lexicon when reviving his past life, the days he lived, and the environment. In his poems, the psychological landscape is absorbed into living colloquial words and local language elements. Artistic idiom forms are based on the local style of speech.

Ədəbiyyat

1. Abdullayev, S. Dil və bədii qavrayış/ S.Abdullayev. – Bakı: - Yazıçı, – 1984. - 168 s.
2. Azəroğlu, B. Seçilmiş əsərləri / B.Azəroğlu – Bakı: Azərbaycan Dövlət nəşriyyatı , - 1961. -268 s.
3. Azəroğlu, B. Seçilmiş əsərləri / B. Azəroğlu – Bakı: Öndər , -2004. -288s.
4. Azərbaycan dilinin dialektoloji lüğəti / Redaktorlar: A.Axundov, Q.Kazımov, S.Behbudov. - Bakı: Şərq-Qərb, - 2007. - 568 s.
5. Hüseynov, M. Sözün poetikası / M.Hüseynov. – Bakı: Elm və təhsil , - 2010. - 368 s.

Rəyçi : **Telman Ziyatxan oğlu Quliyev**
Filologiya elmlər doktoru, professor

Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu, *ISSN 2224-9257*
Filologiya məsələləri № 3, 2025
Səh. ————————

İMANOVA İRADƏ İSA QIZI
iimanova@amu.edu.az
ALLAHVERDİYEVA FƏRİDƏ HÜSEYN QIZI
faridahaji1291@gmail.com
Azərbaycan Tibb Universiteti

QLOBALLAŞAN DÜNYA VƏ AZƏRBAYCAN MƏDƏNİYYƏTİ

Açar sözlər: *Mədəniyyət, teatr sənəti, qloballaşma, mədəniyyətlərarası dialoq, incəsənət.*
Key words: Culture theatre art, globalization, intercultural dialogue, arts.
Ключевые слова: культура, театральное искусство, глобализация, межкультурный диалог, искусство.

Müasir qloballaşma prosesləri başqa sahələrlə yanaşı həm də mədəniyyətin inkişafı ilə genişlənməkdədir. Zaman-zaman çeşidli mədəniyyət və incəsənət növləri müxtəlif xalqlar arasında dünyanın bir yerindən digər yerinə yayılmışdır. Mədəni qloballaşma üçün dünyanın müxtəlif ölkələri arasında mədəni əlaqələrin get-gedə yaxınlaşması beynəlxalq əlaqələrin artmasına da güclü təsir göstərir. Bu həm də bütün dünyada milli mədəniyyətlərin genişlənməsinə gətirib çıxarır. Bu gün hər yerdə yayılmış internet, turizm və s. mədəni qloballaşmanın inkişafında böyük rol oynayır. Qloballaşmanın əsas cəhətlərindən biri də odur ki, hər bir xalqa şərait yaradır ki, öz mədəniyyətini təbliğ etsin. Mədəniyyətin qloballaşması həm də dünya mədəni dəyərlərinin qarşılıqlı əlaqəsini *təşkil* edir. Xalqlar arasında mədəni əlaqələrin genişlənməsi eyni zamanda həmin xalqların bir- birinə yaxınlaşmasını şərtləndirir. XXI əsrin əvvəllərində qloballaşmanın yeni çağırışları ölkələrarası mədəni əlaqələrin inkişafının əhəmiyyətini artırmışdır. Mədəni əlaqələr xalqlar və dövlətlər arasında ayrı-seçkiliyi aradan qaldıran mühüm amil olaraq dövlətlərarası münasibətlərin zəngin palitrasının inkişafına zəmin yaradır.

Hazırda Azərbaycan Respublikası UNESCO (Birləşmiş Millətlərin Təhsil, Elm və Mədəniyyət Təşkilatı) İSESCO (İslam Konfransının Təhsil, Elm və Mədəniyyət Təşkilatı). Avropa Şurası kimi beynəlxalq və regional qurumlarla əməkdaşlıq edir. Qloballaşmanın geniş vüsət almasından asılı olmayaraq hər bir xalq milli kökə bağlılığını qoruyur. Çünki bu bağlılıq kökündən qoparsa qloballaşmanın gətirdiyi fəsadlar daha böyük olar. Millilikdən, mənəviyyatdan, mənəvi dəyərlərdən və dindən qopmamaq şərtilə qloballaşmanı qəbul etmək olar. Qloballaşma həm də mədəni dəyərlərin qarşılıqlı mübadiləsini və sintezini tələb edir. Qloballaşma inkişaf etmiş Qərb dövlətlərində məqbul sayılan ideoloji standartlar əsasında baş verdiyindən, müsəlman dünyası bu prosesdə onlara ayrılmış yeri müəyyən etmək zərurəti ilə qarşılaşmışdır [1.s.127]. Ümummilli lider Heydər Əliyev Azərbaycanın gələcək uğurlu inkişafı üçün öz siyasəti ilə əsrlər boyu formalaşmış çoxmədəniyyətlilik ənənəsini inkişaf etdirib onu keyfiyyətcə yeni müstəviyə keçirdi. Ulu öndər "Azərbaycan onun ərazisində yaşayan bütün millət və xalqların ümumi vətənidir"

kimi sözləri ilə əslində multikulturalizmin konturlarını cızırdı. Ulu öndər çıxışlarının birində devirdi: "Xalqımız qədim xalqdır, böyük *tarixə,* böyük mədəniyyətə malik olan xalqdır. Hər bir xalqın mədəniyyəti onun böyüklüyünün, müdrikliyinin, birliyinin təcəssümüdür. Azərbaycan xalqı qədim tarixə və mədəniyyətə malik bir xalq kimi artıq bütün dünyada tanınmışdır. Azərbaycan mədəniyyətinin yaranması və mənəvi rolunun yüksək dəyərləndirilməsində tarix boyu bir yox şəxsiyyətlərin xidməti olmuşdur ki, yeni dövrün də belə bir nəhəng şəxsiyyəti məhz Heydər Əliyevdir. Azərbaycan mədəniyyətinin hərtərəfli inkişafında və onun zəngin mədəni irsinin dünya mədəni aləminə çatdırılmasında Heydər Əliyev çox böyük

rol oynamışdır və bu fəaliyyət respublikanın gələcək mənəvi siyasi həyatı üçün örnək və irsə münasibətdə siyasətin konsepsiyasının yaranması baxımından mühüm əhəmiyyətə malikdir [2.s.10]. Qloballaşma şəraitində mədəniyyətlərarası dialoqun təbliğində problemlər də mövcuddur, onların həlli təkcə bir dövlətin apardığı siyasətdən, bir xalqın istək və arzularından deyil, ümumi inkişafın və dünya xalqlarının bu mövzuya yanaşması baxımından da çox asılıdır. Qloballaşan dünyada özündə mədəniyyətlərin inteqrasiyasını, fərqli sivilizasiyaların ən dəyərli tərəflərini cəmləyən estetik-ədəbi nümunələr yaratmaq, onu daha geniş insan kütlələrinə çatdırmaq işində yaradıcı intellektuallara elmi-texniki tərəqqinin son nailiyyətləri yazılı və electron KİV, internet, elektron informasiya daşıyıcıları, mobil rabitə vasitələri böyük yardımçı olur. ABS-da yaşayan soydaşlarının həyatından yazan yapon yazarının romanını, yaxud da İstanbulda sərgisi açılmış Azərbaycan rəssamının yaradıcılıq uğurları barədə dünyanın hər yerində yaşayan insanlar sürətlə xəbər tutur, yetər ki, maraq və həvəs olsun [3.s.17].

Bakıda keçirilən Ümumdünya Mədəniyyətlərarası Dialoq forumları Azərbaycanın dünya birliyinə mədəni inteqrasiyasının bariz nümunəsi oldu Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev qeyd etmişdir kı, "Biz Avropa və Asiya arasında yerləşirik. Əlbəttə ki, bu coğrafi yerləşmə Azərbaycanın mədəni müxtəlifliyində öz rolunu oynamışdır. Əsrlər boyu bütün mədəniyyətlər, dinlər və etnik qrupların nümayəndələri Azərbaycanda sülh və sabitlik şəraitində bir ailə kimi yaşamışlar. Biz fəxr edirik ki, bu müsbət meyillər müstəqillik illərində daha da güclənmişdir" [4.s.2]. 2008-ci ildə ölkə başçısı Prezident İlham Əliyev tərəfindən mədəniyyətlər arasında dialoqun qurulması məqsədilə "Bakı prosesi" təşəbbüsü irəli sürülmüşdür. İlk dəfə 2008- ci ilin 2-3 dekabr tarixində "Mədəniyyətlərarası dialoq Avropa və onun qonşu regionlarında və sülhün əsasları" mövzusunda konfrans keçirildi. 7-9 aprel 2011-ci il tarixində Bakıda I Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu yüksək səviyyədə keçirildi. Forumda 102 ölkədən nümayəndə, 10-dan çox beynəlxalq qurumdan rəhbər şəxslər, 20-yə yaxın ölkədən nazir, ümumilikdə beş qitədən 500-ə yaxın xarici ölkə nümayəndəsi iştirak etdi. 29 may – 1 iyun 2013-cü il tarixində Bakıda II Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu, 18-19 may 2015-ci ildə Bakıda "Müştərək təhlükəsizlik üçün mədəniyyətləri paylaşaq" mövzusunda III Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu keçirildi. Qeyd

edək ki, bu forum özündə üç mühüm komponenti - birgəlik, təhlükəsizlik və mədəniyyəti əsas götürmüşdü. 2017-ci il mayın 5-də UNESCO, BMT-nin Sivilizasiyalar Alyansı, Dünya Turizm Təşkilatı, Ərzaq və Kənd Təsərrüfatı Təşkilatı, Avropa Şurası, İSESCO-nun tərəfdaşlığı ilə Bakıda "Mədəniyyətlərarası dialoqun inkişafı: insan təhlükəsizliyi, sülh və davamlı inkişaf üçün yeni imkanlar" mövzusunda IV Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu keçirildi. Forumda 120-dən artıq ölkədən 800-dən çox nümayəndə iştirak etdi. "Multikulturalizm Azərbaycanda dövlət siyasəti və bizim həyat tərzimizdir" - deyən Prezident İlham Əliyev 2016-cı ilin ölkəmizdə "Multikulturalizm ili", 2017-ci ilin isə "İslam Həmrəyliyi ili" elan olunduğunu bildirdi. Bakıda keçirilən mədəniyyətlərin dialoqu forumları özlüyündə ölkəmizin mədəni inkişafına böyük təsir göstərdi. Bu sahədə Heydər Əliyev Fondunun mədəni diplomatiya sahəsində əldə etdiyi böyük uğurlar ölkəmizin beynəlxalq aləmdə nüfuzunu daha da artırmışdır.

Ölkəmizin beynəlxalq sferaya inteqrasiyasında növbəti addım kimi 2015-ci ilin iyun ayında Bakıda dünya tarixində ilk dəfə olaraq Heydər Əliyev fondunun dəstəyi ilə I Avropa Oyunlarının keçirilməsi xüsusi qeyd olunmalıdır. I Avropa Oyunları Azərbaycanda idmanın, iqtisadiyyatın və turizmin inkişafına, ölkəmizin dünyada tanınmasına, etibarlı imic qazanmasına, mədəniyyətimizin dünyaya nümayiş olunmasına, ixtisaslaşmış kadrların sayının artırılmasına, ölkəmizin böyük təcrübə qazanmasına və digər sahələrdə əhəmiyyətli inkişafa nail olmağa şərait yaratdi.

Ölkəmizdə mədəniyyətin, incəsənətin və muğam sənətinin geniş surətdə inkişaf etməsinin nəticəsidir ki, istedadlı mütəxəssislərimiz xarici ölkələrdə milli musiqimizi nümayiş etdirirlər. 2013-cü ildə III Beynəlxalq "Muğam aləmi" festivalının açılışında Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyeva demişdir: "Əminəm ki, festivalın möhtəşəm proqramı özündə müxtəlif ölkələrin rəngarəng muğam məktəblərinin tarixi ənənələri və nailiyyətləri ilə bərabər, qloballaşmanın və informasiya cəmiyətinin meyillərini də əks etdirəcək, yeni istedadlar üzə çıxaracaq və muğam aləminə gözəl bir səyahət kimi hamımızın yaddaşında silinməz iz qoyacaqdır [5]. Qeyd edək ki, həmin müsabiqədə Çin, Mərakeş, Türkiyə, Hindistan, İraq, Özbəkistan, ***Fransa, İran, Tunis,*** Amerika, Liviyadan gəlmiş nümayəndələr də iştirak etmişdirlər.

Məlum olduğu kimi, 15 may 2014-cü ildə "Bakı Beynəlxalq Mıltikulturalizm Mərkəzinin yaradılması haqqında "Azərbaycan Respublikasının Prezidenti fərman imzalamışdır. Mərkəz azərbaycançılıq məfkurəsinə uyğun olaraq tolerantlığın və mədəni, dini, linqvistik müxtəlifliyin qorunmasını təmin etmək məqsədilə ardıcıl işlər görür. Azərbaycan dilində multikulturalizm modellərini tədqiq və təşviq edir [6]. Bu gün Azərbaycan bütün dünyada mıltikulturalizm məkanı kimi tanınır. Qeyd eldik ki, Azərbaycan Respublikasının Prezidenti 2016-cı ili Multikulturalizm iili elan etmişdir. Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin təşkilatçılığı ilə keçirilən IV Qlobal Bakı Forumunda münaqişələrin qarşısının alınmasında dinlərarası dialoqun rolu, miqrasiya və mullikulturalizm məsələləri, o cümlədən qlobal təhlükəsizliyin

təmin olunması kimi mühüm məsələlər müzakirə edildi. Forumda 27 sabiq president və 23 sabiq baş nazir də daxil olmaqla, 53 ölkədən 300-dən qox nümayəndə iştirak etdi. Bu gün milli azlıqlar öz milli-mədəni mərkəzlərini, assosiasiyalarını və digər qurumlarını yaratmaq hüquqlarından tam istifadə edirlər. Hazırda Azərbaycanda onlarla milli mədəniyyət mərkəzi fəaliyyət göstərir.

Mədəni əlaqələrin təsiri ilə milli ədəbiyyat və incəsənətin inkişafı da xalqın mənəvi aləminin zənginləşməsinə kömək edir. Azərbaycan xalqı öz mədəniyyətini başqa ölkələrin xalqları, ilk növbədə türk xalqları ilə əməkdaşlıq, ədəbiyyat və incəsənətin qarşılıqlı surətdə zənginləşdirilməsi və milli naiIiyyətlərin mübadiləsi əsasında inkişaf etdirir. Müasir dövrdə tüık xalqları arasında mövcud olan mədəni əlaqələr bu xalqların tarixi keçmişinə əsaslanır. Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev bu məsələyə böyük önəm verərək demişdir kı. Azərbaycan sülhsevər ölkə olaraq bütün dövlətlərlə və xalqlarla qarşılıqlı anlaşma, mehriban dostluq və əməkdaşlıq şəraitində yaşamaq istəyir.

XX əsrin 90-cı illərində beynəlxalq təşkilat olan TÜRKSOY-un təsis edilməsi türkdilli xalqlar arasında əməkdaşlığın və əlaqələrin möhkəmlənməsinə böyük təsir göstərdi. Türkdilli xalqların mədəniyyətlərinin təbliği istiqamətində TÜRKSOY dünyanın müxtəlif ölkələrində silsilə tədbirlər həyata keçirdi. Belə tədbirlərin bır çoxu Azərbaycanın görkəmli şəxsiyyətlərinə həsr edilib, Əli bəy Hüseynzadə, Səməd Vurğun, Bəxtiyar Vahabzadə, İlyas Əfəndiyev və digər tanınmış sənətkarların yubileyləri burada keçirilib.

Məlum olduğu kimi, 2017-ci il Beynəlxalq Türk Mədəniyyəti Təşkilatı - TÜRKSOY tərəfindən böyük Azərbaycan Şairi Molla Pənah Vaqifin xatirə ili elan olunub. Şairin 300 illik yubileyi münasibətilə türkdilli ölkələrdə müxtəlif tədbirlər və mərasimlər keçirilib. Azərbaycanın zəngin mədəniyyəti və incəsənəti onun dünyada layiqincə tanınmasına imkan verir.

Mədəniyyət həm də əsas təbliğat vasitəsi, dövlətlərarası humanist əlaqələrin mənbəyidir.

Azərbaycan xalqının milli sərvəti olan xalq mahnılarımız və muğamlarımız bu gün xarici ölkələrdə çox yüksək qiymətləndirilir. Dram və balet əsərlərimiz, milli kino mədəniyyətimiz dünya teatrlarının səhnəsində və ekranlarında uğurla nümayiş etdirilir. Müstəqil respublikamız öz mədəniyyəti, incəsənəti və görkəmli sənətkarları ilə dünya meridianlarına çıxır.

Bakda keçirilən "İslam həmrəyliyi"nə həsr olunmuş layihə çərçivəsində Xoreoqrafıya Akademiyası Musiqili Teatrın səhnəsində "Səmayişəms" rəqs-tamaşasını təqdim etdi. Səhnədə Azərbaycan, Türkiyə, İran, Albaniya, Misir, Qazaxıstan, Özbəkistan, Tacikistan, Dağıstan, bir sıra ərəb və digər müsəlman ölkələrinə məxsus milli rəqslərdən ibarət vahid ssenari üzrə rəqs-tamaşa nümayiş etdirildi. Rəqs-tamaşa əmin-amanlığın, dostluğun, həmrəyliyin, mehribanlığın və mənəvi birliyin təntənəsini təcəssüm etdirdi. Sivil dünyanın tarixi göstərir ki, millətlər arasındakı qarşılıqlı mənəvi zənginləşmə məhz fərqli, milli sərvətlər

arasında zənginləşmə prosesidir. Qloballaşan dünyamızda xalqlar arasında mədəni əlaqələrin genişləndirilməsi, onların ünsiyyət və qarşılıqlı şəkildə bir-birini dərk etməsi həm də həmin xalqların yaxınlaşmasını şərtləndirir.

XÜLASƏ

Məqalədə qloballaşma prosesinin başqa sahələrlə yanaşı, mədəniyyətin inkişafında da rolundan danışılır. Qloballaşmanın əsas cəhətlərindən bıri də odur ki, hər bir xalqa şərait yaradır ki, öz mədəniyyətini və incəsənətini təbliğ etsin. Ölkəmizdə mədəniyyətin, incəsənətin və muğam sənətinin geniş surətdə inkişaf etməsinin nəticəsidir ki, istedadlı mütəxəssislərimiz milli mədəniyyətimizi xarici ölkələrdə nümayiş etdirirlər. Bakıda keçirilən mədəniyyətlərin dialoq- ***forumları özlüyündə ölkəmizin mədəni inkişafına beynəlxalq aləmdə nüfuzunun daha da*** *artmasına böyük təsir göstərir. Azərbaycanın zəngin mədəniyyəti və incəsənəti onını dünyada layiqincə tanınmasına imkan verir.*

Irada Imanova
Farida Allahverdiyeva

GLOBALIZING WORLD AND AZERBAIJAN CULTURE

SUMMARY

In adjoining with other spheres, modern globalization process is also getting expanded with the culture development. One of the main peculiarities of globalizatioan is that, this process allows every nation to propagate its culture and art. It is the result of wide development of culture, arts and mugham art that talented specialists are demonstrating our national culture in foreign contries. Culture dialogue forums held in Baku made a great impact on cultural development of our country and increase of its influence in internatonal world. The very rich culture and art of Azerbaijan makes it to become worthily popular all over the world.

Ирада Иманова
Фарида Аллахвердиева

ГЛОБАЛИЗИРУЮЩИЙСЯ МИР И КУЛЬТУРА АЗЕРБАЙДЖАНА

РЕЗЮМЕ

Наряду с прочими сферами, современные процессы глобализации расширяются также и за счет развития культуры. Одним из основных свойств глобализации является и то что она создает каждому народу условия для пропаганды собственной культуры и искусства. Большое развитие культуры, искусства и мугама в стране привело к тому, что наша национальная культура, демонстрируется талантливыми специалистами в зарубежных странах. Проводимые в городе Баку форумы, посвященные межкулътурным диалогам, сами по себе значительното повлияли на культурное развитие нашей страны и росту ее влияния в международном масштабе. Насыщенная культура и искусство Азербайджана способствуют ее достойному признанию во всем мире.

İSTİFADƏ EDİLMİŞ ƏDƏBİYYAT

1.Həsənova V. Qloballaşma prosesinin mədəniyyətlərin və sivilizasiyaların qarşılıqlı dialoquna təsiri. “Mədəniyyət dünyası” Bakı, 2005, səh. 127;

2. Əfəndiyev T, Heydər Əliyev – Mədəniyyət və ədəbiyyat. Bakı, “Təhsil”, 2013, səh. 10;

3. Aydın Xan (Əbilov). Multimədəniyyət qloballaşmanın poetikası. Dünyanın kulturoloji dərki. Bakı, “Mütərcim”, 2009, səh. 17;

4. Həsənov M. Azərbaycan mədəniyyətlərarası dialoq və mədəni dəyərlərin təbliğində oynadığı rol. “Üç nöqtə”, 22 fevral 2016;

5. MehdiyevaN. Azərbaycan - Özbəkistan ədəbi-mədəni əlaqələri. "Respublika" qəzeti. 7 oktyabr 2010;

6. Ağamalıyeva C. Multikulturalizmin Azərbaycan örnəyi. “Respublika” qəzeti, 11 iyun 2017.

Rəyçi: Dosent Məmmədova Elnarə Adil

Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu, *ISSN 2224-9257*
Filologiya məsələləri № 3, 2025
Səh. ————————

GUNAY ASADOVA
gunay.asadova@azmiu.edu.az
Azerbaijan University of Architecture and Construction
ORCID: 0009-0001-8629-5107

PRONOUNS AND CULTURAL IDENTITY IN MULTILINGUAL YOUTH: A SOCIOLINGUISTIC ANALYSIS OF POWER, BELONGING, AND EXPRESSION

Açar sözlər: əvəzliklər, mədəni kimlik, çoxdillilik, gənclər, sosial struktur, rəqəmsal kommunikasiya
Ключевые слова: местоимения, культурная идентичность, многоязычие, молодёжь, социальная структура, цифровая коммуникация
Keywords (English): pronouns, cultural identity, multilingualism, youth, social structure, digital communication

Abstract

In modern multilingual communities, language choice for youth is more and more acknowledged as a dynamic process by which cultural identity is negotiated and constructed. This research examines the sociological implications of pronoun use in this setting, with an emphasis on the ways in which multilingual youth negotiate multiple cultural allegiances through strategic pronoun choice for personal and social references. Drawing on sociolinguistic theory and theories of identity formation, the research examines how pronouns function as markers of power, solidarity, membership, and gender identity. On the basis of qualitative discourse pattern analysis among Azerbaijani, Turkish, English, and Russian-speaking youth groups, the research concludes that variability in pronouns is not merely linguistic but socially embedded in such structures as age, schooling, peer group formation, and cultural expectations. The findings show that pronoun usage serves as a micro-level signal of macro-level tensions in cultures, particularly in online communication spaces where identity signaling is both performative and fluid.

1. Introduction

Language is an essential tool for identity construction and expression, particularly for youths who are navigating increasingly complex social and cultural contexts. In multicultural groups, the way language is used—especially how pronouns are used—can reveal deep truths about how individuals perceive themselves and where they fit within different groups. Pronouns seem to be small building blocks of language, but they have immense social value. They're not only used as grammatical substitutes, but also as relationship markers, signals of power structures, group belonging, and identity. This article discusses how adolescent multilinguals use pronouns as social navigation mechanisms and identity performers.

2. Theoretical Framework

This study borrows from some of the prominent frameworks in sociolinguistics and identity theory. A point of departure theory is Brown and Gilman's (1960) "Power and Solidarity" model, which contends that the use of pronouns indexes social hierarchies (power) and interpersonal closeness (solidarity). Furthermore, Judith Butler's theory of performativity highlights the notion that identity is created through repetitive social actions, such as the use of language. Bucholtz and Hall (2005) work also underlies this research, with a focus on how identity is relational, emergent, and constructed by sociocultural context.

3. Methodology

This research employs a qualitative approach, with discourse analysis and semi-structured interviewing. Participants included bilingual and trilingual young adults aged 16 to 25 years from Azerbaijani, Turkish, English-speaking, and Russian-speaking communities. Data were gathered through naturalistic conversation, social media use, and structured interview. Patterns of usage in key pronouns were coded and analyzed to identify themes in relation to identity, power dynamics, and cultural identification.

4. Pronouns and Group Belonging

Pronouns are markers of inclusion and exclusion, signaling membership in groups and social boundaries. Multilingual youth switch between first-person plural pronouns like "we," "biz," or "мы" depending on context and audience. This switching allows them to affiliate with different cultural groups. For instance, an Azerbaijani speaker of English can use "biz" when talking about traditional values with family but switch to "we" during university life in a bid to signify integration into an English-speaking learning environment. Such strategic switching signals a negotiation of identity on linguistic and cultural boundaries.

5. Pronouns and Power Dynamics

The deployment of formal and informal pronouns normally betrays underpinning power relations. Young people in T/V languages (e.g., Russian "ты" vs. "вы," Turkish "sen" vs. "siz") make deliberate choices to challenge or affirm traditional hierarchies. Addressing someone with " ты " or "sen" as a teacher or elder, for example, may signal a desire for equality or modernity, while using "вы" or "siz" maintains deferential distance. Such choices are not random but are based on context, aim, and evolving cultural attitudes. In addition, in English where such variations are not available morphologically, power can be indexed by tone, modality, and even withholding direct use of pronouns.

6. Gender Identity and Pronoun Innovation

Bir qrup ixtisarlar vardır ki, onların tələffüzü heca əsasında olur. Bu heca əsasında tələffüz adlanır. Bu da bir neçə modeldə özünü göstərir:

a) sait və samitdən ibarət olan iki hecalı ixtisarlar:

A-TA (Azərbaycan-Türkiyə Agentliyi)
A-PU (Azərbaycan Pedaqoji Universiteti)
Ə-DA (Əlillərin Dizayn Assosiasiyası)
İ-Tİ (İctimai Təhlükəsizlik İdarəsi).

b) Sait-samit və sait-samitdən ibarət olan ixtisarlar:

ATƏT A-TƏT Avropa Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatı
ƏDİB Ə-DİB Ədəbiyyat, dil və incəsənət bölməsi
İŞİD İ-ŞİD İraq və şam İslam Dövləti
ABƏS (A-BƏS) – Azərbaycan Beynəlxalq Əməliyyat Şirkəti.

c) Sait-samit və samit saitdən ibarət olanlar:

AFFA (AF-FA) Azərbaycan Futbol Federasiyası Assosiasiyası

İZÇA (İZ-ÇA) İnvestisiya Zəmanətləri üzrə çox hərfli agentlik

ç) Samit-sait və samitdən ibarət olanlar:

KİV (KİV) – Kütləvi İnformasiya Vasitələri

HİK (HİK) – Həmkarlar İttifaqlar Konfederasiyası

MİF (MİF) – Müəssisələrin İnkişaf Fondu

MİT (MİT) – Milli İntizam Partiyası (Türkiyədə) və s.

d) İki sait və bir samitdən ibarət olanlar:

OİK (O-İK) – Ordu İdman Klubu

İƏT (İ-ƏT) İslam Əməkdaşlıq Təşkilatı

İƏK (İ-ƏK) İslam Əmək Koloniyası

İİR (İ-İR) İran İslam Respublikası

İİA (İ-İA) İqtisadi İnkişaf Assosiasiyası

Qeyd edək ki, "K" hərfi dilimizdə iki cür tələffüz olunur: "ke" və "ka" Azərbaycan sözlərində "ke" kimi, alınma sözlərdə "ka" kimi tələffüz olunur. Sözlərin ixtisarında da bu cür deyilir:

a) "Ke" kimi tələffüz olunanlar:

BKİ (Be-Ke-İ) Baş kəşfiyyat İdarəsi

DK Qİ (De-ke, Qİ) – Dənizdə Kəşfiyyat Qazma İdarəsi

KDQ (Ke-De-Qe) Kitabi-Dədə Qorqud

KFT (Ke-Fe-Te) Kəndli Fermer Təsərrüfatı

KLİ (Ke-Li) Keyfiyyət və Lisenziya İdarəsi

KTN (Ke-Te: N) Kənd Təsərrüfatı Nazirliyi

b) "Ka" kimi tələffüz olunanlar: Bura, əsasən, alınma mürəkkəb ixtisarlar aiddir:

KP-(Ka-Pe) – Kommunist Partiyası

KXDR (Ka-Xe-De:R) – Koreya Xalq Demokratik Respublikası

KXR (Ka-Xe:R) –Konqo xalq Partiyası

KMBİ (Ka-eM- Bi) – Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsi

KSB (Ka-Se-Be) Konstitusiya Seçki bloku

RDGK (eR-De-Ge-Ka) – Respublika Dövlət Gömrük Komitəsi

Müasir Azərbaycan dilində ixtisarların müəyyən bir hissəsini də başqa dillərdən alınan mürəkkəb birləşmələr təşkil edir: İngilis, alman, fransız, rus və başqa dillərdən alınmaların açıqlaması həmin dildə olmaqla dilimizə tərcüməsini də vermək vacibdir. Çünki onların tərcüməsini həmin dili bilməyən oxucular heç cür başa düşə bilmir. Bütün bunlar mətbuat səhifələri ilə yayılır və ictimaiyyətə çatdırılır.

Bu dillər içərisində ingilis dilindən alınmalarda daha çox təsadüf edirik:

ABS (A-Be-Se) – Amerika Radioverilişlərin Şirkəti (American Broadcasting System).

FAİ (FA-İ) – Beynəlxalq Aviasiya Federasiyası FAI - Federation aeronatigne İnternationale

FEİ (FE-i) Beynəlxalq Atıcılıq Federasiyası FEI – Federation Equestre Internationale.

İAF (İ-AF) – Beynəlxalq Astronavtika Federasiyası. IAF – International Astronautical Federation.

İSO (İ-SO) Beynəlxalq Standartlaşdırma Təşkilatı. ISO – International Organisation far Standardization.

OPEK (O-PE-K) – Neft İxrac Edən Ölkələrin Təşkilatı (The Organisation of the Petroleum Exporting Countries).

SEATO (Se-E-ATO) – Cənub-Şərqi Asiya Müqaviləsi Təşkilatı (Sout-Fast Asia Treaty Organisation)

TANAP (TA-NAP) Frans-Anadolu Təbii Qaz Boru Kəməri (Frans Anatolian Natural Qaz Pipeline)

Fransız alınmaları. Misal:

FİJ (FİJ) – Beynəlxalq Gimnastika Federasiyası. FIG – Federation Internationale de Gumnastige

FİJD (FİJ-De) Beynəlxalq Dama Federasiyası. FJJD- Federation Internationale du Jeu de Dames.

FİS U (Fİ-SU) Beynəlxalq Universitet İdmanı Federasiyası FİSY – Federation Internationale des sportes Universitaires.

UEFA (U-E-FA) – Avropa Futbol Cəmiyyətləri İttifaqı (Union des Associations Europeennes de Football) və s.

c) Rus alınmaları. Misal:

JAKT (JAK-Te) Mənzil icarə kooperativ şirkəti (Жилищно арендное кооперативное общество).

NLO (eN-LO) naməlum uçan obyekt (неопознанный летающий объект NUO).

OMON (O-MON) Xüsusi Təyinatlı Milis Dəstəsi (Отряд мобильный особого назначения).

ORT (O- eR-Te) Rusiya İctimai Televiziyası (Общественное Российское Телевидение).

ç) Alman alınmaları: Misal:

BMV (Be-M-Ve) Bavariya maşınqayırma zavodları (Bayrische Motoronwerke).

SS (Se-Se) mühafizə dəstələri (Schutz staffeln (Hitler Almaniyasında).

SATUS (SA-TUS) İsveçrə Fəhlə İdman-Gimnastika İttifaqı (Schweizerischer Arbeiter – Turn und Sportferein).

Bu cür nümunələr çox göstərmək olar. Onu qeyd edək ki,bütün dünya dillərində olduğu kimi müasir Azərbaycan dilindədə durmadan artmaqda davam edən belə alınmalar Azərbaycan dilinin ixtisarlar lüğətinin zənginləşməsinə xidmət edir.

ƏDƏBİYYAT

1. N.Seyidəliyev və başqalar "İxtisarlar lüğəti" Bakı, "Elm" 2019-232 səh.
2. Azərbaycan dilinin izahlı lüğəti I cild. Bakı, "Şərq-Qərb", 2006- 744 səh.
3. Heinz Koblischke. Großes Abkürzungsbuch: Abkürzungen –Kurzwörter-Zeichen Symbole. Leipzig, 1980 - 508 səh.

XÜLASƏ

Məqalədə həm Azərbaycan dilində mövcud olan həm də xarici alınma ixtisarlarda sözlərin ifadəsindən bəhs edilir. Mürəkkəb ixtisarlara bəzi hallarda bədii ədəbiyyatda da rast gəlmək olur. Bu haqda xeyli nümunə də verilmişdir.

Burada da həm adlarda, həm də tələffüzlərdə işlənən ixtisarlar haqqında məlumat verilir. Ümumi mənalı ixtisarlara fənlər üzrə tərtib edilmiş və yaxud da yazılmış müxtəlif əsərlərdədə rast gəlirik.

Dilimizdə alınma ixtisarların çoğrafiyası kifayət qədər genişdir. Həmin mürəkkəb ixtisarlara ingilis, alman, fransız, rus və başqa dillərdən alınmalara aid məqalədə nümunələr göstərilmişdir.

Mahyaddinova Konul Maharram

THE EXPRESSION OF NATIVE AND BORROWED ABBREVIATIONS IN LANGUAGE
SUMMARY

The article discusses the expression of words in abbreviations that exist both in the Azerbaijani language and those borrowed from foreign languages. In certain cases, complex abbreviations can also be encountered in literary works, with numerous examples provided to illustrate this.

The article further presents information on abbreviations used in both proper names and pronunciation. Abbreviations with general meanings are also found in various works compiled or written according to academic disciplines.

The geographical scope of borrowed abbreviations in the Azerbaijani language is quite broad. The article provides examples of complex abbreviations borrowed from English, German, French, Russian, and other languages.

Keywords: Azerbaijani language, abbreviations, pronunciation, model, term, complex abbreviations, literary literature.

Махьяддинова Кенуль Магеррам кызы

ВЫРАЖЕНИЕ НАЦИОНАЛЬНЫХ И ЗАИМСТВОВАННЫХ СОКРАЩЕНИЙ В ЯЗЫКЕ

РЕЗЮМЕ

В статье рассматриваются как существующие в азербайджанском языке, так и заимствованные из других языков сокращения. В некоторых случаях сложные аббревиатуры встречаются и в художественной литературе, чему приведено немало примеров.

Также в работе приводятся сведения об аббревиатурах, употребляемых как в названиях, так и в произношении. Сокращения с общим значением можно встретить в различных произведениях, составленных или написанных по предметным дисциплинам.

География заимствованных сокращений в нашем языке достаточно широка. В статье представлены примеры сложных сокращений, заимствованных из английского, немецкого, французского, русского и других языков.

Ключевые слова: азербайджанский язык, сокращения, произношение, модель, термин, сложные сокращения, художественная литература.

ƏDƏBİYYAT

4. N.Seyidəliyev və başqalar “İxtisarlar lüğəti” Bakı, “Elm” 2019-232 səh.
5. Azərbaycan dilinin izahlı lüğəti I cild. Bakı, “Şərq-Qərb”, 2006- 744 səh.
6. Heinz Koblischke. Großes Abkürzungsbuch: Abkürzungen –Kurzwörter-Zeichen Symbole. Leipzig, 1980 - 508 səh.

Rəyçi: Bakı Dövlət Univesitetinin Təbiət Fakültələri üzrə İngilis dili kafedrasının müdiri,Filologiya üzrə fəlsəfə doktoru, proffessor Abbas Abbasov

Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu, *ISSN 2224-9257*
Filologiya məsələləri № 3, 2025
Səh. ——————

ORCİD İD https://orcid.org/
0000+000+23791+9219
MAYA PASHA AHMADLI
Azerbaijan University of Architecture and Construction
maya-ahmadly@mail.ru

THE REFLEXIVE VOICE IN AZERBIJANI AND ITS EQUIVALENT IN ENGLISH

ABSTRACT

The article talks about the Reflexive Voice of the verb in Azerbaijani and its equivalent in English. Despite its universal character from the semantic point of view, in many languages the Reflexive Voice of the verb has specific grammatical means of expression, while in other languages the same meaning is expressed by separate lexical means. In Azerbaijani, the reflexive form of the verb has the same morphological features as the passive form. This language has the meaning of reflexivity, which has various means of expression, but the verb has no.

The fact that some linguists accept the reflexive form of the verb in English is due to the existence of the category of voice in this language. The reflexive voice of the verb that exists in the Azerbaijani language is mainly expressed in the English language with the reflexive pronouns.

Keywords: verb, reflexive voice, passive form, active form, subject, object

The passive form of the verb has specific expressive means in both languages. In English, the passive form of the verb is formed analytically, and in Azerbaijani - synthetically.Therefore, despite the differences in expressive means, typo-logical similarity is evident between both languages. Now the question may be asked: How do the meanings expressed by other forms of the verb, which have specific expressive means in Azerbaijani, find expression in English? In this case, we are faced with qualitative typology. D.N.Yunusov notes that the differences revealed during the typo-logical comparison of languages are of two types, and they are mainly distinguished in two areas of typology: qualitative differences and quantitative differences. Qualitative differences mean that this or that phenomenon is characteristic of one of the languages being compared, but is completely absent in the other. Quantitative differences mean that this or that phenomenon exists in each of the languages being compared, but the frequency of their development varies depending on the language [1, p. 19].

Despite the fact that the verb inflection has a universal semantic character, while in many languages it has specific grammatical means of expression, in other languages this meaning is expressed through different lexical means.

It is precisely as a result of this that the reflexive form of the verb in the modern Azerbaijani language also possesses concrete grammatical means of expression. In modern English, however, the opinions expressed about the expression of the verb's reflexive meaning differ significantly.

In linguistic literature, different opinions have been expressed at different times about reflexives, as well as reflexive types. Here we consider the opinion of Sh. G.Gulubeyli, who conducted a special study on the reflexive type of the verb, to be more appropriate. He notes that reflexives means any meaning in which the of the subject and object of the action is expressed, that is, if in the semantic plan the subject is at the same time the object of the action, then reflexives is expressed without depending on the means of expression. The following can be objects:

1. a) the subject as a whole; b) a part of the subject, or rather, a part of the subject's body;

2. a) the physical state of the subject; b) the internal, mental state of the subject;

3. a) a living subject consisting of a person or an impersonal being; b) an inanimate subject [2, p. 13].

From this definition, one can draw a general conclusion that the action performed by the performer is directed, directed towards himself.

In the Azerbaijani language, the reflexive form of the verb has historically been the same as the passive form and has expressed the same meaning. It is no coincidence that even after the two forms were formed separately, they have the same morphological sign: -ıl4, -ın4.

At the same time, in Azerbaijani linguistics there is an opinion that the suffixes -ıl, -il, -ul, -ül participate mainly in the formation of the passive form, and the suffixes -ın, -in, -un, -ün participate in the formation of the reflexive form. Undoubtedly, the lexical meaning of this or that verb plays an important role here [3, p. 41]. For example,

1. The river was drained (reactive).

2. The river was drained into the field (passive).

The text in which the first sentence is used can be imagined as follows. The river was drained, then we crossed the river. This sentence cannot be converted to the active voice, and even if we do, it sounds very artificial. However, the second sentence can easily be converted to the active voice:

The residents drained the river into the field.

To distinguish between the passive voice and the reactive voice, the following should be taken into account [4, p. 199].

1. In sentences with the passive voice, the object replaces the subject, while in the reflexive voice, the word indicating the subject becomes active and there is no need for an object. For example,

Sara cleaned the window → The window was cleaned (passive voice).

Sara washed her face → Sara washed (reflexive voice).

So, since the subject is active in the reflexive voice, the word indicating the object loses its significance.

2. In the passive voice, it is possible to restore who performed the action in most cases, but in the reflexive voice, it is not possible to do this.

Adil read a book → The book was read by Amil.

Such a change cannot be made in the sentence. Because in the passive form, the subject is active in each case.

3. The passive voice, mainly, belongs to the third person, and the reflexives form can belong to all three persons.

The article was sent – The articles were sent (Passive form).

I washed - We washed.

He dressed - They dressed.

At the same time, there are verbs that can belong to the first and second persons in the passive form of the verb. In such cases, the action performed is directed to the speaker [5, p. 254].

I was beaten. → They beat me.

He was beaten. → They beat him.

As a rule, the reflexive form of the verb is formed from active verbs. These verbs are transformed into passive verbs by accepting various reflexive suffixes.

1.The flowers were slowly opening(blooming) (Y.V. Chamenzaminli) [6, p. 154]..

2. The bonfire was smoking next to the carts (I. Shikhli,). [7, p. 264].

Despite the fact that the suffixes of the reflexive and passive forms in the examples are not the same, we are talking about the reflexive form of the verb. In none of these sentences is the main criterion – the transformation of the passive form into the active form – possible. For example, it is impossible to use the first sentence – Flowers were opening – They opened flowers, because this does not correctly reflect reality. The second criterion is also impossible to apply, that is, it is impossible to restore the subject of the action. The action performed in those sentences is directly directed towards the subject himself.

It should be noted that in modern Azerbaijani the reflexive form of the verb can be expressed with other suffixes. Although the form is similar to the active form, the reflexive meaning is expressed in terms of the meaning it expresses. The following suffixes are included in those suffixes [5, p. 257].

-lan, -len:-- He became excited.

-lash, -lash: -- She became beautiful.

-ıq, -ik, --We were late

One of the features of the reflexive form is that the verb used in this form requires its reflexive pronoun. For example, He dressed himself. At the same time,

this pronoun can also be omitted: to dress, to undress, to fold, etc. Verbs cannot be used with their pronoun in the reflexive form.

Ex: He put on his clothes without saying a word.

As can be seen from the examples, reflexive pronouns are used in modern English as the opposite of their reflexive pronoun in each case.

At the same time, the use of reflexive pronouns in all cases does not manifest itself as the opposite of the reflexive form of the verb.

Therefore, the use of the reflexive pronoun in all cases does not appear as the opposite of the reflexive form existing in the Azerbaijani language.

Bibliography

1. Yunusov, D.N. Muqayiseli tipologiya.—Baku:"Muterjim", --2012. 19s.
2. Gulubayli, Sh.G., Muasir Azerbaijan və ingilis dillerində feilin qayidış kateqoriyasi./Fil.elm.nam., dis. avtoref./--Nakhchivan, 2007. 22p.
3. Muasir Azerbaijan dili. II v. Morfologiya. –Baku"Elm", --1980. 510p.
4.Kazimov, G.S. Selected works. [in 10 volumes], volume IX..– Baku: "Nurlan", – 2010. – 542 p.
5. Huseynzade, M. Muasir Azerbaijan dili –Baku, "Maarif". 1973, 358p.
6. Chamenzaminli, Y.V. Works. [In three volumes], Volume I.. "Avrasiya Press", –Baku: –2005. – 339 p.
7.Shikhli, I.G. Selected works. [In two volumes], Volume I. "East-West", / I. Shikhli.–Baku: –2005. –405 p.

Xülasə

Məqalədə Azərbaycan dilində feilin qayıdış növü və onun ingilis dilində qarşılığından bəhs edilir. Semantik baxımdan universal xarakter daşımasına baxmayaraq, feilin qayıdış növü bir çox dillərdə konkret qrammatik ifadə vasitələrinə malik olduğu halda digər dillərdə həmin məna ayrı-ayrı leksik vasitələrlə ifadə olunur. Azərbaycan dilində feilin qayıdış növü passiv növlə eyni morfoloji əlamətlərə malikdir. Bu dildə müxtəlif ifadə vasitələrinə malik olan qayıdışlıq mənası mövcuddur, lakin feilin qayıdış növü yoxdur.

Felin qayıdış növü təsirli feillərdən düzəlir. Həmin feillər müxtəlif qayıdış növ şəkilçiləri qəbul edərək təsirsiz feillərə çevrilir. Azərbaycan dilində mövcud olan feilin qayıdış növü ingilis dilində, əsasən, öz təzahürünü qayıdış əvəzlikləri ilə tapır. Məhz bunun nəticəsidir ki, bir çox tədqiqatçılar müasir ingilis dilində felin qayıdış növünün mövcudluğundan danışırlar.

Açar sözlər: feil, qayıdış növ, passiv növ, aktiv növ, mübtəda, tamamlıq

Резюме

В статье говорится о возвратном типе глагола в азербайджанском языке и его эквиваленте в английском языке. Несмотря на свой универсальный характер с семантической точки зрения, возвратный тип глагола во многих языках имеет конкретные грамматические средства выражения, в то время как в других языках то же значение выражается отдельными лексическими средствами. В азербайджанском языке возвратная форма глагола имеет те же морфологические особенности, что и пассивная форма.

Возвратный тип глагола состоит из активных глаголов. Эти глаголы становятся пассивными глаголами, принимая различные типы возвратных суффиксов. Возвратная форма глагола, существующая в азербайджанском языке, в английском языке в основном выражается возвратным местоимением

Ключевые слова: глагол, возвратная форма, пассивная форма, активная форма, подлежащее, дополнение

Rəyçi: fil.fş.d., dos. Vəfa Şahzadə

Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu, *ISSN 2224-9257*
Filologiya məsələləri № 3, 2025
Səh. ————————

ƏDƏBİYYATŞÜNASLIQ

QULİYEVA PƏRVANƏ ELMAR QIZI
Gəncə Dövlət Universiteti
pervane.quliyeva73@gmail.com

SARI AŞIĞIN CINASLI BAYATILARI

Açar sözlər: ədəbiyyat, sənətkar, xüsusiyyət, yaradıcılıq, aşıq, bayatı, məzmun, janr, usta.
Ключевые слова: литература, художник, особенность, творчество, любовь, черствость, содержание, жанр, мастер.
Keywords: literature, artist, characteristic, creativity, ashug, bayati, content, genre, master.

XVII əsrin nəhəng simalarından olan Sarı Aşığın bayatı yaradıcılığı Azərbaycan ədəbiyyatında xüsusi bir mərhələ təşkil edir. Sarı Aşıqdan əvvəl və sonra yaşayıb – yaratmış bayatı yaradıcılarından heç biri onun fəth etdiyi zirvəyə yüksələ bilməmişdir. Sarı Aşıq uzun və mürəkkəb bir yaradıcılıq yolu keçmişdir . Sarı Aşığın yaradıcılığı olduqca zəngin və çoxcəhətlidir. Onun yaradıcılığına ənənəvi bayatılar, bağlama bayatılar, cinaslı bayatılar, bayatı – deyişmələr, bayatı – rəvayətlər, dastan və hekayələr daxildir. Biz bu yazıda böyük bayatı ustasının yalnız cinaslı bayatılarından danışmaq arzusundayıq.

Sarı Aşığın yaratdığı cinaslı bayatılar onun qeyri – adi istedada malik bir sənətkar olduğunu təsdiq etməkdədir. Onun cinaslı bayatıları forma və məzmun gözəlliyi ilə seçilir. Bunlardan biri digərini üstələyə bilmir, əksinə, forma məzmununu , məzmun da formanı tamamlayır, onu bitkinləşdirir.[1,8]

Tədqiqatçılar həmişə, bir qayda olaraq, Sarı Aşığın bayatılarını Yaxşı ilə əlaqələndirməyə çalışırlar. Sarı Aşıq öz yatağına sığmayan bir çaydır .

Aşığın cinaslı bayatıları özünün yaratdığı yaddaqalan cinas lövhələri ilə seçilir. Məsələn, göz yaşının axıb sel, göl əmələ gətirməsini hələ Sarı Aşıqdan əvvəl də çoxları deyib, amma göz yaşından əmələ gələn göldə ördəyin , qazın binə bağlaması, üzməsi lövhəsi məhz Sarı Aşığa məxsusdur. Bu onun şair təxəyyülünün kəşfidir:

Aşıq, qaz binə bağlar,
Meylin Qəzbinə bağlar.
Gözüm yaşı göl olar,
Ördək, qaz binə bağlar.[2,83]

Əgər Sarı Aşıq "Gözüm yaşı göl olar, ördək, qaz binə bağlar" – deyirsə, XIX əsrin qadın aşığı Maralyanlı Pəri "Oynaşı" qoşmasında Sarı Aşığın bənzətmələrindən, təşbehlərindən heç də geri qalmayan ifadələr seçib elə bir bədii lövhə yaradır ki, insan şair – aşığın istedadına, deyim tərzinə heyran qalır. Misal gətirdiyimiz aşağıdakı beyt Aşıq Pəri təfəkkürünün poetik kəşfidir:

Mən nə deyim gözüm yaşı əlindən,
Üzüşür sonalar, göllər oynaşı.

Sarı Aşığın Azərbaycan ədəbiyyatındakı rol və mövqeyini yalnız XIX əsr aşıq şeirimizin görkəmli nümayəndəsi Aşıq Ələsgərlə müqayisə etmək mümkündür. Sarı Aşıq Azərbaycan ədəbiyyatının bayatı, Aşıq Ələsgər isə qoşma qanadıdır. Neçə - neçə sənətkar Sarı Aşıqdan sonra sənət meydanına gəlmiş Xəstə Qası, M.V.Vidadi , M,P,Vaqif, Kazım ağa Salik, Q.Zakir, Aşıq Həmayıl, Aşıq Pəri, Məhəmməd bəy Aşiq, Aşıq Bəsti və başqaları onun bayatı yaradıcılığına xüsusi maraq göstərmişlər. Yaxşıya olan ülvi məhəbbətini və istəyini yüksək qiymətləndirmişlər.

Sarı Aşıq özü də bunu qabaqcadan bilirdi ki, "eşqdən cünun olan"lar dərdini onda tapacaqlar. Çünki o, dərməndir, dərdi də dərmandə deyərlər :

Mən aşıq, dərdi məndə,
De dərdin, dərdiməndə.
Eşqdən cünun olanın,
Tapılar dərdi məndə.

Sarı Aşığın qəlbini dərindən oxuyan, duyan Q.b.Zakir bir bayatısında belə deyir :

Gəldi bir yaxşı suvar,
Gir bağa, yaxşı suvar.
Aləmin malı, mülkü,
Aşiqin Yaxşısı var.

Bayatı Q.Zakirə məxsus olsa da , burada Sarı aşığın nəfəsi, amalı yaşayır. "Aləmin malı, mülkü var". Amma Sarı aşığın bircə Yaxşısı.

Q.b.Zakir də bu bayatıda Sarı Aşığın öz eşqindən dönməzliyini, yar yolunda mətinliyini ifadə etmişdir . Məhəmməd bəy Aşiq də Sarı Aşığı Yaxşısız təsəvvürünə gətirə bilmir. Sarı Aşıqla Yaxşının eşq macərası sonralardillər əzbəri olmuş, çoxları bu eşqə həsəd aparmışlar. Çoxları özünü aşığa, sevgilisini də Yaxşıya bənzətmişlər. Bunlardan biri də Məhəmməd bəy Aşiqdir :

Qarşıda yaxşı Pəri,
Tərlanın yaxşı pəri.
Mən aşiqdən yaxşıyam,
Yaxşıdan yaxşı, Pəri.

Sarı Aşığın yaratdığı qafiyələr öz dövründə və özündən sonrakı aşıq ədəbiyyatımızda təcnis yaradıcılığının inkişafinda mühüm rol oynamışdır.

"Məlumdur ki, Sarı Aşıq bayatı ustasıdır. Bu saat onun adı ilə bağlı olan qəbir də, gümbəz də zaman keçdikcə yer üzündən silinib gedəcək, lakin xalq şeirimizin ən gözəl inciləri olan Sarı Aşıq bayatıları ürəklərdən silinməyəcək, dillərdən düşməyəcəkdir." [3,196]

Onun ilhamı kükrədikcə , daşdıqca sahilləri basmış, yeni yaşıl zolaqlar yaratmışdır. Sarı Aşığın "Aşiq və Yaxşı" adlı bayatılı dastanından əlavə, onun çoxsaylı bayatılı rəvayətləri və hekayələri, bayatılı deyişmələri, bağlama bayatıları, hətta cinaslı bayatıları vardır. Sarı Aşığın müşahidə qabiliyyəti çox güclüdür. O, təkcə özünü yox, bütün məhəbbət aşiqlərini düşünür. Aşiqləri bircə mühit sıxmır, aşiqin biri həssas, o biri laqeyd olanda da eşqin mənasını duyan və onu yüksək qiymətləndirən insan vicdan əzabı çəkir. Sarı Aşıq belələrinin də dərdinə şərik olur. Bir gün Sarı Aşıq harasa gedirmiş. Görür ki, bir oğlanla bir qız bir yerdədirlər. Oğlan laqeyd bir insandır, ağacla qanqal budayıb yeyir, qız isə həsrətlə ona baxır. Qız gözləyir ki, bu, nə zamansa dönüb onunla söhbət edəcək, eşqinə cavab verəcək, yanan ürəyinə su səpəcək. Qızın bu tələşı, oğlanın laqeydliyi həssas qəlbli aşığı yerindən tərpədir, qəlbini riqqətə gətirir. Həmin təsir nəticəsində aşağıdakı yurdlu – cinaslı bayatısı yaranır :

Mən aşıq, bu damaqda
Bu kefdə, bu damaqda ,
Maya nər sevdasında,
Nər qanqal budamaqda.

Sarı Aşıq öz halına da yanır ki, gör mən nə çəkirəm, nə kefdə, nə damaqdayam. Öz sevgilisi ilə bir yerdə olan nə kefdə, damaqdadır; Nər sevdasında olan mayanı unudub, qanqal budayı yeyir. Aşığı incidən bu təzaddır; biri yar həsrətindədir, o birisi bu eşqə layiq deyil. Çünki biganədir. Daha doğrusu qanqal budayandır , qanqal müştərisidir. Eşqə layiq adamlar isə Sarı Aşıq kimi hicran əzabı çəkir, yar həsrəti onu boğub öldürür. Yeri gəlmişkən, qeyd edək ki, Sarı Aşığın cinaslı bayatılarını cüt – cüt, qoşa – qoşa yaratması, eyni fikri bir neçə variantda verməsi təkrar təsiri bağışlamır, çəhdudluq əlaməti kimi meydana çıxmır. Əksinə, cinaslı əkiz bayatılar ustad şair – aşığın nə qədər zəngin və geniş yaradıcı təxəyyülə, tükənmək bilməyən bədii – poetik imkanlara malik olduğunu göstərir. Sarı Aşığın cinaslı bayatıları yaratdığı canlı lövhələri və rəngarəng yurdları ilə seçilir. Onun canlı lövhələr, obrazlar yaradan bayatılarının yurdları da özləri qədər gözəl və təsirli olur. Belə rəvayət edirlər ki, Sarı Aşığın sevgilisi Yaxşı və onun bacısı Günəş gəzə - gəzə gəlib onu bostanın yanında tapırlar. Aşıq duyur ki, bacılar arasında bəhsləşmə, mərcləşmə var; bunların hansı daha gözəldir ? Bunu qabaqcadan duyan Sarı Aşıq diqqətlə baxır ki, Günəş saçını səliqə ilə darayıb düzəldibdir. Amma Yaxşının saçı dağınıqdır. Sarı Aşıq eyhamla deyir : Mən aşiqəm, tağ ayır,
Tağ içindən tağ ayır.
Yar yanına gələndə,

Dara zülfün, tağ ayır.

Yaxşı eyhamı başa düşür, acıqla qovunun tağını ayağı ilə əzir. Sarı Aşıq deyir :

Mən aşiqəm, tağı yar,
Bostanı yar, tağı yar.
Şamama sənə qurban,
Ayaqlama tağı yar.[4,88]

Sarı Aşıq gələcək təcnis binalarını qurmaq üçün cinasdan tağ daşları yonmuş və qızıl kərpiclər kəsmişdir. Cinaslar qızıl söz külçəsi ilə yoğrulmuş və ondan təcnis saraylarını ucaltmaq üçün qızıl kərpiclər düzəldilmişdir. Sarı Aşıq, Xəstə Qasım və Ələsgər kimi sənətkarlar bu qızıl kərpicləri böyük ustalıqla , memar kimi üst – üstə qoyaraq möhtəşəm təcnis sarayları qurmuşlar. Xəstə Qasımın və Aşıq Ələsgərin möhtəşəm təcnis binalarına, təcnis saraylarına baxanda heyrətə gəlirsən, duyğulanırsan, qürur hissi keçirirsən. Çox sənətkarlar təcnis saraylarının qapısını açıb oraya daxil ola bilməmiş, yalnız bu sarayın başına dolanmışlar. Zaman bu sarayların sonralar qıfılına açar salmağı bacaran tək–tək istedadlı sənətkarlar yetişmişdir. Bunların sırasında Zodlu Abdullanın və Növrəs İmanın xüsusi mövqeləri və bacarıqları olmuşdur. Hər sahədə, o cümlədən, poeziyada yenilik yaratmaq, qabağa getmək, hər şeydən əvvəl, aşığın istedadından və bacarığından asılıdır.

Ədəbiyyat:

1.S. Paşayev “Sarı Aşığın cinaslı bayatıları”, “Azərbaycan müəllimi” qəzeti,10 avqust 1983-cü il
2. S.P.Pirsultanlı, “Azərbaycan folkloruna dair tədqiqlər”, Gəncə,”Pirsultan” 2006, səh.251-252.
3. S.P.Pirsultanlı. Ozan – aşıq yaradıcılığına dair araşdırmalar, I cild, “Pirsultan” n-tı, 2002.
4. S.P.Pirsultanlı. Azərbaycan aşıq poeziyasında və yazılı poeziyada təcnisin inkişaf tarixi, Gəncə, 2010.

Xülasə

SARI AŞIĞIN CINASLI BAYATILARI

Sarı Aşıq gələcək təcnis binalarını qurmaq üçün cinasdan tağ daşları yonmuş və qızıl kərpiclər kəsmişdir. Cinaslar qızıl söz külçəsi ilə yoğrulmuş və ondan təcnis saraylarını ucaltmaq üçün qızıl kərpiclər düzəldilmişdir. Sarı Aşıq, Xəstə Qasım və Ələsgər kimi sənətkarlar bu qızıl kərpicləri böyük ustalıqla, memar kimi üst–üstə qoyaraq möhtəşəm təcnis sarayları qurmuşlar. Xəstə Qasımın və Aşıq Ələsgərin möhtəşəm təcnis binalarına, təcnis saraylarına baxanda heyrətə gəlirsən, duyğulanırsan, qürur hissi keçirirsən. Çox sənətkarlar təcnis saraylarının qapısını açıb oraya daxil ola bilməmiş, yalnız bu sarayın başına dolanmışlar. Zaman bu sarayların sonralar qıfılına açar salmağı bacaran tək–tək istedadlı sənətkarlar yetişmişdir.Azərbaycan xalq bayatılarının inkişafı tarixində, bu janrın

poetik imkanlarının açılmasında, ədəbi növlər içərisində onun misilsiz şöhrət qazanmasında Sarı Aşığın xidmətləri böyükdür. O, özünün yaradıcılığı timsalında sübut etmişdir ki, yeddi hecalı, dörd misralı bayatıda böyük fikirlər, hisslər ifadə etmək, yaddaqalan bədii lövhələr yaratmaq mümkündür.

Summary

Hd.tch.P.E.Quliyeva

SARI ASHUG'S PARONYMIC BAYATIS

Sarı Ashug carved the keystones of jinas (paronomasia) and shaped golden bricks to construct the future structures of tajnis poetry. These jinas were molded with golden words and transformed into golden bricks to erect the majestic palaces of tajnis. Master poets like Sarı Ashug, Khasta Gasım, and Ashug Alasgar skillfully placed these golden bricks together, like architects, to build grand tajnis palaces.

When you look at the magnificent tajnis buildings and palaces of Khasta Gasım and Ashug Alasgar, you are filled with admiration, emotion, and pride. Many poets have tried to enter these tajnis palaces but failed to unlock their doors, merely wandering around them. However, time has produced a few exceptionally talented poets who have found the key to these poetic treasures. Sarı Ashug played a significant role in the development of Azerbaijani bayatis, expanding their poetic potential and elevating this genre to an unparalleled level of literary fame. Through his creativity, he demonstrated that deep thoughts and emotions could be expressed within the simple structure of a bayati, which consists of four lines and seven syllables, creating unforgettable poetic imagery.

Резюме

Ст.пр.П.Е.Кулиева

ПАРОНОМАСТИЧЕСКИЕ БАЯТЫ САРЫ АШУГА

Сары Ашуг высек из джинаса (омонимическая игра слов) арочные камни и вырезал золотые кирпичи, чтобы построить будущие здания техники теджниса. Эти джинасы были замешаны на золотых слитках слов и превращены в золотые кирпичи для возведения дворцов теджниса. Такие мастера, как Сары Ашуг, Хаста Касым и Ашуг Алескер**,** сложили эти золотые кирпичи с великим мастерством, словно архитекторы, создавая величественные дворцы теджниса. Обратив внимание на грандиозные поэтические постройки Хаста Касыма и Ашуга Алескера, можно только поражаться, испытывать волнение и гордость. Многие поэты не смогли открыть двери этих дворцов и войти внутрь, они лишь кружили вокруг них.

Однако время породило редких талантливых мастеров, сумевших подобрать ключ к этим замкам. В истории развития азербайджанских народных баяты**,** в раскрытии поэтических возможностей этого жанра и в его приобретении беспрецедентной литературной славы велика заслуга Сары Ашуга**.** Он своим творчеством доказал, что в семисложном, четырехстрочном баяты можно выразить глубокие мысли, чувства и создать незабываемые художественные образы.

Rəyçi: Axundova Nəzmiyə M.q.

Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu, *ISSN 2224-9257*
Filologiya məsələləri № 3, 2025
Səh. ————————

XALİDƏ ŞAİQQIZI (MƏMMƏDOVA)
Filologiya üzrə fəlsəfə doktoru
AMEA Folklor İnstitutu,
Dədə Qorqud şöbəsinin aparıcı elmi işçisi
ORCID.https://orcid.org/0000-0002-9991-7796
e-mail:xalide_1978@mail.ru

SALMAN MÜMTAZIN XALQ ƏDƏBİYYATI SEVGİSİ

Xülasə

Milli folklor nümunələrinin toplanılmasında, tədqiq edilməsində müstəsna xidmətləri olan S. Mümtaz xalqın maariflənməsi, onun real tarixinin yazılması, dərindən araşdırılması üçün var gücülə çalışmış dahi şəxsiyyətlərdən biri sayılır. Uzun illər boyu unudulub, adı, kitabları çap olunmayan, Stalin repressiyasının qurbanına çevrilərək edama məhkum edilən soydaşımız sonradan bəraət almış və diqqət mərkəzinə gətirilmişdir. 1920-ci ildə ağız ədəbiyyatının toplanması komissiyasını yaradan və ona sədrlik edən S.Mümtazın Azərbaycan folklorşünaslığı üçün gördüyü işlər, çalışmalar təqdir edilməyə bilməz. S.Mümtaz topladığı folklor nümunələrinin nəşri yolunda da yorulmadan çalışıb. Bu məqalədə onun həm xalq ədəbiyyatı nümunələrinin toplayıcısı, həm də əvəzsiz materialları təhlil süzgəcindən keçirərək araşdırmaya cəlb etməsi, silsilə məqalələr yazması, eləcə də elmi baxımdan dəyərləndirməsindən bəhs olunacaqdır. Ədibin bir sıra əsərlərinə və onun haqqında yazılmış kitablara istinad edilmişdir.

Açar sözlər: Salman Mümtaz, repressiya, xalq ədəbiyyatı, folklor, el şairləri, bayatı

KHALİDA ŞHAİKKIZI (MAMMADOVA)

SALMAN MUMTAZ'S LOVE FOR FOLK LITERATURE

Summary

S. Mumtaz, who has made exceptional contributions to the collection and study of national folklore, is considered one of the great personalities who worked hard to educate the people, write and deeply investigate their real history. Our compatriot, who was forgotten for many years, whose name and books were not published, and who became a victim of Stalin's repression and was sentenced to death, was later acquitted and brought to the center of attention. The work and efforts of S. Mumtaz, who created and chaired the commission for the collection of oral literature in 1920, for Azerbaijani folklore cannot be ignored. S. Mumtaz also worked tirelessly to publish the folklore samples he collected. This article will discuss his role as a collector of folk literature samples, as well as his involvement in research by filtering and analyzing invaluable materials, writing a series of articles, and evaluating them

from a scientific perspective. References have been made to a number of the writer's works and books written about him.

Key words: Salman Mumtaz, repression, folk literature, folklore, folk poets, bayati

ХАЛИДА ШАИККЫЗЫ (МАМЕДОВА)

ЛЮБОВЬ САЛМАНА МУМТАЗА К НАРОДНОЙ ЛИТЕРАТУРЕ

Резюме

С. Мумтаз, внесшая исключительный вклад в сбор и исследование образцов национального фольклора, считается одним из гениев, которые неустанно трудились ради просвещения народа, записи его реальной истории и проведения глубоких исследований. Наш соотечественник, о котором долгие годы забывали, чье имя и книги не публиковались, который стал жертвой сталинских репрессий и был приговорен к смертной казни, впоследствии был оправдан и оказался в центре внимания. Труды и усилия С. Мумтаза, создавшего и возглавившего в 1920 году комиссию по сбору устной словесности, в области азербайджанской фольклористики нельзя игнорировать. С. Мумтаз также неустанно трудился над публикацией собранных им образцов фольклора. В этой статье мы обсудим его роль как собирателя народной литературы, его участие в исследованиях путем фильтрации и анализа бесценных материалов, написание им серии статей и его научную оценку. Были сделаны ссылки на ряд произведений писателя и книг, написанных о нем.

Ключевые слова: Салман Мумтаз, репрессии, народная литература, фольклор, народные поэты, баяты

Giriş. İlk olaraq mətbuat səhifələrində yaradıcılıq fəaliyyətinə başlayan Salman Mümtaz həmçinin Azərbaycan ədəbiyyatı tarixini qurub-yaradanlardan biri kimi tanınır. Milli folklor nümunələrinin toplanılmasında, tədqiq edilməsində müstəsna xidmətləri olan S. Mümtaz xalqın maariflənməsi, onun real tarixinin yazılması, dərindən araşdırılması üçün var gücülə çalışmış dahi şəxsiyyətlərdən biri sayılır. Uzun illər boyu unudulub, adı, kitabları çap olunmayan, Stalin repressiyasının qurbanına çevrilərək edama məhkum edilən soydaşımız sonradan bəraət almış və diqqət mərkəzinə gətirilmişdir. 1920-ci ildə ağız ədəbiyyatının toplanması komissiyasını yaradan və ona sədrlik edən S.Mümtazın Azərbaycan folklorşünaslığı üçün gördüyü işlər, çalışmalar təqdir edilməyə bilməz. Ədəbiyyatı xas ədəbiyyatı (klassik ədəbiyyat), və el ədəbiyyatı (ağız ədəbiyyatı, folklor) deyə iki yerə bölən S.Mümtaz topladığı folklor nümunələrinin nəşri yolunda da yorulmadan çalışıb. Bu məqalədə onun həm xalq ədəbiyyatı nümunələrinin toplayıcısı, həm də əvəzsiz materialları təhlil süzgəcindən keçirərək araşdırmaya cəlb etməsi, silsilə məqalələr yazması, eləcə də elmi baxımdan dəyərləndirməsindən bəhs olunacaqdır. Ədibin bir sıra əsərlərinə və onun haqqında yazılmış kitablara istinad edilmişdir.

Tədqiqat. Salman Mümtaz Azərbaycan folklorşünaslığının formalaşma mərhələsində dövrün aparıcı elmi-nəzəri və praktiki nəşr işlərini öz üzərinə götürən, xalq ədəbiyyatı qaynaqlarına intəhasız sevgi və məhəbbəti olan aydınlardan biri (Mümtaz, 2005: 3) olmuşdur.

Qeyd edildiyi kimi, o, yaradıcılıqda ilk addımlarına satirik şeirlər və felyetonlar yazmaqla başlamışdır. Təbii ki, bu başlanğıc onun ədəbiyyat və tədqiqat işlərinə marağını daha da artırmışdır. Mənbələrin verdiyi məlumata görə, S.Mümtaz ilk olaraq "Molla Nəsrəddin"lə əməkdaşlıq etmiş, daha sonra isə fəaliyyətini "Zənbur", Kəlliyyət, Tuti , Qardaş köməyi jurnalları, Səda, Tərəqqi, İqbal, Yeni İqbal, Açıq söz və s. qəzetlərdə davam etdirmişdir (Mümtaz, 1986: 6). Ədibin yazılarının dərc olunduğu mətbu orqanlardan biri də "Kommunist" qəzeti idi. O, həmin dövrdə "Kommunist" qəzetində **"xalq ədəbiyyatı həyatdan doğar"** adlı ümumi başlıq altında ayrıca səhifələr verərək zəngin şifahi xalq ədəbiyyatı nümunələrinin və klassik irsin öyrənilməsinə, onun ətraflı tədqiqi işinə yaxından kömək etmişdir. Bu fürsətdən layiqincə yararlanmağa çalışan S.Mümtaz sözügedən qəzetdə "Unudulmuş yarpaqlar" adlı məqalələr silsiləsi ilə çıxış etmişdir. "İstifadə etdiyim qəzet və jurnallar qoca kişilərin və çox yaşamış qadınların hafizələri və hövsələləridir" (Mümtaz, 1986: 16) deyən ədib öz maraq dairəsini büruzə verməkdən çəkinməmişdir. Bu, toplanılmayan, sistemləşdirilməyən Azərbaycan folklorunun izinə düşmək, "yaşlı adamların yaddaşında yaşayan söz sənətimizi" (Nəsiman) həvəslə və sevgiylə yazıya almaq demək idi.

El ədəbiyyatını, şifahi söz sənəti nümunələrini, taleyi qaranlıq zamanın hücrələrində itib-batan görkəmli yazıçı və şairlərin irsini toplamağı özünə tale işi seçmiş Mümtazın (1884-1938) bu sahədə gördüyü iş miqyas və sambalına görə hamıdan fərqlənir (Mümtaz, 2005: 7).

Cümhuriyyət dövr (1918-1920) araşdırıcısı N.Yaqubov "Ağrılı ömürlər" adlı kitabında S. Mümtazı belə tərif edib: Öz xalqını, elini necə böyük məhəbbətlə sevəsən ki, həyatını belə çətin, üzüntülü bir işə sərf edəsən. Bu işlərin hamısını S.Mümtaz öz cibinin pulu ilə etmişdir (Yaqubov, 1990: 95).

Kitablarında dönə-dönə Azərbaycan şifahi xalq ədəbiyyatının zəngin irsə malik olduğunu vurğulamış və həmçinin tədqiqatçıların diqqətindən kənarda qaldığını, dərindən öyrənilmədiyini, əhəmiyyətini, qiymətini almadığını nəzərə çatdırmışdır. O, Rus və Qərbi Avropa ədəbiyyatında mühüm rol oynamış folkloru Azərbaycanda tamamilə unudulmuş bir sahə adlandımışdır. Diqqəti aşıq ədəbiyyatı üzərində cəmləyən tədqiqatçı bu sahənin (aşıq ədəbiyyatının) yalnız sevgi və məhəbbət motivlərindən ibarət olduğunu söyləyənləri kəskin tənqid etmişdir. Bu nöqteyi-nəzərin tamamilə və kökündən yanlış olduğunu bildirərək Koroğlu, Qaçaq Nəbi və başqa bu kimi el qəhrəmanları haqqında yaradılmış dastanları xatırlamışdır. Milli folklorumuzun öz məzmunu etibarilə və nə qədər zəngin və nə qədər dərin olduğunu aydın göstərərək aşıq ədəbiyyatına töhfə vermiş Aşıq Ələsgərin adını çəkmiş, onun

həm də öz lirik parçalarında əməkçi xalqın iztirablarını dilə gətirdiyini vurğulamışdır (Mümtaz, 1935: 9).

S.Mümtaz yaradıcılığı boyu hansı mövzuya toxunur-toxunsun, hər yazısında xalqın hikmətli söz xəzinəsindən bəhrələnmişdir. Orta əsr əlyazmalarını toplamaq həvəskarı olan ədib 1925-ci ildə "Kommunist" qəzetində çap etdirdiyi məqaləsində bir məsələyə toxunur: Məndən qabaq gələn mühərrirlərdən bu yolda bir hazırlıq görən olsa idi, şəksiz mən bu qədər də çətinliyə uğramazdım. Yanqıyla bildirir ki, tarixi-ədəbiyyatımızın meydana çıxarmaq imkan xaricində olduğu üçündür ki, bu günə kimi yaxşı-yaman bir əsər belə araya çıxmamışdır" (Mümtaz, 1986: 16). Təskinliyi "Atalar "varın verən utanmaz" demişlər" (Mümtaz, 1986: 16) fikri ilə tapan S.Mümtaz doğma ana dilimizin yolunda ürəklə çalışanların sayının gündən-günə artmasına sevindiyini gizlətməmişdir. O, ana dilinin saflığının qorunmasının vacibliyini vurğulayaraq öz köməyini də əsirgəməyəcəyini bildirmişdir (Mümtaz, 1986: 321).

S.Mümtaz yazılı ədəbiyyat nümayəndələrinə həsr olunmuş məqalələrində də daima atalar sözlərindən bəhrələnmiş, fikirlərin təsir qüvvəsini artırmaq üçün zərbi-məsəllərdən istifadə etmişdir.

Q. Zakirin etdiyi tənqidlərin doğru və səhih olmasına baxmayaraq, nişan aldığı hədəfləri necə silkələdiyini, qıcıqlandırdığını yazır, məqaləsinə "Doğru söz acı olar" (Mümtaz, 1986:124) fikirləri ilə möhür vurmağı bacarırdı. Rudəki və Molla Pənah Vaqifin həyat və yaradıcılığına həsr etdiyi başqa bir yazıda da S.Mümtaz öz qənaətlərini zərbi-məsəllərin vasitəsilə təsdiqləməyi vacib sayırdı. "Ustad Əbülhəsən Rudəki ilə böyük M.P.Vaqifin bir-birinə çox bənzəyiş və münasibətləri vardır... Pars millət əhli üçün Rudəki nə isə, Azərbaycan xalqından ötrü də Vaqif hamandır. Molla Pənah Vaqif də Azərbaycan ədəbiyyatını çiçəkləndirən qüdrətli şairlərdən biri, daha doğrusu əsrində yetişən şüaranın pişvası olmuşdur (Mümtaz, 1986: 264) ... odur ki, buvaxtadək el ağzında zərbi-məsəl olaraq qalmışdır ki, hər oxuyan Molla Pənah olmaz" (Mümtaz, 1986: 264). Bu fikirlər "Füqəra füyuzat" jurnalının 1920-ci il 2-ci sayında çap olunmuşdur. M.P.Vaqiflə bağlı həmmüəllifi olduğu (digər müəllif İ. Canqulov) başqa bir yazıda qeyd etdiyi fikirlər də sözügedən məsəlin məzmununa yaxındır: Hər kəsin azacıq belə savadı olarsa, onu el arasında molla adlandırırlar (Мумтаз, Джангулов, 1933: 3).

1933-cü ildə "Molla Pənah Vaqif" adlı kitaba imza atmış S.Mümtaz məlum atalar sözünü növbəti dəfə təkrar edir: Hətta böyük bilik və şairlik qabiliyyətinə malik olan Molla Pənah Vaqif haqqında kütlələr arasında belə bir məsəl söylənilir: Hər oxuyan Molla pənah olmaz (Мумтаз, Джангулов, 1933: 4). Eyni atalar sözünün, el ağzında məşhurlaşan bir deyimin təkrar-təkrar yazılarda səslənməsi hansı missiyanı nəzərdə tuturdu? Bu, həm maarifçilk ideyalarını yaymaq, xalq ədəbiyyatı nümunəsindən bəhrələnmək, həm də folklor əsərini təkrar-təkrar söyləməklə təbliğatı dərinlşdirmək idi.

S.Mümtazın ən böyük xidmətlərindən biri haqqında da məlumat verək. Mənbələrdən aldığımız bilgiyə görə, 1804-cü ildə Cənubi Azərbaycanda Əndəlib Qaracadağının tərtib etdiyi və folklorşünaslığımız üçün ən kamil mənbələrdən və informasiya qaynaqlarından olan bir əlyazma Sankt-Peterburqun Şərqşünaslıq İnstitutunun əlyazmaları fondunda saxlanılır. Sonralar həmin əlyazmadakı "Koroğlu" və "Əsli-Kərəm" dastanına aid poetik parçaları müstəqil nümunə kimi öz toplamalarına daxil edən S.Mümtaz Azərbaycan qəhrəmanlıq və məhəbbət dastanları barədə də ilk məlumat verən tədqiqatçı kimi tanınmışdır (Mümtaz, 2005: 7).

S. Mümtaz məqalələrindən birini də el ədəbiyyatını təmsil edən nümayəndələrdən olan, indi bizim Qurbani kimi tanıdığımız aşığın yaradıcılığının təhlilinə həsr etmişdir. Həmin məqalədə ("El şairi Qurban") ilk öncə Azərbaycan el ədəbiyyatının qədimliyinə işarə edilir, el ədəbiyyatı naminə çox az iş görüldüyü təəssüf hissi ilə dilə gətirilir. Xalq ədəbiyyatının təmsilçilərini elçi və xalqçı adlandıran S.Mümtaz vurğulayır ki, onlar qoşmalarını, bayatılarını və ayrı-ayrı yazılarını başdan-başa öz elinin ruhunda və xalqın anlaya biləcəyi bir dildə yazmışdırlar. Məqalədə daha sonra qədim tarixə malik el şairlərinə məxsus nümunələrin çox çətin tapıldığına diqqət çəkən (Mümtaz, 1986: 292) S.Mümtaz həyacanlı olduğunu gizlətmir və ömrünü tapdığı əlyazmaları nəşrə hazırlamağa səfərbər edəcək.

Məqalədə daha sonra biz aşıq şeirimizin magikanı sayılan Qurbaninin şəxsiyyəti, yaradıcılığı haqda ilk məlumatı almış oluruq. S.Mümtaz fədakarlıq göstərərək el şairi Qurbanı – Qurbanini bir şeir parçası ilə "kəşf" edir və bildirir ki, Qurban savadlı və el şairlərinin yaxşılarındandır... Onun gözəl-gözəl sözləri var imiş. Heyf olsun ki, onlar da başqa şairlərimizin sözləri kimi itib-batmışdır. Qurbanın zamanından indiyə qədər dörd yüz il keçir. Bu dörd yüz illik müddətdə onun sözləri köhnəlməyib, dəyərini itirməyibdir. Hələ çox zamanlar onun qoşmaları, şeirləri dünyada yaşayacaqdır. Çünki o, el şairlərinin ən incə düşünənlərindən biridir. Qurbanın bənövşə haqqında yazdığı şeiri özgə dillərə tərcümə edən olsa, əcnəbi məmləkətlərində də o sözləri əzbərləyib, yeri gəldikcə oxuyarlar. Qurbanın dəyərinə bu şahid ola bilər ki, dörd yüz ildən bəridir, onun qoşmaları yaşayır və hələ çox zamanlar da yaşayacaqdır (Mümtaz, 1986: 278, 293).

Zənnimizcə, bu fikirlər tək Aşıq Qurbaniyə verilən dəyər deyil, xalq ədəbiyyatına bəslənən məhəbbətin, onun sanbalını vurğulayan qənaətin təlqinidir. El şairlərinin tarixindən yazmağa böyük qüvvət, dərin bilgi, asudə vaxt və uzun səyahət lazım olduğunu dərk edən S.Mümtaz həyatını bu şərəfli yola sərf edərək Azərbaycan folklorşünaslığının XX əsrin əvvəli üçün təməl sütunlarını yaradanlardan biri olur. Düz yüz il qabaq heç bir elmi məktəb keçməyən S.Mümtaz təhlilləri zamanı hər bir folklor əsərinə həssaslıqla yanaşmış, doğru-dürüst elmi qənaətin yaranması üçün mümkün olan bütün mənbələri araşdırmışdır.

S.Mümtaz "Hələk" adlı məqaləsini el arasında məşhur olan bir ağıya həsr etmişdir. Aydınlaşır ki:

"Ələklər ha ələklər
Çırmansız ağ biləkər
Düşmana xəbər olsun
Hasil olub diləklər"

məzmunlu bu kiçik əsər Azərbaycanın müxtəlif məcmuələrində beş dəfə yanlış şəkildə dərc edilmişdir. Hətta növbəti dəfə – İstambulda Hüseyn Kazım Qədri bəy tərəfindən nəşr olunan "Böyük türk lüğəti" kitabında da bu yanlış təkrarlanmışdır. S. Mümtazın ərsəyə gələn yeni məqaləsi – tənqidi məqaləsi də bu yanlışla bağlı olur. O bəyan edir ki, ağının ruhunu mənimsəmədən və şəni-nüzulunu öyrənmədən onu lüğətə keçirməyin heç bir faydası yoxdur : "Ələk" canlı bir şey deyil ki, ona böylə bir mövqedə xitab olsun... Bu kəlmənin səhihi, doğrusu "ələk" olmayıb "hələk"dir ki, bunun da mənası dərk olunmamışdır. Azərbaycan ədəbiyyatında bir çox dəyərli kəlmələr vardır ki, başqa türk xalqlarında onların müqabili yoxdur. "Hələk" kəlməsi yöndəmli olmaqla bərabər özünəməxsus gözəlliyə, zərifliyə də malikdir... (Mümtaz, 1986: 367). S.Mümtaz yanlış olaraq çap olunmuş ağı-bayatı ilə bağlı apardığı tədqiqatında əski yas mərasimlərindəki bəzi adət-ənənələrə işarə edir: Cavan oğlan öləndə qadınlar yığışıb "yas" mərasimi icra edərlər. Bu mərasim indi də cümhuriyyətimzin bəzi nöqtələrində xalq arasında mütədavidir. Mərasim isə ölünün paltarını ortaya töküb, onu dürlü-dürlü mövzularda söylənilmiş ağılar ilə oxşamaqdan ibarət olurdu. Gənc ikən dul qalmış qadının çevrəsində öz yaşında olan digər qadınlar yığışaraq, özlərindən daha yaşlı ağıçı qadının bir münasib ağı söyləyəcəyinə müntəzir olurlar. Ağıçı qadın yasa yığışanları üz verən müsibətdən duyuq-xəbərdar etmək üçün aşağıdakı ağını həzin bir halda söyləməyə başlayır:

Hələklər, ha hələklər,
Çırmansın ağ biləklər
Düşmana xəbər olsun
Hasil olub diləklər.

Bunu dinləyən qadınlar bir anda qollarını çirməyərək ağıçı qadın ilə səs-səsə qoşub, ağını təkrar etməklə bərabər, özlərini döyməyə və üz-gözlərini didməyə başlarlar. Azərbaycan dilində və digər türkdilli xalqlarda bir çox qiymətli sözlər mövcuddur ki, "hələk" də o cümlədəndir... "Hələk" türkməncədə gənc qadın, cavan qadın, daha doğrusu "gəlin" deməkdir. "Çırmansın ağ biləklər" misrası da ağının gənc qadınlara xitabən söylənildiyini isbat edir (Mümtaz, 1986: 368). S.Mümtaz bu tədqiqatla bağlı məqaləsini "Azərbaycanı öyrənmə yolu" jurnalının 1930-cu il (№ 8) buraxılışlarının birində çap etdirmiş və sözügedən bayatını "qocaman əsər" adlandırmışdır.

S. Mümtaz ümumiyyətlə xalq ədəbiyyatı nümunəsi olan bayatı haqqında tədqiqatını sonrakı illərdə də davam etdirmiş, bayatı müəllifi olan şairlərin yaradıcılığından danışmışdır. Biz onun tədqiqatları vasitəsilə bayatı haqqında genış bilgi almış oluruq: Bayatlıların yaratdıqları ədəbiyyata bəyatı adı verilmişdir ki, bu gün belə yurdumuzda məşhur, hafizəmizdə məhfuz olan bəyatılar bəyat elinin hünəri

və o xalqın nümuneyi-qabiliyyətidir. Bəyatı söyləmək, bəyatı çağırmaq şərəfli bəyatlılara və o istedadlı elə aiddir. Böyük Füzuli bəyat elindən olduğu kimi, Azərbaycan ədəbyyatında mühüm bir mövqe sahibi olan Vaqif də bu nəcib elə mənsubdur....(Mümtaz, 1986: 160).

Azərbaycan türkünün bədii yaradıcılıq nümunəsi olan, kollektiv "əməyin" bəhrəsi sayılan bayatını həm tərənnüm etmək, həm də onu xalqın istifadə etdiyi ənənəvi janr statusunda təqdim etmək də S. Mümtazın hədəflərindən biri olmuşdur. O, qeyri-millət nümayəndələrinin də yaradıcılıqlarında bayatı janrını sınamalarından fəxarətlə söz açmışdır. Onun qürur duyub dilə gətirdiyi ifadələr xalq ədəbiyyatı sevgisini aydınca sübut edir.

"Bəyatı çağırmaq yalnız bəyatlılara münhəsir olub qalmamışdır. Başqa uluslardan, ellərdən yetişən şairlər, aşıqlar da bayatlıların yaratdıqları ədəbiyyatı təqlid edərək özlərini sınamışlar. Onlar da hünərlərini göstərmək üçün bir çox bayatılar çağırmışlar. Nəticədə el ədəbiyyatının bu qismi könül istədiyi qədər çiçəklənmiş və qol-budaq atmışdır. Bayatıların alaq kimi öz-özlərinə yerdən çıxdıqları zənn edilməsin. Bunları qoşanlar, çağıranlar olmuşdur... bayatı çağıran məşhur, bəlli şairlərimiz çox olmuşlar" ...(Mümtaz, 1986: 161).

Tarix və məişətimizin mühüm qismi ilə dolğunlaşmış bayatıya müraciət etmiş qələm sahblərinin – Vidadinin, Məhəmməd bəy Aşiqin, Aşıq Pərinin, Ağabəyim ağanın və s.-in adını çəkən, onların əsərlərindən misallar gətirən S. Mümtaz bu nümunələrin gəncliyə fayda verəcəyini də sözarası vurğulamışdır.

S.Mümtazın Azərbaycan ədəbi ictimaiyyətinə tanıtdığı digər qüdrətli el şairlərindən biri də bayatı ustası Sarı Aşıq kimi tanınan Aşıq Abdulla olmuşdur (Mümtaz, 2005: 9). O, Sarı Aşıq haqqında müxtəlif məqalələr və elmi dəyəri, sanbalı ilə diqqəti çəkən **Sarı Aşıq və boyatları"** (1935) adlanan kitab da yazmışdır.

S.Mümtazın xalq ədəbiyyatını təmsilçilərinin həyat və yaradıcılığından bəhs edən əsərlərindən biri də **"El şairləri"** adlı ikicildlik kitab olmuşdur. Onun toplayıcılıq fəaliyyətinin kiçik bir qismi bu ikicildlik əsərində əks olunmuşdur. Belə ki, hər iki kitabda dövrün bir sıra müxtəlif üslublarda yazıb-yaradan sənətkarlarının yaradıcılığı ilə bağlı məlumatlarla yanaşı, Azərbaycan aşıq poeziyasının XIII əsr Molla Qasımdan başlayan şifahi nümunələrinin təxminən yeddi yüzillik dövrü ardıcıl şəkildə işlənmişdir. Bunların bir qismi S.Mümtaz tərəfindən ilk dəfə yazıya alınan nümunələr kimi çox dəyərlidir (Mümtaz, 1986: 3).

Nəticə: Azərbaycan folklor nümunələrini qapı-qapı gəzərək, müasir texnologiya ilə müqayisə olunmayacaq şəraitdə toplamış, fədakar alimlərin qıt olduğu, siyasi burulğanların hökm sürdüyü bir dövrdə fəaliyyət göstərmiş S.Mümtaz problemin həlli yollarını arayarkən optimist olduğunu gizlətməmiş və gənc alimləri, elmi işçiləri həvəsləndirməyə başlamışdır. O zamankı Azərbaycan Dövlət Nəşriyyatı bədii ədəbiyyat şöbəsinin bir əməkdaşı olan S.Mümtaz yazılı təbliğatı ilə maraq doğurmuşdur: Azərnəşrin bədii-ədəbiyyat şöbəsi gələcəkdə şübhəsiz gənc elmi qüvvələri ətrafına toplayaraq, bu işi daha ciddi nəzəri relslər üzərində keçirəcək,

folklor tədqiqatını öz ibtidai və primitiv şəklindən çıxarmağa müvəffəq olacaqdır. Bu sahədə elmi işçilərimizin bizə yaxından kömək edəcəklərinə şübhə ola bilməz (Mümtaz, 1935: 10).

Bunu söyləyən soydaşımızın acı taleyi bu gün bizi qüssələndirir. S.Mümtaz ömrünün ən gözəl çağlarında, elmi və ictimai fəaliyyətinin genişləndiyi bir dövrdə repressiyaya məruz qalmış, onun arxivi, zəngin kitabxanası tonqallarda yandırılmışdır (Mümtaz, 2005: 3) nəşr etdirdiyi əsərlərin müəyyən qismi də sonralar müxtəlif müəlliflər tərəfindən mənimsənilmişdir.

S.Mümtazın irsini tədqiq etmiş Nəsiman Yaqublu H.Cavid, Y.Vəzir və yüzlərlə başqaları kimi S.Mümtazı da "bizi dünənimizlə, keçmişimizlə, tariximizlə bağlayan canlı körpülər"dən biri (Yaqubov, 1990:110) adlandırmaqda haqlı idi. Çünki tarix xalqı üçün bu cür fədakarlıq göstərmiş, onun yaradıcılıq irsini yorulmadan, böyük həvəslə, cəvakeşliklə, heç bir təmanna güdmədən cəmləşdirmiş, məhv olmaqdan qorumuş vətəndaşlardan birini məhz Azərbaycanda yetişdirmişdi. S.Mümtaz xalq ədəbiyyatının vurğunu olmasaydı, zərrə-zərrə, qətrə-qətrə, damla-damla topladıqlarını özündən sonrakı nəsillərə ərmağan etməsəydi, bəzi müəlliflər və onların xalq üslubunda yaratdığı əsərləri aşkarlamasaydı, sadalananların hamısı 100 il əvvəlin qaranlıq tarixində məhv olub gedəcəkdi. Təbii ki, milli ruhu elmi dövriyyəyə daxil etmiş əsl ziyalı S.Mümtazın ciddi bir folklor tədqiqatçısı olması və milli təəssübkeşliyi sayəsində elmimiz qazanmışdır.

QAYNAQLAR

1. Mümtaz, S. Azərbaycan ədəbiyyatının qaynaqları / S.Mümtaz. – Bakı: Yazıçı, – 1986. – 445 s.
2. Mümtaz, S. El şairləri / S. Mümtaz – Bakı: Səda, – 2005. – 292 s.
3. Mümtaz, S. Sarı Aşıq və boyatıları / S.Mümtaz. – Bakı: Azərnəşr, – 1935. – 121 s.
4. Yaqubov, N. Ağrılı ömürlər / N.Yaqubov. – Bakı: Yazıçı, – 1990. –272 s.
5. Мумтаз, С, Джангулов, И. Молла Пənah Вагиф. Салман, М, И.Джангулов / Бакы: Азәрнәшр, – 1933. – 20 с.

Rəyçi: prof. Ramazan Qafarlı

Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu, *ISSN 2224-9257*
Filologiya məsələləri № 3, 2025
Səh. ————————

XURAMAN QƏDİMOVA
filologiya üzrə fəlsəfə doktoru
Akademik Z.M.Bünyadov adına Şərqşünaslıq İnstitutu
E-mail: *xuramanqədimova@mail.ru*

TÜRK ƏDƏBİ TƏNQİDİNİN İLKİN TARİXİ MƏRHƏLƏLƏRİ BARƏDƏ

Annotasiya. İnsanlar daim idealı və həqiqəti axtarırlar. Öz meyarlarına uyğun gəlmədiyi üçün mövcud olanların zəif nöqtələrini aşkara çıxarır, nöqsan və səhvlərini təsnifləyirlər. Bu məqamda onlar fərqli meyarlarla qiymətləndirmələr aparır, müqayisələr edir, meydana çıxan mənfilikləri həmin meyarlara uyğun olaraq aradan qaldırıb, tənqid edirlər. Müqayisə və qiymətləndirmələrin nəticəsində oratəya çıxan seçim həyatın bir çox sahələrində səmərəli olur. Beləliklə, insanın estetik dəyərlərlə yaşamağa çalışması nəticəsində tənqid ədəbiyyata da nüfuz etmiş və ədəbiyyatın bir janrına çevrilmişdir.

Bu gün mövcud olan tənqid anlayışı termin kimi türk ədəbiyyatının şifahi dövründə yer almır. Türklərdə şifahi ədəbiyyat dövründə terminoloji baxımdan tənqidə cavab verən heç bir nümunə məlum deyil. Sdəcə olaraq əsərin qəbul edilib-edilmədiyi cəmiyyətin münasibəti ilə üzə çıxırdı. Cəmiyyət bəyəndiyini alqışlarla qarşıladığı halda, bəyənmədiyi ədəbi numunəyə soyuq və unutqan münasibət göstərməklə bildirirdi.

Türk ədəbiyyatında tənqid anlayışı tarixən fərqli kəlmələrlə ifadə edilib. Orta Asiyadan qərbə köç edən türklər İslam dinin təsiri ilə ərəb və fars mədəniyyətinin cazibəsinə qapılmış və bu cərəyan ədəbi sahədə də çox böyük dəyişikliklər yaratmışdır.

Klassik türk ədəbiyyatında tənqidin vəzifələri daha çox müəllifin səhvlərini hədəfə alaraq onun qüsurlarını üzə çıxarmaq şəklində qəbul edilmişdir. Ədəbiyyat aləminə qədəm qoyanların yaradıcılığına ustadlar tərəfindən qiymət verilməsi – onların müsbət məqamlarını tərifləmək –tərənnüm etmək kimi ifadə olununmuşdur.

Məqalədə türk ədəbi tənqidinin ilkin tarixi mərhələləri divan ədəbiyyatı dönəmindən başlamaqla araşdırılıb qiymətləndirilir.

***Açar sözlər*:** Türk ədəbiyyatı, ədəbi mübahisə, ədəbi tənqid, ədəbi tənqidin qaynaqları.

Giriş

İnsanın fəaliyyət göstərdiyi bütün sahələrdə, xüsusən də sənət sahəsində tənqid həmişə mövcud olub. Lakin Orta əsrlərdə tənqid anlayışı müasir tənqid anlayışından fərqlənib. İdealizm anlayışı, ideala yetişmək istəyi, ideal həqiqətə can atmaq sənətlə yanaşı, tənqidi də üzə çıxarıb.

Fransızca tənqid (*critigue*) kəlməsinin mənşəyini təşkil edən latınca *cernere* – xəlbirdən keçirtmək mənasında işlənir. Ələyən, seçən və başqalarından ayıran bir əşyanı ifadə edən bu kəlmə ədəbiyyatda isə konkret məna kəsb edir, əsər haqqında hökm xarakteri daşıyır.

Oxucu adətən əsərləri çeşidləyir – bəyənib yaddaşında qalanlar və bəyənməyib unutdukları. Toplumu təsiri altına alan və təsir effekti zəif olan, yaxud heç bəyənilməyən əsərlərin təqdimi müxtəlif suallar yaradır. Həmin suallar zaman-zaman sənət anlayışının və sənətin nə olduğu mövzusunun müzakirəsinə səbəb olur. Antik dövrdə incəsənətlə bağlı müzakirələrdə qədim yunan sivilizasiyası ön plana çıxdı. "Fəlsəfə" və "gözəllik" anlayışı barədə dövrün mütəfəkkirləri müxtəlif fikirlər irəli sürdülər. Onların fikrincə, yaradıcılıq möhtəşəm bir əsər olan təbiəti təqlid etməkdən başqa bir şey deyildir.

Aristotelin "*Poetika*" əsəri sənətə dair ilk və mühüm əsərlərdən biridir. Aristotelin bu əsərdəki şair və şeirlə bağlı izahları, poeziya haqqında düşüncələri qiymətləndirmə və tənqid kimi qəbul edilir. Onun ədəbi əsərlərin insanı xeyirə, həqiqətə aparmalı olduğu, oxucunu tərbiyələndirməli qənaəti ədəbi əsərin qiymətləndirilməsində meyar kimi qəbul edilərək ədəbi tənqid baxımından böyük əhəmiyyətə malikdir. Platon və Aristotelin tənqid elmi kimi açdıqları yolda İsgəndəriyyə məktəbinin üzvləri, qrammatika məsələlərinə daha çox önəm verərək fəaliyyət göstərir və öz dəsti-xətlərini yaradırdılar.

Türk tarixindəki yazılı əsərlər isə daha çox Orta əsrlərə aiddir. Orta Asiyadan başlayan türk ədəbiyyatının ilk dövrlərində yazılı əsərlərin azlığı dəyərləndirmədə çətinliklər yaradır. Şifahi ədəbiyyatın inkişaf etdiyi türklərdə sənət dövrün şəraitinə uyğun formalaşmışdır. Türk ədəbiyyatında tənqidin varlığını Orxon kitabələrinə götürənlərlə bərabər, ədəbi tənqidin izlərini şifahi xalq ədəbiyatında – atalar sözləri və məsəllərdə, xalq nağıllarında axtaranlar da var və onlar bu sahədə müsbət nəticələr də əldə ediblər.

Türk ədəbiyyatında tənqidin yeri araşdırılarkən ədəbiyyatın özünəməxsus vəziyyəti nəzərə alınmalıdır. Heç şübhəsiz ki, İslam dininin qəbulu və qərbləşmə türk ədəbiyyatının müəyyənedici amilləri olmuşdur. Köçəri türklərin İslamı qəbul etməsi ilə ortaya çıxan ərəb və fars mədəniyyətinin təsiri, Qərbə doğru irəlilədikcə məskunlaşmanın artması yazılı ədəbiyyatın inkişafında da öz izlərini qoymuşdur.

Türk-İslam mədəniyyəti dövründə yazılı ədəbi mədəniyyətdə ərəb əlifbasından istifadə edilmiş, türk düşüncə tərzi İslam dininin əsas qaynaqları olan Quran və hədislərdən, eləcə də Orta Asiya adət-ənənələrindən, ərəb və fars fəlsəfəsindən qidalanmışdır. Bu, "*divan ədəbiyyatı*", "*klassik ədəbiyyat*", "*köhnə ədəbiyyat*" kimi fərqli adlarla isimləndirilən və yazılan, XII əsrdən XX əsrə qədər təsirli olan, nəzm və nəsrə bölünən, özünü daha çox poeziyada göstərən, fərqli düşüncələrdən bəslənən, öz qəlibləri və ədəbi meyarları olan ədəbiyyatdır.

Türk-İslam mədəniyyəti ilə ortaya çıxan "*Saray ədəbiyyatı*", "*Əndərun ədəbiyyatı*", "*Havas ədəbiyyatı*", "*Elita ədəbiyyatı*", "*Klassik ədəbiyyat*", "*Qədim*

ədəbiyyat", "*İslam ədəbiyyatı*" kimi adlarla ifadə olunsa da, "*Divan ədəbiyyatı*" daha çox istifadə edilən və tanınan bir ad halına gəlmişdir. Türkiyə coğrafiyasında türk, ərəb, fars mədəniyyəti və İslam dəyərlərindən ibarət divan ədəbiyyatının dili türk, ərəb və fars dillərinin formalaşdırdığı Osmanlı dilidir.

Divan ədəbiyyatında tənqid haqqında məlumat

Divan ədəbiyyatının Şərq ədəbi anlayışına xas öz qaydaları və meyarları var. Bu məqamda divan ədəbiyyatında terminoloji baxımdan tənqid kəlməsinin birbaşa qarşılığı, ifadəsi mövcud deyil. Lakin bədii mətnin qiymətləndirilməsi, dəyərləndirilməsi kimi hallara divan ədəbiyyatında da rast gəlinir. Divan ədəbiyyatı kimi tanınan bu dövr ədəbiyyatı, özünəməxsus xüsusiyyətləri ilə XIX əsrə qədər varlığını səmərəli şəkildə davam etdirmişdir. Ədəbi tənqid, şübhəsiz ki, divan ədəbiyyatında də müşahidə olunub, lakin bu, Qərb ədəbiyyatının qiymətləndirmələrindən fərqlidir. Müasir mənada ədəbi tənqid türk modernləşməsinin başlanğıcı olan Tənzimat üzərində qurulub.

Divan ədəbiyyatına tənqidi yanaşmaq bütün dövrlərdə xoş qarşılanmamış, təzkirələrdə ya tənqid nümunələri verilməmiş, ya da bu tip şeirlərdən çəkinmək lazım olduğu fikri irəli sürülmüş, qısa bir nümunə ilə kifayətlənmişlər. Mehmet Celal Osmanlı (1867-1912) ədəbi yaradıcılığında tənqid nümunələri verməkdən yayınaraq yazır : "*Mənzum olduqdan sonra əl-əksəm-i-əşardan olsalar belə, onlarla – ədəbiyyat adına – rəftar etmək olmaz. Çünki öndəki və sondakı ilə uğraşmaq, nəzakət qaydalarını pozub da şeirdən bayağı ifadələr işlətmək müvafiq deyildir. Mənim inancıma görə, şeiri poetik, hökümlü, "sevimli təsəvvürat-i âliyyə" ilə reinkarnasiya etmək daha münasib olardı. Ona görə də buradakı misalın iradına təəssüfləndik*". [Köprülü, 1917, s. 256]

M.C.Osmanlının yazdıqlarında tənqidin xoşagəlməz şəkildə edildiyi və nəzakət qaydalarını pozaraq daha ağır ifadələr işlədiyildiyi göstərilir və bu hallardan qaçmaq lazım olduğu vurgulanır. Lakin divan ədəbiyyatında tənqidin olmadığı və ya çirkin şəkildə yapıldığı bildirilsə də hərtərəfli və təfərrüatlı bir şəkildə araşdırıldıqda burada əsərə və ya sənətkara qarşı tənqidin mövcudluğuna şahid oluruq.

Divan ədəbiyyatında tənqid özünü aşağıdakı formalarda götərir:

1. Şərhlər.

1. Təzkirələr.

2. Şairlərin divan və divançalarının ön sözlərində söylədikləri ilkin ədəbi-nəzər fikirlər.

3. "*Hüsnü Aşk*" (Şeyh Qalib), "*Heves-name*" (Cafer Çelebi), "*Hayriye*" (Nabi) kimi əsərlərin bəzi hissələri ədəbi tənqid özəlliyinə sahibdir.

4. Tarix, ədəbiyyat tarixi və ritorika (bəlağət) kitablarında rast gəlinən tənqid sayıla biləcək fikirlər.

Sənət olan yerdə onun qiymətləndirilməsi mütləq və qaçınılmazdır. Bu ədəbi prosesdə əsərin səviyyəsi, yaratdığı ovqat kimi subyektiv qiymətləndirmələrlə yanaşı, əsərin ədəbi meyarlarına uyğun olaraq ölçü, ahəng, sujet kimi ünsürlər əsasında qiymətləndirmələr aparılmalıdır və aparılır. Divan poeziyasında şairlər haqqında tənqidi fikirlər də yer almışdır. Tacizade Cafer Çelebi "*Heves-name*" məsnəvisində Şeyhi və Ahmet Paşanı tənqid edib:

Şolar kim Türkî dilde şöhereti var,
Biri Şeyhi, bir Ahmet'tir ey yâr.

Eğer Şeyhi'dir insaf ile billâh,
Suhanverlikten gerçi olmuş agâh.

Fesahatte velâkin kârı yoktur,
Kelâmının garip elfazı çoktur.

Eğerçi vardır Ahmet'te zerafet,
Bulunur hem sözlerinde fesahat,

Belagatte veli mahir değildir,
Kelâmın rabtına kaadir değildir.

Sözünün hüsnü vardır ânı yoktur,
Nûkuş-u deyre benzer canı yoktur.

Bu hâl ile yine ey merd-i üstâd,
Birinün dahı yok şânında îcâd.

Mu'ayyen her birinün hâli kāli,
Olupdur terceme ulu kemâli.

Ararsan her birinün defterini,
Tetebbu' eyler isen sözlerini.

Bulımazsın birinde ma'nî-i hâs,
Bulursun gayrün âhengine rakkās.

Hayâl-i hâssa çün kādir degüller,
Hakïkatde bular şâ'ir degüller. [Çelebi, 2006, s. 207-209]

Tacizade Cafer Çelebi şairin üslubunu, nitq məharətini yüksək qiymətləndirmiş, onun sözün incəliklərinə bələd olduğunu bildirmişdir. Ancaq arxasınca uyğun sözləri seçməkdə, rəvan söz tapmaqda müvəffəq olmadığını da deyir. O, qeyri-ənənəvi və yersiz sözlərin həddən artıq çox olduğunu deyərək şairi tənqid edir. Bu, həm müsbət, həm də mənfi qiymətləndirmələrin olduğunun göstəricisidir. Sözləri yerində işlətmək, qafiyə, ahəng baxımından poeziyanın qiymətləndirilməsində bu halların önəmli olduğunu göstərir.

Tacizade tənqidinə Əhməd Paşa üzərindən davam edir, kəlmələri yerbəyərindədir, ahəngi gözəldir amma cəlbədici deyil, deyir. Sonra da diqqət çəkən bir nümunə ilə fikrini möhkəmlədirir. "Kilsə naxışları kimi biribirinin təkrarıdır, yeniliyi tapmaq olmur və yoxdur" – yazaraq təəccübünü bildirir. Şairin orijinal ifadələrinin olmadığını söyləməsi əsərin orijinallığından bəhs etmək baxımından diqqət çəkir. O, şairlərin eyni sözləri söyləməsinə irad tutur və "başqalarının ahəngində rəqs etmək" ifadəsi ilə öz mənalarını formalaşdıra bilmədiklərini söyləyir. Buna görə şair olmadıqlarını iddia edir. "*Heves-name*"dəki bu ifadələr divan ədəbiyyatında tənqidi qiymətləndirmək nöqteyi-nəzərindən ədəbiyyat üçün çox əhəmiyyətlidir. Tənqidin nəyi hədəf aldığını, şairlərin üslubu incəliklərini, şeirin uğurlu və ya uğursuz məqamlarını nişan vərən, o nöqtələrə diqqəti yönəldən gözəl bir nümunədir.

Divan ədəbiyyatı yeddi yüz il təsir gücünü qorumuş və hifz etmiş bir ədəbiyyatdır. Gözəlliyin və estetikanın vacib olduğu ədəbiyyatda ən gözəli, ən doğrusu axtarılıb tapılmışdır. Şair və poeziya haqqında səsləndirilən tənqiddə əsərlər divan ədəbiyyatı qaydaları və əsərin orijinallığı baxımından irdələnmiş və fikir söylənilmişdir.

Tacizade Cafer Çelebinin '*Heves-name*" əsəri bu kontekstdə qiymətləndirildikdə, divan ədəbiyyatında tənqidin mövcudluğuna şahid oluruq. Klassik ədəbiyyatda əsərlərin dəyəri ilə də bağlı tənqidlər yazılmışdır. Əsərin ədəbi dəyəri söz, üslub və orijinallıq baxımından müəyyən edilmişdir. Şairlərin əsərlərində qafiələr və ölçülər, sözün məna yükü, kəlmələrin ardıcıllığı və məna düzümü divan ədəbiyattında tənqidin ən çox diqqət etdiyi məqamlardır. Şərhlər, təzkirələr, giriş (dibaçə), nəzirə dərgiləri, ritorika kitabları tənqidin daha aydın şəkildə izlənilə biləcəyi əsərlərdir.

Şərhlər

Şərhlər – mətni daha yaxşı başa düşmək üçün istifadə edilən annotasiyalardır. Quranı-Kərimin İnşirah surəsində yer alan "*nəşrah*" kəliməsindən götürülmüş "*təfsir*" kəlməsini, Rağib əl-İsfəhani "şərhlərin əsli əti və ona bənzər olanları açmaq, yəni açıb genişləndirməkdir" şəklində izah edir. Ona görə də "*Şərh-i sədr*" sinəni açmaq, yəni ilahi bir nur və Allahdan gələn könül və ruh rahatlığı ilə genişləndirməkdir. Şehabeddin Hafaciyə görə, kitabı izah etmək mənaca şərh etmək deməkdir. İslam dünyasında mətnlərin qiymətləndirilməsində istifadə olunan bu üsul

tənqid üçün funksional xüsusiyyətlərə malikdir. Dini mətnləri başa düşmək və izah etmək üçün istifadə edilən şərh zaman keçdikcə yazılı mətnlər üçün də istifadə olunmağa başlayıb. Mətn şərhləri mətn haqqında izahat verdiyi üçün bir fənn hesab olunur. Başqasının yazdığı əsərin şərhi, müəyyən mənada əsərin başqa prizmadan qiymətləndirilməsidir. Mətnin izahı, yenidən oxunması müəyyən mənada yeni məna kəsb edir. Şərhi yazan şəxs öz biliyi daxilində mətni öz baxış bucağı ilə başa düşür, izahat yazır.

İslam mədəniyyətindən təsirlənən divan ədəbiyyatında mətnlər üçün də annotasiyalar yazılmışdır. Agah Sırrı Levent deyir ki, annotasiyalar bir şeirin və ya məktubun ironik izahı və təfsiridir. İzzət Ali Paşanın bir qadının dili ilə yazdığı "*Nigar-name*"yə Nədimin şərhi, Əbubəkir Kaninin məktubuna şərhi, Ziya Paşanın Ali Paşa haqqında yazdığı "*Zefer-name*" təfsiri buna misaldır.

Ədəbi katəqoriyalardan olan təfsir və haşiyə Osmanlı nəsrinin ən məhsuldar janrları arasında yer alırdı. Müasir nöqtəyi-nəzərdən isə şərhə ikinci dərəcəli ədəbiyyat növü kimi baxmaq olar. Lakin maraqlıdır ki, Osmanlıların da eyni fikirdə olduğunu düşünsək, o zaman bu janrlar gərəksizdir və ədəbiyyata dəxli yoxdur.

XX əsrdə Avropalı və Amərikalı araşdırmaçıların yazdığı (türk ədəbiyyatında "*yakın okuma*" və ya "*kalitatif okuma*" termini ilə ifadə edilən) əsərlərində bu janrların vacib olduğunu isbatlayan professional təsbitləri diqqətə almaq lazımdır.

Sözlərin və ya cümlələrin açıqlanması, izah edilməsi yükü şərhin üzərinə düşür. Açıqlamalarda təməl qaynaqlara istinad etməklə, mətnə əvvəlcədən şərhlər yazılmışsa, onları da dəyərləndirərək, şərh yazan və ya haşiyə çıxan şəxs öz görüşlərini də qataraq qeydlərini aparmalıdır. Şərhçi öz fikrini özündən əvvəlki məlumatları da daxil etməklə izah edir. Məqsəd oxucunun mətni başa düşməsidir. Şərh yazan şəxsin müəyyən səriştəsi və təcrübəsi olmalıdır, şərh yazdığı sahəni gözəl bilməlidir. Sənətkarın ifadələri "bunun məqsədi, buradakı məna" deməklə izah olunur. Şərhi yazan şəxsin mətni yazan şəxs qədər o mövzuya bələdliyi və bilgi bazası olmalıdır. Müəllifin niyyətini başa düşmək üçün açıqlama verən şərhçi, müəyyən mənada müəllifin fikrini öz sözləri və yozumları ilə aydınlığa çıxartmalıdır ki, oxucu olaylardan tam xəbərdar olsun və maarifləsin. Şərh yazan şəxs müəllifi natamamlıqda, yanlışlıqda ittiham etmir, əksinə, müəllifin nə demək istədiyini özünəməxsus şəkildə izah edir.

Çağdaş ədəbiyyatda şərh mətnə yaxınlaşma üsuludur, şərh və haşiyələrdə mətnin mənası vurğulanır. Mətndaxili əsər olan annotasiyada əsərin sahibi haqqında heç bir mühakimə və qiymətləndirmə aparılmır. Mətn təhlilində şərhlə yanaşı, müxtəlif anlayışlardan (*haşiyə*, *təlhis*, *təfsir*, *dərkənar* və s.) da istifadə edilmişdir.

Şərhlərdə istifadə olunan bu anlayışlar müasir mənada istifadə olunan mətn tənqidindəki anlayışlara uyğunluq kimi dəyərləndirilə bilər. Mətnlə bağlı qiymətləndirmələr vacibdir ama bu qiymətləndirmələr şərhin konkrət meyarları əsasında hazırlanır. Şərh mətndaxili əsərdir və müəllif haqqında mənfi fikirlər deyil. Tənqiddə isə mətndaxili və mətndənkənar qiymətləndirmə var, mətnin müəllifi

diqqətdən kənarda qalır və tənqidçi yazıçıdan kənara çıxa bilər. "Mətnlərin annotasiyası ədəbi tənqid deyil. Ədəbi tənqiddə əsərin fiziki gözəlliyi haqqında mühakimə yürüdülür. Bədii gözəllik qanunları hələ lazımınca incələnməmiş, hələ də qapalı tərəfləri olan, mahiyyəti hər şeydən əvvəl intuisiya ilə dərk edilən ədəbi hadisədir. Tənqidçi bəlkə də yaşadığı dövrün daxili gözəlliyini ən çox ifadə ədən şəxsdir. Bacardığı qədər neytral olmağa çalışır."

Şübhəsiz ki, mətni başa düşmək və şərh etmək üçün tənqid öncəsi janrlar olan şərh və buna bənzər üsullar bu gün tənqid funksiyasını yerinə yetirə bilməz. Lakin divan ədəbiyyatı ilə bağlı günümüzün tənqid anlayışı və meyarları əsasında qiymətləndirmələr aparmaq anaxronist - arxaik bir yanaşma olacaq.

Təzkirələr

Bioqrafiya – tərcümeyi-hal əvəzinə işlənən təzkirə sözü termin kimi fars ədəbiyyatında meydana çıxmışdır. Divan ədəbiyyatında şairlərin həyatından bəhs ədən "Təzkirə" bu gün ədəbiyyatda antologiya kimi da önəmli yerə sahibdir.

Təzkirələr, Mustafa İsen tərəfindən tənqid mənbəyi kimi qiymətləndirilir. Onlar şairlər haqqında məlumat verən əsərlərdir. Osmanlıda ilk təzkirə XIV əsrdə Səhi bəy Həşt Bəhişt tərəfindən yazılmışdır. Bu mənbələrdə şairlər, onların həyat və yaradıcılığı haqqında məlumat verilib. Tərcümeyi-halların girişində poetika və tənqidin də yer aldığı görünür. "Təzkirə müqəddimələrində şeirin mənşəyi, forma və məzmun baxımından xüsusiyyətləri, vəzn, qafiyə, mənzum üslubu, təxəyyül və məzmun kimi əsas mövzuların araşdırıldığı görünür". Tərcümeyi-hallarda müəllifin adı, doğulduğu şəhər, qohumluq əlaqələri, təhsil həyatı, təhsil vəziyyəti, peşəsi, məşğuliyyəti, şəxsi xüsusiyyətləri və bacarıqları, sosial mühiti, həyatı ilə bağlı rəvayətlər, ölüm tarixi, məzarı, əsəri və ya əsərləri üzərində dəyərləndirmələr, əsərindən nümunələr verilir.

Mehmet Çavuşoğlu, "Təzkirə müəllifləri təkcə bioqrafik məlumat vərməklə kifayətlənməyib, haqqında söhbət açdıqları şairin şeirinə, əsərlərinə də qiymət vərib, fikirlərini çatdırıblar. Dövrün poeziya anlayışı təzkirələrdə öz əksini tapır" – yazaraq təzkirə ilə tənqidin əlaqəsini ifadə ədir. Tərcümeyi-hallarda edilən tənqid əsərə deyil, şairə aid olur. Bununla bələ, bioqrafik əsərlərdə ön plana çıxan şair olduğu üçün tənqid sənətkarla bağlı olsa da, şairin sənət anlayışı da dəyərləndirilir.

Divan şairləri haqqında qiymətləndirmələrin aparıldığı əsərlərdə müxtəlif müqayisələr və bənzətmələr aparılıb və təzkirələrdə müsbət və ya mənfi ifadələrdən istifadə olunub.

XVI əsrin məşhur türk təzkiraçisi Kastamonulu Latifi bu mövzuda mühüm əsərlərdən biri olan "*Tezkiretüş-şüara*" adlı təzkirəsində şeiri və şairi tənqid edir:

Şi'rin Lətifi öldü, işi bəyti pozdular,
Lətifi mukallid oldu cihan sanat uğrusu.

Hər "*Gülüstan*" oxuyanın, iki misra şeir yazanın özünə şair deməsini, xalqin böyük əksəriyətinin istedadlı və istedadsız şairi ayrıd edə bilmədiyini, zəif şeiri tərfiləyib, güçlü poeziyanı anlamadığını açıklayan Latifi oxucunun gözünü açmağa çalışır: "*Şeyhi ilə bağlı ...Zeban-ı Türki'de kıssa-i Hüsrev-i Şirini andan şîrîn dimiş yokdur. Eğerçi ol nazm-ı bi- nazire dimmişler çokdur ve üslûb-ı kasidesi ve tarz-mesnevisi zemân-ı sâbıkda vaki olmağın fesahatı muhill ve elfaz-ı garibedən bazı ibârât ve dayire-i zerâafetdən bîrun Türkî tabirât düşmişdür. Amma erbâb-ı irfandan mahfî degüldür ki ol zamanda zebân-ı Türki' de ol kadar zerâfet ve şuarasının tabir ve edâlarında çendan fesâhat yogıdı*". Şeyhi ilə bağlı tənqidlərə cavab verərək, Şeyhinin öz zəmanəsinə görə yenilik yapdığını vurğulamış, onun şeirində qüsurlar aranmasının yanlış olduğunu yazmışdır.

Latifi, haqqında söhbət gedən Şeyhi üçün

Fesâhatda o dənlu kârı yokdur
Kelâmının gaib elfazı çokdur.

– deyə bəhs etmişdür. "*Elhak ve insaf budur ki tarîk-i mesneviyi şuarayı Rum andan görmişler ve buhususda mâadası ana peyrev olmışlardır. Hakikate nazar olunsa kıssa-i Hüsrev zebân-ı Türkî'de andan bir üslûbb-ı nev'dür...*" [Tolasa, 1983, s. 380-383] yazan Latifi ustadının şeirlərində yer alan ifadələrin zəmanəsinə görə gözəl olduğunu anladır.

Təzkirə yazarları müəyyən meyarlardan istifadə edərək tənqidi yaradıcılıqla məşğul olurdular. İş o yerə çatmışdı ki, Sultana təqdim olunan şeirlər əvvəlcə tənqid olunurdu. Bəzi şeirlər Sultana təqdim edilmədən rədd edilirdi. II Sultan Selim dövründə vəzifəyə təyin olunan şəxslərdən biri də Gelibolulu Ali idi.

Şairlər müəyyən meyarlara görə təsnif edilirdi. Məsələn, Lətifi şairəri belə təsnif edir:

- Yazılmamış düşüncələri, öz arzu və təxəyyülünü yaradıcılığına axtaranlar (şairin orijinallığı).
- Nitqi səlis və rəvan olan, yaradıcılığı söz yığınından ibarət olanlar.
- Oğrular (şairin təxəllüsünü dəyişmək və ya şeirdən bir neçə qoşma oğurlayıb özünəməxsus şəkildə fərqli üslubda istifadə etmək; başqa şeirlərdəki mənaları təkrarlayanlar, başqa bir şairin şeirinin şəklini dəyişib, bədii və təxəyyül baxımından eyni mənanı söyləyənlər - hazır məzmunu fərqli formada öz şeiri kimi təqdim edənlər).

Yaradıcı olmayan və orijinal məzmun təqdim edə bilməyənlər.

- Ustad şairin poeziyasında mövcud olan məzmunu incə zəka ilə orijinal dəyimə çevirənlər.

Başqa bir klassik ədəbiyyat sənətçisi Riyazi isə şairləri belə təsnif edir:

- Şeirlərində yeni tapıntılar olanlar.
- Gözəllik şairləri.

- Yeni mənalar yaradanlar.

Riyazinin şairlərin fərqlilikləri və yenilikləri ilə önə çıxması kimi xüsusiyyətləri ortaya qoyması da şairlərin necə qiymətləndirildiyinə dair ipucu verir.

Dibaçələr

Ön söz anlamı daşıyan "dibaçə" divanın girişində şeir və şair haqqında qiymətləndirmənin olduğu bir bölümdür. Şeir və şairlərin dibaçədəki düşüncələri ilə yanaşı, şairlik və şeir sənəti ilə bağlı çeşidli müzakirələr də mövcuddur. Eyni zamanda, bəzi əsərlərdə divan poeziyasının fəlsəfi mənşəyi ilə bağlı qiymətləndirmələr, tənqidlər və izahlar verilir. Burada İslam dini nöqteyi-nəzərindən şairin və şeir sənətinin caiz olub-olmaması ilə bağlı ifadələr də yer almaqdadır. İlk öncə müzakirə mövzusu şeirin nə üçün yazıldığı olsa da, zamanla sənətdə "məqsəd nədir?" sualının ifadəsi adlandırıla bilən bu bölmə klassik poeziyanın qanunauyğunluğu baxımından böyük əhəmiyyət kəsb etməyə başladı.

Xüsusilə məsnəvilərin mülahizə hissəsindəki beytlər divan ədəbiyyatında tənqid anlayışının formalaştırmasında önəmli rol oynadı. Bu bölmədə şair öz poeziya məharətini tərənnüm etməklə yanaşı həm də əsərin nə üçün yazıldığını açıqlayır.

Tacizade Cafer Çelebinin '*Heves-name*" adlı məsnəvisinin əvvəlindəki "*Hasb-i Hal*" bölməsini buna misal göstərmək olar. Nabinin "*Xeyrabad*" əsərində onun dövrü ilə bağlı bəzi tənqidlər var. Şeyh Qalibin "*Hüsn-ü Aşk*" əsərində də Nabi haqqında tənqidlər yer almaqdadır:

Kim Nabi'ye hiç düşer mi evfak,
Şeyh'in sözüne kelâm katmak.

Ey kıssadan hisse almıyan haberdâr,
Nâkıs mı bırkadı Şeyh Attar. [Yüksel, 1980, s. 104]

Şeyh Qalib bu misralarında Nabini Attardan təsirləndiyi və ya kəlmələri ondan aldığı üçün tənqid edir. "*Hüsn-ü Aşk*"ın ön sözündə şeirlə bağlı tənqidi fikirlərini bildirir. O, yeni məzmun axtarışlarını müdafiə edir və bu axtarışları bəyənməyənləri tənqid atəşinə tutur. Şair yeni məzmun, yeni ifadə üslubları axtarmağın, başqalarının poeziyada açdığı cığırlarla irəliləmək yerinə yeni məktəb yaratmağın tərəfdarıdır.

Bəlagət (*ritorika*) kitabları

Bəlağət kitabları terminləri bir araya toplamaq və nə demək istənildiyini izah etmək üçün yazılmış əsərlərdir. Sururinin "*Behrü'l Marif*" əsəri Osmanlı imperiyasında ilk bəlağət-ritorika kitabıdır. Müstəkimzadənin '*İstilahatu'ş Şiriye*"', Manastırlı Rıf'atın "*Mecami'ül Edeb*", Ahmet Cövdet Paşanın "*Belagat-ı Osmaniye*", Recaizadenin "*Talim-i Edebiyat*", Raşitin "*Nezeriyye-i His Edebiye*" əsərləri də bu qəbildəndir.

Diyarbəkirli Şeyh Ahmet al Berdahinin "*Kitabu Cami'il Envail-edebi'l Farisi*" türkcə yazılmış ən qədim ritorika kitabıdır. Ümumiyyətlə, XIX əsrə qədər 11 ritorika kitabı yazılmışdır.

Ədəbiyyat tarixi və nəzəriyyələrinin, bəlağət elmlərinin inkişafı, o cümlədən türk yazıcı və şairlərinin ədəbi düşüncələrinin təsbiti baxımından türk ədəbiyyatında mühüm bir qaynaq olan "*Behrül Marif*"də 1381 məcazi kəlmə işlədilmişdir. Kitabda müşahidə edərək mühakimə edib hökm cıxarmaq mənfi qiymətləndirilir və məna baxımından nələrə diqqət yetirilməsi lazım olduğuna dair misallar göstərilir. Bəlağət kitablarında kəlmənin "*İlm-i meanid*"dəki mənaya uyğunluğu, "*elmi bedi*"də ədəbi sənətlərin xüsusiyyətləri və bu özəlliklərin incələnməsində diqqət yətiriləcək məqamlar, elmdə bir fikrin müxtəlif yollarla ifadəsi haqqında izahlar vardır. "*Elmi beyan*"da isə sözlərin işlədilməsi ilə bağlı fikirlər və mülahizələr yer alır. Terminlərin açıq şəkildə istifadəsi, bir növ çılpaq kəlmələrdən istifadə, yersiz epitetlər, bənzətmənin bəsitliyi qiymətləndirmə zamanı işlədilən ifadələrdəndir. Sözün məzmuna və mənasına uyğun olmadığı, yardılan əsərlərin zəifliyi kimi tənqidlər bəlağət terminlərinin məzmununa uyğun olaraq edilir.

"*Məcamiül Edeb*"də, mükəmməl bir diqqət və ədalətlə mülahizə yürütmək, elmi yaradıcılıq qaydalarını tətbiq etməklə, təfsir üsuluna həmişə tənqid deyilir. "*Mecâmi'ül Edeb'te, asâr-ı beşeri müteallik oldukları fünun ve sanâyı ahkâmına tatbikan kemâl-i dikkat ve adaletle muhâkeme etmek usulune alelumûm tenkit denir, denilerek tenkitin tanımı da yapılmıştır*". [Bilkan, 1987, s. 49]

Göründüyü kimi, açıqlamada xüsusilə ədalətlə mülahizə yürütmək və hökm verərkən çox diqqətli olmaq kimi tövsiyyələr var.

Bəlağət kitabları ədəbi əsərlərdə vacib olan xüsusiyyətlərin ensiklopediyasıdır. Bu əsərləri yetərincə tədqiq etmək, oradaki məlumatlardan ədəbi tənqidin tərminologiyalarını rahat bir şəkildə öyrənmək və istifadə etmək mümkündür.

Nəzirə məcmuələri

Bir şairin başqa bir şairin şeirinə eyni vəzn və qafiyə ilə yazdığı şeirə nəzirə deyilir. XIV əsrdə Ömər bin Mezid tərəfindən yazılan "*Mecmuatin Nezairin*" nəzirə məcmuəsi türk ədəbiyyatında bu sahədə ilk numunədir. Eğirdirli Hacı Kamalın, Edirneli Nezminin və Pervane beyin nəzirə məcmuəsi də bu numunələrdəndir. Nəzirələr tədqiq edildikdə, şairlərin bir-birindən təsirləndiyi, hansı şeirlərin bəyənildiyini asanlıqla müəyyən etmək olur.

Nəzirələr və ya nəzirə məcmuələri araşdırılanda və dəyərləndirildikdə, şairlərin təsiri və təsirlənmələri, təsir dairələri, şairlər arasındakı ədəbi əlaqələr, ən məşhur şairlər, şeirlər, daha yayğın olan qafiyə, rədif və vəzinlərin müyyən edilməsi kimi poeziya tarixi baxımından bir çox mühüm məqamları üzə çıxarmaq olur. Şairlər arasında yaxınlıq, nəsillərarası qarşılıqlı əlaqənin necə olması barədə məlumatı "Nəzirə" məcmuələrindən asanlıqla öyrənmək mümkündür.

Şairlərin yaradıcılığında özlərinə yönəlik tənqidi baxışları, ictimai məsələlər və problemlər də tənqid baxımından dəyərləndirilməli olan mənbələrdir. Xüsusilə, divan şairlərinin şeirlərinin əvvəlində yer alan, çağdaş və ya əvvəlki dövrlərin şairləri haqqında tənqidi fikirlər mühüm əhəmiyyət kəsb edir.

Klassik ədəbiyyatda əsərlər və sənətkarlar haqqında bir çox qiymətləndirmələr aparılıb. Daha çox tənqid sözü ilə ifadə olunan incələmək müasir tənqidin eynisi deyil lakin eyni zamanda çağdaş ədəbiyyatşünaslıqlda da öz əhəmiyyətini qoruyub saxlayır və hətta ədəbiyyatın, sənətin inkişafı üçün vacib bir janra çevrilib. Ədəbiyyatşünaslığın inkişafına xidmət edən bu janr hər zaman olduğu kimi çağdaş dünyamızda da toplumun inkişafında mühüm rol oynayır, onun mənəvi dünyasına xitab edir.

Nəticə

Araşdırmalar göstərir ki, hər bir dönəmin özünəməxsus mühakimələri və ədəbi meyarları ilə dəyərləndirilməsi əsasında obyektiv qiymətləndirmə aparılarsa, tənqidin bütün dövrlərdə hər zaman ideal axtarışında olduğunun şahidi oluruq. Bunun üçün də ədəbi tənqidin tarixini tədqiq etmək klassik ədəbiyyatı düzgün qiymətləndirmək, ədəbiyyatşünaslıq tarixində dövrün dəyər meyarları ilə görülən işləri müəyyən etmək lazım gəlir.

Ədəbi tənqid əksər cəmiyyətlərdə tənqidçinin zövqünə, əsərdən aldığı təəssüratlara uyğun dəyişən təbii və subyektiv tənqid olsa da, zaman keçdikcə inkişaf edərək müəyyən ölçü və üsullara, obyektiv meyarlara malik bir elm sahəsinə çevrilmişdir.

Türk ədəbiyyatında tənqid anlayışı tarix boyu fərqli kəlmələrlə ifadə edilmişdir. Yazılı mədəniyyətin geniş vüsət aldığı və ərəb fars mədəniyyətinin təsirinin çox güçlü olduğu Orta əsrlərdə təzkirələr, dibaçələr, nəzirə məcmuələri, təfsirlər, ritorika kitabları – tənqid, incələmə və qiymətləndirmələrin yer aldığı əsərlər yaranmışdır. Bunların araşdırılması və qiymətləndirilməsi bir araya gətirilməsi ədəbi tənqid janrının inkişafı baxımından çox əhəmiyyətlidir

Türk ədəbiyyatının tarixi inkişafına nəzər saldıqda ədəbi tənqidin divan ədəbiyatınının fərli yönlərdən qiymətləndirməsinin, bəzən də tənqid edilməsinin şahidi oluruq. Müasir dünyada istifadə edilən ədəbi tənqid forması isə türk ədəbiyyatının qərbləşməyə meyl etdiyi, Qərbin təsir dairəsinə düşməyə başladığı dövrdən – Tənzimat dönəmindən başlamışdır.

ƏDƏBİYYAT

Bilkan, A. F. (1987). İlm-i Belegat, Milli Kültür, Eylül, sayı 58.

Çelebi, T. C. (2006). Heves-name, İstanbul.

Köprülü, M. F. (1917). Harnâme, Yeni Mecmua, 13.

Tolasa, H. (1983). Sehi, Latifi, Aşık Çelebi Tezkirelerine Göre 16.yy'da Edebiyat Araştırma ve EleştirisiI, Ege Üniversitesi Yay, İzmir.

Yüksel, S. (1980). Şeyh Galib Eserlerinin Dil ve Sanat Değeri, İş bankası Kültür Yay, Ankara.

Üzgör, T. (1990). Türkçe Divan Dibaceleri, KB Yay, Ankara.

Khuraman Gadimova

ON THE EARLY HISTORICAL STAGES OF TURKISH LITERARY CRITICISM

Summary

People are constantly searching for the ideal and the truth. Since they do not meet their own criteria, they reveal the weak points of existing things, classify their shortcomings and mistakes. At this point, they make assessments using different criteria, make comparisons, eliminate the negativities that appear in accordance with those criteria, and criticize them. The choice that emerges as a result of comparisons and assessments is effective in many areas of life. Thus, as a result of a person's attempt to live with aesthetic values, criticism has also penetrated literature and has become a genre of literature.

The concept of criticism as it exists today does not take place in the oral period of Turkish literature as a term. There is no example known in the oral literature period of the Turks that responds to criticism in terms of terminology. It was simply revealed by the attitude of the society whether the work was accepted or not. While the society welcomed the work it liked with applause, it expressed the disliked literary example by showing a cold and forgetful attitude.

The concept of criticism in Turkish literature has been expressed in different words historically. The Turks who migrated from Central Asia to the West were captivated by the charm of Arab and Persian culture under the influence of Islam, and this trend also created great changes in the literary field.

In classical Turkish literature, the tasks of criticism were mostly perceived as targeting the author's mistakes and revealing his flaws. The evaluation of the creativity of those who entered the literary world by the masters was expressed as – praising their positive moments – glorifying.

The article examines and evaluates the initial historical stages of Turkish literary criticism, starting from the period of divan literature.

Keywords: Turkish literature, literary controversy, literary criticism, sources of literary criticism.

Azərbaycan Milli Elmlər Akademiyasi M. Füzuli adına Əlyazmalar Institutu, *ISSN 2224-9257*
Filologiya məsələləri № 3, 2025
Səh. ————————

Хураман Гадимова

О РАННИХ ИСТОРИЧЕСКИХ ЭТАПАХ ТУРЕЦКОЙ ЛИТЕРАТУРНОЙ КРИТИКИ

Заключение

Люди постоянно ищут идеал и истину. Они выявляют слабости существующих, не соответствующих их собственным критериям, классифицируя их недостатки и ошибки. На этом этапе, используя различные критерии, оценивают и сравнивают, устраняют и критикуют любой негатив, возникающий в сравнении с этими критериями. Возникающий в результате сравнения и оценки выбор эффективен во многих сферах жизни. Таким образом, в результате стремления человека жить эстетическими ценностями, критика проникла в литературу и стала одним из её жанров.

Понятие критики в устный период турецкой литературы в его нынешнем виде как термин не существовало. Неизвестно ни одного примера тюркской устной литературы, который бы подвергался критике с точки зрения терминологии. Это просто определялось отношением публики к произведению. Общество приветствовало аплодисментами то, что ему нравилось, а непонравившемуся литературному произведению, демонстрировалось холодное и забывчивое отношение.

Понятие критики в турецкой литературе исторически выражалось разными словами. Тюрки, мигрировавшие из Средней Азии на Запад, под влиянием ислама были очарованы арабской и персидской культурой, и эта тенденция также привела к большим изменениям в литературной сфере.

В классической турецкой литературе задачей критики в основном являлось выявление ошибок и недостатков автора. Оценка мастерами творчества людей, вошедших в мир литературы, выражалась в восхвалении и прославлении их положительных сторон.

В статье рассматриваются и оцениваются начальные исторические этапы турецкой литературной критики, начиная с периода диванной литературы.

Ключевые слова: турецкая литература, литературная дискуссия, литературная критика, источники литературной критики.

Rəyçi: Kifayət Məmmədova
filologiya üzrə fəlsəfə doktoru

Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu, *ISSN 2224-9257*
Filologiya məsələləri № 3, 2025
Səh. ————————

HƏSƏNOVA GÜLZAR ƏLIF QIZI
Heydər Əliyev adına Hərbi İnstitut
NATO/SNT və Humanitar fənlər kafedrası

HƏRBİ PSİXO-PEDOQOJİ PROSES VƏ ONUN ÖZÜNƏMƏXSUSLUĞU

Açar sözlər: psixologiya, psixo-pedaqoji proseslər, əməliyyatlar

Məqalədə hərbi- psixopedoqoji prosesin müasir döyüşə təsiri, onun çoxtərəfliliyi, ordu quruculuğunda təşkili və həyatə keçirilməsi kimi problemlərə toxunulmuşdur.

Hərbi psixo-pedaqoji proses müasir döyüş şəraitində hərbi əməliyyatların uğurla aparılması üçün ixtisaslı hərbiçilər hazırlamaq məqsədilə təşkil olunan təlim-tərbiyə prosesidir.

Hərbi psixo-pedaqoji proses ikitərəflidir. Onun bir tərəfində komandir, müəllim dayanır ki, o, hərbiçilərdə yüksək mənəvi-döyüş keyfiyyətləri formalaşdırır, onların müasir müharibə şəraitində hərbi əməliyyatları müvəffəqiyyətlə yerinə yetirməyə hazırlayır.

Digər tərəfdə isə hərbiçilər- əsgərlər,kursantlar və b. Dayanırlar ki, onlar təlim-tərbiyə prosesinin obyektləridir.

Hərbi-texniki hazırlıq hərbi əməyin bir forması kimi hərbi psixo-pedaqoji proses zamanı həyata keçirilir.Bu əməyin nəticəsi isə bilik, bacarıq və vərdişlərin qazanılmasıdır.

Hərbi psixo-pedaqoji prosesdən asılı olaraq təlim və tərbiyənin xarakterində mühüm dəyişmələr baş verir. Bu öz əksini hərbi psixo-pedaqoji prosesin qanunauyğunluqlarında – tərbiyə və təlimin birliyində, elmiliyində və tərbiyəvi xarakterində və s. tapır.

Hərbi – texniki amillərin təsiri ilə təlim və tərbiyənində forması və mahiyyəti dəyişir. Hərbi psixo-pedaqoji proses isə daha gərgin xarakter almağa başlayır.

Qeyd edək ki, hərbi psixo-pedaqoji prosesin özünə məxsus quruluşu vardır. O, iki mərhələdən ibarətdir: 1. Hər bir hərbiçinin fərdi hazırlığı; 2. Hərbi bölmələrin və hərbi hissələrin hazırlığı. Bununla belə, həmin mərhələlər bir-biri ilə sıx bağlıdır.

Təlim iki hissəyə - qış və yay mərhələlərinə ayrılır. Hər bir mərhələnin sonunda ayrı-ayrı hərbiçilərin, bölmə və hissələrin hərbi hazırlığının nəticələri ümumiləşdirilir.

Hərbi psixo-pedaqoji prosesə orduda xidmətin təşkili, şəxsi heyyətlə tərbiyəvi tədbirlərin aparılması da daxildir. Beləliklə, Hərbi psixo-pedaqoji proses çox çətin və özünəməxsus cəhətləri olan bir hadisədir. Bu proses həm də çox dinamikdir. Onun əsas məqsədi hərbiçilərin, hərbi bölmələrin və hərbi hissələrin hazırlığını

həyata keçirmək, Vətənin müdafiəsini təmin etmək üçün müasir müharibədə hərbi əməliyyatların uğurla aparılmasını təmin etməkdir.

Hərbiçilərin əmək və məişətinin özünəməxsusluğu hərbi psixo-pedaqoji prosesin mahiyyətinə, metodik cəhətdən düzgün təşkil edilib həyata keçirilməsinə təsir edir və eyni zamanda, hərbi psixo-pedaqoji prosesin xarakterini də müəyyənləşdirir.

Hərbi qanunlara görə hər bir hərbiçi etdiyi hərəkətlərə görə məsuliyyət daşıyır. Hərbiçinin borcudur ki, o öz ixtisasına uyğun bilik, bacarıq və vərdişlərə yiyələnsin, xidməti vəzifəsini vicdanla yerinə yetirsin.

Hərbi psixo-pedaqoji prosesin daha bir özünəməxsusluğu ondadır ki, bu prosesdə hərbi biliklər sistemli şəkildə, bacarıq və vərdişlər xidməti fəaliyyətin tərkib hissəsi kimi özünü göstərir.

Beləliklə, hərbi psixo-pedaqoji proses hərbiçilərin xidməti fəaliyyətinin tərkib hissəsinə çevrilir. Təlim prosesində hərbiçilərin aldıqları bilik , bacarıq və vərdişlər tezliklə hərbi növbətçiliyə və bir sıra vacib hərbi tapşırıqların da yerinə yetirilməsinə tətbiq edilir. Bütün bunlar hərbiçilərin hər an döyüşə hazır olmalarına şərait yaradır.

Hərbi psixo-pedaqoji proseslə xidməti fəaliyyət arasında möhkəm əlaqənin yaradılması şəxsi heyətin döyüş qabiliyyətini yüksəltməyə və döyüşü müvəffəqiyyətlə həyata keçirməyə kömək edir. Beləliklə, hərbi psixo-pedaqoji proses ordunun hərbi hazırlığının təmin edilməsinin mühüm və vacib amili kimi çıxış edir.

Daimi hərbi hazırlığı təmin etmək üçün hərbiçilərə onların ixtisaslarına uyğun bilik, bacarıq və vərdişlər verilməlidir. Buna görə də ali hərbi məktəblərdə təlim-tərbiyə işləri elə təşkil edilir ki, təhsil müddətdə ixtisaslı hərbiçilər hazırlamaq mümkün olsun. Təhsildən sonrakı müddətdə də onların bilik, bacarıq və vərdişlərinin daha da təkmilləşdirilməsi diqqət məzkəzində saxlanılır.

Təlim prosesi ilə xidməti fəaliyyətin vəhdəti mürəkkəb hərbi – texnika silahlara daha mükəmməl yiyələnməyə kömək edir. Burada hərbi təlim proqramlarının hazırlanması da diqqət mərkəzində dayanır.

Hərbi psixo-pedaqoji proses gərgin prosesdir. Gərginlik özünü həm də hərbi texnikaya və silahlara xidmətdə, onların tətbiqi üçün vacib olan bilik, bacarıq və vərdişlərə yiyələnməkdir, bunlara sərf edilən əməyin gərginliyində özünü büruzə verir.

Hərbi xidmətin bir sıra başqa sahələri də vardır ki, bunlar daha çox fasiləsizlik tələb edən işlərdir. Bunlara cihazlar, mexanizmlər üzərində növbətçilik və s. daxildir. Hərbiçilər üçün çətin yol şəraitində, eyni bir vəziyyətdə oturmaq onları yorur və əsəbləşdirir. Tədris məşğələlərində iştirak texnikaya və silahlara xidmət bəzən hərbiçiləri həddən artıq çox yorur ki, bu da məhsuldarlığa mənfi təsir göstərir. Bu hal özünü daha çox gənc hərbiçilərin simasında büruzə verir. Buna görə də belə proseslərə davamlılığının edilməsinin məqsədilə xeyli iş görülməlidir.

Təlim-tərbiyə prosesində müxtəlif sahələr üzrə ixtisaslı mütəxəssislər həm fərqli həm də qrup şəklimdə hazırlanır. Unutmaq olmaz ki, indiki hərbi texnika və silahlar tək-tək adamlar tərəfindən deyil, həm də kollektiv tərəfindən idarə olunur. Bu cür müasir hərbi texnika və silahların idarəsi üçün mükəmməl biliklər tələb olunur. Onu da nəzərə almaq lazımdır ki, bu gün çox sayda hərbi ixtisas vardır.

Təlimin qarşısına qoyulan tələblərdən biri də hərbi mütəxəssislərin nəzəri və praktiki hazırlığının hərtərəfli təmin olunmasıdır. Onlar hərbi- texnika və silahlardan səmərəli və savadlı şəkildə istifadəni bacarmalı, bu işə psixoloji cəhətdən hazır olmalı və fəallıqları təmin olunmalıdır.

Hərbi psixo-pedaqoji prosesin rəhbəri çalışır ki, bölmənin döyüş ruhu möhkəmlənsin, kollektivdə dostluq və əməkdaşlıq münasibətləri daha davamlı olsun, hərbi kollektivin sarsılmazlığı təmin olunsun. Buna görə də hərbi kollektivdə əvəzedilməyə xüsusi fikir verilməli, təlimdə fəaliyyət göstərmələri üçün onları psixoloji cəhətdən hazırlamaq lazımdır.

Psixoloji hazırlıq prosesi bütövlükdə hərbi pedaqoji prosesə müsbət təsir göstərə bilir, onun inkişafına səbəb olur, təlim-tərbiyədə müsbət nəticələrə gətirib çıxarır.

Fərdi təlimdə proqramlaşdırılmış təlimdən, şəxsi heyətin təlimində isə fərdi təlim proqramlarından istifadə olunur ki, bunlar da yerinə görə çox sərfəlidir.

Hərbi psixo-pedaqoji proses adi pedaqoji prosesdən genişliyinə, çoxcəhədliyinə və mürəkkəbliyinə görə fərqlənir. Hərbi psixo-pedaqoji prosesdə təlim-tərbiyə müasir müharibələrin uğurla qurtarması məqsədinə tabe olmalıdır.

Hərbi sahədə baş verən elmi-texniki tərəqqinin hərbi psixo-pedaqoji prosesə təsiri. Silahlı Qüvvələrdə tətbiq edilən texniki yeniliklər, müxtəlif təkmilləşmələr hərbi psixo-pedaqoji prosesdə də dinamik inkişafa səbəb olur.

Son vaxtlar Azərbaycan ordusunda özünü göstərən hərbi- texniki tərəqqi ordu quruculuğunda irəlləyişlərə səbəb olmuşdur. Texnikanın və silahların komplektləşdirilməsi, ordunun strukturu quruluşuna və onun idarə olunmasına müsbət təsir göstərmişdir. Şübhəsiz ki, bütün bunlar təlim – tərbiyənin prinsip, metod və üsullarında mühüm dəyişmələrə gətirib çıxarmışdır.

Müasir şəraitdə hərbi silah , cihaz və uçuş aparatların fiziki əsaslarını mükəm mənimsəməsək onların texniki imkanlarından maksimum şəkildə bəhrələnməyə, uzunmüddətli istifadəsinə imkanlar veriləcək.Silahlara yüksək səviyyədə texniki xidmət onların istismar müddətini uzadır.

Təcrübələr sübut edir ki, hərbi texnikadan istifadə zamanı rast gəlinən texniki çatışmazlıqlar, hərbi texnikanın və silahların quruluşunu zəif bilməkdən irəli gəlmir. Bu, daha çox hərbi texnikada baş verən proseslərin fiziki mahiyyətinə kifayət qədər yiyələnməməyin, bu və ya digər fəaliyyətin nəticələri haqqında təsəvvürün düzgün formalaşmamsının nəticəsidir.

Bütün bunlara görə təlimin təşkilində və həyata keçirilməsində texniki hazırlığa, ixtisaslı hərbiçilərin nəzəri hazırlığına geniş yer verilməlidir. Buna görədə

də ixtisaslı hərbiçilərin yenidən hazırlanması və onların nəzəri hazırlığının daha da təkmilləşdirilməsi həyata keçirilməlidir. Bu məqsədlə hərbi hissələrdə texniki bilik universitetlərinin, texniki lektoriyaların və s.-nin işinin daha da təkmilləşdirmək, texniki təbliğatı yeni əsaslar üzərində qurmaq lazımdır.

Şəxsi heyətin nəzəri hazırlığını artırmaq onların ixtisaslarına uyğun biliklərini daha da genişləndirməyi, müasir silahlara və hərbi texnikaya aid bilik və bacarıqların verilməsimetodikasının köklü surətdə təkmilləşdirilməsini tələb edir. Bunlar həm hərbi ustalıqla, həm də hərbiçilərin texniki təfəkkürü ilə bağlı məsələlərdir. Bu günün tələbləri, həm də ondan ibarətdir ki, ayrı-ayrı hərbi əməliyyatların yerinə yetirilməsinə, silahların və texnikanın idarə edilməsinə ayrılmış vaxt xeyli qısaldılmışdır ki, bunlar da müasir döyüşlərin xarakterindən irəli gəlir. Hazırda hərbi texnikanı və silahları idarə edərkən hərbiçilərdən tələb edilir ki, onlar bir neçə taktiki və əməli fəaliyyəti eyni zamanda başa düşüb qeydə ala bilsinlər, siqnallar qəbul edilərkən onlara dərhal lazımi cavablar verilsin və s.

Hərbi ustalığın səmərəliliyinə təsir göstərən amillərdən biri də hərbiçilərin psixoloji hazırlığı ilə bağlıdır. Əbəttə, burada diqqətin, hafizənin, kənar şəxslərə reaksiyaların və s. nəzərə alınması, eyni zamanda, diqqətin paylanması, hafizənin sürəti kimi şərtlərə əməl edilməsi vacibdir.

Hər bir insanın psixoloji və fizioloji imkanlarının sərhədi vardır. Əgər bu imkanları daha da genişləndirmək lazımdırsa, onda hərbiçi özünə güvənməli, hissi və hərəkət reaksiyalarından istifadə etməyi bacarmalıdır. Bütün bunlara müxtəlif psixoloji vərdişlərin mükəmməlləşdirilməsi ilə nail olmaq mümkündür. Eyni zamanda, hisslərin inkişafına, reaksiyaların sürətinə, orqanizmin fiziki tarazlığına, yorğunluğun aradan aradan qaldırılmasına diqqət yetirməlidir.

Təlim prosesində təkcə qısa zaman kəsiyində texniki biliklərə yiyələnmək olmaz. Həm də xüsusi psixoloji məşqlərin köməyi ilə hissi orqanların inkişafına nail olmaq mümkün və lazımdır.

Hazırda hərbi – texniki ixtisasların çeşidliliyi özlüyündə texniki ixtisaslar üzrə yüksək səviyyəli mütəxəssislərin ixtisaslarının daha da təkmilləşdirilməsini zərurətə çevirir. Bu çox çətin və məsuliyyətli işdir. Yeni hərbi texnika ilə təchizat tez baş verir, ancaq həmin texnikaya yiyələnmək işi müəyyən vaxt tələb edir. Buna görə də hərbiçilərin yenidən hazırlanması xüsusi metodikanın işlənməsini, nəzəri təlim proqramlarının yeniləşdirilməsini ortaya çıxarır.

Yeni texnika ilə təchizat və modernləşdirmə ali hərbi məktəblərdə texniki kadrların hazırlanması sistemini yeniləşdirməni zəruri edir. Bir çox hallarda bu işi sürətlə həyata keçirmək o qədərdə asan olmur. Bununla belə, mürəkkəb hərbi texnikanın və silahların təcili öyrənilməsi kursantlar üçün psixoloji çətinliklər yaradır, onların idrak imkanlarını üstələyir ki, bu da yeni texnikanı səmərəli şəkildə mənimsəməyə mane olur. Buna görə də, texniki təlim prosesi təkcə texniki silah nümunələrinin öyrənilməsi və mənimsənilməsi üzərində qurulmamalıdır. Burada

texniki təfəkkürə əsaslanmaqla səmərəli ola biləcək lahiyələrin oyrənilməsinə də üstünlük verilməlidir.

Müasir hərbi elmi-texniki yüksəliş daha mürəkkəb və heç də asan idarə olunmayan hərbi texnikanın yaradılmasına gətirib çıxarmışdır. Bu mürəkkəblik silahların tətbiqində onlara xidmətdə kollektivçiliyi ön plana çəkir. Bu da özlüyündə həm ayrı-ayrı hərbiçilərin, həm də hərbi kollektivlərinin məsuliyyətini daha da artırır. Raket vasitəsi ilə müasir qırıcı təyyarənin məhv edilməsi təkcə bir neçə hərbiçinin işi ola bilməz. Bu vəzifə kollektivin gücü və birliyi ilə yerinə yetirilir ki, bu da özlüyündə hərbiçilərin kollektiv şəkildə hazırlığını zərurətə çevirir. Bunlar öz əksini gündəlik hərbi hazırlıq təlimlərində, hərbi növbətçilikdə, çöl təlimində və s.-də tapır. Şübhəsiz ki, belə fəaliyyət prosesində əsas yük hərbiçilərin kollektiv fəaliyyətinin nəticəsi və qiymətləndirilməsi, döyüş zamanı onlar arasındakı hərbi birliyin gözlənilməsi, bir-birinə yaxın ixtisasların mənimsənilməsinin səviyyəsi, təcrübə mübadiləsinin aprılması və s.-nin üzərinə düşür.

Kollektivin təlim əməyi tələb edir ki, komandir və müəllim hərbi kollektivin psixoloji durumunu yaxşı bilsin, onların xarakterik xüsusiyyətləri hökmən nəzərə alınsın. Bu işə metodiki cəhətdən yanaşılaraq, həmin məqsədlə kollektivin qarşısında müəyyən təlim tapşırıqlarının qoyulması, nəticə, təklif, tənqid və özünürənqidin nəzərə alınması, daha vacib sualların diskussiyası, (müzakirəsi) hərbi texnika və silahların idarə olunması və hərbi qruplar üzərində kollektiv nəzarətin həyata keçirilməsi təmin olunmalıdır.

Hər bir kollektiv üzvünün fərdi qabiliyyətlərini təlim proseslərində düzgün qiymətləndirən komandir, qısa zamanda hərbi hazırlıq proqramının mənimsənilməsini təmin edə bilər, onlarda texniki və taktiki təfəkkürü inkişaf etdirməyi bacarar. Şübhəsiz ki, bu işdə texnikanın və silahların etibatlılığına, həmçinin, bizim silahlarımızın və hərbi texnikamızın düşmənin hərbi texnika və silahlarından üstünlüyünə olan inam da mühüm rol oynayır.

Bir sıra hallarda isə kollektiv uzvləri arasında psixoloji uyuşmazlıq baş verir. Bu hal özünü hərbi texnikanın idarə edilməsi zamanı büruzə verə bilər. Bunlara isə adamların xarakterində, temperamentində, hissi-iradi sahədə, təhsildə və s.-də olan fərqlər səbəb ola bilər. Bunları aradan qaldırmaq üçün hər bir kollektiv üzvü öz vəzifəsini bilməli, hərbiçilər arasında qarşılıqlı inam olmalı, kollektiv ənənələrə hörmətlə yanaşılmalıdır.

Müasir müharibələrdə tətbiq olunan dağıdıcı və məhvedici silahlar, nüvə başlıqları və s. hərbiçiləri düşünməyə məcbur edir, onlara mənəvi-psixi və fiziki təsir göstərir. Bütün bunlar hərbiçilərdə daha möhkəm, davamlı hərbi-mənəvi və psixoloji keyfiyyətlərin formalaşdırılmasını tələb edir. Hərbi kollektivdə hərbi-mənəvi və psixoloji keyfiyyətlərin formalaşdırılması onları müasir döyüşlərə hazırlayır. Mənəvi-hərbi və psixoloji hazırlıq hərbiçiləri vahid bir məqsədə səfərbər edir.

Hərbiçilərin təlim -tərbiyəsi təlim prosesi ilə sıx bağlıdır. Məqsəd psixoloji sabitliyin qorunması, müasir döyüşlər zamanı çətin və gərgin şəraitlərə dözməklə hərbi tapşırıqlar müvəffəqiyyətlə yerinə yetirmək, qələbəyə inamı itirməmək və mənəvi davranış psinsiplərinə möhkəm əməl etməkdir. Bu mühüm psixoloji keyfiyyətlərə kişilik, cəsurluq, daxilən özünü şəhidliyə hazır hiss etdirmək, döyüşdə fəallıq, fədakarlıq və cəsarət kimi çox vacib keyfiyyətlər daxildir.

Hazırda təlim -tərbiyədə hərbiçilərdə hərbi-mənəvi və psixoloji keyfiyyətlərin formalaşdırılması məqsədilə müxtəlif tədbirlər həyata keçirilir. Hərbi Dəniz Qüvvələri, Hərbi Hava Qüvvələri, Quru Qoşunları üçün ixtisaslı mütəxəssislərin hazırlanması məqsədi ilə xüsusi tədris proqramları tərtib olunmuşdur. Bu proqramlar mahiyyətinə və metodikasına görə əvvəlkilərdən çox fərqlənir. Həm də bu proqramlar o qədər intensiv və konkretdir ki, onlardan müstəqil şəkildə də istifadə edilə bilər.

Hərbi psixo-pedaqoji prosesin ümumi xarakterinin, hərbi-hazırlığın mahiyyətinin dərindən öyrənilməsi, onunla bağlı işlərin praktik şəkildə dəqiq uçotunun aparılması imkan verir ki, hər bir komandir pedaqoji fəaliyyətində müxtəlif təlim metodlarından səmərəli istifadə etsin, hərbiçilərin təlim-tərbiyəsinə məqsədyönlü formada təsir göstərə bilsin.

Hərbi psixo-pedaqoji prosesin effektivliyinin təmin olunmasına təsir edən əsas amillər.Hərbi psixo-pedaqoji prosesin effektivliyi, hər şeydən əvvəl, ümumi və peşəkar hazırlığın səviyyəsindən, habelə komandirin pedaqoji ustalığından aşlıdır. Çünki komandir bilavasitə bu prosesin təşkilatçısı və rəhbəridir.

Ölkəmizdə zabit kadrlarının hazırlığı çox yüksək səviyyədə həyata keçirilir. Onların təlim-tərbiyəsi üçün mühüm işlər görülür, pedaqoji ustalıqları daim artırılır, yenidən hazırlanmaları da diqqətdən kənarda qalmır. O cümlədən, gənc zabitlərin hazırlanmasına xüsusi diqqət yetirilir. Onların əsil komandir və tərbiyəçi kimi yetişməsinə böyük səy göstərilir.

Hərbi psixo-pedaqoji prosesin effektivliyini şərtləndirən amillərdən biri də orduya çağırışla bağlıdır. Orta məktəb təhsilli, hərtərəfli fiziki hazırlığa malik gənclər orduda lazımi bilik, bacarıq və vərdişlərə yiyələnir, üzərlərinə düşən vəzifələri şərəflə yerinə yetirirlər. Çağırışçıların içərisində lazımi peşələrə yiyələnmiş gənclər, tanınmış idmançılar və b. Vardır ki, onlar Vətən qarşısındakı məsuliyyətlərini çox gözəl başa düşürlər.

Bu gün gənclərimizin hərtərəfli tərbiyəsi üçün orduda geniş işlər görülür. Onların fəallığının artırılması, fiziki imkanlarının genişləndirilməsi həmişə diqqət mərkəzindədir.

Hərbi psixo-pedaqoji prosesdə həm fərdi, həm də frontal təlim metodlarından istifadə olunur.

Fərdi təlimdə hərbiçinin fərdi xüsusiyyətləri və bir sıra başqa cəhətləri nəzərə alınır. Burada təlim prosesində zabitin rəhbərliyi altında hərbiçilərin hər birinin tədris materialı üzərində müstəqil çalışması xüsusi diqqət mərkəzində saxlanılır.

Təlim prosesinin səmərəliliyini təmin edən amillərdən biri də proqramlaşdırılmış təlimdir. Bu, təlimin nəzəriyyə və praktikasının qanuni nəticəsi kimi ortaya çıxmış, pedaqogika, psixologiya, digər tərəfdən isə kibernetikanın nailiyyətlərinin yekunu kimi özünü göstərmişdir. Proqramlaşdırılmış təlimin özünəməxsus metodları və təşkilati quruluşu vardır. Şübhəsiz ki, təlim prosesini texniki vasitələrsiz düşünmək olmaz. Kino, televiziya, səsyazıları, və nəhayət internet. Texniki vasitələr təlimi asanlaşdırır, onu daha da effektli edir, bilikləri asan yolla qavramağa imkan yaradır. O, həm də təlimə marağı artırır, lazımi psixoloji iqlimin yaradılmasına, saxlanılmasına və yorğunluğun aradan qaldırılmasına kömək edir.

Təlimin effektliyinə təsir göstərən amillərdən biri də idarəolunan təlimdir. Belə təlim, tədris prosesinə müasir təlim aparatlarının tətbiqini, hərbi mühəndislik psixologiyasının köməyilə daha çətin hərbi peşələrə düzgün seçimin mümkünlüyünü nəzərdə tutur. Hərbi hazırlıq normativlərinin təlim prosesində nəzərə alınması da çox vacibdir. Bu normativlərə uyğun əməliyyatların yerinə yetirilməsi, hərbi texnikaya xidmət və s. daxildir. Hərbi normativlər hərbiçilərdə məsuliyyət hissini artırır, onları yaradıcılığa ruhlandırır və s. Burada hər bir kəs öz əməyinin nəticəsini əyani şəkildə görə bilər. Hərbi psixo-pedaqoji prosesə təsir göstərən amillərdən biri də sinifdənkənar vaxtda hərbi ustalığın və texniki biliklərin aşılanması məqsədilə həyata keçirilən tədbirlərdir. Hərbi silah və texnikanın dərindən öyrənilməsi hərbiçiləri digər hərbi texnikanı da öyrənməyə sövq edir. Texniki dərnəklərdə dünyada baş verən ən son hərbi texniki yeniliklər haqqında məlumatların verilməsi çox vacibdir. Son zamanlar orduda qabaqcıl təcrübə məktəbinin təşkili diqqəti xüsusi cəlb edir. Onlar hərbi hissələrdə təşkil olunur, bölmələrdə filialları yaradılır. Belə məktəblərə şura rəhbərlik edir. Onun işində mütəxəssislər- təcrübəli metodistlər, komandirlər, mühəndislər, texniklər, xidmət rəisləri iştirak edir. Sovet məşğələrin mövzularını müəyyənləşdirir, aparılmasının metodikasını hazırlayır, qabaqcıl təcrübəni ümumiləşdirir və yayır. Qabaqcıl təcrübə məktəbinin tərkibində ümumqoşun, hərbi – texniki, hərbi psixologiya və pedaqogika bölmələri də fəaliyyət göstərə bilər. Hərbi psixo-pedaqoji prosesin effektliyini dəqiq planlaşdırmadam və uçotdan kənarda düşünmək olmaz. Plan və uçot təlim-tərbiyənin, xüsusilə hərbi fəaliyyətin çıxış nöqtəsidir. Planlaşma və uçot vaxtdan dəqiq, düzgün, səmərəli istifadəyə, qüvvələri və vasitələri düzgün yerləşdirməyə, şəxsi heyətin işlərini tənzimləməyə, ümumiyyətlə, müəllimlərin fəaliyyətini istiqamətləndirməyə kömək edir. Düzgün planlaşdırma hərbi-pedaqoji prosesi əvvəlcədən görməyə, bu gün, sabah və o biri gün nə etmək lazım olduğunu dürüstləşdirməyə, bütün qüvvələri əsas hədəfə istiqamətləndirməyə şərait yaradır.

Hərbi psixo-pedaqoji prosesin effektliyində komandir və müəllimlərin pedaqoji ustalığının, şəxsi heyətin təlim-tərbiyəsinə elmi yanaşmanın, yaradıcılıq təşəbbüslərinin böyük təsiri vardır. Öz işinə, peşəsinə sədaqət, ona tənqidi yanaşmaq, daim öz üzərində çalışmaq hərbi-psixopedaqoji proses üçün çox vacib şərtlərdəndir.

NƏTİCƏ

Hərbi psixo-pedaqoji prosesin öyrənilməsi bu mürəkkəb prosesin mahiyyətini, hərbi sahədə baş verən elmi-texniki tərəqqinin hərbi psixo-pedaqoji prosesə təsirini və hərbi –psixo-pedaqoji prosesin effektliyinin təmin olunmasına təsir edən əsas amilləri aydınlaşdırmağa kömək edər.

ƏDƏBİYYAT

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Ümümqoşun Nizamnamələri. Bakı: Hərbi nəşriyyat, 2007, 490 s

Pedaqogika/Talıbov Y.R. və b. Bakı:Maarif,1993. 292 s.

ГАСАНОВА ГЮЛЗАР

РЕЗЮМЕ

Также очень важно в процессе обучения учитывать стандарты военной подготовки. Включает в себя выполнение работ в соответствии с этими стандартами, обслуживание военной техники и т.п. Воинские уставы повышают у военнослужащих чувство ответственности, вдохновляют их на творчество и т. д. Здесь каждый может наглядно увидеть результаты своего труда. Одним из факторов, влияющих на военный психолого-педагогический процесс, является проводимая во внеучебное время деятельность по привитию военно-технических навыков и знаний. Углубленное изучение боевого оружия и техники побуждает военнослужащих изучать и другую военную технику. Очень важно предоставлять в технических кругах информацию о новейших военно-технических инновациях, происходящих в мире.

В последнее время особое внимание привлекла организация школы передовой практики в армии. Они организованы в воинские части, а в частях созданы отделения. Такие школы управляются советом.

В ее работе задействованы специалисты — опытные методисты, командиры, инженеры, техники, начальники служб. Совет определяет тематику учений, разрабатывает методику их проведения, обобщает и распространяет передовой опыт. В состав школы повышения квалификации могут также входить общевойсковой, военно-технический, военно-психологический и педагогический факультеты.

Ключевые слова: психология, психолого-педагогические процессы, операции

Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu, *ISSN 2224-9257*
Filologiya məsələləri № 3, 2025
Səh. ——————

HASANOVA GULZAR

MILITARY PSYCHO-PEDOGOGICAL PROCESS AND ITS IDENTITY

SUMMARY

It is also very important to take into account the standards of military training in the training process. These standards include the implementation of operations in accordance with them, maintenance of military equipment, etc. Military standards increase the sense of responsibility in servicemen, inspire them to creativity, etc. Here everyone can clearly see the results of their labor.

One of the factors influencing the military psycho-pedagogical process is the measures taken outside the classroom to instill military skills and technical knowledge. In-depth study of military weapons and equipment encourages servicemen to study other military equipment. It is very important to provide information about the latest military technical innovations taking place in the world in technical circles.

Recently, the organization of advanced practice schools in the army has attracted special attention. They are organized in military units, and branches are created in units. Such schools are headed by a council. Specialists - experienced methodologists, commanders, engineers, technicians, service chiefs - participate in its work. The council determines the topics of exercises, develops a methodology for their conduct, summarizes and disseminates advanced practice. The advanced practice school may also include general-arms, military-technical, military psychology, and pedagogy departments.

Keywords: psychology, psycho-pedagogical processes, operations

Rəyçi: filologiya üzrə fəlsəfə doktoru, dosent Novruz Bəkirov

Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu, *ISSN 2224-9257*
Filologiya məsələləri № 3, 2025
Səh. ——————

ALLAHVERDI ŞÖLƏ QARA QIZI
Azərbaycan Dillər Universiteti
info@adu.edu.az
shole_mah@yahoo.com

TOM STOPPARDIN "AYRI HÜZUR" PYESİ ABSURD TEATR KONTEKSTİNDƏ

Xülasə

Müasir Qərb dramaturgiyasının görkəmli simalarından olan Tom Stoppardın yaradıcılığında absurd teatr prinsiplərinə müraciət etməsi pyeslərinə daha dərin məna yükləməsinə səbəb olmuşdur. "Rozenkrans və Qildenstern ölmüşlər" əsəri ilə tanınmağa başlasa da, digər əsərləri də tənqidçilər tərəfindən yüksək qiymətləndirilmiş, oxucu və tamaşaçı kütləsinin marağına səbəb olmuşdur.

Yaşadığı cəmiyyətin fərdin həyatını daim sorğuladığını, idarə etməyə çalışdığını dramaturq müxtəlif pyeslərində vurğulamışdır. Onlar arasında dramaturqun ilk pyeslərindən olan "Ayrı hüzur" da diqqəti cəlb edir. Belə ki, müəllif baş qəhrəman Con Braunun timsalında real görünən dünyadan qaçaraq yalnız qalmağı seçən fərdi canlandırır. Absurd teatrın əsas prinsiplərindən olan tənha qalma istəyi pyesin əsasını təşkil edir. Con Braun yaşadığı dünya ilə arasındakı uyğunsuzluğu açıq-aşkar hiss edir. Kiçik həcmli olmasına baxmayaraq, əsər çox dərin mövzulara müraciət etmişdir. Bu səbəbdən bəhsi keçən pyes tədqiqata cəlb olunmuşdur.

Açar sözlər: Tom Stoppard, absurd teatr, "Ayrı hüzur", tənhalıq, reallıq

1966-cı ildə qələmə aldığı, özünəməxsus paradoksu olan "Rozenkrans və Qildenstern ölmüşlər" *(Rosencrantz and Guildenstern Are Dead)* əsərinin səhnəyə qoyulması ilə Tom Stoppard XX əsrin görkəmli dramaturqları sırasına adını yazdıra bilmişdi. 1974-cü ildə "Travesti" *(Travesties)* əsərini tamamladıqdan sonra isə tədqiqatçılar onu Bernard Şou və Oskar Uayldla müqayisə etməyə başladılar.

Absurd teatrın yaradıcılarından sayılan Samuel Bekket ilə də Tom Stoppardın yaradıcılığında paralellər görmək mümkündür. Minimalizm, lakonik ifadələr və dialoqun gizli komediyası onları bir-birinə yaxınlaşdırır. Həmçinin hər iki dramaturqun pyeslərinin qəhrəmanları *"ilk növbədə boşluğu doldurmaq, çaşqınlıqlarını əhəmiyyətsiz sözlər axınının arxasında gizlətmək üçün danışırlar"* [8, s. 135].

Qeyd etmək lazımdır ki, Tom Stoppard əsərlərində dildən ustalıqla istifadə edir. Tənqidçilər onun söz oyunlarını, hazırcavab dialoqları və mürəkkəb mövzuları incə şəkildə bir-biri ilə əlaqələndirmə bacarığını xüsusi vurğulayırlar. O, ekzistensial mövzulara yumor və ironiya ilə müraciət edir. Britaniyalı tənqidçi Benedikt Naytingeyl *(Benedict Nightingale)* Stoppardın dram sahəsindəki istedadını

intellektual dərinliklə birləşdirə bilməsini yüksək qiymətləndirir. O, intellektual cəhətdən dramaturqun pyeslərinin çətin olmasına baxmayaraq, cəlbedici və əlçatan olduğunu, tamaşaçıları, oxucuları düşündürməklə yanaşı, həm də onları əyləndirdiyini qeyd edir. Bu baxımdan, Emi Reyterin *(Amy Reiter)* fikirləri də diqqəti cəlb edir: *"Tom Stoppardın yaradıcılığı oxuculardan çox şey tələb edir. Onlar gülmək və ən ağır fikirlər üzərində düşünmək üçün hazır olmalıdırlar. Onda özlərini nəinki maariflənmiş, həm də bütün açarları işə salınmış və canlanmış görəcəklər"*[4].

Tom Stoppard oxucunu reallığı yalnız diskurs vasitəsilə görə biləcəyindən xəbərdar edir. Əsərlərində keçmişə nəzər salan müəllif heç də keçmişdəki boşluqları doldurmaq niyyətində deyil. O, bu tapşırığı oxucuların öhdəsinə buraxır. Stoppard pyeslərində ənənəvi tarixdə mövcud həqiqəti təsdiqləməkdənsə, oxucunu mətnin yaradılmasına cəlb edir.

Tom Stoppardı tənqid edənlər onun pyeslərinin hiss və duyğulardan məhrum olduğunu, dayaz düşüncəli insanların gözlənilmədən dərin məna çalarına malik fikirlər səsləndirdiklərini qeyd edirlər. Amma tərəfdarlarına görə onun teatr tapmacalarına olan ehtirası B.Şounun mənəvi sualları ilə E.İoneskonun uyğunsuzluğunu çulğalaşdıran yeni dramatik üslub yaratmışdır.

Tom Stoppardın yaradıcılığında absurd teatr ənənələrinə müraciət etdiyini söyləmək olar. İlk dəfə dramaturq, tənqidçi Martin Eslinin *(Martin Esslin)* "Absurd teatr" *(The Theatre of the Absurd, 1960)* adlı kitabında işlədilən bu termin fərdin mövcud vəziyyətinin mənasızlığını izah edir. Absurd teatrda həyat insana əhəmiyyətsiz, reallıq dözülməz gəlir. İnsanın gələcək ilə bağlı heç bir ümidi yoxdur, ona elə gəlir ki, ətrafında mənalı heç nə baş vermir. Buna görə də insan real dünyadan yadlaşmağa başlayır.

Tom Stoppardın absurd teatr ənənələrinə bağlı yazılmış ilk kiçik həcmli pyesi "Ayrı hüzur" *(A Separate Peace, 1966)* onun yaradıcılığında xüsusi yer tutur. Sadə bir pyes təsiri bağışlasa da, Tom Stoppard yaradıcılığının əsas mövzularını demək olar ki, əsərdə işləyib. Əsərin protaqonisti ona fikirləri zidd olan cəmiyyətdə mövcud olmaq məcburiyyətindədir. Onun həyat haqqında öz düşüncələri var və hər kəsə qarşı çıxaraq öz fəlsəfəsi ilə yaşamaq niyyətindədir.

Gecəyarı özəl xəstəxanalardan birinə üz tutan Con Braun *(John Brown)* oradakı mühitdən çox razı görünür. Xəstəxanaya gəlmə səbəbini isə qalacaq bir yerə ehtiyacı olması ilə açıqlayır. Səhhətində problem olmamasına rəğmən orada yerləşməyə israr edir, buna görə də onun psixi problemlərinin olduğunu, yaxud kimdənsə gizlənməyə çalışdığını düşünürlər. Con Braunu əhatə edən sirr diqqəti dərhal cəlb edərək pyesdə tələş hissi yaradır. Tənqidçilərə görə Tom Stoppard sadə süjeti daha dərin fəlsəfi suallarla birləşdirir. Tom Stoppard burada mürəkkəb məsələləri zahirən sadə bir şəraitdə həll etmək istəyini ortaya qoyur. Əsəri "sirr kimi geyinmiş insan vəziyyəti haqqında düşüncə" kimi xarakterizə etmək olar.

Braun xəstəxanada özünü təcrid etməsinin səbəbini belə izah edir: *"A hospital is a very dependable place. Anything could be going on outside. Since I've been in here – there could be a war on, and for once it's got nothing to do with me. I don't even know about it. Fire, flood and misery of all kinds, across the world or over the hill, it can all go on, but this isa a private ward; I'm paying for it" [5, s. 178]. – "Xəstəxana etibarlı yerdir. Çöldə hər şey ola bilər. Müharibə olsa belə, mənə dəxli yoxdur. Heç bu haqda bilmək də istəmirəm. Dünyanın hər yerində yanğın, daşqın və ya başqa fəlakətlərin olmasının fərqi yoxdur, bunların hamısı baş verə bilər, amma bura xüsusi palatadır; Bunun üçün pul ödəyirəm".* Braun dünya müharibələrindən sonra yaranan xaotik mühitə toxunaraq xarici aləmi bir çox fəlakətlərin səbəbi, fərdin həyatına müdaxilə edən və onu yönləndirməyə çalışan mexanizm kimi dəyərləndirir. Ətrafdakı hadisələr fərdin psixoloji vəziyyətinə ciddi ziyan vuraraq onun yadlaşmasına gətirib çıxarır. Məhz buna görə də xarici təsirlərdən başını itirən Braun evində tapa bilmədiyi rahatlığı xəstəxanada hiss edir.

Absurd teatrın mühüm xüsusiyyətlərindən biri obrazların şəxsiyyətlərinin qeyri-müəyyən və ya dəyişkən olmasıdır. Heç kim Con Braunun nəyə görə xəstəxanada olduğunu və kim olduğunu dəqiq bilmir. Şəxsiyyətin bu qeyri-müəyyənliyi ekzistensial boşluq yaradır. Eyni zamanda xəstəxananın yerinə yetirdiyi funksiya birmənalı deyil. Həm də baxım evi kimi fəaliyyət göstərən xəstəxana varlığın qeyri-müəyyənliyini təmsil edən, Braunun müstəqillik axtarışı üçün ironik bir mühitə çevrilir. Absurd teatrda zaman anlayışı da çox vaxt mənasızlaşdırılır. Əsərdə bu xüsusiyyətə diqqət yetirsək, zaman axınının qeyri-müəyyən olduğunu, personajların nə qədər müddət keçdiyini, yaxud zamanın həqiqətən keçib-keçmədiyini anlamaqda çətinlik çəkdiyini görmək mümkündür.

Braun yalnız varlıların yataqda səhər yeməyi yediklərini, kasıbların isə bu imkana yalnız xəstə ikən sahib olduqlarını vurğulayır. Həmçinin naharı yataqda yeməyin cəmiyyət tərəfindən qəbul olunmadığı üçün varlıları da bu imkandan məhrum etdiyini qeyd edir. Xəstəxanada isə belə bir qayda yoxdur, rahatlıqla istənilən vaxt yataqda yemək mümkündür. Buradan belə bir nəticə çıxarmaq olar ki, Braun cəmiyyətin bu cür fikirlərinə qarşı çıxır, cəmiyyət tərəfindən qəbul olunmayan fikirlərin xəstəxana şəraitində çox asanlıqla yerinə yetirildiyini və buna görə də qalacaq yer kimi xəstəxananı seçdiyini ifadə etməyə çalışır: *"I won't to do nothing, and have nothing expected of me. That isn't possible out there. It worries them. They want to know what you're at – staying in your room all the time – they want to know what you're doing. But in a hospital it is understood that you're not doing anything, because everybody's in the same boat – it's the normal thing" [5, s. 172-173]. – "Mən heç nə etmək istəmirəm və heç kim məndən heç nə gözləmir. Bu, başqa yerdə mümkün deyil. Bu, onları narahat edir. Onlar otağında qalıb nə işlə məşğul olduğunu bilmək istəyirlər. Amma xəstəxanada belə başa düşülür ki, heç nə etmirsiniz, çünki hər kəs eyni vəziyyətdədir – bu, adi haldır."* Braun üçün "onlar" insanın həyatının hər bir anından xəbərdar olmaq istəyən və insanın həyatını idarə

etməyə çalışan təhlükəli ünsürdür. Buna görə də o, "xəstə" insan obrazına girərək xəstəxanada sığınacaq tapır.

Evdə istirahət edirmiş kimi xəstəxanada Brauna şərait yaradılmışdır. Ona rahat şərait yaratdığı üçün məmnun qalan tibb bacısına Braunun cavabı maraq doğurur. O, heç vaxt evində bu cür rahat yaşamadığını dilə gətirir. Əslində, protaqonist, özünü təcrid etmək istədiyini, dünyaya yadlaşdığını, heç bir məsuliyyəti üzərinə götürmək istəmədiyini vurğulamağa çalışır. Onun dünyaya olan münasibəti depressiyaya çevrilmişdir ki, bunun öhdəsindən gəlmək üçün də özünü təcrid etmək, tək qalmaq arzusundadır. Səhnələrin birində tibb bacısının nə ilə məşğul olmaq istədiyini soruşduqda "heç nə" deyə cavab verən Brauna həyata olan inancını itirməməsi söylənsə də, o buna heç vaxt inanmadığını qeyd edir. Ona hər hansı bir fəaliyyətlə məşğul olmağı təklif etdikdə isə tək qalmaq istədiyini bildirir ki, "mən"i və dünya arasındakı uyğunsuzluğu sərgiləmiş olur. Əsərin qəhrəmanı dünyanın absurdluğunu qəbul edərək özünü yalnız tənhalıqda tapa bildiyinə inanır. Xəstəxanada olduğu müddətdə Braunun müharibədə iştirak etdiyi, əsir götürülərək düşərgədə saxlanıldığı müəyyən olur. Maraqlısı odur ki, o, müharibədə iştirak etməkdənsə, əsir düşərgəsində qalmağı üstün tutur. Çünki uzun müddət sonra düşərgədə insan olduğunu hiss edirdi. Bununla dramaturq xaos və nizam arasındakı ziddiyyəti əks etdirir. Con Braun müharibənin xaosundan qaçmaq üçün əsirlikdə mövcud olan nizamlı həyatından zövq alırdı: *"Up to then it was all terrible. Chaos... The queue on the beach - dive bombers and bullets ... The camp was like breathing out for the first time in months ... The war was still going on but I wasn't going to it any more. They gave us food, life was regulated...." [5, s. 180-181] – "Bu vaxta qədər hər şey dəhşətli idi. Xaos... Sahildəki növbə – sualtı bombardmançılar və güllələr... Düşərgə sanki aylardır ilk dəfə nəfəs almaq kimi idi... Müharibə hələ də davam edirdi, amma mən artıq ona getmirdim. Bizə yemək verdilər, həyat tənzimlənmişdi".*

Pyesdə Braunun qaldığı otağın divarına yay mövsümü ilə bağlı rəsm çəkməsi maraqlı məqamlardan sayılır. Yay fəslinin olmasına baxmayaraq, xarici aləmdən ilham almağı rədd edən Braun otağın pərdələrini çəkir. O, pərdənin arxasına gizlənərək, özünə məxsus yerdə tək qalmaqla, ənənəvi reallıqdan kənara çıxaraq öz reallığını yaratmaq istəyir. Eyni zamanda onun divara rəsm çəkməsi müharibənin sərt reallıqlarından qaça biləcəyi şəxsi və idarə oluna bilən məkan yaratmaq cəhdi üçün metafora rolunu oynayır. Xəstəxana otağının divarı onun ətrafına nizam və gözəllik tətbiq etmək istəyinin simvoluna çevrilir. Bununla yanaşı, Braunun rəsm əsəri ərsəyə gətirməsi rəssamların cəmiyyətdəki rolu kimi şərh oluna bilər. T.Stoppard məhz Braun vasitəsilə rəssamların adi reallıqdan qaçmağa, öz məna və ifadə məkanlarını yaratmağa çalışa biləcəyi fikrini araşdırır. Braunun qayğısına qalan Meqqi *(Maggie)* adlı tibb bacısı onun üçün sanki əngəldir, onun incəsənət aləminə geri çəkilməsinə maneə yaradır və ideallaşdırılmış qaçışı ilə müharibənin sərt reallıqları arasındakı uyğunsuzluğu vurğulayır. Pyesin sonunda Braunun rahatlığını pozacaq hadisələr

yaşanır. Ona baş çəkməyə gələnlərin olduğunu öyrəndikdə əhvalı korlanır, əsəbləşir, yalnız qalmaq istədiyini bildirir. "Onlar"ın qalib gəldiyini bildirərək, əşyalarını toplayır və heç kimin onu tanımadığı yeni bir məkan axtarışına çıxır. Sonluğun açıq buraxılması oxuculara Con Braunun taleyi haqqında düşünməyə imkan verir. Görünür, əsərdəki gərginliyi ustalıqla idarə edən dramaturq minimalist yanaşmasına baxmayaraq, oxucu və tamaşaçıların diqqətini çəkməyi bacarır. Tom Stoppardın daha sonrakı əsərlərinə öyrəşmiş oxucular üçün pyesdəki hərəkət və məkan məhdudluğu həddindən artıq introspektiv hiss etdirə bilər. Lakin digər əsərləri kimi "Ayrı hüzur" pyesi də dərin fəlsəfi alt mənaları ehtiva edir. Dramaturq adı çəkilən əsərində reallıq və reallıqdan qaçış motivlərini tədqiq edir. O, yaratdığı qəhrəmanının timsalında absurd teatr üçün xarakterik olan insan ilə dünya arasındakı qarşıdurmanı şərh edir. Absurd teatrın mühüm elementləri olan mənasızlıq, yanlış ünsiyyət, fərdin özünü təcrid etməsi kimi mövzular pyesdə qabarıq şəkildə yer alır.

Ədəbiyyat siyahısı:

1. Esslin, M. The Theatre of the Absurd / M. Esslin. – Knopf Doubleday Publishing Group, – 2001. – 480 p.
2. Quliyev, Q. Müasir Qərb dramaturgiyası / Q. Quliyev, G. Hüseynli – Bakı: Zəka print MMC, – 2019. – 344 s.
3. Nightingale, B. Stoppard Gets Emotional: [Electronic resource] / The New York Times. – December 5, 1982. URL: https://www.nytimes.com/1982/12/05/theater/stoppard-gets-emotional.html
4. Reiter A. Tom Stoppard: [Electronic resource] / Salon. – URL: https://www.salon.com/2001/11/13/tom_stoppard/
5. Stoppard, T. The dog it was that died, and other plays. A Separate Peace / T. Stoppard. – London: Faber and Faber, – 1983. – p.167-183
6. Stoppard's Critical Reputation as a Wordsmith: [Electronic resource] / URL: https://www.enotes.com/topics/arcadia/critical-essays/essays-criticism
7. Tom Stoppard at the complete review: [Electronic resource] / URL: https://www.complete-review.com/authors/stoppard.htm#top
8. Шамина, В.Б. Пьесы Тома Стоппарда как отражение характерных черт постмодернизма в драматургии / В.Б. Шамина // Ученые записки Казанского государственного университета. – Т. 151, Кн. 3. – 2009. – с.133-143

Аллахверди Ш. К.

«Сепаратный мир» Тома Стоппарда в контексте абсурдного театра

Резюме

Современный западный драматург Том Стоппард, будучи одним из выдающихся фигур, часто обращается к принципам абсурдного театра, что

придаёт его пьесам более глубокий смысл. Хотя он стал известен благодаря пьесе «Розенкранц и Гильденстерн мертвы», другие его произведения также получили высокую оценку критиков и вызвали интерес у широкой аудитории читателей и зрителей. Драматург подчёркивает в различных пьесах, что общество, в котором он живет, постоянно подвергает жизнь индивида сомнению и пытается управлять ею. Среди этих пьес выделяется одна из его первых работ – «Сепаратный мир». В этом произведении автор через главного героя Джона Брауна изображает человека, который, убегая от кажущейся реальной жизни, выбирает одиночество. Желание остаться в одиночестве, что является одним из основных принципов абсурдного театра, лежит в основе пьесы. Джон Браун остро чувствует несовместимость с миром, в котором он живёт. Несмотря на небольшой объем, произведение затрагивает очень глубокие темы, и по этой причине она стала объектом исследования.

Ключевые слова: Том Стоппард, театр абсурда, «Сепаратный мир», одиночество, реальность

Allahverdi Sh. G.

“A Separate Peace” by Tom Stoppard in the Context of the Theatre of the Absurd

Summary

Tom Stoppard, one of the prominent figures of contemporary Western drama, has infused his plays with deeper meanings by incorporating the principles of the theatre of the absurd. Although he began to gain recognition with his work “Rosencrantz and Guildenstern Are Dead”, critics highly regarded his other works and sparked interest among readers and audiences. In various plays, the playwright emphasizes how the society in which he lives constantly questions and tries to control an individual’s life. Among these works, his early play “A Separate Peace” also stands out. In this play, the author portrays an individual, embodied in the main character John Brown, who chooses to escape the seemingly real world and embrace solitude. The desire for loneliness, one of the main principles of the theatre of the absurd, forms the basis of the play. John Brown openly feels the discord between himself and the world in which he lives. Despite its small volume, the play touches on many profound themes, which is why it has been subjected to research.

Key words: Tom Stoppard, the theatre of the absurd, “A Separate Peace”, loneliness, reality

Rəyçi: fil.e.d., prof. Aynur Sabitova

Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu, *ISSN 2224-9257*
Filologiya məsələləri № 3, 2025
Səh. ——————

RƏQSANƏ QALIB QIZI SÜLEYMAN
E-mail: raxanasuleyman@gmail.com
Xəzər Universiteti
Dillər və ədəbiyyatlar kafedrası, magistr
Ünvan: Bakı, M.Gəncəvi küç. 11.

ƏDƏBİ TƏNQİD VƏ ŞƏRHÇİLİK: BƏDİİ ƏSƏRDƏ PEŞƏKAR TƏNQİD VƏ OXUCU TƏNQİDİ TEXNİKASI

Annotasiya. Sənətkarlıq məsələləri heç də həmişə geniş, ardıcıl, dərindən, müasir və klassik ədəbiyyat təcrübəsinə əsaslanaraq müzakirə olunmur. Bəzən çox böyük, yaxud kiçik məsələləri belə bayağılaşdıran subyektivizm onları xırda duyğulara, yaxud da əsassızlıq və tutarsızlıqla tənqidi sıradanlaşdırmağa meyilli məqalələr peyda olur. Bədii yaradıcılıqda ümumiləşdirmənin yolları və formaları, tipikləşdirilmə, obrazın canlılığı, ifadəliliyi kimi vacib məsələlər haqqında yaxşı yazılara az-az rast gəlinir. İntellektual dərinlik, ciddilik və obyektivlik bizim tənqidimiz üçün vacib keyfiyyətlərdir. Təəssüf ki, tənqiddə də bəzən subyektivizm, şəxsi simpatiya və antipatiya özünü göstərir. Bu və digər baxımdan da, tənqid ədəbiyyatda mürəkkəb bir yaradıcı sahəsidir. Xüsusilə, texnoloji çağda sosial platformaların sayı-hesabı durmadan artır. Təbii haldır ki, yazıçılar, tənqidçilər, nəzəriyyəçilər və oxucular bu şəbəkələrin daimi istifadəçisinə çevrilir. Belə olan halda, peşəkar və qeyri-peşəkar tənqidi bir-birindən ayırmaq məsələsi meydana çıxır.

Əsas hissə. Bədii mətnlər daha çox subyektiv yüklü olur və fərdi yaddaşın, eləcə də, təəssüratların bir parçası olaraq təqdim edilir. Təbii ki, bədii əsərin təhlilini dəyərləndirmək də ilkin halda subyektivdir: tənqidçinin fikrinə olan gözləntilər oxucu və müəllifin fikrinə olan gözləntilərdən daha çoxdur. Bir sözlə, mütəxəsis rəyi. Oxucu və müəllifin (yazıçının), eyni zamanda, bədii əsərlərin incələnməsində bu qədər marağının olduğu yerdə, bəs peşəkar tənqidin meyarları haradadır və onlarla elmi-tənqidi yanaşmanın əsas fərqi nədədir? Bədii mətnlərin şərhi, onların fərdi təəssüratlarla başa düşülməsi hər bir tənqidçi, yazıçı, oxucu tərəfindən fərdi şəkildə şərh edilməsinə gətirib çıxarır.

Bədii yaradıcılıqda və ədəbiyyatın elmi inkişafına bir-birindən artıq töhfələr verən yazıçı, ədəbiyyatşünas Elçin sovet ədəbi tənqidi ənənələrini son dərəcə diqqətlə təhlil edir və sovet ədəbi tənqidçilərinin, yəni yuxarıda qeyd etdiyimiz məhz peşəkar baxışın xeyli yanlış mexanizmlərini bu cür sıralamışdır: *1) Ədəbi tənqiddə həyat həqiqətləri deyərkən yalnız kolxoz həyatından bəhs edilməsi, 2) Elmi-nəzəri səviyyənin aşağı olması və bəzi tənqidçilərin sənətkarlıq sirlərindən bixəbərliyi, 3)Mövzu aktuallığı məsələsinin düzgün başa düşülməməsi və avtoritetlər qarşısında güzəştə getmək, 4)Obyektivliyin, prinsipiallığın və ədalətli hökmün çatışmazlığı, 5) Kəmiyyət və keyfiyyətin təzadı, 6) Məqalələrin özlərinin formaca qənaətbəxş*

olmamağı, 7) Bir sıra məqalələrin dilinin nöqsanlı olmağı və onların emosianal təsirinin olmaması. [4, 207-210] Müəllif, həmçinin, müasirlik, bədii dil, xarakter və sənətkarlıq məqamlarını da ədəbi təqidlə qarşı-qarşıya qoyaraq aydınlaşdırmışdır.

Oxucu tənqidinin (şərhinin) bir sıra yanıldığı amillər haqqında ədəbiyyat esselərində söz açan intellektual ədəbiyyatın dünyada ən parlaq simalarından biri romançı, semiotik, fəlsəfə və ədəbiyyat tənqidçisi Umberto Ekonun fikirləri maraqlıdır: "Müasir dövrdə rast gəlinən və təhlükəli hesab edilə biləcək bir növ ifrat tənqidi yanaşmaya əsasən, oxucular ədəbi əsərlərlə öz daxili impulslarının, özlərində hakim ola bilmədikləri arzularının diktə etdiyi kimi sərbəst şəkildə rəftar edə bilərlər. Lakin bu yanaşma doğru deyil. Ədəbi əsərlərin oxunması bizdən həm şərh azadlığı çərçivəsində sayğı, həm də sadiqlik təcrübəsi tələb edir."[3, 17] Ədəbi mətnlər, bəli, bizi şərh azadlığına çağırır, çünki onlar müxtəlif oxuma səviyyələrindən yanaşmağa imkan verən çoxqatlı bir diskurs təklif edir və bizi dilin və həyatın çoxmənalılığı ilə qarşı-qarşıya qoyurlar. Amma bu oyunda irəliləyə bilmək, yəni mətni layiqli şəkildə dərk etmək üçün hər nəslin həmin əsərləri fərqli bucaqlardan oxuduğunu nəzərə almaq vacibdir.

Ədəbi şərh azadlığı sərhədsiz interpretasiya haqqı deyildir, bu azadlıq məsuliyyət və mətndəki niyyətə hörmətlə müşayiət olunmalıdır. Vahid mətn mədəniyyətinin öyrənilməsi, başa düşülməsi bu sahədə xüsusi elmi hazırlıq və düşüncə sistemi ilə sıx əlaqədədir. Ekonun yuxarıda sitat verdiyimiz fikirlərini romançı, akademik Kamal Abdulla belə açır: "Hər bir əsərdə ikili kodlaşma nəzərdə tutulur. Birinci halda, oxucu əsərin üslubuna, daha doğrusu, üslub qatmaqarışıqlığına, müəllifin ona ötürdüyü mətndənkənar bədii informasiyaya fikir vermədən, yalnız əsərin üst süjet qatı ilə maraqlanır. İkinci halda isə oxucu müəlliflə sanki həmfikir olur, onun mətndəki ən incə "əməllərinə" diqqət yetirir, onlardan zövq alır, mətndənkənar müəllif ötürmələri onun üçün sadəcə süjet xəttindən daha maraqlıdır və yaxud onun qədər qiymətlidir." [6]

Oxucunun müəllifə (əsərə) münasibətlərindən öz kitabında daha geniş şəkildə bəhs edən akademik Kamal Abdulla əsl oxucunun (*oxuyan deyil, oxucu*) əsərə və müəllifə həqiqi inancı olan oxucu kimi qiymətləndirir. Akademik qeyd edir ki, həmin oxucu "... sadəcə oxuyan deyil, oxucudur". Lakin elə ədəbi əsərlər vardır ki, insanın şüuru qəbul edə bilməyəcəyi qədər "inanılmazdır". Bu barədə müəllif qeyd edir: "Digər tərəfdən, onu da etiraf edək ki, elə nəsr əsərləri var ki, (götürək "Don Kixot" əsərini) oradakı təsviri reallıq kimi qəbul etməyənlər də onu ləzzətlə, hətta bəlkə də, mənəvi ehtiyacla hiss edə-edə oxuyurlar. Belələri oxucudurlar, yoxsa oxuyan? Bizim yanaşmadan çıxış etsək, belə bir bədbin nəticəyə gəlib çıxarıq ki, Servantesin heç zaman oxucusu olmayıb və çox güman ki, olmayacaq da. Çünki Don Kixotun bəzi müasir həmvətənlərini nəzərə almasaq, çətin elə bir nəfər tapmaq mümkün olsun ki, "Don Kixot"da təsvir edilən hadisələrin real təməlinə inansın". [1,64] Müəllifin (K.A.) fikrindən bu nəticəyə gələ bilərik ki, burada hadisələr o qədər

bütövləşib ki, Oxucu Əsərə (Don Kixota) yox, Servantesin (Müəllifin) ustalığına inanır.

Klassik ədəbi tənqidimizə enəndə mövzu ilə bağlı Azərbaycanın böyük ədəbiyyat və mədəniyyət mütəfəkkiri, görkəmli yazıçı, dramaturq, filosof və ictimai xadim M.F.Axundzadənin oxucu fərqini də izah etdiyi məqalələrdən birində deyilir: "*Xanəndeyi-ami* ancaq buna xoşhal olur ki, yarımçıq əfsanənin riştəsi yenə ələ düşdü və canı naməfhum təsəvvürat və təəqqülatdan qurtardı. Dəxi xəbəri olmur ki, Mollayi-Ruminin mənzuru topladığı sözdə bitdi və *arif xanəndəyə* mətləb hali oldu." (kursiv – R.S.) [2, 156] Götürdüyümüz sitat M.F.Axundzadənin "Mollayi-Ruminin və onun təsnifinin babında" məqaləsindəndir. Görkəmli mütəfəkkir bu məqalədə dövrün məşhur təsəvvüf şairi Mövlanə Cəlaləddin Ruminin məsnəvisi çox dəqiqliklə və analitik kimi tənqidə çəkir. Axundzadə deyir ki, Ruminin məsnəvisində xalq əfsanə və rəvayətlərindən götürülən tülkü və çaqqal obrazları mətndə tamamilə gizli mətləb daşıyır. Bu isə sadəcə arif oxucuya bəlli olur. *"Xanendeyi-ami"*, yəni adi oxucu bu mətləbdən bixəbərdir.

Bu gün sosial şəbəkələrdə, bədii əsərlər haqqında fikirlər hər müəllifin öz hesabından, yəni fərdi dairələrdən birbaşa çatdırıldığına görə, bəzən hər hansı bir əsər haqqında kitab və jurnalara müraciət etmədən müxtəlif rəyləri tapmaq əlçatan olmuşdur. Bu məsələ bizim üçün mütəxəsis və qeyri-peşəkar rəyini aydınlaşdırmaq baxımından ciddi maraq yaradır. Professor, görkəmli ədəbiyyat tənqidçisi Rəhim Əliyev qeyd edir: "Xüsusi elmi hazırlığı olmayan adam ədəbi mətni, əsəri oxuyanda onun təəssüratları fərdi və subyektivdir. Bu təəssürat ən çox həmin adamın yaddaşından, şəxsi təcrübəsindən, problem və komplekslərindən asılıdır. Ona görə, xalis fərdi akt kimi götürdükdə ədəbi mətnin qavrayışı məzmunca subyektivdir və ciddi sosial məzmundan uzaqdır. Xalis fərdi akt kimi bədii qavrayış elmi və sosial məzmundan kənardır." [5, 22]

Nəticə

Yazıçılarımızın, tənqidçilərimizin, nəzəriyyəçilərimizin birgə, ahəngdar işi ilə ədəbiyyatımızda yeni yüksəlişə nail olmaq, yeni, dəyərli əsərlər yaratmaq imkanı hər bir mütəxəsisin öz işinə olduqca peşəkarlıqla yanaşmasından asılıdır. Ədəbi tənqidə, ədəbiyyatşünaslığın metodoloji-nəzəri problemlərinin həllinə kütləvi maraq getdikcə rəqəmsallaşan dövrün yeniliklərindəndir və bu sahədə ən ağır yük də ədəbi prosesimizin hər addımında özü ilə birgə "apardığı" peşəkar ədəbi tənqidin üzərindədir. Ədəbi tənqidin rolu, ədəbi tənqiddə yaradıcılıq, ədəbi tənqidin özünəməxsusluğu, mövzusu, tənqidi mühakimədə mütaliə standartı, bədii əsərin şərhində ideya-estetik amillərin inteqrasiyası, tənqiddə üslub və janr rəngarəngliyi özünə əsas meyar götürməyən tənqidçini fikrini əsas hesab etmək doğru deyildir.

Əlbəttə, oxucu rəyini bilmək əhəmiyyətli və maraqlıdır. Lakin ciddi yaradıcı yazarlıqda olduqca ciddi məsələ, oxucu tənqidi ilə müəllif öz təbiiliyindən kənara çıxması və müəyyən dərəcədə kommersiya məqsədli əsərlərə yönəlməsi, ən azından

bu cəlbedici məqamdan qaçına bilməməsi məsələsidir. Hazırkı dövrdə Azərbaycan ədəbiyyatında oxucu şərhinin (yaxud rəyi və tənqidinin) səviyyəsi peşəkar ədəbi tənqidlə üz-üzə gələcək durumda deyildir. Yəni, əksərən oxucular bu cür yazılarla – sosial media paylaşımları ilə müəllifi tənqid adı ilə bir növ öz istəklərinə tabe etməyə can atırlar. Bu anlamda, məhz hazırkı məqamda oxucu rəyinin ədəbi tənqidi əvəz etməsi yalnız məyusluğa səbəb ola bilər və ədəbiyyatımızın gələcək sinxron inkişafı ilə bağlı narahatlıq yaradar.

İstifadə olunmuş ədəbiyyat siyahısı:

1. Abdullayev K. Müəllif-əsər-oxucu: Bakı: Yazıçı, 1985.-154 s.
2. Axundzadə M.F. Əsərləri 3 cilddə: [Kəmalüddövlə məktubları; Fəlsəfi, ədəbi-tənqidi və tarixi məqalələr. Tənqid risaləsi]/ Bakı: Şərq-Qərb, 2005.- C.II.- 374 s.
3. Eco, Umberto. Edebiyata dair: Can Yayınları, 2017.-400 s.
4. Elçin. Tənqid və nəsr. Bakı: Günəş, 1999.- 216 s.
5. Əliyev, R. Ədəbiyyat nəzəriyyəsi. Bakı: Qanun, 2012.-463 s.
6. Kulis.az/xeber/kamal-abdulla/media/iki-don-kixot-yaxud-muellifin-oxucusu-ve-metnin-oxucusu-kamal-abdulla-58892

Rəqsanə Qalib qızı Süleyman

Ədəbi tənqiddə üçlü yanaşma: professional tənqid, yazıçı və oxucu tənqidi

Xülasə.

Ədəbi tənqid ədəbiyyat tarixinə və nəzəriyyəyə aid bütün klassik traktatları, bir qayda olaraq, müasir ədəbiyyatdakı faktlar və mübahisələrlə bağlı araşdırır. Ədəbi mətnlərin şərhi problemi ümumən vahid mətn mədəniyyətini bütün adamlar üçün fərdi qaydada öyrənilməsi zərurətindən doğur. Lakin ədəbi mətnlər digər mətnlərdən, xüsusilə, elmi mətnlərdən prinsipial şəkildə fərqlənir: ədəbi mətn dünyanın fərdi yaddaş prizmasından görünən obrazının bir parçasıdır, epizodu və ya mənzərəsidir. Ona görə, ədəbi mətnlər daha subyektiv yüklüdür və onların necə başa düşülməsi və deməli, şərhi məsələsi də həmişə fərqli olmuşdur.

Açar sözlər: tənqid, ədəbi tənqid, müqayisəli tənqid, nəsr, oxucu təniqdi

Ragsana Galib Suleyman

“Literary Criticism and Interpretation: Professional Criticism and Reader Critique Techniques in a Literary Work.”

Summary

Literary criticism traditionally explores all classical treatises related to the history and theory of literature, typically examining facts and controversies in modern literature. The problem of interpreting literary texts generally arises from the necessity to study the unified textual culture as an individual process for all people. However, literary texts fundamentally differ from other texts, particularly scientific

texts: a literary text is a part of an image of the world seen through the prism of individual memory, an episode or a scene. Therefore, literary texts are more subjective, and the way they are understood—and consequently, interpreted—has always been a matter of variation.

Keywords: criticism, literary criticism, comparative criticism, prose, reader critique

РАКСАНА ГАЛИБ СУЛЕЙМАН

“ЛИТЕРАТУРНАЯ КРИТИКА И ИНТЕРПРЕТАЦИЯ: ПРОФЕССИОНАЛЬНАЯ КРИТИКА И ТЕХНИКА ЧИТАТЕЛЬСКОЙ КРИТИКИ В ХУДОЖЕСТВЕННОМ ПРОИЗВЕДЕНИИ.” РЕЗЮМЕ

Литературная критика традиционно исследует все классические трактаты, относящиеся к истории и теории литературы, как правило, анализируя факты и споры в современной литературе. Проблема интерпретации литературных текстов возникает, как правило, из необходимости изучать единую текстовую культуру в индивидуальном порядке для каждого человека. Однако литературные тексты принципиально отличаются от других текстов, особенно от научных: литературный текст является частью образа мира, видимого через призму индивидуальной памяти, эпизодом или пейзажем. Поэтому литературные тексты более субъективны, и их восприятие и, следовательно, интерпретация всегда были различными.

Ключевые слова: Критика, литературная критика, сравнительная критика, проза, читательская критика.

Rəyçi: f.e.d.. professor Bədirxan Əhmədov

Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu, *ISSN 2224-9257*
Filologiya məsələləri № 3, 2025
Səh. ————————

ŞAKİR CƏFƏROV,
filologiya üzrə fəlsəfə doktoru,
BDU-nun doktorantı

MİR CƏLALIN BƏDİİ YARADICILIĞI ƏDƏBİYYATŞÜNASLIQ ELMİNDƏ

Xülasə:

Yazıçı Mir Cəlal ömrünün 50 ilini insanlığı ilə bəşəriyyətə, Azərbaycan milli mədəniyyətinə, ədəbiyyatına, xalqına xidmətə həsr etmişdir. Onun çoxşaxəli, zəngin bədii yaradıcılığı milli nəsrimizin ən parlaq, mənalı, seçilən nümunələrindəndir. Hekayələr ustası kimi tanınsa da Mir Cəlal, həm də ilk romançılarımızdan biri kimi ədəbiyyat tariximizdə yer tutur. Yazıçı Anar onun "Bir gəncin manifesti", "Dirilən adam" romanlarının yazıldığı dövrün özəlliklərini əks etdirməklə bərabər, roman janrını ədəbiyyatımızda təsdiq edən və doğmalaşdıran əsərlər kimi orta və ali məktəb dərsliklərimizə daxil olduğunu yazır. Nəsrimizin cavanlığını vurğulayan Anar onu da qeyd edir ki, "Kitabi-Dədə Qorqud"dan üzü bəri dastanlarımızda, nağıllarımızda, Molla Nəsrəddin lətifələrində, rəvayətlərdə, əfsanələrdə nəsr elementləri olub. Böyük Füzuli "Şikayətnamə"sini nəsrlə yazmışdır. Ancaq yalnız XIX əsrdə İsmayıl bəy Qutqaşınlının, Abbasqulu ağa Bakıxanovun hekayələriylə və xüsusilə də Mirzə Fətəli Axundzadənin "Aldanmış kəvakib"iylə yeni Azərbaycan nəsrinin tarixi başlanır". "Ədəbiyyatşünaslığın əsasları" dərsliyinin, "Klassik irs və müasirləri"mizə dair məqalələrin, monoqrafik tədqiqatların, "Azərbaycanda ədəbi məktəblər", "Füzuli sənətkarlığı", "Cəlil Məmmədquluzadə realizmi haqqında" və sair əsərlərin müəllifi, ədəbi-nəzəri düşüncə ilə ardıcıl və sistemli şəkildə məşğul olan Mir Cəlalın çoxşaxəli ədəbi-bədii, elmi, pedaqoji fəaliyyəti mövcuddur. M.Arif, M.Cəfər, M.Hüseyn, M.İbrahimov, H.Araslı, C.Xəndan, Ə.Şərif, M.Quluzadə, H.Əfəndiyev, A.Zamanov, İ.Əfəndiyev, Ə.Ağayev, Ə.Hüseynov, O.Həsənov, Q.Xəlilov, M.Əlioğlu, B.Nəbiyev, P.Xəlilov, Y.Seyidov, K.Məmmədov, K.Talıbzadə, kimi yazıçı, tənqidçi və alimlər Mir Cəlalın elmi, ədəbi-bədii yaradəcılığını yüksək qiymətləndirmişlər.

Azərbaycan elmi-filoloji fikrində öz əsərləri ilə bir çox yazıçı və şairlərimizin yaradıcılığı barədə xeyli sayda maraqlı məqalə müəllifi, AMEA-nın müxbir üzvü Nərgiz Paşayevanın "Yazıçı və zaman" məqaləsi dəyərlidir. Müəllif məqalədə Mir Cəlalın yaradıcılıq yolunu mədəni inkişafın, milli intibahın və ictimai təzadların fonunda təhlil edir. Mir Cəlal müəllimin bir yazıçı və ədəbiyyatşünas alim kimi bir sıra məqamlarına işıq salır: "Mir Cəlal heç vaxt olduğu yüksəklikdən enib, haqqı da olsa, heç kəsdən heç nəyi tələb etmədi. Çünki o yaxşı bilirdi ki, əsl yüksəklik kağızların, sənədlərin, möhürlərin, qərarların, iclasların hökmü ilə deyil, ləyaqətli insan ömrü və bu ömrün zamandan-zamana təsdiqi və təntənəsi ilə ölçülür. O da sirr deyil ki, daxilində bir ilahi qığılcım yaşayan hər bir yazıçı, alim, ümumiyyətlə, hər bir istedad zaman çərçivəsini yararaq əbədiyyətə qovuşur. Beləliklə, yazıçı və zaman

*qarşıdurması həmişə olduğu kimi, bu dəfə də yazıçı qalibiyyəti ilə nəticələni**r”** (Nərgiz Paşayeva. “Yazıçı və zaman”: (Mir Cəlal-100) //Qarapapaqlar. - 2010. - №2.- səh.16-20)**.***

Açar sözlər: *hekayələr ustası, ədəbi-bədii, ədəbi - nəzəri, nəsr, tənqidçi, insan ömrü*

Muhammed aga Mujtahidzadeh is one of the prominent figures of literature and intellectuals, who was brought up in the literary environment of Garabagh at the end of XIX – first half of XX century and had a great influence in the people. The patriotic feelings of Muhammad aga originated in his heart at a young age. The poet remained true to these feelings throughout his life, confirming them both in his literary creations and in his practical activities.

The article comprehensively studies the poetic works of Muhammed aga Mujtahidzadeh, who writes his poems under the pseudonym “Myushtari”, gives information about the poet's position in public life. The author concludes that Muhammed aga Mujtahidzadeh was the true patriot of his homeland.

Key words: *Mujtahidzadeh, Riyazul-ashiq, Garabagh, Tazkireyi-Navvab, artistic heritage*

Rəyçi: Filologiya Elmləri doktoru, professor Ağaverdi Xəlil Sərxan oğlu

Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu, *ISSN 2224-9257*
Filologiya məsələləri № 3, 2025
Səh. ————————

ƏLİYEV ZAKİR ƏLİSAHİB OĞLU
Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti,
Muğam sənəti kafedrasının dosenti,
Əməkdar artist
Email: aliyevzakir@gmail.com

AZƏRBAYCAN MUĞAMLARININ FOLKLOR MUSİQİSİNDƏ ROLU

Muğam sənəti Azərbaycanın professional musiqi mədəniyyətinin şifahi irsinin mühüm qismini təşkil etməklə, xalqın mədəni ənənələrində və tarixində dərin köklərə malikdir. Bu mədəni ənənənin Azərbaycanda köklərinin olması ölkədə onun daşıyıcılarının sayı, eləcə də bəstəkarların, rəssamların, heykəltəraşların və şairlərin tükənməz ilham mənbəyi olan milli mədəniyyətdə mühüm rolu ilə təsdiqlənir. Ümumi-bədii ənənələri təşkil edən Azərbaycan muğamları milli özünüdərk dəyərlərdən biri kimi qavranılır. Həm milli mədəniyyət üçün, həm də bütün bəşəriyyətin mədəniyyəti üçün Azərbaycan muğamının bədii dəyəri, onun yüksək mənalılığı YUNESKO kimi nüfuzlu beynəlxalq təsisat tərəfindən etiraf olunmuş və bəşəriyyətin şifahi və qeyri-maddi irsinin şah əsərlərindən biri elan edilmişdir. Azərbaycan muğamlarının folklor musiqisində rolu çox mühüm və mərkəzidir. Muğam, Azərbaycan mədəniyyətinin ən dəyərli incilərindən biri olmaqla yanaşı, xalq musiqisinin əsasını təşkil edir. Muğam Azərbaycan xalq musiqisinin ən qədim və klassik formalarından olub, xalq mahnıları, rəqs melodiyaları, aşıq musiqisi və digər folklor nümunələri ilə sıx bağlıdır. Xalq musiqisindəki bir çox melodik və ritmik elementlər muğam ənənələrindən qaynaqlanır. Muğamlar əsasən improvizasiyaya əsaslansa da, müəyyən modal quruluşa malikdir. Milli məqamlarımız: Rast, Şur, Segah, Çahargah, Bayatı-Şiraz və s. folklor melodiyalarında da öz əksini tapır. Məsələn, xalq mahnılarında Şur və Bayatı məqamları tez-tez istifadə olunur. Azərbaycan aşıq yaradıcılığında muğam elementləri geniş yer tutur. Aşıq musiqisində muğam üslubunda oxunan nəğmələr muğamla folklorun sintezini nümayiş etdirir. Xalq dastanları ("Koroğlu", "Aşıq Qərib" və s.) muğam janrında ifa olunaraq, bu dastanların musiqili hissələri muğamın təsiri altında formalaşmışdır. Azərbaycan xalq rəqslərinin musiqiləri çox vaxt muğam məqamlarında bəstələnir. Xüsusilə "Cahargah" muğamı rəqs melodiyalarında tez-tez istifadə olunur.

Azərbaycan musiqi folkloru dedikdə, xalqımızın yaratdığı əmək, epik, məişət, qəhrəmanlıq, lirik və satirik mahnılar, rəqs melodiyaları və eləcə də, sintetik aşıq yaradıcılığı, emosional-obrazlı məzmunu ilə fərqlənən klassik muğam sənəti nəzərdə tutulur. Azərbaycan musiqi folklorunun yaranmasında mahir xalq müğənniləri, aşıq və xanəndələr, xalq musiqisi ifaçıları əsas rol oynamışlar. Görkəmli alim Əhməd İsazadə xanəndələrin Azərbaycan musiqi folklorunun inkişafında mühüm rol oynadığını xüsusi qeyd edir: "*Onların Azərbaycan xalq mahnı yaradıcılığının* -

mərasim, əmək, məişət, lirik, qəhrəmanlıq, yumoristik, satirik və s. müxtəlif nümunələrinin qorunub saxlanılmasında və kütlələr içərisində yayılmasında böyük xidmətləri olmuşdur. Xalq müğənnilərinin bir çoxu el mahnılarını ifa etmək və onları ideya-bədii baxımdan zənginləşdirməklə yanaşı, məişətdə, zavod və fabriklərdə, əkinçilikdə və pambıqçılıqda kommunist əməyinə həsr edilən yeni gözəl mahnılar da yaratdılar. Bütün bu mahnılar, hər şeydən əvvəl, öz ideya-emosional məzmununa və obrazlılığına, şən əhvali-ruhiyyəsinə və gələcəyə nikbin baxışlarına görə fərqlənir. Burada kütlələrin müasir hadisələrə canlı münasibəti, yüksək yaradıcılıq fəallığı öz ifadəsini tapır" (1, səh. 14)

Milli folklor nümunələrimiz: xalq mahnıları, rəqslər, aşıq musiqisi bütün hallarda milli məqamlarımızın intonasiyaları əsasında qurulmuşdur. Məsələn: "Açan nənə", Əlində sazın qurbanı", "Küsmüşəm səndən ay dilbər", "Çal oyna", Meyvələrdən üç meyvə var" və s. xalq mahnıları, "Azərbaycan", "Brilyant", "Darçını", "Əsgərani" kimi rəqslərimiz "Rast" məqamında qurulmuşdur.

Azərbaycan muğam intonasiyaları əsasında səslənən xalq mahnılarını xanəndə üslubunda oxumaq üçün aşağıdakı üsul və texnikalara əməl etmək lazımdır:

1. Məqamı düzgün seçmək və hiss etmək: Mahnının hansı məqamda (Şur, Rast, Segah, Bayatı-Şiraz, Çahargah və s.) olduğunu müəyyən etmək mütləq şərtdir.

Hər məqamın öz xarakterik xüsusiyyəti olub, xanəndə xalq mahnısını ifa etməzdən əvvəl mahnının hansı muğam intonasiyasına aid olduğunu müəyyən etməlidir.

2. Improvizasiya və bədii ifadə: Muğam üslubunda oxuyarkən improvizasiya vacibdir. İfa olunan mahnı və ya muğamın əsas melodiyasını saxlayaraq, melizmlər (tremolo, forşlaq, qruppetto, mordent) və səs yüksəlişləri tətbiq etməklə improvizələr etmək mümkündür.

3. Səs Texnikası və nəfəs nəzarəti: Diafraqmadan nəfəs almaqla uzun frazaları rahat ifa etmək üçün nəfəsi düzgün bölüşdürmək lazımdır. Tremolo, glissando, vibrato kimi ifaçılıq texnikalarından düzgün istifadə etməklə, ifa olunan xalq mahnıları və muğamların emosional təsirini artırmaq mümkündür. Səsə hərarət vermək üçün boğazı sıxmamaq və təbii axın yaratçaq zəruri şərtdir.

4. Lirik ifadə və emosional duyğu: Xalq mahnılarını muğam üslubunda oxuyarkən sözlərin mənasını və hissini vurğulamaq, duyğu dəyişiklikləri: həzinlik, şənlik, eşq, qəm kimi hisləri muğamın dinamikası ilə uyğunlaşdırmaq mühümdür. Məsələn, "Qaragilə" xalq mahnısında dərin lirizm, "Kəsmə şikəstə"də isə dramatik ifadə tələb olunur.

5. Azərbaycan xanəndəlik ənənələrinə sadiq qalmaqla korifey sənətkarların ifa üslubuna diqqət etmək məqsədəuyğundur. Muğam ifaçılığında Şuşa, Bakı məktəblərinin xüsusiyyətlərini nəzərə almaqla peşəkar ifaya nail olmaq mümkündür.

6. Alətlə uyğunluq: Tar, Kamança və s. Əgər alət müşayiəti varsa, muğam avazları ilə mahnını daha da zənginləşdirmək, ritmik sözlə ifa üsullarından istifadə etmək olar.

"Şur" məqamında bəstələnən folklor nümunələrini misal gətirək: "A daglar", "Alma almaya bənzər", "Gəl, gəl ahu balası", "Güləbatun", "Qarabağın maralı", "Dəli ceyran", "Ahu kimi", "Sarı gəlin", "Səndən mənə yar olmaz" və s. xalq mahnıları, "Atlanma", "Bakı", "Cıdır", Qəhrəmanı", "Üçayaq yallı" kimi milli rəqslərimiz "Şur" məqamının intonasiyaları əsasında səslənir. Məlumdur ki, Şur məqamı Azərbaycan muğam və xalq musiqisində ən geniş yayılmış, lirik və həzin melodiyaların əsasını təşkil edir. Bu məqamda ifa olunan xalq mahnılarını xanəndə üslubunda oxumaq üçün aşağıdakı texnikalar və üsullar vacibdir:

1. Şur məqamının xüsusiyyətlərini anlamaqla muğamın emosional tonunu müəyyən etmək: həzin, lirik, bəzən fəlsəfi dərinlik daşıyır. Muğama xarakterik olan intonasiya xüsusiyyətlərini ifaçılıq prosesində dəqiqləşdirmək.

2. Şur məqamında ifanın əsas prinsipləri: sərbəst improvizasiya və melodik bəzəklərdən istifadə etməklə ifa olunan xalq mahnısının emosionallığını biruzə vermək, mahnının əsas melodiyasına kiçik səs keçidləri əlavə etməklə gözəl və səliqəli bir ifaya nail olmaq mümkündür. İfaçılıq prosesində "Ah, ey, vay" kimi sözlərlə emosional təsiri gücləndirmək olar.

3. Səs texnikası və nəfəs nəzarəti: uzun frazaları rahat oxumaq üçün dərin nəfəs almaqla, səsə emosional rəng vermək üçün vibrato üsulunu tətbiq etmək və təbii səs sürüşmələrilə ifa prosesini canlandırmaq məsləhətdir. Piano (yumşaq) və forte (güclü) keçidlərilə ifanı canlandırmaq,

sözlərin mənasını vurğulamaq, hər mətn sətirinə uyğun emosiya (kədər, həsrət, eşq) ifadə etmək mütləq şərtdir. "Şur" məqamında olan lirik xarakterli xalq mahnılarının interpretasiyası prosesində lirik, həzin, lazım gəldikdə isə pıçıltı ilə oxumaq, səsi emosional, lakin təbii saxlamaq xanəndəlik sənətində xalq mahnılarının ifasında mühüm şərtlərdəndir.

"Şüştər" məqamında bəstələnən xalq mahnılarına "Ay sona", girdim yarın bağçasına", "Aman kəklik əlindən", "Gözəlim sənsən" kimi mahnılar, "Yüz bir", "Uzundərə" və s. milli rəqslərimiz daxildir.

Muğam və xanəndəlik sənəti folklor musiqisinin bir qolu olan aşıq musiqisi ilə də sıx əlaqəlidir. Bu barədə musiqişünas K.Atakişiyeva yazır: "*Aşıq və muğam sənəti arasında tarix boyunca məntiqi, fəlsəfi-psixoloji, milli təfəkkürə əsaslanan ümumi cəhətlər də mövcud olmuşdur. Bu baxımdan hər iki sənətin tarixini araşdıran elmi tədqiqatlarda aşıq və muğam sənətinin öz kökünü qam-şaman mədəniyyətindən götürməsi, hər iki sənətin daşıyıcılarının xalq tərəfindən sayılıb-seçilən şəxsiyyətlər olması kimi tarixi-ictimai cəhətlər, digər tərəfdən aşıq və muğam musiqisinin milli ladlara əsaslanması, milli musiqi alətlərinin müşayiəti, janr, ritm, musiqi dilinin xüsusiyyətləri, ifaçılıq ənənələri arasında olan yaxınlıq və s. kimi ümumi cəhətlər mövcuddur. Həmin xüsusiyyətlər aşıq və muğam sənətinin müxtəlif ictimai-siyasi şəraitdə formalaşıb inkişaf etməsindən asılı olmayaraq, eyni mədəni təfəkkürdən qaynaqlanmasından irəli gəlir*". (2, səh.6)

Düşünürük ki, Muğam sənəti aşıq sənətindən fərqli şəraitdə təşəkkül tapsa da, iki sənət arasında olan bağlılıq bütün sahələrdə özünü biruzə verir və folklor musiqisi ilə muğam sənətinin ayrılmazlığını təsdiqləyir. Dahi Üzeyir Hacıbəyli xanəndə və sazəndə sənəti ilə bağlı öz münasibətini belə ifadə etmişdir: «*Peşə və sənət məqamında isə musiqi icrası «ustad»ların işidir; bu ustadlar, qabiliyyət və ləyaqətlərinə görə iki zümrəyə ayrılırlar: biri şəhər və yaxud «məclis» musiqiçiləri ki, bunlara məlum olduğu üzrə, xanəndə və sazanda dəstəsi deyilir*» (3, s.185)

Azərbaycanın ənənəvi musiqi mədəniyyətinin iki əsas sütunu olan aşıq sənəti və muğam sənəti bir-biri ilə sıx bağlıdır. Hər ikisi xalq yaradıcılığının əsasını təşkil edir, lakin ifadə üslub baxımından fərqlənir. Bu iki sənət növü arasında bir sıra oxşar və fərqli cəhətlər mövcuddur. Aşıq musiqi alətinin ifaçısı, özü öz ifasının müşayiətçisidir. Xanəndəni isə xüsusi olaraq sazəndələr müşayiət edir. Aşıq musiqisi daha çox şifahi xalq yaradıcılığına əsaslanaraq, saz aləti ilə müşayiət olunur. Muğam isə klassik ənənəvi musiqi forması olub, tar, kamança, dəf kimi alətlərlə ifa olunur. Bütün aşıq mahnıları muğam intonasiyalarına əsaslanır. Məsələn: Aşıq Ələsgərin "Qurban olam" mahnısı “Bayatı-Şiraz” məqamında olub, muğam ifaçıları tərəfindən də tez-tez ifa olunur. Koroğlu" dastanında “Rast” və “Çahargah” muğamlarının intonasiyalarına daha çox rast gəlmək mümkündür.

Hər iki janrda söz və musiqinin birləşməsi zəruri olub, aşıq məclislərində müxəmməs (beş misralı şeir) oxunarkən muğam üslubunda “avaz” da işlədilə bilər.

Muğam ifalarında “aşıq deyişmələrinə” bənzər melodik keçidlər olur.

Aşıq poeziyası sadə, xalq dilində, mətn əsaslı olub, muğamların sözləri çox vaxt klassik şeirlərdən (Füzuli, Xəyyam, Nizami) götürülür. Eşq, kədər, təbiət, qəhrəmanlıq mövzuları aşıq və muğam sənətində olan ortaq mövzulardır. Aşıq mahnılarında "Səni harda görüm, ey gözəl” kimi sözlər muğamda "Ayrılıq" (Segah) avazında oxuna bilər. Muğamda istifadə olunan "Mən səni axtarıram" kimi ifadələr aşıq deyişmələrində də var. Bəzi muğam ifaçıları aşıq mahnılarını muğam üslubunda interpretasiya edirlər. Aşıq Ələsgər, Aşıq Hüseyn Bozalqanlı bəzən muğam avazlarından istifadə edirlər.

"*Aşıq musiqisi xalqın ürəyidirsə, muğam onun ruhudur və bu iki sənət bir-birini zənginləşdirərək Azərbaycanın musiqi irsini əbədiləşdirir*.” (3, 422)

Beləliklə, muğam Azərbaycan folklor musiqisinin əsas dirəklərindən biridir. O, həm klassik, həm də xalq musiqisi ilə qarşılıqlı əlaqədə olub, Azərbaycanın musiqi ənənələrini zənginləşdirir. Muğamın improvizasiya və emosional ifadə gücü, onu Azərbaycan mədəniyyətinin unikal simvollarından birinə çevirir. Xanəndə muğam əsaslı xalq mahnılarını interpretasiya edərkən məqam bilikləri, improvizasiya, emosional ifadə və ənənəvi üslubların mənimsənilməsi əsas rol oynayır. Bu üsulları mənimsəməklə Azərbaycan muğamının dərin poetik və musiqi dünyasını tam açıb dinləyicilərə çatdırmaq mümkündür.

İstifadə olunan ədəbiyyat

1. Ömərov V. Azərbaycançılıq və milli musiqi folkloru. Bakı, Səs qəzeti, 2012.- 18 aprel.- S. 14.
2. Atakişiyeva K. Şifahi ənənəli Azərbaycan professional musiqisi: aşıq və xanəndə yaradıcılığı. Bakı, 2020, 136 s.-s.6
3. Hacıbəyov Ü.Ə. Seçilmiş əsərləri.B.:Yazıçı, 1985,653 s.
4. Azərbaycan folkloru antologiyası III. Göyçə folkloru. B.: AMEA, 2000, 767 s.
5. Azərbaycan xalq musiqisinin antologiyası: 10 cilddə / Azərbaycan muğamları və rəngləri. AMEA Mİİ, IV cild, B.: Azpetrol Neft Şirkəti, 2005, 222 s

Xülasə

Təqdim olunan məqalədə muğam sənətinin tarixi inkişaf mərhələlərinə nəzər salınaraq, onun folklor musiqisindəki rolu üzə çıxarılmışdır. İki sənət arasında mövcud əlaqələrin aşkara çıxarılması, eləcə də musiqi repertuarında, ifaçılıq üslubunda baş verən qarşılıqlı təsir və janr transformasiyası kimi məsələlər işıqlandırılmışdır. Problemin həllində tarixi, nəzəri və müqayisəli təhlil metodlarından bəhrələnərək maraqlı yanaşma nümayiş etdirilmişdir. Əldə edilən nəticələr isə hər iki sənətin tədqiqində yeni perspektivlərin açılmasına zəmin yaratmış olur. Tədqiqat nəticəsində məlum oldu ki, muğam Azərbaycan folklor musiqisinin əsas dirəklərindən biridir. O, həm klassik, həm də xalq musiqisi ilə qarşılıqlı əlaqədə olub, Azərbaycanın musiqi ənənələrini zənginləşdirir. Muğamın improvizasiya və emosional ifadə gücü, onu Azərbaycan mədəniyyətinin unikal simvollarından birinə çevirir. Xanəndə muğam əsaslı xalq mahnılarını interpretasiya edərkən məqam bilikləri, improvizasiya, emosional ifadə və ənənəvi üslubların mənimsənilməsi əsas rol oynayır. Bu üsulları mənimsəməklə Azərbaycan muğamının dərin poetik və musiqi dünyasını tam açıb dinləyicilərə çatdırmaq mümkündür.

Açar sözlər: muğam, folklor, xalq mahnıları, xanəndə, interpretasiya, musiqi, üslub, mədəniyyət.

Aliyev Zakir Alisahib oglu

The Role of Azerbaijani Mugham in Folk Music

Abstract

This article examines the historical development of mugham art and highlights its role in folk music. It explores the existing connections between these two art forms, as well as the mutual influences and genre transformations evident in musical repertoire and performance styles. Using historical, theoretical, and comparative analysis methods, the study presents an engaging approach to the subject. The findings open new perspectives for the study of both art forms.

The research reveals that mugham is one of the foundational pillars of Azerbaijani folk music. It interacts with both classical and folk music, enriching Azerbaijan's

musical traditions. The improvisational power and emotional expressiveness of mugham make it one of the unique symbols of Azerbaijani culture.

When interpreting folk songs based on mugham, a *khananda* (traditional singer) must master modal knowledge (*maqam*), improvisation, emotional expression, and traditional styles. By mastering these techniques, it becomes possible to fully convey the profound poetic and musical world of Azerbaijani mugham to listeners.
Keywords: mugham, folklore, folk songs, *khananda*, interpretation, music, style, culture.

Роль азербайджанских мугамов в фольклорной музыке

Резюме

В представленной статье рассматриваются исторические этапы развития искусства мугама, раскрывается его роль в фольклорной музыке. Освещены вопросы выявления взаимосвязей между двумя видами искусства, а также такие аспекты, как взаимовлияние и жанровая трансформация в музыкальном репертуаре и исполнительском стиле. При решении проблемы использованы исторический, теоретический и сравнительный методы анализа, что позволило продемонстрировать интересный подход. Полученные результаты создают основу для открытия новых перспектив в исследовании обоих видов искусства. В ходе исследования выяснилось, что мугам является одним из основных столпов азербайджанской фольклорной музыки. Он находится во взаимосвязи как с классической, так и с народной музыкой, обогащая музыкальные традиции Азербайджана. Импровизационная сила и эмоциональная выразительность мугама делают его одним из уникальных символов азербайджанской культуры. При интерпретации народных песен на основе мугама ханенде играют ключевую роль знания макамов, импровизация, эмоциональная выразительность и освоение традиционных стилей. Овладение этими методами позволяет полностью раскрыть глубокий поэтический и музыкальный мир азербайджанского мугама и донести его до слушателей.
Ключевые слова: мугам, фольклор, народные песни, певец, интерпретация, музыка, стиль, культура.

Rəyçi:, dosent, sənətşünaslıq üzrə fəlsəfə doktoru: Ellada Hüseynova

Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu, *ISSN 2224-9257*
Filologiya məsələləri № 3, 2025
Səh. ————————

NURAN RƏHMANZADƏ
Bakı Avrasiya Universiteti magistrant,
mailto:nuranrahman9@gmail.com

ZAMANLARARASI YARADICI TƏFƏKKÜR: İHSAN OKTAY ANAR VƏ ƏDƏBIYYATIN SƏRHƏDLƏRI

Xülasə

Bu məqalədə, türk ədəbiyyatının dəyərli postmodern yazarlarından biri olan İhsan Oktay Anarın həyatı və yaradıcılığı araşdırılmış, onun yaradıcılığının ideya özəllikləri tədqiqat obyektinə çevrilmişdir. Əsas diqqət onun əsərlərindəki yaradıcı təfəkkürün zamanlararası quruluşuna və ədəbiyyatın ənənəvi sərhədlərini aşan üslubuna yönəldilmişdir. İhsan Oktay Anar öz dövrünün yazı ənənələrini və sərhədlərini aşmağa çalışmış, əlində olanlar ilə heç bir zaman yetinməmişdir. O, postmodernizmi əsərlərinə gətirsədə, öz yazı üslubu ilə ənənələri də müasirləşdirməyi, özününküləşdirməyi bacarmışdır. Müəllifin mətnlərində tarix, mifologiya, fəlsəfə və fantastika kimi müxtəlif sahələrin sintezinə yer verilməsi, onun postmodern ədəbiyyatın orijinal təmsilçilərindən biri olduğunu göstərir. Həmçinin öz dövrünün ən dəyərli yazıçısı olaraq ədəbiyatda öz izini qoymuşdur. Məqalədə, İhsan Oktay Anarın bədii-estetik qaynaqları**,** janrlararası keçidlər**,** dil və üslub xüsusiyyətləri kontekstində təhlillər edilmişdir. Nəticə olaraq, müəllifin əsərlərində zaman və janr anlayışlarına verdiyi yaradıcı yanaşma ətraflı şəkildə təhlil edilmiş, bu yanaşmanın onun bədii-estetik dünyagörüşünə və postmodern ədəbiyyat çərçivəsində formalaşan fərdi üslubuna təsiri dəyərləndirilmişdir.

Açar sözlər: İhsan Oktay Anar, dil və üslub, postmodernizm, ədəbiyyatın sərhədləri, janrlararası keçid.

NURAN RAHMANZADA

CREATIVE THINKING ACROSS TIME: İHSAN OKTAY ANAR AND THE LIMITS OF LITERATURE

SUMMARY

This article examines the life and works of İhsan Oktay Anar, a distinguished postmodern writer in Turkish literature, as well as the ideological characteristics of his works. His works emphasize the intertemporal structure of creative thinking and the literary style that transcends the traditional boundaries of literature. İhsan Oktay Anar has sought to surpass the writing traditions and limitations of his time, never being satisfied with what is at hand. While incorporating postmodernism into his works, he has also managed to modernize and embrace traditions through his writing style. The synthesis of different fields such as history, mythology, philosophy, and fiction in the author's texts demonstrates his status as an authentic representative of postmodern literature. As one of the esteemed writers of his time, he has also made

his mark on literature. The article examines İhsan Oktay Anar's artistic and aesthetic sources, genre transitions, and language and style characteristics. Ultimately, the creative approach to the concepts of time and genre in the author's works is extensively analyzed, and the influence of this approach on the author's artistic-aesthetic worldview and individual style within the framework of postmodern literature is evaluated. Keywords: İhsan Oktay Anar, language and style, postmodernism, boundaries of literature, genre transitions.

İhsan Oktay Anarın yaradıcılığının bədii-estetik qaynaqları

"Dumanlı Qitələr atlası" və bir çox qeyri-adi romanın müəllifi olan İhsan Oktay Anar, 1960-da Türkiyənin Yozqat şəhərində dünyaya göz açmışdır. Anar atasının peşəsinə görə ibtidai və orta məktəbi İstanbulda oxuyub lakin o, orta məktəbdə oxuyarkən İzmirə köçüblər. Anar İzmirdəki "Karşıyaka Oğlanlar Liseyində" oxumağa başlamışdır, lakin davamlı olaraq dərsdən yayındığı, kitabxanaya getdiyi və orada kitab oxuduğu üçün məktəbdən qovulub. Məktəbdən qovulması xəbərini alandan sonra axşam məktəbinə keçib, orta məktəbi də bu yolla başa vurub. Orta məktəbi bitirdikdən sonra Ege Universitetinin fəlsəfə fakültəsinə daxil olub, bakalavr təhsilindən sonra isə həmin universitetdə magistratura pilləsini bitirib. 1995-ci ildə "Şimali İraq Hərəkatı" da hərbi xidmətini başa vurmuşdur.Magistratura və hərbi xidmətini başa vurduqdan sonra Ege Universitetinin fəlsəfə bölməsinə elmi işçi vəzifəsinə təyin olunmuş və 2011-ci ildə təqaüdə çıxmışdır. 1995-ci ildə Cənub-Şərqdə hərbi xidmətinin təsirindən çıxa bilmədiyini deyən İhsan Oktay Anar hərbi xidmətdən sonra Ege Universitetində doktoranturaya başlamış və 1994-cü ildə "Qədim Yunan Fəlsəfəsində Zaman Anlayışı" adlı dissertasiya işi ilə bitirmişdir. 1999-cu ildə Özlem Xanımla ailə quran yazıçı "Amatı" həyat yoldaşına həsr edib. Özlem Anarın 2016-cı ildə nəşr olunan "İtirilmiş Ruhlar Kitabı" kitabının üz qabığını İhsan Oktay Anar çəkmişdir. [10]

İhsan Oktay Anar nəinki yazar, həmçinin illustrator, tərcüməçi də olmuşdur. O sənət ilə çox yaxından maraqlanırdı. Hətta az bilinən faktlardan biridə bu idi ki, Anar bir neçə kitabının üz qabığını şəxsən özü çəkmiş, ərsəyə gətirmişdir. Anarın yazarlığının indiki zamanda və öz zamanında bu qədər sevilməsinin səbəbi elə məhz incəsənəti, tarixi, ədəbiyyatı bir araya gətirərək postmodern bir dünya yaratmağı bacarmışdır.

İhsan Oktay Anarın ilk nəşr olunan hekayəsi "Kafirlər üçün Apology" 1985-ci ildə Morköpük jurnalında, sonrakı bir neçə hekayəsi isə eyni jurnalda və Kitabda dərc olunmuşdur. Onun ilk nəşr olunmuş romanı olan "Dumanlı Qitələr Atlası" (1995) iyirmidən çox dilə tərcümə edilmişdir. Romanı kino sahəsinə cəlb olunma cəhdi olub, lakin müəllif icazə verməyib. Əsər 2015-ci ildə İlban Ertemin rəsmləri ilə komiks (çizgi roman) şəklində nəşr olunmuşdur. Anarın "Puslu Kitablar Atlası"ndan əvvəl yazdığı, lakin hələ çap olunmadığı "Tamu" adlı başqa bir romanı da var.

İhsan Oktay Anar bir müddət "Yeni Bina" qəzetində köşə yazarı kimi çalışıb. Öküz, Heyvan və s. jurnallarda da məqalələr dərc etdirən İhsan Oktay Anar 2013-cü ildən "Ot" jurnalında yazır. Uzun illər Ege Universitetində dosent vəzifəsində çalışan İhsan Oktay Anar 2011-ci ildə təqaüdə çıxıb. Hazırda isə İzmirdə yaşayır. O, əvvəllər "Yeni Binyıl" qəzetində və bəzi dərgilərdə köşə yazılığı edib, ancaq son illərdə daha çox səssiz bir həyat tərzi sürür. Bir neçə müsahibəsində artıq roman yazmayacağını, ədəbiyyatdan "təqaüdə çıxdığını" deyib.

Zamanlar arasında sərbəst şəkildə hərəkət edən bir bədii düşüncə.

İhsan Oktay Anarın əsərlərində zaman anlayışı demək olar ki yoxa çıxır, oxucu əsəri oxuyan zaman zamanın sərhədləri arasında itib batır. Onun romanlarında zaman önəmli bir məhfum kimi deyildə, daha sadə formada bizə təqdim olunur. Anar postmodernizmin ən mükəmməl yazrlarından biridir. O, postmodrnizmi Türkiyə ədəbiyyatına gətirərək ənənənin sərhədlərini necə aşmaq lazm olduğunu da onlara göstərmişdir. Zaman anlayışı, postmodernizmdə özünü daha çox göstərən bir anlayışdı. Postmodernizm ümumiyyətlə nədir? Zaman burada hansı formada təzahür edir?

Postmodernizm sadəcə bir ədəbi cərəyan yox, həm də mədəniyyətə, sənətə, fəlsəfəyə və memarlığa təsir etmiş böyük bir düşüncə tərzidir. Postmodernizm — "modernizmdən sonra gələn" dövr deməkdir. XX əsrin ortalarından sonra (əsasən İkinci Dünya Müharibəsindən sonra) meydana çıxıb. Bu cərəyan dünyaya daha şübhə ilə yanaşır**,** qəti həqiqətlərin olmadığını düşünür və oyunbaz, ironiya ilə dolu bir yanaşmanı önə çıxarır. Daha elmi dildə isə belə istinad vermək olar: "Postmodernizm dövrünün dərk edilməsi müasirlik anlayışının şübhə altına alınmasını və müasirliyə inamın itirilməsini, plüralizm ruhunun mövcudluğunu, ənənəvi təəssübkeşliyə skeptisizmin artması və nəhayət, dünyanı universal bir bütöv kimi qəbul edən, suallara qəti həll və dolğun cavablar gözləyən perspektivin rədd edilməsini nəzərdə tutur. Postmodernizmi açmağı bacarmaq üçün biz mənanın aydınlığına yox, məna zənginliyinə baxmalıyıq; ağ-qara fərqindən qaçaraq, "ya biri, ya digəri" əvəzinə "həm birini, həm də digərini" qəbul etmək; Bir neçə məna səviyyəsinin və bir neçə mərkəz nöqtəsinin birləşməsini aşkar etmək lazımdır" (7, s. 4)

Postmodernizm XX əsrin ikinci yarısından etibarən ortaya çıxmış, qəti həqiqətlərin olmadığını irəli sürən və mətni çoxqatlı, açıq şərhlərə açıq hala gətirən bir yanaşmadır. İhsan Oktay Anarın əsərləri də məhz bu çoxqatlılıq və ironiya xüsusiyyətləri ilə seçilir. Yazıçının əsərlərində tez-tez tarixi hadisələr və obrazlar fantastik elementlərlə birləşdirilir. Məsələn, onun ən məşhur əsərlərindən biri olan "Dumanlı Qitələr Atlası" nda Osmanlı dövrü İstanbulunda baş verən hadisələr həm real, həm də uydurma elementlərlə təqdim olunur. Bu cür yazı tərzi postmodernizmin "reallığın dekonstruksiyası" (yenidən qurulması və sorğulanması) prinsipi ilə üst-üstə düşür. Digər bir postmodern cəhət onun əsərlərindəki intertekstualıq, yəni mətn içində mətn, başqa mətnlərə eyhamlar və göndərişlərdir: "Romanlarındakı qeyri-müəyyən zaman və məkan, dildən istifadə tərzində radikal seçimlər, yeni tarixçiliyə

yanaşan tarixi şərh etmə tərzi, onu türk romanlarında postmodernizmin ən önəmli nümayəndələrindən birinə çevirir.” (6, s.3)

İhsan Oktay Anar həm İslam fəlsəfəsinə, həm qərb ədəbiyyatına, həm də xalq nağıllarına istinad edir. Oxucu isə bu mətnlər arasında bir səyahətə çıxarılır və bəzən öz “doğru”sunu özü tapmalı olur. Müəllifin səsi ilə obrazların səsi iç-içə keçir, müəllif mətnin içində görünür, amma eyni zamanda gizlənir — bu da postmodernizmin əsas özəlliklərindəndir. Eyni zamanda, Anarın dil oyunu, ironik yanaşmaları, mif və metafizikaya olan marağı onun mətnlərini yalnız ədəbi deyil, həm də fəlsəfi cəhətdən zənginləşdirir. Onun dünyası həm qədim, həm müasir, həm real, həm də xəyali olmaqla oxucuya fərqli zaman və məkan təcrübəsi yaşadır. Həmçinin yazarın dili də qeyri-adi və alışdığımız tərzdən tamamilə fərqlidir: “Kadirqa gəmiqayırma estakadasına yaxınlaşarkən onun onurğası dibinə dəydi. Əjdaha başlı kolomborne topundan atılan top gülləsi ilə sancaq tərəfdəki dəlikdən axan su qayığı ağırlaşdırıb su xəttini qaldırmışdı. Lakin onun ağırlığını artıran ikinci səbəb, ya nizədən, ya da arquebus lüləsindən atılan və demək olar ki, böyrünün hər tərəfinə dəyən çoxsaylı güllələr idi. Gəmidə çətinliklə söndürüldüyü görünən bir neçə yanğının da izləri var idi” (4, s.15).

İhsan Oktay Anar çağdaş türk postmodernizminin ən parlaq nümayəndələrindən biridir. Onun ədəbiyyata gətirdiyi yeniliklər və janrlararası keçidlər postmodern ədəbiyyatın ruhunu əks etdirir və bu cəhətdən onun əsərləri müasir ədəbiyyat üçün dəyərli bir örnəkdir. Əsərlərində əski türk dilindən çox tez-tez istifadə edərək onun işləkliyini qorumağa çalışmışdır: “Kainatın yaradılışından 7079 il sonra, İsa peyğəmbərdən 1681 il sonra, hicrətdən 1092 il sonra isə Konstantinopol adlı məşhur bir şəhər olduğunu alimlər, cahillər, şərəf əhli, əlamət əhli və sodomilər nəql etmiş, elan etmiş, söyləmiş və bildirmişlər” (Qeyd: orginal dildə- “Ulema, cuhela ve ehli dübara, ehli namus, ehli işaret ve erbab-i livata rivayet ve ilan, hikayet ve beyan etmişlerdir ki, kun-ı Kainattan 7079 yıl, İsa Mesihden 1681 ve Hicretten dahi 1092 yıl sonra, adına Konstantiniye derler trrakası meşhur bir kent vardı”.) (4 s.13).

Əski türk dili Anarın yaşadığı zamanda artıq öz işləkliyini itirsə də, o çalışmışdır ki bu dilə yenidən canlılıq gətirsin: “Anarın işlətdiyi bəzi söz və məfhumlar köhnə dildə nümunələr olsa da, indiki bədii-ədəbi dildə artıq yoxdur. Lakin qədim dildə belə olmayan bəzi sözlərin müəllif tərəfindən yumoristik məqsədlər üçün istifadə edildiyi görünür. Üstünlük verilən köhnə anlayışların əksəriyyətinin terminlər və ya texniki sözlər olması da diqqət çəkir.” (1, s.5)

İhsan Oktay Anar yazdığı əsərlərin demək olar ki çoxunun mövzularını tarixdən götürmüşdür. O, öz zamanı və keçmiş zaman arasında get-gəl edərək oxucunu labirint içərisinə daxil edir və oxucu kodları açaraq o dünyadan çıxmağa çalışır yaxud da həmin labirintə itib-batır. Oxucu Anarın əsərlərini oxuyanda tamam fərqli dünyaya daxil olur. Həmçinin, Anarın əsərləri fəlsəfi, psxoloji baxımdan da şərh edilir : “Mövzuları ümumiyyətlə tarixdən götürülən Anar Dekartın “Metod

Üzərindən Söhbət" əsərindən ilhamlanaraq "Dumanlı qitələr atlası"nda insanın ekzistensial problemlərinə ironik yanaşır, "Kitab-ül Hiyel" isə hakimiyyət dalınca düşənlərin faciəvi və komik vəziyyətlərindən bəhs edir. O, "Efresyab hekayələri"ndə insan həyatını gözəlləşdirməyi qarşısına məqsəd qoyub və bu kontekstdə sevgi və tolerantlığı önə çəkir. "Amat" və "Suskunlar"da o, oxşar problemə, bəşəriyyətin var olandan bəri yaratdığı xeyirlə şərin əbədi qarşıdurmasına toxunur. Müəllif "Yeddinci gün" əsərində insanın əbədiyyətə qovuşmaq xəyallarının ironiyasına və mərhum Osmanlı ziyalılarının faciəvi vəziyyətinə diqqət çəkir, "Qaliz Kahraman"da isə Kasımpaşalı İdris Əmil Əfəndinin həyat hekayəsinə diqqət çəkir" (9, s.6)

Anar yaradıcılığında ümumilikdə diqqət çəkən əsas mövzulardan biri daha gözəl, ədalətli və yaşamağa dəyər bir dünyanın formalaşdırılması arzusu ilə bağlıdır: "Görürük ki, Anarın bütün romanlarında ümumiyyətlə qarşılaşdığımız əsas mesaj daha yaşana bilən, gözəl bir dünya yaratmaq cəhdidir" (s.6) (y.a) Onun romanlarında bəşəri dəyərlərin qorunması, insan ruhunun təmizliyi və ədalətə olan ehtiyac daim ön plandadır. Müəllifin qəhrəmanları çox zaman bu idealist dünyanı axtarır, onun uğrunda mübarizə aparır, lakin bu mübarizənin qarşısında müxtəlif maneələrlə – xüsusilə də mənəviyyatsızlığın, ehtirasın, maddiyyatçılığın və hakimiyyət hərisliyinin təcəssümü olan mənfi obrazlarla qarşılaşırlar. Anar bu obrazlar vasitəsilə insan cəmiyyətindəki ziddiyyətləri göstərir, yəni bir tərəfdə yaxşılıq, dürüstlük və insani dəyərlər dayanırsa, digər tərəfdə bunlara zidd olan, ancaq güc və nəzarət arzusuna aludə olmuş qaranlıq fiqurlar yer alır: "Anarın romanlarında hadisələrin dərin strukturunda Allahla Şeytan, xeyirlə şərin əbədi mübarizəsi var. Bu mübarizə dini-mistik elementlərlə, ənənəvi mədəniyyətin daşıyıcıları olan linqvistik formalarla, bir-biri ilə əlaqəli zəngin hekayələr və ilahi dinlərin təlimlərinə mətnlərarası istinadlarla mənalı bir bütövlük təşkil edir" (3, s. 94-95)

Anarın romanlarında ideal dünyanın yaradılması sadəcə bir utopik təsəvvür deyil, əksinə, insanın öz iç dünyasında bu idealları yaşatması və qoruması kimi təqdim olunur. Onun fikrincə, dünyanı gözəlləşdirmək üçün öncə insanın daxilindəki ehtirasları, mənfi impulsları ram etməsi, öz vicdanı ilə üz-üzə gələ bilməsi vacibdir. Müəllif əsərlərində bu prosesi həm psixoloji, həm də fəlsəfi müstəvidə işləyir, qəhrəmanlarının daxili dünyasını analiz edərək oxucuya onların mənəvi dilemmasını göstərir. Anar həm də bu əsərlərində zaman-zaman ironiyadan və sarkazmdan istifadə edərək, mənfi obrazların davranışlarını ifşa edir. Onun qələmi ilə yaradılan bu mənfi personajlar adətən böyük iddialar, sonsuz güc və hakimiyyət arzusu ilə yaşayırlar. Lakin müəllif onların bu cəhdlərini mənasız və gülünc bir vəziyyət kimi təqdim edir. Çünki əbədi güc axtarışı və aləm üzərində hökmranlıq iddiası, əslində insanın nə qədər aciz və nə qədər aldadıcı xəyallara qapıldığını göstərir. Anar bu obrazları vasitəsilə cəmiyyətin və fərdin yanlış istiqamətdə inkişaf etdiyini, bəşəriyyətin həqiqi dəyərlərdən uzaqlaşdığını vurğulayır. Bütün bunlarla yanaşı, müəllif oxucunu düşünməyə vadar edir: Əgər bu dünya yaşamaq üçün yersə, onu gözəlləşdirmək yalnız dövlətlərin və sistemlərin işi deyil, hər bir fərdin vicdanı və

əməlləri ilə bağlıdır. Anarın bu çağırışı onun bədii dili, obrazlı ifadələri və dərin fəlsəfi çalarları ilə oxucuya çatdırılır. Beləliklə, Anar ədəbiyyatı yalnız bədii bir vasitə kimi deyil, həm də mənəvi tərbiyə, ictimai və etik düşüncəni formalaşdıran bir güc kimi təqdim edir.

Ədəbiyyatın və İhsan Oktay Anarın ədəbi əsərlərinin sərhədləri.

Ədəbiyyat çox geniş bir sahədir. Ədəbiyyat bəşəriyyətin var olduğu gündən onunla birgə inkişaf edən, zamanla yenilənən, dəyişən və yenidən qurulan canlı bir sənət sahəsidir. "Ədəbiyyatın sərhədləri" ifadəsi isə bu sahənin nə qədər geniş, eyni zamanda zaman-zaman məhdudlaşdırıla bilən tərəflərini ifadə edir: "İnsan ilk danışmağa başladığı ilk zahiri sıçrayışdan, ilk növbədə dərdini söyləməyə meyilləndiyi, yaşadığı hadisələrlə zehnin uydurmalarını sintez etməyə çalışdığı zamandan bəri keçmişdən bu günə qədər ədəbiyyat həmişə həyatın hər cür təzahürlərini, hər cür obraz və görünüşləri özündə ehtiva etmişdir. Ədəbiyyat həyatdan bəzi şeyləri seçib bəzi şeyləri kənarda qoymamaq, götürdüklərini müəyyən faktura çevirmək prinsipini və vəzifəsini qəbul edib və bu ikisi arasında ciddi, sərt və aydın fərq var. Ədəbiyyata müəyyən hədd qoymağa, sərhədə salmağa çalışanlar, ədəbiyyata qəlib vuranlar, kənardan ədəbiyyata missiya yükləyənlər, bu fərqi anlamayanlar, anlamaqda çətinlik çəkənlər, anlamaq istəməyənlər olub. Ədəbiyyat təkcə çılpaq həqiqəti götürüb yeni reallığa çevirmir, o, özünü təkcə əqli transformasiya və emosional yenidən yaratma vasitəsi kimi təqdim etmir; duyğu, düşüncə, təxəyyül, reallıq... bunların hamısını ən gözəl şəkildə və ən yüksək səviyyədə götürüb birləşdirib sintez edib yenidən qurmaq ədəbiyyatın yeganə işi deyil; Sıfır nöqtədən başlayaraq, qarşılaşdığı hər şeyi çoxaltmaq vəzifəsini öz üzərinə götürür.". [11]

Əslində ədəbiyyat, yaradıcı düşüncənin sərhəd tanımadığı bir sahə olsa da, bir çox hallarda bu sərhədlər cəmiyyətin, dövrün ideoloji, siyasi və ya mənəvi tələbləri ilə müəyyən olunur. Ədəbiyyatın mövzu sərhədləri daim dəyişir. Klassik dövrlərdə əsasən qəhrəmanlıq, sevgi, faciə kimi mövzular üstünlük təşkil edirdisə, müasir dövrdə insanın daxili aləmi, psixoloji ziddiyyətlər, texnoloji inkişaf, süni zəka, ekoloji problemlər, hətta cinsiyyət və kimlik məsələləri də ədəbiyyatın maraq dairəsinə daxil olub. Bu isə göstərir ki, ədəbiyyat heç zaman sabit mövzu çərçivəsində qalmaq məcburiyyətində deyil. Əksinə, o, yaşadığımız dövrün ritminə uyğun olaraq öz sərhədlərini genişləndirir və yenilənir. Ancaq ənənəni də inkar etmir: "Müəllif mətnin real görünməsi üçün müxtəlif yollara çalışır. Bəzən hadisələri xroniki üslubda və dövrün elmi anlayışına uyğun olaraq müxtəlif mənbələrdən, rəvayətçilərdən istifadə edərək nəql edir. Beləliklə, o, povestinin reallığını gücləndirməyə çalışır" (8, s.6)

Forma baxımından da ədəbiyyatın sərhədləri daim sınanır. Əvvəllər yalnız nəsr, nəzm və dram kimi ənənəvi janrlarla ifadə olunan ədəbi fikirlər, bu gün postmodern yanaşmalar, eksperimental mətnlər, vizual poeziya və hətta sosial

mediada yayılan mikrohekayələrlə yeni ifadə formaları qazanır. Müəllif artıq sadəcə yazıçı deyil – o, bəzən həm sənətkar, həm filosof, həm də texnoloji vasitələrlə danışan bir eksperimentçiyə çevrilir: "Anarın romanlarında ənənəvi janrları birləşdirən cəhətlər çoxdur. Şifahi mədəniyyət dairəsindən gələn bu xüsusiyyətlər yazıçının dilində də bu janrlara xas bəzi əlamətləri üzə çıxarmışdır"(2, s.3)

Lakin bəzən ədəbiyyatın sərhədləri süni şəkildə müəyyən edilir- senzura, siyasi basqılar, dini və mədəni tabu anlayışları yaradıcı azadlığı məhdudlaşdıra bilər. Belə hallarda ədəbiyyatın sərhədi sadəcə sənətin öz dinamikası ilə yox, həm də xarici təzyiqlərlə müəyyən olunur. Buna baxmayaraq, tarixin göstərdiyi kimi, yazıçılar həmişə bu sərhədləri aşmağa cəhd ediblər. Çünki ədəbiyyat yalnız bir hekayə danışmaq vasitəsi deyil, həm də azad düşüncənin, vicdanın və insanlıq təcrübəsinin daşıyıcısıdır. Ədəbiyyatın sərhədləri anlayışı həm onun sonsuz genişliyini, həm də zaman-zaman qarşılaşdığı məhdudiyyətləri ifadə edir. Ən əsas məsələ isə budur: Ədəbiyyat canlıdır, daim hərəkətdədir, dəyişkəndir, zamanın tələbinə uyğundur və hər bir yazıçı onun sərhədlərini bir qədər də irəli aparmaq gücünə malikdir.

Türk ədəbiyyatının postmodern ruhunu özündə daşıyan və orijinal yazı üslubu ilə seçilən İhsan Oktay Anar, ədəbiyyatın sərhədlərini məzmun, forma və zaman anlayışları baxımından genişləndirir. Onun əsərlərində tarix, fəlsəfə, mifologiya, elmi fantastika və gündəlik həyat bir araya gətirilərək, oxucuya həm real, həm də qeyri-real elementlərlə zənginləşdirilmiş unikal bir bədii dünya təqdim olunur. Bu da ədəbiyyatın klassik hüdudlarını aşaraq onu yeni forma və məzmun çərçivələrinə çıxarır. İhsan Oktay Anarın əsərlərində ənənəvi roman strukturu tez-tez pozur, qarışdırır və yeni bir ədəbi məkan yaradır. Bu postmodernizmin əsas xüsusiyyətlərindən biri idi; sərhədlərin pozulması, oxucunu oyun içərisinə daxil etmək və kodların tapılması: "Oyunçuluq XX əsrdə inkişaf edən postmodernizmin ədəbiyyata təqdim etdiyi bir anlayışdır. Postmodernizmlə ədəbi əsərlər artıq ənənəvi ədəbiyyatda olduğu kimi oxucuları məlumatlandıran və istiqamətləndirən tərbiyəvi əsərlər deyil. Əvəzində ədəbi əsərin yaranma prosesini nəql edən və oxucuları bu prosesə daxil edən bədii mətnlər ön plana çıxır" (5, s. 3)

O, xronoloji ardıcıllığı, klassik qəhrəman anlayışını və sabit süjet xəttini rədd edərək, oxucunu həm məzmun, həm də zaman içində dolaşdıran çoxlaylı bir mətn qurur. Məsələn, "Dumanlı Qitələr Atlası" romanında gerçəklik və fantastika bir araya gəlir; həm Osmanlı dövrünün tarixi atmosferi canlandırılır, həm də bu dövr qeyri-real və simvolik hadisələrlə bəzədilir. Bu isə oxucuya sadəcə tarix oxumaq yox, həm də fəlsəfi, bədii və simvolik bir səfərə çıxmaq imkanı verir.Ədəbiyyatın sərhədlərini aşmaq, İhsan Oktay Anar üçün həm də janrların qarışdırılması deməkdir. Onun əsərlərində romanla birlikdə əfsanə, nağıl, xalq ədəbiyyatı, elmi araşdırma və ensiklopedik bilgi yanaşı işlənir. Bu isə ədəbiyyatı təkcə estetik zövq vasitəsi deyil, həm də bilik və təxəyyül dünyası kimi təqdim edir. Beləliklə, müəllif oxucu ilə sadəcə bir hekayə paylaşmır, onu düşünməyə, şübhə etməyə və bildiklərini yenidən sorğulamağa təşviq edir. İhsan Oktay Anar həm də dilin sərhədlərini genişləndirir. O,

Osmanlı türkcəsindən tutmuş müasir danışıq dilinə, elmi terminologiyadan gündəlik ifadələrə qədər geniş bir leksik sahəyə müraciət edir. Onun dili həm tarixidir, həm çağdaş; həm ciddi, həm də ironikdir. Bu da ədəbiyyatın dil vasitəsilə nə qədər rəngarəng və çoxqatlı ola biləcəyini göstərir.

Nəticə

İhsan Oktay Anarın yaradıcılığı ədəbiyyatın sərhədlərini aşıb onu yeni bir məkana – həm idrakın, həm təxəyyülün sərbəst şəkildə hərəkət etdiyi bir sahəyə çevirir. Onun əsərləri yalnız oxunmaq üçün deyil, kəşf edilmək, düşünülmək və hiss edilmək üçündür. Bu cəhətlərinə görə İhsan Oktay Anar müasir türk ədəbiyyatında sərhəd tanımayan bir yazıçı kimi seçilir. O, əsərlərinə hər hansısa bir sərhəd qoymur, çox şaxəli mövzulara toxunur, demək olar ki hər kütləyə xidmət edir. O romanları vasitəsilə oxucunu yaşadığı həyatın mənfi aurasınan ayıraraq, yazarın təxəyyülünün geniş, utopik dünyasına daxil edir. Anarın romanları, yalnız ədəbi zövq aşılamır, eyni zamanda gənc nəsilin dünyagörüşünün formalaşmasında və inkişafında mühüm rol oynayır. Onun əsərlərində yer alan simvolik mənalar, fəlsəfi dərinlik, həyatın müxtəlif tərəflərini əhatə edən bədii baxışlar gənclərə hadisələrə təkcə səthi deyil, daha dərindən, fərqli və çoxşaxəli perspektivlərdən yanaşmağı öyrədir. Müəllifin qəhrəmanları adətən daxili dilemmlərlə qarşılaşır, mənəvi axtarışlara girirlər və bu prosesdə oxucu da düşünməyə, öz daxili dünyasına nəzər salmağa təşviq olunur. Anarın yaratdığı bədii məkanlarda gənc oxucu həm özünü, həm cəmiyyəti, həm də zaman anlayışını yenidən kəşf edir. O, oxucunu passiv müşahidəçidən fəal düşünənə çevirir – çünki Anarın dili, strukturu və ideya dünyası, ənənəvi qəliblərə sığmır və gənclərin təxəyyülünü, tənqidi təfəkkürünü genişləndirir. Müəllifin mürəkkəb və eyni zamanda cəlbedici bədii dili, həmçinin sarkazm və ironiyadan ustalıqla istifadə etməsi, gənc oxucunu həyatın ikili təbiəti – gözəllik və naqislik, işıq və kölgə ilə tanış edir. Nəticə etibarilə, Anarın romanları sadəcə ədəbi əsər olmaqdan kənara çıxır; onlar gənclər üçün həm mənəvi inkişaf vasitəsi, həm də intellektual zənginlik mənbəyidir. Bu əsərlər sayəsində gənc nəslin daxili aləmi daha dərin, baxış bucaqları isə daha geniş və çoxölçülü olur. Anarın yaradıcılığı, düşünən, sorğulayan və dəyişən bir gənc nəslin formalaşmasına xidmət edir ki, bu da müasir ədəbiyyatın əsas məqsədlərindən biridir.

Ədəbiyyat siyahısı

1. Ahmet Tanyıldız. “İnşânın Postmodern Terennümü II: Yedinci Gün’de Osmanlı Türkçesi Kullanımına Dair”. Dicle Üniversitesi, Edebiyat Fakültesi, Diyarbakır, Türkiye. 10 s.
2. Emin Erdem Özbek. “İhsan Oktay Anar’ın romanlarında sözlü geleneğin dile yansıması”. Balıkesir Üniversitesi, Sosyal Bilimler Enstitüsü, Türk Dili ve Edebiyatı Anabilim Dalı Doktora Öğrencisi-Balıkesir, Türkiye. 20 s.

3. Gündüz Osman. İhsan Oktay Anar'ın Kurgu Dünyası, Vizyon Yayınevi, Ankara, 2009. 254 s.
4. İhsan Oktay Anar. Puslu Kıtalar Atlası. İletişim yayınları. İstanbul 2013, 238 s.
5. Kemal Temizer, Selma Baş. "Yazar-Metin-Okur Ekseninde Postmodern Anlatının Oyunsulaştırılması: Puslu Kıtalar Atlası Örneği". Edebi Eleştiri Dergisi. Cilt V, Sayı I, Yıl 5, Mart 2021. 27 s.
6. Muhammet Hüküm. "İhsan Oktay Anar'ın "Puslu Kıtalar Atlası" romanının metinlerarası ilişkiler açısından değerlendirilmesi". Akademik matbuat. Kasım 2017. 14 s.
7. Nesrin Kale. "Postmodernizm-Hermeneutik ve eğitim". Ankara Universitesi. 1993. 10 s.
8. Osman Gündüz. "Geleneksel anlatma formlarından çağdaş romana aktarımlar ya da İhsan Oktay Anar'ın romanlarında post-modern anlatıcı profilleri". A. Ü. Türkiyat Araştırmaları Enstitüsü Dergisi. Erzurum. 2016. 9 s.
9. Yusuf Aydoğdu. "Postmodern bir roman çözümlemesi: İhsan Oktay Anar'ın Suskunlar'ı". Bingöl Üniversitesi Sosyal Bilimler Enstitüsü Dergisi Yıl: 5/ Cilt: 5/ Sayı:9 /Bahar 2015. 24 s.
10. https://teis.yesevi.edu.tr/madde-detay/anar-ihsan-oktay
11. https://www.eskieserler.com/Eski/Eserler/Makale/1732/MakaleDetayYazdir.asp?LID=TR&ID=1732

Rəyçi: fil.e.d. prof. Mahmud Allahmanlı

Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu, *ISSN 2224-9257*
Filologiya məsələləri № 3, 2025
Səh. ————————

GÜLÇİN HİKMƏT QIZI ALLAHVERDİYEVA
Bakı Slavyan Universiteti
gulchiinallahverdiyeva@gmail.com

MÜHACİRƏTDƏ YAŞAYAN İRS: XX ƏSR AZƏRBAYCAN ZİYALILARININ ƏDƏBİ-MƏDƏNİ MÜBARİZƏSİ

XÜLASƏ

XX əsrdə baş verən siyasi və ictimai proseslər nəticəsində mühacirətə üz tutan Azərbaycan ziyalıları milli ədəbi-mədəni irsin qorunması, tədqiqi və təbliği istiqamətində mühüm fəaliyyət göstərmişlər. Onlar mühacirətdə olsalar belə, istiqlal mübarizəsini mətbuat vasitəsilə davam etdirmiş, klassik ədəbiyyatımızın əsas simalarının yaradıcılığını elmi və publisistik yazılarla araşdıraraq gələcək nəsillərə çatdırmağa və ədəbi irsimizi dünyaya tanıtmağa çalışmışlar. "Azərbaycan Yurd Bilgisi", "Azərbaycan" kimi jurnallarda yayımlanan məqalələrdə Molla Pənah Vaqif, Molla Vəli Vidadi, Mirzə Ələkbər Sabir, Mirzə Fətəli Axundzadə, Aşıq Ələsgər kimi sənətkarların yaradıcılığı təkcə ədəbi deyil, həm də milli kimlik baxımından təhlil edilmişdir. Əhməd Cəfəroğlu, Əbdülvahab Yurdsevər və digər ziyalıların bu istiqamətdəki elmi araşdırmaları mühacirət ədəbiyyatşünaslığında sistemli və analitin yanaşma ənənəsini formalaşdırmış, klassik irs və müasir dövrü əlaqəli şəkildə dəyərləndirilməsinə şərait yaratmışdır. Məqalədə göstərilir ki, mühacir ziyalıların fəaliyyəti yalnız keçmişi yaşatmaqla kifayətlənməyib, eyni zamanda azadlıq, maarifçilik və milli dirçəliş ideyalarının təbliğinə yönəlmişdir. Bu baxımdan onların mətbuat irsi həm elmi, həm də ideoloji mənbə kimi mühüm əhəmiyyət kəsb edir.

Açar sözlər: mühacirət ədəbiyyatı, ədəbi-mədəni irs, mühacirət ədəbiyyatşünaslığı, elmi-publisistik fəaliyyət, istiqlal mübarizəsi, mətbuat irsi, milli kimlik

ГЮЛЬЧИН ХИКМЕТ АЛЛАХВЕРДИЕВА

НАСЛЕДИЕ В ИЗГНАНИИ: ЛИТЕРАТУРНО-КУЛЬТУРНАЯ БОРЬБА АЗЕРБАЙДЖАНСКИХ ИНТЕЛЛИГЕНТОВ В XX ВЕКЕ

РЕЗЮМ

В результате политических и социальных процессов, происходивших в XX веке, азербайджанские интеллигенты, оказавшиеся в эмиграции, провели значительную работу по сохранению, изучению и пропаганде национального литературно-культурного наследия. Несмотря на жизнь в изгнании, они продолжили борьбу за независимость посредством прессы, исследовали творчество ключевых фигур классической азербайджанской литературы в научных и публицистических статьях, стремясь донести это наследие до будущих поколений и представить его мировому сообществу. В статьях, опубликованных в таких журналах, как Azərbaycan Yurd Bilgisi и Azərbaycan, творчество таких деятелей, как Молла Панах Вакиф, Молла Вели Видади, Мирза Алекпер Сабир, Мирза Фатали Ахундов, Ашиг Алескер,

анализировалось не только с литературной точки зрения, но и с позиции национальной идентичности. Научные исследования Ахмеда Джафароглу, Абдулвахаба Юрдсевера и других деятелей заложили основы системного и аналитического подхода в эмигрантоведении, способствовали комплексной оценке классического наследия в контексте современности. В статье подчеркивается, что деятельность эмигрантских интеллектуалов не ограничивалась только сохранением прошлого, но была также направлена на пропаганду идей свободы, просвещения и национального возрождения. В этом смысле их прессовое наследие представляет собой важный источник как с научной, так и с идеологической точки зрения.

Ключевые слова: Эмигрантская литература, Литературное и культурное наследие, Эмигрантская литературная критика, Научно-публицистическая деятельность, Борьба за независимость, Пресса как наследие, Национальная идентичность

GULCHIN HIKMAT QIZI ALLAHVERDIYEVA

Heritage in exile: The literary and cultural struggle of Azerbaijani intellectuals in the 20th century

Abstract

In the 20th century, as a result of political and social processes, Azerbaijani intellectuals who went into exile carried out significant activities in the direction of preserving, researching, and promoting the national literary and cultural heritage. Altho ugh they lived in exile, they continued the struggle for independence through the press, explored the works of prominent figures of classical Azerbaijani literature in scientific and journalistic writings, and sought to convey this heritage to future generations and introduce it to the world. Articles published in journals such as Azərbaycan Yurd Bilgisi and Azərbaycan analyzed the works of literary figures like Molla Panah Vagif, Molla Vali Vidadi, Mirza Alakbar Sabir, Mirza Fatali Akhundov, and Ashig Alasgar not only from a literary perspective but also in terms of national identity. The scholarly research of Ahmad Jafaroghlu, Abdulvahab Yurdsever, and other intellectuals in this field established a tradition of systematic and analytical approaches in émigré literary studies and enabled the evaluation of classical heritage in connection with contemporary issues. The article emphasizes that the activities of émigré intellectuals were not limited to keeping the past alive but also focused on promoting ideas of freedom, enlightenment, and national revival. In this regard, their press legacy holds great significance both as a scientific and ideological source.

Keywords: Emigrant literature, Literary and cultural heritage, Emigrant literary criticism, Scientific and journalistic activity, Independence struggle, Press legacy, National identity

XX əsrdə müxtəlif tarixi və ictimai proseslərin təsiri ilə ölkədən uzaq düşən Azərbaycan mühacirləri milli ədəbi-mədəni irsin qorunması və gələcək nəsillərə ötürülməsi istiqamətində ciddi fəaliyyət göstərmiş, bu sahədə həm tədqiqatçı, həm təbliğatçı mövqeyində dayanmışlar. Vətənin sərhədlərindən kənarda olmaq ziyalılarımızı Azərbaycanın istiqlalı uğrunda mübarizədən geri çəkilməyə məcbur edə bilməmiş, onlar bütün təzyiqlərə rəğmən öz ədəbi fəaliyyətlərini davam etdirərək, milli irsi qorumağa, tədqiq və təbliğ etməyə davam etmişlər. Mühacirət ədəbiyyatı nümayənədləri yaşanan bir çox çətinliklərə baxmayaraq ədəbi-mədəni irsimizi tədqiq edir, jurnallar vasitəsi ilə istiqlal savaşını davam etdirirdilər. Mətbuat cəbhəsində aparılan mübarizənin dayandırılması üçün təzyiqlər göstərilir, jurnallar fəaliyyətini dayandırmağa məcbur edilirdi. Lakin yaradılan vəziyyət mühacir ədiblərimizi mübarizəni dayandırmağa məcbur edə bilmir, onlar fəaliyyəti dayandırılan mətbuat orqanı ilə eyni fikir və məqsədləri özündə daşıyan başqa bir jurnal ətrafında toplanaraq milli mübarizəni davam etdirirdilər. Xüsusən "Azərbaycan Yurd Bilgisi", "Azərbaycan" kimi jurnallar vasitəsi ilə ədəbi-mədəni irsi tədqiq edən məqalələr nəşr edilir, jurnallar klassik ədəbi irsin təbliğində mühüm rol oynayırdılar. Jurnallarda nəşr edilən elmi və publisistik məqalələrdə yalnız Azərbaycan ədəbiyyatının mərhələləri və şəxsiyyətləri geniş şəkildə araşdırılırdı. Əhməd Cəfəroğlu, Məhəmməd Əmin Rəsulzadə, Səlim Rəfiq Rəfioğlu, Əbdülvahab Yurdsevər, Mirzə Bala Məmmədzadə, Məhəmməd Əli Rəsuloğlu kimi ziyalılarımız tərəfindən bədii irsimizin təqiqində göstərilən xidmətlər mühüm əhəmiyyət kəsb edir və önəmli mənbə rolunu oynayır. Əbdülvahab Yurdsevərin Türkiyədə fəaliyyət göstərən Azərbaycan Kültür dərnəyinin təşəbbüsü ilə təşkil edilən konfranslardakı çıxışları da bədii irsimizin təbliği baxımından olduqca əhəmiyyətli addımlardandır. Onun "Azərbaycan ədəbiyyatında Vidadi və Vaqifin yaradıcılığı", "Xurşidbanu Natəvan", "Sabirin Azərbaycan ədəbiyyatındakı yeri", "Azərbaycan dram ədiblərindən Cəfər Cabbarlı", "Aşıq Ələsgər", "Qasım bəy Zakir" adlı tədqiqatları mühacirət dövrü klassik irs araşdırmaları arasında əhəmiyyətli mövqe tutmaqdadır. Mühacirət dövründə nəşr edilən məqalələrdə klassik irs yalnız tarixi baxımdan deyil, eyni zamanda müasir dövrün çağırışları folunda dəyərləndirildir. Ədiblər klassiklərimizin əsərlərindəki azadlıq, ədalət, maarifçilik kimi ideyaları ön plana çəkir, bu ideyaları Azərbaycan xalqının müstəqillik ideyaları ilə əlaqələndirirdirlər. Hər bir tədqiqatda müəlliflər ədiblərimizin yaradıcılığını məzmun, forma, ideya və üslub baxımından təhlil edir, onların dövrün ictimai-mədəni kontekstində necə dəyərləndirildiyini araşdırırdılar. Belə yanaşmalar mühacirət ədəbiyyatşünaslığında sistemli və elmi təhlil ənənəsinin formalaşdığını göstərir. Mühacirət dövründə şifahi xalq ədəbiyyatı, aşıq yaradıcılığı və ümumilikdə klassik irsimizin tədqiqi baxımından Əhməd Cəfəroğlu tədqiqatları xüsusilə əhəmiyyət daşıyır. Onun "Azəri ədəbiyyatında "Aşıq Qərib dastanı" "Mirzə Fətəli Axundzadə", "Mirzə Fətəli Axundzadə haqqında bir vəsiqə" adlı tədqiqatları "Azərbaycan Yurd Bilgisi"

jurnalında nəşr edilmiş və klassik irsimizin tədqiqi sahəsində önəmli mənbə rolunu oynayan araşdırmalar sırasındadır.

Bu fəaliyyətin vacib istiqamətlərindən biri də Azərbaycan ədəbiyyatının mərhələlərinə dair sistemli təhlillərin aparılması, klassik irsin ümummilli kontekstdə yenidən dəyərləndirilməsi olmuşdur. Mühacir ziyalılar elmi yanaşmalarında mənbə etibarlılığına, dil və üslub dəqiqliyinə xüsusi önəm vermiş, ədəbiyyat tarixini milli kimliyin formalaşma prosesində müəyyənedici amil kimi təqdim etmişlər. Qeyd edilməlidir ki, mühacir ədəbiyyatşünaslığında klassik irsə yanaşma təkcə ənənəvi izahlara söykənməmiş, həm də dövrün aktual elmi-metodoloji meyarları nəzərə alınmaqla, analitik və müqayisəli üsullar əsasında həyata keçirilmişdir. Bu da elmi irsin zənginləşməsinə, Azərbaycan ədəbiyyatının beynəlxalq müstəvidə tanınmasına şərait yaratmışdır.

Mühacirət ədəbiyyatında milli kimliyin qorunması və inkişafı, mühacir ədiblərinin əsərlərində əsas yer tutan mövzulardan biri olmuşdur. Azərbaycan mühacirət ədəbiyyatında milli kimlik məsələsi yalnız bədii əsərlərin mövzusu olaraq deyil, həm də əsərlərin yaranmasında və yayılmasında mühüm rol oynamışdır. Mühacirətə gedən Azərbaycan ziyalıları, ölkədən uzaqda olmalarına baxmayaraq, xalqın milli kimliyini qorumaq, mədəniyyətini yaşatmaq və gələcək nəsillərə ötürmək üçün ədəbiyyatdan geniş şəkildə istifadə etmişlər. Mühacirət ədəbiyyatında milli kimliyin qorunması və inkişafı məqsədilə yazılan əsərlər, yalnız mühacirət ədiblərinin şəxsi təcrübələrini və hisslərini deyil, həm də Azərbaycanın zəngin tarixi və mədəni irsini dünyaya tanıtmağa yönəlmişdir. Həmçinin, bu əsərlər vasitəsilə Azərbaycan xalqının müstəqillik uğrunda mübarizəsi və istiqlaliyyət ideyaları geniş şəkildə təbliğ edilmişdir. Mühacirət ədəbiyyatının bu xüsusiyyətləri, onun bədii və elmi tədqiqatlarla birləşərək, həm də mədəniyyətin qorunması baxımından böyük əhəmiyyət kəsb etməsini təmin etmişdir. Mühacir ədəbiyyatında milli kimlik məsələsi yalnız ədəbiyyatın özündə deyil, həm də mühacirət jurnallarında, mətbuat orqanlarında və elmi yazılarda da geniş şəkildə işlənmişdir.

Nəticə

XX əsr Azərbaycan mühacirətinin ədəbi-tənqidi fəaliyyəti təkcə bir dövrün ədəbi proseslərini əks etdirmir, həm də milli yaddaşın və mənəvi kimliyin qorunmasına yönəlmiş mühüm əhəmiyyət daşıyan bir missiya kimi çıxış edir. Mühacir ziyalılarımızın klassik ədəbiyyata, folklor və aşıq yaradıcılığına dair apardıqları tədqiqatlar milli-mənəvi dəyərin saxlanılması baxımından əvəzolunmaz xidmətlər sırasında yer alır. Mühacirət mühitindəki ədəbi-tənqidi düşüncə azadlıq, müstəqillik, maariflənmə ideyalarının davamlı şəkildə gündəmdə saxlanılmasına, milli ruhun qorunmasına səbəb olmuşdur. Onların fəaliyyətləri bu gün də milli kimliyimizin formalaşmasında örnək kimi dəyərləndirilir və Azərbaycan ədəbiyyatşünaslığının ayrılmaz parçası kimi tədqiq edilir.

İstifadə edilmiş ədəbiyyat siyahısı

1. Sultanlı V. Azərbaycan mühacirət ədəbiyyatı. B.,Şirvan-nəşr, 1998
2. Əhmədli B. Azərbaycan mühacirət ədəbiyyatı: təşəkkülü, problemləri, şəxsiyyətləri. Elm və təhsil, 2017

Türk dilində

3. Caferoğlu Ahmet. Mirza Fetheli Ahund-zade, "Azerbaycan Yurt Bilgisi", II, 1933, s.436-443
4. Caferoğlu Ahmet. Mirza Fetheli Ahund-zade hakkında bir vesika , "Azerbaycan Yurt Bilgisi", III, 1934, s.41-45
5. Yurtsever A. Vahap. Azerbaycan Şairlerinden Vakıf ve Vedadinin Yaratıcılığı, Ankara, 1952

Rəyçi: *filologiya üzrə elmlər doktor*
professor **L.İMAMƏLİYEVA**

Azərbaycan Milli Elmlər Akademiyasi M. Füzuli adına Əlyazmalar Institutu, *ISSN 2224-9257*
Filologiya məsələləri № 3, 2025
Səh. ————————

ИСМАИЛОВА СОНА ТАРИЕЛ
Бакинский Государственный Университет
Докторант кафедры Мировой литературы
https://orcid.org/0000-0001-5706-840X
e-mail: sonaismailova@mail.ru

ЛЮСИ СНОУ - НОВЫЙ ТИП ГЕРОИНИ В АНГЛИЙСКОМ РОМАНЕ XIX ВЕКА

В английском романе первой половины XIX века намечаются изменения, которые касаются не только появления нового направления – реализма, но и тем, которые затрагиваются писательницами той эпохи. Одной из таких тем является проблема женской эмансипации. В викторианскую эпоху эта проблема сильно волновала плеяду писательниц, так как в Англии того времени женщины оставались бесправными личностями, не знавшие какое же место они занимают в обществе. Патриархальный строй сильно повлиял на жизнь женщин, в чьи обязанности входило только быть хорошей женой и матерью. Конечно, женщины различного социального статуса по-разному ощущали на себе общественные нормы. Но независимыми их назвать трудно. Именно положения женщин в обществе и их права стали главной темой в творчестве сестёр Бронте. Шарлотта, Эмили и Энн Бронте писали для женщин через призму женского восприятия реальности.

В данной статье затрагивается главная героиня последнего изданного при жизни роман Шарлотты Бронте «Виллет». Героиня романа Люси Сноу является новым образом в английской литературе. Еще до «Виллет» Шарлотта Бронте показала нам независимых, умных и выбирающих себя героинь: Джейн Эйр, Френсис Анри, Шерли Килдар. Но всю противоречивость и глубину женской психологии писательница вложила в свою последнюю героиню Люси Сноу.

Ключевые слова: Шарлотта Бронте, феминизм, женская психология, викторианская эпоха, эмансипация

В викторианской Англии первой половины XIX века, где господствовали тотальный патриархат и ханжество, жила и творила Шарлотта Бронте (1816-1855). Писательница является представительницей реализма в английской литературе, однако её творчеству не чужды и романтические мотивы. Шарлотта Бронте вошла в историю мировой литературы не только как яркая представительница реализма в литературе Англии XIX века, но и как писательница-новатор, которая затронула одну из самых актуальных проблем своего времени – проблему женской эмансипации.

Шарлотта Бронте родилась 21 апреля 1916 в семье англиканского пастора Патрика Бронте. Живя в английской деревушке под названием Хоэрт, наблюдая за пустошью и понимая свой низкий социальный статус, будущая писательница знала, что для того, чтобы чего-то достичь в жизни ей нужно получить образование. Так как в викторианской Англии главным фактором для получения стабильного социального статуса и материальной стабильности было замужество. Был еще один способ – стать гувернанткой и тем самым стать независимой. Но взгляды Шарлотты на брак были противоречивыми: она верила, что женщина может быть счастлива в браке с любимым человека, но «испытывает жалость к молодым женщинам, которые помолвлены, но не любят своих будущих мужей, они, по мнению писательницы, - жертвы «тиранического социального давления» (feels sorry for young women who are engaged but do not love their future husbands, they, in the writer's opinion, are victims of "tyrannical social pressure") [3, c. 239-240].

Этими противоречиями в понимании брака писательница наделила и своих героинь. Шарлотта Бронте всегда ратовала за права английских девушек получать образование, так как это важный шаг на пути независимости и реализации. Это подчеркивается в романах писательницы: почти все её главные героини начитаны и умны. Они работают, чтобы получить возможность жить самостоятельно.

Хоть и самого детства Шарлотта Бронте читала известные произведения из маленькой отцовской библиотеки, но этого было мало. Шарлотта хотела не только получить знания, но и увидеть мир, найти своё место в этом мире. Стоит отметить, что литературный талант писательницы проявился очень рано: уже в возрасте десяти лет, в 1826 году, она пишет. “There was once a little girl”. Это первый дошедший до нас рассказ писательницы. Но как мы понимаем её ювенилии ещё не пронизаны главной проблемой, которая присутствует в зрелом творчестве писательницы.

Сначала отец семейства отправил всех своих дочерей (их было пятеро, Шарлотта Бронте является третьей дочерью в семье) в школу Кован-Бридж, ставшая прототипом Ловуда в её самом известном романе «Джейн Эйр». Плохие условия содержания девочек привели к гибели двух старших сестёр Шарлотты, что сделало её старшей в семье и ответственной за своих младших сестёр, которые тоже являются известными писательницами Эмили Бронте и Энн Бронте. Но, несмотря на все жизненные трудности, писательница всё-таки продолжает своё образование и в 1831-м году поступает в школу Роу-Хедской, где, окончив образование в 1836 году, работала учительницей. Работая и посвящая всё своё время ученицам, писательница понимает, что страдает от творческого голода и принимает решение уехать обратно в мрачный Хоэрт. Но уже в 1839 году она решает стать гувернанткой и работает на этой должности 3 года.

Шарлотте Бронте не нравится то, чем она занимается. Она хочет открыть собственную школу, но прежде чем сделать это отправляется в Брюссель в школу Константина Эже и его супруги. Именно этот период жизни писательницы лежит в основе её последнего романа «Виллет» («Villette»), написанный в 1853 году. В Брюсселе Шарлотта провела два года, которые стали для неё одними из сложных годов её жизни, так как, преподавая английский язык в школе-интернате, она была одинока, тосковала по дому и понимала, что не проявляет свой литературный талант.

Мы уже упомянули последний роман писательницы «Виллет» или же «Городок», который станет предметом анализа в данной статье. Роман относится к позднему творчеству писательницы и в нём проявился весь потенциал Шарлотты Бронте как реалиста. Повествование в романе ведется от первого лица, от лица главной героини – Люси Сноу. Образ Люси можно назвать самым, с психологической точки зрения, сложным. Так как автор романа пытается показать изменения в суждениях и поведении женщины в зависимости от жизненного опыта. Мы видим сложность натуры Люси Сноу, когда каждый, кто сталкивался с ней, видит её по- разному: «Мадам Бек считала меня синим чулком; мисс Фэншо находила меня едкой, иронической, резкой; мистер Хоум видел во мне примерную учительницу, пусть немного ограниченную и чересчур дотошную, но все же воплощенье сдержанности и положительности, необходимых гувернантке; в то время как еще один человек - профессор Поль Эмманюель не упускал случая высказать свое суждение о моем характере - горячем, неуемном, непокорном и дерзком. Все эти взгляды были мне смешны.» [1,404]

С первых страниц романа мы понимаем, что Люси Сноу сирота, которая живет у своей крестной матушки в Бреттоне. О биографии героини Шарлотта Бронте почти ничего не пишет: мы знаем лишь возраст и в дальнейшем понимаем, что она не обладает капиталом. Судьба Люси горькая, она полна одиночества и лишений. Но это лишь закаляет её характер.

После того как бедная Люси покидает дом семейство Бреттонов, лет её преследуют несчастья, о которых Люси говорит так: «Я, должно быть, упала за борт, или же мое судно в конце концов пошло ко дну.» [1, 45] Шарлотта Бронте не рассказывает читателям что же произошло с Люси за восемь лет «скитаний», но даёт понять, что героиня пережила многое, но не сломилась. Она понимала: ей нужна работа, так как за неё не числится капитал, нет богатых покровителей и нет семьи, которая поддерживала бы её. А с семейством Бреттон связи её оборвались, но по какой причине так же умалчивается.

Первая с кем встречается Люси Сноу становится мисс Марчмонт, ставшая затворницей из-за своей болезни и пережившая в юности горькую утрату любви. Через её образ писательница показывает, как на человека влияет

одиночество и даёт почву для размышления самой героини. Хоть и в глазах Люси мисс Марчмонт является сильной духом личностью, но её пример не нравится Люси. Здесь мы видим дуализм по отношению к браку не только Люси Сноу, но и самой писательницы. Шарлотта Бронте верила, что женское предназначение не только найти себе место в этом обществе, но и найти настоящую любовь. Этот дуализм свойственен не только Люси Сноу, но и Джейн Эйр («Джейр Эйр»), Френсис Анри («Учитель»). Почти все героини, созданные писательницей, сильные духом независимые личности, которые, не теряя независимости, обретают счастья.

Путешествие в неизведанную страну для Люси Сноу является чем-то романтичным. Тем не менее романтические ожидания рушатся, когда героиня сталкивается с трудностями, связанные с незнанием языка. Она попадает в Лабаскур, вымышленный город, прототипом которого является Брюссель. И тут Шарлотта Бронте создала целую плеяду женских образов, с которыми сталкивается Люси Сноу и в этих жизненных перипетиях она даёт оценку собственной личности. Хотелось бы акцентировать внимание на Джиневре Фэншо, которая является полной противоположностью главной героини. Джиневра взбалмошная, красивая девушка восемнадцати лет, которая имеет благородное происхождение. Но на этом её достоинства заканчиваются. Её главная цель в жизни – удачно выйти замуж. Она понимает: какая пропасть существует между её жизнью и существованием Люси: «а теперь займемся вами, бедняжка. Полагаю, вы отнюдь не знатного происхождения, поскольку вам пришлось ухаживать за маленькими детьми, когда вы приехали в Виллет; у вас нет родных; вам двадцать три, а это уже не молодость; вы не обладаете ни привлекательностью, ни красотой.» [1, 327] Но обижает ли это Люси? Нет. Она спокойно воспринимает слова легкомысленной девчушки, всегда защищается от её нападок и понимает: мисс Фэншо другой тип женщины, видевший удачное замужество единственный способом «выжить» в обществе. Люси Сноу ясно осознаёт, что мисс Фэншо и другие девушки, с которыми она сталкивается (например, Паулина де Бассомпьер), уже родились с привилегиями, которых она была лишена, поэтому все эти слова не выводили её из душевного равновесия, а лишь показывали: насколько сильно она отличается от остальных героинь романа.

Ранее говорилось о дуализме мировоззрения героинь Шарлотты Бронте. Этот дуализм не обошел стороной и образ Люси Сноу. В её образе прослеживается противостояния эмоций и рассудка. Даже из уст самой героини уже в начале романа мы читаем такую фразу: «я вела как бы две жизни – воображаемую и реальную…» [1, 33] Ш. Фостер описывает дуализм Люси так: «обдуманной стратегией, с помощью которой она может бросить вызов традиционному мужскому отношению к женщине и применить свою женскую силу» ("a deliberate strategy by which she can challenge traditional male attitudes

towards women and exercise her feminine power") [4, с. 105]. С развитием событий характер Люси проявляется еще больше: например, в сцене, где мсье Поль просит её сыграть в школьном спектакле. Она не уверена в себе, плохое знает французский, но всё равно не отказывается, а на просьбу надеть костюм делает так, как считает нужным сама. Справляется ли она со своей ролью? Конечно. И делает это лучше всех остальных. Кажется, что если бы Люси была бы увереннее в своих силах, то смогла бы затмить всех писанных красавиц в Лабаскуре, но ей мешает статус, из-за которого она ведет себя скромно и мало говорит.

Люси Сноу – новый тип героини. Она, привыкшая жить в тени, умеет преодолевать трудности и самовыражаться. В героини мы можем видеть черты самой Шарлотты Бронте. Стоически пережив всё трудности, связанные со своим положением, к концу романа перед нами встаёт независимая Люси Сноу, – давшая отпор мадам Бек, ставшая директрисой школы, независимо живущая и ждущая своего счастья. Будет ли Люси счастлива? Да. Счастье её и реализация будут связаны с признанием и проявлением своих талантов. В этом романе Шарлотта Бронте не пытается показать счастливый финал, который присущ другим её работам. Люси Сноу ждет своего избранного три года, но, когда им суждено воссоединиться происходит трагедия – мсье Поль погибает в море. Открыто об этом не говорится, но из последних глав можно понять, что Люси остается одна.

Это роман о становлении личности женщины, который написан в лучших традициях реалистической прозы. Люси Сноу, не обладая красивой внешностью, привлекает своим внутренним миром, что присущи героиням романов Шарлотты Бронте. На первый план в «Виллет» выдвигается не сюжет, а мысли, эмоции и переживания главной героини при тех или иных жизненных ситуациях.

Литература

1.Бронте, Шарлотта. Виллет: [роман] / Шарлотта Бронте; [перевод с английского Т. Осиной]. -Москва: Издательство АСТ, 2024. -704 с. - (Эксклюзивная классика).
2.Гражданская З. Т. От Шекспира до Шоу: Английские писатели XVI-XX вв. / Т. Гражданская. - М.: Просвещение, 1982. - 192 с.
3. The Brontes: Their Lives, Friendships and Correspondence. Vol. 3 / ed. by T. J. Wise, J. A. Symington. - Oxford: Blackwell, 1980. - 341 p.
4.. Foster Sh. Victorian Women's Fiction: Marriage, Freedom, and the Individual / Sh. Foster. - [S. 1.]: Croom Helm Ltd., 1985. - 240 p.

İsmayılova Sona Taryel

Lüsi Snou - XIX əsrin İngilis romanında yeni bir qəhrəman növü

Xülasə

XIX-cu əsrin birinci yarısının ingilis romanında təkcə yeni bir istiqamətin - realizmin yaranmasına deyil, həm də o dövrün qadın yazıçılarının toxunduğu mövzulara aid dəyişikliklər göstərilir. Bu mövzulardan biri də qadınların emansipasiyası problemidir. Viktoriya dövründə bu problem qadın yazıçılar qalaktikasını çox narahat edirdi, çünki İngiltərədə o dövrdə qadınlar cəmiyyətdə hansı yeri tutduqlarını bilməyən hüquqlarından məhrum şəxslər olaraq qalırdılar. Patriarxal quruluş qadınların həyatına güclü təsir göstərirdi, onların yeganə vəzifəsi yaxşı həyat yoldaşı və ana olmaq idi. Təbii ki, müxtəlif sosial statuslu qadınlar sosial normaları fərqli yaşayıblar. Amma onları müstəqil adlandırmaq çətindir. Məhz qadınların cəmiyyətdəki mövqeyi və hüquqları Bronte bacılarının yaradıcılığında əsas mövzuya çevrildi. Şarlotta, Emili və Anne Bronte qadınların reallığı qavraması obyektivindən qadınlar üçün yazırdılar.

Bu məqalə Şarlotta Brontenin son nəşr olunmuş romanı "Villettenin" baş qəhrəmanına toxunur. Romanın qəhrəmanı Lüsi Snou ingilis ədəbiyyatında yeni obrazdır. Hələ "Villette"dən əvvəl Şarlotta Bronte bizə müstəqil, ağıllı və özünü seçən qəhrəmanlar göstərdi: Jane Eyre, Frances Henry, Shirley Kildare. Lakin yazıçı qadın psixologiyasının bütün ziddiyyətlərini və dərinliyini son qəhrəmanı Lüsi Snouda görsədib.

Açar sözlər: Charlotte Bronte, feminizm, qadın psixologiyası, Viktoriya dövrü, emansipasiya

Ismailova Sona Taryel

SUMMARY

LUCY SNOWE - A NEW TYPE OF HEROINE IN THE ENGLISH NOVEL OF THE XIX CENTURY

In the English novel of the first half of the 19th century, changes are outlined that concern not only the emergence of a new trend - realism, but also the topics touched upon by female writers of that era. One of these topics is the problem of female emancipation. In the Victorian era, this problem greatly worried a galaxy of female writers, since in England at that time women remained disenfranchised individuals who did not know what place they occupied in society. The patriarchal system greatly influenced the lives of women, whose responsibilities included only being a good wife and mother. Of course, women of different social status experienced social norms differently. But it is difficult to call them independent. It was the position of women in society and their rights that became the main theme in the work of the Bronte sisters. Charlotte, Emily and Anne Bronte wrote for women through the prism of women's perception of reality.

This article touches upon the main character of Charlotte Bronte's last novel published during her lifetime, "Villette". The heroine of the novel, Lucy Snowe, is a new image in English literature. Even before Villette, Charlotte Bronte showed us independent, intelligent and self-choosing heroines: Jane Eyre, Frances Henry, Shirley Kildare. But the writer put all the contradictions and depth of female psychology into her last heroine, Lucy Snowe.

Keywords: Charlotte Bronte, feminism, female psychology, Victorian era, emancipation

Rəyçi: filologiya üzrə fəlsəfə doktoru, dosent Nərmin Həsənova

Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu, *ISSN 2224-9257*
Filologiya məsələləri № 3, 2025
Səh. ————————

QASIMOVA SƏDAQƏT NADIR QIZI
Azərbaycan Dövlət Neft və Sənaye Universiteti

BƏXTİYAR VAHABZADƏ YARADICILIĞINDA FƏLSƏFİ DÜŞÜNCƏLƏR

Azərbaycan ədəbiyyatının zirvə şəxsiyyətlərindən biri olan Bəxtiyar Vahabzadə vətənpərvərlik, fəlsəfi düşüncələr, sevgi və insanlıq mövzularında dərin mənalı əsərləri ilə xalqımızın ruhuna toxunmuşdur. Şairin yaradıcılığı milli mədəniyyətin formalaşmasında və inkişafında hər zaman xüsusi rol oynamışdır. Bəxtiyar Vahabzadənin yaradıcılığı müxtəlif janrlar və mövzularla zəngindir. Onun əsərlərində milli özünüdərk, azadlıq, sevgi, fəlsəfə və insanlıq mövzuları üstünlük təşkil edir. Azərbaycan poeziyasının qüdrətli nümayəndələrindən biri olan Bəxtiyar Vahabzadə geniş fəlsəfi dünyagörüşünə, milli və bəşəri düşüncə tərzinə, kamil sənətkarlıq məziyyətlərinə görə böyük Şərq mütəfəkkiridir. Onun yaradıcılığında poetik fikrin, bədii ifadənin fəlsəfi qayəsi bəşəri mahiyyət kəsb edir, o heç vaxt poetik cizgilərin təsviri ilə kifayətlənmir. Şair yaradıcılığı boyu həmişə şeirlərində Vətənini, onun zəhmət adamlarını, təbiətini, insanların daxili aləmini tərənnüm edib. Onun şeirlərində türkçülük, Azərbaycançılıq, xalqına sədaqət, yurduna bağlılıq qeyd olunmalı xüsusiyyətlərdir. Bəxtiyar Vahabzadənin lirikasını üç hissəyə ayırmaq olar: fəlsəfi lirika, məhəbbət lirikası və təbiət lirikası. Fəlsəfi lirika onun poeziyasının əsasını təşkil edir. Bu şeirlərdə şair öz fəlsəfi düşüncəsini oxucularla bölüşür. B.Vahabzadənin fəlsəfi, məhəbbət və təbiət şeirlərinin məzmunu müxtəlifdir: əsl vətəndaş olduğunu sübut edən şeirlər, sevgi şeirləri, vətənə həsr olunmuş şeirlər, təəssüratlardan doğan şeirlər, lirik-fəlsəfi şeirlər, ana haqqında şeirlər, həsrət dolu şeirlər, əlvan şeirlər və s. Şairin yaradıcılığını araşdırdıqda, demək olar ki, bütün şeirlərində dərin fəlsəfi fikirlərin yatdığının şahidi oluruq. Şair "Yaxşı adam" şeirində insan problemini aktual mövzu kimi diqqətə çatdırır. İnsan kimə deyirlər? — bu, şairi düşündürür, oxucudan soruşur:

Yaxşı adam!
Söylə görək
yaxşılığı nədir onun?
Xislətini sayma mənə
bir-bir onun!...

Şeirin struktur təhlilini aparmış olsaq, burada insanlığa verilən tərif yaxşı adama verilən məzmunla üst-üstə düşür.

Xeyirlə şər — yol yoldaşı,
Dayanıbdır ömrümüzlə yan-yanaşı.
Hər insanın cövhərini tanımaqçın
Nədir bizə məslək daşı?

Yaxşı adamlığa cavab kimi şair yaddaşa həkk olunan bu misraların sonunda

«məsləк», «amal», «dil» metaforik-bədii ifadələrini verir. Ümumi nəticə olaraq, şeirin sonunu belə tamamlayır:

Yaxşı adam!
Söylə görək
yaxşılığı nədir onun?
Söylə görək məsləki nə, eşqi nədir?
Qalan şeylər mənim üçün əfsanədir.

Şeirdən göründüyü kimi, yaxşı adam olmağın atributları çoxdur. Şair onlardan az da olsa bəhs edir. Şair özü də yaxşı adam olmaq istəyir.

Zaman haqqında şairin düşüncələri müxtəlifdir. O, gah zamanın insanlar tərəfindən uydurulduğunu, gah da zamanın mücərrədliyindən bəhs edir. Burada şairin zaman düşüncəsi özü mürəkkəbləşən bir anlayışdır.

Nədən məzarlıqda vaxt düşür yada?
Demə o burda da, burda da varmış!
Ölülər məskəni — məzarlıqda da
Zaman, qədəm-qədəm addımlayırmış.

Bəxtiyarın fəlsəfi lirikası «Piyada-sərnişin» şeirində də qorunur. Şair ömürdən keçən illəri fəlsəfi dillə mənalandırır. Bu fəlsəfi lirika oxucunu düşündürəndir. Onu özünə hesabat verməyə çağırır. Şeirdə «yol» semantik məzmundan savayı, məcazi mənalarda da işlənir. Yol — mənzil başına aparır, yol zirvəyə aparır, yol — ömrün sonuna aparır.

Sərnişin yol getdi, yoldan xəbərsiz,
Bilmədi bu yolda kələ-kötür var.
Ancaq piyadanın, xəbər-ətərsiz
Alnında iz açdı getdiyi yollar.

Şair də haqq yolunun yolçusudur. Onun "Nəfs" adlı şeirində hər şeydən əvvəl nəfsə qalib gəlməyin vacibliyi təbliğ olunur. Bütün bəlaların başında nəfsin dayandığını deyən şair yalnız nəfsinə qalib gələn insanın mənəvi rahatlıq tapacağı fikrindədir.

Hər kəsin ürəyindən Allaha bir yol gedir.
Bu yola biganələr özünə biganədir.
Özünü aşmaq üçün, haqqa ulaşmaq üçün
Gərək öncə aşasan nəfs adlı dağları.

"Bu necə dünyadır?", "O nədir?" şeirləri də dərin fəlsəfi fikirlərlə oxucunu düşünməyə məcbur edir. Şair özü də ətrafda baş verənləri təəccüblə qarşılayır. Başa düşmədiyi məqamların onu narahat etdiyi açıq-aydın hiss olunur.

Bu necə dünyadır? Anlamıram mən,
Cilvəsi cürbəcür, rəngi cürbəcür.
Dünən nəfəsi ilə səni isidən,
Bu gün buza dönüb, daşa dönübdür.

B.Vahabzadə "Gecələr" şeirində də bədii təsvir və ifadə vasitələrinin köməyi ilə gecənin fəlsəfi portretini yaradır.

İndi mən qısılmışam gecələrin qoynuna
Boylanıram içimdə gah əvvələ, gah sona.
Gecələr-sığnaq yerim, gecələr-pənah yerim,
Gecələr bir-birilə döyüşən fikirlərim.
İnanardı ağıl da öz içimin səsinə
Şirin xəyallarımın yumşaq mütəkkəsinə
Baş qoyardım bir zaman
Xəyalı gerçək kimi yaşayardım bir zaman.

Ümumiyyətlə, Vahabzadə yaradıcılığında daim hərəkət, fəaliyyət, bitməyən enerji görürük. Şairin emosianal və çılğın təbiəti onun əsərlərinə yansımadan keçə bilməzdi.

O, heç bir şeyə biganə qala bilmir. Hətta biganə insanlara nifrətlə yanaşır. Onun "Gülüstan" poemasında da nə qədər hiddətləndiyinin, etiraz dolu hayqırtısının şahidi oluruq. Şair vətənin bölünməsinə biganə qalan insanları qınayır.

Yadlarmı edəcək bu xalqa imdad?!
Qoy qalxsın ayağa ruhu Tomrisin…
Bəs hanı bu əsrin öz Koroğlusu
Qılınc Koroğlusu, söz Koroğlusu?
Babaların şəni, şərəfi, əlbət,
Bizə əmanətdir, böyük əmanət.

Öz xalqının tarixi faciəsini bədii sənət müstəvisində böyük cəsarətlə canlandıran şair, ilk dəfə olaraq ədəbiyyatımızda milli düşüncənin, milli özünüdərkin təməlini qoydu.

Bəxtiyar Vahabzadənin yaradıcılığında lirik, fəlsəfi, vətənlə bağlı şeirlərlə yanaşı həyat və yaşam mövzulu şeirləri də kifayət qədərdir. "Yaşamaq istəyirəm" adlı şeirində də şair yaltaq və biganə insanlar içərisində yaşamağın dözülməz olduğunu poetik qələmlə təsvir edir. Şair belə insanları ölü canlar adlandırır.

Düşmənə yaltaqlanıb təpəyə dağ deyənə,
"Bu dünyada birtəhər qoy yaşayaq"-deyənə.
Yaşamaq yaşamaqdır! Bəs bu "birtəhər" nədir?
Mən düşmənəm, düşmənəm belə "ölü canlar"a,
Gündən qaçıb həmişə kölgə axtaranlara...
Onlar ortada yeyib, qıraqdası gəzdilər,
Namusu xərcləməkdən, onlar çəkinməzdilər.
Onlar orta yol tutub, nə "hə", nə "yox"- dedilər,
Havaya nə "istidir", nə də "soyuq"- dedilər.
Onlar ölçüb-biçdilər hər bir şeyi dərindən,
Özgəsini hürküdüb, qorxdular özlərindən.

B.Vahabzadənin yaradıcılığına xas olan dərin fəlsəfi ovqat onu əksər çağdaşlarından uzaqlaşdırıb dahi Nizami və Füzuliyə yaxınlaşdıran xüsusiyyətdir. Bədii dildə olan adi informatik deyim tərzi əksər hallarda onun şeirlərində poetikləşir. Həyatın mənasını hərəkətdə, fəaliyyətdə görən şair, milli dilə olan bağlılığını nəinki ümumi məzmunlu şeirlərində ifadə edir, hətta dilçilik terminlərindən də bu məqsəd üçün bir obraz kimi istifadə edir:

İsim, sifət döyüşlərdə çox zaman
karıxar,
feillərsə döyüşlərdən həmişə
qalib çıxar.
Çox sevirəm igid kimi döyüşən
kəlməni mən, sözü mən.
feil olmaq istəyirəm,
düzü, mən...

Şairin feil olmaq istəyində iki məqsəd var: birincisi, doğma sözlərimiz kimi dilə olan sevgisi, ikincisi, feillərin hərəkət bildirməsi.

Görkəmli şairin "Şəbi-Hicran", "Gülüstan", "İstiqlal", "Təzadlar", "Muğam", "Şəhidlər" poemalarındakı dərin fəlsəfi məna, şair qəlbinə sığmayan, aşıb-daşan, vətənpərvərlik hissi, vətən sevgisi oxucunu riqqətə gətirir, yaşanan tarixi hadisələrə biganə qalmağa qoymur. Oxucunu düşünməyə, keçmişdə yaşananlardan dərs çıxarmağa, düşməni yaxşı tanımağa məcbur edir.

Müasir Azərbaycan poeziyasının məşhur nümayəndələrindən olan B.Vahabzadə milyonlarla oxucunun qəlbində taxt qurmuşdur. Biz doğma vətənimizin tarixini, müxəlif dövrlərdə yaşananları onun şeirlərində, poemalarında görə bilərik: Gülüstan sülh müqaviləsi, Böyük Vətən müharibəsi illəri, 1990-cı illərdə yaşananlara həsr olunmuş şeirləri dərin fəlsəfi fikirlərlə yanaşı, həm də tarixdir. Bu əsərlər gələcək nəsillərə dəyərli mirasdır.

Açar sözlər: fəlsəfi fikirlər, şeir, poema, vətənpərvərlik, milli düşüncə.

Xülasə

Bu il 100 illik yubileyi qeyd olunan görkəmli şairimiz Bəxtiyar Vahabzadənin əsərləri hər bir azərbaycanlıya tanışdır. Hər zaman xalqın halına yanan, sevincinə sevinib, kədərinə üzülən şair yaşananları ustalıqla öz şeirlərində əks etdirmişdir. Hətta sovet dövründə senzuradan qorxmayaraq, özünü və yaxınlarını təhlükəyə ataraq xalqımıza qarşı haqsızlığı "Gülüstan" poemasında qələmə almış, haqq səsi ilə dünyaya car çəkmişdir.

B.Vahabzadənin fəlsəfi, məhəbbət və təbiət şeirlərinin məzmunu müxtəlifdir: əsl vətəndaş olduğunu sübut edən şeirlər, sevgi şeirləri, vətənə həsr olunmuş şeirlər, təəssüratlardan doğan şeirlər, lirik-fəlsəfi şeirlər, ana haqqında şeirlər, həsrət dolu şeirlər, əlvan şeirlər və s. Şairin yaradıcılığını araşdırdıqda, demək olar ki, bütün şeirlərində dərin fəlsəfi fikirlərin yatdığının şahidi oluruq.

Резюме

Гасымова Садагат Надир кызы

ФИЛОСОФСКИЕ МЫСЛИ В ТВОРЧЕСТВЕ БАХТИЯРА ВАХАБЗАДЕ

Ключевые слова: философские идеи, поэзия, поэма, патриотизм, национальная мысль.

Творчество нашего выдающегося поэта Бахтияра Вагабзаде, 100-летие которого отмечается в этом году, знакомо каждому азербайджанцу. Поэт, всегда заботившийся о судьбе народа, радовавшийся его радостям и горевавший в его горестях, мастерски отразил события в своих стихах. Даже в советское время, не боясь цензуры, он подвергал себя и своих близких опасности и писал о несправедливости по отношению к нашему народу в поэме «Гюлистан», своим голосом возвещая миру правду.

Содержание философских, любовных и природных стихов Б. Вагабзаде разнообразно: стихи, доказывающие, что он истинный гражданин, любовные стихи, стихи, посвященные родине, стихи, рожденные впечатлениями, лирико-философские стихи, стихи о матери, стихи, полные тоски, красочные стихи и т. д. Рассматривая творчество поэта, мы видим глубокие философские идеи, лежащие в основе почти всех его стихотворений. В данной статье мы рассмотрели несколько стихотворений выдающегося поэта и попытались выделить философские идеи, заложенные в этих стихотворениях.

Summary

Gasimova Sadagat Nadir

PHILOSOPHICAL THOUGHTS IN THE CREATION OF BAKHTIYAR WAHABZADE

Key words: philosophical ideas, poetry, poem, patriotism, national thought.

The works of our outstanding poet Bakhtiyar Vahabzadeh, whose 100th anniversary is celebrated this year, are familiar to every Azerbaijani. The poet, who always felt sorry for the people, rejoiced in their joys and grieved in their sorrows, masterfully reflected the events in his poems. Even during the Soviet era, not afraid of censorship, he put himself and his loved ones in danger and wrote about the injustice against our people in the poem "Gulustan" and proclaimed the truth to the world with his voice.

Rəyçi: Könül Abdullayeva (ADNSU, Humanitar fənlər kafedrası)

Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu, *ISSN 2224-9257*
Filologiya məsələləri № 3, 2025
Səh. ————————

İÇİNDƏKİLƏR:

DİLÇİLİK

HƏQİQƏT MEHDİYEVA
ALMAN DILI QRAMMATIKASININ TƏDRISINDƏ
MÜXTƏLIF METODLARDAN ISTIFADƏ 3

GÜNEL EYVAZLI İMRAN
KOMMUNİKATİV FRAZEOLOJİ VAHİDLƏR VƏ ONLARIN STRUKTUR-SEMANTİK
NÖVLƏRİ.....11

SƏİDƏ VERDİYEVA
SOME REQUIREMENTS FOR A CONTEMPORARY
FOREIGN LANGUAGE TEACHER 18

ZEMFİRA MƏMMƏDOVA ƏLƏKBƏR QIZI
ŞƏHLA MƏMMƏDOVA YUSİF QIZI
İNGİLİS VƏ AZƏRBAYCAN DİLLƏRİNDƏ SÖZ SIRASI.....24

CƏFƏRLİ ƏSMƏR. M.
"QƏLƏBƏ" KONSEPTİNƏ PSİXOLİNQVİSTİK YANAŞMA.....29

HƏQİQƏT MEHDİYEVA
TƏBABƏTDƏ İŞLƏDİLƏN ALMAN DİLİ MƏNŞƏLİ TİBB TERMİNLƏRİNİN
AZƏRBAYCAN DİLİ TERMİNALOQİYASINDA YERİ.....40

VÜSALƏ FİKRƏT QIZI ƏLİYEVA
FRANSIZ DİLİNDƏ LEKSİK MATERIALIN MÜASİR
ÜSULLARLA TƏLƏBƏLƏRƏ İZAHI 45

АБДУЛРАГИМОВА ГОНЧА ВАСИФ
РОЛЬ ГЛОБАЛИЗАЦИИ И ИНТЕРНЕТА В ПРОНИКНОВЕНИИ АНГЛИЦИЗМОВ
В СОВРЕМЕННОМ НЕМЕЦКОМ ЯЗЫКЕ.....56

MƏTANƏT BƏKİR QIZI ƏMRAHOVA
ИССЛЕДОВАНИЕ ЗАПАДНЫХ ДИАЛЕКТОВ АЗЕРБАЙДЖАНСКОГО ЯЗЫКА 68

PUTAYEVA ELNARƏ ELDAR
TƏNQİDİ TƏFƏKKÜRÜN ÖYRƏNMƏ PROSESİNƏ İNTEQRASİYASINA DAİR 76

ŞAHNAZXANIM ŞÜKÜRZADƏ
MƏKTƏBDƏ QEYRI-VERBAL KOMMUNIKASIYA: MƏSAFƏ,
JESTLƏR VƏ MIMIKA, GEYIM VƏ GÖRÜNÜŞ 83

SƏMRA NAMİQ QIZI HƏSƏNZADƏ
METAFOR ANLAYIŞI: KONSEPTUAL YANAŞMADAN
SİSTEMLİ FUNKSIONAL TƏHLİLƏ 90

EMÇİYEVA VƏFA ƏLİŞAD QIZI
FRAZEOLOGİ BİRLƏŞMƏLƏRİN AZƏRBAYCAN VƏ İNGİLİS DİLLƏRİNDƏ
VARİATİVLİYİ..... 95

ZƏMINƏ MUSTAFAYEVA
MÜRƏKKƏB CÜMLƏ PREDİKATİVLİK ASPEKTDƏN 101

XANIZADƏ PƏRVANƏ OLXAN Q.
FRANSIZ DİLİNDƏ NOMİNATIF-FEL KONSTRUKSIYALI FRAZEOLOJİ
BİRLƏŞMƏLƏRİN TƏRCÜMƏSİ MƏSLƏLƏRİ..... 106

САФАРОВА ХУРАМАН РАХМАН ГЫЗЫ
О НЕКОТОРЫХ АСПЕКТАХ РАЗВИТИЯ НАВЫКОВ САМОСТОЯТЕЛЬНОГО
МЫШЛЕНИЯ В ПРОЦЕССЕ ОБУЧЕНИЯ АНГЛИЙСКОМУ ЯЗЫКУ
СТУДЕНТОВ-МЕЖДУНАРОДНИКОВ В АЗЕРБАЙДЖАНЕ..... 116

GÜLNARƏ RAUF QIZI ƏFƏNDİYEVA
İSPAN DİLİNİN LATIN AMERİKA VARİANTININ FƏRQLİ XÜSUSİYYƏTLƏRİ..... 124

ƏSGƏROVA KƏMALƏ TOFIQ QIZI
AZƏRBAYCAN VƏ İNGİLİS DİLLƏRİNDƏ MƏTNLƏRİN YARANMASINDA
SİTATLARIN ROLU..... 133

SULTAN XATIRƏ
DİLDƏ BAŞ VERƏN SEMANTİK DƏYİŞMƏLƏRİN
MEXANİZMLƏRİ VƏ SƏBƏBLƏRİ 139

İSAYEVA SƏFURƏ İLQAR QIZI
FONOLOJİ SƏVİYYƏDƏ QƏNAƏT-REDUKSİYA 146

OQTAY CƏLİLBƏYLİ
MƏRYƏM XOCANƏZƏRZADƏ
AZƏRBAYCAN VƏ YAPON DİLLƏRİNDƏ TABESİZ MÜRƏKKƏB CÜMLƏLƏRİN
MÜQAYİSƏLİ TƏDQİQİ 154

SEVİNC SƏYYAD QIZI HƏMƏYEVA
Ə. HAQVERDİYEV VƏ HAUPTMAN YARADICILIĞINDA SƏSLƏŞMƏLƏR..... 161

УЛЬКЕР ДЖАВАДОВА ЯГУБ КЫЗЫ
УНИВЕРСАЛЬНОСТЬ КОНЦЕПТУАЛЬНОГО ПОЛЯ ПОНЯТИЯ «ГЕНДЕР» И ЕЕ
МЕТАКОНЦЕПТНАЯ СУЩНОСТЬ..... 166

ADİKƏ ALMƏMMƏDOVA
XƏTAİ TƏBRİZİNİN “YUSİF VƏ ZÜLEYXA” ƏSƏRİNDƏ FONETİK DƏYİŞİKLİYƏ
UĞRAMIŞ ƏVƏZLİKLƏR..... 173

AYNUR TURABOVA
ATALAR SÖZLƏRİ VƏ ZƏRB- MƏSƏLLƏRDƏ
İŞLƏNƏN FİTONİM VƏ ZOONİMLƏR 181

QƏNİRƏ MƏHƏMMƏDƏLI ALLAHVERDIYEVA
KONSEPT VƏ ONUN SEMANTİK BAZASI 188

SƏFƏROVA AYSEL VƏLIYULLA QIZI
TƏRKİBİNDƏ "MONEY" SÖZÜ OLAN İNGİLİS FRAZEOLOJİ VAHİDLƏRİNİN
SEMANTİK XÜSUSİYYƏTLƏRİ 195

ÜLKƏR ZAKİR QIZI ƏFƏNDİYEVA
QAZAX VƏ QIRĞIZ DİLLƏRİNDƏ "ҚАЛПАҚ/КАЛПАК"
BAŞ GEYİMİ VƏ NÖVLƏRİNİN ADLARI 202

ŞÜKÜRZADƏ ŞAHNAZXANIM
MƏKTƏBDƏ OPTİK ÜNSİYYƏT: MÜƏLLİMİN BƏDƏN DİLİ 211

GAMARLI SAIDA KHAMIS
UKLEYN DIANA YURYEVNA
THE ROLE OF IDIOMS IN THE ENGLISH LANGUAGE 218

SƏYYARƏ QƏHRAMANOVA
SEVİNC RƏHMANOVA
DİLÇİLİK ELMİ ÜÇÜN DİL VƏ İDRAK PROSESİNİN HƏLLİ YOLLARI 225

ABBASOVA RƏŞADƏ MƏHƏMMƏDƏLI QIZI
ALMAN DİLİNDƏ KONYUKTİVİN İFADƏ VASİTƏLƏRİNİN TƏHLİLİ 231

ƏLIYEVA LƏTAFƏT ƏLIŞAH QIZI
ENANTİOSEMİK MƏNANIN KONTEKSTDƏ AKTİVLİYİ 237

BAYRAMOVA ARZU ASTAN QIZI
AZƏRBAYCAN DİLİNDƏ SÖZ BİRLƏŞMƏLƏRİ, SİNTAKTİK ƏLAQƏLƏR
VƏ ONLARIN TƏDQİQİ 246

NIGAR NAMIG ABILOVA
CRITICAL THINKING IN THE EFL CLASSROOM: ENGAGING AND
EMPOWERING STUDENTS 257

НАИЛЯ ЮСИФОВА
ТРАНСФОРМАЦИЯ ТОПОНИМОВ И ОБРАЗОВАНИЕ
ТОПОНИМИЧЕСКОГО ФОНДА 265

AFSANA .R.BASHIRZADE
İNGILIS ƏDƏBIYYATINDA INTIBAH DÖVRÜNÜN ƏSAS XÜSUSIYYƏTLƏRI 273

NURANƏ ELMAN QIZI MƏMMƏDLİ
MÜASİR TÜRK VƏ AZƏRBAYCAN DİLLƏRİNDƏ SİYASİ TERMİNOLOGİYANIN ROLU VƏ ÜSLUBİ XÜSUSİYYƏTLƏRİ 279

ZƏHRA MAQSUD QIZI QOCAYEVA
DİLDƏ ÇOXMƏNALILIQ..... 284

ƏLİZADƏ TAMARA ŞƏRBƏT Q.
İMANOVA İRADƏ İSA QIZI
BİR DÜNYADA MİN SƏS: QLOBALLAŞMA VƏ MULTİKULTURALİZM 289

NAĞIYEVA DÜRDANƏ
ƏLIYEVA İRADƏ BƏBIR QIZI
ƏCNƏBİ DİLİN ÖYRƏNİLMƏSİNDƏ LEKSİKA VƏ ONUN TƏDRİSİ 294

ƏHMƏDOVA AYTƏN ARZULLA qızı
İNVERSİYA POETİZM YARADAN ÜSLUBİ FİQUR KİMİ 299

TURAL RÖVŞƏN OĞLU ƏSKƏROV
NƏBİ XƏZRİ LİRİKASINDA SİNONİMLƏRİN FUNKSİONALLIĞI 306

SADIXOVA SARIGÜL ORUC
İNGİLİS DİLİNDƏ SUFFİKSLƏRİN TƏHLİLİ 311

AYGÜL EYYUBOVA
TƏDRISDƏ OXU TƏLIMINDƏ INTERAKTIVLIK PRINSIPININTƏTBIQI VƏ LEKSIK VAHIDLƏRIN MƏNIMSƏNILMƏSI YOLLARI. 316

NAİBOV CAVİD HƏZİ OĞLU
İNNOVASIYALI İSTEHSALIN İDARƏ EDİLMƏSİNDƏ VERİLƏNLƏR BAZASINA ƏSASLANAN YANAŞMALARIN NƏZƏRİ ƏSASLARI 326

MƏMMƏDLİ SAHİB FAİQ OĞLU
FOND BAZARINDA SÜNI INTELLEKT:İNVESTISIYA QƏRARLARI VƏ AVTOMATLAŞDIRILMA ILƏ BAĞLI TENDESIYALAR..... 331

YASIN BABAZADƏ
FRAZEOLOGİZMLƏRİN BƏDİİ-ESTETİK YÜKÜ VƏ İNGİLİS DİLİNƏ TƏRCÜMƏDƏ MƏNA-FORMA MÜNASİBƏTLƏRİ (MÜASİR AZƏRBAYCAN POEZİYASI NÜMUNƏSİNDƏ) 338

GÜNEL CEYHUN QIZI ZÖHRABOVA
ADLAR VƏ ONLARIN AZƏRBAYCAN DİLÇİLİYİNDƏ ÖYRƏNİLMƏSİ 344

НАДЖАФОВА САБИНА ДЖАМАЛ
СЛОВООБРАЗОВАТЕЛЬНЫЕ МОДЕЛИ НЕКОТОРЫХ ОТЗООНИМИЧЕСКИХ ДЕРИВАТОВ 350

AYSU ZAUR QIZI BABAYEVA
XXI ƏSR İNGİLİSDİLLİ MEDİA MƏTNLƏRİNDƏ NEOLOGİZMLƏRİN FUNKSİONAL-ÜSLUBİ TƏHLİLİ 357

HACIYEVA YAQUT MÜBARIZ QIZI
BALAŞ AZƏROĞLU POEZIYASINDA DİALEKTIZMLƏR 364

İMANOVA İRADƏ İSA QIZI
ALLAHVERDİYEVA FƏRİDƏ HÜSEYN QIZI
QLOBALLAŞAN DÜNYA VƏ AZƏRBAYCAN MƏDƏNİYYƏTİ 370

GUNAY ASADOVA
PRONOUNS AND CULTURAL IDENTITY IN MULTILINGUAL YOUTH: A SOCIOLINGUISTIC ANALYSIS OF POWER, BELONGING, AND EXPRESSION 376

MƏMMƏDOVA ELNARƏ ADİL QIZI
HACIYEVA NATƏVAN HAVAR
BƏXTİYAR VAHABZADƏ VƏ ANA DİLİMİZ 381

GÜLBƏNIZ MƏHƏMMƏD QIZI İSMAYILZADƏ
İŞGÜZAR KOMMUNİKASİYADA ELEKTRON YAZIŞMALARIN APARILMASI QAYDALARI 386

MƏHYƏDDINOVA KÖNÜL MƏHƏRRƏM
MİLLİ VƏ ALINMA İXTİSARLARIN DİLDƏ İFADƏSİ 396

MAYA PASHA AHMADLI
THE REFLEXIVE VOICE IN AZERBIJANI AND ITS EQUIVALENT IN ENGLISH 402

ƏDƏBİYYATŞÜNASLIQ

QULİYEVA PƏRVANƏ ELMAR QIZI
SARI AŞIĞIN CINASLI BAYATILARI 407

XALİDƏ ŞAİQQIZI (MƏMMƏDOVA)
SALMAN MÜMTAZIN XALQ ƏDƏBİYYATI SEVGİSİ 413

XURAMAN QƏDİMOVA
TÜRK ƏDƏBİ TƏNQİDİNİN İLKİN TARİXİ MƏRHƏLƏLƏRİ BARƏDƏ 421

HƏSƏNOVA GÜLZAR ƏLIF QIZI
HƏRBİ PSİXO-PEDOQOJİ PROSES VƏ ONUN ÖZÜNƏMƏXSUSLUĞU 434

ALLAHVERDI ŞÖLƏ QARA QIZI
TOM STOPPARDIN "AYRI HÜZUR" PYESİ ABSURD TEATR KONTEKSTİNDƏ 443

RƏQSANƏ QALIB QIZI SÜLEYMAN
ƏDƏBİ TƏNQİD VƏ ŞƏRHÇİLİK: BƏDİİ ƏSƏRDƏ PEŞƏKAR TƏNQİD
VƏ OXUCU TƏNQİDİ TEXNİKASI 449

ŞAKİR CƏFƏROV,
MİR CƏLALIN BƏDİİ YARADICILIĞI ƏDƏBİYYATŞÜNASLIQ ELMİNDƏ.....454

LAMİYƏ ƏLİYEVA
RESTROSPEKTİV BİBLİOQRAFİK RESURS UŞAQ ƏDƏBİYYATINA
DAİR MİLLİ SƏNƏD ELEMENTİNİN YADDAŞI KİMİ 461

KƏMALƏ TƏHSİN qızı KƏRİMOVA (MÜCTƏHİDZADƏ)
BOLU ABANT İZZƏT BAYSAL ÜNİVERSİTETİ, YABANCI DİLLƏR YÜKSƏKOKULU,
MÜTƏRCİM VƏ TƏRCÜMANLIK BÖLÜMÜ/TÜRKİYƏ 467

ƏLİYEV ZAKİR ƏLİSAHİB OĞLU
AZƏRBAYCAN MUĞAMLARININ FOLKLOR MUSİQİSİNDƏ ROLU 474

NURAN RƏHMANZADƏ
ZAMANLARARASI YARADICI TƏFƏKKÜR: İHSAN OKTAY ANAR VƏ
ƏDƏBIYYATIN SƏRHƏDLƏRI 480

GÜLÇİN HİKMƏT QIZI ALLAHVERDİYEVA
MÜHACİRƏTDƏ YAŞAYAN İRS: XX ƏSR AZƏRBAYCAN
ZİYALILARININ ƏDƏBİ-MƏDƏNİ MÜBARİZƏSİ 489

ИСМАИЛОВА СОНА ТАРИЕЛ
ЛЮСИ СНОУ - НОВЫЙ ТИП ГЕРОИНИ
В АНГЛИЙСКОМ РОМАНЕ XIX ВЕКА 494

QASIMOVA SƏDAQƏT NADIR QIZI
BƏXTİYAR VAHABZADƏ YARADICILIĞINDA FƏLSƏFİ DÜŞÜNCƏLƏR.....501

“Elm və təhsil” nəşriyyatının direktoru:
İNAL MƏMMƏDLİ

Çapa imzalanmış 02.05.2025
Şərti çap vərəqi 32. Sifariş № 258
Kağız formatı 60x84 1/16. Tiraj 500

Kitab “Elm və təhsil” nəşriyyat-poliqrafiya
müəssisəsində nəşr olunmuşdur.
E-mail: elm.ve.tehsil@mail.ru
Tel: 497-16-32; 050-311-41-89
Ünvan: Bakı, İçərişəhər, 3-cü Maqomayev 8 /4